İCMALLAR- ОБЗОРЫ

QALXANVARİ VƏZİN AUTOİMMUN XƏSTƏLİKLƏRİ VƏ ANEMİYA

F.X. Saidova, J.B. Aslanova, R.H.Hüseynov
M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi, Bakı

Açar sözlər: anemiya, qalxanvari vəz, autoimmun xəstəliklər
Ключевые слова: анемия, щитовидная железа, аутоиммунные заболевания
Keywords: anemia, thyroid, autoimmune diseases

Anemiya - klinik-hematoloji sindrom olub, hemoqlobinin konsentrasiyasının aşağı düşməsi və əksər hallard, bir həcm vahidində eritrosit və hemoqlobinin azalması ilə xarakterizə olunur.

Anemiya yer kürəsinin əhalisinin ümumilikdə 10-20 %-də aşkar edilib, reproduktiv yaş dövründə olan qadınlar və uşaqlarda isə 40-50% halda qeydə alınır [1,2]. Bütün anemiyaların 70% -90%-ni dəmir defisitli anemiya təşkil edir. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) göstəricilərinə əsasən dəmir defisitli anemiyalar (DDA) 38 ən geniş yayılmış xəstəliklər arasında ilk sıralarda durur. Son illər bu göstəricilər azalmaq əvəzinə, əksinə bəzi regionlarda artmaqda davam edir [3]. ÜST ekspertləri qeyd edirlər ki, anemiyanın 40%-dən yüksək yayılma tezliyi artıq onu təkcə tibbi problem kimi deyil, həm də sosial problem kimi qarşıya qoyur [4].

ÜST anemiyanın diaqnostikası üçün qarşıya qoyduğu meyarlar hemoqlobinin 130 q/l-dən və hemotokritin 39%-dən az olmasıdır. Qadınlarda hemoqlobinin səviyyəsi 120 q/l (hamilələrdə 110 q/l) və hematokritin 36%-dən az olması anemiya hesab edilir. Hemoqlobinin aşağı düşmə dərəcəsindən asılı olaraq anemiyaların ağırıq dərəcəsi təyin edilir: yüngül dərəcəli- hemoqlobin 90q/l-dən yuxarı; orta dərəcə- hemoqlobin- 90-70 q/l arasında; ağır anemiya- hemoqlobin 70 q/l-dən aşağ olması.

2012-ci ildə ÜST anemiyanın meyarlarına dair dərc etdirdiyi məlumatda anemiyanın aşağıdakı təsnifat sistemini vermişdir:

- posthemorragik anemiyalar (kəskin və xronik)
- eritropoezin pozulması nəticəsində baş verən anemiyalar
- hipoxrom- dəmir defisitli anemiyalar
- normoxrom anemiyalar - xronik iltihabi xəstəliklər, xronik böyrək çatışmazlığı, onkoloji xsətəliklər və sümük iliyində şişin metastazları nəticəsində baş verən anemiyalar;
- hiperxrom anemiyalar- B12 və fol turşusu çatışmazlığı anemiyaları
- eritrositlərin güclü dağılması nəticəsində baş verən anemiyalar (hemolitik anemiya).

Patogenezindən asılı olaraq anemiyalar 3 əsas qrupa ayrılır:

1.Posthemorragik anemiyalar (kəskin və xronik).
2.Hemolitik (anadangəlmə və qazanılmış).
3.Sümük iliyinin qanyaratma funksiyası ilə əlaqədar olan dizeritropoetik anemiya.

Eritrositlərin ölçüsündən asılı olaraq aşağıdakı növ anemiyalar vardır:

1.Normositar (7,2-8,3mkm)
2. Mikrositar (7,2 mkm-dən aşağı)
3. Makrositar (9-12 mkm)
4. Meqalositar (12-15 mkm).

Klinik praktikada bu təsnifatların tətbiqi, şübhəsiz ki, dolğun diaqnozun qoyulmasına, eləcə də xəstəliyin ağırlıq dərəcəsini obyektiv qiymətləndirməyə və onun proqnozunu müəyyən etməyə imkan verir.

Anemiyalar qarışıq təbiətli də ola bilər. Çox zaman dəmir defisitli anemiya ilə B12 vitamin defisitli anemiyanın müştərək formalarına rast gəlinir. Əksər hallarda anemiya sərbəst nozoloji vahid kim deyil, başqa bir xəstəliyin simptomu şəklində müşahidə edilir [2,5]. Anemiyanın ən geniş yayılmış formalarından biri də xronik xəstəliklər və ya xronik iltihab anemiyasıdır. Belə anemiyalar hüceyrə immuniteti xroniki şəkildə aktivləşmiş xəstələrdə qeydə alınır və 1-2 ay davam edə bilir. Bu anemiya növünün rastgəlmə tezliyi bir sıra xronik xəstəliklər zamanı hətta 100%-ə qədər çata bilər [6,7]. Yayılma dərəcəsinə görə xroniki xəstəliklər fonunda yaranan anemiya dəmir defisitli anemiyadan sonra ikinci yeri tutur [6,7].

Terapevtik praktikada anemik sindroma daha çox birləşdirici toxumanın sistem xəstəlikləri (revamtoid artrit, sistem qırmızı qurdeşənəyi, sistem vaskulitlər), mədə-bağırsaq sisteminin xəstəlikləri (xora xəstəliyi, Kron xəstəliyi, qeyri-spesifik xoralı kolit) qaraciyər və böyrək xəstəlikləri (ilk növbədə xronik böyrək çatışmazlığı), xronik infeksion xəstəliklər və istənilən lokalizasiyalı bədxassəli şişlər zamanı rast gəlinir. Hal hazırda məlumdur ki, anemiya qalxanvari vəzin (QV) funksiyasına təsir göstərir, QV autoimmun xəstəlikləri isə anemiyanın yaranmasına səbəb ola bilər.

Hazırda endokrinologiyanın ən aktual məsələlərindən biri autoimmun genezli endokrinopatiyalardır. Bura həm autoimmun şəkərli diabet, həm də autoimmun tireopatiyalar (xronik autoimmun tireoidit və diffuz toksiki zob) aid edilir [8,9]. Xronik xəstəliklərə aid edilən autoimmun endokrinopatiyalar zamanı autoaqressiv reaksiyalar inkişaf edir ki, bunlar da hormon ifraz edən endokrin vəzilərin disfunksiyasına gətirib orqanspesifik çıxarır. Problemin aktuallığı həm bu xəstəliklərin yüksək səviyyəsi, həm də patoloji prosesə cəlb olunan orqan və sistemlərin çoxluğu ilə bağlıdır. Bütün bunlar öz növbəsində xəstələrin həyat keyfiyyətinin pisləşməsinə, əmək qabiliyyətinin itirilməsinə gətirib çıxarır [10].

Qalxanvari vəzin xəstəlikləri qadınlarda kişilərə nisbətən 10-17 dəfə çox olur [11,12]. QV autoimmun xəstəlikləri elmi və klinik əhəmiyyət kəsb edən bir problemdir. Onların inkişaf riski 80% hallarda genetik meyillik ilə bağlıdır, yalnız 20% halda ətraf mühit amilləri zəmin yaradır [13,14,15,16,17,18,19,20,21]. Əhalinin 1%-ə qədəri bu xəstəlikdən əziyyət çəkir [22]. Başqa müəlliflərə görə ümumi populyasiyada QV autoimmun patologiyalarının, məsələn diffuz toksiki zobun (DTZ) yayılma tezliyi 0,1-2% təşkil edir, reproduktiv yaşda olan qadın populyasiyasında isə 0,5%-ə qədərdir (23,12). Autoimmun tireoiditin (AİT) aşkar edilmə tezliyi bütün yaşlı əhali arasında 2% təşkil edir, 60 yaşdan yuxarı qadınlar arasında isə 10%-ə çatır [24]. Hazırda AİT qalxanvari vəzinin ən geniş yayılmış xəstəliklərindən biri olub, bütün tireoid patologiyanın 46%-ni təşkil edir [25]. AİT ilə xəstələnmə dərəcəsində azalma tendensiyası qeydə alınmır, əskinə son 6-10 il ərzində hətta 10 dəfəyə qədər artmışdır [25]. Məlumdur ki, qalxanvari vəzinin autoimmun xəstəliklər 35-60 yaşlarda olan qadınlarda debüt edir, lakin son illərin göstəricilərinə əsasən xəstəliyin "cavanlaşdığı" məlum olmuşdur [26].

XX əsrin ikinci yarısından immunologiyanın inkişaf etməsi ilə əlaqədar R.Volpe [27] nəzəriyyəsi meydana gəlmişdir. Bu nəzəriyyəyə əsasən diffuz toksik zobun yaranması limfositlərin miqdar və aktivlik göstəriciləri üzərində immunoloji nəzarətin pozulması ilə bağlıdır. İmmun tənzimlənmənin pozulması nəticəsində T-limfosit-supressorların defisiti meydana gəlir ki, bu da tireositləri məhv edən T-limfosit-killerləri "qadağan olunmuş" klonlarının sağ qalmasına səbəb olur. Onların məhv olması nəticəsində tireoqlobulinlər və tireoperoksidaza azad olur ki, onlar da B-limfositlər vasitəsilə anticisimlərin yaranmasını stimullaşdırırlar. T-limfosit-killerlər bu anticisimlərlə birgə tireositlərə qarşı aqressiv təsiri gücləndirərək, qalxanvari vəzidə artıq mövcud olan strutkur dəyişikliklərini dərinləşdirir. Qalxanvari vəzidə struktur dəyişiklikləri onun funksional aktivliyində də pozuntuların baş verməsinə səbəb olur. Bundan başqa, T-limfosit-helperlərin təsiri ilə aktivləşən B-limfositlər TTH reseptorlarına qarşı anticisimlər yaradırlar. Bunlar da tireosit reseptorlarını blokadaya alırlar. Nəticədə tireoid hormonların sintezi aşağı düşür ki, bu da qalxanvari vəzi disfunksiyasına gətirib çıxarır [28,21,29]. DTZ və AİT eyni autoimmun təbiətə malik xəstəliklərdir, lakin onların klinik gedişi bir-birindən nəzərəçarpaq dərəcədə fərqlənib, autoimmun reaksiyaların spektrindən asılı olur. Məsələn, DTZ olan xəstələrdə TTH reseptorlarını stimullaşdıran, AİT olduqda isə TTH-reseptorlarını blokadaya alan və sitotoksik anticisimlər üstünlük təşkil edir.

DTZ zamanı autoimmun proses qalxanvari vəzə infiltrasiya edən və tireoid toxumalara qarşı anticisimlərin yaranmasına səbəb olan limfositlərin proliferasiyasına gətirib çıxarır. Bu anticisimlər arasında qalxanvari vəzin funksional aktivliyini stimullaşdıran anticisimlər üstünlük təşkil edir. Nəticə etibarilə vəzin hiperfunksiya və hiperplaziyası inkişaf edir [30,31,32,33,34]. Autoimmun tireoidit qalxanvari vəzin funksiyasının itirilməsi və qanda tireoid hormonların səviyyəsinin aşağı düşməsi ilə assosiasiya olunur [35,36,37].

Ümumiyyətlə, yuxarıda adı çəkilən xəstəliklərin əsasını orqanizmin öz antigenlərinə qarşı tolerantlığının pozulması ilə biruzə verən autoimmuntetdə olan dəyişikliklər təşkil edir ki. Nəticədə orqanizmin normal toxumaları yad toxumalar kimi qəbul olunur və onlara qarşı immun cavab inkişaf edir [38]. Sintez olunan autoanticisimlərin immunoloji spesifikliyi autoimmun xəstəliklərin orqan-spesifik və orqan qeyri-spesifik xəstəliklərə ayrılmasına zəmin yaradır [38]. Orqan spesifik autoimmun xəstəliklərin əsas nümayəndələri endokrin xəstəliklərdir (AİT, DTZ).

Autoimmun tireoiditin və diffuz toksiki zobun patogenezində əsas yeri immun sistemdə baş verən dəyişikliklər tutur [33,39,40,41,42,43]. Lakin immunoloji göstəricilərin dəyişməsi haqqında olan məlumatlar ziddiyyətlidir. Autoimmun xəstəliklər zamanı autoimmun reaksiyaların inkişaf etməsi bir tərəfdən T-supressorlarla tənzimlənən hüceyrələrin aktivliyinin aşağı düşməsi (interleykin İL-1 və tipik boy faktoru

TFR-β çatışmazlığı), digər tərəfdən autoreaktiv limfositləri aktivləşdirən stimullaşdırıcı molekulların,eləcə də iltihabönü sitokinlərin (İFN- -γ, İL-17), sintezi ilə bağlı olur [44,29,45]. Lakin DTZ zamanı anticisimlər tireositlərin boyüməsinə və hormonun sintezinin stimulyasiyasına səbəb olursa, AİT zamanı isə komplement olduğu halda birbaşa sitotoksik effekt törədir. Bundan başqa, bu xəstəlik zamanı tireositlərin apoptoz qabiliyyəti müxtəlif olur [46]. Beləliklə, AİT və DTZ zamanı xəstələrin immun statusunun vəziyyəti müxtəlifdir, bu da autoimmun proseslərdə iştirak edən edən bioloji aktiv maddələrin təsiri , eləcə də tireotrop hormonun müxtəlif səviyyəsi ilə özünü göstərir.

Məlumdur ki, AİT və DTZ patogenezi oxşar immunoloji mexanizmlər üzrə inkişaf edir. Xüsusilə, qalxanavari vəzin limfositar infiltrasiyası və geniş spektrli sitokinlərin sintezi ilə müşahidə olunur. Bununla yanaşı, bu patologiyaların klinik təzahürü autoreaktiv proseslərin spesifik mexanizmlərinin reallaşdığını göstərir. Hesab edilir ki, autoimmun tireoidit əsasən Th-1 profilli sitokinlərin sintezinin üstünlüyü olan (o cümlədən İL-2), Th-1 tipli immun cavab ilə gedir, hansı ki, immunkompetent hüceyrələrin tireositlərə sitotoksik təsirinə və gələcəkdə qalxanvari vəzinin hipofunksiyasına səbəb olur. Qreyvs xəstəliyinin patogenezində isə Th2- immun cavabı (İL-4 produksiyası ilə əlaqədar olaraq) mexanizmi ilə getdir. Bu da tireotrop hormon reseptorlarına qarşı autoanticisimlərin yaranmasına və vəz tərəfindən sintez olunan tireoid hormonların artmasına gətirib çıxarır [47]. Klinik təcrübədən məlum olduğu kimi, qalxanvari vəzidə AİT və DTZ üçün xarakterik olan proseslər müştərək gedə bilər. DTZ ilə AİT-in müştərək gedişi zamanı funksional fəaliyyətdə olan parenxima həcminin azalması ilə əlaqədar spontan remissiyasının rastgəlmə tezliyinin nisbi artımı bu fikri təsdiq edir. Bu hal ya follikulyar epitelə sitotoksik reaksiyaların üstünlük təşkil etməsi və yaxud sitokinlər tərəfindən induksiya olunan tireositlərin apoptozunun aktivləşməsi səbəbindən baş verir.

Hemopoez sistemin qalxanvari vəzin bəzi xəstəliklərinə təsiri çoxdan məlum olsa da qalxanvari vəzidə autoimmun proseslər ilə hematoloji xəstəliklər arasında əlaqələr son illərdə daha geniş öyrənilmişdir [48].

Qalxanvari vəzi funksiyası pozulduqda bu əlaqələr daha aydın özünü göstərir. Hipertireoza meyillilik zamanı əksər hallarda eritrositoz müşahidə edilir. Bariz tireotoksikoz olduqda isə, anemiya, limfositoz, limfadenopatiya və dalağın böyüməsi, eləcə də eozinofiliya, qranulositopeniya, trombositopeniya aşkar edilir. Bununla yanaşı olaraq, bəzi müəlliflər hesab edirlər ki, DTZ zamanı ilkin hipokoaqulyasiya başlayır, digərləri isə tam buna əks fikirdədirlər [49].

Bariz hipotireoz da hemopoezə az təsir göstərmir - hipoplastik anemiya və onun bəzi növləri, leykopeniya, neytrofillərin hiperseqmentasiyası, trombositopeniya, həmçinin dəridə, selikli qişada və beyində xırda hemorragiyalara meyillilik olur. Bundan başqa, hipotireoz zamanı qanın laxtalanma sistemində pozulmalar qeydə alınır: fibrinolitik aktivliyin və laxtalanmanın VII faktorunun səviyyəsinin enməsi. Əksər hallarda bu dəyişikliklər silinmiş xarakter daşıyıb, qalxanvari vəzidə proseslərin nəzərə çarpma dərəcəsindən və sümük iliyinin potensial imkanlarından asılı olur.

AİT və subklinik hipotireoz zamanı dəmir mübadiləsinin pozulması və anemik sindromun tezliyi haqqında olan məlumatlara çox az rast gəldik. Lakin əldə etdiyimiz materiallardan məlum olmuşdur ki, manifest hipotireoz zamanı belə dəyişikliklərin müəyyən edilməsi, onların hemodinamik və ürək-damar sistemi pozuntularında rolu artıq məlumdur. AİT və subklinik hipoteriozun sideropenik sindromun inkişafı arasında əlaqə göstərilmişdir ki, bu da anemiyanın müxtəlif təzahür dərəcələrində tireoid hormonlarının öyrənilməsinin məqsədəuyğun edir.

İmmun sistemində və lipidlərin peroksidləşməsi ilə baş verən proseslərin hemostazdakı dəyişikliklər ilə sıx bağlı olduğu heç bir şübhə doğurmur [22].

Eyni zamanda həm immunitetin, həm də hemostazın vəziyyətini xarakterizə edən limfositar-trombositar adgeziya (LTA) testi son illər klinik təcrübədə uğurla tətbiq edilir [50,51]. Həmçinin, müəyyən edilmişdir ki, eritrositlər trombositlər və leykositlərlə qarşılıqlı əlaqəyə girərək [52], leykositar-eritositar (LAE) və eritrositar-trombositar aqreqatlar (ETA) yaradırlar. Belə aqreqatlar meydana gəldikdə eritrositlərin parçalanması və plazmaya prokoaqulyantların azad olması baş verir [51]. Lakin son illərə qədər DTZ bu götəricilər öyrənilməmişdir. Bununla yanaşı, DTZ zamanı LTA, LEA və ETA öyrənilməsi təkcə hüceyrə immunitetində baş verən patoloji dəyişiklikləri deyil, həm də damar-trombositar və koaqulyasion hemostazda baş verən dəyişiklikləri izah etməyə kömək edə bilər.

Məlum olduğu kimi, dəmir yod və selen ilə yanaşı tireoid hormonlarının normal sintezi və metabolizmi üçün zəruri olan əsas elementdir. Bu elementlərin çatışmazlıqları qalxanvari vəzinin fəaliyyətini poza bilir. Dəmirin kifayət qədər olmaması tireoid homonların sintezində pozuntulara səbəb olur, çünki "hem" asılı tireoid peroksidazanın aktivliyi aşağı düşür. Heyvanlar və insanlar üzərində aparılan çoxsaylı tədqiqatlar nəticəsində dəmir defisitli anemiya ilə tireoid funksiyanın pozulması arasında əlaqənin olduğu aşkar edilmişdir. Ədəbiyyatda qarşılıqlı əlaqənin olduğunu təkzib edən məlumatlar da vardır.

Qalxanvari vəzin autoimmun xəstəlikləri zamanı klinik hipo- və hipertireoz vəziyyətlərində mikroelementlərin (xrom, sink, nikel, dəmir, marqans, mis və kobalt) tərkibində defisitin olması immun sistemdə faqositar halqanın çatışmazlığı ilə bağlı olur [24]. Son illərin tədqiqatlarında göstərilmişdir ki, hipotireoz olan xəstələrdə dəmir sulfatı levotiroksinin qastrointestinal sorulmasını aşağı salır. Bununla əlaqədar olaraq, bəzi müəlliflər tövsiyə edirlər ki, dəmir defisitli anemiya olan xəstələrdə tireoid funksiyanın öyrənilməsi və levotiroksinin dozasının korreksiya edilməsi üçün əlavə müayinələr aparılsın [52]. Aşkar edilmişdir ki, dəmir ionlarının azalması tempi hemoqlobinin səviyyəsində olan dəyişiklikləri xeyli qabaqlaması DTZ olan xəstələrdə anemiyanın yaranmasında və sonrakı proqressivləşməsində əsas səbəblərindən biridir [53]. Qan plazmasında dəmir ionlarının miqdarı tireotoksikozun müddəti 5 ilə qədər olduqda 1,3 dəfə, 6-10 il davam etdikdə isə 2,7 dəfə enməklə hemoqlobinin aşağı düşmə tempini qat-qat üstələyir ($r=+0,18$; $p<0,05$) və bu fakt mövcud xəstə qrupunda anemiyanın aparıcı səbəbi kimi özünü göstərir [54].

Qalxanvari vəzinin funksiyasının aşağı düşdüyü ilkin mərhələlərdə artıq anemiyanın inkişaf etməsi mümkündür və bunu da bir çox müəlliflər öz tədqiqatlarında təsdiq edirlər [54,55,56,57]. Subklinik hipotireoz (SH) zamanı hemotoloji pozuntular davamlı xarakterli olur və əvəzedici müalicə aparılmadıqda şiddətlənə bilir. Nəticədə dəmir defisiti daha da dərinləşir, mikrositar və normositar anemiya artır [57]. A.Bremner və həmmüəlliflərinin yazdıqlarına əsasən, tiroksinin hətta norma daxilində cüzi tərəddüdləri belə hemotoloji göstəricilərin nəzərəçarpan dəyişiklikləri ilə assossiasiya olunur, bu göstəricinin artması hemoqlobin, hematokrit və eritrositlərin miqdarının artması ilə düz əlaqədədir ($p<0,01$) [54].

SH zamanı anemiyanın inkişaf etməsinin mümkünlüyü heç bir şübhə doğurmursa, onun inkişafının mexanizmlərinin üstünlük təşkil etməsi haqqında göstəricilər, variantlar, optimal korreksiya üsullarının seçilməsi birmənalı deyildir. Məlumdur ki, hipotireoz zamanı anemiya daha çox böyrəklərdə eritropoetinin istehsalının azalması, eləcə də dəmir, fol turşusu, B12 vitamini defisiti nəticəsində baş verir. Bu da mədə-bağırsaq traktı orqanlarının zədələnməsi və aybaşı siklinin pozulması ilə bağlı olur. Nəticədə müxtəlif növ anemiyaların, o cümlədən normositar, mikrositar və makrositar variantların inkişaf etməsi mümkündür [55]. SH zamanı qan zərdabında dəmirin və ferritinin səviyyəsinin daha aşağı olduğu müəyyən edilmişdir ki, bu da anemiya, eləcə də dəmir defisitli anemiya riskinin yüksək olduğunu göstərir [58].

SH üçün səciyyəvi olan mikrositoz və dəmir defisitli anemiyanın olduğunu qeyd edirlər [56]. SH ilə müştərək anemiya olan xəstələrin optimal şəkildə aparılması üsulları haqqında fikirlər də ziddiyyətlidir. Bir sıra müəlliflərin fikrincə, əksər hallarda hemotoloji pozuntuların aradan qaldırılması üçün levotiroksinin təyin edilməsi və eutiroid statusun bərpa edilməsi kifayətdir. Digərlərinin verdikləri məlumatlara əsasən əvəzedici terapiya fonunda eritropoetinin sintezinin artırılması hesabına eritropoezin stimulyasiyası müşahidə olunsa da, hemotoloji dəyişikliklər eutireoid vəziyyət əldə ediləndən sonra da aradan qalxmır [59]. Üçüncü nəzər nöqtəsinə əsasən anemiya və korreksiya olunmayan SH zamanı dəmir preparatlarının tətbiq edilməsi müsbət nəticələr verir. Eyni zamanda bəzi müəlliflər hesab edirlər ki, SH zamanı yalnız dəmirin təyin edilməsi cüzi terapevtik effektə malikdir, lakin levotiroksinin tətbiq edilməsilə bu effekti daha da gücləndirmək mümkündür [56,57].

AİT zamanı yarım il ərzində levotiroksin ilə əvəzedici terapiyanın aparılması lipidlərin peroksidləşməsi və antioksidant aktivlik vəziyyətinin normallaşması, lipidlərin aterogen fraksiyasının enməsini, anemik sindromun azalmasını təmin etmişdir. Ürəkdə dəyişikliklər daha az olmuşdur ki, bu da daha uzun müddətli terapiyanın aparılmasını tələb edir [60].

AİT və SH arasında sideropenik sindromun inkişaf etməsi ilə əlaqənin olması fikri vardır ki, bu da müxtəlif dərəcəli anemiyalar zamanı tireoid hormonların səviyyəsinin təyin edilməsi zərurətini qarşıya qoyur [61,60].

Artıq qeyd edildiyi kimi qalxanvari vəzin hormonları orqanizmdə praktik olaraq, bütün metabolik prosesləri tənzimləyir. Buraya dəmir mübadiləsi və qanda eritrositlərin emalı prosesləri də aiddir. Hipotireoz zamanı cavan qan hüceyrələrinin yaranması ləngiyir, dəmirin mədə və bağırsaq traktından sorulması, müvafiq olaraq hemoqlobinin sintezinin intensivliyi aşağı düşür.

Yuxarıda qeyd edilənləri nəzərə alaraq, qalxanvari vəzin autoimmun xəstəliklərinin cərrahi müalicəsi zamanı anemiyanın vaxtında diaqnostikası, onun inkişaf intensivliyinin və ağırlıq dərəcələrinin tədqiq edilməsi xüsusilə vacibdir.

DTZ ilə 13 xəstə müayinə olunub (19-61 yaş arası (orta yaş həddi 41,1±4,0), onlardan 8-i qadın və 5-i isə kişi olmuşdur). AİT ilə 16 xəstə (32-76 yaş arası (orta yaş həddi 45,3±2,8) onlardan 12-si qadın və 4-ü kişi olmuşdur). Anemiyanın aşkar edilməsi üçün aşağıdakı göstəricilər təyin olunub: Hb, eritrositlərin miqdarı, Ht, rəng göstəricisi, MCV, MCH, MCHC və hesablanmış göstərici- həcm - hemoqlobin faktoru (HHf).

Cədvəl
Anemiyanın aşkar edilməsi üçün göstəricilər

Hemotoloji göstəricilər	DTZ	AİT
Hb	118,7 ±3,7 q/l	106,4 ±3,3 q/l
Eritrositlərin sayı	4,5± 0,1 10^{12} /l	4,1±0,1 10^{12} /l
Ht	35,3±1,1%	31,8±0,9%
Rəng göstəricisi	0,81±0,02	0,79±0,02
MCV	78,4±2,3fl	76,7±2,1fl
MCH	26,5±0,8pq	25,8±0,8pq
MCHC	36,6±0,08q/dl	33,4±0,2q/dl
HHf	93,8±5,6	82,2±4,1

DTZ zamanı 7 (53,8%) xəstədə yüngül formalı anemiya akşar olunub. AİT zamanı bütün xəstələrdə anemiya müşahidə olunub: yüngül anemiya 15 (93,7%) xəstədə, orta dərəcəli anemiya 1 (6,3%) xəstədə. Klinik qruplarda qanın yaxmasının mikroskopik müayinəsində müxtəlif dərəcəli anizo- və poykilositoz müşahidə olunub. Bu da periferik qanda mikrositlərin miqdarının artması və eritrositlərin mikrositozu ilə müşayət olunub (MCV<80fl). Mikrositar anemiyaya DTZ zamanı 8 (61,5%) xəstədə, AİT olan 9 (56,2%) xəstədə təsadüf olunub.

Hemotoloji indekslerin dəmir difisitli hemopoez üçün xarakterik olan hipoxrom dəyişkənlikləri (MCH <24pq), DTZ olan 5 (38,5%) və AİT olan 3 (18,7%) xəstədə rast gəlinib. Normoxrom xarakterli anemiya isə (MCH 24-34 pq) DTZ olan 7 (53,8%), AİT olan 13 (81,2%) xəstədə təsadüf olunub.

Həcm – hemoqlobin faktoru (HHf), dəmirin latent defisitini xarakterizə edərək, daha çox DTZ olan xəstələrdə yüksəlmiş idi (93,8).

Beləliklə,

1) Anemiya AİT olan xəstələrdə DTZ olan xəstələrə nisbətən daha çox təsadüf olunur.

2) Müayinə qruplarında anemiyanın məlum olan morfoloji variantlarının müayinəsi zamanı daha çox qarışıq növə: dəmir difisitli və normoxrom anemiyaya təsadüf olunub.

ƏDƏBİYYAT

1.Наглядная гематология / Перевод с англ. Под редакцией проф. В.И. Ершова, 2-е изд,М.: ГЭОТАР-Медиа, 2008, 116 с

2. Руководство по гематологии / Под ред. А.И. Воробьева. М.: Ньюдиамед, 2007,1275 с.

3. Бокарев И.Н., Немчинов Е.Н., Кондратьева Т.Б. Анемический синдром. М.: Практическая медицина, 2006, 128 с

4. Тарасов И.С., Чернов В.М. Профилактика дефицита железа - актуальная проблема здравоохранения всех стран мира // Гематология и трансфузиология, 2009, № 2, с. 31-38

5. Кардиология. Гематология / Под ред. Н.А. Буна, Н.Р. Колледжа и др,М.: ООО «Рид Элсивер», 2009, 288 с.

6. Андреичев Н.А., Балеева Л.В., Меньшиков В.В. (ред.) Методики клинических лабораторных исследований. М.: Лабора, 2008

7. Чазова И.Е., Фомин В.В., Пальцева Е.М. Прямой ингибитор ренина алискирен: новые возможности защиты почек при артериальной гипертонии // Клиническая нефрология, 2009,

8. Василиади Г.К. Проблемные вопросы аутоиммунного тиреоидита // Вестник новых медицинских технологий, 2012, № 3, с.138-139

9. Шарипова З.Ф., Фархутдинова Л.М. Взаимосвязь иммунологического статуса и микроэлементного профиля организма при тиреопатиях // Врач, 2007, №5, с.51-52

10. Саприна Т.В. Общие закономерности и особенности дизрегуляции иммунной системы при эндокринных заболеваниях аутоиммунного генеза: Дисс. … док.мед. наук. Томск, 2014, 388с.

11. Дедов И.И. Эндокринология: учебник для вузов. М.: ГЭОТАР-Медиа, 2007. – 432 с.

12. Михайлова С.В., Зыкова Т.А. Аутоиммунные болезни щитовидной железы и репродуктивные нарушения у женщин // Сибирский медицинский журнал, 2013, № 8, с.26-31

13. Weetman A.P. Etiology, diagnosis and treatment of Graves`disease // Thyroid international, 2003, №3, p.12-17.

14. Никитин ЮП, Рымар ОД, Максимов ВН и др. Полиморфизм A49G гена цитотоксического Т-лимфоцитсвязанного иммуноглобулина 4 (CTLA4), связь с аутоиммунными заболеваниями щитовидной железы в популяции Новосибирска // Клиническая и экспериментальная тиреоидология, 2008, №4(4), с.41-45

15. Никитин Ю.П., Рымар О.Д., Максимов В.Н. и др. Связь полиморфизма С1858Т гена PTPN22 с аутоиммунным тиреоидитом с исходом в гипотиреоз в популяции Новосибирска // Клиническая и экспериментальная тиреоидология, 2009, №5(1), с.47-52

16. Eschler D., Hasham A., Tomer Y. Cutting edge: the etiology of autoimmune thyroid diseases // Clinical reviews in allergy & Immunology, 2011, v.41, p.190-197

17. Hemminki K., Li X., Sundquist J. et al. The epidemiology of Graves' disease: evidence of a genetic and an environmental contribution // Journal of Autoimmunity, 2010, v.34, p.307-313

18. Manji N., CarrSmith J.D., Boelaert K. et al. Influences of age, gender, smoking, and family history on autoimmune thyroid disease phenotype // J Clin Endocrinol Metab., 2006, v.91, p.4873-4880

19. Рымар О.Д., Пьянкова А.К., Максимов В.Н., Мустафина С.В. Семейные случаи аутоиммунных заболеваний щитовидной железы // Клиническая и эксперимент. тиреоидология, 2013, №4, с.39-45

20. Балаболкин М.И., Клебанова Е.М., Креминская В.М. Фундаментальная и клиническая тироидология. М.: Медицина, 2007, 816 с.

21. Самсонова А.М., Левин А.В., Гаврилова Н.А. Компьютерная рефлексотерапия в восстановительном лечении пациентов с хроническим аутоиммунным тиреоидитом, гипотиреозом // Вестник новых медицинских технологий, электронный журнал, 2016, №4

22. Гвоздева О.В. Иммунитет, гемостаз, перекисное окисление липидов и лейкоцитарно-эритроцитарно-тромбоцитарные взаимоотношения при диффузном токсическом зобе: Дис. ... канд. мед. наук. Чита, 2008, 132 с

23. Abalovich M. Subclinical hypothyroidism and thyroid autoimmunity in women with infertility // Gynecol Endocrinol., 2007, v 23, p.279-283.

24. Шарипова З.Ф. Иммунный и микроэлементный статус при аутоиммунных заболеваниях щитовидной железы: Дис. … канд. мед.наук. Уфа, 2009, 104 с.

25. Суздальцев И.В., Пыхтин Ю.Ю., Кубанов С.И. Диагностика узловых образований щитовидной железы на аутоиммунного тиреоидита // Кубанский научный медицинский вестник, 2009, № 1 (106), с.115-118

26. Bednarczuk T., Gopinath B., Ploski R., Wall J.R. Susceptibility genes in Grave's ophthalmopathy: searching for a needle in a haystack // Clin Endocrinol., 2007, v.67, №1, p.3-19.

27. Volpe, R. Growing an interest in autoimmune thyroid disease. // Endocrinol. Metab. Clin. North. Am. 2000. - Vol.2. - P. 431-442

28. Велданова М.В. Уроки тиреоидологии. М.: ООО Изд-во «Интелтек», 2005. 542 с.

29. Zhang Y., Zhou Z.G., Yang L. et al. Abnormal T cell autoimmunity against GAD65 in LADA patients // Zhonghua Yi Xue Za Zhi., 2010, v. 90, p.1963-1965.

30. Абрамова Н.А. Болезнь Грейвса-Базедова. Эндокринология: национальное руководство. М.: ГЭОТАР-Медиа, 2008, с.523-534

31. Вольпе, Р. Аутоиммунные заболевания щитовидной железы // Болезни щитовидной железы / Под ред. Л.И. Бравермана. М.: Медицина, 2000, с.140-172

32. Дрометр Д.А., Тузанкина И.А., Кияев А.В. Иммунологические аспекты дифференциальной диагностики синдрома гипертиреоза // Клиническая и экспериментальная тиреоидология, 2007, № 1, с. 18-23

33. Кандрор В.И. Механизмы развития болезни Грейвса и действия тиреоидных гормонов. // Клиническая и экспериментальная тиреоидология, 2008, № 1, с. 26-43

34. Кэттайл, В.М., Арки, Р.А. Патофизиология эндокринной системы: пер. с англ. М.: «Невский диалект»-«Изд-во БИНОМ», 2007,336 с.

35. Fang Y., Sharp G.C., Braley-Mullen H. Interleukin-10 Promotes Resolution of Granulomatous Experimental Autoimmune Thyroiditis // The American Journal of Pathology, 2008, v.172, p.1591-1602

36. Gianoukakis A.G., Khadavi N., Smith T.J. Cytokines, Graves' Disease, and Thyroid-Associated Ophthalmopathy // Thyroid, 2008, v.18, p.953-958.

37. Kahaly G.J., Grebe S.K., Lupo M.A. et al. Graves' disease: diagnostic and therapeutic challenges (multimedia activity) // Am. J. Med., 2011, v.124, p. 2-3.

38. Валеева Ф.В., Киселева Т.А., Ахунова Г.Р. Проблемы взаимосвязи патологии щитовидной железы и ревматологических заболеваний // Сибирский медицинский журнал, 2011, № 4, Выпуск 2, с.22-28

39. Уразова О.И., Кравец Е.Б., Новицкий В.В. и др. Апоптоз лимфоцитов крови у больных аутоиммунными тиреопатиями // Медицинская иммунология, 2008, № 2-3, с.187-192.

40. Шагарова С.Г., Мацынина В.П., Догадин С.А. и др. Состояние метаболизма лимфоцитов крови у больных диффузным токсическим зобом в процессе лечения // Клиническая и экспериментальная тиреоидология, 2010, № 3, с.42-47

41. Саприна Т.В., Прохоренко Т.С., Рязанцева Н.В. и др. Иммунологические и морфологические предикторы клинической гетерогенности пациентов с болезнью Грейвса (по результатам исследования оперативного материала щитовидной железы) // Бюллетень сибирской медицины, 2015,Т. 14, № 1, с.81-91

42. Khan F.A., Al-Jameil N., Khan M.F. et al. Thyroid dysfunction: an autoimmune aspect // Int. J. Clin. Exp. Med., 2015, v.8(5), p.6677-81

43. Казаков С.П. Уровень цитокинов и молекул межклеточной адгезии в плазме крови и их диагностическая эффективность при аутоиммунных и онкологических заболеваниях щитовидной железы // Медицинская иммунология, 2010, № 6, с.559-564

44. Шагарова С.Г. К проблеме иммунопатогенеза аутоиммунных заболеваний щитовидной железы // Сибирский медицинский журнал, 2011, № 1, с.42-45

45. Майборода А.А., Калягин А.Н., Зобнин Ю.В., Щербатых А.В. Современные подходы к подготовке оригинальной статьи в журнал медико-биологической направленности в свете концепции «доказательной медицины» // Сибирский меди- цинский журнал (Иркутск), 2008, Т. 76. №1, с.5-8

46. Иванова Е.В., Богатырева З.И., Исаева М.А. и др. Антитиреоидные антитела различной специфичности в патогенезе и диагностике аутоиммунных заболеваний щитовидной железы // Терапевтический архив, 2009, Т.81, №10, с.39-45

47. Андреева А.В., Е.Н. Сучкова, С.И. Гаджиева и др. Популяция антитиреоидных аутоантител как источник антител различных уровней специфичности и функциональности: клиническая значимость феномена комбинаторики при мониторинге пациентов с аутоиммунными заболеваниями щитовидной железы // Клиническая и экспериментальная тиреоидология, 2011, Т. 7, № 2, с. 19-27.

48. Демина Т.Н., Алипова Н.Ф. Аутоиммунный тиреоидит и репродуктивная функция женщины // Новости медицины и фармации» Акушерство, гинекология, репродуктология, 2009, 275

49. Сулкарнаева Г.А. Внутрисосудистое свертывание крови, толерантность к тромбину, активность тромбоцитов и интенсивность липид пероксидации при гипер- и гипотиреозе: Автореф. дис. … докт. мед. наук. Тюмень, 2007, 42 С.

50. Витковский Ю.А. и др. Состояние иммунитета и лимфоцитарно-тромбоцитарной адгезии при раке гортани // Медицинская иммунология, 2007, № 6, с.633-639

51. Кузник Б.И. Общая гематология. Гематология детского возраста. Ростов-на-Дону: Феникс, 2007, 575 с.

52. Shakir K.M., Chute J.P., April B.S., Lazarus A.A. Ferrous sulfate-induced increase in requirement for thyroxine in a patient with primary hypothyroidism // South Med J., 1997, v.90. p.637-639

53. Фархутдинова Л.М., Аллабердина Д.У., Гайсарова Г.А. и др. Диффузный токсический зоб: современные представления и анализ клинического случая // Медицинский вестник Башкортостана, 2011, №5, с.130-136

54. Bremner A.P,. Feddema P,. Joske D.J. et al. Significant association between thyroid hormones and erythrocyte indices in euthyroid subjects // Clin Endocrinol (Oxf), 2012, v.76, p.304-311.

55. Omar S., Hadj Taeib S., Kanoun F. et al. Erythrocyte abnormalities in thyroid dysfunction // Tunis. Med., 2010, v.88 (11), p.783-8

56. Cinemre H., Bilir C., Gokosmanoglu F., Bahcebasi T. Hematologic effects of levothyroxine in iron-deficient subclinical hypothyroid patients: a randomized, double-blind, controlled study // J Clin Endocrinol Metab., 2009, vol.94, p.151-156.

57. Некрасова Т.А., Стронгин Л.Г., Леденцова О.В. Гематологические нарушения при субклиническом гипотиреозе и их динамика в процессе заместительной терапии // Клиническая медицина, 2013, № 9, с.29-33

58.Некрасова Т.А., Стронгин Л.Г., Леденцова О.В., Казакова Л.В. Взаимосвязь между уровнем ТТГ и некоторыми факторами сердечно-сосудистого риска при аутоиммунном тиреоидите и субклиническом гипотиреозе // Клиническая и экспериментальная тиреоидология, 2014, том 10, №2, с.16-21

59. Christ-Crain M., Meier C., Huber P. et al. Effect of restoration of euthyroidism on peripheral blood cells and erythropoietin in women with subclinical hypothyroidism // Hormones (Athens), 2003, vol.2, p.237-242

60. Новицкая А.Б. Структурно-функциональные изменения сердца и метаболические нарушения у больных аутоиммунным тиреоидитом: Дис. ...канд.мед.наук. Нижний Новгород, 2005, 99с.
61. Новик А.А., Богданов А.Н. Анемии (от А до Я): Руководство для врачей / Под ред. Акад. Ю.Л. Шевченко. СПб: Издательский дом «Нева», 2004, 320 с.

Xülasə

Qalxanvari vəzin autoimmun xəstəlikləri və anemiya

F.X. Saidova, J.B. Aslanova, R.H.Hüseynov

Anemiya - klinik-hematoloji sindrom olub, hemoqlobinin konsentrasiyasının aşağı düşməsi və əksər hallard, bir həcm vahidində eritrosit və hemoqlobinin azalması ilə xarakterizə olunur. Anemiya yer kürəsinin əhalisinin ümumilikdə 10-20 %-də aşkar edilib, reproduktiv yaş dövründə olan qadınlar və uşaqlarda isə 40-50% halda qeydə alınır [1,2]. Bütün anemiyaların 70%-90%-ni dəmir defisitli anemiya təşkil edir. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) göstəricilərinə əsasən dəmir defisitli anemiyalar (DDA) 38 ən geniş yayılmış xəstəliklər arasında ilk sıralarda durur. Son illər bu göstəricilər azalmaq əvəzinə, əksinə bəzi regionlarda artmaqda davam edir [3]. ÜST ekspertləri qeyd edirlər ki, anemiyanın 40%-dən yüksək yayılma tezliyi artıq onu təkcə tibbi problem kimi deyil, həm də sosial problem kimi qarşıya qoyur. Anemiya AİT olan xəstələrdə DTZ olan xəstələrə nisbətən daha çox təsadüf olunur. Müayinə qruplarında anemiyanın məlum olan morfoloji variantlarının müayinəsi zamanı daha çox qarışıq növə: dəmir difisitli və normoxrom anemiyaya təsadüf olunub.

Summary

Autoimmune diseases of the thyroid gland and anemia

F.K. Saidova, J.B. Aslanova, R.H.Huseynov

Anemia is a clinical-hematological syndrome, characterized by a decrease in hemoglobin concentration and, in most cases, a reduction in erythrocytes and hematomas. Anemia is found in 10 to 20% of the population of the Earth, and it is registered in women of reproductive age and 40-50% in children [1,2]. 70-90% of all anemia is iron deficient anemia. According to the World Health Organization (WHO), iron deficiency anemia (DDA) ranks among the 38 most common diseases. In recent years, these indicators have continued to grow in some regions instead of diminishing [3]. WHO experts note that over 40% of anemia is no longer a medical problem but as a social problem. Anemia is more common in patients with AIDS compared to patients with DTZ. During the examination of the known morphological variants of anemia in the examination groups, more complicated types were observed: iron dipital and normoxrom anemia.

Daxil olub: 05.07 2018

ŞƏRQ TƏBABƏTİNİN DİAQNOSTİK ÜSULLARI

R.F.Təhməzov

Azəbaycan Tibb Universiteti, Bakı

Açar sözlər: Şərq təbabəti, baxış, dinləmə, qoxulama, sorğu, palpasiya, nəbz diagnostikası

Ключевые слова: Восточная медицина, осмотр, прослушивание, обоняние, опрос, пальпация, пульсавая диагностика

***Keywords*:** Eastern medicine, examination, ausculation, smell, survey, palpation, pulse diaqnosis

Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, hazırda hər dörd pasiyentdən biri Qərb təbabəti diaqnostika və müalicə üsulları ilə yanaşı Şərq təbabəti üsullarından da istifadə edir [1,2].

Lakin həkimlərin böyük əksəriyyətinin Şərq təbabəti üsulları ilə yaxından tanışlığı yoxdur. Təəsssüf ki, Qərb (Müasir) təbabəti çərçivəsində, Şərq (ənənəvi) təbabətindən fərqli olaraq, xəstələrin klinik müayinə metodları kifayət qədər öyrənilmədiyinə görə müasir həkimlər Şərq diaqnostika üsullarının imkanlarından nadir hallarda istifadə edirlər. Bunun bir sıra səbəbləri vardır. Şərq təbabəti Şərq fəlsəfi əsaslarının ayrılmaz hissəsidir ki, bu da müasir həkimlərin onu qavramasında çətinliklər törədir. Həmçinin Şərq diaqnostikası elə də asan bir istiqamət (metod) deyildir. Qərb təbabəti üçün xarakterik olan funksional-morfoloji nöqteyi

nəzərdən Şərq təbabətinin əsası olan funksional informasiyaya keçid müasir tibb təhsili alan həkimlər üçün çətindir [2,3,7].

Bu baxımdan, bəzi pasiyentlərin bu barədə məlumatı həkimlərə nisbətən daha çox olur. Belə vəziyyətin alınmaması üçün həkimlər bu sahədə öz biliklərini genişləndirməlidirlər. Beləliklə, indiki zamanda həkimlərin qarşısında duran əsas məqsəd təbabətin mühüm sahələrindən biri olan Şərq və Qərb təbabətinin birgə sintezini öyrənmək və onun tətbiqinə nail olmaqdır. Bu üsulları birgə istifadə etməklə müalicənin effektivliyini yüksəltmək olar [4].

Əsas (klassik) diaqnostik üsullar. Daxili orqanların xəstəliklərinin klinik diaqnostikasının əsasını xəstəliyin müayinə metodlarının öyrənilməsi təşkil edir. (Həkimin diaqnostik texnikası) [5,6].

Ümumiyyətlə, praktik təbabət və onun metodik əsası olan müayinə xüsusiyyətlərini nəzərə alaraq, onların öyrənilməsi və mənimsənilməsi üçün xüsusi yanaşma tələb edir.

Şərq təbabətində diaqnostika – xəstəliyin xarici təzahürlərinin müayinəsi ilə başlayır və buna əsasən patoloji dəyişikliklərin səviyyəsi müəyyənləşdirilir. Bunun üçün 4 əsas diaqnostik metod vardır: baxış, dinləmə (və qoxulama), sorğu və palpasiya.

Baxış zamanı həkim xəstəliyin regionar (yerli) və sistemli təzahürlərini, xarici örtüklərin rəngini, xəstənin xarici görünüşünü gözlə müayinə edir. Qoxulama, nəfəsalma və nəfəsvermənin, səsin və bağırsaq küylərinin dinlənilməsi, səsə və qoxuya görə diaqnozu müəyyənləşdirməyə imkan verir. Sorğu vasitəsilə həkim xəstəliyin başlanmasını, gedişini, xəstəliklə bağlı simptomları və əlamətləri dəqiqləşdirir. Palpasiya vasitəsilə orqanizmin patoloji vəziyyəti və nəbz yoxlanılır [7,8].

Bu 4 diaqnostik metod ayrı-ayrılıqda tətbiq oluna bilməz, çünki onlar bir-birini tamamlayır. Praktik fəaliyyətdə bu 4 metodun yalnız birgə tətbiqi xəstəlik haqqında tam məlumat verir. Şərq diaqnostikası Şərq təbabətinin ilk pilləsidir və həkimdən müşahidəçilik, səbr, detallara diqqət, təhlil etmək qabiliyyətini tələb edir.

Qeyd etmək lazımdır ki, Şərq diaqnostikası fenomenoloji keyfiyyətə əsaslanır, müasir Qərb təbabətinin diaqnostikası isə kəmiyyətə əsaslanır. Şərq təbabəti diaqnostikanı çoxsaylı müşahidələr və analoji nəticələrə əsaslanaraq, qarşılıqlı əlaqələrdən başlayır. Nəticədə xəstəyə funksional-sindroloji diaqnoz qoyulur ki, bu da "Səkkiz aparıcı prinsip" nəzərdə tutur, yəni patoloji faktorun qüvvəsi və dərinliyi, orqanizmin funksional vəziyyəti, onun digər orqanlar və sistemlərin funksional vəziyyəti ilə vəhdəti, zədələnmiş orqanın vəziyyətinin qiymətləndirilməsi və s. [9]

Qərb diaqnostikasının əsasında durur: morfoloji defektin dərəcəsi (Locus morbi) və xəstəliyin ağırlıq dərəcəsinin qiymətləndirilməsi. Qərb və Şərq təbabətini qarşı-qarşıya qoymaq cəhdləri boşa çıxmışdır, çünki onlar patoloji prosesin müxtəlif aspektlərini əks etdirir. Şərq təbabətində "orqan" anlayışı təkcə anatomik orqan deyil, ona müvafiq gələn təbii dəlikləri, toxumaları, anatomik strukturları, emosiyaları və nəhayət fizioloji funksiyaların kompleksini əks etdirir. Məsələn: Şərq təbabətində "dalaq" anlayışına ağız və dodaqlar, dörd ətraf, əzələ toxuması da aid edilir. Dalağın funksiyalarına isə qida müddələrinin çevrilmələri və daşınması, qanın laxtalanma sisteminin tənzimi, əzələ və ətrafların vəziyyətinə cavabdehlik aid edilir [8].

Dalağın funksiyalarının pozulması zamanı diqqətli müayinə aparılarsa, əsas orqana aid olan digər orqanlarda da dəyişiklik tapılar. Ayrı-ayrı funksiyaların pozulması özünü müxtəlif şəkildə biruzə verə bilər. Məsələn: dalağın nəqliyyat funksiyası (suyun nəqli) pozulduqda, bronxit və ya pnevmoniya əmələ gəlir ki, bunun da əsas əlaməti orqanizmdən suyun ayrılması, əzələ zəifliyi, ya ishal, ya da assitlə müşayiət olunacaq [7,13].

Beləliklə, Şərq təbabətində - "dalağın nəqliyyat funksiyasının pozulması" diaqnozu Qərb təbabətinə görə müxtəlif xəstəliklərə uyğun gələ bilər. Qeyd edək ki, göstərilən halda morfoloji dəyişikliklər ağciyərdə, bağırsaqda və ya qaraciyərdə aşkar olunacaq.

Diaqnostika, patogenez və xəstəliklərin təsvirinə müxtəlif yanaşmalara baxmayaraq, Şərq və Qərb diaqnostikaları bir-birini tamamlayan üsullar kimi istifadə oluna bilər. Şərq təbabəti xüsusilə bir çox orqanların zədələnmələrində və diaqnostika cəhətdən aydın olmayan hallarda əvəzsizdir [11].

Şərq təbibləri öz praktik fəaliyyətlərində bədənin xarici örtükləri ilə daxili orqanlar arasında sıx əlaqə olduğunu və birincidə baş verən hər bir dəyişikliyin daxili orqanların patoloji prosesinə dəlalət etdiyini anlamışlar. Xəstənin xarici müayinəsi ilk növbədə baxış vasitəsilə həyata keçirilir.

Xəstənin konstitusiyası onun aktivlik dərəcəsini, enerjisinin səviyyəsini, orqanların vəziyyətini əks etdirir. Xəstə sakitdirsə, gözləri parlaqdırsa, onda xəstəlik orta və ya yüngül dərəcəlidir. Əgər xəstə apatikdir, əzgindir, gözləri tutqun, psixi dəyişikliyi varsa, onda xəstəlik daha ciddidir [12].

Üzün rəngi və parlaqlığı enerjinin nisbi səviyyəsini, daxili orqanların vəziyyətini göstərir və bu göstəricilərin dəyişməsi patoloji vəziyyətə dəlalət edir. Beləliklə, üzün 5 patoloji rəngi ola bilər: mavi, sarı, qırmızı, avazımış (solğun), torpaq rəngi.

Üzün parlaqlığının 4 tipi var: açıq, nəmli, tutqun, üzülmüş.

Qırmızı rəng hərarət sindromunun göstəricisidir. İzafilik (artıqlıq) və çatışmazlıq şəklində təzahür edə bilər. Əgər bütün sifət qırmızıdırsa, bu artıqlıq tipli hərarət sindromudur və qızdırma ilə müşayiət olunan xarici patogen istiliyin orqanizmə daxil olması ilə əmələ gəlir [13].

Yanaqlarda çəhrayı ləkələr və gecə tərləmələri ilə müşayiət olunan dalğavari qızdırma hərarət sindromunun göstəricisidir.

Solğun rəng soyuq sindromunun və ya qanitirmənin göstəricisidir.

Sarı rəng çatışmazlıq əlamətidir.

Üzün mavi rəngi soyuq sindromuna, güclü ağrı sindromuna, qan durğunluğu və labüd qıcolmalara dəlalət edir. Dodaqların sianozu və ürək nahiyəsində ağrılar ürəkdə qan durğunluğunu göstərir. Üzün və dodaqların sianozu, dəyişən qızdırma ilə birgə mümkün qıcolmaların göstəricisidir. Üzün sianozu və qonur rəngi qaraciyər və öd kisəsinin zədələndiyini gösərir [12].

Üzün qonur (torpaq) rəngi böyrəklərdə energetik çatışmazlıq və qan durğunluğunun əlamətidir. Əgər dəri tutqun qonur rəngdədirsə və qabıq verirsə, qan durğunluğu uzun müddətlidir. Qonur qırmızımtıl rəng qaraciyərdə "alovun" göstəricisidir.

Ümumiyyətlə, parlaq və nəm dəri orta və yüngül dərəcəli xəstəliyi göstərir ki, bu zaman enerji və qan hələ zədələnməyib və proqnoz nisbətən yaxşıdır. Tutqun və üzülmüş rəng xəstəliyin ciddi olduğunun ifadəsidir.

Sekret və ekskretin də rəngi müayinə olunur. Ağız suyu, burun sekreti, uşaqlıq sekreti və s.

Ümumiyyətlə açıq və ağ rəng soyuq və çatışmazlıq, tutqun sarı və ya yaşıl (irinli) rəng izafilik hərarət sindromunu ifadə edir.

Xarici görkəm əzələlərin inkişaf dərəcəsini, piy təbəqəsinin inkişafını, hərəkəti, bədənin vəziyyətini göstərir [15].

Artıq çəki, psixi depressiya halı adətən enerji çatışmazlığını və yaş fleqma artıqlığını, arıqlıq və quru dəri isə qanazlığını göstərir.

Xəstənin vəziyyəti və onun hərəkətliyi xəstəliyin xarici təzahürləridir.

Ətrafların qeyri-iradi hərəkətləri, tetanus, insult kimi patogen küləklərdə törədilən xəstəliklər zamanı müşahidə olunur.

Zəiflik hərəkiliyin pozulması və əzələ atrofiyası "VEY" sindromuna xasdır. Vətər və əzələlərdə şiddətli ağrılar, ağırlıq hissi, şişkinlik, oynaqlarda hərəkətin məhdudlaşması "Bİ" sindromu adlanır. Hemiplegiya "külək" tipli zədələnmələrə aiddir [12,16].

Gözlərin müayinəsi. Qaraciyər, daxili orqanların birincili enerjisi gözə açılır. Bundan əlavə, insanın ruhi başlanğıcı "Shen" gözdə əks olunur. Gözlərdə anomaliyalar daxili orqanların patologiyası ilə bağlıdır. Canlı gözlər xəstəliyin yüngül mərhələsini, tutqun gözlər isə ağır xəstəliyi ifadə edir. Qızarmış şişkin gözlər hərarət-külək və ya qaraciyərdə "alovun" göstəricisidir. Skleranın sarı rəngi sarılığı, mavi rəngi ağciyərdə energetik zəifləməni, gözün altında qara həlqə qanazlığını göstərir. Buynuz qişanın zədələnməsi nəm-istilik sindromudur. Baxışın yuxarı və ya yanlara fiksasiya olunması çox vaxt qaraciyərin "külək"lə zədələnməsini göstərir (insult) [7].

Burun müayinəsi. Xarici görünüşü və ifrazatı: Burun qanadlarının qabarması ağciyərlərdə "isti" əsasında astmatik tənəffüs zamanı, və ya ağciyər və böyrəklərdə enerji azlığı zamanı baş verir.

Sarımtıl rəngli burun "isti" sindromunu göstərir. Açıq ifrazat "soyuq külək" sindromunda yapışqanabənzər qatı ifrazat "isti külək" sindromu zamanı rast gəlinir [12,14].

Qulaqların müayinəsi. Qulaq seyvanının rəngi və daxili qulağın vəziyyəti nəzərə alınır. Quru əzgin qulaq seyvanı ağır, uzunmüddətli xəstəlik zamanı böyrəklərdə həyat enerjisinin azalması hallarında müşahidə olunur. Qulaqda irinli ifrazat qaraciyər və öd kisəsində "nəm istilik" sindromu zamanı ola bilər.

Diş ətinin müayinəsi. Diş ətinin rənginin solğunluğu qanazlığına işarədir. Qızarmış, şişkinləşmiş diş əti mədədə "alov"u göstərir. Bu hal qanaxma ilə müşayiət olunarsa, mədədəki "alov"un damarları zədələdiyini göstərir.

Dodaqların və ağız boşluğunun müayinəsi. Dodaqların solğunluğu qanazlığını, sianozu, "soyuq" sindromu, qan durğunluğunu göstərir.

Quru, çatlamış, qırmızı dodaqlar "isti"lik sindromudur. Daim yarımaçıq ağız – ümumi "boşluğu" ifadə edir. Kollaps ağzın açılması ilə müşayiət olunursa, bu "çatışmazlıq" sindromudur, çənələrin bir-birinə möhkəm sıxılması ilə müşayiət olunursa, "izafilik" sindromudur.

Boğazın müayinəsi. Ağrılı, qızarmış, şişkin boğaz mədə və ağciyərlərdə "isti"liyin toplanmasındandır. Qızartı və şişkinlik ağ, sarı xoralarla müşayiət olunarsa, ağciyər və mədənin "isti" ilə ciddi zədələndiyini göstərir.

Dilin müayinəsi. Dil 4 hissəyə bölünür: dilin ucu ürək və ağciyərləri, cismi – dalaq və mədəni, kökü – böyrəkləri, yan hissələri – qaraciyər və öd kisəsini əks etdirir [4,8].

Dilin xarici görünüşü, forması, hərəkətliyi və üzərindəki ərp müayinə olunur.

Dinləmə və qoxulama. Səsin dinlənməsi: Gur, tez danışıq – "izafilik" sindromunu, yavaş, sürətsiz danışıq "çatışmazlıq" sindromunu göstərir.

Səs xırıldaması və səsin itirilməsi həm "çatışmazlıq", həm də "izafilik" sindromu zamanı rast gəlinə bilər.

Bu əlamətlər ekzogen mənşəli şiddətli başlayan xəstəliklərdə olarsa, "izafilik", tədricən, xronik və endogen xəstəliklərdə "çatışmazlıq" sindromudur.

Əlaqəsiz, gur nitq huşun itirilməsi ilə müşayiət olunursa, "izafilik" tipli sindromu, insanın ruhi başlanğıcının (Shen) "isti"liklə zədələnməsini göstərir. Laqeyd səslə təkrarlanan sözlər ürəyin enerjisinin ciddi zədələndiyini göstərir [2,4].

Tənəffüsün dinlənilməsi. Küylü tənəffüs və gur nitq orqanizm daxilində yaranan "alov" nəticəsindəki "izafilik" sindromunu göstərir, zəif tənəffüs enerji azlığını ifadə edir. Tezləşmiş tənəffüs ağciyərdə "alov"u göstərir [11].

Zəif astmatik tənəffüs gur xırıltılarla ağciyərdə patogen faktorun saxlanmasını və ağciyər enerjisinin zədələndiyini – yəni "izafilik" tipli astmanı ifadə edir. Fasiləli səthi tənəffüs boşluq sindromuna işarədir.

Öskürək – ağciyərin energisini bölüşdürüb aşağı ötürmək funksiyasının pozulması əlamətidir.

Kobud, hürücü öskürək "izafilik" sindromunu, sakit öskürək "çatışmazlığı" ifadə edir.

Artıq nəmlə müşahidə olunan öskürək zamanı zədə dalaqda lokallaşır. İfrazatsız öskürək ağciyərin patogen quruluqla zədələndiyini göstərir [11,12].

Hıcqırma mədənin enerjisinin anomal surətdə yuxarı qalxması zamanı baş verir. O, normal (bədənin soyuması və tələsik qida qəbulu nəticəsində) və patoloji (mədənin uzunmüddətli xəstəliklərində və enerjisinin tükənməsi səbəbilə) ola bilər. Tez-tez təsadüf edilən, güclü hıcqırma "izafilik" sindromu – hərarət zamanı, zəif, gec baş verən hıcqırma isə "çatışmazlıq" sindromu "soyuq" zamanı əmələ gəlir.

Xronik və ciddi kəskin xəstəliyi (məsələn: peritonit) olan pasiyentlərdə hıcqırmanın olması xəstənin vəziyyətinin ağırlığını ifadə edir.

Sekret və ekskretlərin üfunətli olması "izafilik" tipli sindromları, ağızdan turş qoxu gəlməsi isə qida kütləsinin mədədə saxlandığını göstərir. Bundan başqa, qoxunun mənbəyi zədələnmənin lokalizasiyasını ifadə edir. Belə ki, bəlğəmin üfunətli olması ağciyər absesinin olduğuna şübhə yaradır. Ağızdan şirin qoxu qaraciyər və dalağın xəstəliyində rast gəlir [3,7].

Sorğu sistemli şəkildə, pasiyentin əsas şikayətlərinə diqqət yetirilərək aparılır və əsasən aşağıdakı suallara cavab alınır.

Qızdırma və titrəmələrin nə zaman baş verdiyini, eyni zamanda, yoxsa növbə ilə olduğunu və hansı simptomlarla müşayiət olunduğunu aydınlaşdırmaq vacibdir.

1. Qızdırma ilə əlaqəli titrətmələr. Eyni zamanda hər ikisinin olması xəstəliyin əvvəlində xarici sindromu (ekzogen patogen faktorun daxil olması ilə yaranan) ifadə edir.

2. Alternəedici qızdırma və titrətmələr aralıq sindromun (patogen faktor səthdən keçmiş, lakin hələ orqanizmin dərinliyinə daxil olmamışdır) tipik sindromudur. Bu zaman xəstə həm də ağızda acılıq, boğazda ağrı, döş qəfəsində və qabırğaaltı sahələrdə dolğunluq və sancı hissindən şikayət edir.

Titrətmə tutmalarının qızdırmadan sonra düzgün növbələşməsi zamanı malyariya diaqnozu qoyulur.

3. Titrətməsiz qızdırma. Periodik titrətməsiz yüksək qızdırma, istiyə dözümsüzlüklə birlikdə - "izafilik" tipli daxili "isti"lik sindromuna işarədir. Bu zaman patogen faktor orqanizmin daxilinə keçmişdir. Bu həmçinin güclü tərləmə, boğaz ağrısı və yüksək nəbzlə müəyyən saatlarda daha çox nəzərə çarpırsa, onda fasiləli qızdırma olduğu aydınlaşır.

4. Qızdırmasız titrətmə "çatışmazlıq" tipli daxili "soyuq" sindromuna işarədir. Bundan əlavə, xəstədə dərin, zəif sürətli nəbz və ətrafların soyuması baş verir.

Xarici sindromlar zamanı tərləmənin olmaması (başqa simptom və əlamətlərə görə diaqnoz qoyulmuşsa) patogen "soyuğun" daxil olduğunu göstərir.

Tərləmənin olması isə ya patogen "küləyin" daxil olması nəticəsində xarici "çatışmazlıq" sindromunu, ya da patogen "isti külək"in daxil olması nəticəsində xarici "istilik" sindromunu göstərir [10,11].

Yüksək hərarət fonunda güclü tərləmə, narahatlıq, soyuq içkilərə üstünlük verən susuzluq hissi və yüksək nəbz "izafilik" tipli daxili "istilik" sindromudur.

İştahanın yaxşı olması xəstəliyin yüngül və ya orta gedişini, xronik xəstəliklər zamanı iştahanın artması isə sağalmanın yaxın olduğunu göstərir.

Pis iştaha adətən xroniki xəstəliklər zamanı rast gəlinir və arıqlama, ishal, yorğunluqla müşayiət olunur. Bu zaman dil solğun olur və üzəri nazik ağ ərplə örtülür ki, bunlar da dalağın və mədənin enerjisinin zəiflədiyinə dəlalət edir.

Döş qəfəsində ağrı ilə müşayiət olunan pis iştaha, mədənin həddən artıq dolması, yapışqan ərpli dolğun dil onu göstərir ki, mədə və dalaqda patogen "rütubət" və qidanın saxlanması ilə əlaqədar enerji durğunluğu vardır [1,7,8].

Xəstəlik dövründə susuzluğun olmaması hələ orqanizmin su ehtiyatının tükənmədiyini göstərir ki, bu da "soyuq" sindromlar zamanı olur. Susuzluğun yaranması su ehtiyatının tükəndiyini və rütubətli fleqmanın orqanizmdə saxlandığını göstərir. Soyuq içkilərə üstünlük verən susuzluq hissi "isti"lik sindromunu, isti və az miqdarda içkilərə üstünlük verən isə defisit "çatışmazlıq" və "soyuq" sindromunu göstərir. İshal və qusmadan sonra güclü susuzluq hissinin olması orqanizmin mayesinin tükəndiyini göstərir [4].

Ağızda acılıq hissi qaraciyər və öd kisəsində "alov"un hiperaktivliyinin ifadəsidir. Ağızda şirin, yapışqanabənzər dad isə dalaqda və mədədə "rütubətli istilik" sindromunun ifadəsidir. Dad hissiyyatının azalması və itməsi dalaqda "çatışmazlıq", onun nəqliyyat və transformasiya funksiyasının pozulması deməkdir.

Bədənin müxtəlif yerlərinin palpasiyası

1. Epiqastral nahiyənin palpasiyası:

Sıxlaşma və təzyiq nəticəsində artan ağrılar "izafilik" sindromunu; ağrı ilə birgə doluluq hissi, təzyiq zamanı yumşaqlıq hissi "çatışmazlıq" sindromunu bildirir.

2. Qarnın palpasiyası:

Təzyiqdən azalan ağrılar "çatışmazlıq", artan – "izafilik" sindromunu göstərir. Qarında yumşaq, ağrılı, yerini dəyişən ağrılarla müşayiət olunan törəmələr "qi" durğunluğunu göstərir.

3. Akupunktura nöqtələrinin palpasiyası:

Döş və qarnın ŞU və MO nöqtələrinin müayinəsi aparılır. Təzyiqdən möhkəm ağrı əmələ gəlməsi, sıxlaşma hissi müvafiq nöqtə və kanalda "izafilik" olduğunu göstərir. Küt, təzyiqdən azalan ağrılar "qi" çatışmazlığını göstərir.

Sidiyin rənginin sarı, miqdarının az olması "isti"lik sindromunu göstərir. "Soyuq" sindromu zamanı isə sidik çox miqdarda və açıq rəngli olur. Qırmızı sidik damarların "alov"la zədələnməsidir.

Çoxlu miqdarda açıq rəngli sidik, sidik kisəsinin sidik əmələ gətirmə prosesində kontrolunun zəiflədiyini və böyrəklərin "qi"-in zəiflədiyini göstərir. Az miqdarda sarı sidiyin olması, tez-tez ağrılı sidikburaxma aktları "rütubətli istiliyin" sidik kisəsinə endiyini göstərir.

Sidiyin olmaması və ya damla-damla gəlməsi zamanı böyrəklərin "qi"nin "çatışmazlığı" sindromu, "rütubətli nəmin" aşağı enməsi nəticəsində sidik kisəsinin blokadası ilə "izafilik" sindromu, qan durğunluğu, daş əmələ gəlməsi kimi pozğunluqlar baş verir.

Qəbizlik kalın quruluğu nəticəsində, "istilik" toplanması və orqanizmin mayesinin tükənməsi zamanı olur. Duru kal dalaqda "çatışmazlıq" və "rütubət" artıqlığı zamanı, qanlı kal isə bağırsaqlara "rütubətli isti" daxil olduqda və ya enerji durğunluğu zamanı baş verir.

Ağrı xəstələrin ən çox rast gəlinən şikayətlərindəndir. Ağrının səbəbini, yerini, xüsusiyyətlərini və bununla bağlı simptomları aydınlaşdırmaq lazımdır. Ağrının xüsusiyyəti və səbəbi xəstəliyin etiologiyasını, lokalizasiyası isə xəstəliyin hansı daxili orqanda olduğunu öyrənməyə imkan verir.

Üzərinə təzyiq olunduqda artan, soyuğun təsirilə isə azalan ağrılar "izafilik" sindromunu ifadə edir. Uzunmüddətli təzyiq nəticəsində və qızma zamanı azalan ağrılar "çatışmazlıq" sindromunun göstəricisidir.

Yuxusuzluq xəstənin çətin yuxuya getməsi və ya tez oyanacaq yenidən yuxulaya bilməməsidir. Baş gicəllənməsi və ürək döyünmələri ilə müşayiət olunan yuxusuzluq dalağın və ürəyin çatışmazlığı nəticəsində ürəkdə qan çatışmazlığını göstərir. Yorğunluqla və əlaqəsiz yuxugəlmələrlə müşayiət olunan yuxusuzluq ürəkdə "alov"un hiperaktivliyi ilə əlaqədardır [11,14].

Qadınlardan aybaşı haqda soruşmaq və akuşer anamnezi toplamaq vacibdir.

Menstrual tsikl qısalmışsa və açıq qırmızı yapışqan ifrazat varsa, qanda "isti"liyin artıqlığını göstərir. Qırmızımtıl profuz qanaxmalar isə qanı idarə edən enerjinin funksional "çatışmazlığını" göstərir. Uzanmış tsikl, tünd qırmızı, laxtalı ifrazatla "soyuq" nəticəsində qan durğunluğunu, açıq rəngli ifrazatla isə qan "çatışmazlığını" göstərir.

Menstruasiya önü və menstruasiya zamanı süd vəzilərində və qarnın aşağısında kəskin ağrılar qan və enerji durğunluğunu göstərir. Qarnın aşağısında soyuqluq hissi "soyuq" nəticəsində qan durğunluğudur. Qarnın altında menstrual dövrdə və ondan sonra küt ağrılar təzyiq nəticəsində azalırsa qanda və enerjidə "çatışmazlıq" vardır.

Sulu, profuz, ağ rəngli ifrazat- "defisit" və "soyuq" sindromudur. Yapışqanabənzər, sarı və ya qanlı, xoşagəlməz qoxulu ifrazat "izafilik" və "isti"lik sindromudur.

Palpasiya nəbzin və bədənin digər nahiyələrinin əllənməsi və hiss olunması metodu ilə diaqnostika vasitəsidir. Bu diaqnostikanın ən vacib metodlarından biridir.

Nəbzin palpator müayinəsi Şərq (ənənəvi) təbabətində əsas və qədim müayinə metodlarındandır [16,17].

Hələ b.e. 500 il əvvəl qədim Çin alimi Byan-tzyaunun əsərlərində nəbzin palpasiyası haqda məlumatlara rast gəlmək olar [18,19].

Nəbzin müayinəsi çox dəyişilməmiş və ilkin formada indi də istifadə olunur. Bundan əlavə müasir instrumental nəbz müayinə metodları da vardır. Mil arteriyasının sfiqmoqrafiyası, radial pyezopulsoqrafiya, karotid nəbzin qeydiyyatı və s.

ÜST-ın bildirdiyinə görə, müasir təbabətin ən aktual problemlərindən biri klinik diaqnostikanın elə metodlarını işləyib hazırlamaqdır ki, bu metodlarda ekspresslik, sadəlik və informativlik olsun [20].

Müasir həkimlər xəstəliyin vaxtında aşkar olunması və gedişinin izlənilməsi problemi qarşısında qaldıqda diaqnoz qoymaq, müayinələr aparmaq üçün çox vaxt texnikanın köməyinə arxalanırlar və yalnız ondan istifadə edirlər. Bu isə texniki aparatların tezliklə sıradan çıxmasına səbəb olur. Dövrümüzdə aparatları baha olduğunu və iqtisadi cəhətləri nəzərə alaraq bunun həm həkimlər, həm də xəstələr üçün əlverişsiz olduğu anlaşılır. Bu baxımdan nəbz vasitəsilə diaqnoz qoyulması böyük maraq kəsb edir.

Bu bütünlükdə həkimin subyektiv hissiyyatından asılı olmasına baxmayaraq, onun dəqiq öyrənilməsi müasir təbabətdə istifadəsi üçün zəmin yaradır.

Nəbz diaqnostikasının düzgün istifadəsi müəyyən teoretik hazırlıq tələb edir. Bu baxımdan Şərq təbabətinin nozoloji sistemi ilə tanışlıq əhəmiyyət kəsb edir. İndo-Tibet təbabətinə görə orqanizmin əsas idarəetmə sistemləri üç əsasdan ibarətdir: külək, öd və selik. Peşəkarların fikrinə görə, bunların mənası 3 səviyyədə ola bilər:

1. Bilavasitə külək, öd və selik.
2. Orqanizmdə baş verən fizioloji proseslər.
3. Kosmofiziki, təbiət və s.

Xəstəlik bu əsasların normadan kənar dəyişiklikləri nəticəsində baş verir. Bütün xəstəliklər "istilik" və "soyuq" olmaqla 2 yerə bölünür. "İstilik" xəstəlikləri öd sistemindəki, "soyuq" xəstəlikləri isə selik sistemindəki zədələnmələrlə bağlıdır. "Külək" isə bu və ya digər zədələnməyə qoşularaq "istilik" və ya "soyuğun" güclənməsinə səbəb olur [11,14].

Nəbzin müayinəsi səhər tezdən, əlin cizgiləri aydın görünəndə və xəstə hələ yataqda ikən aparılır. Bu vaxt kanalın əsas istiliyi və soyuğu tarazlıqda olur. Tibet təbiblərinə görə, insan bədəninin daxilində 3 əsas enerji kanalı mövcuddur ki, bunlara da Günəşin, Ayın və Boşluğun (fəzanın) kosmofiziki enerjisi təsir göstərir.

Gecə Ayın təsiri qüvvətlidir və nəbz daha yavaş və soyuq vurur, səhər isə Günəşin təsiri ilə nəbz isti və normaya nisbətən tez-tez vurur.

Müayinədən 1 neçə sutka öncə fiziki və zehni gərginlikdən, ağlıq və izafi toxluqdan, günəşdə həddən artıq orqanizmin qızması və orqanizmin soyumasından, cinsi əlaqə və yuxusuzluqdan qorunmaq lazımdır. Bütün bunlara hər vaxt əməl etmək olmur, belə ki, xəstələr çox vaxt təcili olaraq xəstəxanaya daxil olan kimi müayinə olunmalıdırlar. Belə hallarda nəbz diaqnostikası onun sutkalıq bioritminin xüsusiyyətləri nəzərə alınaraq aparılır [1,5,9].

Həkim sağ əli ilə xəstənin sol, sol əli ilə isə xəstənin sağ əlini palpasiya edir. Həkimin şəhadət barmağı xəstənin bilək nahiyəsindəki ilk büküşdən aşağıda mil arteriyası üzərindəki nöqtədə, xəstənin baş barmağının son falanqası uzunluğuna bərabər məsafədə yerləşmişdir. Şəhadət barmaq "quan", orta barmaq "tsuan", dördüncü barmaq "qi" nöqtələrində yerləşir. Barmaqlar arasında düyü dənəsi qədər məsafə olmalıdır. Şəhadət barmaq dərini, orta barmaq əzələni, adsız barmaq isə sümük toxumasını hiss etməlidir. Təzyiqin müxtəlif ölçüdə olması mil arteriyasının əzələ qatının müxtəlif qalınlığı ilə bağlıdır.

Müayinə edən həkim hər nöqtədə nəbzi hiss etməlidir. Həkimin barmaqları isti, hamar və hissiyyatlı olmalıdır. Nəbz hər əldə 100 vurğu müddətində yoxlanılır. Əvvəlcə xəstənin "anadangəlmə nəbzi" aydınlaşdırılır. Hər insan 3 əsas nəbz tipindən biri ilə doğulur: kişi tipi – dolğun, sərt və güclü; qadın tipi – incə və tez; neytral tip – düzgün, sakit və yumşaq. Hər insanda sağlam və ya xəstə, cinsindən asılı olmayaraq, bu nəbz tiplərindən biri aşkarlanır [3,6].

Sonradan xəstənin sol əlini hiss edərkən həkim şəhadət barmağı ilə ürəyin və nazik bağırsağın, orta barmaqla qaraciyər və öd kisəsinin, adsız barmaqla böyrək və sidik kisəsinin nəbzini qeydə alır.

Sağ əlin müayinəsində şəhadət barmaq – ağciyər və yoğun bağırsaq, orta barmaq – dalaq və mədə, adsız barmaq – perikard və Sanyiao qeyd edir. Qadınlarda nəbzin müayinəsi onunla fərqlənir ki, sol əldə şəhadət barmaq ağciyər və yoğun bağırsaq, sağ əldə - ürək və nazik bağırsağı qeyd edir. Yastıqçıqların yuxarı kənarı

ilə dolğun orqanların- ürək, qaraciyər, ağciyər, böyrək və dalaq, aşağı kənarı ilə boşluqlu orqanların- mədə, yoğun və nazik bağırsaq, öd kisəsi, sidik kisəsinin nəbzi müəyyən olunur [12].

Sağlam adamın nəbzi həkimin 1 tənəffüs hərəkəti müddətində 5 dəfə vurur. 100 vurğu müddətində isə sağlam adamın nəbzi ritmik olmalıdır, yoxsa xəstəliyi göstərir. Əgər tənəffüs boyunca vurğu miqdarı 5-dən artıqdırsa – "isti"lik xəstəliyini, azdırsa – "soyuq" xəstəliyini göstərir. Əgər nəbzin tezliyi 10-a qədər qalxıb 1-ə düşürsə, bu, ölüm nəbzidir [7,11].

Bəzən elə olur ki, nəbzin tezliyi az, lakin gücü və intensivliyi çox olur, bu "istilik" sindromudur. Amma, əgər nəbz tez-tez vurur, boş və güclü deyilsə - bu "soyuq" sindromudur. Bu əlamətlər sağlam adamın da nəbzində müşahidə oluna bilər, ancaq bu halda dolğun və boşluqlu orqanların nəbzi yuxarıda və aşağıda düzgün olmalıdır. Bəzən qeyd olunur ki, əgər damar zədələnmişsə və ya müayinə zamanından əvvəl hər hansı bir orqanda cərrahi əməliyyat aparılmışsa, onda nəbzin müayinəsinə görə dəqiq nəticə çıxarmaq mümkün deyildir.

Qısa müayinə zamanı 15 vurğu ilə kifayətlənmək olar, amma daha dəqiq məlumat almaq üçün 100 vurğu müddətində müayinə aparmaq lazımdır. Müayinə zamanı həkim ancaq "anadangəlmə nəbzi" deyil, nəbzin mövsümi dəyişikliklərini də nəzərə almalıdır [11].

Nəbz diaqnostikasının Tibet təqvimi 360 gündən ibarətdir. Bu təqvim 18 gündən və 20 hissədən ibarətdir. 5 mövsüm vardır: bahar, yay, payız, qış (72 gündən ibarət) və beşinci 4 ədəd mövsüm arası dövrdür ki, 18 gündən ibarətdir. Müvafiq olaraq hər mövsümdə bu və ya digər orqanın nəbzi üstünlük təşkil edir.

Mənbələrə görə, 5 dolğun orqan (qaraciyər, ürək, ağciyər, böyrək, dalaq) mövsümi aktivliyə malik olur və bu dövrdə bu orqanların nəbzi güclənir.

Yazda qaraciyərin nəbzi güclənir, vurğu sürətli, incə və enerjili olur. Yayda ürəyin nəbzi güclənir, vurğu dolğun və uzadılmış, payızda ağciyərlərin nəbzi güclənərək, vurğusu fasiləli, qısa və möhkəm, qışda böyrəyin nəbzi güclənərək, vurğusu yumşaq, düzgün və kar, aralıq mövsümdə isə dalağın nəbzi güclü, vurğusu fasiləli və yumşaq olur.

Diaqnostika zamanı nəbz ümumi və xüsusi olmaqla 2-yə ayrılır: ümumi xüsusiyyətlərə görə xəstəliyin tipi – "isti" və ya "soyuq" müəyyənləşdirilir [5,13].

Barmaqların yastıqlarının yuxarı kənarı ilə "istilik" xəstəlikləri – 5 dolğun orqanın nəbzi ("günəşli") müəyyənləşir. Yastıqçıqların aşağı kənarı ilə "soyuq" xəstəlikləri – 6 boşluqlu orqanın ("kölgəli") nəbzi aşkarlanır. Dolğun orqanlarda "istilik", boşluqlu orqanlarda isə - "soyuq" sindromlarınadaha çox rast gəlinir. Soyuq dolğun orqanda, hərarət isə boşluqda olmur. Hərarət və soyuq ayrılıqda orqanizmin bütün hissələrində ola bilər, ancaq onlar eyni yerdə olursa, hərarət yuxarıda, soyuq isə - aşağı hissədə olur, əksinə olmur. "İstilik" və "Soyuq" xəstəlikləri 6 əsas əks əlamətə görə fərqlənirlər.

"İstilik" xəstəlikləri	"Soyuq" xəstəlikləri
1.Güclü	1. Zəif
2.Səthi, üfürülmüş	2. Dərin, itkin
3. Yumaqlanan, durulmuş	3. Sakitlənən, hamar
4. Tez, tez-tez rast gəlinən	4. Yavaş, uzunmüddətli
5. Enerjili, gərgin	5. Süst, zəif
6.Dolğun, möhkəm	6. Boş, yumşaq

Yuxarıda sayılanların mənası belədir:

Güclü – təzyiq etdikdə enerjili, aramsız nəbz.

Zəif və süst – təzyiqdən nəbz hiss olunmur.

Səthi – nəbz sanki səthdə yerləşir.

Dərin – yumşaq toxumaların arasında gizlənir.

Burulan – açıq hiss olunan nəbz.

Sakitləşən – az qüvvəlidir, dəqiq deyildir.

Sürətli nəbz – nəfəsalmada və nəfəsvermədə 6-7 vurğu edir.

Yavaş nəbz – tənəffüs zamanı 3-4 vurğu.

Möhkəm və dolğun nəbz – təzyiq etdikdə səthdə qalır.

Yumşaq nəbz – boş, asan əzilən.

Xüsusi əlamətlərə görə xəstəliyin növü həm də 2 mərhələdə müəyyənləşir. Əvvəlcə xəstəliyin cinsi 3 əsasın nəbzinə əsasən tapılır: "külək" xəstəliyi – nəbz boşluqlu, boş, bəzən dayanır; öd xəstəliyi – nəbz tez, enerjilidir; selik xəstəliyi – nəbz sakit, boşalmış, tutqundur [1,4].

Bütün bu əlamətlər ayrı-ayrı dolğun və boşluqlu orqanların nəbzində yaranaraq orqanın xəstəliyini ifadə edə bilər.

Sonra 12 nəbzə görə, "Tzun, Quan və Çi"-yə görə xəstəliyin yeri tapılır.

Müəyyən xəstəliyə dəqiq işarə edən nəbz növləri vardır: Cəmi 47-dir. Onlardan bir neçəsini misal gətirək:

Qan və limfa xəstəliklərinin nəbzi; infeksion zəhərlənmədən sonra, "istilik" xəstəliklərinin nəbzi, lokalizasiyasına görə müxtəlif – başda, beyində, sümükdə "isti" xəstəliklərinin (həzm pozğunluğu, ishal, qusma səbəbilə) nəbzi.

Beləliklə, nəbzin palpasiyası zamanı hissiyyatın kompleksi nəbzin növləri və zədənin növü, proqnozu və xəstəliyin gedişi haqda məlumat almağa imkan verir.

Elmi yanaşsaq, yəni nəbzin müayinə nəticələrini digər müayinələrin nəticələri ilə yanaşı qiymətləndirsək, müasir diaqnostika metodları arasında nəbz diaqnostikasının layiqli yerini anlaya bilərik [7].

ƏDƏBİYYAT

1. Тарнуев В.А., Николаев С.М., Кожевников В.В. и др. Восточная медицина // Международный журнал эксперементального образования, 2015 №3-2, с.197-199.
2. Тахмазов Р.Ф. Целесообразность применения некоторых диагностических методов Восточной (традиционной) медицины у больных с ДЦП / Материалы Всероссийской научно – практической конференции с международным участием «Актуальные вопросы комплексного восстановительного лечения детей с церебральными параличами». Грозный, 2012
3. Abasova İ.B. Stomatoloji praktikada odontik mikrosistemin tətbiqinin effektliyi. Stomatologiya ixtisasında t.ü.f.d. ... dis. avtoref. Bakı, 2010, 20 s.
4. Təhməzov R.F., Əliyev M.M., Rüstəmova P.B. və b. Akupunkturanın inkişaf tarixi və tibbi aspektləri // Azərbaycan tibb jurnalı, 2014, №1, s.158-162
5. Seyidbəyov O.S., Təhməzov R.F., Əliyev M.M. və b. Daxili orqan patologiyasının ekspress-diaqnostikası. Tədris-metodik vəsait. Bakı, 2009, 18s.
6. Təhməzov R.F. İridodiaqnostika. Bakı: Azərbaycan Universteti nəşriyyatı, 1998, 157s.
7. Təhməzov R.F. Müasir Şərq təbabəti. Bakı, 2002, 350s.
8. Табеева Д.М. Руководство по иглоксотерапии. М.: Медицина, 1980, 560 с.
9. Ələkbərli F. Vatikan arxivlərində saxlanan Azərbaycana aid əlyazmalar. Bakı: "Elm və təhsil", 2014, 76s.
10. Тахмазов Р.Ф. Применение нового типа экспресс-диагностики для пациентов с головной болью / Материалы Первого Российского Конгресса по комплементарной медицине. М., 2013, с 186-189
11. Тахмазов Р.Ф. О применении методов Восточной (традиционной) медицины в медико-социальной реабилитации людей с ОВЗ. // Вестник Московского Государственного гуманитарно-экономического института, 2012, № 4, с. 83-90
12. Тахмазов Р.Ф. Теоретические и практические основы современной Восточной медицины. Баку, « Ziya»-ИПЦ « Нурлан», 2000, 608 с.
13. Тахмазов Р.Ф., Гулиева У.З., Тахмазов Р.Р. и др. Иридодиагностика и ее эффективность при диагностике заболеваний желудочно-кишечного тракта / Z.T.Quliyevanın 90 illik yubileyinə həsr olunmuş elmi konfransın materialları. Bakı, 2013, s. 247-249
14. Tahmazov R.F. Abstract Azerbaijan the international maqazine September/October 2015, 445
15. Wozniak M. Iridodiagnostika. Warzawa: Tramp.,1990, 100 S.
16. Woinar E. Iridotronika v lekarske gtnetike / Sbornik mezinarodni konferense o iridotronickem vyzkumu. Havirov, 1980, p.11-2
17. Ələkbərli F. Vatikan arxivlərində saxlanan Azərbaycana aid əlyazmalar // Azərbaycan Milli Eımlər Akademiyasının Xəbərlər Məcmuəsi, 2014, Cild 1, N2, s.11-18
18. Алекберли Ф.. Наука и образование. В книге: "Азербайджанцы". Серия «Народы и культуры» / отв. ред. А. Мамедли, Л.Т. Соловьева; Институт Этнологии и Антропологии Российской АН ; Национальная АН Азербайджана. М.: Наука, 2017, 708 с.
19. Alakbarli F. Los Curadores de Karabaj. Irs (Heritage), 1(6), primavera 2014, pp. 56-62
20. Alakbarli F., Hajiyev H. Medical Ethics in the Works of Medieval Muslim Scholars. The 2nd World Congress on the Integration And Islamicisation: Focus On Medical And Health Care Sciences, 21-23 October, 2016, IIUM Kuantan, Abstract book, p. 175

Резюме

Диагностические методы Восточной медицины

Р.Ф.Тахмазов

Восточная (Традиционная) медицина существовала еще до нашей эры. Некоторые врачи до сегодняшнего дня не имеют четкого понятия о методах Восточной медицины и очень часто ее путают с народной медициной. Автор в своей статье дает информацию о некоторых методах диагностики в

Восточной медицине. Особое место в статье отведено традиционной пульсовой диагностике, которая в корне отличается от современной.

Summary

Diagnostic methods of Eastern medicine

R.F.Takhmazov

Eastern (Traditional) medicine existed even before our era. Some physician still do not have a clear understanding of the methods of Eastern medicine and are very often confused with traditional medicine. The author in his article gives information about some diagnostic methods in Eastern medicine. A special place in the article is devoted to the traditional pulse diagnosis, which is fundamentally different from modern.

Daxil olub: 25.07 2018

PEYVƏNDLƏRİN ETIBARLILIĞI VƏ YAN TƏSİRLƏRİ

N.A.Əzizova

Ə.F.Qarayev adına 2 saylı Klinik Uşaq Xəstəxanası, Bakı

Açar sözlər: peyvənd, standart, təlimatlar, uşaqlar
Ключевые слова: вакцины, инструкции, дети
Key words: vaccines, instructions, children

Peyvənd insan sağlamlıq tarixində qazanılmış ən böyük nailiyyətlərdən biri olub, orqanizmin immun sistemini qıcıqlandıraraq xəstəliyə qarşı immunitet yaradan bioloji profilaktika üsuludur. Hal hazırda peyvənd yoluxucu xəstəliklərdən qorunmaq üçün ən təsirli, etibarlı, iqtisadi əlverişli və doğru tibbi yanaşma üsulu hesab edilir. Peyvəndləmənin aparılmasında məqsəd insanları infeksion xəstəliklərdən qorumaq, xəstəliyi nəzarət altına götürərək qarşısını almaq və imkan daxilində xəstəliyin törədicisini tədricən yox etməkdir. Ümumdünya Səhiyyə Təşkilatı uşaqların sağlamlığı üçün peyvəndlərin vacibliyini vurğulayaraq 1974-cü ildən etibarən "Genişləndirilmiş Peyvəndlənmə Proqramı"-nı başlatmışdır.

1796-cı ildə ingilis alimi Edvard Jenner tərəfindən əsası qoyulan ilk çiçək əleyhinə peyvəndləmə sonralar bir çox infeksion xəstəliklərə qarşı da peyvəndin yaranmasına gətirib çıxarmışdır. Nəticədə peyvəndlər insanlığı yüz illərlə mübarizə etdiyi xəstəliklərdən qorumuş və onların aradan qalxmasına yardım etmişdir. Xəstəliklərə Nəzarət və Qarşısının alınması Mərkəzi (Centers for Disease Control and Prevention- CDC) 1912-ci ildən etibarən belə xəstəlikləri qeydə almaqdadır. Yaradılmış peyvəndlərdən əvvəl və sonra müxtəlif infeksion xəstəliklərin rast gəlinmə tezliyinin təyini son onilliklərdə onların kəskin şəkildə azalmasını müəyyən etmişdir [1]. Hal-hazırda hər bir ölkədə yerli yayılmış infeksiyalar da nəzərə alınaraq əhali arasında Peyvəndlərin Ümumi Milli İmmunizasiya Proqramı tətbiq edilir [2]. Bir çox ölkələrdə uşaqlıq dövründə peyvəndlərin düzgün ardıcıllıqla edilməsi sayəsində qarşısı alına bilinən xəstəliklər daha az təsadüf olunur. Çiçək xəstəliyinin 1977-ci ildən etibarən ortadan qalxması buna göstəriləcək ən uyğun misaldır.

Dünyada hər il 5 yaşın altında uşaqlar arasında 12 milyon ölüm qeydə alınır ki, bunların 98 faizi inkişaf etməkdə olan ölkələrin payına düşür. Ölümlərin 60%-nə səbəb infeksion xəstəliklərdir: məsələn 2002-ci ildə qızılcadan 770 min, Hepatit B-dən 520 min, (215 min neonatal hepatit olmaqla), tetanusdan 410 min, hemofilus influenza tip B-yə bağlı olan invaziv infeksiyalardan 400 min, göy öskürəkdən 345 min, difteriyadan 5 min uşaq həyatını itirmişdir. Hər il 300 min uşaq vərəmdən itirilir. İnfeksion xəstəliklərin ağırlaşmalarına bağlı olaraq hər il 750 min uşaqda əllilik yaranırm [3].

İnkişaf etməkdə olan ölkələrdə əsas Genişləndirilmiş Peyvəndlənmə Proqramına daxil olan 6 peyvənd (BCG, difteriya, göy öskürək, tetanus, poliomielit, qızılca) uşaqlar arasında 74%-dən az həyata keçirilir ki, bu da yoluxucu xəstəliklərdən qorunmaq üçün yetərsizdir. Əhali arasında daha təsirli immunlaşma yaratmaq üçün bu rəqəm ən azı 90 %-i keçməlidir [4]. Son bir neçə on il ərzində peyvənd inkişafında irəliləyiş insanların ən böyük tibbi nailiyyətinə çevrilmişdir və papilloma virusa, Chikungunya virusuna (CHIKV), hepatit C virusuna (HCV) və qrip virusuna qarşı peyvəndlərin tətbiqinə başlanmış, yeni nanovaksinlər işlənib hazırlanmışdır [5].

2018-ci ildə Ümuçdünya Səhiyyə Təşkilatının 2018-ci Peyvənd Cədvəlini yenidən dərc etdrimişdir [6].

Peyvəndlərin mühüm əhəmiyyət kəsb etməsinin əsas səbəbləri:

- Peyvəndlər insan sağlamlığını qoruyur: digər sağlamlıq müdaxilələrindən fərqli olaraq, hər bir insanın sağlam qalmasına kömək edir, insanın fiziki inkişafına və həyat fəaliyyətinə maneə törətmir;
- Peyvəndlər çox sürətli təsir göstərirlər: 2000-2008-ci illər arası qızılcaya qarşı peyvəndlərin edilməsi bu xəstəliyə qarşı qlobal ölüm halını 78% azaltmışdır;
- Peyvənd həyatı qorumaqla yanaşı iqtisadi faydalıdır: Son zamanlarda, seçilmiş iqtisadçılar qrupu tərəfindən qlobal rifahı inkişaf etdirmək üçün 30 qənaətcil üsullardan biri kimi dördüncü sırada uşaqlar üçün genişləndirilmiş immunizasiya (peyvəndlənmə) proqramı göstərilmişdir [7].

Peyvəndlənmənin standartlaşdırılması. Peyvəndlənmə səhvlərini mümkün olduğu dərəcədə azaltmaq və yan təsirləri minimuma endirmək üçün Peyvəndləmənin Stantarlaşdırılması qaydalarına ciddi əməl olunmalıdır. Peyvəndlənmənin standartlaşdırılma qaydalarının ən əsasları aşağıda qeyd edilmişdir:

1. Peyvənd edilən tibb məntəqələri əhaliyə yaxın yerləşməlidir və ehtiyac olunan hər kəsə edilməlidir;
2. Peyvəndlər pulsuz ya da çox kiçik ödəmə ilə olmalıdır;
3. Peyvəndlənmədə həqiqi əks göstərişlərə əməl olunmalıdır, peyvəndlənmə fürsətləri əldən verilməməlidir;
4. Ailələr peyvəndin faydaları və riskləri barədə maarifləndirilməlidirlər;
5. Peyvəndin saxlanma və hazırlanma qaydalarına diqqətlə yerinə yetirilməlidir;
6. Peyvəndi edən tibb personalına yeni tibbi məlumatlar öyrədilməlidir;
7. Peyvənd qeydləri tam, düzgün və başa düşülən formada aparılmalıdır;
8. Cəmiyyətdə peyvəndlənmə göstəricisini yüksəldəcək yeni yollar tapılmalıdır [7].

Peyvəndlənmədə yol verilən səhvlər. Peyvəndləmədə edilən səhvləri əsasən 4 qrupda cəmləşdirə bilərik:

1. Peyvəndlərin saxlanma və hazırlanma mərhələsindəki xətalar (soyuq zəncirlə bağlı olaraq); 2.İstifadəsi zamanı edilən xətalar (iynənin vurulma metodikası ilə bağlı olaraq); 3.İstifadədən sonra edilən xətalar (peyvənd qeydləri və müşahidəsi); 4. Yeni peyvəndlərin edilməsi ilə bağlı xətalar [8].

Peyvəndləmə zamanı edilə bilinəcək xətaları aradan qaldırmaq üçün və ya minimuma endirə bilmək üçün peyvəndlənməin hər mərhələsində qanunlara riayət edilməsi vacibdir.

Peyvəndlərin saxlanılmasında soyuq zəncir şərtini ödəyə bilmək üçün lazım olan qaydalar aşağıdakılardır: 1.Canlı aşılar istiyə və işığa həssasdırlar, yalnız dondurularaq saxlana bilinirlər. 2.İnaktiv peyvəndlər dondurula bilməzlər. 3.Soyuducuda ən çox 1 aylıq peyvənd yerləşdirilməlidir. 4.Peyvənd soyuducusu yalnız bu məqsədlə istifadə olunmalıdır, daxili termometrlə temperatur nəzarətdə saxlanılmalıdır. 5.İstifadə müddətinə diqqət edilməlidir [9].

Peyvəndlərin hazırlanması dövründə diqqət olunması vacib olan məqamlar: 1.Sulandırılmış halda olan Difteriya tetanus (DT), difteriya-göy öskürək-tetanus (GDT), Difteriya-tetanus (Td), hepatit B (HB), hepatit A (HA) kimi peyvəndlər son istifadə tarixinə kimi işlədilə bilinər. 2.Sulandırıldıqdan sonra qızılca və qızılca-məxmərək-qulaqdibi (QPM) peyvəndi 4-8 saat, BCG 4 saat, su çiçəyi 30 dəq içində edilməlidir. Oral polimielit peyvəndi istifadə sonrası dondurula bilinər. 3.Fərqli peyvəndlər eyni şprisə toplanmamalıdır. 4.Doz hazırlamada və sulandırmada diqqətli olunmalıdır [10].

Peyvəndlənmə zamanı aşağıdakılar nəzərə alınmalıdır: 1.Peyvəndlənmə təlimatlara uyğun olaraq edilməlidir.2.BCG peyvəndi dəri daxili yerinə dərialtı edilərsə, peyvənd yerində irinləmə və limfadenit riski daha yüksəkdir.3.Tərkibində adyuvant təsirli əlavələr olan peyvəndlər (GDT, DT, Td, HB, HA) əzələ içi yerinə dərialtı edilərsə, lokal qıcıqlanma, qranuloma, steril abses, toxuma nekrozu, fibrozis yarana bilər. 4.Əzələ içinə edilməli olan peyvəndlər gluteal bölgəyə edilməməlidir. 5.Əzələ içi olunmalı olan peyvəndlər südəmər uşaqlarda ən çox bud, daha böyük uşaqlarda isə deltoid nahiyə məsləhət görülür. 6.Azaldılaraq və ya bölünərək peyvənd etmək olmaz. Əks halda təkrar edilməlidir.7.Daha yüksək dozda edilən inaktiv peyvəndlərdə yan təsirlər daha çox müşahidə olunur. 8.Eyni anda birdən çox edilən peyvəndlər eyni ətrafa 2 sm məsafə gözlənilərək edilə bilinər. 9.Hər peyvəndin iynəsi və şprisi ayrı olmalıdır. 10. Əzələ daxilinə edilən peyvəndlərdə iynənin uzunluğu südəmər uşaqlarda 1.5-1.8 sm, 1-6 yaşlarda 1.8-2 sm, daha sonrakı yaşlarda isə 2-2.5 sm olmalıdır.11.Əzələ içi edilən peyvəndlərdə peyvənd edilmə zamanı şprisə qan gəlirsə, iynə ucu dəyişdirilməli və fərqli nahiyəyə peyvənd yenidən olunmalıdır. 12.Yüngül və ya orta dərəcəli qanama diatezləri olan uşaqlarda peyvəndləmə zamanı fəsad riski statistik olaraq yüksəlmir [10].

Cəmiyyətdə peyvəndlənmə nisbətinin aşağı olmasında səbəblərdən biri də bəzi tibb işçilərinin lazımsız şübhələridir. Bunu "yalnış əks göstərişlərə" də aid etmək olar.

Peyvəndlənmədə yanlış əks göstərişlər aşağıdakılardır: 1.Yüngül keçirilən az qızdırmalı yuxarı tənəffüs yolu infeksiyaları, qastroenteritlər; 2.Xəstəliklərin sağalma dövrləri; 3.Antibiotik istifadəsinin olması; 4.Yarımçıq doğulmuş uşaq olması; (bədən çəkisi 1500 qramdan az olan altında olan körpələrə Hepatit B peyvəndi edilmir); Anada HbsAg pozitivdirsə, doğuşdan sonra olunan Hepatit B peyvəndi təkrarlanır (ümumi 4 peyvənd edilir). Bədən çəkisi 2000 qram-dan aşağı olan körpələrdə (BCG peyvəndi daha az

immunlaşma formalaşdırır); 5.Ananın hamilə olması; 6.GDT peyvəndindən sonra yüksək qızdırma, lokal reaksiya; 7.Ana südü alması; 8.Qısa sürə əvvəl infeksion xəstəliklə təmasın olması; 9.Antibiotik, jelatin, thiomerosal, yumurtaya qarşı anafilaksiya xaricində olan reaksiyalar; 10.Malnutrisiya vəziyyəti [11].

Peyvəndlərin yan təsirləri. Əslində heç bir peyvənd tam olaraq etibarlı, riskdən azad və 100% effektiv deyildir. Hər bir peyvəndin tətbiqindən sonra yan təsirlər rast gəlinə bilər. Peyvəndlənmənin etibarını sarsıdan ən əsas amil isə peyvəndin yan təsirlərinin olmasıdır. Ona görə də peyvəndlənmə aparılan zaman ailəyə ilkin öncə peyvəndlənmə nəticəsində ola biləcək ağırlaşmalar və yan təsirlər diqqətlə və səbirlə izah olunmalıdır.

Peyvənddən sonra görülən yan təsirlər də bu əlamətlərin peyvəndlə olan münasibətinə görə bölünür:

1. Peyvənddən yaranan: Peyvəndin tərkibinə və peyvənd edilən şəxsin orqanizminin cavab fərqliliyinə bağlı olaraq formalaşan yan təsirlərdir. Bu əlamətlər peyvənd əgər edilməsə idi müşahidə olunmayacaqdı.
2. Peyvəndinin qıcıqlandırdığı əlamətlər: Peyvənd edilsə də, edilməsə də bu əlamətlər özünü büruzə verəcəkdi. Sadəcə peyvəndlər bu əlamətlərin ortalığa çıxmasını sürətləndirmişdir. Məsələn, meyillik olan bir uşaqda peyvənddən sonra ilk qızdırma ilə bağlı qıcolmanın görülməsi.
3. Proqram xətası: Peyvəndin hazırlanması və istifadəsi zamanı texniki xətalara bağlı olaraq yan təsirlər.
4. Koinsidental: Altda yatan başqa xəstəliyə bağlı əlamətlərin peyvənddən sonra ortaya çıxmasıdır [2].

Uşaqlıq dövrü peyvəndlənmənin əsas aparıldığı dövr olmaqla yanaşı, həmçinin nevroloji və metabolik xəstəliklərin əlamətlərinin ortalığa çıxdığı bir yaş qrupudur. Peyvənd edildikdən sonra əlamətlər ortalığa çıxdığı zaman ailələr daha çox bu əlamətləri peyvəndlə əlaqələndirir. Ona görə ortaya çıxan sağlamlıq problemlərinin "peyvəndləmə ilə əlaqəlidirmi?", yoxsa "təsadüfən mi o dövrdə özünü büruzə verib" müəyyən edilməlidir [2].

Adətən düşünlür ki, peyvəndlərin yan təsirləri onların tərkibinə bağlıdır. Lakin,öyrənilmişdir ki, peyvəndlərin yan təsirləri daha çox hallarda onun depolanması, saxlanma şəraiti və istifadəsi zamanı yol verilən səhvlərdən yaranır. Ən çox peyvəndə qarşı allergik reaksiyalar müşahidə olunur. Peyvənd yerində sistemik reaksiyalar (səpkilər, qızdırma, limfapatiya) və ya lokal olaraq (qızarıqlıq, ağrı, şişkinlik) inkişaf edə bilər. Lokal reaksiyalar xüsusən difteriya və tetanus peyvəndindən sonra görülür. Buna səbəb isə toksiki doz edilərək yüksək antitel cavabının görülməsidir [12]. Peyvənd antigenləri xaricində tərkibində olan antibiotiklər (streptomisin, neomisin, gentamisin və polimiksin B), qoruyucular (Tiomerosal, fenol, 2-fenoksietanol, femerol), stabilizatorlar (sukroz, Laktoza, glisin, Mono sodium glutamate), insan serum albumini, magnezium və heyvan zülallarına qarşı allergiya formalaşa bilər. Xüsusən, yumurta allergiyası və anafilaktik reaksiya keçirdiyi barədə anamnezi olan şəxslərə influenza peyvəndi edilməməlidir [13]. Bohlke K və əməkdaşları 8 milyon doz peyvənd tətbiqindən sonra (qızılca-məxmərək-qulaqdibi, difteriya-tetanus-göy öskürək, hepatit B, difteriya-tetanus, influenza tip B və oral polimielit) anafilaktik şok yaranma riskinin milyon dozda 0.65 olduğunu müşahidə ediblər [14]. Tərkiblərində müxtəlif antibiotiklər olan peyvəndlər oral polimielit, inaktiv polimielit (neomisin, polimiksin B, streptomisin) və qızılca-məxmərək-qulaq dibi, suçiçəyi (neomisin) həssas insanlarda allergik reaksiyalar verə bilərlər. Oral polimielit peyvəndində nadir olsa da (2.4 milyon dozada bir) paralitik xəstəlik görülə bilər [15].

Türkiyə Səhiyyə Nazirliyi 2009-cü ildən etibarən xüsusən DaBT-İPA-Hib peyvəndlənməsindən ilk 72 saat ərzində uşaqda konvulsiya/ensefalopatiya reaksiyaları inkişaf edə biləcəyi mövzusunda həkimləri xəbərdar etmişdir. Qızılca peyvəndi daxil olan kompleksdə isə təqribən 5-12 gün sonra ensefalopatiya/ensefalit, konvulsiya və trombositopeniya cəhətdən uşaqlarda diqqətli olunması tövsiyə olunur(13). Difteriya-göy öskürək- tetanus peyvəndi ilk dozadan sonra 48 saat içində ›40.5 C qızdırma, kollaps halı, 3 saatdan çox çəkən yüksək səsli ağlama, 3 gün içində olan qıcolma, 6 həftə içində yaranan Guillan- Barre sindromu (iflicə qədər çatan neyropatiyaya səbəb olan autoimmun xəstəlik) əlamətləri olduğunda təcili həkimə müraciət edilməlidir. Bir çox ölkədə rutin olaraq istifadə olunan peyvəndlərin ümumi reaksiyaları aşağıdakı kimidir [16].

Peyvəndlərin tətbiqinə müasir baxış. Peyvəndlərlə bağlı aparılan bəzi müşahidələrdə onların autizmə, diqqət defisiti və hiperaktivliyə, nevolojik pozuntulara, iltihabi bağırsaq xəstəliklərinə və bəzi immun sistemi xəstəliklərinə səbəb olduğu iddia edilir [15,17]. Bu məlumatlar peyvənd əleyhinə kampaniyaların yaranmasına yol açmışdır [18]. Dünyada illərə uyğun olaraq autizm rast gəlmə sıxlığının artması bu mübahisənin daha da şiddətlənməsinə səbəb olmuşdur. Məsələn, ABŞ-da 2000-2012 illəri arasında bütün əyalətlərdə aparılan müşahidəyə görə 8 yaşında uşaqlar arasında 2000-2006 illəri dövründə 150 uşaqda 1 autizm görüldüyü halda, 2006- dan sonra bu göstərici 68 uşaqdan birə yüksəlmişdir [19]. Autizm, xüsusən QPM və tərkibində thiomerosal maddəsi olan peyvəndlər tərəfindən yarandığı şübhə olunur. Bu mövzunu ədəbiyyatlarda dəstəkləyən məqalələr də vardır [15,17]. Bununla bərabər bir çox məqalə də tərkibində thiomersal olan QPM peyvəndi ilə autizm arasında heç bir əlaqənin olmadığı da göstərilir [20-24]. Buna

görə də Dünya Səhiyyə Təşkilatı 2004-cü ilində verdiyi hesabatda peyvəndlərin tərkibində civə olan thiomersal maddəsinin toksiki səviyyədə olmadığını və istifadəsinə ehtiyac olduğunu qeyd etmişdir [25]. Ancaq ABŞ-da 2001-ci ilindən etibarən peyvəndlənmə səviyyəsinin aşağı düşəcəyindən qorxaraq tərkibində civə olan peyvəndlərin istifadəsini ortadan qaldırmışdır [26[.

Cədvəl

Bir çox peyvəndlərin ümumi reaksiyaları

Peyvəndlər	Ağrı, şişkinlik, qırmızılıq	Qızdırma >38^0 C	Ümumi əlamətlər
BCG	90-95%		
Hemofilus influenza tip B	5-15%	2-10%	
Hepatit B	Böyüklərdə 15% Uşaqlarda 5%	1-6%	
Qızılca-məxmərək-parotit (QPM)	>10%	5-15%	5% səpki
Oral polimielit	Çox nadir	<1%	<1% diareya, baş ağrısı, əzələ ağrısı
Tetanus/Tetanus, difteriya	>10% 50-85% yüksək dozda	>10%	<25% əsəbilik və narahatlılıq
Göy öskürək (tam hüceyrə)	>50%	>50%	>55% əsəbilik və narahatlılıq

Peyvəndləmə zamanı analgetiklərin istifadəsi ilə bağlı bir sıra ziddiyyətli fikirlər vardır. Bu fikirlər peyvəndləmə də analgetik profilkatik istifadəsinin qızdırma reaksiyası üzərində və antitel cavablanmasına təsir etdiyi ilə bağlıdır. Peyvəndləmədən sonra qızdırmanın olması normal iltihabi prosesə cavab olsa da, bəzən yüksək qızdırma ilə birlikdə qıcolmaların görülməsi profilaktik olaraq antipiretiklərin istifadəsinə yol açmışdır [27]. Ancaq, ədəbiyyatlarda bu fikirləri dəstəkləyən məqalələr çox azdır. Təqribən 25 il əvvəl aparılan iki təcrübədə profilaktik asetaminofen (analgetik- antipiretik) GDT peyvəndinin 4-cü saatında, digəri isə ilk 48 saatda edilmiş və immun cavabına heç bir təsirinin olmadığı müşahidə olunmuşdur [28,29]. Bu mövzuda ən yeni araşdırmanı isə Prymula və tələbələri ediblər [27]. Müşahidələrində 459 uşaqda profilaktik olaraq analgetiklərin primer və rapel peyvəndlərdən sonra verilməsinin immun cavaba və qızdırmaya təsiri öyrənilmişdir. Peyvəndləmədən sonra 24 saat ərzində 6-8 saat aralarla 3 doz asetaminofen verilmiş və tədqiqatın sonunda asetaminofen verilən və verilməyən qruplar arasında qızdırma görülmə tezliyi bənzər olduğu müşahidə edilmişdir [27]. Nəticə etibarilə aparılan tədqiqatlarda profilaktik asetaminofen istifadəsinə rutin olaraq ehtiyac olmadığı təyin edilmişdir [26,27,30]. Çünki, profilaktik asetaminofen istifadəsi həm peyvəndin yan təsirlərini azaltmır, həm də həkimə müraciət tezliyində dəyişiklik etmir. Bununla birlikdə bəzi müəlliflərin fikrincə antitel hazırlanmasında azalmaya yol açа bilir [24].

Türkiyədə 9 ay-8 yaş arası 302 uşaqda aparılan tədqiqatda Hepatit B-yə qarşı peyvəndlənmədən sonra HbsAg, AntiHbsAg öyrənilmişdir. En az 3 doz peyvəndlənmədən sonra 9 ay-3 yaş arası 88.47%, 3-5 yaş arası 89.48%, 5-8 yaş arası isə 72.96% AntiHbsAg pozitiv olaraq, HbsAg isə 1% olaraq təyin edilmişdir [31].

Uzun illərdir ki, peyvəndlənmənin aparılması nəticəsində bəzi xəstəliklərə tutulma, ölüm riski və bu xəstəliklərin ağırlaşmaları artıq azalmış, hətta görülməməyə başlamışdır. Buna görə də cəmiyyətdə bu xəstəliklərə qarşı qorxu azalmış, amma peyvənd tətbiqində ağırlaşmalar azalmadığı üçün peyvəndə ailələr tərəfindən bəzən şübhə ilə yanaşmağa başlanılmışdır. Bu vəziyyət isə peyvəndlərin vaxtı-vaxtında edilməməsinə, davamsızlığa, xəstəliyə qarşı həssas populyasiyanın yaranmasına və epidemiyaların inkişafına risk yaradır. Peyvəndlənmə proqramının davam etdirilməsi üçün əhalinin tam məlumatlandırılması və etibar qazanılması vacibdir [32].

Beləliklə də, son illərdə aparılan elmi tədqiqatlar nəticəsində peyvəndləmənin yüngül yan təsirlərə malik və müxtəlif həyati təhlükə daşıyan yoluxucu xəstəliklərdən qorunmaq üçün ən etibarlı bir profilaktik vasitə olduğu təsdiq edilmişdir.

ƏDƏBİYYAT

1. Işın Yaprak, Oya Halıcıoğlu Ümran Kurum və s. Iki - Altı Yaş Çocuklarda Aşılanma Durumu ve E ileyen Risk Faktörleri // İzmir Tepecik Hast Derg., 2005, v.15(1), p.13-21
2. Kadriye Yurdakök, Aşı güvenliği ve yan etkiler, Katkı Pediatriya Dergisi Aşılar 1-2 cilt:28, 2006, p.857-881
3. Ahmet A. Aşılamada yapılan hatalar // Türk Pediatri Arşivi, 2004, c.39, s.9-13
4. States of theWorld's. Vaccines and Immunization 2002.

5. Bonam S.R., Partidos C.D., Skm H., Muller S. An overview of novel adjuvants designed for improving vaccine efficacy // Trends Pharmacol Sci, 2017, v.9, p.771-93

6. Summary of WHO PositionPapers – Recommended Routine Immunizations for Children (updated April 2018)

7. VACCINE SAFETY BASICS, World Health Organization, 2013

8. Wenger J. Vaccines for the developing world: current status and future directions // Vaccine, 2001, v.19, p.1588- 91.

9. General recommendation on Immunization // MMWR, 2002, v.51, RR-2.

10. WHO/UNICEF [Internet]. Global Immunization Data, July 2014 [Updated: 2013; Cited: 2016 Dec 16]. Available from: http://www.who.int/immunization/monitoring_ surveillance/global_immunization_ data.pdf?ua=1.

11. Yurdakök K. Sosyal Pediatri yaklaşımı ile aşılar. // Katkı Pediatri Dergisi., 1998, v.19, p.415- 20.

12. Yalçın I. Aşıların yan etkisi // Güncel Pediatri, 2005, v.3(2), p.116-7.

13. Akşit S. Aşılarla ilgili genel kurallar // Klinik Gelişim. 2012, v.25(1), p.4-11

14. Bohlke K., Davis R.L., Marcy S.M. et al. Risk of anaphylaxis after vaccination of children and adolescents // Pediatrics. 2003, v.112(4), p.815-20

15. Wakefield A.J., Murch S., Anthony A. et al. Ileal-lymphoid-nodular hyperplasia, non-specific colitis, and per vasive developmental disorder in children // Lancet, 1998, v.351(9103), p.637-41.

16. World Health Organization. Immunization, Vaccines and Biologicals. WHO vaccine position papers. http://www.who.int/immunization/position_papers/en 17

17. Kata A. A postmodern Pandora'sbox: anti-vaccination mis information on the internet // Vaccine, 2010, v.28(7), p.1709-16.

18. Uhlmann V., Martin C.M., Sheils O. et al. Potential viral pathogenic mechanism for new variant inflammatory bowel disease // Mol Pathol.. 2002, v.55(2), p.84-90.

19. Christensen D.L., Baio J., Braun K.V.N. et al. Prevalence and characteristics of autism spectrum disorder among children aged 8 years-autism and develop mental disabilities monitoring network, 11 Sites, UnitedStates, 2012 // MMWR Surveillance Summaries. 2016, v.65(3), p.1-23.

20. Dales L., Hamer S.J., Smith N.J. Time trendsin autism and in MMR immunization coverage inCalifornia // JAMA, 2001, v.285(9), p.1183-5.

21. Hornig M., Briese T., Buie T. et al. Lack of association between measles virus vaccine and autism with Enteropathy: A Case-Control Study // PLOS ONE. 2008, v.3(9), p.3140.

22. Taylor B., Miller E., Lingam R. et al. Measles, mumps, and rubella vaccination and bowel problems or developmental regression in children with autism: population study // BMJ. 2002, v.324(7334), p.393-6.

23. Fombonne E., Chakrabarti S. No Evidencefor A New Variant of Measles-mumps-rubella-Induced autism // Pediatrics. 2001, v.108(4), p.1-8.

24. Hviit A., Stelfeld M., Wohlfahrt J., Melby M. Association between thiomersal containing vaccine autism // JAMA, 2003, v.290(13), p.1763-6.

25. World Health Organization. Guidelines on regulatory expectations related to the elimination, reduction or replacement of thiomersalin vaccines // WHO Technical Report Series. 2004, v.926(1), p.95-102.

26. Yalçin S.S., Gümüc A., Yurdakök K. Prophylacticuse of acetaminophen in children vaccinated with diphtheria tetanus-pertussis // World J Pediatr. 2008, v.4(2), p.127-9.

27. Prymula R., Siegrist C.A., Chlibek R., et al. Effect of prophylactic paracetamol administration at time of vaccination on febrile reactions and antibody responses in children: Twoopen-label, randomised controlled trials // Lancet, 2009, v.374(9698), p.1339-50.

28. Uhari M., Hietala J., Viljanen M.K. Effect of prophylactic acetaminophen administration on reaction to DTP vaccination //Acta Paediatr Scand. 1988, v.77(5), p.747-51.

29. Long S.S., Deforest A., Smith D.G. et al. Longitudinal study of adverse reactions following diphtheria-tetanus-pertussis vaccine in infancy //Pediatrics. 1990, v.85(3), p.294-302.

30. Manley J., Taddio A. Acetaminophen and ibuprofen for prevention of adverse reactions associated with childhood immunization // Ann Pharmacother., 2007, v.41(7), p.1227-32.

31. Burçin Nalbantoğlu, AyşinNalbantoğlu, Nihan UygurKülcü, Aysu Say, 9Ay - 8 Yaş Arası Çocuklarda Hepatit B Sero prevalansıve Aşılanma Durumları // Çocuk Dergisi, 2010, v.10(3), p.116-121

32. Bruno B., Rossella D.M., Alberto D. Optimal public health intervention in a behavioural vaccination model: the interplay between seasonality, behaviour and latency period Mathematical Medicine and Biology // A Journal of the IMA, 2018

Резюме
Надежность вакцинов и побочные эффекты
Н.А.Азизова

В статье описаны различные виды вакцинации для детей. Дана инстукция по применению, а также пофоблчные действия. В обзоре анализированы источники различных авторов последний лет.

Summary
Vaccine Reliability and Side Effects
N.A. Azizova

The article describes various types of vaccination for children. An instruction on the application, as well as pofoblchnye action. The review analyzes the sources of various authors over the past years.

Daxil olub: 07.08 2018

ANTİCİSM ÇATIŞMAZLIĞI İLƏ MÜŞAHİDƏ OLUNAN BİRİNCİLİ İMMUN ÇATIŞMAZLIQLARI

M.A. Hüseynova
Ankara universiteti, Tibb fakültəsi, Ankara

Açar sözlər: birincili immun defisit, anticisim çatışmazlığı
Ключевые слова: первичный иммунодефицит, недостаточность антител
Key words: primary immunodeficiency, antibody deficiency

İmmun çatışmazlığı sindromları orqanizmin immun sisteminin zəifləməsi ilə əlaqədar yaranan patoloji proses olub, yad antigeni destruksiya, eliminasiya etmək qabiliyyətinin azalması və itirilməsi ilə səciyyələnir. İmmun çatışmazlığı orqanizmin xəstəliklərə qarşı müqavimətini zəiflədir. Belə şəxslər tez-tez xəstələnir və xəstəliyi ağır keçirirlər. İmmun çaışmazlığı anadangəlmə (ilkin) və qazanılma (ikincili) olur.

Anadangəlmə immun çatışmazlığı olan uşaqlar tez-tez infeksion xəstəlikərə tutulurlar, onların fiziki inkişafı ləngiyir, kiçik yaşda infeksion xəstəliklərdən və ya bədxassəli şişlərdən tələf olurlar.

Anadangəlmə immun çatışmazlığı sindromları üç qrupa bölünür:

1. Hüceyrəvi immunitet çatışmazlığı (axondroplaziya, timusun inkişaf etməməsi və s.).
2. Humoral immunitet çatışmazlığı (X xromosomu ilə əlaqədar olan aqammaqlobulinemiya, immunoqlobulinlərin ayrı-ayrı növlərinin çatışmazlığı).
3. Qarışıq immunitet çatışmazlığı (İsveçrə tipli aqammaqlobulinemiya, ataksiya-teleangiekaziya).

Qazanılma immun çatışmazlığı iki növ olur:

1. Birincili, yəni bilavasitə immunokompetent sistemi zədələyən amillərin törətdiyi immun çatışmazlığı sindromu (QİÇS).
2. İkincili, yəni bəzi xəstəliklər (leykoz, limfoqranulomatoz, limfosarkoma və s.) nəticəsində və ya bəzi müalicə üsulları (şüa müalicəsi, kortikosteroidlər və immunodepres preparatlarla müalicə, timusun çıxarılması və s.) ilə əlaqədar törənən immun çatışmazlığı

The International Union of Immunulogical Societies (IUIS) tərəfindən 2011-ci ildə 31 May və 1 İyun tarixində birincili immun çatışmazlıqların yeni təsnifatı yayımlanmışdır. Bu təsnifata görə anticism çatışmazlığı:

1. Ig izotiplərin və B hüceyrələrinin aşağı səviyyəsi və yoxluğu ilə xarakterizə olunan xəstəliklər:
   a. Bruton tirazin kinaz çatışmazlığı
   b. Ağır zəncir çatışmazlığı
   c. λ5 çatışmazlığı
   d. Igα çatışmazlığı
   e. Igβ çatışmazlığı
   f. D cell linker protein (BLNK) çatışmazlığı
   g. Timoma ilə birlikdə immunçatışmazlıq: Good Sindromu

2. Normal və ya aşağı B hüceyrə miqdarı ilə birlikdə ən az 2 Ig izotipinin aşağı səviyyəsi ilə xarakterizə olunan xəstəliklər:

a. Tez-tez rast gəlinən Dəyişkən İmmün Çatışmazlıq (DİÇ)
b. İnducible costimulator (ICOS) çatışmazlığı
c. CD19 çatışmazlığı
d. Transmembran activator və calcium-modulator və cyclophilin ligand interactor (TACI) çatışmazlığı
e. (B cell activating factor) BAFF reseptor çatışmazlığı

3. İgG və IgA aşağı səviyyəsilə birlikdə İgM normal və ya yuxarı səviyyəsi və normal B hüceyrə sayı ilə xarakterizə olunan xəstəliklər:

a.CD40L çatışmazlığı (Tip 1 HIGM)
b.CD40 çatışmazlığı (Tip 3 HIGM)
c.Adenozin deaminaz çatışmazlığı (Tip 2 HIGM)
d.Urasil-DNA glikosilaz çatışmazlığı (Tip 5 HIGM)

4. İzotip və ya yüngül zəncir defektləri və normal B hüceyrə sayı ilə xarakterizə olunan xəstəliklər

a. Ig ağır zəncir mutasiyaları
b. Zəncir çatışmazlığı
c. Təcrid IgG alt qrupun defekltləri
d. IgA və IgG alt qrupun defektləri
e. Selektiv IgA çatışmazlığı

5. İmmunqlobulinin normal səviyyəsi və B hüceyrə miqdarı ilə birlikdə spesifik anticism cavabında çatışmazlıqlar ilə xarakterizə olunan xəstəliklər

6. B hüceyrələrin normal səviyyəsilə süd əmər körpələrin tranzitor hipoqamaqlobulinemiyası

X xromosomuna bağlı aqamaqlobulinemiya (XLA) ilk dəfə 1952-ci ildə Colonel Oqden Bruton tərəfindən aşkarlanmışdır. Bruton sindromu (aqammaqlobulinemiya) – nəslə X xromosomu ilə əlaqəli resessiv ötürülür. Periferik limfoid toxumanın plazmatik hüceyrələrində fəallığın azalması, B-limfositlərdən asılı olan sahələrin inkişafdan qalması ilə əlaqədar bütün immunoqlobulinlərin sintezi pozulur, humoral immun cavab yaranmır [1]. Bruton tirozin kinaz geni Xq22 – də lokalizasiya olunur.

Simptomlar adətən körpənin ilk illərində başlayır, xəstələrin yarıdan çoxu bir yaşından əvvəl, 90%-a isə 5 yaşında diaqnoz qoyulur [2]. IgG tipli aqamaqlobulinemiyalarda anticismlərin plasentadan anadan körpəyə keçməsi səbəbindən ilk bir neçə ay simptomlar müşahidə olunmur.

X-xromosomuna bağlı A-qammaqlobulinemiya təkrarlanan və şiddətli bakteriyal, enteroviral infeksiyalar, limfatik toxumanın yoxluğu və bəzi hallarda maliqnizasiya və otoimmunitetlə xarakterizə olunur [3]. Aqamaqlobulinemiyalarda ən çox rast gəlinən təkrarlanan sinopulmonar infeksiyadır. Həmçinin, otit, pnevmoniya və sinusitdə tez- tez rast gəlinir. Bəzi xəstələrdə piodermiya, xroniki konyuktivit, artrit, qastroenterit, meninqoensefalit, osteomielit, septik artrit, gepatit, sepsis rast gəlinmişdir [4,5,6.]. Ən çox amillər streptococcus pneumoniae, haemophilus influenzae, staphylococus və pseudomonas kimi kapsullu mikroorqanizmlərdır [7].

X-xromosomuna bağlı A-qammaqlobulinemiyada T hüceyrənin funksiyaları normaldır, lakin xəstələr echovirus, koksaki virus və poliovirus kimi enteroviruslarla yaranan infeksiyalara qarşı meyllidirlər (59). Xroniki enteroviral meninqoensefalitlər XLA-nın ən əhəmiyyətli səbəbidir [8]. Digər virus infeksiyaları, funqal infeksiyalar, pneumocystis carinii infeksiyası X-xromosomuna bağlı A-qammaqlobulinemiyada nadir olsa da bildirilmişdir [4].

Enteroviral faktorların səbəb olduğu diğər vəziyyət isə dermatomiozitə oxşar sindromdur [9]. X-xromosomuna bağlı A-qammaqlobulinemiyası olan xəstələrdə otoimmun xəstəliklər (ən çox yuvenil idiopatik artrit, aseptik poliartrit), sensoneyral eşitmənin pozulması, kolorektal kanser, 1-ci tip şəkərli diabet müşahidə olunur [10,11,12]. Yuvenil idiopatik artritin rast gəlmə tezliyi daha çoxdur və **X**-xromosomuna bağlı A-qammaqlobulinemiya olan xəstələrdə rast gəlinən xronik idiopatik artritin etiologiyasında mikoplazma və ureoplazmanın rolu qeyd edilmişdir [12]. Xroniki ağciyər xəstəliyi uzun müddət davam edən ağırlaşmadır [6]. Diaqnoz qoyulduqda xəstələrin 15-25%-də kəskin neytropeniya müşahidə olunur [13].

Winkelstein J. A. et al. (2006) laborator olaraq çox xəstədə IgG səviyyəsinin-200 mq/dl, IgA-nın -15 mg/dl və IgM -40 mq/dl olduğunu müşahidə etmişdirlər [14]. Periferik qanda limfositlərin alt qruplarına baxıldığında CD19+ və CD20+ yetişmiş B limfositlərin nisbəti 2%-dən aşağıdır və son diaqnoz bruton tirozin kinazın mutasiyanın olması ilə qoyulur [15]. Bruton tirozin kinazın ən əhəmiyyətli 2 ağırlaşması - xroniki enteroviral infeksiyalar və xroniki ağciyər xəstəliklərıdır. Erkən diaqnoz, geniş spektrli antibiotik müalicəsi və intravenoz immunoqlobulinlə müalicə xəstəliyin sayını azaldır. İntravenoz immunoqlobulinlə

müalicə, 3-4 həftədən bir 400-600 mq/kq dozasında verilir, məqsəd serum IgA səviyyəsini 500-600 mq/dl səviyyəsində saxlamaqdır [4].

Autosom resesiv aqamaqlobulinemiya 1970-ci ildə X-xromosomuna bağlı A-qammaqlobulinemiya xəstələri ilə eyni klinik simptomları olan və bruton tirozin kinazın mutasiyası olmayan qız uşaqlarında aşkarlanmışdır. Erkən B hüceyrə inkişafında defekt olan faktların 85%-ı bruton tirozin kinazın mutasiya olan XLA faktları yaradır. Qalan 15% halda isə genetik defektlər heterogendir. μ ağır zəncirdə mutasiya, λ5, Igα, "B cell linker protein" də (BLNK) pozğunluq 1/3 hallarda aşkarlanarkən, 5-10% körpələrdə genetik pozğunluq müşahidə edilməmişdir [16,17].

Aqamaqlobulinemiya müəyyənləşdirilənən qız uşaqlarında, anamnezində autosomal resesiv irsiyyət olan xəstələrdə, BTK mutasiyası olmayan oğlan uşaqlarında, autosom resesiv aqamaqlobulinemiyadan şübhələnmək lazımdır [18].

Qlansman-Riniker sindromu (İsveçrə tipli aqammaqlobulinemiya)- nəslə autosom-resessiv yolla ötürülür, hüceyrə və humoral immun cavab mexanizmləri paralel surətdə pozulur. Xəstə uşaqlar nadir hallarda 2 yaşına qədər yaşayır.

Tez-tez rast gəlinən dəyişkən immun çatışmazlıq (DİŞ) ikinci yerdə ən çox rast gəlinən birincili immun çatışmazlıq xəstəliyidir. Xəstəliyin rast gəlmə nisbəti 1:10.000-1:50.000 arasındadır və hər iki cinsdə eyni rast gəlinir [18]. Təkrarlanan bakteriyal infeksiyalar, serum immunqlobulinlərin səviyyəsinin düşməsi, anticism cavabının azalması ilə xarakterizə olunur [4].

Simptomlar adətən uşaqlıq və yetkin dövrlərdə müşahidə olunur. Xəstələrin yaşı diaqnoz qoyulduqda iki dövrdə olur: 6-10 yaşlarında və gənc yetkin yaşlarda (26-40 yaş). Diaqnozun vaxtında goyulması və simptomların başlaması ilə müalicə arasında olan proses təxminən 5 ilə qədər uzana bilər [19]. Serum IgG səviyyəsi 500 mq/dl-dən aşağı olur. Qan zərdabında IgG aşağı səviyyəsi adətən IgA və IgM aşağı səviyyəsilə müşahidə olunur [19].

7. Стентон Г. Медико-биологическая статистика. М.: Изд. Практика, 1999, 459 с.

Xülasə

Şəkərli diabetli xəstələrin ölüm səbəblərinin nozoloji strukturunun xüsusiyyətləri

İ.C.Əliyeva

Tədqiqatın məqsədi şəkərli diabetli xəstələrin ölüm səbəblərinin nozoloji strukturunun xüsusiyyətlərinin qiymətləndirilməsindən ibarətdir. Tədqiqatda endokrin sistemi xəstəlikləri ilə bağlı ölüm səviyyəsi barədə 1995-2015-ci illərdə rəsmi statistika materialları və Bakı şəhəri üzrə şəkərli diabetli xəstələrin ölüm səbəbləri barədə tibbi şəhadətnamələr istifadə olunmuşdur. Azərbaycanda 1995-2015-ci illərdə qadın populyasiyasında endokrin sistemi xəstəlikləri ilə bağlı ölüm ehtimalı kişi populyasiyası ilə müqayisədə 1,21-1,61 dəfə çox olmuşdur. Əmək qabiliyyətli yaşlarda kişi əhalisinin ölüm riski qadın əhalisi ilə müqayisədə çoxdur. Şəkərli diabetli kişi və qadın xəstələrin ölüm riskinin səbəblərinin xüsusi çəkiləri bir-birindən fərqlənmir. Alınmış diabetli qadın və kişi xəstələrin ölüm səbəblərinin strukturu oxşardır və əsas yerləri müvafiq olaraq şəkərli diabet, qan dövranı sistemi xəstəlikləri, yenitörəmələr, tənəffüs orqanları xəstəlikləri, infeksiyon xəstəliklər və həzm orqanları xəstəlikləri tutur.

Summary

Features of nosological structure of death causes among patients with diabetes

I.J.Aliyeva

The purpose of the study: Assessment of features of nosological structure of death causes among patients with diabetes. Materials of official statistics for 1995-2015 years about mortality rate caused by endocrine system diseases and medical registers about death incidences among patients with diabetes mellitus in Baku city have been used for the study. During 1995-2015 years death cases among women caused by endocrine system diseases were 1,21-1,61 times more in comparison with men in Azerbaijan. But death cases among men in working age is more than among women in the same ages. Mortality risk rate of men and women with diabetes mellitus is similar. Structure of causes of death among men and women with diabetes is similar and main reasons are diabetes, blood circulatory system diseases, neoplasm, respiratory diseases, infectious diseases and digestive organs diseases.

Daxil olub: 05.07 2018

METEOHƏSSASLIĞA MALİK PASİYENTLƏRDƏ DEPRESSİYANIN MÜXTƏLİF AĞIRLIQ DƏRƏCƏLƏRİ

C.Ə. Behbudova, T.Ə.Əhmədova

Elmi-Tədqiqat Kardiologiya İnstitutu, Bakı

Açar sözlər: meteohəssaslıq, profilaktika, depressiya, ürək-damar xəstəlikləri

Ключевые слова: метеочувствительность, профилактика, депрессия, сердечно-сосудистые заболевания.

Keywords: meteosensitivity, prevention, depression, cardiovascular diseases

Son illərdə tədqiqatçıların diqqəti kardioloji xəstələrdə depressiya və həyəcan probleminə yönəlmişdir. Psixososial amillər ürək-damar xəstəliklərindən (ÜDX) xəstələnmə və ölüm göstəricisinin kəskin artmasının əsas səbəblərindən biri olaraq dəyərləndirilməyə başlamışdır. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) 2020-ci ilə olan məlumatlarına əsasən, depressiv pozğunluqlar ürək-damar sistemi xəstəliklərindən sonra əmək qabiliyyətinin itirilmə səbəbləri arasında ikinci yeri tutacaq [1,2,3,4,5].

Atmosfer təzyiqinin xüsusən də kəskin şəkildə dəyişilməsi qan dövranı sisteminə, damar tonusuna, arterial təzyiqə öz mənfi təsirini göstərir. Eyni zamanda, havanın yüksək rütubətliliyi də sağlamlığa mənfi təsir edir. "Maqnit qasırğaları" adlandırılan dövrlərdə hətta tamamilə sağlam şəxslərdə belə əhvalın pisləşməsi meydana çıxa bilər, hansı ki, özünü diqqət dağınıqlığı, yaddaş zəifləməsi və əsəb pozğunluqları şəklində büruzə verir [6,7,8,9].

Qeyd edilmişdir ki, böyük şəhərlərdə meteohəssaslıqdan əziyyət çəkən insanlar kəndlərə nisbətən üstünlük təşkil edir. Bunu şəhər şəraitində gündüz vaxtlarının az davamiyyətə malik olması və təbii su mübadiləsinin pozulması ilə izah edirlər.

Müxtəlif xəstəliklər, stress, yorğunluq nəticəsində oqranizmin zəifləməsi zamanı isə insanda patoloji meteopatik reaksiyalar qeydə alınır ki, bunlar əsas xəstəliyin gedişini çox vaxt ağırlaşdırır, müalicənin effektivliyini azaldır, pasientin həyat keyfiyyətini aşağı salır.

Yuxarıda deyilənləri nəzərə alaraq, meteopatologiyanın formalaşma mexanizmlərinin öyrənilməsi, FM əlamətlərinin xəstələrin psixoloji vəziyyətindən təxmin edilən asılılığının tədqiq edilməsi və onun effektiv profilaktika metodlarının işlənib hazırlanması müasir tibbin, xüsusən də kardiologiyanın aktual məsələlərindən biridir.

Tədqiqatın məqsədi MH şikayətləri olan pasientlərdə meteopatik reaksiyalar ilə psixoloji vəziyyəti arasında qarşılıqlı əlaqənin qiymətləndirilməsi.

Tədqiqatın material və metodlar. Tədqiqat Bakı şəhərində təşkil edilmiş populyasiyada əmək qabiliyyətli əhalinin profilaktik müayinəsi çərçivəsində həyata keçirilmişdir.

Hazırki tədqiqatda Azərbaycan Respublikası Milli Elmlər Akademiyasının ETİ-dan birinin əməkdaşlarının müayinələrinin nəticələri təqdim edilmişdir. Müayinə edilmiş pasientlərin orta yaşı - 48,2±1,4 yaş; qadınlarda - 42,98±1,5 yaş. MH amilinin mövcud olmasını ÜDX-nin əsas risk amillərinin aşkar edilməsi üçün standart anketə əsasən pasientlərin sorğu nəticələrinin əsasında müəyyən etmişlər, belə ki, anketin tərkibinə meteopatik reaksiyalara dair xüsusi suallar bloku daxildir.

MH amili olan pasientlər arasından hazırki tədqiqatda iştiraka könüllü razılıq verən 33 şəxslər seçilmişdir, hansı ki, müşahidə qrupunu da onlar təşkil etmişlər.

Depressiv pozğunluqların aşkar edilməsi üçün müşahidə qrupu pasientlərində CES-D (Center of Epidemiological studies of USA–Depression) sorğu toplusuna əsasən (sorğu toplusunun rus versiyası istifadə edilmişdir(3)) test aparılmışdır.

Tədqiqatın qarşısında duran vəzifələrə müvafiq olaraq müayinə edilənlərin müstəqil doldurması üçün "özünümüşahidə kartı" hazırlanmışdır, hansı ki, buraya pasientin anket məlumatları, əhvalın pisləşməsi zamanı mümkün ola biləcək şikayətlərn sıralanması, obyektiv müayinələrin nəticələrini (arterial təzyiqin səviyyəsi, mil arteriyasında nəbzin tezliyi, hiperemiya, ödemlər və s.) qeyd etmək üçün qrafalar, eləcə də, onun doldurulması üçün qaydalar daxil edilmişdir. Gündəlik olaraq müşahidə dövrü ərzində hava şəraitinin əsas parametləri (atmosfer təzyiqi, rütubət, küləyin istiqaməti və sürəti, havanın hərarəti, eyni zamanda, sağlamlıq üçün əhəmiyyətli heliomaqnit dəyişiklikləri olan tarixlər barədə məlumatlar) "hava şəraiti göstəricilərinin kartı"nda qeydə alınır. İnformasion material olaraq internetdə və digər kütləvi informasiya vasitələrində dərc olunmuş məlumatlardan istifadə edilmişdir. Alınmış nəticələrin statistik işlənməsi standart kompüter paketinə daxil olan statistik proqramlar vasitəsilə həyata keçirilmişdir.

Tədqiqatın nəticələri. ÜDX-nin risk amillərinə görə sorğu əqli əməklə məşğul olan əməkdaşlar arasında aparılmış və müayinə edilənlərin 50,5%-də MH amilinin mövcudluğunu təyin etməyə imkan vermişdir. Belə ki, qadınlar arasında MH amilinin yayılma göstəricisi kişilərlə müqayisədə yüksək izlənilmişdir (müvafiq olaraq 58,6% və 40%, p>0,05).

Şəkil 1-də MH amili olan pasient qrupunda əsas ÜDX risk amillərinin rastgəlmə tezliyi təsvir edilmişdir. Təqdim olunmuş məlumatlardan göründüyü kimi, müşahidə qrupunda artıq bədən kütləsi (ABK), arterial hipertenziya (AH), və aşağı fiziki aktivliyi (AFA) olan kifayət qədər pasient müəyyən edilmişdir.


Müşahidə aparıldığı dövrdə özünümüşahidə kartlarının və hava şəraiti göstəriciləri kartlarının müqayisə olunması imkan verdi ki, müşahidə qrupuna daxil olan əksər pasientlərdə əhvalın pisləşməsi qeydə alınan hava şəraiti parametrləri təyin edilsin. Qeyd etmək lazımdır ki, pis əhval-ruhiyyəyə dair ən çox şikayət yağışlı havada izlənilmişdir. Yağıntılara qarşı reaksiya (yağış, tufan, leysan) müşahidə olunanların 69,7%-də qeydə alınmışdır. Alınmış nəticələrə əsasən, yüksək atmosfer təzyiqi və yüksəlmiş rütubətlə şimal və ya cənub küləyi müştərək rast gəlindiyi günlərdə əhvalın pisləşməsindən müşahidə qrupu pasientlərinin müvafiq olaraq 48,5% və 42,4%-i şikayət etmişlər.

"Maqnit qasırğaları" elan edilmiş günlərdə müşahidə qrupunda 54,5% pasient əhvalın pisləşməsi şikayətini bildirmişlər. Özünümüşahidə kartlarının məlumatlarına əsasən, MH amili ilə pasientlərin əsas şikayətləri və hava şəraitinin dəyişilməsinə cavab olaraq bildirilmə tezliyi tədqiq edilmişdir. Ən çox pasientlər baş ağrısından (78,8%) və oynaqlarda ağrıdan (72,7%), əzginlikdən (66,7%), başgicəllənmədən (54,5%) və yuxululuqdan (51,5%) şikayət etmişlər. Qeyd etmək lazımdır ki, MH olan pasientlərdə tez-tez ürək nahiyəsində ağrı hissiyatından və təngnəfəslikdən (42,4%), eləcə də, taxikardiyadan (33,3%) və ürək nahiyəsində döyüntü pozğunluğu hissiyyatından (24,2%) şikayətlər qeydə alınmışdır.


Demək olar ki, MH olan hər üçüncü müayinə olunmuş pasient əhvalın pisləşməsi və ağlamaq hissiyyatından şikayətlərini bildirmişlər (30,3%).

CES-D sorğu anketinə əsasən müayinə edilənlərin test edilməsi (şəkil.2) 33,3% şəxsdə yüngül dərəcəli depressiya əlamətlərini, 9,1% şəxsdə orta dərəcəli depressiyanı və 3% pasientdə ağır dərəcəli depressiya əlamətlərini təyin etməyə imkan vermişdir.

Özünümüşahidə kartlarının məlumatlarına əsasən, müşahidə edilən dövr ərzində pasientlərin pis əhval-ruhiyyənin olduğu gün kimi qeyd etdiyi günlərin sayı hesablanmışdır. Qeyd etmək lazımdır ki, müşahidə dövrü ərzində pasientlər tərəfindən özünümüşahidə kartlarında hava şəraitindən asılı olaraq pis əhval ruhiyyə ilə özünü göstərən ayda 2-dən 10-a kimi gün qeydə alınmışdır. Orta hesabla müşahidə dövrü ərzində hər müayinə edilən pasientə hava şəraitindən asılı olaraq pis əhval-ruhiyyə olan 5,1±0,5 gün düşmüşdür. Belə ki, depressiya izlənən şəxslərdə bu göstərici depressiya əlamətləri olmayan pasientlərdən dürüst dərəcədə üstün olmuşdur (müvafiq olaraq 6,3±0,7 və 4,2±0,6)($p<0,01$).



Şək. 1. Meteohəssaslığı olan pasientlər arasında ÜDX-nin risk amillərinin rast gəlmə tezliyi



Şək. 2. Meteohəssaslığı olan pasientlərdə depressiyanın müxtəlif ağırlıq dərəcəsinin üzə çıxarılması

Nəticələr:

1. Hazırki tədqiqatda yüngül və orta dərəcəli depressiya əlamətləri MH şikayətləri olan 45,5% şəxsdə aşkar edilmişdir.

2. Aşkar edilmiş depressiya olan şəxslərdə hava şəraiti ilə əlaqədar pis əhval müşahidə edilən günlərin orta sayı depressiya əlaməti olmayan şəxslərlə müqayisədə dürüst dərəcədə yüksək olmuşdur.

3. Özünümüşahidə kartlarının və hava şəraiti kartlarının məlumatlarının müqayisəsi MH şikayəti olan pasientlərdə orta aylıq pis əhval-ruhiyyə günlərinin tezliyini qiymətləndirmək, meteopatiyanın tez-tez qeyd edilən simptomlarını müəyyənləşdirmək, pasientlərin əhvalı üçün ən xoşagəlməz müştərək hava şəraiti parametrlərini dəyərləndirmək imkanı yaradır.

4. Alınmış nəticələr hava şəraiti parametrlərinin müəyyən dəyişikliklərinə kəskin reaksiyaların azalması üçün MH olan pasientlərin psixoloji vəziyyətinin korreksiyasının vacibliyinə dəlalət edir.

ƏDƏBİYYAT

1. Ольбинская Л.И. О проблеме депрессии в терапевтической практике. Что показала программа КОМПАС // Терапевт. архив, 2005, №10, с.85-89.

2. Фишман Б.Б., Кочанов И.Н., Хорошевская А.И. и др. Особенности распространенности психогенных факторов риска среди больных артериальной гипертензией различных степеней по критериям доказательной медицины // Рациональная фармакотерапия в кардиологии, 2014, №10(2), с.184-189.

3. Фомина Н.В., Алтарев С.С., Барабаш О.Л. Годовые биологические ритмы как дополнительный фактор риска смерти при ишемической болезни сердца // Патология кровообращения и кардиохирургия, 2007, №1, с.44-47

4. Januzzi J.L. Jr., Stern T.A., Pasternak R.C. et al. The influence of anxiety and depression on outcomes of patients with coronary artery disease // Arch. Intern. Med., 2000, v.160, p.1913-1921

5. Хитров Н.К., Салтыков АБ. Болезни цивилизации и нозологический принцип медицины с позиций общей патологии // Клин. мед., 2003, №1, с.5-11.

6. Гарганеева Н.П.,Тетенев Ф.Ф. Психосоматическая ориентация в общей врачебной практике // Клиническая медицина, 2001, №9, с.60-63.

7. Концевая А.В., Лукьянов М.М., Худяков М.Б. Сезонные и помесячные изменения смертности в регионах Российской Федерации с различными климато-географическими характеристиками // Российский кардиологический журнал, 2014, №11, с.25-30.

8. Januzzi J.L. Jr., Stern T.A., Pasternak R.C. et al. The influence of anxiety and depression on outcomes of patients with coronary artery disease // Arch. Intern. Med.,2000, v.160, p.1913-1921.

9. Jiang W., Krishnan R. R., O'Connor C.M. Depression and heart disease: evidence of a link, and its therapeutic implications // CNS Drugs, 2002, v.16, p.111-127

Резюме

Депрессия различной степени тяжести у пациентов с метеочувствительностью

Д.А. Бехбудова, Т.А.Ахмедова

Проведена оценка взаимосвязи метеопатических реакций с психологическим состоянием пациентов с жалобами на метеочувствительность. Группу наблюдения составили добровольцы из числа пациентов с фактором метеочувствительности. Признаки депрессии легкой и средней тяжести выявлены у 45,5% лиц с жалобами на метеочувствительность. Среднее количество дней плохого самочувствия в связи с погодными условиями у лиц с депрессией достоверно превышает таковое у лиц без депрессии. Полученные данные указывают на необходимость коррекции психологического состояния у пациентов с метеочувствительностью для повышения устойчивости к колебаниям параметров погодных условий.

Summary

Depression of varying severity in patients with meteosensitivity.

J.A. Behbudova, T.A.Ahmedova

The assessment of the relationship of meteopathic reactions with the psychological state of patients with complaints of meteosensitivity was evaluated. The observation group consisted of volunteers from the number of patients with meteosensitivity. Signs of mild and moderate depression were found in 45,5% of individuals with complaints of meteosensitivity. The average of days of feeling unwell due to weather conditions in people with depression significantly exceeded that in people without depression. The obtained data indicate the need for correction of the psychological state in patients with meteosensitivity to increase their resistance to fluctuations of weather conditions.

Daxil olub: 14.08 2018

AĞIRLAŞMALARLA MÜŞAYİƏT OLUNAN PULMONAR HİPERTENZİYALI XƏSTƏLƏRDƏ ÜRƏK RİTMİNİN DƏYİŞKƏNLİY İ PARAMETRLƏRİNİN DİAQNOSTİK ROLU

O.G.Musayev, K.K.Musayev, F.N.İbrahimov
Mərkəzi Klinik Xəstəxana, Bakı

Açar sözlər: pulmonar hipertenziya, ürək ritmi, diaqnostika, Exo KQ, Holter EKQ
Ключевые слова: пульмональная гипертензия, ритм сердца, Эхо КГ, Холтер ЭКГ
Key words: pulmonary hypertension, heart rhythm, echocg, Holter ECG

Pulmonar hipertenziya (PH), istirahət halında sağ ürək kateterizasiyası (SÜK) ilə dəyərləndirilən ortalama pulmonar arterial təzyiqin (PAT) ≥25 mm.Hg olması ilə xarakterizə olunan hemodinamik və fiziopatoloji vəziyyətdir [1,2]. PAT, ağciyər arteriyasında qan axını və pulmonar vaskulyar müqavimət vasitəsilə təyin olunur. (təzyiq=qan axını x müqavimət). Dəniz səviyyəsində sistolik PAT 15-25 mmHg, diastolik PAT 5-10 mm Hg və ortalama PAT 10-18 mm Hg, yüksək səviyyələrdə isə sistolik PAT 15-35, diastolik PAT 5-14, ortalama PAT ise 10-25 mm Hg-dir [3]. Cinsdən və etnik mənşədən asılı olmayan ortalama PAT (14±3 mm Hg), idmanla və yaşla əlaqədar artmaqdadır. Ortalama PAT, <30 yaş 12.8±3.1 mm. Hg, 30-50 yaş arası 12.9±3 mmHg, 50 yaşdan böyük şəxslərdə 14.7±4 mm. Hg olduğu müəyyən olunmuşdur [3].

Pulmonar hipertenziya, müxtəlif klinik patologiyalar nəticəsində yaranır ki, bu zaman yanaşı gedən patologiyalar xəstənin yaşama müddətinə və müalicəsinə öz təsirini göstərir. Pulmonar hipertenziya (PH) ölkəmizdə və dünyada hələ də ciddi sağlamlıq problemi olaraq qalmaqdadır. İdiopatik PAH, 20 il əvvəl müalicəsi olmayan və təbii axarına buraxılan, letallıqla müşayiət olunan xəstəlik idi. Müalicə edilmədiyi təqdirdə orta yaşam müddəti 2.8 il olduğu, xəstələrin funskional sinif dərəcəsi artdıqca yaşam müddətinin azaldığı haqda məlumatlar vardır. Müalicə edilməyən İPAH yaxud da irsi PAH xəstələrində orta yaşam müddətininin ÜST-FS IV-də 6 ay, ÜST-FS III-də 2.5 il, ÜST-FS I və II-də isə 6 il olduğu göstərilmişdir. Bundan başqa, 1 illik yaşam müddətinin 68%, 3 illik yaşam müddətinin 48%, 5 illik yaşam müddətinin isə 34% olduğu göstərilmişdir [6]. Müasir PAH-ın müalicəsi ilə İPAH xəstələrində 1 illik yaşam müddətinin 92.1%, 3 illik yaşam müddətinin 75.1%, BTX ilə əlaqədar PAH xəstələrində isə 1 illik yaşam müddətinin 85,4%, 3 illik yaşam müddətinin isə 53.6% olduğu göstərilmişdir [25]. PAH diaqnozu qoyulduğu zaman xəstələrin 75%-nin ÜST-FS III və IV olduğu göstərilmiş, mövcud xəstəlikdən xəbərdarlığın artırılması və effektiv araşdırma ilə yeni diaqnozun qoyulması zamanı ÜST-FS II olan xəstələrin sayı 24%-dən 44%-ə yüksəlmişdir [5]. Xəstəliyin etiopatogenezinin müəyyən dərəcədə aydınlaşdırılması, müalicə metodlarının inkişaf etdirilməsi, xüsusilə xəstəliyin erkən dövrlərdə (ÜST-FS I-II) aşkarlanması və bu dövrlərdə müalicəyə başlanılması ilə xəstələrin klinik vəziyyətlərinin yaxşılaşdığının və yaşam müddətlərinin artmasının göstərilməsi PH-nı sağalma ümidi olmayan xəstəliklər siyahısından çıxarmışdır [20,21,22,23, 24].

Son 10 ildə xəstəliyin erkən aşkar olunmasında və müalicəsində əldə edilən nailiyyətlərə baxmayaraq PH hələ də ölüm faizi yüksək olan bir xəstəlik olaraq qalmaqdadır. Klinik gedişatı əvvəlcədən görə bilmək və buna uyğun lazımi tədbirlər və müalicədə dəyişikliklər etmək hər bir xəstəlikdə olduğu kimi PAH-da da çox vacibdir [6,7,8,9,10]. PAH-da xəstəliyin əsas gedişini sağ mədəciyin vəziyyəti müəyyən edir. Sağ mədəcəik çatışmazlığı inkişaf etdikdən sonra xəstələrin ümumi vəziyyəti sürətlə pozulur və müasir müalicədə belə gözlənilən effekt alınmır. Aparılan araşdırmalarda ÜST-FS artması, BNP səviyyəsinin artması, 6 dəqiqəlik yerimə məsafəsinin azalması, exokardioqrafiya ilə aşkar olunan perikard efuziyası mövcudluğu, sağ qulaqcığın sahə indeksinin artması, eksentrik SolM indeksinin azalması, TAPSE-nin azalması neqativ proqnostik əlamətlər olaraq aşkar edilmişdir [11,12,13,14,15,16,17,18,19]. AKC-nin PH diaqnoz və müalicə protokolu bu parametrləri eyni zamanda müalicəyə olan cavabı qiymətləndirməkdə də kriteriya olaraq qəbul etmişdir. Aparılan bu tədqiqatdan məqsəd ÜRD parametrlərinin öyrənilməsi əsasında PH-lı xəstələrdə ağırlaşmaların vaxtında diaqnostika və profilaktikasıdır.

Tədqiqatın material və metodları. Müayinəyə 64 xəstə cəlb edilmişdir ki, buların 24 kişi, 40 qadın olmuşdur. Xəstələrin orta yaşı 38.67±15.97, kontrol qrupda isə 39.27±10.30 il təşkil etmişdir.Pulmonar Hipertenziyalı xəstələrdə ürək ritminin dəyişkənlik parametrlərini kontrol qrupu ilə müqayisədə klinik və proqnostik əhəmiyyəti təyin edilmişdir.

Tədqiqat üçün sağlam kontrol qrupu kardiologiya poliklinikasına rutin müayinə üçün müraciət edən şəxslər və sağlam xəstəxana işçiləri arasından seçildi. Anamnezində xroniki və kardiovaskulyar xəstəlikdən şikayəti olmayan, fiziki müayinədə normal göstəriciləri qeydə alınan, laboratoriya müayinələri (qaraciyər və böyrək funksional testləri, CRP, hemoqram, aclıq qlükozası, tiroid funksional testləri) norma sərhədində, EKQ-i sinus ritmində olan, ExoKQ-da normal PAT və normal exokardioqrafik göstəriciləri aşkar olunan və

sağlam olduğuna qərar verilən şəxslərə tədqiqat haqqında ətraflı məlumat verildi. Könüllü olmaq haqqında sənəd imzalandıqdan sonra tədqiqata daxil olunan 69 sağlam şəxsdə (45 qadın, 24 kişi) ÜRD parametrlərini dəyərləndirmək üçün 24 saatlıq Holter EKQ müayinəsi həyata keçirildi.

Rutin poliklinik müayinə üçün kardioloji klinikaya müraciət edən PAH xəstələrinə tədqiqatla bağlı ətraflı məlumat verildi və bundan sonra könüllülər vərəqəsini imzalayan xəstələr araşdırmaya daxil edildi.

Tədqiqata könüllülük vərəqəsini imzalayan 64 PH-lı (PAH ve XTEPH) xəstə (40 qadın, 24 kişi) cəlb olundu. İlk öncə xəstələrin boyu, çəkisi, demoqrafik məlumatları qeyd olundu. Daha sonra xəstəliklə əlaqəli ətraflı anamnez məlumatları toplandı. Şikayətləri (döş qəfəsində ağrı, təngnəfəslik, ürəkdöyünmə, hemoftiz) xəstəliyin müddəti, diaqnoz qoyulma müddəti, ÜST-FS dərəcəsi, aldıqları spesifik müalicə və saxlayıcı müalicəyə aid məlumatlar toplandı. Fizikal müayinənin nəticələri (ayaqlarda şişkinlik, assit, vidaci venalarda dolğunluq, sianoz, çubuq barmaqlar) qeydə alındı. Xəstəxananın məlumat qeydiyyat sistemindən xəstələrin biyokimyəvi analizlərinin nəticələri (hemoqram, qaraciyər və böyrək funksional testləri, tiroid funksional testləri) və son müraciət zamanı beyinnatrim peptid (BNP) dəyərləri əldə olundu. EKQ çəkildi, 6DYT (6 dəqiqəlik yeriş testi) həyata keçirildi. Transtorakal ExoKQ olunduqdan sonra xəstələrin ÜRD parametrlərini dəyərləndirmək üçün Holter EKQ cihazı vasitəsilə 24 saatlıq göstəriciləri qeydə alındı. Holter EKQ olunduğu gün xəstələrin tədqiqata daxil olunduğu gün olaraq müəyyənləşdirildi. Bundan sonra xəstələr klinik vəziyyətlərinə və müalicə planına müdaxilə edilmədən müşahidəyə alındı.

Tədqiqat üçün sağlam kontrol qrup kardiologiya poliklinikasına rutin müayinə üçün müraciət edən şəxslər və sağlam xəstəxana əməkdaşları arasından seçildi. Anamnezində xroniki və kardiovaskulyar xəstəlikdən problemi olmayan, hər hansı bir xəstəlikdən şikayəti olmayan, fiziki müayinədə normal göstəriciləri qeydə alınan, laboratoriya müayinələri (qaraciyər və böyrək funksional testləri, CRP, hemoqram, aclıq qlükozası, tiroid funksional testləri) norma sərhədində olan, EKQ-i sinus ritmində olan, ExoKQ-da normal PAT və normal exokardioqrafik göstəriciləri aşkar olunan və sağlam olduğuna qərar verilən şəxslərə tədqiqat haqqında ətraflı məlumat verildi. Könüllü olmaq haqqında sənəd imzalandıqdan sonra tədqiqata daxil olunan 69 sağlam şəxsdə (45 qadın, 24 kişi) ÜRD parametrlərini dəyərləndirmək üçün 24 saatlıq Holter EKQ müayinəsi həyata keçirildi.

Tədqiqatın nəticələri. Ağırlaşmalar müşayiət olunan hallarla hemodinamik parametrlər arasında əlaqəni aşkar etmək üçün sağ ürək kateterizasiya məlumatları olan xəstələr müqayisə edildi. Ağırlaşmalar müşayiət olunan 12 xəstənin və ağırlaşmalar müşayiət olunmayan 34 xəstənin kateterizasiya məlumatları müqayisə edildi. Hər iki qrupda SağQ təzyiqi orta PAT, TPQ və PVR cəhətdən əhəmiyyətli fərq aşkar olundu (Cədvəl 1).

Cədvəl 1

Ağırlaşmalarla müşayiət olunan PH-lı xəstələrdə hemodinamik parametrlər

Göstəricilər	Ağırlaşması olmayan qrup (n=34)	Ağırlaşma inkişaf edən qrup (n=12)	P qiyməti
SağQ təzyiqi (mmHg)	8,1±4,0	8,6±5,5	0,814
Orta PAT (mmHg)	61,9±19,2	62,8±20,7	0,891
TPQ (mmHg)	48,4±19,3	47,0±16,0	0,83
PVR (WoodÜ)	13,3±9,1	13,7±6,1	0,922

Qeyd: SağQ-Sağ qulaqcıq; PAT-Pulmonar arteriya təzyiqi; TPQ- transpulmonar qradient;PVR – Pulmonar vaskulyar rezistentlik

Holter EKQ əlamətlərini qiymətləndirərkən ağırlaşmalarla müşayiət olunan qrupda ümumi ürək vurğularının sayı (108701±14586 qarşı 121678±18622, p=0.019) əhəmiyyətli dərəcədə yüksək idi. Qeyd müddəti cəhətdən qruplar arasında fərq müşahidə olunmadı (p=0.269). Minimal ürək vurğusu hadisə baş verən qrupda (52,1±11,7 qarşı 61,1±14.8, p=0.04) statistik əhəmiyyətli yüksək, maksimal ürək vurğusu isə statistik əhəmiyyətli (137,4±17,5 qarşı 126,3±15,5, p=0.024) aşağı idi. Orta RR müddəti hadisə baş verən qrupda əhəmiyyətli dərəcədə (770,7±97,8 qarşı 681,8 ± 100,5 p=0,005) azalmışdı. Ümumi MES, QES sayı cəhətdən (uyğun olaraq p=0,472 və p=0,144), MT və PAF həmləsi cəhətdən (uyğun olaraq p=0.427 və p=0.154) hər iki qrup arasında əhəmiyyətli fərq aşkar olunmadı. SVT həmləsi isə hadisə baş verən qrupda əhəmiyyətli dərəcədə (p=0.009) yüksək idi (Cədvəl 2).

Zaman asılı ÜRD parametrlərindən SDNN (127,72±51,28 qarşı 77,50±34,89, p<0.0001), SDANN (117,11±47,04 qarşı 68,13±34,19, p<0,0001), SDNN İndeksi (51,78±22,67 qarşı 31,81±11,41, p<0.0001), RMSSD (31,81±11,41 qarşı 20,75±9,37, p<0,0001), pNN50 (10,28±10,48 qarşı 2,88±3,11, p<0.0001), Trianqulyar İndeks (31,32±14,49 qarşı 18,66± 8,75, p<0,0001) parametrləri ağırlaşmalarla müşayiət olunan

qrupda əhəmiyyətli dərəcədə azalmışdı. Bu parametrləri gündüz və gecəyə görə iki zaman müddətində qiymətləndirdikdə də, ağırlaşmalarla müşayiət olunan qrupda bütün parametrlər əhəmiyyətli dərəcədə azalmışdı (Cədvəl 3).

Cədvəl 2

Ağırlaşmalarla müşayiət olunan PH-lı xəstələrə bazal Holter EKQ əlamətləri

Göstəricilər	Ağırlaşma baş verməyən qrup (n=48)	Ağırlaşma baş verən qrup (n=16)	P qiyməti
Ümumi ürək vurğusu (sayı)	108701±14586	121678±18622	**0,019**
Qeyd müddəti (saat)	23,27±0,99	22,78±1,63	0,269
Minimal ürək vurğusu (vurğu/dq)	52,1±11,7	61,1±14,8	**0,04**
Maksimal ürək vurğusu (vurğu/dq)	137,4±17,5	126,3±15,5	**0,024**
Orta RR müddəti (msn)	770,7±97,8	681,8±100,5	**0,005**
Cəmi MES (sayı)	480,9±1433,8	827,1±1695,6	0,472
MT həmləsi (n, %)	1 (%2,1)	1 (%6,3)	0,427
Cəmi QES (sayı)	179,3±420,1	1027,8±2189,9	0,144
SVT həmləsi (n, %)	12 (25,0%)	10 (%62,5)	**0,009**
PAF həmləsi (n, %)	3 (6,3%)	3 (18,8%)	0,154

Qeyd: PH-Pulmonar hipertenziya; MES- Mədəciklərin ekstrasistoliyas; MT-Mədəcik taxikardiyası; QES-Qulaqcıqlarınl ekstrasistoliyası; SV-Supraventrikulyar taxikardiya; PAF- Paroksizmal atrial fibrilyasiya.

Cədvəl 3

Ağırlaşmalarla müşayiət olunan PH-lı xəstələrdə zaman asılı ÜRD parametrləri

Göstəricilər	Ağırlaşma baş verməyən qrup (n=48)	Ağırlaşma baş verən qrup (n=16)	P qiyməti
SDNN (msn)	127,72 ± 51,28	77,50 ± 34,89	<0,0001
SDANN (msn)	117,11 ± 47,04	68,13 ± 34,19	<0,0001
SDNN İndeksi (msn)	51,78 ± 22,67	31,81 ± 11,41	<0,0001
RMSSD (msn)	33,76 ± 15,60	20,75 ± 9,37	<0,0001
pNN50 (%)	10,28 ± 10,48	2,88 ± 3,11	<0,0001
Gündüz SDNN (06:00-22:00) RMSSD pNN50	116,67±42,71 30,36±13,90 8,49±9,13	71,75±32,19 21,13±11,19 3,69±5,44	<0,0001 0,012 0,016
Gecə SDNN (22:00-06:00) RMSSD pNN50	101,24±44,27 40,53±21,61 15,64±16,24	61,63±27,94 19,69±8,46 3,31±3,57	<0,0001 <0,0001 <0,0001
Triangulyar İndeks	31,32±14,49	18,66±8,75	<0,0001

Qeyd: PH-Pulmonar hipertenziya; ÜRD -Ürək ritminin dəyişkənliyi; SDNN-Bütün vurğular arasındakı (NN) fərqlərin standart kənaraçıxması; SDANN-İşləmə müddəti ərzində 5 dq-lik qeydlərdə orta NN aralığının standart kənaraçıxması; SDNN İndeksi-5-dq-lik qyedlərdə bütün NN aralıqlarının standart kənaraçıxmalarının ortalaması; RMSSD-24 saatlıq qeyd zamanı ardıcıl NN fasiləsi müxtəlifliklərinin kvadratları cəminin kvadrat kökü; pNN50-NN50 sayının bütün ümumi NN sayına nisbəti

Tezlik asılı ÜRD parametrlərindən Total Güc (3007,2±2524,5 qarşı 1129,4±711,8, p<0,0001), Total ÇAT gücü (2156,5±1925,4 qarşı 833,2±570,4, p<0,001), Total AT gücü (556,1±464,9 qarşı 204,5±171,4, p<0,0001), Total YT gücü (256,0±261,7 qarşı 78,1±63,5, p<0.0001) hadisə ağırlaşmalarla müşayiət olunan qrupda əhəmiyyətli dərəcədə zəif idi. AT/YT nisbəti cəhətdən isə ağırlaşmalarla müşayiət olunmayan və verən qruplar arasında (2,96±1,75 qarşı 3,98±3,43, p=0,274) əhəmiyyətli fərq aşkar olunmadı. ÇAT, AT və YT güclərini gündüz və gecə üçün iki zaman arasında qiymətləndirdikdə də ağırlaşmalarla müşayiət olunan qrupda bu parametrlər əhəmiyyətli dərəcədə aşağı idi (Cədvəl 4).

Müzakirə. Ədəbiyyatda ÜRD parametrlərinin proqnostik əhəmiyyətini göstərən prospektiv tədqiqat mövcud deyil. Buna görə də biz tədqiqatımızda müşahidə müddətində baş verən ağırlaşmalar ilə ÜRD parametrləri arasında əlaqəni araşdırdıq. Orta 200±91.6 günlük müşahidə müddətində ümumən 16 (25%) xəstədə arzuolunmayan ağırlaşmalar baş verdi. 7 xəstədə (10.9%) sağ ürək çatışmazlığı, 5 xəstədə (7.8%) bayılma həmləsi, 12 xəstədə (18.8%) xəstəxanaya yatma və 9 xəstədə (14.1%) PH ilə əlaqəli ölüm baş verdi.

PH qrupunda olan xəstələri ağırlaşma baş verməsinə görə qiymətləndirikdə ağırlaşmalarla müşayiət olunan qrupda ümumi ürək vurğu sayı daha çox, minimal ürək vurğusu daha yüksək, maksimal ürək vurğusu daha aşağı idi.

Cədvəl 4

Ağırlaşmalarla müşayiət olunan PH-lı xəstələrdə tezlik asılı ÜRD parametrləri

	Ağırlaşma baş verməyən qrup (n=48)	Ağırlaşma baş verən qrup(n=16)	P qiyməti
Total Güc (msn^2)	3007,2±2524,5	1129,4±711,8	<0,0001
Total ÇAT (msn^2)	2156,5±1925,4	833,2±570,4	<0,0001
Total AT (msn^2)	556,1±464,9	204,5±171,4	<0,0001
Total YT (msn^2)	256,0±261,7	78,1±63,5	<0,0001
AT/YT	2,96 ± 1,75	3,98±3,43	0,274
Gündüz ÇAT (06:00 – 22:00) AT YT	2000,6±1724,0 471,1±402,1 191,1±192,9	721,1±459,2 182,2±164,3 73,0 ±70,7	<0,0001 <0,0001 0,001
Gece ÇAT (22:00 – 06:00) AT YT	2449,8±2504,3 705,6±643,1 370,4±430,8	1046,3±934,6 247,2±232,8 88,1±103,6	0,002 <0,0001 <0,0001

Qeyd: ÜRD-Ürək ritminin dəyişkənliyi; PH-Pulmonar hipertenziya; ÇAT-Çox aşağı tezlik; AT-Aşağı tezlik;YT-Yüksək tezlik; ATnu-normalizə edilmiş aşağı tezlik; YTnu-Normalizə edilmiş yüksək tezlik

Ümumi olaraq PH qrupunda da kontrol qrupuna nisbətdə minimal ürək vurğusu daha yüksək, maksimal ürək vurğusunun aşağı olması aşkar edilmişdi (Cədvəl 1). Buradan da PH qrupunda ağırlaşmaların ürək vurğu sayının dalğalanma intervalının daha dar olduğu xəstələrdə inkişaf etdiyini deyə bilərik. Bundan başqa hadisə baş verən xəstələrin orta RR müddətinin daha qısa aşkar olunması da əhəmiyyətli idi. Zaman asılı və tezlik asılı parametrlərin AT/YT nisbəti xaric hamısı ağırlaşmalarla müşayiət olunan qrupda əhəmiyyətli dərəcədə aşağı idi. Gündüz və gecə saatları arasında da ÜRD parametrlərinin dəyişməsi cəhətdən fərq müşahidə olunmadı (Cədvəl 2,3). Bu parametrlərin bütün mənfi hadisələr ilə əlaqəsini qiymətləndirərkən SDNN, SDANN, SDNNİ, RMSSD, pNN50, Tİ, Total güc, ÇAT, AT,YT parametrləri ilə ağırlaşmalar arasında tərs korrelyasiya aşkar olundu. RMSDD, pNN50 və ÇAT-ın PH qrupunda kontrol qrupu ilə müqayisədə fərqli aşkar olunmamasına baxmayaraq hadisə baş verən qrupda əhəmiyyətli aşağı aşkar olunmaları və bütün hadisələr ilə əhəmiyyətli əlaqənin səbəbi növbəti tədqiqatlarla aydınlaşdırıla bilər. Buradan müddət və tezlik asılı ÜRD parametrlərinin PH xəstələrinin müşahidə müddətində arzuolunmayan ağırlaşmalar ilə əlaqəli olduğunu və bu hadisələri öncədən görə biləcəyini qeyd edə bilərik.

ƏDƏBİYYAT

1. Guidelines for the diagnosis and treatment of pulmonary hypertension. Task Force for Diagnosis and Treatment of Pulmonary Hypertension of European Society of Cardiology (ESC); European Respiratory Society (ERS); International Society of Heart and Lung Transplantation (ISHLT), Galiè N., Hoeper M.M., Humbert M., Torbicki A., Vachiery JL, Barbera J.A., Beghetti M., Corris P., Gaine S., Gibbs J.S., Gomez-Sanchez M.A., Jondeau G., Klepetko W., Opitz C., Peacock A., Rubin L., Zellweger M., Simonneau G. European Heart Journal (2009) 30, p.2493-2537.

2.Stuart Rich, Valerie V.Mc Laugghin. Pulmonary Hypertension In Braunwald E, Zipes DP, Libby P: Heart Disease A Textbook of Cardiovascular Medicine 6th Edition. Philadelphia, W.B. Saunders Company 2005, p.1807-1843.

3.Kovacs G., Berghold A., Scheidl S., Olschewski H. Pulmonary arterial pressure during rest and exercise in healthy subjects. A systematic review // Eur Respir J., 2009, v.34(4), p.888-94.

4. Simonneau G., Robbins I., Beghetti M. et al. Updated clinical classification of pulmonary hypertension //J Am Coll Cardiol., 2009, v.54, p.S43-S54.

5. Humbert M., Sitbon O., Chaouat A. et al. Pulmonary arterial hypertension in France: results from a national registry // Am J Respir Crit Care Med., 2006, v.173, p.1023-1030.

6. D'Alonzo G.E., Barst R.J., Ayres S.M. Et al. Survival in patients with primary pulmonary hypertension. Results from a national prospective registry // Ann Intern Med., 1991, v.115, p.343-349.

7.Eysmann S.B., Palevsky H.I., Reichek N.S. et al. Two-dimensional and Doppler-echocardiographic and cardiac catheterization correlates of survival in primary pulmonary hypertension // Circulation, 1989, v.80, p.353-360.

8.Raymond R.J., Hinderliter A.L., Willis P.W. et al. Echocardiographic predictors of adverse outcomes in primary pulmonary hypertension // J Am Coll Cardiol., 2002, v.39, p.1214-1219.

9.Tei C., Dujardin K.S., Hodge D.O. et al. Doppler echocardiographic index for assessment of global right ventricular function // J Am Soc Echocardiogr, 1996, v.9, p.838-847.

10.Yeo T.C., Dujardin K.S., Tei C. et al. Value of a Doppler-derived index combining systolic and diastolic time intervals in predicting outcome in primary pulmonary hypertension // Am J Cardiol., 1998, v.81, p.1157-1161.

11.Forfia P.R., Fisher M.R., Mathai S.C. et al. Tricuspid annular displacement predicts survival in pulmonary hypertension // Am J Respir Crit Care Med., 2006, v.174, p.1034-1041.

12.Kjaergaard J., Akkan D., Iversen K.K. et al. Right ventricular dysfunction as an independent predictor of short- and long-term mortality in patients with heart failure // Eur J Heart Fail., 2007, v.6-7, p.610-6

13.Miyamoto S., Nagaya N., Satoh T. et al. Clinical correlates and prognostic significance of six-minute walk test in patients with primary pulmonary hypertension. Comparison with cardiopulmonary exercise testing // Am J Respir Crit Care Med., 2000, v.161, p.487-492.

14.Sitbon O., Humbert M., Nunes H. et al. Long-term intravenous epoprostenol infusion in primary pulmonary hypertension: prognostic factors and survival // J Am Coll Cardiol., 2002, v.40, p.780-788.

15.Paciocco G., Martinez F., Bossone E. et al. Oxygen desaturation on the six-minute walk test and mortality in untreated primary pulmonary hypertension // Eur Respir J., 2001, v.17, p.647-652.

16.Nagaya N., Nishikimi T., Uematsu M. et al. Plasma brain natriuretic peptide as a prognostic indicator in patients with primary pulmonary hypertension // Circulation, 2000, v.102, p.865-870.

17.Fijalkowska A., Kurzyna M., Torbicki A. et al. Serum N-terminal brain natriuretic peptide as a prognostic parameter in patients with pulmonary hypertension // Chest, 2006, v.129, p.1313-1321.

18.Andreassen A.K., Wergeland R., Simonsen S. et al. N-terminal pro-B-type natriuretic peptide as an indicator of disease severity in a heterogeneous group of patients with chronic precapillary pulmonary hypertension // Am J Cardiol., 2006, v.98, p.525–529.

19.Williams M.H., Handler C.E., Akram R. et al. Role of N-terminal brain natriuretic peptide (N-TproBNP) in scleroderma-associated pulmonary arterial hypertension // Eur Heart J., 2006, v.27, p.1485-1494.

20.Channick R.N., Simonneau G., Sitbon O. et al. Effects of the dual endothelin-receptor antagonist bosentan in patients with pulmonary hypertension: a randomised placebo-controlled study // Lancet, 2001, v.358, p.1119-1123.

21.Rubin L.J., Badesch D.B., Barst RJ. et al. Bosentan therapy for pulmonary arterial hypertension // N Engl J Med., 2002, v.346, p.896–903.

22.Humbert M., Barst R.J., Robbins I.M. Et al. Combination of bosentan with epoprostenol in pulmonary arterial hypertension: BREATHE-2 // Eur Respir J., 2004, v.24, p.353-359.

23.Galie` N., Rubin L.J., Hoeper M. et al. Treatment of patients with mildly symptomatic pulmonary arterial hypertension with bosentan (EARLY study): a double-blind, randomised controlled trial // Lancet, 2008, v.371, p.2093-2100.

24.Galie N., Beghetti M., Gatzoulis M.A. et al. for the Bosentan Randomized Trial of Endothelin Antagonist Therapy. Bosentan therapy in patients with Eisenmenger syndrome: a multicenter, double-blind, randomized, placebo-controlled study // Circulation, 2006, v.114, p.48-54.

25. Zhang R., Dai L.Z., Xie W.P. et al. Survival of Chinese patients with pulmonary arterial hypertension in the modern treatment era // Chest, 2011, v.140(2), p.301-9

Резюме

Диагностическая роль параметров вариабельности ритма сердца у больных с осложненной пульмонарной гипертензией

О.Г. Мусаев, К.К.Мусаев, Ф.Н.Ибрагимов

В исследование были включены 64 больных с пульмонарной гипертензией (ПГ). Исследуемые больные были разделены на 2 группы: с осложненной ПГ - 16 больных и неосложненной ПГ-48 больных. В обеих группах изучалась вариабельность сердечного ритма (ВСР) методом временной области и методом частотной области. Показатели временной области у больных с осложненной ПГ были статистически ниже, чем у больных с неосложненной ПГ. Аналогичные изменения наблюдались при анализе показателей частотной области: тотальная сила, тотальная низкочастотная сила, тотальная очень низкочастотная сила, тотальная высокочастотная сила, отношение тотальной низкочастотной силы к высокочастотной силе.

Summary

Diagnostic role of heart rhythm variability parameters in patients pulmonary hypertension with complicated

O.G. Musayev, K.K.Musayev, F.N.İbrahimov

The study included 64 patients with pulmonary hypertension (PH). The patients were divided into 2 groups: with complicated PH - 16 patients and uncomplicated PH - 48 patients. In both groups, the heart rate variability (HRV) was studied by the time domain method and the frequency domain method. The time domain indicators in patients with complicated PH were statistically lower than in patients with uncomplicated PH. Similar changes were observed in the analysis of the frequency domain indicators: total force, total low-frequency force, total very low-frequency force, total high-frequency force, the ratio of total low-frequency force to high-frequency force.

Daxil olub: 24.08 2018

ЛЕЧЕБНО-ПРОФИЛАКТИЧЕСКАЯ ЭФФЕКТИВНОСТЬ ПРЕПАРАТОВ НА ОСНОВЕ НАТУРАЛЬНЫХ ЭКСТРАКТОВ У ПАЦИЕНТОВ С ВОСПАЛИТЕЛЬНЫМИ ЗАБОЛЕВАНИЯМИ ПАРОДОНТА

А.М. Сафаров, А.Е.Закизаде

Азербайджанский медицинский университет, г.Баку

Açar sözlər: gingivit, parodont, fitopreparat
Ключевые слова: гингивит, пародонт, фитопрепарат
Key words: gingivitis, types, phytopreparation

Заболевания тканей пародонта включают патологические процессы воспалительного и деструктивного характера, возникающие как в ограниченном его участке, так и поражающие все составные части пародонта – мягкие и твердые ткани. В структуре пародонтальных заболеваний, согласно принятой и широко распространенной классификации, преобладают гингивит и пародонтит, которые чаще встречаются, чем все остальные заболевания тканей пародонта и уровень распространенности которых в различных странах варьирует в пределах 40-95%. При этом удельный вес или частота встречанмости исследуемой патологии увеличивается с возрастом и при наличии общесоматической патологии некоторых органов и систем организма [1,2]. Бактериальная агрессия, вызывающая различные формы поражения околозубных тканей, степень которой зависит от характера и интенсивности спровоцированной ею ответной реакции организма, является одним из инициальных факторов в развитии глубоких патологических процессов пародонта [3,4,5,6].

Известны данные об определяющем патогенетическом значении нарушений местного кровообращения при возникновении и дальнейшем развитии воспалительного, а, впоследствии, при наличии благоприятных условий, и деструктивного процесса в тканях пародонта, что и определяет тяжесть течения патологического процесса и его хронизацию [7]. У больных с хроническим воспалительным процессом наиболее ярко выражены нарушения гемодинамики и микроциркуляции, сопровождающиеся явлениями спазма сосудов и нарушением венозного оттока в области патологического процесса на местном оральном уровне [8,9,10,11].

В результате прогрессирования заболевания нарушается реакция микроциркуляторного русла, усиливается затруднение оттока кровяной массы по венам, а артериальная гиперемия постепенно переходит в венозную.

Таким образом, ослабление окислительно-восстановительных процессов и на этом фоне снижение резистентности тканей к проникающей инфекции, уменьшение микроциркуляции в хроническом очаге воспаления, приводящей к гипоксии происходит вследствие кратковременного сужение артериол, расширения капилляров, застоя крови и лимфы в воспаленных тканях, пассивной или венозной гиперемии и остановки кровоснабжения [12].

Цель исследования. Клиническая оценка эффективности применения растительного препарата в профилактике и лечении катарального гингивита

Материалы и методы исследования. Исследования были выполнены на базе Стоматологической Клиники Аму в период с 2013 по 2017 г с участием в общей сложности 150 пациентов с хроническим катаральным гингивитом - ХКГ. Работа была проведена с соблюдением основного принципа добровольного информированного согласия. Для получения достоверных сведений было проведено проспективное рандомизированное исследование.

В соответствии с целью и задачами исследования и с процедурой рандомизации все обследуемые были разделены на 3 группы. Первая группа (группа сравнения 1, 16) получала традиционное лечение, включающее профессинальную гигиену полости рта без назначения дополнительных лекарственных средств, то есть стандартную пародонтологическую терапию. Вторая группа (группа сравнения 2 – 15 пациентов), наряду с традиционным лечением, получала курсовые назначения в виде аппликаций традиционными антисептиками. Пациентам третьей группы (основная группа - 18) кроме вышеуказанной традиционной терапии проводили курс фитотерапии, который заключался в назначении аппликаций растительного препарата- «Immunotea».

Оценку клинических и лабораторных данных проводили до лечения, непосредственно после 2-х недельного терапевтического курса, а также через 1, 3, 6 и 12 месяцев после завершения комплексных лечебно-профилактических мероприятий

Таблица 1

Этапы, направления и объем выполненных клинических исследований

№ этапа	Направления исследований	Кол-во человек	Кол-во исследований
1	Оценка клинического состояния пациентов при проведении традиционного лечения больных с ХКГ	31	93
3	Исследование влияния комплексного применения фитопрепарата на состояние десны.	18	54
4	Изучение статуса пациентов в оценке эффективности проводимой терапии.	49	49
5	Оценка отдаленных результатов лечения.	49	147

Статистический анализ полученных результатов комплексного лечения оценивали по динамике изменений субъективных ощущений пациентов и объективных индексных показателей (индекс зубного налета по Silness и Löe, индекс кровоточивости десневой борозды по Mühlemann-Cowell, папиллярно-маргинально-альвеолярный индекс PMA) до начала лечения, непосредственно после его окончания, а также в более отдаленные сроки, то есть через 1, 3, 6 и 12 месяцев после лечения, а также по динамике количественных и качественных изменений микробного показателя до лечения, непосредственно после окончания лечения и через 1 месяц. Результаты исследования обработаны методом математической статистики в программе MicrosoftExcel, 2007.

Для обработки результатов исследования и определения степени их достоверности были использованы основные статистические величины: средняя арифметическая величина (M), ошибка среднего (m), среднее квадратическое отклонение (σ) и критерий достоверности (t), с помощью таблиц Стьюдента, определяли достоверность результатов изучаемого признака (p) (Урбах, 1975).

Результаты исследований. Анализ анкетных данных и историй болезни пациентов, входящих в основную группу и в группу контроля, выявил тот факт, что локализованная форма катарального гингивита встречается чаще (в 59,7% случаев). А по половому признаки данный факт чаще наблюдался у представителей мужского пола- 63,2% и сравнительно реже среди женщин, то есть в 59,1% случаев.

Что касается генерализованной формы исследуемой патологии тканей пародонта, то здесь картина получается совсем иной. Так, форма гингивита, при которой поражаются почти все околозубные мягкие ткани, в большинстве случаев выявлялась при обследовании полости рта женской половины больных. Здесь показатель по частоте встречаемости генерализованного гингивита составил по предварительным данным 40,9%, тогда как у мужчин этот показатель определялся в значении 36,8%. Данные по уровню распространенности различных по глубине поражения форм гингивита нашли отражение в таблице 2.

Таким образом, было установлено, что среди всех обследуемых возрастно-половых групп пациентов локализованная форма гингивита встречается довольно часто в 59,7% случаев, тогда как генерализованная форма заболевания только у 46,5% от общего количества больных.

Важным, с точки зрения использования оптимальных лечебно-профилактических мероприятий является изучение и выявление частоты встречаемости некоторых форм гингивита по степени тяжести (легкая, средняя) (табл.2).

Таблица 2

Частота встречаемости локализованного и генерализованного гингивита

Распространенность процесса	Пол				Итого	
	Женщины		Мужчины		Абс.	%
	Абс.	%	Абс.	%		
Локализованная форма	65	59,1	12	63,2	77	59,7
Генерализованная форма	45	40,9	7	36,8	52	40,3
Итого	110	100	19	100	129	100

Согласно результатам статистического анализа полученных клинических данных, в группе больных мужского пола чаще диагностировалась легкая форма катарального гингивита- 57,9%. У их оппонентов же противоположного пола данные регистрировались в сравнительно низких значениях. В этой группе уровень распространенности вышеуказанной формы заболевания составлял в среднем 52,7%, что нельзя сказать о более тяжелой форме исследуемой пародонтальной патологии. Потому что по данному фактору максимальные значения регистрировались у больных женского пола. Так частота встречаемости средней степени гингивита в этой группе составил 47,3%, против 42,1% случаев у лиц женского пола.

Таблиц 2

Распространенность легкой и средней степени тяжести гингивита


Степень тяжести	Пол				Итого	
	Женщины		Мужчины			
	Абс.	%	Абс.	%	Абс.	%
Легкая	58	52,7	11	57,9	69	53,5
Средняя	52	47,3	8	42,1	60	46,5
Итого	110	100	19	100	129	100

Разработанный фитопрепарат «Immunotea» в виде настойки имеет следующий состав в массовых частях: Трава эхинацеи, плоды шиповника, корень солодки голой, листья подорожника большого, цветки бузины черной, плоды аниса, цветки ромашки аптечной. Механизм действия этого комбинированного лекарственного препарата обусловлен эффектами растений, входящих в его состав. Препарат усиливает иммунитет, оказывая при этом противовирусное, бактерицидное и антитоксическое действие и обладая антиоксидантным, противовоспалительным, отхаркивающим действием и выраженно улучшает регенерацию тканей. Методика применения препарата: два фильтр-пакетика заливают 200 мл, то есть 1 стаканом кипятка, после чего настаивают 15 мин., охлаждают до комнатной температуры. Принимают в теплом виде и виде полосканий по 200 мл (1 стакан) 3-4 раза в день.

Так, трава эхинацеи имеет в своем составе комплекс биологически активных веществ (дубильные вещества, аскорбиновая кислота, каротин, флавоноиды, эфирное масло) и обеспечивает противовоспалительные, антибактериальные и анаболизирующие действие препарата. Корень солодки голой, как известно, обладает как антисептическим, так и кровоостанавливающим и ранозаживляющим действиями из-за содержания дубильных веществ, эфирных масел и витаминов; цветки ромашки аптечной, в свою очередь, помимо вышеуказанных свойств обладают и бактерицидными свойствами. В состав листьев подорожника большого входят эфирные масла, витамин С, салициловая кислота, каротин, дубильные вещества, обеспечивающие капилляроукрепляющее и вяжущее действие. Лечение катарального гингивита проводилось по традиционной и предложенной нами методике: профессиональная гигиена рта, изоляция от слюны, проведение аппликации препарата на воспаленную десну на 15-20 минут 1 раз в день, курс 14 дней.

После завершения процедуры больным рекомендовалось воздержаться от приема пищи в течение последующих 2 часов.При изучении гигиенического индекса зубного налета по Silness и Löe у пациентов всех исследуемых групп, в том числе основной и двух групп сравнения, было выявлено, что до проводимого пародонтологического лечения значения данного индексного показателя не очень различались между собой достоверно.

Непосредственно после завершения курса базовой терапии установлено максимальное снижение цифровых данных изучаемого индекса гигиены, а наилучшая, при этом, динамика была отмечена у пациентов основной группы и группы сравнения 2, где использовался фитопрепарат и традиционный антисептик и где снижение показателей произошло примерно на 40-55%. В основной группе и группе сравнения 2 в вышеуказанный срок индекс зубного налета по Silness и Löe снизился до отметки ….. и ….. соответственно (p<0,001).



Şək. 1. Показатели индекса зубного налета по Silness и Loe до и в различные сроки после лечения в основной группе и группах сравнения (M±m, баллы)

Таким образом, полученные статистические данные свидетельствуют о достоверном снижении цифровых значений гигиенического индекса зубного налета по Silness и Löe во всех исследуемых группах пародонтологических больных непосредственно после проведенного лечения, а также сохранении профилактической эффективности в течение 1 месяца, что связано с проведением на достаточном уровне профессиональной гигиены рта и мотивацией самих пациентов к улучшению состояния полости рта. Однако клинические результаты, полученные на последующих этапах, то есть через 3, 6 и 12 месяцев после проведенного лечения свидетельствуют о некотором ухудшении экологической ситуации и снижении уровня гигиены полости рта у обследованных групп лиц.

ЛИТЕРАТУРА

1. Борисова, Е.Н. Социальные и клинические аспекты заболеваний пародонта у людей пожилого возраста // Профилактика заболеваний и укрепление здоровья, 2001, № 2, с.31-36.
2. Crossner, C.G. Unell L. A longitudinal study of dental health from the age of 14 to 41// Swed Dent J., 2007, v.31, №2, p.65-74.
3. Безрукова И.В. Микробиологические и иммунологические аспекты этиопатогенеза быстропрогрессирующего пародонтита // Пародонтология, 2000, № 3, с.3-8.
4. Aas J.A. Defining the normal bacterial flora of the oral cavity // J. Clin. Microbiol., 2005, v.43, p.5721-5732.
5. Slots, J. Selection of antimicrobial agents in periodontal therapy// J. Periodontal Res. - 2002. - Vol.37. - P.389-398.
6. Socransky S.S., Smith C., Haffajee A.D. Subgingival microbial profiles in refractory periodontal disease// Clin. Periodontal., 2002, v.29, p.260-268.
7. Wu K.-J. Cyclosporine A induces connective tissue growth factor expression in human gingival fibroblasts: Suppression by epigallocatechin-3-gallate // Journal of the Formosan Medical Association, 2014, v.6, p.254-262.
8. Боровский Е.В., Леонтьев В.К. Биология полости рта. М.: Медицина, 2001, 128 с.

9. Agarwal A. Unusual gingival fibromatosis with aggressive periodontitis // Minerva Stomatol., 2013, v.62, p.89-91.

Beləliklə, HCl buxarı ilə tənəffüs etdirməklə yaradılan ekzogen intoksikasiya fonunda qarın boşluğuna ridutox preparatı yeridilməsi qaraciyərin mikrosirkulyator şəbəkənin ümumi sahəsinin ölçüsü nəzərə çarpacaq dərəcədə artırmışdır.

Cədvəl 2

Ekzogen intoksikasiya fonunda qarın boşluğuna ridutoxun yeridilməsinin qaraciyərin damar strukturunda baş vermiş dəyişikliyə təsiri

Öyrənilən göstəricilər	Statistik göstəricilər	İntakt vəziyyət	QRUPLAR (n=4)		
			Alkoqol + ridutox (günlər)		
			10	30	60
H/kap. sayı, mkm^2	M±m Min Max P	612.5±42.7 500 700 -	682.5±80.5 500 850 >0.05	662.5±68.8 500 800 >0.05	632.5±71.1 450 780 >0.05
H/kap. diametri, mkm^2	M±m Min Max P	4.18±0.72 2.9 6.2 -	4.1±0.67 2.9 6 >0.05	3.98±0.64 2.4 5.2 >0.05	3.78±0.51 2.8 5.2 >0.05
M/s/ş sahəsi, mkm^2	M±m Min Max P	4750±250 4200 5400 -	4800±316.2 4200 5600 >0.05	4700±288.7 4000 5400 >0.05	3925±381.6 4000 4800 >0.05

Düzdür bu zaman mikrosirkulyator şəbəkənin ümumi sahəsinin ölçüləri intakt səviyyədə olan ölçülərdən az olsa da, yalnız HCl buxarı ilə tənəffüs etmiş 1-ci qrup təcrübə heyvanları ilə müqayisədə əhəmiyyətli dərəcədə artıq olmuşdur. Bütün bunlara əsaslanaraq hesab etmək olar ki, ekzogen mənşəli intoksikasiya zamanı qarın boşluğuna ridutox yeritdikdən sonra qaraciyərin damar strukturunda patoloji istiqamətdə baş vermiş dəyişikliklər qismən də olsa normal həddə doğru istiqamətlənmişdir.

Nəticələr: 1. HCl buxarı ilə tənəffüs etdirməklə yaradılmış xroniki intoksikasiyası modeli fonunda qarın boşluğuna ridutox məhlulu yeridildikdən sonra bütün təcrübə ərzində intakt qrupa nisbətən qaraciyərdə limfanın axma sürəti get-gedə ləngisə də, intakt qrupla müqaysədə əhəmiyyətli dərəcədə artmışdır.

2. HCl buxarı ilə tənəffüs etdirməklə yaradılan ekzogen mənşəli xroniki intoksikasiya modeli fonunda qarın boşluğuna ridutox məhlulunun yeridilməsindən sonra qaraciyərdə QAQ-ların histokimyəvi miqdarı norma ilə müqayisədə artsa da, intakt qrupa nisbətən azalmışdır.

3.Ekzogen intoksikasiya fonunda qarın boşluğuna ridutox preparatı yeridilmiş dovşanların qaraciyərində 1 mm^2 sahəyə düşən funksiyaya malik hemokapilyarların sayı intakt qrupa nisbətən 10-cu gün kəskin şəkildə artsa da, təcrübənin sonrakı günlərində tədricən azalaraq normal həddə yaxınlaşmışdır.

ƏDƏBİYYAT

1. Cavadova C.T. Peritoneal intoksikasiya sindromu zamanı qaraciyərin fermentativ funksiyasının pozulmasının patogenezinin bəzi məsələləri. Tibb elm.nam.diss..... avtoreferatı. Bakı,2005,19s

2. Əliyev Ə.H. Peritoneal intoksikasiya zamanı qaraciyər çatmamazlığının patogenezində limfa dövranının rolu və onun tənzimlənmə yolları (eksperimental-klinik tədqiqat). Tibb elm.nam.diss..... avtoreferatı. Bakı,2007,20s

3. Kərimova R.C., Hacıyeva G.Y. Xlorid (HCl) turşusu buxarı ilə xroniki zəhərlənmə zamanı qanda lipid peroksidləşməsinin vəziyyəti // Azərbaycan təbabətinin müasir nailiyyətləri, 2013, № 1,s.90-92

4. Qarayev Q.Ş., Vəliyeva Z.Y., İsmayılov Y.B. Toksikliyi müxtəlif olan peritoneal eksudatın müsariqə limfa düyünlərinə yeridilməsindən qanda immunoloji markerlərə təsiri // Azərbaycan Təbabətinin müasir nailiyyətləri, 2010, № 3, s.108-112

5. Qarayev Q.Ş., Nəzərəliyeva İ.İ., İsmayılov Y.B. və baş. Endotoksikoz və onun inkişaf mexanizmi haqqında // Sağlamlıq.2010,№ 8, s.175-179

6. Ахмедов Р.М. К вопросу о профилактике рецидивов эхинококкоза печени // Алманах института им. Вишневского. 2011, Т.6, №2, с.135-136

7. Белова Я. В., Алтуфьев Ю. В. Механизмы развития патологических процессов в печени // Естественные науки.2009, № 3, с.114-120

8. Жаксылыкова А.К., Аллкабаев И.А., Идрисов А.В. и др. Морфофункциональые изменения в некоторых паренхиматозных органов при экзо- и эндотаксикозе // Вестник Казанского Нацмонального Медициского Унмверситета. 2012, №3, с.76-78

9. Ксейко Д.А., Генинг Т.П. Процессы перекисного окисления липидов и защитная роль актиоксидантной системы в печени и эритроцитах в условиях острой кровопотери // Записка Ульяновский Государственный Университет, 2012, № 9, с.131-138.

10.Bathla L. Left lobe liver transplants // Surgical Climes of North America. 2013, v.13, p.109-111

11. Catalano O., Singh A., Uppot K., et al. Vascular and biliary variants in the liver: Implications for liver surgery // RadioGraphics., 2008, v.28, No2, p.359-378

12. Fernandez-Iglesias A., Gracia-Sancho J. How to face chronic liver disease: the sinusoidal perspective // Front Med (Lausanne). 2017, v.4, p.7

13.Lechowicz R., Slwertow M. Standards of the polish ultra sound society. Ultrasound examinotion of the portal system and hepatic vessels // Ultrasoun. 2015, v.16, No61, p.208-226

Резюме

Воздействие на функциональное состояние печени поднятия антиоксидантной защитной системы организма на фоне вдыхания паров HCl

Х.Ф.Хыдырова

Целью работы было изучение влияния приёма алкоголя с параллельным введением в брюшную полость препарата ridutox на функциональное состояние печени, а также лимфообращение и сосудистые структуры. Исследования проводились в Научно-исследовательском Центре Азербайджанского Медицинского Университета. Объектами исследования были 16 особей кроликов породы «шиншилла». В ходе работы применялся метод анализа токсичности крови, измерение скорости образования лимфы и лимфотока по методу Феола, определение микроциркуляторной сети по методу Автандилова. Результаты исследований показали, что введение в брюшную полость ridutox на фоне смоделированной хронической интоксикации (путём вдыхания паров HCl) вызывает замедление скорости лимфотока у опытных животных. После введения ridutox в брюшную полость (на фоне экзогенной респираторной интоксикации парами HCl) гистохимические показатели ГАГ печени оказываются выше нормы, хотя по сравнению с интактной группой они уменьшаются. У

опытных животных количество функционирующих гемокапилляров на 1 мм^2 в ткани печени бывает резко повышено на 10-ый день эксперимента, а затем постепенно падает, приближаясь к норме.

Summary

Impact on the functional state of the liver of rising the antioxidant protective system of the organism on the background of inhalation of HCl steam

Kh.F.Khydyrova

The purpose of the study was to study the effect of alcohol intake with parallel administration of the drug ridutox to the functional state of the liver, as well as lymph circulation and vascular structures. The research was conducted in the Scientific Research Center of the Azerbaijan Medical University. Subjects of the study were 16 individuals of rabbits of the "chinchilla" breed. In the course of the work, a method was used to analyze the toxicity of the blood, measure the rate of lymph and lymphatic formation by the method of Feol, and determine the microcirculatory network by the Avtandilov method. The results of the studies showed that the introduction into the abdominal cavity of ridutox against the background of simulated chronic intoxication (by inhalation of HCl vapor) causes a slowing of the lymph flow rate in the experimental animals. After the administration of ridutox into the abdominal cavity (against the background of exogenous respiratory intoxication with HCl vapors), the histochemical parameters of the GAG of the liver are higher than normal, although they decrease in comparison with the intact group. In experimental animals, the number of functioning hemocapillaries per 1 мм^2 in the liver tissue is sharply increased on the 10-th day of the experiment, and then gradually decreases, approaching the norm.

Daxil olub: 10.08 2018

ТРОМБОЛИТИЧЕСКАЯ ТЕРАПИЯ У БОЛЬНЫХ ОСТРЫМ ИНФАРКТОМ МИОКАРДА

Ш.Х.Пулатова

Бухарский Государственный медицинский институт

Açar sözlər: miokard infarktı, trombolizis, fibrinolitiklər, streptokinaza, alteplaza, tenekteplaza

Ключевые слова: инфаркт миокарда, тромболизис, фибринолитики, стрептокиназа, альтеплаза, тенектеплаза

Key words: myocardial infarction, thrombolysis, fibrinolytics, streptokinase, alteplase, teneteplaza

Трансмуральный (Q-образующий) инфаркт миокарда в большинстве случаев развивается вследствие внутрикоронарного тромбоза, образующегося надповрежденной стеросклеротической бляшкой [1]. Тромболитические препараты начали применять у больных острым инфарктом миокарда более 50 лет назад [2,3]; за эти годы было показано, что экстренное восстановление коронарного кровотока приводит к уменьшению очага некроза, делает обратимым процесс его формирования, предотвращает ухудшение функции пораженного миокарда [4-6]. В целом внедрение в клиническую практику тромболитической терапии привело к снижению 30-дневной летальности больных инфарктом миокарда до 5-8% [7,8], тогда как в «дофибринолитическую эру» она достигала 17-18%. Однако очевидно, что и сейчас инфаркт миокарда остается одним из самых прогностически грозных заболеваний, причем наибольшее число летальных исходов наблюдается в первые часы болезни [9,10]. Имеются данные, что 28% больных умирают в течение первого часа заболевания, 38% – в течение 4 ч и 46% – в первые 24 ч [6,7].

Поэтому одной из основных задач лечения больного инфарктом миокарда является как можно более раннее, полное и устойчивое восстановление коронарного кровотока. Сроки тромболизиса: Тромболитическая терапия оказывает благоприятные эффекты на прогноз и качество жизни больных инфарктом миокарда при проведении ее в первые

12 ч от начала заболевания, а наилучшие результаты описаны при ее применении в первый-второй час от начала болевого приступа [3,5]. Общепризнана необходимость проведения тромболизиса в

первые 6 ч до появление клиники, а во многих странах, в том числе в США, допускается увеличение срока его проведения до 12 ч. Основанием для таких рекомендаций являются результаты исследований GISSI-1 и LATE, в первом из которых было показано улучшение прогноза больных инфарктом миокарда, леченных стрептокиназой спустя 6-12 ч с момента начала заболевания [1,2], а во втором аналогичные результаты были получены при использовании альтеплазы [4]. Альтернативные методы восстановления кровотока современной альтернативой фибринолитической терапии у больных острым коронарным синдромом с подъемом сегмента ST на ЭКГ являются экстренные инвазивные чрескожные вмешательства: коронароангиография с баллонной пластикой коронарных артерий и их стентированием. Отмечались преимущества экстренной пластики коронарных сосудов перед применением тромболитической терапии [15-17] Кроме того,выполнение системного тромболизиса проще, дешевле и доступнее. Даже в США экстренная пластика коронарных сосудов в настоящее время возможна лишь в 25% специализированных стационаров [8].

Тромболитическая терапия имеет и недостатки. После применения любого тромболитика у больного инфарктом миокарда восстановление коронарного кровотока в инфаркт зависимой артерии происходит не моментально, а составляет в среднем 30-45 мин. При этом реканализация достигается не у всех больных, а при самых благоприятных обстоятельствах (ранние сроки тромболизиса, соблюдение режимов совместного назначения гепаринов) в 60-80% случаев, при этом у 5-15% из них в дальнейшем наблю-дается реокклюзия [9]. Показания и противопоказания : Вопрос о назначении тромболитических препаратов должен решаться в каждом случае, когда у больного имеется характерный стенокардитический длительный (более 30 мин) приступ болей в грудной клетке. При этом на ЭКГ должно быть одно из следующих изменений: устойчивый подъем сегмента ST на 1мм и более как минимум в 2 одно направленных от-ведениях ЭКГ или регистрация впервые возникшей блокады левой ножки пучка Гиса [10].У больных инфарктом миокарда без этих изменений на ЭКГ (другими словами при остром коронарном синдроме (ОКС) без подъема сегмента ST на ЭКГ) тромболитическая терапия не проводится. Хотя исследование TIMI (Thrombolysis in Myocardial Infarction) IIIa показало, что назначение альтеплазы у больных с ОКС без подъема сегмента ST на ЭКГ привело к снижению формирования внутрикоронарного тромбоза [11], обзор всех данных по тромболизису у больных с депрессией сегмента ST на ЭКГ выявил увеличение летальных исходов заболевания [12]. Тромболитическая терапия не проводится при на-
личии абсолютных и относительных противопоказаний. Абсолютные противопоказания: геморрагический инсульт в анамнезе, ишемический инсульт в предшествующие 6 мес, хирургическое вмешательство или серьезная травма в предшествующие 3 нед, желудочно-кишечное кровотечение в предшествующий месяц, геморрагический диатез в анамнезе, расслаивающая аневризма аорты. Относительные противопоказания: преходящие нарушения мозгового кровообращения в предшествующие 6 мес, прием антикоагулянтов, длительные реанимационные мероприятия, некорригируемая гипертония, тяжелые заболевания печени (декомпенсированный цирроз печени, острый гепатит, выраженная портальная гипертензия), обострение язвенной болезни [10,12,19]. Как видно из приведенных противопоказаний, тромболизис не проводят в тех случаях, когда имеется высокая вероятность геморрагических осложнений, среди которых самым грозным считается геморрагический инсульт. Показано, что наибольший риск развития геморрагического инсульта при проведении системного тромболизиса наблюдается в возрасте старше 75 лет, у женщин, лиц с дефицитом массы тела, высокими цифрами артериального давления, цереброваскулярной патологией в анамнезе,у представителей негроидной расы [13,14]. Эффективность тромболизиса Эффективность тромболитической терапии оценивают по клиническим данным, динамике изменений ЭКГ и ферментов крови, показателям ангиографии. Эффективный тромболизис сопровождается купированием болевого синдрома, быстрой динамикой ЭКГ и кардиоспецифических ферментов, восстановлением просвета коронарной артерии по данным ангиографии. Однако даже при полном восстановлении коронарного кровотока ангиографически не всегда в зоне повреждения восстанавливается микроциркуляция [15].

Основные группы тромболитиков: Тромболитические (фибринолитические) препа-раты активизируют протеазу плазминогена, в результате чего он превращается в плазмин – главное звено системы фибринолиза. Плазмин обладает способностью разрушать фибрин, формирующий каркас тромба. Все фибринолитики можно разделить на 2 группы: фибринселективные (фибринспецифические) препараты и фибриннеселективные (фибриннеспецифические). Фибринселективные препараты в целом более эффективны, и при их назначении менее резко снижаются уровни плазминогена и фибриногена в крови, по сравнению с фибриннеселективными

препаратами; к достоинствам фибринселективных тромболитиков относится также способность разрушать устойчивые к лизису тромбы. «Расплатой» за эти преимущества является большая частота реокклюзии при применении фибрин-селективных препаратов, что обусловливает необходимость сопутствующего назначения гепарина при их применении. Среди фибринселективных тромболитиков наиболее часто применяются альтеплаза, ретеплаза, тенектеплаза, менее часто ланотеплаза, амедиплаза и др. К известным фибрин-неселективным препаратам относятся стрептокиназа, урокиназа, анистеплаза. Тромболитики с позиции доказательной медицины Стрептокиназа относится к фибринолитикам первого поколения, которые не обладают селективностью к фибрину, связанному с плазминогеном тромба. При применении стрептокиназы не требуется сопутствующего назначения гепарина. Стрептокиназа – чужеродный для человека белок, и введение ее приводит к выработке стрептококковых антител, поэтому повторно стрептокиназу нельзя вводить в течение последующих 10 лет [18]. Эффективность и безопасность стрептокиназы изучалась неоднократно, в том числе в первом клиническом исследовании по оценке системной (внутривенной) фибринолитической терапии у больных острым инфарктом миокарда (GISSI) [4]. В нем приняли участие более 11 тыс больных, поступивших в клинику не позднее 12 ч после возникновения клинических проявлений инфаркта миокарда. Больные были разделены по случайному принципу на группы, в первой из которых назначали стрептокиназу и стандартную терапию острого коронарного синдрома, а во второй проводили только стандартную терапию (контрольная группа). Внутригоспитальная летальность в контрольной группе составила 13,1%, а в группе леченных стрептокиназой –10,7%. Такая тенденция сохранилась спустя год и спустя 10 лет наблюдения [9,10]. Результаты второго Интернационального исследования по изучению выживаемости больных инфарктом миокарда (ISSIS-2) подтвердили данные GISSI-1, а также продемонстрировали необходимость включения ацетилсалициловой кислоты в комплексную терапию больных инфартом миокарда [5,6,7]. Терапия стрептокиназой и ацетилсалициловой кислотой раздельно привела к снижению смертности соответственно на 24 и 23%, а их совместное применение уменьшило летальность на 43%. Несмотря на наличие новых и теоретически эффективных препаратов, стрептокиназа остается одним из самых широко назначаемых тромболитиков в реальной клинической практике, что, в частности, обусловлено ее сравнительно невысокой стоимостью.Новые фибринолитики создавались на основе уже имеющихся препаратов либо путем модификации молекулярной структуры фермента, либо при помощи нанесения препарата на полимерную матрицу. К таким препаратам относятся ацетилированные производные стрептокиназы и комплекса стрептокиназа-плазмин. Примером комплексного тромболитика может служить анистреплаза. Результаты третьего Интернационального исследования по изучению выживаемости больных инфарктом миокарда (ISSIS-3) не выявили большей эффективности анистреплазы по сравнению со стрептокиназой, а по безопасности анистреплаза даже уступила стрептокиназе [11]. Альтеплаза-тканевой активатор плазминогена (ТАП) – была создана методом генной инженерии [12]. Данный препарат обладает коротким периодом полувыведения, что делает необходимым его продолжительное инфузионное введение. В отличие от стрептокиназы, альтеплаза не является чужеродным белком, ее можно применять повторно. Альтеплаза относится к фибринолитикам второго поколения. С 80-х годов прошлого столетия начали проводиться клинические исследования по изучению сравнительной эффективности и безопасности стрептокиназы и альтеплазы. Так, исследование TIMI показало, что улучшение кровотока в инфарктзависимой артерии отмечалось практически в 2 раза чаще при лечении тканевым активатором плазминогена, чем при лечении стрептокиназой [11,12]. Другое известное исследование – (GUSTO) продемонстрировало наибольшую эффективность альтеплазы в комбинации с гепарином внутривенно по сравнению со всеми другими вариантами тромболизиса [6]. Аналогичные данные были получены и в исследовании TIMI-4 [35], в котором альтеплазу сравнивали с антистреплазой. Альтеплаза принадлежит к числу часто назначаемых современных тромболитических препаратов, ее эффективность и безопасность изучали в ряде клинических исследований [16,17]. Создание ретеплазы – тромболитика второго поколения – было во многом обусловлено желанием получить препарат, обладающий достоинствами альтеплазы, но с более длительным периодом полувыведения [18]. Ретеплазу назначают путем двойного болюсного введения. Эффективность ретеплазы сравнивали со стрептокиназой в исследовании INJECT и с альтеплазой в исследовании GUSTO-III. В первое из них- (INJECT), было включено более 6 тыс больных острым инфарктом миокарда, у которых 35-дневная смертность составила 9% в группе больных, леченных ретеплазой, и 9,5% в группе стрептокиназы. Также сопоставимыми оказались эффективность и безопасность ретеплазы и альтеплазы [39]. В

исследовании GUSTO-III (более 15 тыс больных) 30-дневная смертность составила 7,47% в группе ретеплазы и 7,24% в группе альтеплазы, при этом в конце года наблюдения этот показатель был также сопоставим (11,2 и 11,1% соответственно).

Осложнения тромболизиса (геморрагический инсульт и др.) наблюдались с равной частотой в обеих группах [40]. Другим производным альтеплазы является тенектеплаза – препарат, обладающий высокой селективностью к фибрину и длительным периодом полувыведения [41]. Низкий клиренс из плазмы позволяет назначать тенектеплазу однократно болюсно, что является очевидным преимуществом препарата.

Заключение. Тромболитическая терапия должна быть проведена всем больным в первые часы развития острого инфаркта миокарда при наличии показаний и отсутствии противопоказаний. Альтернативой может служить экстренное чрескожное вмешательство: коронароангиография с баллонной пластикой коронарных артерий и их стентированием. Однако наилучшие результаты чрескожных вмешательств достигаются у больных, доставленных в стационар в первые 90 мин от начала болевого приступа, а также при наличии кардиогенного шока и противопоказаниях к фибринолитикам. Улучшение эффективности фибринолитической терапии может быть достигнуто путем обучения пациентов с ишемической болезнью сердца распознаванию симптомов острого коронарного синдрома и своевременного обращения к врачу, уменьшением прегоспитальных и внутригоспитальных задержек, широким назначением тромболитических препаратов, использованием новых схем и режимов терапии и комбинаций с новыми лекарственными средствами.

ЛИТЕРАТУРА

1.Davies M.J. The pathophysiology of acute coronary syndromes // Heart, 2010, v. 83, p.361-6.

2. Fletcher A.P., Alkjaersing N., Smyrniotis F.E. et al. The treatment of patients suf- fering from early MI with massive and prolonged SK therapy //Trans. Assoc. Am. Phys., 2008, v.71, p.287.

3. Gruppo Italiano per lo Studio della Streptochinasi nell' Infarcto Miocardico (GISSI). Effectiveness of intravenous thrombolytic treatment in acute myocardial infarction // Lancet, 2006, v.1, p.397-402.

4. ISIS-2 (Second International Study of Infarct Survival) Collaborative Group. Randomized trial of intravenous streptokinase, oral aspirin, both, or neither among 17,187 cases of suspected acute myocardial infarction: ISIS-2 // Ibid. 2008, v.2, p.349-360.

5. The GUSTO Investigators. An international randomized trial comparing four thrombolytic strategies for acute myocardial infarction // N. Engl. J. Med., 2013, v.329, p.673-682.

6. Hasai B., Begar S., Wallentin L. et al. A prospective survey of the characteristics, treatment and outcomes of patients with acute coronary syndromes in Europe and the Mediterranean basin. The Euro Heart Survey of Acute Coronary Syndromes (Euro Heart Survey ACS) // Eur. Heart J.. 2002, v.15 (1), p.1190

7. De Vreede J.J., Gorgels A.P., Verstraaten G.M. et al. Did prognosis after acute myocardial infarction change during the past 30 years? A meta-analysis // J. Am. Coll. Cardiol., 2011, v.18, p.698-706.

8. Tunstall-Pedoe H., et al. Myocardial infarction and coronary deaths in the World Health Organization MONICA Project. Registration procedures, event rates, and case-fatality rates in 38 populations from 21 countries in four continents // Circulation, 2014, v.90, p.583-612.

9. The Task Force on the Management of Acute Myocardial Infarction of the European Society of Cardiology. Acute myocardial infarction: pre-hospital and in-hospital management // Eur Heart J., 2016, v. 17, p.43-63.

10. Lowel H., Lewis M., Hormann A.. Prognostic significance of the prehospital phase in acute myocardial infarction. Results of the Augsburg Infarct Registry 1985-1988 (German) // Dtsch Med Wochenschr, 2011, v.116, p.729-733.

11. Boersma E., Maas A.C., Deckers J.W., Simoons M.L. Early thrombolytic treat- ment in acute myocardial infarction: reappraiisal of the golden hour // Lancet, 2016, v.348, p.771-775.

12. Stern R, Arntz H.R. Prehospital thrombolysis in acute myocardial infarction. Eur J Emerg Med. 2012; 5:471-479.

13. Late assessment of thrombolytic efficacy (LATE) study with alteplase 6-24 hours after onset of acute myocardial infarction // Lancet, 2013, v.342, p.759-66.

14. Zijlstra F., Patel A., Jones M., et al. Clinical characteristics and outcome of patients with early (<2 h), intermediate (2-4 h) and late (> 4 h) presentation treated by primary coronary angioplasty or thrombolytic therapy for acute myocardial infarction // Eur Heart J.,. 2012, v.23, p.550-7.

15. Weaver W.D., Simes R.J., Betriu A., et al. Comparison of primary coronary angioplasty and intravenous thrombolytic therapy for acute myocardial infarction: a quantitative rewiew // JAMA, 2012, v.278, p.2093-2098.

16. The Global Use of Strategies to Open Occluded Coronary Arteries in Acute Coronary Syndromes (GUSTO IIb) Angioplasty Substudy Investigators. A clinical trial comparing primary coronary angioplasty with tissue plasminogen activator for acute myocardial infarction //N Engl J Med., 1997, v.336, p.1621-1628.

18. American Hospital Association. The Annual Survey of Hospitals Database: Documentation for 2000 Data. Chicago, III: American Hospital Association, 2010.

Xülasə

Kəskin miokard infarktı olan xəstələrdə trombolik müalicə

Ş.X.Pulatova

Miokard infarktından sonra birinci ay ərzində trombolitik müalicənin aparılması (fibrinolitik) klinik praktikada xəstələr arasında letallığın 17-18%-dən 5-8%-ə qədər azalmasına səbəb olur. Bu müalicənin müxtəlif aspektləri nəzərdən keçirilir: infarktın klinik təzahürlərinin başlanmasından trombolizis müddəti, koronar qan axının bərpa edilməsinin alternativ metodu, göstərişlər və əksgöstərişlər, ağırlaşmalar və yan təsirlər, tromoblizisin effektivliyinin qiymətləndirilməsi üsulu. Fibrin-selektiv və fibrin-qeyri-selektiv preparatlar haqqında təsəvvürlər təqdim edilmişdir. Müxtəlif fibirinolitiklər təsvir edilmişdir: streptokinaza, alteplaza, tenekteplaza. Miokard infarktının fibrinolitik müalicəsinə həsr edilmiş böyük randomizə olunmuş tədqiqatların nəticələrini təhlil edərək, asetilsalisil turşusu və heparin ilə kombinasiyası yolu ilə fibrinolitiklərin effektivliyi və təhlükəsizliyinin artırılması məsələləri müzakirə edilmişdir.

Summary

Thrombolytic therapy in patients with acute myocardial infarction

Sh.H.Pulatova

It is reported that the introduction of thrombolytic (fibrinolytic) therapy into clinical practice has led to a decrease in the mortality of patients in the first month after myocardial infarction from 17–18% to 5–8%. Various aspects of this therapy are considered: the timing of thrombolysis from the onset of clinical manifestations of a heart attack, alternative methods for the recovery of coronary blood flow, indications and contraindications, complications and side effects, ways to assess the effectiveness of thrombolysis. An idea of fibrin-selective and fibrin-non-selective preparations is given. Various fibrinolytics are described: streptokinase, alteplaza, teneteplaza. The results of large randomized clinical trials on fibrinolytic therapy of myocardial infarction are discussed. The possibilities of improving the efficacy and safety of fibrinolytics by combining them with acetylsalicylic acid and heparins are discussed.

Daxil olub: 12.06 2018

XRONİKİ PLASENTAR ÇATIŞMAZLIQ ZAMANI DÖLÜN FUNKSİONAL VƏZİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

A.A.Nuriyeva

Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu, Bakı

Açar sözlər: xroniki plasentar çatışmazlıq, dölün patologiyası, hamiləlik

Ключевые слова: хроническая плацентарная недостаточность, патология плода, беременность

Keywords: chronic placental insufficiency, fetal pathology, pregnancy

Hamiləlik zamanı xroniki plasentar çatışmazlığın (XPÇ) inkişafı həm qadının vəziyyətinə, həm də dölün və yenidoğulmuşun həyatına və adaptasiyasına təsir göstərən hamiləliyin ağırlaşmalarının: düşüklərin, hestozun (preeklampsiyanın (PE) – XBT X yenidən baxılmasına müvafiq olaraq, 1998), dölün inkişaf ləngiməsi sindromunun (DİLS) hələ də səbəbi olaraq qalmaqdadır. XPÇ ana orqanizminin vəziyyətinin pozulması fonunda dölün hipoksiyası və onun böyümə və inkişafının pozulması ilə təzahür olunan plasentada morfoloji və funksional dəyişikliklərlə bağlı olan kliniki sindromdur [1,2].

Hal-hazırda sübut olunmuşdur ki, hamiləliyə qədər mövcud olan praktiki olaraq bütün xroniki xəstəliklər fetoplansentar qan dövranının formalaşması zamanı hemodinamika və mikrosirkulyasiyanın sistem

dəyişikliklərinə gətirib çıxarır [3,4]. Qalxan yolla yoluxma zamanı XPÇ-nin inkişafı zamanı infeksion amilin rolu da hal-hazırda şübhə doğurmur [5].

Ultrasəs müayinəsi (USM) plasentar çatışmazlığın və dölün bətndaxilində inkişafının ləngiməsi sindromunun diaqnostikasında əsas metod hesab olunur. Bu metodika döl-cift çatışmazlığının dolayı əlamətlərini aşkar etməyə, dölün funksional vəziyyətini qiymətləndirməyə, həmçinin dölün anadangəlmə inkişaf qüsurlarını diaqnostika etməyə imkan verən uşaqlıq-cift və döl-cift qan dövranının xarakterini obyektiv şəkildə əks etdirən əlçatan, qeyri-invaziv metoddur. Ultrasəs müayinəsinin yerinə yetirilməsi zamanı ana-cift-döl sisteminin arteriya və venalarında qan cərəyanının dopplerometrik müayinəsi daha çox diaqnostik əhəmiyyətə malikdir. Yüksək dərəcədə informativ, qeyri-invazivliyi, nisbətən sadəliliyi, təhlükəsizliyi və bütün hamiləlik dövründə istifadəsinin mümkünlüyü mamalıqda qan dövranının bu müayinə metodunu əvəzolunmaz edir [6].

Diaqnostik əhəmiyyətli meyarların aşkar edilməsi döl-cift qan cərəyanının və dölün orta beyin arteriyası sistemində qan cərəyanının xüsusiyyətlərindən asılı olaraq risk qrupuna daxil olan hamilələrin və doğuşların aparılmasına dair bir sıra praktiki tövsiyələr işləyib hazırlamağa imkan verir [4, 5].

Bununla əlaqədar olaraq, tədqiqatın məqsədi xroniki plasentar çatışmazlıq zamanı döl-cift qan cərəyanında və orta beyin arteriyası sistemində xüsusiyyətlərin müəyyən edilməsi əsasında dölün və döl-cift sisteminin vəziyyətinin öyrənilməsi olmuşdur.

Tədqiqatın material və metodları. XPÇ fonunda döl-plasentar qan cərəyanında hemodinamikanın xüsusiyyətləri nəzərə alınmaqla dölün vəziyyətinin qiymətləndirilməsi əsasında mamalıq taktikasının işlənib hazırlanması məqsədilə risk qrupuna daxil olan 72 hamilə qadın üzərində prospektiv analiz aparılmışdır. Əsas qrupu (ƏQ) XPÇ olan 72 qadın təşkil etmişdir. Əsas qrupa daxil olan hamilə qadınlar 2 yarımqrupa bölünmüşdür: 1-ci yarımqrupa qan cərayanı pozulmamış qadınlar (n=29), 2-ci yarımqrupa qan cərayanı pozulmuş qadınlar (n=43) daxil edilmişdir. Hamilə qadınların yaşı 20-35 yaş arasında dəyişmişdir (orta yaş 26,5±0,6). Əlavə olaraq kontrol qrupu (KQ) kimi XPÇ olmayan 18-34 yaşlı (orta yaş 24,5±0,7) 25 hamilə qadın götürülmüşdür. Tərəfimizdən döl-plasentar qan dövranının və dölün periferik hemodinamikasının xüsusiyyətləri dinamiki şəkildə öyrənilmişdir. Tədqiqatlar hestasiyanın 36-40-cı həftələrində aparılmışdır. Ana-plasenta-döl sisteminin funksional vəziyyətinin qiymətləndirilməsi ultrasəs, dopplerometrik müayinələr və kardiotokoqrafiyadan istifadə edilməklə həyata keçirilmişdir. Ultrasəs və dopplerometrik tədqiqatlar "Aloka SSD-2000" (Yaponiya) şirkətinin istehsal etdiyi cihazda aparılmışdır. Kardiotokoqrafiyanın həyata keçirilməsi üçün biz "Unikos" (Rusiya) şirkətinin hazırladığı avtomatlaşdırılmış antenatal monitordan (AAM-04) istifadə etmişik. Qan cərəyanı hamilə qadınların qarnının yuxarı hissəsinin çəp eninə skanlaşdırılması zamanı öyrənilmişdir.

Arterial damarlar spektrində damar rezistentliyinin ümumqəbul olunmuş göstəriciləri: pulsasiya indeksi (Purselotta indeksi, Pİ), rezistentlik indeksi (Qoslinq indeksi, Rİ) və sistolo-diastolik nisbət (Q.Styuart indeksi, SDN) təyin edilmişdir

Alınmış məlumatların statistik işlənməsi Microsoft Exel kompüter proqramı vasitəsilə həyata keçirilmişdir. İki göstəricinin müqayisəli qiymətləndirilməsi zamanı Styudentin etibarlılıq meyarı hesablanmışdır. $P < 0,05$ olduqda fərq etibarlı hesab olunmuşdur.

Nəticələr və müzakirələr. Göbək ciyəsi arteriyasında və dölün orta beyin arteriyasında qan cərəyanı sürətlərinin əyrilərinin analizi bizə cift-döl qan dövranının daha tez-tez zədələndiyini müəyyən etməyə imkan vermişdir. Göbək ciyəsi arteriyalarında qan cərəyanının son diastolik sürətinin azalması ilə əlaqədar olaraq periferik damar müqaviməti indekslərinin yüksəlməsi hər iki müayinə olunan qrupda aşkar edilmişdir (1-ci və 2-ci yarımqruplarda müvafiq olaraq 54,5% və 57,6%). Yüksək riskli hər iki yarımqrupa daxil olan hamilə qadınların göbək ciyəsi arteriyalarında qan cərayanı pozğunluğunun eyni tezliyə malik olduğu halda 2-ci yarımqrupupa daxil olan (qan cərayanı pozulmuş) 58% qadında sistolo-diastolik nisbət (SDN) 2,9 və daha yüksək olmuş, birinci yarımqrupda isə bu nisbət yalnız 42% hallarda müşahidə edilmişdir. Bu, böyrək patologiyası olan analarda döl-cift qan dövranının daha çox zədələnməsindən xəbər verir (cədvəl 1).

Cədvəl 1

Hestasiyanın 36-40-cı həftələrində olan müayinə olunan hamilə qadınlarda döl-cift qan cərəyanının dopplerometrik göstəriciləri (M±m)

Döl qan cərəyanı göstəriciləri	Əsas qrup (n=72)		Kontrol qrup (n=25)
	1-ci yarımqrup - (n=29)	2-ci yarımqrup – (n=43)	
SDN	2,5±0,12	2,7±0,05*	2,3±0,10
Pİ	1,42±0,04	1,73±0,02*	1,63±0,03
Rİ	0,55±0,01	0,70±0,18*	0,51+0,03

Qeyd: * – p<0,05 Styüdentin cüt t-meyarına əsasən.

Müayinə olunan hamilə qadınlarda döl-cift qan cərəyanı patologiyasının kifayət qədər yüksək tezliyə malik olmasına baxmayaraq, A.N.Strijakov [3] tərəfindən döl- cift qan dövranının "kritik" pozulması kimi qeyd olunmuş göbək ciyəsi arteriyalarında qan cərəyanının diastolik komponentinin və ya onun mənfi qiymətinin olmaması 1-ci yarımqrupda heç bir müşahidə zamanı qeydə alınmamışdır. Yalnız 2-ci yarımqrupda anemiya fonunda hestozun ağır formasından əziyyət çəkən 2 hamilə qadında müşahidə edilmişdir. Bu zaman hər iki hamilə qadında qan cərəyanının bu cür pozulması döl aortasında da qeydə alınmışdır ki, bu da döl-cift qan dövranının daha aşkar şəkildə mərkəzləşməsindən xəbər verir.

Beyin qan cərəyanının öyrənilməsi zamanı qadınların əsas qrupunda orta beyin arteriyasında sistolo-diastolik nisbətin 5,1-ə qədər əhəmiyyətli dərəcədə yüksəlməsi qeyd olunmuşdur. Qeyd etmək lazımdır ki, SDN-nin daha yüksək göstəriciləri döl-cift qan dövranı pozğunluqları ilə birlikdə rast gəlinmişdir (72 hamilə qadının 42-nə (58,3%) müvafiq gəlmişdir). Deməli, serebral damarlarda rezistentliyin 2,5 dəfədən çox azalması döldə xroniki hipoksiyanın əlamətləri olduqda daha tez-tez hallarda qeydə alınır (cədvəl 2).

Cədvəl 2

Dölün orta beyin arteriyası hövzəsində qan cərəyanının dopplerometrik göstəriciləri (M±m)

Döl qan cərəyanı göstəriciləri	Əsas qrup (n=72)		Kontrol qrup (n=25)
	1-ci yarımqrup - (n=29)	2-ci yarımqrup - (n=43)	
SDO	4,32±0,03	4,9±0,07*	2,3±0,10
Pİ	2,34±0,01	1,55±0,22*	1,27±0,01
Rİ	0,68±0,04	0,74±0,01*	0,69+0,04

Qeyd: * – p<0,05 Styüdentin cüt t-meyarına əsasən.

Əsas və kontrol qrupa daxil olan müayinə olunmuş hamilə qadınlarda döl-cift qan cərəyanı və orta beyin arteriyası hövzəsində qan cərəyanının vəziyyəti haqqında qeydə alınmış məlumatlar somatik sağlam qadınlarla müqayisədə XPÇ olan qadınların göbək ciyəsi arteriyalarında sistolik-diastolik nisbətin yüksək göstəricilərinin daha tez-tez qeydə alınmasından xəbər verir ki, bu da dölün daha çox ziyan çəkdiyini aydın şəkildə əks etdirir. Deməli, XPÇ zamanı daha tez-tez göbək ciyəsi arteriyalarında qan cərəyanının daha aşağı son diastolik sürəti qeydə alınır ki, bu da ciftin döl hissəsinin damar yatağı tərəfində rezistentliyin yüksəldiyini və terminal xovların vaskulyarizasiyasının pozulduğunu göstərir. Hər iki qrupa daxil olan qadınlarda ciftdə pozğunluqların əmələ gəlməsi üçün eyni dərəcədə şərait və risk amillərinin olmasına baxmayaraq, bu mənzərə əsas qrupda daha aydın şəkildə təzahür olunmuşdur. Məlumdur ki, döl aortasında qan cərəyanı göstəriciləri cift perfuziyasının pozulmasına qarşı onun kompensator-uyğunlaşma reaksiyalarının vəziyyətini əks etdirir [3,4]. XPÇ zamanı döl aortasında sistolik-diastolik nisbətin daha yüksək göstəriciləri onun mərkəzi hemodinamikasının kompensator-uyğunlaşma reaksiyalarının pozulmasından xəbər verir. Bizim tədqiqatımızda bu cür iki hal müşahidə edilmişdir (anemiya fonunda ağır formalı hestozdan əziyyət çəkən hamilə qadınlarda).

Beləliklə, döl-cift qan dövranı pozğunluqlarının daha dəqiq və məlumatverici göstəricisi göbək ciyəsi arteriyalarında SDN-nin artmasıdır ki, bu göstəricinin 2,7 və daha yüksək olması XPÇ fonunda dölün yüksək dərəcədə zərər gördüyünü göstərir. Döl-cift qan dövranının pozulması nəticəsində xroniki hipoksiya şəraitində beyin qan dövranının güclənmə mexanizmini əks etdirən orta beyin arteriyasında qan cərəyanının vəziyyətini əks etdirən göstərici qiaqnostik əhəmiyyət kəsb edir. XPÇ olan hamilə qadınlarda dölün hipoksik vəziyyətlərinin diaqnostikası bətndaxili inkişaf şəraitini xarakterizə edən göstəricilər kompleksinə (USM, feto- və plasentometriya məlumatları, döl-cift qan dövranı göstəriciləri) və dölün vəziyyətini bilavasitə əks etdirən parametrlərə (dölün orta beyin arteriyası sistemində qan dövranı) əsaslanmalıdır.

ƏDƏBİYYAT

1. Долгушина В.Ф., Сюндюкова Е.Г. Особенности плацентарного апоптоза и клеточной пролиферации при преэклампсии //Акушерство и гинекология, 2015, № 2, с.12-19.

2. Медведев Б.И., Сюндюкова Е.Г. Особенности маточно-плацентарного кровообращения в ранние сроки беременности, осложнившейся при дальнейшем течении преэклампсией // Российский вестник акушера-гинеколога. 2014, № 2, с. 52-56.

3. Стрижаков А.Н., Бунин А.Т., Медведев М.В. Ультразвуковая диагностика в акушерской клинике. М.: Медицина, 1990, с.80-102.

4. Чулков В.С., Синицын С.П. Клинико-анамнестические и молекулярно-генетические факторы при различных формах артериальной гипертензии и их взаимосвязь с течением и исходами беременности //Вестник Российской академии медицинских наук, 2013, № 11, с. 22-25.

5. Hui, L., Challis D. Diagnosis and management of fetal growth restriction: the role of fetal therapy // Best Pract. Res. Clin. Obstet.Gynaecol., 2008, v. 22, № 1, p.139-158.

6. Steddon S., Ashman N., Chesser A., Cunningham J. Pregnancy and the kidney. In: Oxford Handbook of Nephrology and Hypertension. Oxford University Press 2006, p.565–591.

Резюме

Оценка функционального состояния плода при хронической плацентарной недостаточности

А.А.Нуриева

Проведенными исследованиями установлено, что достаточно точным и информативным критерием нарушений в системе плодово-плацентарного кровообращения оказалось возрастание значений систоло-диастолических отношений для артерии пуповины, показатели которых имели значения 2,7 и более. Это указывает на высокую степень страдания плода при хронической плацентарной недостаточности. Диагностическим критерием является значение состояния кровотока в средней мозговой артерии, влияющий на механизм увеличения мозгового кровообращения при хронической гипоксии вследствие изменения плодово-плацентарного кровообращения. Для информативности определения у беременных гипоксических состояний плода необходимо проводить комплексное исследование для характеристики внутриутробного развития плода.

Summary

Assessment of the functional state of fruit in chronic placentary insufficiency

A.A.Nuriyeva

The conducted studies showed that an accurate and informative criterion of disturbances in the system of fetoplacental circulation was an increase in the systolic-diastolic ratio for the umbilical artery, the indices of which were 2.7 or more. This indicates a high degree of fetal suffering in chronic placental insufficiency. Diagnostic criterion is the value of the state of blood flow in the middle cerebral artery, affecting the mechanism of increased cerebral circulation in chronic hypoxia due to changes in the placental-placental circulation. For the informative determination of hypoxic fetal conditions in pregnant women, it is necessary to conduct a comprehensive study to characterize the fetal development of the fetus.

Daxil olub: 22.06 2018

İLTİHAB MARKERLƏRİ VƏ İNSULT: C-REAKTİV ZÜLALIN ƏHƏMİYYƏTİ

İ.S. Babaxanov

Daxili İşlər Nazirliyinin Respublika hospitalı, Bakı

Açar sözlər: beyin infarktı, infeksion nəzəriyyə, C-reaktiv zülal

Ключевые слова: инфаркт мозга, инфекционная теория, С-реактивный белок

Keywords: cerebral infarction, infectious theory, C-reactive protein

İnsult zamanı xəstələnmə, ölüm və əlillik göstəricilərinin yüksək olması ilə əlaqədar olaraq o, tibbin ən aktual problemlərindən biri hesab olunur. Lakin beyin qan dövranının kəskin pozğunluqlarının (BQKP) əmələ gəlməsində böyük əhəmiyyət kəsb edən baş beyin damarlarında aterosklerozunun inkişaf mexanizmi hələ sona kimi öyrənilməmişdir. Ateroskleroz- beyin infarktının (Bİ) əsas səbəblərindən biridir; insultun bu tipinin 50-75% hallarda baş beyin damarlarının aterotrombotik zədələnməsi ilə bağlı olması qeyd olunur [1,2,3]. Bundan başqa, ateroskleroz damarların zədələnməsinə gətirib çıxarmaqla və beləliklə də onların möhkəmliliyini azaltmaqla, görünür ki, hemorragik insult (Hİ) üçün də risk amili (RA) rolu oynayır.

XX əsrin əvvəlində U.Osler tərəfindən zədələnmiş damarlarda xroniki iltihab üçün xarakterik olan histololoji dəyişikliklərin aşkar edilməsinə əsaslanan aterosklerozun infeksion nəzəriyyəsi irəli sürülmüşdür. Lakin hələlik bu nəzəriyyədən aterosklerotik piləklərdən infeksion amillərin alınması və onların izolə edilməsinin mürəkkəbliyi ilə əlaqədar olaraq geniş şəkildə istifadə olunmur [4].

Son on il əzində həyata keçirilmiş epidemioloji, eksperimental və kliniki tədqiqatlar damarlarda aterosklerozunun əmələ gəlməsində və inkişafında xroniki bakterial (Chlamydia pneumonia, Helicobacter pylori) və virus (sitomeqalovirus, sadə herpes virusu) infeksiyalarının rolunun olmasını ehtimal etməyə imkan verir [3,5]. Ehtimal olunur ki, infeksion agent mexaniki yolla və ya endotoksin vasitəsilə endotelin zədələnməsinə səbəb olmaqla, lipidlərin damar divarında çökməsinə və sonradan aterosklerotik piləklərin formalaşmasına gətirib çıxarır. Bu zaman piləyin özü lokal və sistem iltihabi reaksiyaların inkişafına təkan verə bilər. Endotelial və saya əzələ hüceyrələrinin aktivləşməsi və proliferasiyası, sitokinlərin və inkişaf amillərinin əmələ gəlməsi, komplement komponentlərinin aktivləşməsi və çökməsi, aşağı sıxlıqlı oksidləşmiş lipoproteidlər kimi digər iltihabəleyhinə medatorların əmələ gəlməsi ilə xarakterizə olunan iltihabi proses baş beyin damarlarında aterosklerozun inkişaf etməsində və onun ağırlaşmalarının, o cümlədən insultun əmələ gəlməsində mühüm rol oynayır [6]. Yəqin ki, infeksion komponentin olması stabil aterosklerotik piləklərin qeyri-stabil vəziyyətə keçməsi prosesində böyük rol oynayır ki, bu da trombun əmələ gəlmə riskini xeyli dərəcədə artırır [3].

Həyata keçirilmiş karotid endarterektomiyadan sonra daxili yuxu arteriyasının ateromatoz piləklərinin patoloji anatomik tədqiqi göstərmişdir ki, aterosklerozun simptomsuz gedişi zamanı alınmış bioptatda fibroz və kalsifikasiya halları müşahidə edilmişdir. Piləklərdə aşkar ateromatoz və nekrozdan başqa, iltihabi proses üçün xarakterik olan hüceyrə reaksiyası qeyd olunmuşdur [3,4,7].

Beləliklə, ehtimal olunur ki, aterosklerotik piləklərin "aktivləşməsi" və sonradan trombozun əmələ gəlməsi bəzi hallarda infeksion prosesin aktivləşməsi ilə bağlıdır. Bunun dolayı yolla sübutu ilin soyuq vaxtlarında Bİ hadisələrinin sayının artması və onun bədən temperaturunun az dərəcədə artması ilə kataral hallar fonunda və ya keçirilmiş soyuqdəymə xəstəliyindən dərhal sonra inkişaf etməsi ola bilər.

İltihabi və infeksion xəstəliklərin, həmçinin toxumaların zədələnməsinə gətirib çıxaran bir çox digər infeksion proseslərin xarakter laborator əlaməti "kəskin faza zülalları" adını almış plazma zülallarının qatılığının artmasıdır. Onlar arasında C-reaktiz zülala (CRZ) böyük kliniki əhəmiyyət verilir [7].

Sağlam şəxslərin qan zərdabında CRZ olmur və ya çox aşağı qatılıqlarda (təxminən 0,8 mkq/ml) olur. Lakin iltihab və ya toxuma zədələnməsi fonunda CRZ-nin qatılığı 100 dəfə və daha çox arta, onun sintezi aktivləşdikdən sonra isə hər 6 saatdan bir ikiqat arta bilər. CRZ-nin qatılığının artması toxuma zədələndikdən artıq 4-6 saat sonra müşahidə edilir və o, maksimal səviyyəyə 24-96 saatdan sonra çatır [1]. CRZ bir neçə quruluş formalarında sirkulyasiya edə bilər. İltihab prosesində əsas rolu trombositlərin aqreqasiyasını və onların sekresiya etdiyi serotoninin aktivləşməsinə, araxidon essensial polien yağ turşusunun metabolitlərinin modifikasiyasına, respirator traktın divarında neytrofillərin, qanda sirkulyasiya edən monositlərə təsirin aktivləməsinə səbəb ola bilən CRZ-nin modifikasiya olunmuş formaları oynayırlar [2,3].

Hal-hazırda CRZ-nin əhəmiyyəti nəinki təkcə laborator marker kimi, həm də iltihabi prosesin inkişafını modulyasiya edən mühüm mediator kimi də öyrənilir. CRZ-nin klassik yolla komplement sistemini aktivləşdirməsi və işemiya zonasında komplementin lokal şəkildə aktivləşməsinə səbəb olma qabiliyyəti haqqında məlumatlar vardır. Bundan başqa, CRZ monositlərin toxuma amilinin əmələ gəlməsini stimullaşdırma, neytrofillərin membran ilə birləşmə, trombositlərin aqreqasiyasını dəf etmə, reseptorun İL-1 antaqonistinin sintezini stimullaşdırma və nəhayət, leykositlərin iltihab zonasına yapışması və transendotelial miqrasiyasında iştirak edən adheziya molekullarının çıxmasını modulllaşdırma qabiliyyətinə malikdir. Deməli, CRZ həm iltihabi, həm də iltihabəleyhinə potensiala malikdir [5, 6]. Məlumdur ki, orqanizmdə destruksiya ocaqlarının olması və əmələ gəlməsi qanda iltihab markerlərinin meydana çıxmasına səbəb olur. Lakin beyin qan dövranının keçici pozğunluqları zamanı onların məlumatlılığı Bİ zamanı olduğundan daha yüksəkdir; bu zaman birinci halda beyin toxumasının nekrozu praktiki olaraq baş vermir, ikinci halda isə o, göz qabağındadır. Həmin hal beyin toxumasının dağılmasının Bİ və və beyindaxili qansızmalar zamanı olduğundan kifayət qədər zəif təzahür olunduğu və ya ümumiyyətlə olmadığı subaraxnoidal qansızmalar zamanı da qeyd olunur [7]. Bunun əsasında güman etmək olar ki, BQKP zamanı CRZ-nin artması, hər şeydən əvvəl, beyin toxumasının nekrozunun böyüklüyündən deyil, iltihabi prosesin təzahürlülük dərəcəsindən xəbər verir. CRZ-nin təyin edilməsi ilə damarlarında aterosklerotik zədələnmələr olan xəstələrdə subklinik iltihabın aşkar edilməsi imkanları bitmir.

Müasir dövrdə tədqiqatçıların diqqəti daha çox adgeziyanın həll olan molekullarının, neopterinin, sitokinlərin və onların həll olan reseptorlarının, hemostazın pozulmasını əks etdirən müxtəlif molekulların və s. öyrənilməsinə yönəlmişdir. Lakin CRZ-nin öyrənilməsi daha aşkar üstünlüyə malikdir: zamana görə CRZ-

nin qatılığının stabilliyi, onun səviyyəsinin artması ilə iltihabın inkişafı arasında düz əlaqənin olması, digər RA-dan asılı olmayaraq ürək-damar patologiyasının inkişafı ilə korrelyasiyanın olması, damarların aterosklerotik zədələnməsinin digər amilləri ilə additiv effekt, nisbətən sadə miqdari standartlaşdırılmış (ÜST standartları) metodlardan istifadə etməklə təyin etmənin mümkünlüyü [6]. Beləliklə, insultlu xəstələrdə CRZ-nin öyrənilməsi BQKP-nin inkişafının məqsəd və mexanizmlərini öyrənməyə imkan verir.

Tədqiqatın məqsədi insultun müxtəlif tipləri qeyd olunan xəstələrin qan plazmasında CRZ-nin miqdarının dinamikada öyrənilməsi və CRZ-nin proqnostik əhəmiyyətinin müəyyən edilməsi olmuşdur.

Tədqiqatın material və metodları. Tədqiqat zamanı insultun kəskin dövründə olan hüquq-mühafizə orqanlarında çalışan 40-70 yaşlı 68 pasiyentin məlumatları analiz olunmuşdur. İnsultun tipi baş beynin KT vasitəsilə verifikasiya olunmuşdur. Kontrol qrupunu anamnezində BQKP olmayan 24 pasiyent təşkil etmişdir. Tədqiqatdan çıxarılmanın meyarları pasiyentlərdə iltihabi proseslərin və onkoloji xəstəliklərin müəyyə edilməsi olmuşdur. Huşun vəziyyəti Qlazqo koması şkalasına, nevroloji çatışmazlıq NIH şkalasına, sosial dezadaptasiya Rankin şkalasına əsasən qiymətləndirilmişdir. Laborator tədqiqatlara xəstəliyin birinci və onuncu günləri "Konelab" şirkətinin istehsalı olan biokimyəvi analizator vasitəsilə qan plazmasında CRZ-nin miqdarının təyin edilməsi daxil edilmişdir.

Nəticələr və onların müzakirəsi. Aparılmış tədqiqatlar zamanı müəyyən olunmuşdur ki, insultlu xəstələrin qan plazmasında CRZ-nin miqdarı bu xəstəlik qeyd olunmayan pasiyentlərə nisbətən kifayət qədər yüksək olmuşdur. Bundan başqa, statistik etibarlı fəqrin aşkar edilməməsinə baxmayaraq, insultun işemik tipi olan şəxslərdə bu göstəricinin səviyyəsi hemorragik tipli pasiyentlərlə müqayisədə bir qədər yüksək olmuşdur. Xəstəliyin 10-cu günü əksər hallarda CRZ-nin azalması (51,5±6,1%) qeyd olunmuşdur. 1-ci cədvəldə insultun müxtəlif tipləri qeyd olunan pasiyentlərdə CRZ-nin miqdarı haqqında məlumatlar verilmişdir.

Cədvəl 1

İnsultun kəskin dövründə olan xəstələrin qan plazmasında CRZ-nin miqdarı

CRZ, mq/l	Xəstələrin sayı (n=68)			
	1-ci gün		10-cu gün	
	Mütləq.	%	Mütləq	%
<1	3	4,4	14	20,6±4,9
1-3	21	30,9±5,6	19	27,9±5,4
>3	44	64,7±5,8	35	51,5±6,1
Cəmi	68	100	68	100

2-ci cədvəldə CRZ-nin səviyyəsinin müxtəlif olduğu insultlu pasiyentlərin huşunun vəziyyəti göstərilmişdir.

Таблица 2

CRZ-nin səviyyəsinin müxtəlif olduğu pasiyentlərdə Qlazqo şkalasına görə huşun pozulma dərəcələri

Huşun pozulma dərəcəsi	CRZ mq/l					
	<1		1-3		>3	
	1-ci gün	10-cu gün	1-ci gün	10-cu gün	1- ci gün	10- cu gün
Aydın huş	8	21	18	24	29	32
Dumanlanma	3	2	12	7	12	15
Sopor	-	-	4	3	7	9
Koma	-	-	2	1	5	7
Cəmi	11	23	36	35	53	63

Cədvəldən də göründüyü kimi, CRZ-nin səviyyəsinin normal olduğu pasiyentlərdə huşun aşkar şəkildə pozulması (sopor, koma) qeyd olunmamışdır və yalnız bir pasiyentdə huşun dumanlanması müşahidə edilmişdir. Sopor və ya komada olan bütün pasiyentlərdə qan plazmasında CRZ-nin miqdarı orta dərəcədə yüksək (1-3 mq/ml) və ya yüksək (> 3 mq/ml) olmuşdur. CRZ-nin yüksək səviyyəsi və huşun aşkar dərəcədə pozulması arasında düz və aşkar asılılığın olması müəyyən edilmişdir (r=0,8). Həm də huşun proqressivləşən şəkildə pozulması qeyd olunan pasiyentlərdə əksər hallarda CRZ-nin artması qeyd olunmuşdur.

Əksər hallarda (43 pasiyent; 63,2±5,9%) CRZ-nin azalması və ya bu göstəricidə dəyişikliyin olmaması həyat fəaliyyətinin yüngül və ya orta dərəcədə pozulması ilə bağlı olmuşdur. CRZ-nin yüksək olduğu xəstələrdə isə əksinə, çox zaman həyat fəaliyyətinin aşkar və ya ciddi şəkildə pozulması qeyd olunmuşdur. Deməli, qan plazmasında CRZ-nin miqdarı vacib proqnostik amil olub, onun vasitəsilə pasiyentlərin bərpa

olunmasının mümkünlüyünü qiymətləndirmək, onların sosial adaptasiyasının perspektivlərini proqnozlaşdırmaq olar.

Beləliklə, CRZ-nin səviyyəsi işemik insultun vacib RA hesab olunur və bu damarların iltihabi dəyişikliyinin müxtəlif tipli BQKP-nin inkişafına səbəb olması haqqında fikirləri sübut edir. İnsultlu xəstələrdə əksər hallarda qan plazmasında CRZ-nin miqdarının azalması baş verir. Bu göstəricinin yüksək səviyyəsi huşun aşkar şəkildə pozulması və nevroloji çatışmazlıqla bağlı olur və beləliklə də BQKP-nin kliniki gedişinə və nəticəsinə proqnoz verməyə imkan verən amil hesab olunur. Bundan başqa, dinamikada CRZ-nin artması pasiyentlərin həyat fəaliyyətinin bərpası üçün əlverişsiz şərait hesab olunur.

Tədqiqatın nəticələri insultun etiologiya və patogenezində kəskin faza zülallarının rolunun öyrənilməsinin, baş beyin damarlarında iltihabi prosesin inkişaf etməsinə səbəb olan səbəblərin aşkar edilməsinin və yuxarıda sadalanan amillərə təsir metodlarının işlənib hazırlanmasını gələckdə də davam etdirilməsinin vacibliyini bildirir. İltihabi proses baş beyin damarlarında aterosklerozun proqressivləşməsində və onun ağırlaşmalarının, o cümlədən insultun əmələ gəlməsində mühüm rol oynayır. İltihabi proseslərin laborator əlamətləri arasında C-reaktiv zülala (CRZ) xüsusi diqqət yetirilir. Müəyyən olunmuşdur ki, CRZ həm işemik, həm də hemorragik insultun vacib risk amilidir. Bu göstəricinin yüksək səviyyəsi huşun aşkar şəkildə pozulması və nevroloji çatışmazlıqlarla bağlı olmaqla, beyin qan dövranının kəskin pozğunluğunun kliniki gedişinə və nəticəsinə proqnoz verməyə imkan verən amil hesab olunur.

ЛИТЕРАТУРА

1. Иванов С.Ю., Тихоненко В.М., Бондаренко Б.Б. Возможность прогнозирования эффективности лечения пароксизмальной фибрилляции предсердий по динамике числа предсердных экстрасистол // Вестник аритмологии, 2011, №65, с.52-56.

2. Исакова Е.В, Рябцева А.А, Котов С.В. Состояние микроциркуляторного русла у больных, перенесших ишемический инсульт // РМЖ Актуальная проблема, 2015, №12, с. 680-682;

3. Комаров А.Л., Шахматова О.О., Илющенко Т.А., Джалилова Г.В., Деев А.Д., Панченко Е.П. Факторы, определяющие прогноз у больных со стабильной формой ишемической болезни сердца (по результатам пятилетнего проспективного наблюдения) // Кардиология, 2012, №1. с.4-14

4. Agarwal SK, Heiss G, Rautaharju PM, Shhar E, Massing MW, Simpson RJ. Premature ventricular complexes and the risk of incident stroke // Stroke, 2010, v.41, p.588-593.

5. Gladstone D.J., Dorian P., Spring M. et al. Atrial premature beats predict atrial fibrillation in cryptogenic stroke. Results from the EMBRACE trial // Stroke, 2015, v.46, p.936-941.

6. Kochhauser S., Dechering D.G., Dittrich R. et al. Supraventricular premature beats and short atrial runs predict atrial fibrillation in continuously monitored patients with cryptogenic stroke // Stroke, 2014, v.45, p.884-886

7. Dirnagl U., Simon R.P., and Hallenbeck J.M. Ischemic tolerance and endogenous neuroprotection // Trends Neurosci., 2017, v.26, p.248-254.

Резюме

Маркеры воспаления и инсульт: значение С-реактивного белка

И.С.Бабаханов

Проведенные исследования указывают на необходимость определения роли С-реактивного белка в развитии ишемического инсульта, установления причин, возникновения воспалительного процесса в кровеносной системе головного мозга. Развитие воспаления приобретает ведущее значение в прогрессировании атеросклеротических изменениях сосудов головного мозга, с приводящих к различным осложнениям, например, ишемического инсульта. Из лабораторных признаков развития воспаления актуальность приобретает изучение С-реактивного белка. С-реактивный белок является ведущим фактором риска развития ишемического инсульта. Увеличение уровня установленных показателей согласуется со степенью угнетением сознания и неврологическим проявлениями, являясь фактором для прогноза клиническое течение и исхода острого нарушения мозгового кровообращения.

Summary

Markers of inflammation and insult: the importance of C-reactable protein

I.S.Babakhanov

The conducted studies point to the need to determine the role of C-reactive protein in the development of ischemic stroke, establishing the causes, the onset of the inflammatory process in the circulatory system of the brain. The development of inflammation takes on a leading role in the progression of atherosclerotic changes in cerebral vessels, leading to various complications, for example, ischemic stroke. From the

laboratory signs of the development of inflammation, the relevance of studying the C-reactive protein. C-reactive protein is a leading risk factor for the development of ischemic stroke. The increase in the level of established indicators is consistent with the degree of oppression of consciousness and neurological manifestations, being a factor in predicting the clinical course and outcome of acute cerebrovascular accident.

Daxil olub: 11.06 2018

MÜXTƏLİF KAPPA MATERALLARININ AĞIZ BOŞLUĞU TOXUMALARININ VƏZİYYƏTİNƏ TƏSİRİ

C.Q. Hacıyev, S.İ.Əhmədov
Azərbaycan Tibb Universiteti, Bakı

Açar sözlər: ağız boşluğu, kappa materialı, eksperiment, histoloji müayinələr
Ключевые слова: ротовая полость, материалы каппа, эксперименты, гистологические исследования
Key words: oral cavity, kappa materials, experiments, histological studies

İdmançıların həyat tərzi daima fizioloji gərginlik fonunda müxtəlif yarışlarda fiziki və psixo-emosial travmalara məruz qalırlar ki, onların orqanizmlərindəki fizioloji və biokimyəvi proseslər daha intensiv xarakter daşıyır və bu hal uzun müddət davam etdiyi halda proseslər fizioloji məcradan çıxaraq, patoloji xarakter daşımağa başlayır. Professional idmancılarda uzun müddət davam edən gərgin məşqlər zamanı immun sistemi zəifləyir, əzələ və digər yumşaq toxumalarında isə baş verən oksidləşmə prosesləri intensiv olduğundan süd turşusunun yaranması prosesi da intensivləşir [1,2,3,5]. Psixo-emosianal gərginlik digər mübadilə pozulmaları yaradaraq idmançılarda bütün orqanizmdəki problemlərlə yanaşı ağız boşluğu toxumalarında da neqativ dəyişikliklərə səbəb olur ki, bunlarda öz növbəsində dişin yumşax və sərt toxumalarında müxtəlif xəstəliklərin yaranmasına səbəb olur [4]. İdmançıların məruz qaldıqları gərginlik fonunda orqanizmin reaktivliyi dəyişilir və eyni zamanda dişləri idman kappalarının istifadəsi və travmalar nəticəsində parodont xəstəlikləri meydana çıxır və diş ətinin epitel qatının hüceyrəvi mühitində iltihabi dəyişikliklər baş verir.

Tədqiqatın məqsədi: eksperimentdə ağız boşluğunun vəziyyətinə müxtəlif materialların təsirinin tədqiq olunması.

Tədqiqatın material və metodları. Tədqiqatın məqsəd və planına uyğun olaraq müxtəlif tərkibli kappa qoruyucuların istifadəsi zamanı onların ətraf yumşaq toxumalara təsirini müəyyən etmək məqsədi ilə adi dovşanlar üzərində eksperiment modeli yaradılmışdır. Baş verən dəyişikliklərə müqayisəli şəkildə 30 və 90 gün müddətində histoloji müayinələrin köməkliyi ilə nəzarət edillmişdir.

Təcrübə modelinin yaradılması. Təcrübə məqsədi ilə 30 ədəd 2,6-3,2 kg ağırlıqda və 1-2 yaşında adi dovşanlar seçilmişdir. Dovşanlarda hər hansı bir somatik xəstəliyin olmamasına diqqət yetirilmişdir. Hər bir təcrübə heyvanının hər iki aşağı ətrafında eksperimental model yaradılaraq ümumilikdə 60 eksperimental model əldə edilmişdir. Bunun üçün ilk növbədə aşağı ətrafların əməliyyat icra olunacaq hissəsində dəri tüklərdən təmizlənmişdir. Ağrısızlaşdırma məqsədi ilə əməliyyat sahəsi 1,0 %`li novokain məhlulu tətbiq edilərək blokadaya alınmışdır. Ağrısızlaşdırma aparıldıqdan sonra dəri sadə insiziya ilə dərialtı toxuma görünənə qədər açılmışdır. Dəri kiçik bir sahədə küt üsulla aralanaraq dərialtı toxumada kiçik bir boşluq yaradılmışdır. Həmin boşluğa təcrübə üçün seçilmiş və əvvəldən hazırlanmış müxtəlif tərkibli kappa qoruyuculardan ibarət, 1.0-1.5 sm diametrdə yad hissəcik yerləşdirilmişdir. Həmin hissəciyin ətraf toxumlara bərkidilməsi üçün əlavə tikiş və ya digər vasitələr istifadə edilməmişdir. Beləliklə də ətraf toxumaların yalnız kappa qoruyucunun təsirinə məruz qalması təmin edilmiş, həmçinin əlavə vasitələrin ikincili dəyişiklik yaratmasının və histoloji görüntünü dəyişməsinin qarşısı alınmışdır. Hissəcik yerləşdirildikdən sonra dəri sintetik tikiş materialı ilə fasiləli tikiş tətbiq edilərək tikilmişdir. Cərrahi yara hər gün 70%-li spirt və 5%-li lyuqol məhlulu ilə təmizlənmişdir. Tikişlər 5-7 gün sonra çıxarılmışdır. Bütün təcrübə heyvanlarında cərrahi yara heç bir ağırlaşma olmadan birincili sağalmışdır.

Hər bir təcrübə heyvanında bir ətrafda təcrübə modeli 30 gün, digər ətrafda isə 90 gün müddətində saxlanılmışdır. Təcrübə müddəti bitdikdən sonra kappa qoruyucudan ibarət hissəcik dəri və dərialtı

toxumalar ilə birlikdə eksizyon tədbiq edilərək çıxarılmışdır. Bunun üçün yenə ağrısızlaşdırma məqsədi ilə əməliyyat sahəsi 1,0 %`li novokain məhlulu tətbiq edilərək blokadaya alınmışdır. Sadə insizyon ilə əməliyyat çapığının ətrafından dəridə elips şəklində kəsik aparılmışdır. Həmin kəsik dərialtı toxumaya qədər dərinləşdirilmişdir və beləliklə dəri və dərialtı toxuma kappa qoruyucudan ibarət hissəcik ilə birlikdə konus şəklində çıxarılmışdır. Dəri və dərialtı toxuma çıxarıldıqdan sonra yara kənarları yaxınlaşdırılaraq cərrahi tikiş ilə tikilmişdir. İlk əməliyyatda olduğu kimi burada da dəri sintetik tikiş materialı ilə fasiləli tikiş tətbiq edilərək tikilmişdir. Cərrahi yaranın təmizlənməsi üçün hər gün 70%-li spirt və 5%-li lyuqol məhlulu istifadə edilmişdir. Tikişlər 5-7 gün sonra çıxarılmışdır. Bütün təcrübə heyvanlarında cərrahi yara heç bir ağırlaşma olmadan birincili sağalmışdır.Təcrübə müddətində tələf olan və ya hər hansı bir digər səbəbdən təcrübədən kənarlaşdırılan heyvan olmamışdır.


Təcrübəyə cəlb edilən dovşanlar kappa qoruyucunun tərkibindən asılı olaraq hər birində 10 dovşan olan 3 qrupa bölünmüşdür: I qrup (I nəzarət qrupu) – hər iki aşağı ətrafında dərialtına termoplast tərkibli hissəcik yerləşdirilən 10 dovşandan ibarətdir; II qrup (II nəzarət qrupu) – hər iki aşağı ətrafında dərialtına silikon tərkibli hissəcik yerləşdirilən 10 dovşandan ibarətdir; III qrup (əsas qrupu) – hər iki aşağı ətrafında dərialtına poliuretan tərkibli (ticari adı valplast®) hissəcik yerləşdirilən 10 dovşandan ibarətdir.

Histoloji nəzarət. Təcrübənin aparıldığı 30 və 90 gün müddətində təcrübəyə daxil edilən dovşanların bud nahiyyəsindən kappa qoruyucu materialı ilə birlikdə çıxarılan dəri və dərialtı yumşaq toxumalar ilk növbədə 10%`li formalin məhlulunda 1 sutka fiksə edilmişdir. Növbəti gün nümunə makroskopik müayinəyə alınmışdır. Bu zaman kappa qoruyucu materialı yumşaq toxumalardan ayrılaraq uzaqlaşdırılmışdır. Qalan nümunə üzərində dəri və dərialtı toxumanı eyni zamanda görə biləcəyimiz şəkildə 0,3-0,4 sm qalınlıqda paralel kəsiklər aparılmışdır. Alınan nümunələr təkrar 1 sutka 10 %`li formalin məhlulunda saxlanılmışdır. Sonrakı günlərdə biopsiyalar susuzlaşdırma məqsədi ilə müxtəlif qatılıqlı (75%, 85%, 95% və 99,9%) spirt məhlullarından keçirilmişdir. Ondan sonra nümunələr ksilol məhlulunda şəffaflaşdırılmış və parafinləşdirilmişdir. Təqib prosesindən sonra nümunələr parafində qəliblənmiş və histoloji bloklar hazırlanmışdır. Əldə edilən bloklardan mikrotom (Leica RM 2125 RTS, Almaniya) vasitəsilə 3-5 mikronluq kəsiklər hazırlanmışdır. Kəsiklər standart olaraq hematoksilin və eozin boyaları (Merck, Almaniya) ilə boyanmışdır. Hazırlanmış mikropreparatlar işıq mikroskopu (Leica DM 750, Almaniya) ilə müayinədən keçirilmişdir. Mikroskopik müayinə zamanı müşahidə edilən bütün dəyişikliklər mikroskopa əlavə olunmuş kamera (Leica ICC 50, Almaniya) ilə qeydə alınmışdır.

Cədvəl 1
Nekrozun təcrübənin 30 və 90-cı günündə müxtəlif qruplardakı intensivliyi.

Qruplar / Təcrübə müddəti	I	II	III
30 gün	0,3±0,483	0,2±0,421	0,3±0,483
90 gün	0,2±0,421	0	0

Qeyd: I – termoplast tərkibli qoruyucu maddə tətbiq edilən qrup; II – silikon tərkibli qoruyucu maddə tətbiq edilən qrup; III – poliuretan tərkibli qoruyucu maddə (valplast®) tətbiq edilən qrup.



Şək.1. Təcrübənin 30-cu günü nəticələri


Kappa qoruyucu materialını bilavasitə əhatə edən toxumalar- dərialtı piy toxuması, skelet əzələsi, damarlar, fassiyalar və s. ayrı ayrılıqda nəzərdən keçirilmişdir. Aşkarlanan hər bir parametr öz növbəsində

intensivliyinə görə 4 dərəcə ilə qiymətləndirilmişdir. Nəzərdən keçirilən parametrin ümumiyyətlə qeydə alınmaması sıfır (0), zəif dərəcədə görünməsi bir (1), orta dərəcədə görünməsi iki (2), əhəmiyyətli dərəcədə nəzərə çarpması üç (3) bal ilə qiymətləndirilmişdir. Bu şəkildə dəyərləndirmə aparıldıqdan sonra əldə edilən rəqəmlər üzərində statistik hesablamalar aparılmışdır. Statistik hesablamalarda, müxtəlif parametrlərin orta ölçüsü (M), onların orta standart xəta göstəricisi (m), müxtəlif qruplara və fərqli təcrübə həftəsinə aid göstəricilər arasında statistik dürüst fərq (p) təyin edilmişdir. Aparılan statistik hesablamalar "sosial elmlər üçün statistika paketi"nin 15.0 versiyası (SPSS 15.0) ilə həyata keçirilmişdir.

Təcrübə müddətində müxtəlif qruplarda nekrotik dəyişikliklərin intensivliyi cədvəl 7-də göstərilmişdir.

Təcrübə müddətində ən yüksək həddə qeydə alınan histoloji parametrlərdən biri fibrotik dəyişikliklər olmuşdur. Nümunələrdə fibroz toxumanın inkişafı və kollagen proliferasiyası əsasən kappa qoruyucu materialı bilavasitə əhatə edən toxumalarda intensiv olmuşdur. Periferik sahələrdə doğru bu dəyişikliklərin tədircən azaldığı, bəzən də tamamilə itdiyi görünmüşdür. Limfosit və plazma hüceyrə infiltrasiyası olan nümunələrdə fibroz toxumanın da intensivliyi daha yüksək olmuşdur. Bununla yanaşı histiosit və giqant çoxnüvəli hüceyrələrin müşayət etdiyi iltihabi-rekativ proseslərdə isə fibroz toxumanın ən yüksək həddə olduğu müşahidə edilmişdir.

Təcrübənin 30-cu günü termoplast tərkibli qoruyucunun tətbiq edildiyi I qrupda fibroz dəyişikliklər daha intensiv olmuşdur (Şək.2). Belə ki, bu qrupa aid nümunələrdə termoplast maddəsinin bilavasitə ətrafında, nümunənin böyük hissəsini əhatə edən fibroz toxuma sahəsi və kollagen liflərin proliferasiyası görünmüşdür. Nisbətən daha az dəyişikliklər silikon maddə tətbiq edilən qrupda qeydə alınmışdır. Poliuretan maddə tətbiq edilən digər qrupda isə bu kimi dəyişikliklər digərlərindən minimal fərqlə daha az olmuşdur.




Şək.2.Termoplast tətbiq edilən qrupda yumşaq toxumalarda iltihab ilə yanşı fibroz toxuma proliferasiyası, təcrübənin 30-cu günü (boyaq: hematoksilin-eozin, böyütmə: x40).


Cədvəl 2
Fibroz toxuma proliferasiyasının təcrübənin 30 və 90-cı günündə müxtəlif qruplardakı intensivliyi

Qruplar / Təcrübə müddəti	I	II	III
30 gün	1,8±0,788	1,5±0,707	1,3±0,483
90 gün	2,6±0,516	2,3±0,674	2,4±0,699

Qeyd: I – termoplast tərkibli qoruyucu maddə tətbiq edilən qrup; II – silikon tərkibli qoruyucu maddə tətbiq edilən qrup; III – poliuretan tərkibli qoruyucu maddə (valplast®) tətbiq edilən qrup.



Şək.3.Müayinələrin nəticələri



Şək.4. Poliuretan tətbiq edilən qrupda kappa qoruyucunun bilavasitə ətrafında fibroz toxuma proliferasiyası və iltihab ilə yanaşı zəif dərəcəli venoz hiperemiya (az sayda genişlənmiş və doluqanlı venoz damarlar), təcrübənin 30-cu günü (boyaq: hematoksilin-eozin, böyütmə: x100).

Təcrübənin 90-cı günündə bütün qruplarda fibroz toxumanın intensivliyi kəskin şəkildə artmışdır. Bu dövrdə alınan nümunələrdə yenə ən intensiv fibroz toxuma proliferasiyası termoplast tətbiq edilən qrupda, nisbətən az poliuretan qoruyucu tətbiq edilən qrupda, ən az isə silikon maddə tətbiq edilən qrupda görülmüşdür. Statistik təhlil zamanı qruplar arasında fibroz toxuma proliferasiyası baxımdan əhəmiyyətli fərq aşkarlanmamışdır. Təcrübə müddətində müxtəlif qruplarda fibroz toxumanın intensivliyi cədvəl 8-də göstərilmişdir.

Toxumalarda təcrübə modelinin təsirinə bağlı olaraq qan dövranında yaranmış pozğunluqlar termoplast tətbiq edilən nümunələrdə daha qabarıq şəkildə qeydə alınmışdır. Təcrübənin 30-cu günü termoplast ətrafında, onu bilavasitə əhatə edən toxumalarda venoz damarlarda şiddətli doluqanlılıq, damar mənfəzində genişlənmələr, damarətrafı sahələrdə qansızmalar, siderofaqlar və hemosiderin toplantıları qeydə alınmışdır. Silikon və poliuretan maddə tətbiq edilən qruplarda qan dövranı pozğunluqları daha zəif dərəcədə inkişaf etmişdir. Bu qruplardan alınan nümunələrdə dəyişikliklər əsasən zəif və orta dərəcəli venoz hiperemiya şəklində təzahür etmişdir (şək.4). Təcrübənin 90-cı günündə qruplarda venoz doluqanlılıq bir qədər zəifləmişdir. Bu zaman alınan nümunələrdə venoz doluqanlılıq təkcə kappa qoruyucu materialını bilavasitə əhatə edən toxumalarda deyil daha periferik hissədə yerləşən toxumalarda da görünmüşdür. Termoplast tətbiq edilən qrupda yumşaq toxumalarda damarətrafı qansızmalar, hemosiderin toplantılarının əhəmiyyətli dərəcədə azaldığı müəyyən edilmişdir. Silikon və poliuretan tətbiq edilən qruplarda isə yalnız bir neçə nümunədə sporadik olaraq zəif dərəcəli venoz hiperemiya görünmüşdür.


Qan dövranı pozğunluqlarının orta göstəricisinə əsasən aparılan müqayisəli təhlil zamanı təcrübənin 30-cu və 90-cı günü termoplast və poliuretan tətbiq edilən qruplar arasında yüksək dərəcəli (p=0,000) statistik dürüst fərq aşkarlanmışdır. Termoplast və silikon tətbiq edilən qruplar arasında isə təcrübənin 30-cu günü orta dərəcəli (p=0,001), təcrübənin 90-cı günü isə yüksək dərəcəli (p=0,000) statistik dürüst fərq qeydə

alınmışdır. Bu nəticəyə əsasən demək olar ki, tətbiq edilən kappa qoruyucu materiallarının növündən asılı olaraq qan dövranı pozğunluqları müxtəlif dərəcədə təzahür edə bilər. Uzunmüddətli tətbiq zamanı poliuretan və silikon maddənin termoplasta nisbətən daha az qan dövranı pozğunluğu yaratdığı görünmüşdür. Təcrübə müddətində müxtəlif qruplarda qan dövranı pozğunluqlarının intensivliyi cədvəl 3-də göstərilmişdir.


Cədvəl 3
Qan dövranı pozğunluqlarının təcrübənin 30 və 90-cı günündə müxtəlif qruplardakı intensivliyi

Qruplar / Təcrübə müddəti	I	II	III
30 gün	2,2±0,632	1,1±0,567	1,1±0,316
90 gün	1,6±0,516	0,6±0,516	0,4±0,516

Qeyd: I- termoplast tərkibli qoruyucu maddə tətbiq edilən qrup; II- silikon tərkibli qoruyucu maddə tətbiq edilən qrup; III- poliuretan tərkibli qoruyucu maddə (valplast®) tətbiq edilən qrup.



Şək.5. Müayinələrin nəticələri



Şək.6. Silikon tətbiq edilən qrupda qoruyucu maddənin bilavasitə ətrafında yaranan, incə haşiyə şəklində qranulyasiya toxuması, təcrübənin 90-cı günü (boyaq: hematoksilin-eozin, böyütmə: x100). Təcrübənin 90-cı günü nümunələrdə qranulyasiya toxumasının intensivliyi azalmışdır. Ən ciddi dəyişiklik silikon tətbiq edilən qrupda görülmüşdür; bu qrupda 90-cı gündə alınan nümunələrin bəzilərində incə haşiyə şəklində silikonu əhatə edən qranulyasiya toxuması müəyyən edilmişdir. Termoplast tətbiq edilən qrupda isə qranulyasiya toxuması təcrübənin 90-cı günü də əhəmiyyətli dərəcədə saxlanmışdır. Termoplast sərt material olduğu üçün daha çox mexaniki zədələnmələr yaratmış və beləliklə də hətta müşahidənin gec dövründə qranulyasiya toxumasının inkişaf etməsinə səbəb olmuşdur.

Təcrübənin 30-cu günündə alınan nümunələrin demək olar ki, hamısında kappa qoruyucu materialın bilavasitə ətrafında qranulasiya toxuması müəyyən edilmişdir. Qranulyasiya toxuması bütün qruplarda intensiv olub minimal fərqlə bir-birindən seçilmişdir. Əsasən fibroz toxuma proliferasiyasının daha zəif olduğu nümunələrdə rast gəlinən qranulasiya toxuması çox sayda kiçik kalibrli, doluqanlı kapilyarlardan ibarətdir. Bəzi nümunələrdə qranulasiya toxumasının ətraf birləşdirici toxuma ilə birlikdə hipertrofik böyüməyə səbəb olduğu, kappa qoruyucunun yerləşdiyi boşluğa doğru polipoid uzantılar əmələ gətirdiyi müəyyən edilmişdir. Həmin nahiyyədə eləcə də ödem və degenerativ dəyişikliklər qeydə alınmışdır.

ƏDƏBİYYAT

1. Гаврилова Е. А. Стрессорный иммунодефицит у спортсменов. М.: Сов. спорт, 2009, 192 с.
2. Гладков В.Н. Некоторые особенности заболеваний, травм, перенапряжений и их профилактика в спорте высших достижений. М.: Сов. спорт, 2007, 152 с.
3. Житнухин Ю.Л. Влияние высокого уровня кортизола на функцию Т- и В-лимфоцитов у спортсменов // Медицинская иммунология, 2007, № 2/3, с. 298-299.
4. Halson S.L., GI Lancaster, AE Jeukendrup, et al. Immunological responses to overreaching in cyclists // Med. Sci. Sports. Exerc., 2013, v. 35, p.854-861.
5. Hooper S.A., West N.X.,.Sharif N, Smith S.A. comparison of enamel erosion by a new sports drink compared to two proprietary products: a controlled, crossover study in situ // J Dent., 2004, v.32, p. 5.

Резюме

Влияние различных материалов для капп на состояние тканей полости рта

Д.Н. Гаджиев, С.И.Ахмедов

Эксперименты были проведены на 30 кроликах весом 1,4-2,6 кг и возрастом в 1-2 года. Экспериментальная модель пародонтита была создана на 30 кроликах. Для получения модели было проведено местное обезболивание раствором новокаина. После этого десна отделили от шейки зубов и наложили лигатуру из синтетической ткани в форме «8» таким образом, чтобы она окружала одновременно шейки нижних передних резцовых зубов. После наложения лигатуры десневая ткань также фиксировалась к лигатуре в нескольких участках. На 90-й день в группе с термопластами все еще сохранялась грануляционная ткань. По причине твердости термопласт привел к механическим повреждениям и приводил к развитию грануляционной ткани в поздние сроки исследования.

Summary

Influence of various materials for kappas on the state of tissues of the oral cavity

D.N. Hajiyev, S.I.Ahmedov

Experiments were carried out on 30 rabbits weighing 1.4-2.6 kg and age 1-2 years. The experimental model of periodontitis was created on 30 rabbits. To obtain the model, local anesthesia with a solution of novocaine was performed. After that, the gum was separated from the neck of the teeth and a ligature of synthetic tissue in the shape of "8" was placed in such a way that it would simultaneously surround the necks of the lower anterior incisive teeth. After the ligation, the gingival tissue was also fixed to the ligature in several areas. On the 90th day in the group with thermoplastics, granulation tissue was still preserved. Due to the hardness, the thermoplastic resulted in mechanical damage and led to the development of granulation tissue in the later periods of the study.

Daxil olub: 20.06 2018

ATOPİK FORMA BRONXİAL ASTMA OLAN UŞAQLARDA VİTAMIN D-NİN SƏVİYYƏSİ VƏ ONUN KORREKSİYASI

A.O. Cəfərova
Azərbaycan Tibb Universiteti, Bakı

Açar sözlər: uşaqlar, atopik forma bronxial astma, vitamin D, tridrop
Ключевые слова: дети, атопическая бронхиальная астма, витамин D, Тридроп
Key words: children, atopic bronchial asthma, vitamin D, Tridrop

Son onillikdə orqanizmdə D vitamininin rolunun geniş olması ona qarşı elmi maraqların artmasına səbəb olmuşdur. Belə ki, D vitamininin çatışmazlığı bütün dünyada epidemik xarakter daşıyır [1,2]. D vitamini çatışmazlığı problemi ilk növbədə planetin əhalisinin təxminən 50%-nin müəyyən dərəcədə əziyyət çəkməsilə aktualdır [3]. Son illərdə pediatrik təcrübədə D vitamini çatışmazlığının yayılmasına dair daha çox tədqiqatlar mövcuddur [4, 5].

Eyni zamanda allergik xəstəliklərin yayılması problemi də pediatriya üçün aktual olaraq qalır. Hər il müxtəlif yaşlarda olan uşaqlar arasında atopik dermatit, bronxial astma və allergik rinitlə xəstələnmə səviyyəsi daim artır [6,7,8].

Çoxsaylı araşdırmaların nəticələrinə görə, D vitamini nəinki mineral mübadilənin tənzimləyicisi kimi, həmçinin müxtəlif sümükdən kənar təsirlərə malikdir [9,5]. Son illərdə qanda allergik xəstəliklərin inkişafında D vitamini çatışmazlığının təsir mexanizmləri öyrənilmişdir. Araşdırmaların nəticələrinə görə, bu təsir immun proseslərdə D vitamininin iştirakı ilə bağlıdır [10]. Meta-analizlərin mövcud nəzəriyyələri uşaqların qan zərdabında vitamin D-nin aşağı səviyyəsi ilə atopik forma bronxial astmanın inkişaf riskinin artması arasında əlaqə olduğunu göstərir [3,4,7].

Beləliklə, uşaqlarda D vitamini çatışmazlığı və atopik forma bronxial astmanın birgə gedişi probleminin aktuallığı, ilk növbədə, bu patoloji vəziyyətin yayılmasına səbəb olur.

Tədqiqatın məqsədi bronxial astma olan uşaqların qan zərdabında vitamin D-nin səviyyəsini öyrənmək və onun çatışmazlığının korreksiya edilməsindən ibarətdir.

Tədqiqatın material və metodları. Bu problemi həll etmək üçün persistə edən atopik forma bronxial astmalı yüngül və orta ağır gedişli 63 uşaq (əsas qrup) müayinəyə cəlb edilmişdir. Müayinə olunan uşaqlar 3-17 yaş arası olmuşdur. Diaqnoz allerqoloji anamnez, klinik-funksional və immunoloji tədqiqatların nəticələri əsasında təsdiq edilmişdir. Xəstəliyin müddəti 2 ildən 5 ilədək olmuşdur. Nəzarət qrupu olaraq, anamnezində allergik təzahür göstəriciləri və irsi meyllilik olmayan, 3 – 17 yaşlı 20 praktiki olaraq sağlam uşaq müayinə olunmuşdur.

Tədqiqata daxil edilən xəstələr 2 qrupda cəmləşdirilmişdir: I qrupu bazis müalicəsi alan, II qrupu isə bazis müalicə ilə yanaşı vitamin D tərkibli Tridrop preparatı qəbul edən xəstələr təşkil etmişdir. Tədqiqata götürülən uşaqlarda əsas meyar kimi 1 il ərzində atopik forma bronxial astmanın diaqnozu təsdiqlənmiş xəstələr təşkil etmişdir. İstisna meyarlarını isə tədqiqatdan öncə 1 il ərzində sümük sınıqlarının olması, son 6 ay ərzində vitamin D3 və multivitamin komplekslərinin qəbulu təşkil etmişdir. Bizim tərəfimizdən müayinə edilən uşaqlarda qaraciyərdə vitamin D - nin aralıq formasının sintezinin pozulması olan xəstəlik (qaraciyər funksiyasının pozulması ilə kəskin və xroniki xəstəliklər) müşahidə edilməmişdir. Qanda D vitamininin səviyyəsi Almaniya istehsalı olan Roche Diaggnostics firmasının analizatorunda ELISA metodu ilə müəyyən edilmişdir.

D vitamini statusunun qiymətləndirilməsi M.F.Holick təsnifatına uyğun olaraq həyata keçirilmişdir. [11, 12]. Vitamin D dəyərləri aşağıdakı meyarlara əsasən qiymətləndirilmişdir: 25(OH)D-nin normal səviyyəsi 30-85 ng/ml, çatışmazlığı 20-29 ng/ml, defisiti 10-19 ng/ml və 10 ng/ml-dən aşağı ağır defisiti hesab edilmişdir [11, 12]

Bütün xəstələr bronxial astmanın ağırlıq dərəcəsinə uyğun olaraq, iltihab əleyhinə bazis müalicə almışdır. Hipovitaminozun farmakoloji korreksiyası məqsədi ilə, 30 uşaq 1 ay müddətində gündə 3 damcı vitamin D tərkibli Tridrop preparatı qəbul etmişdir. D vitamininin səviyyəsi müalicə kursundan əvvəl və sonra müəyyən edilmişdir.

Məlumatların statistik nəticələri Microsoft Office 2000 paketinin Microsoft Excell və Statistika 60 for Windows proqramından istifadə edərək Vilkokson -Manna -Uitninin qeyri-parametrik metodu ilə hesablanmışdır.

Nəticələrin müzakirəsi. Obyektiv və instrumental müayinədən sonra 4 nəfər (6,3%) uşağa ağırlıq dərəcəsinə görə yüngül, 59 nəfər (93,7%) uşağa orta ağır persistə edən bronxial astma diaqnozu qoyulmuşdur. Əsas qrupdakı bütün uşaqlar, həm ata və həm də ana xəttindən fərqli allergopatologiyalara

görə anamnezdə irsi meylliyə malikdirlər. Valideynlərin uşaqlarının qidalanması ilə bağlı sorğusu zamanı tərkibi D vitamini ilə zəngin olan yağlı növ balıqların qida rasionunda nadir olması müəyyən edilmişdir.

Orta ağır gedişli persistə edən bronxial astmalı uşaqların əksəriyyətində (41 nəfər, 69.5%) fiziki və zehni fəaliyyətin azalması, tez yorulma və zəiflik, baş ağrısı epizodlarının meydana çıxması və baş gicəllənmə, iştahasızlıq və yuxusuzluq ilə özünü göstərən intoksikasiya sindromu müşahidə olunmuşdur. Qeyd olunan simptomlar, ehtimal ki, bronxial astma üçün səciyyəvi olan hipoksiya ilə əlaqəli idi. Bu uşaqlarda çətin ifraz olunan bəlğəmlə müşayiət olunan quru öskürək və ekspirator tip təngnəfəslik şikayətləri üstünlük təşkil edirdi.

Xəstələrin cinsi, yaşı, xəstəliyin müddəti, diaqnozun qoyulduğu yaş faktorları ilə bağlı məlumatları təhlil edərkən 25(OH)D konsentrasiyası səviyyəsində əhəmiyyətli fərqlər qeydə alınmamışdır ($p>0.05$).

Əsas qrupdakı bütün uşaqlarda 25(OH)D-nin çatışmazlığı aşkarlanmışdır: qan zərdabında D vitamininin orta göstəricisi 24.6±1.7 ng/ml təşkil etmişdir ($p<0.05$). Nəzarət qrupu olan uşaqlarda qan zərdabında D vitaminin səviyyəsi norma daxilində olmuşdur və orta hesabla 45,3±2,2 ng/ml təşkil etmişdir. Bu, onun göstəricisidir ki, allergik xəstəlikləri olan uşaqların orqanizmi D hypovitaminozunun inkişafına daha çox meyllidir və aydındır ki, orqanizmə bu vitaminin geniş təsirini nəzərə alaraq bu qrup xəstələrin qan zərdabında vitamin D-nin aralıq formasının təyini üçün skrininq aparmaq lazımdır.

Xəstələrin qan zərdabında D vitamininin səviyyəsini təhlil edərkən, aparılan müalicənin xarakterinə uyğun olaraq aşağıdakılar aşkar olunmuşdur. I qrup bazis müalicəsi alan bronxial astmalı uşaqlarda 25(OH)D-nin səviyyəsində azalma qeyd olunmuşdur. Beləliklə, müalicədən əvvəl qan serumunda D vitamininin səviyyəsi 17.2±1.2 ng/ml təşkil edirdisə ($p<0,001$), müalicədən 3 ay sonra orta hesabla 15,8±2,0 ng/ml-ə ($p<0,001$) qədər azalması nəzərə çarpmışdır ki, bu da 25(OH)D-nin defisitini göstərir (cədvəl)

Cədvəl

Müayinə olunmuş uşaqların qan zərdabında D vitamininin səviyyəsi

Göstərici	Bazis müalicə (n=33)		Bazis müalicə + Tridrop (n=30)		Nəzarət (n=20)
	Müalicədən əvvəl (n=33)	Müalicədən sonra (n=8)	Müalicədən əvvəl (n=30)	Müalicədən sonra (n=6)	
D vitaminin səviyyəsi, ng/ml	17,2±1,2*	15,8±2,0*	18,4±2,2*	21,8±2,5*	45,3±2,2

Qeyd * - $p<0.001$

Bazis müalicə fonunda D vitaminin farmakoloji korreksiyası məqsədilə Tridrop preparatı qəbul edən uşaqların qrupunda aşağıdakı göstəricilər müşahidə edilmişdir. Belə ki, müalicədən əvvəl qan zərdabında D vitamininin səviyyəsi 18,4 ± 2,2 ng/ml təşkil etmişdir, bu da qəbul olunmuş təsnifata əsasən onun ciddi çatışmazlığını göstərir ($p<0,001$). 3 ay sonra təkrari müayinə zamanı qan zərdabında 25(OH)D-nin səviyyəsində 18 % (21,8 ± 2,5 ng/ml) ümumi artım qeyd olunmuşdur. Qeyd etmək lazımdır ki, D vitamini preparatı qəbul etmə müddətində kəskinləşmə epizodları olan uşaqlarda D vitamininin artımı aşağı olmuşdur.

Atopik forma bronxial astmalı uşaqlarda qan zərdabında 25(OH)D-nin səviyyəsinin kifayət qədər olmamasına baxmayaraq, biz hipervitaminozun baş verməsindən ehtiyat etdiyimiz üçün kompleks müalicədə yay fəslində D vitamininin qəbulunu dayandırdıq. Anamnezdən aydın oldu ki, yay müddətində heç bir uşaqda xəstəliyin kəskinləşməsi epizodu qeydə alınmamışdı.

Tridrop preparatı təyin olunan atopik forma bronxial astmalı uşaqlarda qan zərdabında 25(OH)D-nin normal səviyyəyə çatmasına tam nail olunmamasına baxmayaraq, onların ümumi vəziyyətində yaxşılaşma qeyd edilmişdir. Müalicə fonunda klinik olaraq, fiziki və əqli fəaliyyətin artması, tez yorulma və zəiflik əlamətlərinin azalması, baş ağrısı epizodlarının azalması, iştaha və yuxunun yaxşılaşması müşahidə edilmişdir.

Daha sonra 1 illik müşahidə müddətində bu xəstələrdə məlum olduğu kimi bronxial astmanın kəskinləşməsinin inkişafında təkan verici faktor olan kəskin respirator virus infeksiyasının epizodlarının azalması müşahidə edilmişdir. Xəstə uşaqlar və onların valideynləri ilə sorğu zamanı aydın olmuşdur ki, Tridrop preparatının istifadəsi fonunda bronxial astmanın kəskinləşmələrinin sayı və müddəti azalmışdır, eyni zamanda əhəmiyyətli dərəcədə yüngül keçmişdir.

D vitamini preparatı qəbul etməyən uşaqların ümumi vəziyyətində yaxşılaşma müşahidə olunmamışdır və xəstəliyin əsas gedişi dəyişməz olaraq qalmışdır.

Belliklə, araşdırmanın nəticələrinə görə, atopik forma bronxial astma olan uşaqların müayinəsi zamanı qan zərdabında D vitaminin səviyyəsi orta hesabla normaya uyğun olan nəzarət qrupu ilə müqayisədə vitamin D-nin defisiti aşkarlanmışdır. Buna görə də, uşaqlarda allergik proseslərin yaranmasına və gedişinə təsir göstərən amillər içərisində qan zərdabında D vitamini səviyyəsinin qeyri-kafi olmasını da ehtimal

etmək olar. Bu baxımdan, allergik xəstəlikləri olan uşaqlara, xəstəliyin kəskinləşməsinin qarşısını almaq və onun gedişini yüngülləşdirmək üçün bazis müalicəsi ilə yanaşı D vitamini preparatlarının istifadəsi tövsiyə edilməlidir.

Gələcəkdə, bronxial astmalı xəstələrin qan zərdabında D vitaminini normal səviyyəyə çatdırmaq məqsədilə xəstəliyin gedişinin ağırlıq dərəcəsindən asılı olaraq, uşaqlara D vitamini preparatının dozasını təyin etmək üçün geniş elmi tədqiqatların aparılması məsləhətdir. Müalicə müəssisələrində mümkün olduqda, allergik xəstəlikləri olan uşaqların qan zərdabında D vitaminin səviyyəsini təyin etmək üçün skrininq testlərin aparılması tövsiyyə olunur.

ƏDƏBİYYAT

1. Громова О.А. Витамин D -смена парадигмы. М.: ТОРУС Пресс, 2015, 464 с.
2. Долбня С.В., Курьянинова В.А., Абрамская Л.М. Витамин D и его биологическая роль в организме // Вестник молодого ученого. 2015. Т. 11, № 4. С. 24–34.
3. Autier P., Mullie P., Macacu A. et al. Effect of vitamin D supplementation on non-skeletal disorders: a systematic review of meta-analyses and randomised trials // The Lancet Diabetes & Endocrinology, 2017, v.5, p.986–1004.
4. Campbell D.E., Boyle R.J., Thornton C.A. et al. Mechanisms of allergic disease–environmental and genetic determinants for the development of allergy // Clinical & Experimental Allergy, 2015, v. 45, p. 844–858.
5. Wacker M., Holick M.F. Vitamin D-effects on skeletal and extra skeletal health and the need for supplementation // Nutrients, 2013, № 5 (1), p.111-148.
6. Купаев В.И. Бронхиальная астма и витамин D: современный взгляд на проблему // Астма и Аллергия, 2015, №4, с.5-8.
7. Chinellato I., Piazza M. Vitamin D serum levels and markers of asthma control in Italian children // J. Pediatr., 2011, v. (3), p.437-441.
8. Global Strategy for Asthma Management and Prevention / Global Initiative for Asthma (GINA), 2016. URL:www.ginasthma.com
9. Gupta V. Vitamin D: Extra-skeletal effects // J. Med. Nutr. Nutraceut, 2012, № 1, p.17-26.
10. Пигарова Е.А., Плещеев А. В., Дзеранова Л.К. Влияние витамина D на иммунную систему // Иммунология, 2015, Т. 36, № 1, с. 62–66.
11. Holick M.F. Evalution, treatment and prevention of vitamin D deficiency: an Endocrine Society Clinical Practice Guideline // J. Clin. Endocrinol. Metab.,2011, v. 96 (7), p. 1911-1919.
12. Holick M.F. Vitamin D deficiency: a worldwide problem with health consequences // Am. J. Clin. Nutr., 2008, v. 87, p. 1080-1086.

Резюме

Уровень витамина D у детей с атопической бронхиальной астмой и коррекция его дефицита

А.О. Джафарова

В статье представлены результаты изучения уровня витамина D в сыворотке крови 63 детей с атопической бронхиальной астмой (основная группа) и 20 здоровых детей (контрольная группа). У всех детей основной группы выявлена недостаточность 25 (OH) D: средний показатель витамина D в сыворотке крови составил 24,6±1,7 нг/мл ($p<0,05$). У детей контрольной группы уровень витамина D в сыворотке крови соответствовал средней норме и составил 45,3±2,2 нг/мл. У детей на фоне базисного лечения бронхиальной астмы было отмечено дальнейшее снижение уровня 25(OH)D, что соответствовало дефициту 25(OH)D. В группе детей, получавших на фоне базисного лечения фармакокоррекцию гиповитаминоза D препаратом Тридроп, через 3 месяца отмечался общий прирост 25(OH)D в сыворотке крови в среднем на 18% (21,8±2,5 нг/мл), что соответствовало его недостаточности согласно принятой классификации ($p<0,001$ по отношению к контролю). По результатам исследования, у обследованных детей с атопической бронхиальной астмой был выявлен дефицит витамина D по сравнению с контрольной группой, в которой показатели содержания витамина D в сыворотке крови соответствовали средней норме. В связи с этим детям с атопической бронхиальной астмой следует рекомендовать прием препаратов витамина D с целью предупреждения обострений болезни и для облегчения ее течения.

Summary

The level of vitamin D in children with atopic bronchial asthma and correction of its deficit

A.O. Jafarova

The article presents the results of studying the vitamin D level in the blood serum of 63 children with atopic bronchial asthma (main group) and 20 healthy children (control group). All the children of the main group were found with a deficiency of 25(OH)D: the average vitamin D in the serum was 24.6±1.7 ng/ml ($p<0.05$). In children of the control group, the level of vitamin D in the blood serum corresponded to the norm and amounted average to 45.3±2.2 ng/ml. In children on the basic treatment of bronchial asthma, was observed a further decrease in the level of 25(OH)D. In the group of children who received pharmacocorrection of hypovitaminosis D with Tridrop along with basic treatment, after three months a total increase of 25 (OH) D in the blood serum was observed on average by 18% (21.8±2.5 ng/ml), which considered a deficiency according to the accepted classification ($p<0.001$). According to the results of the research, the children with atopic bronchial asthma was detected vitamin D deficiency in comparison with the control group, in which the vitamin D levels in the blood serum corresponded to the average norm. From this point of view, it is recommended to take vitamin D preparations that children with atopic bronchial asthma in order to prevent exacerbations and to reduce progression of the disease.

Daxil olub: 22.06 2018

BİRLƏŞDİRİCİ TOXUMANIN DİSPLAZİYASI SİNDROMU OLAN UŞAQLARDA ULTRASƏS DENSİTOMETRİYASI ZAMANI YARANAN DƏYİŞİKLİKLƏR

K.N.Əhmədli, M.S.Pənahova

Azərbaycan Tibb Universiteti, Bakı

Açar sözlər: uşaqlarda osteoporoz, kalsium, vitamin D, densitometriya, uşaqlarda displaziya

Ключевые слова: остеопороз у детей, кальций, витамин Д, денситометрия,дисплазия у детей

Key words: osteoporosis in children , calcium, vitamin D, densitometry,dysplasia in children

Osteoparoz- müasir təbabətin tibbi və sosial əhəmiyyətə malik problemlərindən biri olub polietioloji xarakterə malikdir.Yaranma səbəbləri kimi, genetik amilləri, həyat tərzini, fiziki avtivliyi, endokrin xəstəliklərin olmasını, hər hansı dərman qəbulunu və s.göstərmək olar.

Sümük toxuması uşaq və yeniyetmə vaxtlarında sürətli inkişaf etsə də, 20-30 yaşında inkişafı tamamlanır [1,2].

Osteoparoz-sümük sisteminin proqressivləşən metabolik xəstəliyidir.Sümük sıxlığının azalması səbəbilə tez-tez sınıq və çıxıqlar olur.Bu isə gələcəkdə həyat keyfiyyətinin azalmasına,erkən əlilliyə səbəb ola bilər.

Osteoparoz tibbi-sosial əhəmiyyətli problem olub ildən-ilə çox sürətlə inkişaf edir. Bu gün dünyada osteoparotik sınıqların müalicə və reabilitasiyasına ayrılan vəsaitin miqdarının ildən ilə artması onun çox rast gəlinən xəstəliklər qrupuna daxil olmasına şərait yaradır. Osteoparoz- statistik məlumatlara əsasən –ürək-damar, onkopatologiya, şəkərli diabet xəstəliyindən sonra dünyada 4-cü yeri tutur [3,4]

Hesab edilir ki, osteoparoz və sınıqlarda əsas göstərici sümük toxumasının fizioloji itkisi meydana çıxana qədər topladığı sümük sıxlığı- " pik sümük kütləsi " dir (Peak Bone Mass). Bu kütlə nə qədər yüksəkdirsə osteoparozun yaranma riski də bir o qədər azdır.Elmi tədqiqatlar sübut edirki, "pik sümük kütləsi"-nin aşağı olması pis qidalanma , orqanizmdən kalsium itirilməsi, D vitamin çatışmazlığı zamanı yaranır. Elə bu səbəbdəndirki ,uşaqlarda yaranan osteoparoz- kalsium çatışmazlığı xəstəliyi də adlanır. Ağır hallarda sümük toxumasının miqdarı 40-50 % azalır [3,5].

Tibb sahəsinin sürətli inkişafı nəticəsində, hazırda sümük sıxlığını dəqiqliklə ölçməyə və osteoparozun hansı səviyyədə olduğunu müəyyən etməyə imkan verən ultrasəs densitometriyası ilə yanaşı,sümük toxumasının formalaşmasını həyata keçirən markerlərin, o cümlədən mineral mübadilə göstəricilərinin və osteoparozla birbaşa əlaqəli hormonların tədqiq edilməsi vasitəsilə öyrənmək olar.

Bundan əlavə DoBTD olan şəxslərdə sərbəst hidroksiprolinin səviyyəsi kollagenin destruksiya prosesinin markeri rolunu oynayır, peptiddən asılı hidroksiprolin kollagenin həm dağılma, həm də biosintezini həyata keçirir. Sümük rezorbsiyası markerlərinin artan ekskresiyası sümük toxumasının destruksiyası və onun katabolizminin intensivlik səviyyəsi ilə korrelyasiya olunur [6,7].

Differensə olunmamış birləşdirici toxuma displaziyası zamanı sümük sıxlığının , o cümlədən sümük metabolizminin öyrənilməsi pediatriyada demək olarki, ətraflı öyrənilməmişdir. Baxmayaraq ki, ölkəmizdə uşaq və yeniyetmələr arasında DoBTD və bunun nəticəsində yaranan osteoparoz geniş yayılsa da ,bu problem hələ də tam tədqiq edilməmiş qalmaqdadır. Qeyd olunanlar problemin aktuallığını təsdiqləmiş və tədqiqatın aparılmasına əsas vermişdir

Uzun müddət ərzində, xüsusilə də əlverişsiz həyat şərtlərində,mineral defisiti korreksiya edilmədikdə displastik əlamətlərin miqdarı və ağırlığı proqrediyent olaraq artır,nəticədə homeostazda dəyişikliklər meydana çıxır.İlk olaraq Maqnezium (Mg), Kalsium (Ca) Fosfor (P), kimi makroelement çatızmazlıqları və D vitamini əksikliyi yaranır.Bildiyimiz kimi bu elementlər kollagen liflərin əmələgəlmə və formalaşması proseslərini tənzimləyir,skeletin quruluşunun normal inkişafına nəzarət edir [6,10,11,12].

Tədqiqatın məqsədinə müvafiq olaraq differensə olunmamış birləşdirici toxuma displaziyası zamanı sümük sistemində baş verən dəyişiklikləri təyin etmək üçün tədqiqata ATU-nun tədris terapevtik klinikasının III Pediatriya şöbəsinə müraciət edən 6 yaşdan 16 yaşadək diferensə olunmamış birləşdirici toxuma displaziyalı 30 uşaq (17 oğlan və 13 qız) seçilmişdir. Bu uşaqlar ümumi qəbul olunmuş diaqnostik alqoritmə əsasən seçilmişdir.

Tədqiqatın material və metodları. Tədqiqata cəlb olunmuş diferensasiya olunmayan birləşdirici toxuma displaziyası olan uşaqlar displaziya dərəcəsinə (I dərəcəli- yüngül, II dərəcəli-orta və III dərəcəli- ağır displaziya, cins (oğlan və qız) tərkibinə əsasən qruplaşdırılmışdır. Alınan nəticələr cədvəl 1-də göstərilmişdir**.**

Cədvəl 1

Tədqiqata cəlb olunan uşaqların birləşdirici toxuma displaziyasının ağırlıq dərəcəsinə görə bölüşdürülməsi

Oğlan	Yüngül dərəcə	Orta ağır dərəcə	Ağır dərəcə	Cəmi
Qız	8 (61,5%)	7 (53,.8%)	2 (50,0%)	17 (56,7%)
Cəmi	5 (38,5%)	6 (46,2 %)	2 (50,0%)	13 (43,3%)

Cədvələ nəzər salsaq görərik ki, yüngül dərəcəli displaziyalı uşaqlar olan qrupda oğlanların sayı 61,5 % (8 nəfər) təşkil etdiyi halda həmin qrupda qızların sayı 38,5 % (5 nəfər) olmuşdur. Orta ağır dərəcəli displaziyalı uşaqlar olan qrupda da oğlanların sayı üstünlük təşkil edərək 7 nəfər (53,8), qızların sayı isə 6 nəfərlə (46,2 %) nisbətən az olmuşdur. Tədqiqata cəlb olunmuş uşaqların fizikal müayinəsi zamanı oynaq-dayaq sisteminin funksional vəziyyəti oynaqların hərəkətliliyi,əzələlərin simmetrikliyi və tonusu,onurğa sütununun əyrilikləri,döş qəfəsinin quruluşu ilə qiymətləndirilirdi. Sümük kütləsinin azalmasının patoloji səbəblərini öyrənmək və sümük metabolizmini qiymətləndirmək məqsədilə metabolik biomarkerlərlə yanaşı ultrasəs densitometriyası müayinəsi aparılmışdır. Müayinə 6-16 yaşlı uşaqlarda aşağı ətrafların periferik hissəsinə tətbiq edilmişdir. Sümük sistemində yaranan metabolik pozulmaların, metobolik biomakerlərə necə təsir etdiyini müəyyənləşdirmək üçün qanın tərkibində kalsium, fosfor, qələvi-fosfataza ,Vit D miqdarı təyin edilərək densitometriya zamanı alınan nəticələrlə korrelyasiya əlaqəsi qurulmuşdur.

Cədvəl 2

BTDS zamanı metabolik biomarkerlərdə yaranan dəyişikliklər

Displaziya dərəcəsi	Ca	İonlaşmış Ca	P	Vit D	Z-score
Yüngül dərəcə	9,11±0,14 8,2-9,9	0,958±0,008 0,90-1,00	1,76±0,21 1,1-3,6	36,0±5,7 8,1-75,0	-0,35 -1,8-2
Orta ağır dərəcə	8,70±0,22 7,4-10,6	0,938±0,12 0,85-1,02	2,25±0,36 1,3-5,3	17,8±1,5 10,3-28,4	-1,12 -2,9-0,1
Ağır dərəcə	7,95±0,31 7,1-8,6	0,870±0,57 0,80-0,94	4,00±0,67 2,6-5,2	10,1±2,0 7,6-16,2	-1,73 -1,73-0,5

Cədvəldəki nəticələr təhlil edildikdə məlum olur ki, birləşdirici toxumanın displaziya dərəcəsinin ağırlığı artdıqca sümük toxumasında gedən metobolik dəyişikliklər də daha da ağırlaşır. Belə ki, qanda kalsium və ionlaşmış kalsiumun (uyğun olaraq $p<0,017$ və $p<0,002$), Vitamin D-nin miqdarında azalma ($p<0,002$), fosforun miqdarı $p>0,006$) artmışdır. Klasium miqdarının orta statistik göstəricisi yüngül dərəcə üzrə 9,11±0,14 (8,2-9,9), orta ağır dərəcədə 8,70±0,22 (7,4-10,6), ağır dərəcədə isə 7,95±0,31 (7,1-8,6) olaraq

miqdarın azaldığını göstərmişdir. İonlaşmış kalsiumun miqdarının orta statistik dəyişməsi özünü yüngül dərəcə üzrə 0,958±0,008 (0,90-1,00), orta ağır dərəcə üzrə 0,938±0,12 (0,85-1,02), ağır dərəcədə isə 0,870±0,57 (0,80-0,94) olaraq azalmışdır.

Alınmış nəticələrin təhlili-BTDS zamanı sümük metabolizminin sistemli tənziminin pozulduğunu sübut edir.Əsas biomarkerlərin miqdarında yaranmış mənfi sümük balansı istiqamətində baş verən pozulmalar ,skeletin aşağı ətrafında periferik hissəsində sümük toxumasının kütləsinin azalmasına və osteopeniya və osteoparoz inkişafına səbəb olur. Bu özünü ultrasəs densitometriyası zamanı alınan nətəcələrdə əks etdirmişdir.

Orqanizmin əsas quruluş hissəsi olan birləşdirici toxumanın morfoloji dəyişməsi toxumanın distrofik, destruktiv və daha sonra funksional proqrediyent pozulması orqanizmin adaptasiya imkanlarını məhdudlaşdırır və çoxsaylı xəstəliklərin inkişafına yol açır. Birləşdirici toxumanın daha çox sümük sistemində olduğunu nəzərə alsaq, birləşdirici toxumanın displaziyası zamanı sümük sistemində yaranan dəyişikliklərin meydana çıxması gözlənilməndir.

Qeyd edilən dəyişikliklər - sümük toxumasında mineral mübadilənin mühüm amillərinin- kalsium və inlaşmış kalsium, vitamin D-in miqdarının dürüst azalması, densitometriya zamanı displaziyanın dərəcəsindən asılı olaraq Z-score-ağrı olan ayaqda alınan nəticələrin dürüst azalması (osteopeniya yaxud osteoparoz) skeletin aşağı hissəsinin periferin nahiyyəsində sümük toxumasının mineral tərkibinin ,mineral sıxlığının,nəticə etibarilə sümük toxumasının kütləsinin azalması aşkarlamışdır. Aparılan tədqiqat işi bir daha sübut edir ki, kiçik yaşlarda birləşdirici toxumanın displaziyası nəzərə çarpırsa həmin uşaqlar həkim nəzarətində olmalı və ehtiyac olduğu hallarda qanda mineral tərkibin yoxlanılması aparılmalıdır. Bu gələcəkdə yaranan mineral çatışmalığının qarşısın almaqda mühüm rol oynayır.

ƏDƏBİYYAT

1.Евстигнеева Л.П., Солодовников А.Г., Ершова О.Б. и др. Остеопороз. Диагностика, профилактика и лечение. Клинические рекомендации. Второе издание, переработанное и дополненное. М., 2010

2. Camacho PM, Petak SM, Binkley N. et al. American association of clinical endocrinologists and American college of endocrinology clinical practice guidelines for the diagnosis and treatment of postmenopausal osteoporosis-2016 // EndocrPract. 2016, v.22(Suppl 4), p.1-42.

3. Kanis J.A., Burlet N., Cooper C. et al. European guidance for the diagnosis and management of osteoporosis in postmenopausal women // Osteoporos Int., 2008, v.19(4), p.399-428.

4. Cosman F., de Beur S.J., LeBoff M.S. et al. Clinician's Guide to Prevention and Treatment of Osteoporosis // Osteoporos Int., 2014, v.25(10), p.2359–2381

5. Актуальные проблемы остеопороза / Под ред. В.И. Струкова. Пенза: Ростра, 2009, 342с.

6.Наследственные нарушения соединительной ткани. Российские рекомендации. Всероссийское научное общество кардиологов // Росс. кардиологическийжурнал, 2012, № 4, Прил. 1, 32 с.

7. Эверт Л.С., Бороздун С.В., Боброва Е.И. и др. Диагностика дисплазии соединительной ткани с использованием биомаркеров// Журнал Сибирского федерального университета. Серия «Химия», 2009, № 4, с. 385-390.

Резюме

Изменения при ультразвуковой денситометрии у детей с дисплазией соеденительной ткани

К.Н.Ахмедли, М.С.Панахова

Статья посвящена одной из актуальных проблем современной медицины – остеопороза у детей. Остеопороз у детей становится все более актуальной проблемой в практике педиатра, развиваясь вследствие влияния ряда факторов – в виде как первичной, так и вторичной формы при воздействии различных заболеванийи /или их лечения. Остеопороз у детей встречается в разные возрастные периоды, являясь важной актуальной проблемой. Известны экзогенные и эндогенные, модифицируемые и немодифицируемые факторы риска и причины развития остеопороза у детей. Выделяются возрастные критические периоды детства, характеризующиеся высокой степенью. Приведены результаты и зучения снижения минеральной плотности кости в детском возрасте, данные по обеспеченности детей витамином D в различные возрастныепериоды.

Summary

Changes in ultrasonic densitometry in children with connective tissue dysplasia

K.N. Akhmedli, M.S.Panahova

The article is dedicated to one of the urgent problems of modern medicine – osteoporosis in children. Osteoporosis is found in children at different ages, being a topical problem, there are exogenous and endogenous, modifiable and non-modifiable risk factors. The critical age periods can be allocated, which are characterized by a high risk of reducing the mineral density of bones and high probability of fractures. The article presents biological effects of calcium, vitamin D. The results of studying the reduction of the mineral density of bones in children are presented, as well as the data on provision of different age children with vitamin D. the modern directions and recommendations for treating osteoporosis in children are described.

Daxil olub: 14.06 2018

DÜZƏNLİK VƏ DAĞLIQ REGİONLARDA YERLƏŞƏN İLKİN TİBBİ YARDIM MÜƏSSİSƏLƏRİNDƏ APARILAN VƏRƏM ƏLEYHİNƏ TƏDBİRLƏRİN KLİNİK-EPİDEMİOLOJI XÜSUSİYYƏTLƏRİ

V.N.Hüseynəliyeva, Y.Ş.Şıxəliyev, İ.Ə.Qasımov, M.A.Şıxlinskaya

Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu,

Bakı 1 nömrəli Vərəm Əleyhinə Dispanser, Bakı

Açar sözlər: vərəmin dərmana davamlı formaları, coğrafi regionlar, ilkin tibbi yardım müəssisələri, ilkin fəal vərəm xəstələri arasında ağ ciyər və ağ ciyərdən kənar üzvlərin vərəminin xüsusi çəkisi, kliniki formaların rastgəlmə tezliyi, müalicənin nəticələri.

Ключевые слова: устойчивость к лекарственным препаратам, географические регионы, учреждения первичной медицинской помощи, удельный вес лёгочных и внелёгочных форм туберкулёза среди первичных активных больных, частота встречаемости клинических форм, результаты лечения.

Key words: Drug-resistant forms of tuberculosis, geographic regions, enterprises of the first medical aid, tuberculosis of the infected people with lung and lung side parts of body, frequency of detection of the clinical forms, result of treatment

Son illər vərəm əleyhinə tədbirlərin intensiv həyata keçirilməsinə baxmayaraq xəstəliyin epidemoloji gərginliyi müşahidə olunur [1].

Xəstəliyin epidemik vəziyyəti müşahidəyə alınan dərmanlara davamlı-multirezistent (Rifampisinə və Rifampisin, İzoniazidə) formaların səviyyəsi ilə qiymətləndirilir [2,3,4]. Ümumdünya Səhiyyə Təşkilatına (ÜST) görə dünyada belə xəstələrin yüksək səviyyəsi 30 ölkədə qeyd olunur ki, onlardan 9 ölkə Avropa regionundadır (Azərbaycan, Belarusiya, Qazaxıstan, Qırğızıstan, Moldaviya, Rusiya Federasiyası, Tacikistan, Özbəkistan və Ukrayna). Avropa regionuna 18 ölkə daxildir ki, bu regionlarda 2008-ci ilin nəticələrinə əsasən multirezistent formaların xüsusi çəkisi 99 % təşkil edir [5,6,7,8]. Lakin Azərbaycanda son illərdə aparılan vərəm əleyhinə tədbirlərin nəticələrinin təhlili ÜST-ın 2008-ci ilə aid olan hesabatının nəticələrini təstiq etmir. Belə ki, ÜST-na görə 2008-ci ildə Azərbaycanda multirezistent xəstələrin fəal ilkin və contingent arasında səviyyəsi uyğun olaraq 22-25% və 50-55% təşkil edir. Lakin son 5 ildə (2011-2015) epidemioloji göstəricilər üzrə aparılan təhlilin nəticəsi göstərir ki, ilkin xəstələr arasında bu göstəricinin səviyyəsi uyğun olaraq 11-13% və 35-40%-dan çox deyil. Baxmayaraq ki, sonuncu göstəricilər də epidomoloji gərginliyi göstərir, lakin Avropanın vərəmə görə ağır epidemik situasiyaya daxil olan ölkələri siyahısına Azərbaycanın daxil edilməsi əsassızdır və öz təstiqini tapmır [9].

Bütün bunlara baxmayaraq ölkədə vərəm xəstəliyinə görə baş vermiş epidemioloji vəziyyətin gərginləşməsinin səbəblərini araşdırılması mühüm məsələ olaraq öz aktuallığını saxlayır [10,11,12]. Bu vəziyyət bir neçə səbəbdən yarana bilər ki, bunlara: xəstələrin erkən aşkar edilməsində mövcud olan çatmamazlıqlar; ilkin aşkar olunmuş vərəm xəstələrinin müalicəsinin təşkilində olan çatmamazlıqlar; vərəm ocaqlarında əks epidemik tədbirlərin mövcud metodik təlimatlara uyğun aparılmaması aiddir.

Bu tədbirlər əsasən ilkin tibbi yardım müəssisələri (İTYM) və vərəm əleyhinə müəssisələr tərəfindən birlikdə yerinə yetirilir. Sözsüz, tədbirlərin yerinə yetirilməsində bir sıra amillər o cümlədən müəssisələrin coğrafi mövqeyi, kadr potensialı, diaqnostik imkanları, əhalinin vərəm xəstəliyinə dair maariflənmə səviyyəsi (sanitar maariflənmə) və s. mühüm rol oynayır.

Tədqiqatın məqsədi. Müxtəlif coğrafi regionlarda - düzənlik və dağlıq şəraitdə yerləşən Nəsimi-Yasamal və Qobustan rayonlarında İTYM-də vərəm əleyhinə tədbirlərin həyata keçirilməsi səviyyəsinin öyrənilməsi və əldə olunan nəticələrin epidemioloji göstəricilərə təsirinin qiymətləndirilməsidir.

Bu məqsədə nail olmaq üçün qarşıya aşağıdakı vəzifələr qoyulmuşdur:

-son 5 ildə (2011-2015-ci illərdə) düzənlik coğrafi regionda yerləşən Nəsimi-Yasamal və dağlıq regionda yerləşən Qobustan rayonunda vərəmin erkən aşkarı məqsədi ilə aparılan məqsədli müayinələrin müqayisəli təhlili;

-ilkin aşkar edilmiş fəal vərəm xəstələrinin uşaq, yeniyetmə və yaşlı qruplar arasında intensiv səviyyəsinin müqayisəli təhlili;

-ilkin aşkar edilən fəal vərəm xəstələri arasında ağ ciyər və ağ ciyərdən kənar üzvlərin vərəminin və buna müvafiq kliniki formaların rast gəlmə tezliyinin müqayisəli təhlili;

-hər iki zonada müalicənin nəticələrinin UST-nın kriteriyalarına uyğun dəyərləndirilməsi.

Tədqiqatın material və metodları. Son 5 ildə müxtəlif coğrafi mövqeyə malik- düzənlikdə yerləşən Yasamal-Nəsimi, dağlıqda yerləşən Qobustan rayonlarında İTYM-də vərəmin aşkarlanması məqsədi ilə aparılan müayinələrin səviyyəsi və müayinələrin tərkibi müqayisəli təhlil edilmişdir. Müayinələrin vərəmin aşkarına təsiri, ilkin hadisələrin yaşlı, uşaq və yeniyetmələr arasında intensiv və ekstensiv səviyyəsi, ilkin aşkar olunmuş fəal vərəm xəstələrinin kliniki struktur üzrə müalicənin effektliliyi müəyyənləşdirilmişdir. Son nəticədə müayinələrin effektliyi ÜST-nın kriteriyalarına uyğun (uğurlu müalicə, müalicədən yayınanlar, başqa müəssisəyə köçürülənlər, uğursuz müalicə və ölüm) müqayisəli təhlil edilmişdir.


Tədqiqatın nəticələri və onların müzakirəsi. Aparılan təhlil göstərir ki, son 5 ildə coğrafi yüksəkliyinə görə düzənlik zonada yerləşən Bakı şəhərinin Yasamal və Nəsimi, dağlıq zonada yerləşən Qobustan rayonlarında vərəm xəstəliyinin epidemioloji göstəriciləri biri-birindən kəskin fərqlənir. Bu birinci növbədə hər iki coğrafi zonada ilkin tibbi yardım müəssisələrində (İTYM) aparılan vərəm əleyhinə tədbirlərin səviyyəsindən asılıdır. İTYM-də vərəm əleyhinə tədbirlərin əsasını əhali arasında vərəmin erkən aşkarı məqsədi ilə aparılan məqsədli müayinələrin (şüa diaqnostikası, immunodiaqnostika və bəlğəmin sadə mikroskopiyası) səviyyəsi təşkil edir. Aktiv və passiv aşkarlanma adı ilə aparılan bu müayinələrə əhalinin yüksək səviyyədə cəlb olunması müayinələrin effektliyini yüksəldir. Cədvəl 1-də son 5 ildə şəhər (Yasamal və Nəsimi) İTYM-də vərəmin erkən aşkarı məqsədi ilə əhalinin müayinələrə cəlbinin səviyyəsi göstərilir.

Cədvəl 1

Bakı şəhərinin Yasamal və Nəsimi rayonlarında 2011-2015-ci illərdə əhali arasında vərəmin erkən aşkarlanması məqsədi ilə aparılan müayinələrin xüsusi çəkisi

İllər	Əhalinin sayı	Əhalinin müayinəyə cəlbi (%)	O cümlədən		
			Şüa diaqnostikası (%)	İmmunodiaqnostika (%)	Sadə mikroskopiya (%)
2011	443300	48.2	26	17.1	5.1
2012	451400	49.6	26.5	19.3	3.8
2013	453602	37.3	28.6	5.5	3.2
2014	453474	42.4	32.9	6.2	3.3
2015	461000	40.4	27.3	9.6	3.5

Cədvəl 1-dən görünür ki, müayinələr içərisində 2015-ci ildə şüa diaqnostikası 27.3%, immunodiaqnostika isə 2011-ci ilə nisbətən 1.8 dəfə azalaraq 9.6%, sadə mikroskopiya isə 1.5 dəfə azalaraq 3.5% təşkil edir. Aparılan məqsədli müayinələrin nəticəsində son 5 ildə Yasamal və Nəsimi rayonlarında vərəmlə xəstələnmənin səviyyəsi çox da fərqlənmədiyi halda uşaqlar, yeniyetmələr və yaşlılar arasında bu səviyyə kəskin fərqlənir və nəticələr şəkil 1-də göstərilmişdir.



Şək. 1. Düzənlik coğrafi zonada yerləşən Yasamal, Nəsimi rayonlarında 2011-2015-ci illərdə vərəmlə xəstələnmənin intensiv səviyyəsi

Diaqrammadan görünür ki, son 5 ildə vərəmlə xəstələnmənin intensiv səviyyəsi eyni olaraq qalsa da, yeniyetmələr arasında müvafiq göstərici 1.9 dəfə və ya 47% artmış, uşaqlar arasında isə müvafiq göstərici 1.3 dəfə və ya 24% azalmışdır. Təhlildən aydın olur ki, uşaqlar və yeniyetmələr arasında xəstələnmənin 2012-2013-cü illərdə kəskin aşağı düşməsi birbaşa vərəmin aşkarlanması istiqamətində aparılan profilaktik müayinələrin səviyyəsindən asılıdır. Anoloji olaraq vərəmin erkən aşkarı məqsədi ilə dağlıq regionda yerləşən kənd rayonu sayılan Qobustanda son 5 ildə aparılan məqsədli müayinələrə əhalinin cəlb olunması təhlil edilmiş və aparılan müayinələrin səviyyəsi cədvəl 2-də verilmişdir.

Cədvəl 2

Qobustan rayonunda 2011-2015-ci illərdə əhali arasında vərəmin aşkar edilməsi məqsədi ilə aparılan müayinələrin xüsusi çəkisi


İllər	Əhalinin sayı	Əhalinin müayinələrə cəlbi (%)	O cümlədən		
			Şüa diaqnostika (%)	İmmunodiaqnostika (%)	Sadə mikroskopiya (%)
2011	41216	7.3	-	7.3	0.01
2012	42539	0.3	0.3	-	-
2013	43082	0.04	0.04	-	-
2014	43740	-	-	-	-
2015	44458	2.9	2.9	-	-

Cədvəl 2-dən görünür ki, əhali arasında vərəmin aşkarı məqsədi ilə 2011-2015-ci illərdə aparılan müayinələrinin səviyyəsi çox aşağıdır. Belə ki, 2011-2014-cü illərdə şüa diaqnostikası aparılmadığı halda 2012, 2013 və 2015-ci illərdə müvafiq göstərici 0.3%, 0.04% və 2.9% təşkil etmişdir. Immunodiaqnostika və sadə mikroskopiya yalnız 2011-ci ildə aparılmış, uyğun olaraq 7.3% və 0.01% təşkil etmişdir. Son nəticədə əhalinin məqsədli müayinələrə cəlbi 2011-2015-ci illərdə uyğun olaraq 7.3% və 2.9% səviyyəsində olmuşdur. Bütün sadalanan çatmamazlıqlar vərəmlə xəstələnmənin səviyyəsinə ciddi təsir etmişdir və son 5 ildə (2011-2015) vərəmlə xəstələnmənin intensiv səviyyəsi diaqram 2-də verilmişdir. Şəkil 2-dən görünür ki, son 5 ildə əhali arasında vərəmlə xəstələnmə 20.4% azalmışdır.

Yaşlılar arasında xəstələnmənin intensiv səviyyəsi 52.5% aşağı düşdüyü halda uşaqlar və yeniyetmələr arasında 2011-ci ildə yeni vərəm hadisələri aşkar edilməmiş, 2012-ci illə müqayisədə 2015-ci ildə uşaqlar arasında xəstələnmə 4.5% azaldığı halda yeniyetmələr arasında müvafiq göstərici 76.8% artmışdır. Nəticədə yeniyetmələr arasında xəstələnmənin intensiv səviyyəsi 2015-ci ildə uşaqlara nisbətən 10.1 dəfə, yaşlılara nisbətən isə 4.3 dəfə yüksək olmuşdur.

İlkin aşkar olunmuş ağ ciyər və ağ ciyərdən kənar üzvlərin vərəm hadisələrinin kliniki strukturası təhlil edilmişdir. Aydın olur ki, son 5 ildə şəhər İTYM-də ilkin olaraq 523 fəal xəstə müşahidəyə götürülmüşdür.

Onlardan ağ ciyər vərəmi 74.6% (390 xəstə) ağ ciyərdən kənar üzvlərin vərəmi isə 25.4% (133 xəstə) təşkil edir. Müvafiq göstərici kənd İTYM-də uyğun olaraq 77.1% (74 xəstə) 22.9% (22 xəstə) təşkil edir. Ayrı-ayrı kliniki formaların ilkin xəstələr arasında xüsusi çəkisinin səviyyəsinin təhlili göstərir ki, ilkin vərəm hadisələri arasında ocaqlı vərəmin xüsusi çəkisi (optimal səviyyə 40-60%) 2011-2015-ci illərdə şəhər İTYM-də eyni səviyyədə qalaraq 12% təşkil etdiyi halda kənd İTYM-də müvafiq kliniki forma 2011-ci ildə 11.8% səviyyəsində olsa da 2015-ci ildə müşahidə olunmur.



Şək. 2. Dağlıq Qobustan rayonunda 2011-2015-ci illərdə vərəmlə xəstələnmənin intensiv səviyyəsinin qrafik təsviri

Beləliklə, şəhər İTYM-də vərəmin ocaqlı formasının aşkarı son 5 ildə optimal həddən 3-4.6 dəfə geri qalmışdır (orta göstərici 13.1%). İlkin xəstələr arasında üstünlük infiltrativ vərəmin payına düşür və orta səviyyə 86.1% (336 xəstə) təşkil edir. Səpələnmiş vərəm 3 hadisə şəklində qeyd olunur. Ağ ciyərin və ağ ciyərdən kənar üzvlərin vərəminin ağır kliniki formalarından sayılan kavernoz, fibroz-kavernoz və meninqoensofalomielit formaları müşahidə olunmamışdır. Son 5 ildə ilkin ağ ciyər vərəm xəstələri arasında mikobakteriyanın tapılmasının və dağılma mərhələsinin orta səviyyəsi uyğun olaraq 63.1% və 32.8% təşkil etmişdir. Son iki göstəricinin nisbət indeksi 2.0 səviyyəsində olaraq optimal həddən 0.8 artıqdır. Sadə mikroskopiyanın nəticələrinin kifayətləndirici olduğu halda (63.1%) indeksin bu səviyyəsi İTYM-də rentgenoloji hipodiaqnostikanın baş verdiyinin göstəricisidir. Kənd İTYM-də ağ ciyər vərəm hadisələri arasında da üstünlük infiltrativ vərəmdə qeyd olunmuş və orta səviyyə 91.9% təşkil etmişdir. Səpələnmiş vərəm isə 2011-ci ildə 5.9% (1 xəstə) olmuşdur. Kənd İTYM-də də vərəmin ağır kliniki formaları sayılan kavernoz və fibroz-kavernoz kliniki formaların qeydiyyatı olmamışdır. İlkin ağ ciyər vərəm xəstələri arasında mikobakteriya ifraz edənlərin xüsusi çəkisinin orta səviyyəsi 48.6% (36 xəstə) olmuşdur. Dağılma mərhələsində qeydiyyata alınanların xüsusi çəkisinin orta səviyyəsi 31.1% (23 xəstə) olmuşdur. Son iki göstəricinin nisbət indeksinin orta səviyyəsi 1.6 təşkil edir. Göstəricinin 2011-ci ildə yol verilən həddən 0.3-dən aşağı olması mikroskopiya müayinəsinin zəif təşkilinin nəticəsidir. Bu özünü 2015-ci ilin göstəricisində də təsdiqləyir. Belə ki, 2015-ci ildə mikobakteriyanın tapılma səviyyəsi 2011-ci ildən 22.6% aşağı olmuşdur. Aparılan təhlil göstərir ki, ağ ciyərdən kənar üzvlərin vərəmi son 5 ildə 54.2% artmışdır (2011-ci ildə 19.0% (4 xəstə), 2015-ci ildə 38.9% (7 xəstə), orta səviyyə 22.9%-22 xəstə)). Vərəmin ağır kliniki forması sayılan meninqoensofalomielit 9.1% (2 hadisə) müşahidə olunmuşdur. Bütün bunlar kənd İTYM-də vərəmin epidemioloji vəziyyətində gərginliyin baş verməsində məqsədli müayinələrin təşkilində baş vermiş çatmamazlıqlara dəlalət edir. Sözsüz, epidemioloji vəziyyətə təsir edən amillərin biri də ilkin xəstələrin effektli müalicəsinin təşkilidir. Cədvəl 3-də son 5 ildə ilkin qeydiyyata alınan xəstələrin müalicəsinin kliniki formalar üzrə nəticələri göstərilmişdir.

Cədvəldən görünür ki, son 5 ildə ağ ciyər vərəmi üzrə şəhər İTYM-də ilkin aşkar edilmiş 390 xəstədən sağalma 57.1% (223 xəstə) halda, ağ ciyərdən kənar ilkin 133 fəal vərəm xəstələri arasında isə müvafiq göstərici 37.6% (50 xəstə) halda müşahidə olunmuşdur. Ümumilikdə şəhər İTYM-i tərəfindən ilkin aşkar olunmuş 523 fəal vərəm xəstələri arasında sağalma 52.2% (273 xəstə) təşkil edir. Kənd İTYM-i tərəfindən aşkar edilmiş 74 ilkin ağ ciyər vərəm xəstəsi arasında sağalma 55.4% (41 xəstə) halda, ağ ciyərdən kənar üzvlərin vərəmi ilə ilkin qeydiyyata alınan 22 xəstədən 18.2% (4 xəstə) halda baş vermişdir. Ümumilikdə kənd İTYM-i tərəfindən 5 il ərzində ilkin qeydiyyata alınan 96 xəstənin 46.9% (45 xəstə) hissəsində sağalma baş vermişdir ($p \leq 0.05$). Anoloji təhlil "müalicənin başa çatdırılması" şəhər İTYM tərəfindən qeydiyyata alınan ilkin xəstələr üzrə apardıqda məlum olur ki, ağ ciyər və ağ ciyərdən kənar üzvlərin vərəmi olan xəstələr arasında müvafiq göstərici uyğun olaraq 8.2% (32 xəstə) və 22.6% (30 xəstə) təşkil edir.

Cədvəl 3

Son 5 ildə (2011-2015) şəhər və kənd İTYM-də ilkin aşkar olunmuş fəal vərəm xəstələrinin kliniki formalar üzrə müalicəsinin nəticələri

	Kliniki formalar	Cəmi	Sağalma		Müalicə başa çatıb		Müalicə yarım qalıb (müşahidədən kənarda qalan)	
			müt	%	müt	%	müt	%
Yasamal – Nəsimi İTYM-ləri	Ağ ciyər vərəmi	390	223	57.1	32	8.2	25	6.4
	O cümlədən: Ocaqlı vərəm	51	51	100	-	-	-	-
	Infiltrativ vərəm	336	170	50.6	32	9.5	25	7.4
	Səpələnmiş vərəm	3	2	66.7				
	Ağ ciyərdən kənar üzvlərin vərəmi	133	50	37.6	30	22.6	38	28.6
	O cümlədən: Vərəm meninqoensefalomieliti	-	-	-	-	-	-	-
	Cəmi	523	273	52.2	62	11.9	63	12.0
Qobustan İTYM-ləri	Ağ ciyər vərəmi	74	4	55.4	6	8.1	12	16.2
	O cümlədən: Ocaqlı vərəm	5	5	100				
	Infiltrativ vərəm	68	36	52.9	6	8.8	12	17.7
	Səpələnmiş vərəm	1						
	Ağ ciyərdən kənar üzvlərin vərəmi	22	4	18.2	6	27.3	8	36.4
	O cümlədən: Vərəm meninqoensefalomieliti	2	1	50.0	-	-	-	-
	Cəmi	96	45	46.9	12	12.5	20	20.8
	±m	0.8	0.8		0.8		0.7	

Cədvəl 3-ün davamı

	Kliniki formalar	Başqa müəssisəyə köçürülüb		Uğursuz müalicə		Ölüb	
		müt.	%	müt.	%	müt	%
Yasamal – Nəsimi İTYM-	Ağ ciyər vərəmi	49	12.6	42	10.8	19	4.9
	O cümlədən: Ocaqlı vərəm	-	-	-	-	-	-
	Infiltrativ vərəm	49	14.6	41	12.2	19	5.7
	Səpələnmiş vərəm			1	33.3		
	Ağ ciyərdən kənar üzvlərin vərəmi	10	7.5	1	0.7	4	3.0
	O cümlədən: Vərəm meninqoensefalomieliti	-	-	-	-	-	-
	Cəmi	59	11.3	43	8.2	23	4.4
Qobustan İTYM-ləri	Ağ ciyər vərəmi	4	5.4	10	13.5	1	1.4
	O cümlədən: Ocaqlı vərəm						
	Infiltrativ vərəm	4	5.9	10	14.7	-	-
	Səpələnmiş vərəm					1	100
	Ağ ciyərdən kənar üzvlərin vərəmi	-	-	-	-	4	18.1
	O cümlədən: Vərəm meninqoensefalomieliti	-	-	-	-	1	50.0
	Cəmi	4	4.2	10	10.4	5	5.2
	±m	0.9		0.7		0.8	

Kənd İTYM-i tərəfindən aşkar edilmiş fəal ağ ciyər və ağ ciyərdən kənar üzvlərin vərəm xəstələri arasında müalicənin başa çatdırılması uyğun olaraq 8.1% (6 xəstə) və 27.3% (6 xəstə) səviyyəsində olmuşdur. Ümumilikdə şəhər və kənd İTYM-i tərəfindən qeydiyyata alınan ilkin fəal vərəm xəstəsi arasında müalicəni başa çatdıran xəstələrin səviyyəsi uyğun olaraq 11.9% (62 xəstə) və 12.5% (12 xəstə) təşkil edir ($p \leq 0.05$). Şəhər və kənd İTYM-i tərəfindən ilkin qeydiyyata götürülmüş fəal vərəm xəstəsi arasında

müalicəni yarımçıq qoyan (müşahidədən kənarda qalanlar) uyğun olaraq 12% (63 xəstə) və 20.8% (20 xəstə) olmuşdur.

Cədvəl 3-dən görünür ki, xəstələr arasında şəhər və kənd İTYM-də aşkar olunan ağ ciyər və ağ ciyərdən kənar üzvlərin vərəmi ilə müşahidədə olanlarda müalicəni yarımçıq qoyanlar uyğun olaraq 6.4% (25 xəstə), 28.6% (38 xəstə) və 16.2% (12 xəstə), 36.4% (8 xəstə) səviyyəsində olmuşdur ($p \leq 0.05$). Şəhər İTYM-də müalicə zamanı başqa müəssisəyə köçürülənlər ağ ciyər vərəmi üzrə 12.6% (49 xəstə) və ağ ciyərdən kənar üzvlərin vərəminə görə 7.5% (10 xəstə) olmuşdur. Kənd İTYM-dən başqa müəssisəyə köçənlər ağ ciyər vərəmi üzrə 5.4% (4 xəstə) təşkil etmişdir ($p \leq 0.05$). Müalicəni uğursuz başa vuranlar arasında şəhər İTYM-də qeydiyyata alınan ilkin fəal vərəm xəstələri 10.8% (42 xəstə), ağ ciyərdən kənar üzvlərin vərəminə görə 0.7% (1 xəstə) təşkil edir. Müvafiq göstərici kənd İTYM-də müşahidəyə alınan ilkin ağ ciyər vərəm xəstələri arasında 13.5% (10 xəstə), ağ ciyərdən kənar üzvlərin vərəminə görə isə uğursuz müalicə qeyd olunmur. Ümumilikdə şəhər İTYM xəstələri arasında uğursuz müalicə 8.2% (43 xəstə), kənd İTYM-də isə 10.4% (10 xəstə) halda müşahidə olunmuşdur ($p \leq 0.05$). Ölüm göstəricisi şəhər İTYM-də ağ ciyər vərəm xəstələri üzrə 4.9% (19 xəstə), ağ ciyərdən kənar üzvlərin vərəminə görə 3.0% (4 xəstə) müşahidə olunmuşdur. Ümumilikdə şəhər İTYM-i xəstələri arasında ölüm göstəricisi 4.4% (23 xəstə) təşkil etmişdir. Kənd İTYM-də ölüm göstəricisi ağ ciyər və ağ ciyərdən kənar üzvlərin vərəm xəstələri arasında uyğun olaraq 1.4% (1 xəstə) və 18.1% (4 xəstə) təşkil etmişdir. Ümumilikdə kənd İTYM –i xəstələri arasında ölüm göstəricisi 5.2% (5 xəstə) halda qeyd olunur ($p \leq 0.05$). Ayrı-ayrı kliniki formalar üzrə şəhər İTYM-də ilkin qeydiyyata götürülən fəal ağ ciyər vərəm xəstələrindən ocaqlı vərəm xəstələri arasında sağalma 100% (51 xəstə), infiltrativ vərəm xəstələri arasında sağalma 50.6% (170 xəstə), müalicənin başa çatdıranlar 9.5% (32 xəstə), müalicəni yarımçıq qoyanlar 7.4% (25 xəstə), başqa müəssisəyə köçürülənlər 14.6% (49 xəstə), uğursuz müalicə olanlar 12.2% (41 xəstə), ölüm ilə nəticələnənlər 5.7% (19 xəstə) baş vermişdir. Səpələnmiş vərəmlə 3 xəstə qeydə alınmışdır ki, onunda ikisində (66.7%) sağalma, birində (33.3%) uğursuz müalicə baş vermişdir. Kənd İTYM-də ilkin ağ ciyər vərəm xəstələri arasında ocaqlı vərəmlə qeydiyyatda olan xəstələr 100 % (5 xəstə) sağalmış, infiltrativ vərəmlə xəstələnmələr arasında sağalma 52.9% (36 xəstə), müalicənin başa çatması 8.8% (6 xəstə), müalicənin yarımçıq qalması 17.7% (12 xəstə), başqa müəssisəyə köçürülmə 5.9% (4 xəstə), uğursuz müalicə 14.7% (10 xəstə) baş vermişdir. Səpələnmiş vərəmlə qeydiyyata alınan bir nəfər xəstədə isə müalicə letallıqla nəticələnmişdir. Ağ ciyərdən kənar üzvlərin vərəmi ilə xəstələnən 22 xəstənin 18.2% (4 xəstə) hissəsində sağalma, 27.3% (6 xəstə) hissəsində müalicə başa çatmış, 36.4% (8 xəstə) hissəsi müalicə yarımçıq qalmış, 18.1% (4 xəstə) hissəsində isə ölüm baş vermişdir. Ağ ciyərdən kənar üzvlərin vərəmi olan iki vərəm meninqoensefalomielit hadisəsi olmuşdur ki, onlardan biri sağalma ilə, biri isə ölüm ilə nəticələnmişdir.

Beləliklə, şəhər İTYM –də ilkin qeydiyyata alınan 523 fəal vərəm xəstələri arsında uğurlu müalicə (sağalma və müalicənin başa çatdıran cəmi) 64.1%, müalicəni yarımçıq qoyanlar (müşahidədən kənar xəstələr) 12%, başqa müəssisəyə köçürülənlər 11.3%, uğursuz müalicə olunanlar 8.2%, müalicənin nəticəsi letallıqla bitən 4.4% olmuşdur. Anoloji olaraq kənd İTYM-də ilkin qeydiyyata götürülən 96 ilkin fəal vərəm xəstələri uğurlu müalicə olunanlar 59.4%, müalicəni yarımçıq qoyanlar 20.8%, başqa müəssisəyə köçürülənlər 4.2%, uğursuz müalicə olunanlar 10.4%, müalicənin sonu letallıqla nəticələnən 5.2% təşkil etmişdir. Ağ ciyər vərəmin kliniki formaları arasında şəhər və kənd İTYM-də infiltrativ vərəm uyğun olaraq 86.2% və 91.9% təşkil edərək digər kliniki formaları üstələyir. Kənd İTYM-in xəstələri arasında bu kliniki formalardan olan uğursuz müalicə olanlar şəhər İTYM-in xəstələrinə nisbətən üstünlük təşkil edir və uyğun olaraq 10.4% və 8.2% təşkil edir. Anoloji göstərici müalicənin nəticəsində letallıqla bitənlər arasında da qeyd olunur və uyğun olaraq 5.2% və 4.4% təşkil edir. Anoloji vəziyyət müalicəni yarımçıq qoyanlar arasında uyğun olaraq 17.7% və 7.4% təşkil edir. Başqa sözlə infiltrativ vərəmlə xəstələnənlər arasında müalicənin effektlilik səviyyəsi ocaqlı vərəmdən geridə qalır.

Şəhər İTYM-in xəstələri arasında müalicəni yarımçıq qoyanlar və uğursuz müalicə olanlar kənd İTYM-in xəstələrinə nisbəti 1.2-2.4 dəfə geri qalır ki, bu da müalicənin effektliyinə müsbət təsir edir. Son nəticədə uğurlu müalicə olunanların səviyyəsi kənd İTYM-in xəstələrinə nisbətindən 1.1 dəfə yüksək olur.

ƏDƏBİYYAT

1. Mark Danzon. План "Остановить ТБ" для 18 наиболее приоритетных стран Европейского региона ВОЗ, 2007-2015 г г. Копенгаген: Всемирная организация здравоохранения, 2007. Алгоритм лабораторной диагностики и мониторинга лечение туберкулез легких и туберкулеза с лекарственной устойчивостью применяя современные быстрые молекулярные методы, 2018

2. Зиновьев И.П, Эсаулова Н.А., Новиков В.Г. Коковихина И.А. Первичная лекарственная устойчивость микобактерий туберкулеза у больных с впервые выявленным деструктивным туберкулезом легких // Медицина, 2009, с.37-38

3. Богородская Е. М, Стерликов С. А. Результаты основного курса лечения больных туберкулезом лёгких, заругисгрированных в 2007 г. // Жур. Туберкулёз и болезни лёгких, 2010, № 11, с. 30-38
4. Коломиец В.М., Дрёмова Н.Б., Абрамов А.В., Рублева Н.В. Эффективность и экономичность основного курса лечения туберкулёза в условиях стационара // Жур. Туберкулёз и болезни лёгких, 2010, № 12, с. 44-48
5. Аксёнова В.А., Мохирева Л.В., Келасова Н.В. Туберкулёз у лиц подросткового возраста // Жур. Туберкулёз и болезни лёгких, 2010, № 11, с.24-29
6. Челнокова О.Г, Кибрик Б.С. Отдалённые результаты лечения больных остропрогрессирующим деструктивным туберкулёзом // Жур. Туберкулёз и болезни лёгких, 2010, № 12, с. 49-55
7. Global Tuberculosls Report 2016 Geneva World Health Organization; 2016 Алгоритм лабораторной диагностики и мониторинга лечения туберкулеза легких и туберкулеза с лекарственной устойчивостью, применяя современные быстрые молекулярные методы, 2018
8. Tuberculosis surveillance and monitoring in Europe 2016. Stockholm: European Centre for Disease Prevention an Control. Алгоритм лабораторной диагностики и мониторинга лечение туберкулез легких и туберкулеза с лекарственной устойчивостью применяя современные быстрые молекулярные методы, 2018
9. Şıxəliyev Y.Ş. Epidemioloji gərgin rayonlarda vərəm əleyhinə tədbirlərin intensiv şəkildə aparılma metodları. Monoqrafiya. Bakı, 2003, s.14-36
10.Морозова Т.И., Поролина Л.Е, Н.Р. Докторова. Социальные технологии при оказании противотуберкулезной помощи // Жур. Туберкулёз и болезни лёгких, 2011, № 7, с.11-15
11.Повленок И.В., Ревякина О.В., Алексеева Т.В., Оценка организации противотуберкулезной помощи детям и подросткам в Сибирском федеральном округе в 2010-2012 гг.// Жур. Туберкулёз и болезни лёгких, 2014, № 5, с. 36-41
12.Гуревич Г.Л. Скрягина И.Г. Залуцкая О.И. Диагностика и дифференциальная диагностика туберкулеза легких на различных уровнях оказания медицинской помощи в Республике Беларусь // Жур. Туберкулёз и болезни лёгких, 2014, № 1, с.14-19

Резюме

Клинико-эпидемиологические особенности противотуберкулёзных мероприятий, проводимых в учреждениях первичной медицинской помощи, расположенных в горном и низменном регионах

В.Н. Гусейналиева, Я.Ш. Шыхалиев, И.А. Гасымов, М.А. Шыхлинская

Основной причиной эпидемиологического напряжения туберкулёза во всем мире является повышение уровня мультирезистентных форм туберкулёза. По уровню этих форм Азербайджан среди европейских стран занимает важное место. В выявлении туберкулёза особую роль играют целенаправленные обследования. Проведение этих обследований зависит от географического расположения учреждений первичной медицинской помощи (УПМП). Исследование путей выявления первичных активных туберкулёзных больных и анализ клинической структуры заболевания показало, что уровень лёгочных форм туберкулёза превалирует над уровнем внелёгочных форм. Данная тенденция сохраняется как в низменно расположенном Ясамальско-Насиминском районе, так и в горном Гобустанском районе. В обеих регионах среди первичных больных инфильтративная форма туберкулёза является превалирующей. Несоответствие индекса больных с выделением микобактерий туберкулёза к фазе распада с оптимальным уровнем указывает на рентгенологическую гиподиагностику в зоне, расположенной в низменности и низким уровнем организации микроскопического исследования в высокогорных условиях. Уровень эффективности лечения в обеих зонах тоже резко различаются. Таким образом, за последние 5 лет (2011-2015гг) среди больных, выявленных в УПМП города и села к концу проведенного лечения выздоровевшие составляли соответственно 64.1% и 59.4%, прервавшие лечение соответственно 12% и 20.8%, переведенные в другие учреждения 11.3% и 4.2%, неудачно леченные 8.2% и 10.4%, умершие 4.4% и 5.2%. Результаты лечения зависят от уровня целенаправленных обследований. С этой точки зрения в повышении уровня раннего выявления туберкулёзных больных в районе горной местности важную роль может сыграть анализ частоты встречаемости больных среди различных слоев населения и проведение среди определенной группы населения санитарно-просветительной работы. Во время проведения целенаправленных обследований соответственно географическим регионам активные и пассивные методы выявления должны иметь превосходство.

Summary

The clinical epidemiological specialties of enactment against tuberculosis implemented in enterprises of the first medical aid situated mountainous and lowland regions

V.N. Huseynaliyeva, Y.S. Shikhaliyev, I.A. Gasymov, M.A.Shiklinskaya

The main reason of epidemiological tension of tuberculosis the world is closed with the increase of the level of multi resistant forms of tuberculosis. Azerbaijan gets an important place among the European countries because of this form. Purpose of the investigation of tuberculosis plays an important role. The implementation of examinations depend on geographical position of course in (EFMA) enterprises of the first medical aid. The analysis and clinic structure and ways of detection of the tuberculosis which were implemented during the last 5 years displays that lung tuberculosis takes an upper hand than tuberculosis of the lung side parts of body among the newly infected people. The tendency is still followed in Yasamal-Nesimi lowland region and Gobustan-mountainous region. The infiltrative form of early tuberculosis takes an upper hand in both regions. Among the ill whose mycobacterium secretive are in the level of destruction and whose positive index don't watch the optimal level shows the poor organization of the examination of X-ray hypo diagnostics in lowland and microscopic examination in mountainous regions. The effectiveness of the treatment differs considerably in both arias. Thus in the last 5 years (2011-2015) among the infected people including urban people and villagers the result of treatment includes 64.1% and 59.4%, people un finishing the treatment 12% and 20.8%, unsuccessful treatment 8.2% and 10.4%, transforming to another entity 11.3% and 4.2%, mortal data has become 4.4% and 5.2%. The result of treatment depends on purposeful examination. From this point of with the purpose of increasing the level of detection of early tuberculosis among the infected people at the mountainous areas the investigation of frequency detecting tuberculosis among separate groups of people, organization of medical education among the inhabitants can play an important role through the detection of early events. During the purposeful examinations relevant to geographic areas active and passive methods must be preferred.

Daxil olub: 23.07 2018

BALDIR DİLİMİ NÖVÜNÜN DONOR SAHƏNİN HƏYAT QABİLİYYƏTİNƏ TƏSİRİ

E.N.Abdullayev

Hacettepe Universiteti, Tibb Fakültəsi, Ankara

Açar sözlər: baldir dilimi, donor, pkastik əməliyyat

Ключевые слова: части голени, донор, пластическая операция

Key words: parts of the leg, donor, plastic surgery

Akyürek və əməkdaşları 2004-cü ildə təqdim etdikləri tədqiqatda nevral ada dilimi konsepsiyasını təklif edərək laboratoriya siçanları üzərində apardıqları eksperimental tədqiqatlarda lateral femoral kutanal sinirin vaskulyar anatomiyasını və sinirin daxili damarlanmasının üzərindəki dəri adasının qan dövranını təmin etdiyin qeyd etmişlər [1]. Eyni tədqiqat zamanı müəlliflər delay prosedurası zamanı siniri müşayiət edən arteriya, vena, fassiya, subkutanal toxuma olmayan, sinirin daxili qan dövranından qidalanan baldır nevral ada diliminin kliniki tətbiqini nümayiş etdirmişlər. Sönmez və əməkdaşları laboratoriya siçanları üzərində apardıqları eksperimental tədqiqatlarda sinirin daxili qan dövranı vasitəsilə böyük sağrı əzələsi dilimi; lateral femoral kutanal siniri aralayaraq hər bir fassiya qrupu üzərindən 2x3 sm ölçülərdə dəri dilimini uğurla qaldırmışlar [2,3]. Bu tədqiqatların nəticələrini nəzərə aldıqda daha əvvəl elmi ədəbiyyatda nevrokutanal dilim adladırılan dilimlərdə sinir olmalarına baxmayaraq, qan dövranları izolə edilmiş sinirin daxili damarlanmasının mövcud olmadığı açıq şəkildə görünür.

Birincili qapadılmaya imkan yaratmayacaq qədər geniş olan yaralar dəri transplantatı yaxud da dəri dilimi ilə qapadıla bilər. Dəri transplantatı dəri dilimi ilə müqayisədə daha sadə olduğu üçün ilk olaraq, ona üstünlük verilir. Buna baxmayaraq, dəri dilimi ilə rekonstruksiyanın lazım gəldiyi, hətta daha üstün olduğu hallar da mövcuddur. Dəri transplantlarından fərqli olaraq, dəri dilimlərinin öz qan dövranları vardır. Dəri dilimləri bədənin müxtəlif sahələrində tam qat qüsurlarının aradan qaldırılmasında, həyati vacib orqanların örtülməsində, resipient sahədə qeyri-qənaətbəxş damarlanmış sahələrin qapadılmasında, sümük çıxıntılarına

yumşaq toxuma dəstəyi təşkil etmək üçün lazım gəlir. Bundan başqa, dəri dilimləri qulaq, burun, dodaq, göz qapaqları və yanaqların rekonstruksiyasında mükəmməl nəticə verir. Dəri dilimlərinin bəzi çatışmayan cəhətləri də vardır. Belə ki, dəri dilimləri tüksüz sahəyə özləri ilə tük "apara", kobud görünüşə malik ola, uzunmüddətli hospitalizasiya və bir sıra əməliyyatlar tələb edə bilir. Dəri dilimləri vaskulyar ayaqcıq yaxud da bədənə bir tərəfdən bitişik olması ilə bərabər, bədənin bir hissəsindən digər hissəsinə transfer edilən dəri və dərialtı toxumadan ibarətdir. Vaskulyar ayaqcıq ya dilimin transferi zamanı mühaifəz olunur, ya da sərbəst dilimlərdə olduğu kimi mikrovaskulyar anastomoz ilə yenidən təşkil edilir. Dəri dilimləri anatomik qan təminatı, dilimin transfer edildiyi anatomik nahiyə, dilimin qüsura yaxın yaxud da uzaq olmasına görə kompozit dilim növlərinə görə təsnif edilir [7,8,10].

Random dilimlər ən çox istifadə edilən dəri dilimi tipidir. Dilimin qidalanmasını seqmental yaxud da aksial arteriyaların dilimin "dibinə" düz şəkildə verdiyi dəlici şaxələrin təşkil etdiyi dermal və subdermal kələflər təşkil edir. Bu dilimlərin venoz drenajları isə həm səthi, həm dərin venalar vasitəsilə təmin edilir. "Random" Random təsadüfi, ixtiyari mənasında işlədilir. Bədənin hər hansı bir yerindən yerləşmə sıxıntısı olmadan hazırlana bilir. Bu dilimdə tək sıxıntı ölçüləri ilə əlaqədardır. Aşağı ətrafda, nisbətən zəif qan dövranından ötrü bu tip dilimlərin maksimal uzunluq/en nisbəti 1:1-dir. Üz nahiyyəsində isə yaxşı qan dövranı səbəbindən bu nisbət 1:6 yüksəldilir. Delal mərhələsi ilə bu tip dilimlərin uzunluğu 50-100% artırıla bilir [5, 9].

Aksial dilimlərin dərialtı toxumada uzanan arteriyaları vardır ki, onlar birbaşa dərinin arterial sistemilə vaskulyarizasiya olunurlar. Bu tip dəri dilimləri adətən arteriyanı ortalayacaq şəkildə təşkil edilirlər. Ən əhəmiyyətli xüsusiyyəti uzunluğunun eni ilə müqayisədə 5-6 dəfə daha çox omasıdır və bu xüsusiyyət sayəsində daha uzaq nahiyyələrə transfer olunmaları mümkündür. Venoz drenajı həm səthi, həm də dərin venalar vasitəsilə həyata keçirilir. Bu tip dilimlərdə "delay" proseduru tətbiq edilə bilər. Ada dilimlər aksial nümunə kimi təşkil edilib, dilimin sapını təşkil edən dəri əlaqəsinin də kəsilməsilə hazırlanır. Yalnızca, dilimi qidalandıran damar və sinirlər saxlanılır. Adaşəkilli dəri dilimləri lokal olmaqla bərabər, sərbəst dilim kimi də hazırlana bilir. Fasiokutanal və muskulokutanal dilimlər aksial tipli qan dövranına malikdirlər və aksial dilim formasındadırlar [1,12].

Lokal dilimlər qüsura bitişik şəkildə planlanırlar. Adətən resipient sahənin rəngi, strukturu, qalınlığı və s. xüsusiyyətləri ilə eyni xüsusiyyətlərə malik olurlar. Uzaq dilimlərlə müqayisə edildikdə daha az əməliyyat müddəti və daha qısa hospitalizasiya dövrü əsas üstünlüklərdir. 2 qrupa təsnif edilirlər: bir ox (dayaq nöqtəsi) ətrafında hərlənən dilimlər (rotasion, transpozosion, interpolasion dilimlər) və irəliləmə dilimləri (tək ayaqcıqla irəliləmə, V-Y irəliləmə və cütayaqcıqlı irəliləmə dilimləri) [4,30].

Rotasiya dilimi qüsurun qapadılması məqsədilə dayaq nöqtəsi ətrafında fırlanan yarımdairəvi dəri və dərialtı toxumadır. Donor sahədə adətən ikincili toxuma qüsuru meydana gəlmir. Dilimdə radial istiqamətdə gərginlik meydana gələrsə, dilimin dayaq nöqtəsindən bir qədər "back cut" ilə gərginliyin qarşısı alına bilər. Bu kəsiyin dilimin qidalanmasını azalda biləcəyi nəzərə alınmalıdır.

Transpozision dilimi dördbucaqlı formadakı dəri və dərialtı toxumadan ibarətdir. Bu dilim ona bitişik qüsuru qapatmaq üçün lateral istiqamətdə hərəkət edir. Bu tip dilimlər dayaq nöqtələri ətrafında nə qədər çox rotasiya edərlərsə, effektiv uzunluqları o qədər azalır. Dilimin donor sahəsi dəri transplantatı, birbaşa tikiş və ya birincili dilimə perpendikulyar olmaqla en kövşək dəridən ibarət sahədən planlanacaq ikincili dilimlə qapadılır. Son olaraq, bəhs edilən texnikaya misal kimi bilobal (ikipaylı) dilimdir [9,13].

İnterpolasion dilimi dördbucaqlı şəklində planlanan dilimə yaxın ancaq bitişik olmayan qüsura çatmaq üçün rotasiya etdirilir. Bu tip dilimlərin ayaqcıqları ona bitşik toxumanın altından yaxud üstündən keçir. Adaşəkilli dilimlər bu qrupa daxil edilir, onların neyrovaskulyar ayaqcıqları dərinin altında tüneldən keçir.

Tək ayaqcıqlı irəliləmə dilimi dördbucaqlı və ya kvadratşəkilli olub, qüsur sahəsinin kənarından 2 paralel kəsik aparılmaqla qüsura distal ayaqcıqlı dilim düzəldilir. Dilim qüsurun qarşı kənarına doğru irəlilədilərək tikilir. İrəliləmə toxumanın elastikliyi və dilimin aşağısındakı "Burrow" üçbucaqlarının mövcudluğu sayəsində təmin edilir. Bu üçbucaq kəsiklər yara kənarları ilə dilim kənarları arasındakı uzunluq fərqlərini aradan qaldırır [13,19].

İki ayaqcıqlı irəliləmə dilimi qüsurun uzununa oxu paralel kəsik aparılaraq qüsur və kəsik arasındakı toxuma altdan sərbəstləşdirilərək düzəldilir. Dilimin lateral tərəfə hərəkətilə qüsur qapadıldıqdan sonra donor sahəyə dəri transplantatı qoyulur.

V-Y irəliləmə dilimi, dəridə V formasında kəsik aparılır, V hər iki kənarından irəliləyir və kəsik Y formasında qapadılaraq hazırlanır. Burun arakəsməsinin dəri hissəsinin (kolumella) uzadılmasında, sakral dekubital xoraların qapadılmasında, barmağın amputasiyası zamanı onun kötüyünün qapadılmasında geniş istifadə edilir.

Uzaq dilimlər qüsurdan uzaqda planlaşdırılır. Bu dilimlərə birbaşa (direkt), indirekt (dolayı) və sərbəst dilimlər aid edilirlər.

Direkt dilimlər, dilimin donor sahəsi qüsur olan yerə yaxınlaşdırıla bildiyi vəziyyətlərdə istifadə edilir. Bir mərhələdə tez-tez ətrafın hərəkətliliyinin üstünlüyü ilə əlaqədar olaraq, bir ətrafdan digər ətrafa nəql edilirlər. Çarpaz barmaq və çarpaz ayaq dilimləri, ovuc dilimi və qasıq dilimi bu qrupa daxildir [18, 20].

Dolayı dilimlər nadir hallarda istifadə edilən dilimlərdir. Bu dilimlər ya vasitəçi (bilək), ya da miqrasiya ilə nəql edilirlər.

Sərbəst dilimlərdə dəri və dərialtı toxuma, lazım gələrsə digər toxumalar da spesifik arteriovenoz sistemləri ilə birlikdə qaldırılaraq resipient sahəyə transfer edilir. Daha sonra dilimin arteriya və venaları resipient sahənin arteriya və venalarına mikrovaskulyar texnika ilə tikilir.

Baldır nevral ada diliminin baldır fasiokutanal dilimlərlə müqayisə edildikdə 2 əsas üstünlüyü vardır. Birincisi, baldır sinirinin xarici vaskulyar sistemdən damar qidalanmasının olmaması və qonşu fasiokutanal sistemdən perforatorlar olan subkutanal toxuma baxımından kasad olması, ayaqcığını nazik tutmaqla daxil edilməsini asanlaşdırır. İkincisi, bütün sinir boyunca mövcud olan daxili damarlanma səbəbindən, dilimin transpozisiyasında dayaq nöqtəsilə əlaqədar çatışmazlığın olmamasıdır [4,5]. Distal əsaslı baldır fasiokutanal dilimlərdə müəlliflər dayaq nöqtəsinin lateral malleola əz azı 5 sm proksimal yerləşməli olduğunu müdafiə etdikləri halda, bəzi müəlliflər isə dilimin həyat qabiliyyətinin saxlanılması üçün bu məsafənin 10-11 sm olmalı olduğunu iddia edirlər [6,7,8,9]. Zhang və əməkdaşları icra etdikləri tədqiqatda gənc sağlam xəstələrdə əgər lateral malleolar arteriya və lateral kalkaneal arteriya mövcuddursa bu dayaq nöqtəsi lateral malleola 1,5 sm proksimal yerləşdirilə biləcəyini qeyd etmişlər [10]. Bu damarları və dayaq nöqtəsinin müəyyən edilməsində Doppler USM cihazı yardımçı ola bilər. Baldır nevral ada dilimində toxuma defektinin vəziyyətinə görə dayaq nöqtəsi hər hansı bir lokalizasiyada ola bilər. Bizim tədqiqatımızda bu nöqtə lateral malleolun posterior nahiyyəsində yerləşmişdir.

Sərbəst toxuma transferi ilə müqayisə edildikdə baldır nevraı ada diliminin üstünlükləri: dilimin rahat qaldırılması, əsas arteriyaların itirilməməsi, mikrocərrah heyəti və əməliyyatlarına ehtiyacın olmaması, əməliyyat müddətinin qısa olması və bununla da əlaqədar olaraq, qan itirilməsinin minimal olması, dilim donor sahəsində ciddi problemlərin qeydə alınmamasıdır. Üsulun çatışmayan cəhəti isə icra ediləcək rekonstruksiyanın 2 mərhələdə icra edilməsidir.

Distal əsaslı baldır fasiokutanal dilimlərdə əsas problemlərdən biri dilimin ayaqcığının subkutanal tüneldən keçirilərkən təzyiqlə əlaqədar olaraq, periferik arterial çatışmazlıq və venoz hiperemiyanın inkişafıdır. Bizim tədqiqatımızda da əgər dilimin ayaqcığına təzyiq amili qeydə alındısa ayaqcığın tüneldən keçirilməsindən çox açıq saxlanılaraq transplantasiya edilməsinə üstünlük verilmişdir. Bu məqsədlə istifadə edilən transplantların ölçüsü 6-8 sm olmuşdur [15].

Baldır nevral ada dilimi distal baldır əsaslı fasiokutanal dilimlərdə olduğu kimi hissiz dilimdir və baldır sinirinin zədələnməsi ayağın lateral hissəsində hissiyatsızlıqla nəticələnir. Buna baxmayaraq, cərrahi prosedurun ilk mərhələsində proksimala doğru bir neçə sm disseksiya edilərək dəstələnən baldır sinirinin kranial ucu cərrahi proseduranın ikinci mərhələsində medial plantar sinirin bir şaxəsilə koaptasiya olunaraq bu problemin həll edilməsini təmin edə bilir. Aparılmış bəzi tədqiqatlar digər sinirlərin salamat olduğu halda sinirin koaptasiya olunmadan da hissiyat göstərdiyini göstərmişdir [11].

Bəzi müəlliflər dilim donor sahəsinin transplantasiya şərti ilə dilim uzunluğu 12-23 sm, eni 8-16 sm olacaq şəkildə distal əsaslı baldır fasiokutanal dilim qaldırıla biləcəyini qeyd etmişlər [9,13,14,12,15,16]. Transplantasiyadan sonra dilim donor sahəsində əməliyyatdan sonra erkən dövrdə minimal depressiya müşahidə olunur, zaman keçdikcə bu kontur deformasiyası daha az nəzərəçarpan olur. Bəzi hallarda xüsusilə qadın xəstələrdə donor sahədə arzuedilməz şırımlara rast gəlinmişdir [11,13]. Cho və əməkdaşları v.saphena parva üzərində təşkil etdikləri proksimal yerləşmiş baldır dilimlərində, dilimin eni 5 sm-dən aşağıdırsa dilim donor sahəsinin birincili qapadıla bilinəcəyini qeyd etmişlər [17]. Tədqiqata daxil olan xəstələrin ortalama dilim ölçüləri 4,33x11 sm olmuşdur, 13 xəstədən 12-sində dilim donor sahəsi birincili qapadılmışdır, bir xəstədə dilin eni 7 sm olduğu üçün donor sahəsi transplantlanmışdır. Ədəbiyyata nəzər yetirdikdə aparılmış müxtəlif tədqiqatlarda transplantasiyadan sonra transplantatın itirilməsinin müəyyən edilməsində fərqli üsullar zamanı ağırlaşma göstəriciləri 2%-30% arasında dəyişdiyi müşahidə edilir [18,19,20,21,22,23]. Henderson və əməkdaşları aşağı ətraflarda toxuma qüsurlarını aradan qaldırmaq üçün 74 xəstəyə 85 dəri transplantatı tətbiq etmişlər və əməliyyatdan sonra 1, 2 və 6-cı həftənin sonunda transplanatın tutma dərəcəsi də daxil olmaqla transplantasiyadan sonra nəticələri qiymətləndirmişlər. Müəlliflər 20% transplantat itirilməsinin kliniki olaraq əhəmiyyətli olmadığını nəzərə alaraq, tutan transplantat miqdarının 80% və ondan yüksək olması müvəffəqiyyət kimi qiymətləndirilmişdir. Transplantasiya ilə əlaqədar ağırlaşma dərəcəsi bu tədqiqatda 24,7% (85 transplantatdan 22-sində) olduğu müşahidə edilmişdir. 22 xəstədən 17-sində 20%-dən

çox transplantat itirilməsi müşahidə edilmişdir. Transplantatın nekrozu müşahidə edilən xəstələrin 13-ündə səbəb infeksiya olduğu halda, 4 xəstədə səbəbkar amil aşkar edilməmişdir. 22 xəstədən 5-ində transplantatın itirilməsi müşahidə edilmədiyi halda, 4 xəstədə infeksiya, 1 xəstədə hiperqranulyasiya kimi ağırlaşmalar qeydə alınmışdır. Qrup 2-dəki xəstələrin ortalama dilim ölçüləri 8x8,66 sm olub, dilim donor sahəsi 6 xəstənin hamısında toxuma genişləndiricisinin tətbiq edilməsindən sonra birincili qapadılmışdır. Casanov və əməkdaşları aşağı ətrafda toxuma genişləndiricisinin tətbiq edilməsilə əlaqədar olaraq 47%-ə çatan ağırlaşma göstəricisinin müşahidə edilməsini qeyd etsələr də, 4 həftəlik şişirdilmə müddəti boyunca bu xəstələrin heç birində toxuma genişləndiricisi ilə əlaqədar infeksiya, toxuma genişləndiricisinin ekspozisiyası, dilimdə işemiya və qan dövranı pozğunluğu, seroma kimi hallara rast gəlinməmişdir. Gec dövrdə həyata keçirilən müayinələr zamanı isə bu qrupdakı xəstələrin hamısı dilim və donor sahədəki toxuma relyefindən məmnun olmuşdur [4,17].

ƏDƏBİYYAT

1. Akyurek M, Safak T, Sonmez E, Ozkan O, Kecik A. A new flap design: neural-island flap // Plast Reconstr Surg., 2004, v.114, p.1467-77.
2. Sonmez E, Safak T, Kecik A. Gluteus maximus neural-island flap model in the rat // Ann Plast Surg., 2008, v.61, p.325-9.
3. Sonmez E., Ozdemir H., Safak T., Kecik A. A modification of the neural-island flap: 'split neural-island flap // J Plast Reconstr Aesthet Surg., 2009, v.62, p.85-92.
4. Nakajima H., Imanishi N., Fukuzumi S. et al. Accompanying arteries of the cutaneous veins and cutaneous nerves in the extremities: anatomical study and a concept of the venoadipofascial and/or neuroadipofascial pedicled fasciocutaneous flap // Plast Reconstr Surg, 1998, v.102, p.779-91.
5. Yang D., Morris S.F. Reversed sural island flap supplied by the lower septocutaneous perforator of the peroneal artery // Ann Plast Surg., 2002, v.49, p.375-8.
6. Hasegawa M., Torii S., Katoh H., Esaki S. The distally based superficial sural artery flap // Plast Reconstr Surg., 1994, v.93, p.1012-20.
7. Hollier L., Sharma S., Babigumira E., Klebuc M. Versatility of the sural fasciocutaneous flap in the coverage of lower extremity wounds // Plast Reconstr Surg., 2002, v.110, p.1673-9.
8. Jeng S.F., Hsieh C.H., Kuo Y.R. et al. Distally based sural island flap // Plast Reconstr Surg., 2003, v.111, p.840-1.
9. Bocchi A., Merelli S., Morellini A. et al. Reverse fasciosubcutaneous flap versus distally pedicled sural island flap: two elective methods for distal-third leg reconstruction // Ann Plast Surg., 2000, v.45, p.284-91.
10. Zhang F.H., Chang S.M., Lin S.Q. et al. Modified distally based sural neuro-veno-fasciocutaneous flap: anatomical study and clinical applications // Microsurgery, 2005, v.25, p.543-50.
11. Rashid M., Masood T., Hameed S., Sarwar S.R. Superficial sural artery flap: a simple solution for difficult heel defects //JCPSP, 2001, v.11, p.319-23.
12. Noever G., Bruser P., Kohler L. Reconstruction of heel and sole defects by free flaps // Plast Reconstr Surg., 1986, v.78, p.345-52.
13. Yilmaz M., Karatas O., Barutcu A. The distally based superficial sural artery island flap: clinical experiences and modifications // Plast Reconstr Surg., 1998, v.102, p.2358-67.
14. Rajacic N., Darweesh M., Jayakrishnan K. et al. The distally based superficial sural flap for reconstruction of the lower leg and foot // Br J Plast Surg., 1996, v.49, p.383-9.
15. Ayyappan T., Chadha A. Super sural neurofasciocutaneous flaps in acute traumatic heel reconstructions // Plast Reconstr Surg., 2002, v.109, p.2307-13.
16. Jeng S.F., Wei F.C., Kuo Y.R. Salvage of the distal foot using the distally based sural island flap // Ann Plast Surg. 1999, v.43, p.499-505.
17. Cho A.B., Pohl P.H., Ruggiero G.M. et al. The proximally designed sural flap based on the accompanying artery of the lesser saphenous vein. // J Reconstr Microsurg., 2010, v.26, p.501-8.
18. Moisidis E., Heath T., Boorer C.A. prospective, blinded, randomized, controlled clinical trial of topical negative pressure use in skin grafting // Plast Reconstr Surg., 2004, v.114, p.917-22.
19. Hynes P.J., Earley M.J., Lawlor D. Split-thickness skin grafts and negative-pressure dressings in the treatment of axillary hidradenitis suppurativa // Br J Plast Surg., 2002, v.55, p.507-9
20. Llanos S., Danilla S., Barraza C. et al. Effectiveness of negative pressure closure in the integration of split thickness skin grafts: a randomized, double-masked, controlled trial //Ann Surg., 2006, v.244, p.700-5.
21. Penington A.J., Morrison W.A. Skin graft failure is predicted by waist-hip ratio: a marker for metabolic syndrome // ANZ J Surg., 2007, v.77, p.118-20.

22.Davey R.B., Sparnon A.L., Lodge M. Technique of split skin graft fixation using hypafix: a 15-year review // ANZ J Surg., 2003, v.73, p.958-62.

23.Unal S., Ersoz G., Demirkan F. et al. Analysis of skin-graft loss due to infection: infection-related graft loss // Ann Plast Surg., 2005, v.55, p.102-6.

Summary

Влияние типа части голени на жизнеспособность донорской области

Э.Н.Абдуллаев

В исследовании, представленном в 2004 году, была предложена концепция островной части. В экспериментальных исследованиях на лабораторных крысах были определены васкулярная анатомия латерального феморального кутанального нерва и обеспечение кровообращения кожного острова на внутрисосудистом нерве. Из научных исследований большинства авторов стало известно, что тип части голени оказывает действие на жизнеспособность донорской области. Работа автора представляет собой обзор, посвященный изучению данной проблемы.

Summary

Influence of the type of part of the temon on the viability of the donor area

E.N.Abdullayev

In a study presented in 2004, the concept of the island part was proposed. In experimental studies on laboratory rats, the vascular anatomy of the lateral femoral cutin nerve and the provision of blood circulation of the skin island on the intravascular nerve were determined. From the research of most authors, it became known that the type of part of the leg has an effect on the viability of the donor area. The work of the author is a review dedicated to the study of this problem.

Daxil olub: 24.07 2018

UŞAQLARDA ÇƏNƏ SINIQLARI

[1]Ç.R. Rəhimov, [2]E.M. Abdullayev, [1]E.T.Əhmədov

[1]Azərbaycan Tibb Universiteti, [2]Kliniki Tibbi Mərkəz, Bakı

Açar sözlər: çənə, sımıqlar, uşaqlar

Ключевые слова: челюсти, переломы, дети

Keywords: jaws, fractures, children

Üz-çənə nahiyəsinin travmalarının müalicəsi müasir stomatologiyanın və üz-çənə cərrahiyyəsinin aktual problemlərindən biri olaraq qalır [1,2]. Üz-çənə nahiyəsinin zədələnmələri içərisində çənə sınığı xəstələrdə psixoemosional gərginlik və mənəvi sarsıntı yaradır [3]. Əlavə olaraq çənə sınıqlarının vaxtında diaqnostikası və düzgün müalicəsinin vacibliyi müxtəlif araşdırmaların tədqiqat obyekti olmuşdur [2].

Böyüklərdən fərqli olaraq uşaqlarda travmalar nəticəsində çənənin sınması daha da böyük çətinliklər yaradır, çünki böyüyən orqanizmdə çənənin inkişafına travma neqativ patoloji təsir göstərir, həm də çənənin böyümə zonalarına birbaşa təsiri inkişaf pozğunluqları ilə nəticələnir [4].

Üz-çənə nahiyəsində çənə sınıqları digərlərinə nisbətən üstünlük təşkil edir. Bu zədələnmələr müxtəlif səbəblərdən baş verə bilər. Bu zədələnmələr böyüklərlə yanaşı uşaq yaşlarında da olduqca geniş yayılmışdır. Böyüklərdə və uşaqlarda çənə sınıqlarının müalicəsi prinsipcə eyni olsa da, uşaqlarda aparılacaq müalicə zamanı bir sıra faktorları nəzərə almaq lazımdır. Anatomik və fizioloji prinsipləri nəzərə almaq müayinə və müalicədə önəmli bir faktordur [5].

Uşaqlarda üz skeletinin sümükləri daha elastik olduğundan, çənələrdə çıxmamış dişlərin olması və havalı sümüklərin zəif pnevmatizasiyası onları sınıqlara qarşı daha davamlı edir. Çənədə kondilyar, subkondilyar və bucaq nahiyyəsinin sınıqları təqribən 80% təşkil edir. Simfiz və parasimfizdə olan sınıqlar isə 15-20%-ə bərabərdir. Çənə cisminin sınıqlarına isə az rast gəlinir [6].

Uşaqlarda çənə sınıqları kifayət qədər tez-tez rast gəlinir. Belə hallar ən çox 7-14 yaş arası oğlan uşaqlarında müşahidə olunur. Çənə sınıqları uşaqlarda bir çox səbəblərdən ola bilər. Bunlardan ən çox baş verəni yüksəklikdən yıxılma, avtonəqliyyat qəzaları, idman və küçə travmalarıdır. Çənə sınıqları ilə eyni zamanda uşaqlarda bəzən kəllə-beyin travmaları, digər üz skeleti sümüklərinin sınıqları və yumşaq

toxumaların zədələnmələri də baş verə bilər. Çənə sınıqları zamanı ən çox müşahidə olunan şikayətlərə çənədə sınıq nahiyəsində ağrılar, assimetriya, dişləmin pozulması, ağızın açılmasının məhdudlaşması, qida qəbulu və ağızın qapanması zamanı ağrılar, qansızmalar, hematomalar aiddir [7].

Üz-çənə nahiyəsinin travmaları içərisində uşaqlarda heyvanlar tərəfindən alınmış zədələnmələr də kliniki praktikada müşahidə edilir. Uşaqlarda it dişləmələri zamanı ən çox zərər görən nahiyə üz nahiyəsidir. Lakin bu travmalar zamanı üz skeletində sınıqlar da ola bilər. 2 yaşlı qız üz nahiyyəsindən öz iti tərəfindən dişlənərək xəsarət almışdır. Xəstədə sol almacıq sümüyünün və çənənin sol şaxəsinin vertical yerinidəyişmiş sınıqları qeyd olunmuşdur. Kompleks müalicədə titan mini lövhələr ilə osteosintez aparılmışdır. Nəticədə qənaətbəxş olmuşdur. 9 aylıq qız uşağında isə it dişləməsi nəticəsində çənənin sol parasimfiz nahiyyəsində yerini dəyişmiş sınıq baş vermişdir. Açıq üsülu ilə sınıq fragmentlərinin repozisiyası və 1.2 mm ölçülü titan lövhə ilə osteosintez aparılıb. 10 həftə sonra lövhə çıxarılıb [8]. Başqa kliniki vəziyyətdə isə 7 yaşlı uşaqda at vurması nəticəsində çənənin sağ parasimfiz nahiyyəsində yerini dəyişmiş sınıq olub. Ümümi anesteziya altında qapalı repozisiya və fərdi hazırlanmış cap-splint və circum-mandibular wire ilə fiksasiya aparılmışdır [9].

Uşaqlarda çənə sınıqlarının təsnifatlandırılması və ya sinifləndirilməsi diaqnostika və müalicə üçün böyük əhəmiyyətə malikdir. Bunların içərisində çənənin oynaq çıxıntısının sınıqlarına aid təsnifatlar daha çoxdur [10].

Sınıq səviyyəsindən asılı olaraq intracapsulyar və ekstracapsulyar olur. Həmçinin oynaq çıxıntısı sınıqlarının təqribən 80% - i unilateral və 20%-i isə bilateral olur. Yerinidəyişmiş, dəyişməmiş və əyilmə parametləri sınığın ağırlıq dərəcəsini əks etdirir. Sümük fraqmentlərinin yerdəyişməsinin və dislokasiyasının istiqaməti və dərəcəsi tətbiq olunan quvənin istiqamətindən, travma zamanı ağzın açıq və ya bağlı vəziyyətdə olmasından və çənədə digər sınıqların olmasından asılıdır. Çənənin travma zamanı pozisiyasından və lateral qanadabənzər əzələnin aktivliyindən asılı olaraq sınıq fraqmenti yerində qala bilər və ya tam ya da hissəvi yerini dəyişə bilər. Adətən fraqmentlər içəriyə və ya içəri-önə doğru yerini dəyişir. Oynaq başının yerdəyişməsi daha çox uşaqlarda rast gəlinir [11].

Avropa ölkələrində çənənin kondilus sınıqlarının növünün qiymətləndirilməsində Spiessl&Schroll təsnifatından istifadə edirlər. Bu təsnifat belədir:

- yerdəyişməsiz;
- oynaq başının aşağı yerdəyişmiş sınığı;
- oynaq başının yuxarı yerdəyişmiş sınıqları;
- oynaq başının aşağı dislokasiya olunmuş sınığı;
- oynaq başının yuxarı dislokasiya olunmuş sınıqları;
- oynaq başı sınıqları [12].

Son onillikdə isə Lindahl – təsnifatı geniş istifadə olunur [12].

Uşaqlarda çənə sınıqlarının diaqnostikasında adi rengenoqrafiyadan, ortopantomoqrammadan, komyuter tomoqrafiya və onun xüsusi 3D proqramından istifadə olunur. Uşaqlarda çənə sınıqlarında diaqnoz qoymaq çox çətindir. Ona görə ki, uşaqlarla əlaqə yaratmaq həmişə mümkün olmur və uşağın travmaya reaksiyası qeyri-adekvat olur. Həmçinin uşaqlar əsasən çənənin hərəkətinin çətinləşməsini, danışıq və udqunma zamanı ağrının olmasını tez qeyd edirlər. Uşaqdan və ya valideynindən diqqətlə anamnez toplanmalıdır. Sonra isə kliniki müayinə aparılmalıdır. Kliniki müayinə zamanı ağrı əlamətləri, şişkinlik, dişləmin pozulması, hematoma, qanaxma, deviasiya, krepitasiya, o cümlədən, gicgah-çənə oynagı ilə bağlı digər patoloji simptomlar, çənənin hərəkət məhdudluğu və hissiyat pozğunluqları uşaqlarda çənə sınıqları zamanı müşahidə oluna bilər. Cırılmış-əzilmiş və digər xarakterli açıq yaralar varsa mütləq əvvəlcə yaraların birincili cərrahi işlənməsi əməliyyatı aparılmalıdır. Birincili cərrahi işlənmədən sonra çox vacibdir ki, xəstə uşağa peyvənd edilməyibsə yaşına uyğun tetanus əleyhinə zərdab inyeksiya olunmalıdır [13].

Uşaqlarda çənə sınıqların diaqnozunu qoymaq böyüklərə nisbətən daha çətindir. Belə ki, uşaqlarla kontakt yaratmaq hər zaman mümkün olmur və həmçinin uşaqların ağrıya olan reaksiyası da qeyri-adekvat olur. Bundan əlavə uşaqlarda yumşaq toxumaların ödemi böyüklərə nisbətən daha sürətlə baş verir. Bu da palpator müayinəni çətinləşdirir. Buna görə də uşaqlarda çənə sınıqların diaqnozunu ilk bir saat ərzində qoymaq məsləhətdir [13].

Bəzən mürəkkəb situasiyalarda, diaqnozun dəqiq qoyulması çətin olduğu hallarda və müayinəsi bizə dolğun məlumat verməyən zaman komyuter tomoqrafiya da istifadə oluna bilər [13].

Uşaqlarda çənə sınıqların kompleks müalicəsi çox aktual problem olub və müalicə həkimindən böyük təcrübə tələb edir [14]. Müalicə zamanı uşaq orqanizmində çənə sınıqların patogenezinin incə mexanizmləri mütləq öyrənilməlidir. Əlavə olaraq immobilizasiyadan sonra osteoregenerativ patogenetik mexanizmlərin

nəzərə alınmasının vacibliyi böyük müalicəvi rola malikdir. Bununla əlaqədər uşaqlarda çənə sınıqların müalicəsinə aid çoxsaylı elmi tədqiqatlar yerinə yetirilmişdir [7].

Çənə sınıqları zamanı uşaqlarda kompleks müalicə medikamentoz, ortodontik, ortopedik və cərrahi metodlar tətbiq edilir. Sınıq zamanı dişləmdən asılı olaraq immobilizasiya metodlarından−dişüstü şinalardan, maxillo-mandibular sarğıdan və ya mini şinalar ilə bimaksillyar fiksasiyadan istifadə olunur. Yerinidəyişmiş sınıqlar, çənənin çoxsaylı sınıqları çənə boynu və cisminin birlikdə sınığı zamanı osteosintez əməliyyatının aparılmasına göstəriş vardır. Osteosintez əməliyyatının texnikası dişləmin hansı mərhələdə olmasından birbaşa asılıdır. Müalicə sınıq nahiyyəsindən, fraqmentlərin yerdəyişməsinin dərəcəsindən və dişləmin hansı mərhələdə olmasından asılı olaraq planlaşdırılmalıdır [15].

Kondilyar və subkondilyar sınıqlar uşaqlarda daha çox rast gəlinir. Uşaqlarda kondilyar və subkondilyar sınıqların müalicəsi elmi ədəbiyyatda uzun müddət mübahisə movzusu olmuşdur. Müalicənin bir neçə üsulu vardır:

- açıq reduksiya ilə daxili fiksasiya və intermaksilyar fiksasiya;
- immobilizasiya ilə qapalı reduksiya və intermaksilyar fiksasiya;
- immobilizasiyasız erkən çənə hərərkətləri yerinə yetirilməsi [16].

Elmi mənbələrdə çənə sınıqların müalicəsinə aid alqoritmlərin olmasına baxmayaraq hər xəstə fərdi qiymətləndirilməli və müalicəsi diqqətli şəkildə planlaşdırılmalıdır. Həm də verilmiş alqoritmlər də ziddiyyətlidir. Həmçinin sınıqların müalicəsinə aid böyük fikir ayrılıqları mövcüddur. Lakin kompleks müalicənin əsası dişləmin və gicgah-çənə oynağının fizioloji funksiyasının bərpasıdır. Çənədə böyümə gedən zaman oynaq çıxıntısının sınığı və ya gicgah-çənə oynağının ankilozu çənənin birtərəfli inkişafının pozulmasına, üzdə assimetriyaya və qeyri-düzgün dişləmə gətirib çıxardır. Konservativ müalicədən sonra yaranan çeynəmə adaptasiyası kondilusun regenerasiyası hesabına oynağın funksional bərpasına və hətta ciddi yerdəyişmə olan hallarda adaptativ dəyişiklərlə korreksiyaya səbəb olur. Beləliklə oynaq çıxıntısının sınığı olan xəstələr optimal funksiyanın bərpası üçün mümkün qədər erkən həkimə müraciət etməlidirlər. Çünki oynaq qığırdağının hər hansı bir kiçik zədələnməsi çənənin inkişafında patoloji dəyişikliklərlə və yaxud da gicgah-çənə oynağında iltihabi - distrofik proseslərlə nəticələnə bilər [2].

Uşaqlarda çənə sınıqların müalicəsi iki istiqamətdə aparılır. Bunlardan birincisi təcili müalicə, ikincisi isə sınığın fiksasiyası və immobilizasiyasıdır. Travma nəticəsində əmələ gələn ümumi zədələnmələr nəzarət altına alınmalı və müalicə olunmalıdır. İlk öncə yumşaq toxuma zədələnmələrinə müdaxilə etmək lazımdır. Daha sonra xəstənin ümumi vəziyyəti normal olana qədər sümük fragmentləri sadə məftillər ilə dişə dayaq olaraq müvəqqəti fiksə olunur. Bu manipulasiyalar edilən zaman unutmamaq lazımdır ki, uşaqlarda stabilizasiya böyüklərə nisbətən daha sürətli olur. Birincili müalicə zamanı sınığın repozisiyası və immobilizasiyası həyata keçirilir. Bu məqsədlə uşağın yaşı, dişləmin düzgün olub olmaması, dişlərin vəziyyətinə görə ən uyğun müalicə tədbiri seçilir. Konservativ müalicə zamanı şinalar və splintlər tətbiq edilir. Uşaqlarda konservativ müalicənin yalnız bir neçə növündən istifadə olunur. Bu yaşa və dişlərin olmasına görə seçilir. Əgər stabilizasiyanı başqa cür mümkün etmək olmursa bu zaman splintlərdən də istifadə etmək olar. Bunlar mövcud olan dişlərə yapışdırıla və ya məftil ilə bağlana bilər. Ortodontik splintlər sınığın repozisiyasından çox vaxt keçmiş müalicə vaxtı tətbiq edilir [17].

Böyüklərə nisbətən olaraq uşaqlarda bildiyiniz kimi çənə sınıqlarına az rast gəlinir və kliniki xüsusiyyətləri fərqlidir [18]. Üz və kəllə skeletində olan fərqlərə görə müalicə taktikası da fərqlidir. Bir çox pediatrik sınıqlar uşaqlarda metobolizmin və sümüküstlüyündə osteogenezin yüksək olması səbəbi ilə 2-3 həftə ərzində müalicə olunur. Nadir hallarda dişləmin pozulmasının qarşısını almaq üçün iki aydan artıq müddətə şına vasitəsi ilə monomaksilyar immobilizasiyaya göstəriş vardır. Yerdəyişməsiz və dişləm pozulmadan müşaiyət edilən çənə sınıqların konservativ metod daha səmərəlidir. Bu zaman duru qida qəbul edilməli, fiziki aktivlikdən və analgetiklərdən çəkinmək gərəkdir. Yerini dəyişmiş çənə sınıqlarına isə repozisiya və immobilizasiya aparılmalıdır [18]. Simfiz nahiyyəsində olan yerinidəyişmiş sınıqlarda 6 yaşdan sonra daimi kəsicilər çıxdıqda ağızdaxili metoda açıq fiksasiya aparmaq olar. 9 yaşdan sonra köpək dişlərin mayası çənə əsasından çənə kənarına qaldıqda açıq reduksiya və daxili fiksasiya mümkün deyil. Çənənin cismi nahiyyəsində olan sınıqlarda daimi molyar və premolyar dişlərin mayası yuxarıya doğru qalxdıqdan sonra çənənin aşağı kənarında lövhələr ilə fiksasiya vacib sayılır. Çənə sınıqlarının tövsiyə edilən müalicə üsulları aşağıdakılardır:

- 0-2 yaş − dişsiz çənələrin Maclenan şinası ilə müalicəsi;
- 2-4 yaş − yaxşı formalaşmış süd dişlərində Cap şinaları;
- 5-8 yaş − Maclenan, Cap şinaları;
- 9-11 yaş − Cappa şinaları, ortodontik arch bar, lövhələr və liqaturalar [18].

Çənə sınıqları mümkün olan müalicə variantları daxili fiksasiya ilə qapalı reduksiya, sümükdaxili liqatura ilə açıq repozisiya, açıq repozisiya və lövhələr və vidalar ilə daxili fiksasiyadan ibarətdir. Lakin uşaqlarda çıxmamış dişlərin olması və natamam sümükləşmə səbəbi ilə minilövhələr ilə açıq repozisiya çənə sınıqlarında tətbiq edilmir. Burada istisna olaraq çox yerinidəyişmiş sınıqları göstərmək olar. Sorulan lövhələrin tətbiqi ikinci mərhələnin aparılmasını inkar edir. Lakin buna baxmayaraq diş mayalarının zədələnmə riski yenə də mövcuddur. Qarışıq dişləm zamanı sınıq fraqmentlərinin açıq cərrahi yolla bərpası gələcəkdə daimi dişlərin çıxmamasına səbəb ola bilər. Çənə sınıqlarının müalicəsi zamanı uşaqlarda qapalı reduksiya və dişüstü üzəri şınalar ilə fiksasiyası, süd dişində ekvatorun olmaması, hündürlüyünün az olması, köklərin sorulması və natamam çıxmış daimi dişlərin olması ilə əlaqədər fraqmentlərin fiksasiyası çətinlik yaratmaq imkanına malikdir [19].

Müəlliflər 5 yaşdan aşağı uşaqlarda kapsuldaxili oynaq başı sınıqları zamanı 2 həftə müddətinə intermaksilyar fiksasiya, 5 və ondan yuxarı yaşlarda 4 həftə, 8 yaşından aşağı uşaqlarda isə ekstrakapsulyar sınıqlarda 2 həftə ərzində fiksasiya aparıblar. Qapalı reduksiya zamanı fraqmentlərin düzgün oturmaması nəticəsində çənənin inkişafdan qalması, normadan artıq böyüməsi, həmçinin çənə şaxəsinin sağa və ya sola yerdəyişməsi, ağzın açılması zamanı deviasiya sınıq fragmentlərinin qeyri-düzgün reduksiyası zamanı müşahidə edilə bilər. Oynaq çıxıntısının sınıqlarında sınığın səviyyəsindən və fraqmentlərin yerdəyişməsinin dərəcəsindən asılı olaraq tətbiq ediləcəyi planlaşdırılan açıq reduksiyanın fərqli metodları vardır. Ümümi olaraq bura preaurikulyar, postauriculyar, submandibulyar, Risdon, kombinəolunmuş və retromandibulyar cərrahi yanaşmalar aiddır [20].

Körpələrdə sınıqların müalicəsi konservativ və cərrahi olur. Yaşıl budaq tipli sınıqlar zamanı adətən immobilizasiyaya ehtiyac olmur. Daha qəliz sınıqlarda isə açıq və ya qapalı reduksiya üsulundan istifadə olunur [21]. Çox vaxt tövsiyə olunan müalicə üsulu qapalı reduksiya və həlqəvi çənə liqaturası ilə fiksasiya olunmuş şınadır. Bu metod oynaq çıxıntısının inkişafına maneə yaratmır. Lakin tədbiqi məhdudur. Yalnız çənənin ön nahiyyələrində cüzi yerdəyişmə ilə olan sınıqlarda və fiksasiya üçün kifayət qədər dişlər olduqda tədbiq etmək mümkündür. Maksillomandibulyar fiksasiya və arch barın tətbiqinin çatışmayan cəhətlərinə qidalanmanın və oynaq başı inkişafının pozulmasının mümkünlüyü aiddir [21]. Böyük yerdəyişməsi olan sınıqlarda və mobil fraqmentlərdə açıq reduksiya və daxili fiksasiya metodu göstərişdir. Lakin bu üsulda diş mayaları zədələnə bilər. Sümüyün keyfiyyəti və onun qalınlığı, sınıq fraqmentlərinin hərəkətlilik dərəcəsi, çıxmış dişlər və gələcək inkişaf üçün maneə yarada biləcək amillər nəzərə alınaraq müalicə metodu seçilməlidir. Bu cür hallarda cərrah daha az travmatik metodu üstünlük verməlidir. Sınığın müalicəsi yalnız funksiyanın erkən bərpasına yox, həmçinin çənənin gələcək düzgün inkişafına aid olmalıdır [21].

Uşaqlarda oynaq çıxıntısı sınıqlarının müalicəsində hansı metoda üstünlük verilməsi hələ də mübahisəli və ziddiyyətlidir. İlkin mərhələdə cərrahi metodun tətbiqi aşağıdaki kliniki hallarda məsləhət deyil:

- böyük dislokasiya və sınıq fraqmentləri arasında təmas olmadıqda;
- oynaq başının orta kəllə çuxuruna dislokasiyasında;
- çənə üzün orta zonasının çoxsaylı sınıqlarının repozisiyası üçün bazis kimi; istifadə edildikdə [22].

Cərraha kömək edən ən vacib faktorlar xəstənin yaşı, çənədə dişlərin olması, sınığın yeri və deformasiyanın dərəcəsindədir. Oynaq çıxıntısı sınığında yaş faktorunun rolu çox əhəmiyyətlidir. Çünki kiçik yaşlarda kondilyar və subkondilyar sınıqlar qeyri-cərrahi metodla müalicə oluna bilər. Bundan əlavə sümüyün boyümə potensialını da vurğulamaq yerinə düşər. Edentuloz- tam və hissəvi adentiya zamanı yalnız ayrıca oynaq sınıqlarında təkcə liqatura ilə müalicəni aparmaq olar. Oynaq başının deviasiyası 45 dərəcədən çox olan kliniki vəziyyətdə açıq reduksiya aparılmalıdır. Oynaq sınıqlarında rigid fiksasiya funksiyanın tez bərpasını təmin edən üsuldur [23].

Uşaqlarda çənə sınıqlarına aid elmi-tibbi ədəbiyyatın öyrənilməsi və analizi təsdiqlədi ki, çoxsaylı dəyərli elmi-tədqiqatlar və araşdırmalar aparılıb. Kompleks müalicədə yeniliklər olunub [18]. Lakin bütün bunlara baxmayaraq bu problemdəki məsələlər hələ tam öz həllini tapmayıb. Həmçinin üz-çənə cərrahiyyəsində mürrəkəb və aktual məsələlərdən biri də çənə sınıqları ilə olan xəstə uşaqların müalicəsində optimal variantın seçilməsidir.

Aparılmış elmi tədqiqatlara baxmayaraq uşaqlarda çənənin travmatik zədələnmələrinin müalicəsinin fərqli metodlarının müqayisəli analizi aparılmayıb, əlavə olaraq uşaqlarda müxtəlif yaş grupplarında çənənin müxtəlif nahiyyələrinin sınıqları zamanı tam dəqiq müalicə taktikası işlənilməyib. Həmdə uşaqlarda çənə sınıqlarının effektiv diaqnostik və səmərəli müalicə alqoritmi hələ də hazırlanmayıb. Tədqiqatların uğurlu nəticələrinə baxmayaraq, bu problem öz aktuallığını itirməmiş və yeni səmərəli, effektiv müalicə metodlarının axtarışına perspektivlər açmışdır.

ƏDƏBİYYAT

1. Seyidbəyov O.S., Bunyatov M.O., Həsənova G.F. Aşağı çənənin zədələnməsinin onun anatomik quruluşunun xüsusiyyətlərindən asılı olaraq biomexanikası. Sağlamlıq, 2011, № 5, səh. 41-45
2. Əhmədov E.T. Gicgah-çənə oynağının xroniki artritlərinin və artrozlarının patogenetik müalicəsi. Tibb üzrə elmlər dok. dissertasiyası, Baki, 2009, 382 s.
3. Həsənov F.Ə. Kükürdtərkibli sərbəst aminturşuların çənə sınıqları zamanı sümük toxumasının regenerasiyası prosesinə təsiri. Tibb üzrə fəlsəfə dok. diss. ... aftoreferatı // 14.00.21 – stomatologiya, Baki-2001, 26 s.
4. Брагина В.Г., Горбатова Л.Н. Травма челюстно-лицевой области у детей // Экология Человека, 2014, 02, стр. 20-24
5. Виноградова А.В., Кешикова И.А. Анатомо-физиологические особенности строения челюстно-лицевой области ребенка в различные возрастные периоды // Методическое пособие для врачей-интернов, врачей-ординаторов, Иркутск, 2008, 59 с.
6. Abhishek Kh., Manohar B., Anupama Sh., Rajesh Sh. Management of symphisis and parasymphisis mandibular fractures in children treated with Maclenan splint: stability and early results. 2015; 8(2): p. 127-132
7. Akbulut N., Tümer M., Ertem S. Çocuklarda kondil kırıklarında konservatif yaklaşım: bir olgu sunumu. Cumhuriyet Dent J., 2014, 17(3): 291-295
8. Wheeler J., Phillips J. Pediatric facial fractures and potential long-term growth disturbances. Craniomaxillofacial trauma and reconstruction, 2011; 4: p. 43-52
9. Divesh S., Gauba K., Goyal A., Rattan V. Comprehensive management of pediatric mandibular fracture caused by an unusual etiology. African Journal of Trauma, Jan-Jun 2014; 3(1): p. 39-4
10. Markal N., Çelebioğlı S. Mandibula kondil kırıkları ve tedavi yaklaşımları. Ankara Üniversitesi Tıp Fakültesi Mecmuası, 2000, 53(1): 39-42
11. Thorén H., Iso-Kungas P., Lizuka T., Lindqvist Ch. et al. Radiologic changes of the temporomandibular joint after condylar fractures in childhood. Oral Surg Oral Med Oral Pathol Oral Radiol Endod., 1998; 86: p. 738-45
12. Nishioka G., Larrabee W., Murakami C., Renner G. Suspended circummandibular wire fixation for mixed-dentition pediatric mandible fractures. Arch Otolaryngol Head Neck Surg., 1997; 123: p. 753-758
13. Семенов М.Г. Переломы нижней челюсти у детей, Из-ва "Человек", Санкт-Петербург, 2012, 36 с.
14. Demirdöver C., Şahin B., Ataseven M., Özkan H. ve diqer. Bir yıl içinde opere edilen 124 mandibula fraktürü olgusunun geriye dönük incelenmesi. Turk Plast Surg., 2009, 17(3): 145-148
15. Hardt N. The treatment of mandibular fractures in children. Journal of Cranio-Maxillo-Facial Surgery, 1993; 21: p. 214-219
16. Leuin Sh., Frydendall E., Gao D., Chan K. Temporomandibular joint dysfunction after mandibular fracture in children. a 10-year review. Arch Otolaryngol Head Neck Surg., 2011; 137(1): p. 10-14
17. Tavares C., Allgayer S. Conservative orthodontic treatment for a patient with a unilateral condylar fracture. American Journal of Orthodontics and Dentofacial Orthopedics, 2012; 141(5): p. 75-84
18. Харитонов Д.Ю., Тихонов Е.В. Зависимость тяжести повреждения костей лица у детей от обстоятельств возникновения травмы // Вест. Новых Медицинских Технологий, 2014; 1: стр. 1-3
19. Kishore V., Gourab D., Shukla B., Kumar Sh. Pattern of pediatric mandibular fracture in central india Sumit Verma. IOSR, Journal of Dental and Medical Sciences. Vol. 14, Issue 12, Ver. V (Dec. 2015), p. 37-44
20. Aurélio S., Gonçalves A., Navarro C., Vieira E. et al. A six-year retrospective study of maxillofacial fractures from radiographic findings in Brazil. RFO, Passo Fundo, 2013; 18(1): p. 49-54
21. Deleyiannis F., Vecchione L., Martin B., Jiang Sh. et al. Open reduction and internal fixation of dislocated condylar fractures in children: Long term clinical and radiologic outcomes. Annals of plastic surgery, 2006; 57(5): p. 495-501
22. Gupta H., Pradhan R., Sinha V., Gupta S. et al. Management of mandibular fracture in a medically compromised pediatric patient. National Journal of Maxillofacial Surgery, 2010; 1: p. 139-142
23. Çelebioğlu S., Erbaş O., Şahin Ü., Civelek B. ve diger. Subkondiler mandibula kırıklarında açık reduksiya ve eriyebilir plak-vida ile tedavi. Türk Plast Rekonstr Est Cer Derg., 2006, 14(3): 159-163

Резюме

Перелом нижней челюсти у детей

Ч.Р. Рагимов, Э.М. Абдуллаев, Э.Т.Ахмедов

Лечение травм в челюстно-лицевой области является актуальной проблемой в современной стоматологии и челюстно-лицевой хирургии. Среди травм челюстно-лицевой области переломы нижней челюсти создают у пациентов психоэмоциональное напряжение и душевное потрясение. В отличие от взрослых переломы нижней челюсти создают большие сложности, так как в растущим организме травма оказывает негативное патологическое воздействие, и в тоже время непосредственное воздействие на зоны роста приводит к нарушениям развития. В тоже время своевременная диагностика и правильное лечение переломов нижней челюсти улучшает исход лечения. Несмотря на проведенные научно-исследовательские работы, не был произведен сравнительный анализ различных методов лечения, а также не разработана тактика лечения переломов нижней челюсти в зависимости от локализации перелома в различных возрастных группах. На сегоднешний день не разработан алгоритм лечения и диагностики переломов нижней челюсти у детей.

Summary

Pediatric mandibular fractures

Ch.R. Rahimov, E.M. Abdullayev, E.T.Ahmadov

The treatment of injuries in the maxillofacial area still the one of actual problems in modern dentistry and maxillofacial surgery. Among the injuries of the maxillofacial region, fractures of the mandible creats psycho-emotional stress and emotional distress in patients. Comparing to adults pediatric mandible fractures are more complicated, as if pathologically affects the growing organism. Early diagnosing and correct treatment of mandible fractures makes the treatment outcomes successful. Despite the fact that there is a lot of scientific researches. There was no comparing analysis of different treatment approaches. And there is no algorithm in treatment according to the fracture localization and according to the age group. In the present there is no treatment algorithm of pediatric fractures.

Daxil olub: 25.07 2018

HƏRBİ QULLUQÇULAR ARASINDA VƏRƏM XƏSTƏLİYİ ƏLEYHİNƏ PROFİLAKTİK TƏDBİRLƏRİN APARILMASININ XÜSUSİYYƏTLƏRİ

S.B. Əhmədov[1], RX.Bayramov[2]

Silahlı Qüvvələrin Ağciyər Xəstəlikləri Hospitalı[1];
DİN Daxili Qoşunların Hərbi Hospitalı[2]

Açar sözlər: vərəm, hərbi qulluqçu, əksepidemik tədbirlər, sosial profilaktika

Ключевые слова: туберкулез,военнослужащие,противоэпидемический**,** мероприятия, социальная профилактика

Key words: tuberculosis,militaries,antiepidemic measures,social prophylaxis

Vərəm xroniki gedişli,klinik təzahürlərin dəyişkənliyi, müxtəlif üzvlərin ,xüsusən də tənəffüs orqanlarının zədələnməsi ilə səciyyələnən bütöv orqanizm xəstəliyidir.Vərəm xəstəliyi bir çox ölkələrdə xəstələnmə və ölüm hallarının əsas səbəblərindən biri olaraq qalır və bütün dünyada ictimai səhiyyənin böyük problemidir [1,2].

Ümumdünya səhiyyə təşkilatının (ÜST) verdiyi məlumata əsasən vərəm xəstəliyi dünyada ölüm hallarının doqquzuncu aparıcı səbəbi olub, 2016-cı ildə 10.4 mln. insanın vərəmlə xəstələnmə halları, QİÇS neqativ xəstələrin arasında 1.3 milyon ,QİÇS pozitiv xəstələr arasında 374 min vərəmlə ölüm halları qeydə alınmışdır və onlardan ən çox (45%) Cənubi-Şərqi Asiyanın payına düşür [3]. Bütün dünyada vərəmin epidemiologiyasında əsas risk faktorlarından biri vərəm mikobakteriyalarının (VMB) dərmanlara rezistentliyinin getdikcə artması və belə ştamların yayılması sayılır [4].

Çoxsaylı dərmanlara davamlı (ÇDD/ VM) xəstələnmə halları olan ölkələr Çin, Hindistan və Rusiya Federasiyasıdır(47%). 2015-ci ildə dünyada 580 min nəfər ÇDD/VM vərəm xəstəsi kimi qeydiyyata götürülsə də, onlardan 125 min (20%) nəfəri lazımi müalicəyə cəlb edilməmişdir. Bu xəstələrin

müalicəsindəki çatışmamazlıqlar 60%-halda 5 ölkənin payına düşür: Hindistan, Çin, Rusiya, İndoneziya və Nigeriya (ÜST, 2016**).** ÜST-nın verdiyi məlumata əsasən 2016-cı ildə Azərbaycan Respublikasında 2.4 min (hər 100 min əhaliyə 25) ÇDD/VM ilə xəstələnmə halı qeydə alınmışdır [3].

Ölkəmizdə vərəmlə əlaqədar epidemioloji vəziyyətin gərginləşməsi bir sıra faktorlarla əlaqəlidir:vərəmli xəstələrin gec aşkarlanması,xəstələrin qeyri- adekvat müalicə alması,xəstənin müalicəsinə ciddi nəzarətin olmaması və müalicənin yarımçıq kəsilməsi,vərəm xidmətində idarələrarası əlaqələrin zəif olması,qeyri-adekvat müalicə nəticəsində dərmana davamlılığın yaranması [4].

Müasir dövrdə vərəmin profilaktikası dedikdə, tibbi və sosial istiqamətlərdə aparılan tədbirlər kompleksi başa düşülür. Bunlar da çox yüksək qiymətləndirilir. Dünyanın aparıcı alimlərinin fikrinə görə ölkədə vərəmə görə epidemik vəziyyətin 80%-i sosial-iqtisadi, siyasi (əhalinin qidalanması, həyat şəraiti və iş, cəmiyyətdə stabillik, sülh və ya müharibənin olması, miqrasiya prosesləri, təbii fəlakətlər və qəzalar və s.), 20%-i isə səhiyyənin vəziyyəti, tibbin səviyyəsi, o cümlədən vərəm əleyhinə tədbirlərin payına düşür[5].

Vərəmlə mübarizə xəstələrin erkən və vaxtında aşkarlanması, onların tam müalicəsi, profilaktik tədbirlərin həyata keçirilməsi, əhali arasında sanitariya-maarifləndirici işlərin təşkili və aparılması nəticəsində mümkün olur [6,7,8]**.**

Vərəm xəstəliyinin yaranması və yayılması sosial-iqtisadi şəraitlə sıx əlaqəlidir.Hərbi münaqişələr və əhalinin yoxsulluğu;iqtisadi böhran,yaşayış şəraiti və qidalanmanın çatışmamazlığı,yaşayış və əmək şəraitinin qeyri-qənaətbəxş olması,əhalinin həddindən artıq sıxlığı əsas əhəmiyyət kəsb edir. Təhsil və mədəniyyət səviyyəsinin aşağı olmasının da mənfi rolu var. Xəstəlik çox zaman yeniyetmə və gənclərdə ilkin vərəm kompleksinin əmələ gəlməsi şəklində özünü göstərir [1,9].

Tarixən vərəm xəstəliyi həm sülh, həm də münaqişələr dövründə hərbi kollektivlər arasında yayılmış bir xəstəlik olmuşdur.Hərbi qulluçuların məhdud mühitlərdə yaşaması, yığcam məskunlaşması, sanitar-gigiyenik şəraitlərin eyniliyi, vərəm üçün endemik ərazilərdə yerləşdirilmə ehtimalı, təlim və əməliyyatlar zamanı stressli fəaliyyətlərin həyata keçirilməsi şəxsi heyət arasında vərəm xəstəliyinin ötürülmə riskini artıra bilən amillərdən bir neçəsidir. Bu da vərəm xəstəliyinin hərbi aktuallığını artırır. Hərbi qulluqçular arasında vərəm sönmüş köhnə ocaqların yenidən aktivləşməsi nəticəsində və ya gənc nəslin hərbi xidmətə çağırışları zamanı adaptasiya müddətində baş qaldıra bilər. Vərəm xəstəliyinin xüsusilə ağciyərdənkənar vərəmin vaxtında aşkarlanmasının çətinliyi VMB-nın yayılmasına, vərəmlə tək-tək və ya qrupşəkilli xəstələnməyə, vərəm xəstəliyinin epidemik alovlanmalarına gətirib çıxara bilər [10].

Vərəm xəstəliyi hərbi hissələrdə çoxsaylı xəstəlik ocaqlarının yaranması təhlükəsi,şəxsi heyətin döyüş qabiliyyətinin itirilməsi,hərbi qulluqçuların səhhətinə görə hərbi xidmətə yararsızlıqla ordudan tərxis edilməsi ilə səciyyələnir.Açıq formalı vərəmli xəstələr infeksiyanın aktiv mənbəyidir.Belə xəstə ilə əsgər yataqxanasında,yeməkxanada,döyüş mövqelərində və s.təmasda olan bütün şəxsi heyət üçün yoluxma ehtimalı yüksəkdir.Odur ki,xəstəlik mənbəyinin vaxtında aşkar edilməsi və əksepidemik tədbirlərin kompleks şəkildə icrası müstəsna əhəmiyyət kəsb edir.Hərbi qulluğun birinci ilində gizli keçən vərəm prosesinin ordu həyatı şəraitində üzə çıxması,çəki defisiti və immunitet zəifliyi olan yeni xidmətə gələnlərin bu xəstəliyə daha çox meyilliliyindən doğur.Hərbi kollektivlərdə aktiv vərəm xəstəliyi aşkar edildikdə ,xəstəliyin əleyhinə yönəlmiş tibbi profilkatika və əksepidemik tədbirlər çərçivəsində şəxsi heyətin məskunlaşma,qidalanma,əmək və istirahət şəraiti diqqətlə öyrənilməli, müvafiq sağlamlaşdırıcı tədbirlər həyata keçirilməlidir. Bununla bağlı hərbi hissələrdə epidemioloji sayıqlıq tələb edən cəhət,ekstremal mühitdə,hərbi qulluğun birinci 3-6 ayı ərzində fiziki,mənəvi,psixi yükləmələrə cavab dezadaptasiya reaksiyası olaraq orqanizmdə ilkin vərəm ocaqlarının fəallaşması,infeksion prosesin kəskinləşməsinin müşahidə edilməsidir [1,11].

Vərəm əleyhinə profilaktik tədbirlərdən biri risk qruplarının müayinəsi aiddir.Hər bir ölkənin özünəməxsus risk qrupları vardır və onların tərkibi və xüsusiyyətləri zamanla dəyişir.Fəal vərəmin yaranma riski müharibə və ya iqtisadi böhran zamanı ilə müqayisədə nəzərəçarpacaq dərəcədə azdır.Risk qruplarına orduya yeni çağırılmış hərbiçilər də daxildir [12]. Nəzərə almaq lazımdır ki, hərbi xidmətdə intensiv fiziki gərginlik, qidalanmanın stereotipinin dəyişikliyi, kazarma şəraiti, psixo-emosional gərginlik, iqlim şəraitinin və coğrafi faktorların neqativ təsiri, səhra şəraitində döyüş hazırlığı, təlimlər və sairə kimi əlverşsiz amillərdən ibarətdir. Sadalanan faktorların uzun müddətli təsiri xroniki ekoloji–peşə gərginliyinə gətirib çıxarır. Bu da orqanizmin adapitasion reaksiyasının pozulmasına səbəb olur, immun sisteminin zəifləməsi və infeksion xəstəliklərə o cümlədən vərəm xəstəliyinə meyililiyi artırır.Vərəm infeksiyasının əsasən aerogen yolla ötürülməsi hərbi qulluqçulrın kompakt yerləşməsinə görə problemin aktualığını artırır. Buna görə də hərbi kollektivlərdə vərəm əleyhinə kompleks tədbirlərin aparılması, profilaktikası və infeksiyanın hərbi kollektivlərdə yayılmasının qarşısının alınması böyük əhəmiyyət kəsb edir [14,15].

Bu kimi tədbirlər hərbi qulluqçuların yaşayış, məişət, əmək şəraitinin və istirahət rejiminin yaxşılaşdırılması, tənəffüs orqanlarının xəstəliklərinin vaxtında aşkar edilməsi, qidalanmanın keyfiyyət və kəmiyyət nöqteyi nəzərdən yaxşılaşdırılması, idman və bədən tərbiyəsinin kütləvi şəkildə inkişaf etdirilməsi, və zərərli vərdişlərlə (siqaretçəkmə) mübarizə, sanitar və ekoloji normaların gözlənilməsi, sosial risk qrupları arasında vərəmin yayılmasının qarşısının alınması istiqamətinə yönəldilir [5].

Безносик Р.В., Гришин В.К., Савицкий Г.Г. apardıqları tədqiqatlar göstərmişdir ki, 60,6-67% hərbi qulluqçular 12 aya qədər, 31,9-32,1%, 6 aya qədər xidməti zamanı ağciyər vərəmi xəstəliyinə tutulma halları rast gəlinir. Bununla da 12 aylıq xidmətə keçməklə xəstəliyin 30-40% azalması ehtimalı haqda düşünməyə əsas var [16].

Hərbi kollektivlərdə planlı tədbirlərin vaxtında və keyfiyyətli yerinə yetirilməsi gələcəkdə vərəmlə xəstələnmə hallarını kəskin şəkildə azalmasına səbəb olur. Planlı tədbirlərə əsasən aşağıdakılar daxildir:

- Vərəmli xəstələrin erkən dövrdə aktiv aşkarlanması
- Vərəmlə xəstələnmə riski yüksək olan hərbi qulluqçulara tibbi nəzarət
- BCG –ilə revaksinasiya olunmuşlara nəzarət
- Çağrışlararası dövrdə vərəmli xəstələrin hərbi kollektivlərə daxil olmasının qarşısının alınması
- Xüsusi tapşırıqları yerinə yetirilməsi zamanı tibbi təchizat
- Qeydiyyat və hesabat əsasında vərəm əleyhinə görülən tədbirlərin effektivliliyinin təhlili
- Hərbi kollektivlərdə aktiv vərəm aşkar olunduqda vaxtında və keyfiyyətli əks-epidemik tədbirlərin aparılması. Erkən aşkarlanma, erkən diaqnostika və erkən rasional müalicə hesabına profilaktika vərəmlə effektiv mübarizədə əsas amillər olduğunu nəzərə alaraq vərəm ocaqlarının yaranma səbəblərinin elmi araşdırılmasına ehtiyac olmasını zəruri edir [13,17].

Hərbi hissələrdə də vərəm əleyhinə tədbirlər aparılmalıdır. Qarşıda duran əsas vəzifələr vərəmə şübhəli simptomları olan, vərəmə meyilli olan şəxslərin dinamik nəzarətə götürülməsi və hər bir vərəm halının aşkarlanması, hərbi hissələrdə aparılan əksepidemik tədbirlərin bir daha nəzərdən keçirilərək, nöqsanların aradan qaldırılmasını tələb edir. Əksepidemik tədbirlərin kompleks şəkildə aparılması, hərbi hissələrdə sanitar-epidemioloji vəziyyətin stabil saxlanmasını təmin edə bilər [14].

Hərbi kollektivlər arasında vərəm xəstəliyi ilə mübarizənin profilaktik tədbirləri üç əsas bölmədən ibarətdir:

1. Hərbi qulluqçular arasında vərəm xəstəliyinin birincili profilaktikası
2. Hərbi qulluqçular arasında vərəm xəstəliyinin ikincili profilaktikası
3. İnfeksion nəzarət

Hərbi qulluqçular arsında vərəm xəstəliyinin birincili profilaktikası

Ümumdünya Səhiyyə Təşkilatının terminologiyasına görə sosial profilaktika (birincili profilaktika) "sağlamlığa təsir edə biləcək neqativ faktorların öncədən xəbər verilməsi, sağlamlığın qorunması və möhkəmləndirilməsi istiqamətində aparılan tədbirlər toplusu" kimi başa düşülür. Qoşunlarda hərbi qulluqçuların sağlamlığının qorunub saxlanması və möhkəmləndirilməsi istiqamətində sosial profilaktika rolunu komandanlığın daxili intizama nail olunması istiqamətinə yönəldilmiş fəaliyyəti, xidmət şərtlərinin, şəxsi heyətin yerləşdirilməsi, qidalanmasının yaxşılaşdırılması, idman və bədən tərbiyəsi oynayır. Bütün bunlar orqanizmin tənəffüs orqanları xəstəliklərinə qarşı müqavimətini artırır və bununla da vərəmin yaranma ehtimalını aşağı salır [5,18].

Vərəmli xəstələrin hərbi kollektivlərə nüfüz etməsinin qarşısının alınması;

- hərbi komissarlıqlarda çağrışa qədərki və çağrış dövründə gənclərin tibbi müayinəsi zamanı vərəmli xəstələrin aşkar edilməsi. Vaxtında aşkar olunmayan xəstələr, infeksiyanı hərbi kollektivlərdə asanlıqla yayır. Buna görə də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən keyfiyyətli müayinələr aparılmalı və belə xəstələr "hərbi xidmətin girişində" aşkarlanmalıdır.
- vərəmli xəstələrin erkən dövrdə aktiv aşkarlanması , hərbi qulluqçuların müntəzəm hər 6 aydan bir profilaktik flüoroqrafik müayinədən keçirilməsi ağciyər vərəminin aktiv aşkara çıxarılmasına səbəb olur. Birlik və birləşmələrdə xidmətə yeni gəlmiş hərbi qulluqçuların genişləndirilmiş ilk tibbi müayinəsi,döş qəfəsinin flüoroqrafiyası və ezamiyyətdən və məzuniyyətdən hərbi hissəyə qayıtmış şəxslərin tibbi müayinədən keçirilməsi
- şəxsi heyətin məskunlaşdırılması , məişət şəraiti və qidalanmasında sanitariya-gigiyena tələblərinin gözlənilməsi
- hərbi qulluqçuların fiziki hazırlığının və orqanizmi möhkəmləndirmə tədbirlərinin düzgün təşkili.Yoluxmamış gənc əsgərlərdə vərəm xəstəliyinə qarşı immunitetin yaradılması
- hərbi hissəyə yeni gəlmiş bütün şəxsi heyətə tuberkulin sınağı (əks-göstəriş olan şəxslərdən başqa) ilk iki həftə müddətində yerinə yetirilməli və nəticələri tibb kitabçalarına qeyd olunmalıdır.Tuberkulinə

reaksiyası mənfi olan hərbi qulluqçular yerindəcə BCG (Bacillus Calmette –Guerin) ilə revaksinasiya olunur,reaksiyası müsbət olanlar revaksinasiya olunmur. Əsasən vərəm xəstəliyi ilə mübarizədə vaksinasiya üçün BCG istifadə olunur.BCG öküz tipli vərəm basillərdən (Mycobacterium bovis)hazırlanmış ,patogenliyi itmiş,virulentliyi zəiflədilmiş,vərəm əleyhinə diri vaksindir.Həmin basil xüsusi qidalı mühitdə yetişdirildiyinə görə insan üçün öz virulentliyini itirmişdir.Həmin vaksin vərəmə qarşı güclü və etibarlı vasitə sayılmır, çünki vaksinasiya olunmuş insanın vərəmə yoluxmaq və xəstələnmək ehtimalı qalır [5,19].BCG vərəm meningiti və vərəmin yayılmış formalarının rast gəlinmə tezliyini azaldır,ancaq vərəmin digər formaları ilə xəstələnmə və vərəm residivlərinin inkişafına az təsir göstərir[20].

Yuxarıda qeyd olunan səbəblərə əsasən BCG vaksinasiyasının vərəmin yayılmasına təsirini qiymətləndirmək çətindir. BCG vaksinasiyasından sonra vərəmin ağır formaları və ya letal nəticələr müşahidə olunarsa Azərbaycan Respublikası Səhiyyə Nazirliyi 09 oktyabr 2003-cü il tarixli 133 saylı "Azərbaycan Respublikasında Vərəm əleyhinə tədbirlərin təkmilləşdirilməsi barədə" əmrinə uyğun olaraq tədbirlər görülür.[21]

- Son illərin vacib məsələlərindən biri də müqavilə əsasında xidmət edən hərbi qulluqçuların ərazi prinsiplərinə əsaslanaraq komplektləşdirilməsidir. Müqavilə əsasında xidmət edən hərbi qulluqçular öz yaşadığı ünvana yaxın məsafədə olması hərbi xidmətin şərtlərinə adaptasiyası, psixoloji stress, iqlim şəraitinin və coğrafi faktorların neqativ təsirlərinin aşağı olması ilə nəticələnir. Onu qeyd etmək lazımdır ki, məhz çağırışçıların adaptasiya prosesinin aşağı keçməsi, xüsusən də "yüksək risk qrupuna" daxil olan şəxslərin ağciyər vərəmi ilə xəstələnməsinə gətirib çıxarır[5].
- Şəxsi heyət arasında gigiyenik biliklərin təbliği.

Vərəm xəstəliyi üçün endemik olmayan zonalarda hərbi qulluqçular arasında kütləvi olaraq əsasən diaqnostik triada istifadə olunur:

1)Məlum olan xəstələrlə konktakta olanlara

2) Müsbət tuberkulin testi,diaskin testi, İGRA (qamma-interferon əsasında olan testlər)

3) vərəmin rentgenoloji əlamətləri [21].

Şübhəsiz ki, qoşunlarda vərəm xəstəliyi ilə bağlı bütün problemlərin öhdəsindən sosial profilaktika gələ bilməz. Hər il vərəm xəstələrinin 40%-i məhz xidmətdən əvvəl bu xəstəliyə tutulanlardır. Həmin xəstələr səhvən ordu sıralarına göndərilir və bir qismi dərin müayinələrdən sonra, digər qismi isə xidmət illəri ərzində aşkara çıxarılır [16].

Hərbi qulluqçular arasında vərəm xəstəliyinin ikincili profilaktikası

Vərəmlə xəstələnmə riski yüksək olan hərbi qulluqçuların dispanser müşahidəsinin aparılması;

- hərbi xidmətə çağrılana qədər keçirilmiş ağciyər xəstəliklərindən sonrakı qalıq əlamətləri olanlar,rentgenoqramlarda qranulomatoz dəyişikliklər,ağciyərlərində, plevra və ya döşdaxili limfatik düyünlərində dəyişiklikləri olanlar
- çağrışa qədərki son iki ildə və çağrış zamanı aktiv vərəmli xəstə ilə təmasda olanlar
- vərəmə şübhəli xəstəliyi olanlar (subfebril,residiv verən quru plevrit,tez-tez keçirilən respirator xəstəliklər,təkrarı pnevmoniyalar,xroniki bronxitlər və sairə)
- tuberkulinə hiperergik reaksiya göstərən hərbi qulluqçular kimyəvi proflaktikaya cəlb olunurlar və tuberkulinə yüksək həssaslığın səbəbindən araşdırılması üçün ftiziatırın məsləhətinə göndərilirlər. Tuberkulinə hiperergik reaksiyası və ya BCG peyvəndinə əks-göstərişi ,tuberkulin reaksiyasının virajı olanlar
- fiziki cəhətdən və ya qidalanması zəif olanlar, və zərərli vərdişləri olanlar (siqaretçəkmə) [23].

Passiv aşkarlanmanın yüksək səviyyədə tətbiqi üçün ilkin tibbi yardım mərhələsinə müraciət edənlər arasında risk qruplarının düzgün seçilməsi mühüm əhəmiyyət kəsb edir və bu seçim ftiziatriyanın aktual problemi olaraq qalır [24].

Kimyəvi profilaktika -preventiv terapiya yoluxmanın qarşısının alınmasıdır.Kimyəvi profilaktikanın (KP) əsas məqsədi latent infeksiyasının proqressivləşməsi və onun fəal xəstəlik formasına keçməsinin qarşısının alınmasıdır [13]. KP-yə başlamazdan əvvəl vərəmin fəal formasının inkar edilməsi üçün tam klinik, bakterioloji və rentgenoloji müayinənin aparılması mütləqdir. İzoniazidlə aparılan KP-nın 3-6 ay müddəti optimal sayılır [25,26,27,28]. İzoniazidə güman edilən rezistentlik hallarında rifampisinlə aparılan 4 aydan artıq olmayan müalicə alternativ rejim kimi qəbul oluna bilər.VM –nin dərmanlara qarşı həssaslığı təyin edildikdən sonra KP aparılmalıdır. KP vərəm mikobakterialarının dərmana həssaslığı nəzərə alınmaqla təyin edilir.VM-nin çoxsaylı dərman rezistentliyinə meyilliliyi olduğu hallarda KP aparılmır [13].

İn vivo və in vitro sınaqları yoluxmanın və vərəmin aktiv formasının inkişafının qarşısının alınmasında KP-nin yüksək effektivliyini göstərir [27,28] .Bəzi hallarda Mantu reaksiyası "mənfi" olan insanlara da KP

təyin edilir: vərəmli xəstə ilə təmas olanlara,yoluxma və infeksiya inkişafının risk faktorlarının olduğu hallarda.

VM-nın yüksək dərman rezistentliyi hallarında KP:

İzoniazidə qarşı rezistentlik olduqda kontakda olan insanlarda (şəxslərdə) həmin preparatla KP effektsizdir.Bu həm də VM-nin digər vərəm əleyhinə preparatlarına rezistent olduğu hallarda keçirilməlidir. Buna görə də VM-in dərman rezistentliyi haqqında məlumatlar mövcud hallarda KP üçün həssaslığı saxlanılan dərman preparatları istifadə edilməlidir.Əgər dərman rezistentliyi haqqında məlumat yoxdursa,asas rejim təyin edilir. ÇDD VM ilə vərəmli xəstələrlə təmasda olan insanlar şəxslər, yoluxma və gizli vərəm riski olanlar müntəzəm müşahidə ,müayinə edilməli, fəal vərəmin inkişaf etdiyi halda mütləq olaraq hospitalizasiya olunmalıdır.

ÇDD VM ilə təmasda olanlara müayinələr əsasən aşağıdakı qaydada aparılır:

- təmasdan tam 2 ay keçdikdən sonra Mantu sınağının aparılması.Vərəm ocaqlarında ocağın birinci müayinəsi zamanı.
- sonra -2 il ərzində hər 6 aydan bir Mantu sınağının aparılması
- mantu reaksiyası müsbət olduğu hallarda (viraj) 2 il ərzində hər 6 aydan bir klinik,bakterioloji və rentgenoloji müayinələr aparılır.
- rengenoqramalarda patoloji dəyişikliklər və bəlğəmin müayinəsində müsbət bakterioloji nəticələr olduğu halda ÇDD VM –li fəal vərəm xəstələrinə təcili kimyəvi terapiyanın başlanılması üçün əsas sayılır

İnfeksion nəzarət. İnfeksion nəzarət tədbirləri insanların uzun müddət yerləşdiyi otaqdaxili sahədə vərəmə yoluxmanın qarşısını alınmasından ibarətdir.Çox vacib olan faktı nəzərə almaq lazımdır ki,bakteriyanın ilkin ifraz müddətindən xəstəliyin başlamasına qədər ,adətən 2-3ay vaxt ötür. Bu müddət ərzində xəstəliyə həssas olan və xəstə ilə təmasda olan insanlar ,hətta hər hansı profilaktik tədbirədək çatdırmayaraq , xəstəliyə artıq yoluxurlar.Buna görə də, vərəmli xəstələrin izolyasiyası VM ilə yoluxmuş və vərəmin sonradan inkişaf edən aktiv formasının olduğu insanların sayını azaltmır.

İnfeksion nəzarət üzrə tədbirlərin əsas məqsədini fərqləndirmək lazımdır:

- Vərəmli xəstələrdən sağlam insanlara vərəmin yoluxmasının qarşısının alınması
- Vərəmli xəstələr arasında vərəm mikobakteriyasının dərmanlara rezistent formalarının ötürülməsinin qarşısının alınması.

İnfeksion nəzarətin əsas tədbirləri əsasən aşağıdakılardır:

İnzibati tədbirlər

- Müalicə müəssisələrinin daxilində yüksək yoluxma riski daşıyan zonaların müəyyən edilməsi (YYRZ)
- hospitalizasiyaya ehtiyacı olanların müalicəsinin bir nəfərlik infeksion boks tipli palatalarda aparılması
- xəstə növü (ilkin aşkar olunmuş ,əvvəllər müalicə alanlar) və VM –nin dərman rezistentliyə əsaslanaraq vərəm müəssəsinin daxilində profillərə ayrılması

Texniki tədbirlər:

- Otaqların və YYRZ –nin təbii ventilyasiyasından effektiv istifadəsi
- YYRZ –də mexaniki ventilyasiyanın quraşdırılması
- YYRZ-nin havanın ultra –bənövşəyi şüalandırılması üçün lazım olan avadanlıqla təmin edilməsi

Fərdi tədbirlər:

- Tibbi personalın xüsusi respiratorlardan istifadə etməsi(PFR95,N 95)
- Xəstələrin cərrahi maskalardan istifadə etməsi [13].

İnfeksion nəzarət tədbirləri 4 səviyyədə aparılır-idarə,inzibati,ətraf mühitin vəziyyətinə nəzarət səviyyəsində (texniki nəzarət) və tənəffüs orqanlarının fərdi mühafizəsi səviyyəsində [29]. Son illər vərəm törədicisinin nozokomial transmissiyası hallarına daha çox diqqət yetirilir.Molekulyar-genetik araşdırmalar vərəm şöbələrində müalicədə olan pasiyentlərin çoxsaylı çarpaz yoluxma hallarını, elecə də çoxsaylı dərmana davamlı vərəmə (ÇDD-VM) yoluxma hallarını təsdiqləyir. Müalicəyə başlayan zaman birinci və ikinci sıra dərmanlara həssas vərəmli xəstələrin hospitaldaxili dərmanlara davamlı vərəm mikobakriaları ilə yoluxmasıdır.Epidemiyaya qarşı tədbirlər-infeksiyaya xəstəxanadaxili yoluxma ilə mübarizəyə yönəlmiş tədbirlərdir.Vərəm müəssisələrinə hospitalizasiyaya həm ilk dəfə aşkarlanmış vərəmli xəstələr ,həm də xroniki vərəm xəstələrin çoxu məruz qalır. Başqa sözlə uzun müddət ərzində eyni palatada hər bir yeni aşkarlanmış xəstənin yanında əvvələr vərəmdən müalicə almış ən azı bir xəstə olur. VMB-nın dərmana davamlılığı (DD) səviyyəsi əvvələr müalicə almışlar arasında ilk dəfə aşkarlanmışlardan 2-3 dəfə yüksəkdir.Bu səbəbdən ,vərəm müəssisələri daxilində intensiv şəkildə yoluxma prosesi və müvafiq olaraq, DD-nın formalaşması gedir.Buna görə ,vərəm xəstələrinin VMB-nın DD ştamları ilə xəstəxanadaxili yoluxması ilə mübarizədə infeksion nəzarət böyük əhəmiyyət kəsb edir.

Vərəm infeksiyasının xəstəxanadaxili yayılma yollar

- Xəstə -tibb işçisi
- Patoloji material-tibb işçisi
- Xəstə-xəstə

Xəstəxanadaxili transmissiyanın ən təhlükəli yolu-tibb işçisinin xəstədən yoluxması və patoloji materialla iş zamanı professional yoluxma riskidir. [29].

Hərbi kollektivlərdə aktiv vərəm xəstəliyi aşkar olunduqda aşağıdakı tədbirlər həyata kecirilir:

- hərbi qulluqçu təcili izolyasiya olunur və müalicə üçün hospitalizasiya olunur :
- ocağın epidemioloji müayinəsi
- ocaqda cari və yekun dezinfeksiya tədbirləri
- vərəm xəstəliyinin profilaktikasına dair şəxsi heyətlə sanitariya maarifi işi aparılması.

Ocağın epidemioloji müayinəsi

-xəstəlik mənbəyinin müəyyənləşdirmək üçün xəstə ilə məqsədli sorğu aparmaq, epidemioloji anamnez toplamaq və yoluxma mənbəyi ola biləcək şəxslərin aşkara çıxarılması

- vərəm infeksiyanın yayılmasına təsir edən şəraitin və yoluxdurucu amilləri araşdırılması

-vərəm ocaqlarında xəstələnmiş şəxslə yaxın kontakların müəyyənləşdirilməsi (o cümlədən hərbi kollektivlərdən kənarda) və müvafiq siyahı tərtib etmək.

-kimyəvi profilaktikaya ehtiyacı olan hərbi qulluqçuların müəyyən edilməsi

-vərəm ocaqlarında kontakların və risk qruplarının müayinəsi üçün alqoritm sxemi tərtib edilir.

Ocaqda yoluxma mənbəyi olan VM ifraz edən xəstədə vərəm mikobakterialarının vərəm əleyhinə dərmanlara həssaslığının müayinə edilir.Ocaqda olan bütün şəxslərin ilkin müayinəsi tuberkulin sınaqları ilə başlayır.Aktiv vərəm istisna etmək məqsədi ilə mantu reaksiyası"müsbət"olan insanlarda rentgenoloji müayinələr aparılır.Aktiv vərəm prosesi müəyyən edilmiş xəstə ilə kontaktda olmuş "mənfi" mantu reaksiyası olan şəxslərə təkrar tuberkulin sınaqları hər 6 aydan bir aparılmalıdır və 1 il müddətində davam etdirilməlidir [5,13].

Ocağın epidemioloji müayinənin nəticələrinə görə yoluxucu xəstəliyin epidemioloji müayinə kartı tərtib olunur.Epidemik müayinənin materiallarına əsaslanaraq vərəm xəstəliyinin yayılması və köhnə vərəmin aktivləşməsinin qarşısını almaq üçün konkret tədbirlər görülür.Hərbi kollektivlərdə aktiv ağciyər vərərmi aşkar olunarsa vərəm əleyhinə görülən bütün tədbirlər araşdırılmalıdır. Bu zaman hərbi kollektivlərdə spesifik profilaktikanın aparılması, vərəmli xəstələrin aktiv aşkar olunması ilə yanaşı şəxsi heyətin yerləşdiyi şəraiti, onların qidalanması və peşə zərərləri aydınlaşdırılmalıdır.Epidemioloji müayinə mərhələsində başa çatmayan tapşırıqlar kontaktda olanlara nəzarət prosesində davam etdirilir

Ocaqda dezinfeksiya tədbirləri. Cari dezinfeksiya izolyatorda və təxliyəyə qədər xəstə saxlanılan otaqlarda aparılır (kazarmada, yeməkxanada, vərəmli xəstə olduğu izolyatorda). Xəstənin hospitalizasiyasına qədər yerləşdiyi otaqda yekun dezinfeksiya işləri [13].

Beləliklə araşdırılan ədəbiyyat mənbələrindən bəlli olur ki ,hərbi qulluqçular arasında vərəm əleyhinə aparılan profilaktik tədbirlərin effektiv aparılması: ilk növbədə çağırışlar zamanı hərbi kollektivlərə vərəmli xəstələrin qəbul edilməsinə yol verməməlidir.Vərəmlə xəstələnmə ehtimalı yüksək olan şəxslərin qrup şəklində seçilməsi.Müddətli hərbi qulluğa yenigəlmişlər ilk 2 həftə ərzində tibbi və flyuoroqrafik müayinələrdən keçməli,Mantu sınağı qoyulmalı,tuberkulinə qarşı mənfi və şübhəli reaksiya olan şəxslərdə BCG ilə revaksinasiya aparılmalıdır. Sonraki hərbi qulluq müddətində ildə iki dəfədən az olmayaraq müayinələri təkrarlamaq lazımdır.

Vərəm ocaqlarında intensiv iş aparılması, kontakt və risk qruplarının müayinə

- hərbi xidmət müddətində xəstələnənlər erkən aşkarlanmalı və müalicəyə cəlb olunmalıdır
- latent formaların diaqnostikası və onların müalicəsi

-xəstəxanadaxili çarpaz infeksiyanın qarşısının alınması [17,30].

Nəticə. Hərbi qulluqçular arasında vərəm problemi müasir dövrdə də aktual olaraq qalır.İlk növbədə hərbi hissələrə vərəmli xəstələrin daxil olunmasının qarşısı alınmalı,hərbi xidmət müddətində xəstələnənlər aktiv şəkildə aşkarlanmalı,sağlam səxslərin yoluxmasının qarşısını almaq üçün tədbirlər həyata keçirilməlidir.Hərbi hissələrdə vərəm xəstəliyi üzrə sanitar-epidemiloji salamatlığa vərəməleyhinə tədbirlərin kompleks şəkildə icrasi nəticəsində nail olmaq olar.

ƏDƏBİYYAT

1.Hərbi epidemiologiya (dərs vəsaiti). Bakı, 2004, s.245-247

2.Реализация стратегии ВОЗ Остановить туберкулез. Справочник для национальных программ борбы с туберкулезом. 2008, с.3

3.Word Health Organization Global Tuberculosis Report, 2016; WHO/Global Tuberculosis Report, 2017

4.Vərəm əleyhinə tədbirlərin həyata keçirilməsində iştirak edən tibb işçilərin üçün rəhbərlik. Bakı. 2013, 11s.

5. Мучаидзе Р.Д., Данцев В.В., Шитов Ю.Н. Социальная профилактика туберкулёза в вооружённых силах Российской Федерации // Туберкулез и болезни легких,.2015, №3, с.6-9

6.Cicchese J.M., Pienaar E., Kirschner D.E., Linderman J.J. Applying optimization algorithms to tuberculosis antibiotic treatment regimens // Cell Mol Bioeng., 2017, v.10(6), p.523-535

7. Kaur D., Mathew S., Nair C.G.S., Begum A. Structure based drug discovery for designing leads for the non-toxic metabolic targets in multi drug resistant Mycobacterium tuberculosis // J Transl Med. 2017, v.15(1), p.261

8.Leung C.C., Chee C.B.E., Zhang Y. Tuberculosis updates 2018: Innovations and developments to end TB // Respirology, 2017, Dec 21

9. Перельман М.И., Богадельникова И.В. Фтизиатрия. М., 2013, с.42.

10. Bloom B.R., Murray C.J. Tuberculosis commentary on a re-emergent killer // Science. 1992, v. 257, p. 1055-1064

11.Azərbaycan Respublikası Silahlı Qüvvələrində vərəm əleyhinə profilaktik və əksepidemik tədbirlər.2014, s.26-27

12.Vərəm xəstələrinin aşkarlanması üzrə klinik protokol. Bakı, 2010, s.23-24

13.Vərəmin profilaktikası üzrə klinik protokol. Bakı, 2012, s.7

14.Организация и проведение противотуберкулёзных мероприятий в Вооружонных Силах Республики Беларусь. Фёдоров С.Е., Кривонос П.С. 432 ордена Красной Звезды главный военный клинический медицинский центр Вооружонных Сил Республики Беларусь, Минск, Беларусь. Беларусский государственный медицинский университет, 2018, с.116

15. Данцев В.В., Карпущенко В.Г., Болехан В.Н.и др. Направления совершенствования профилактическойработы в группе военнослужащих с повышенным риском заболевания туберкулезом // Вестник российкой военно-медицинской академии, 2016, с.100

16. Безносик Р.В., Гришин В.К., Савицкий Г.Г. Заболеваемость туберкулёзом военнослужащих по призыву в современных условиях // Воен.-мед. журн., 2012, №3, с.3-9

17. Rəhmanov N.Ə, Məmmədbəyov E.N.ƏN Pentensiar xidmət müəssisələrində azadlıqdan məhrum edilmiş şəxslər arasında vərəmin müayinə və müalicə metodlarinin təkmilləşdirlməsi. Bakı, 2012

18. Противотуберкулёзная помощ населению. Глоссарий, ВОЗ, 2003, с.152

19. National Collaborating Centre for Chronic Conditions.Tuberculosis: clinical diagnosis and management of tuberculosis and measures for its prevention and control-London / Royal College of Physicians, 2006 p.117

20. BCG Vaccine WHO position paper// Weekly epidemiological record, 2004, No4, v.79, p.27-36

5. Macfarlane J., Holmes W., Macfarlane R., Britten N. Influence of patients' expectations on antibiotic management of acute lower respiratory tract illness in general practice: questionnaire study // BMJ. 1997, v.315, p.1211-4.

6. Maruyama T., Taguchi O., Niederman M.S. et al. Efficacy of 23-valent pneumococcal vaccine in preventing pneumonia and improving survival in nursing home residents: double blind, randomised and placebo controlled trial // BMJ, 2010, v.340, p.1004.

7. Moberley S.A., Holden J., Tatham D.P., Andrews R.M. Vaccines for preventing pneumococcal infection in adults // Cochrane Database Syst Rev, 2008, v.1

8. Mykietiuk A., Carratala J., Dominguez A. et al. Effect of prior pneumococcal vaccination on clinical outcome of hospitalized adults with community-acquired pneumococcal pneumonia // Eur J Clin Microbiol. Infect Dis., 2006, v.25, p.457-462.

9. Ochoa-Gondar O., Vila-Corcoles A., Ansa X. et al. Effectiveness of pneumococcal vaccination in older adults with chronic respiratory diseases: results of the EVAN-65 study // Vaccine, 2008, v.26, p. 1955-1962.

10.Schappert S.M. Ambulatory care visits to physician offices, hospital outpatient departments, and emergency departments: United States, 1997. Vital and Health Statistics. Series 13, No. 143. Hyattsville, MD: U.S. Department of Health and Human Services, Centers for Disease Control and Prevention, National Center for Health Statistics; 1999. DHHS publication no. (PHS) 2000-1714.

11.Skull S.A., Andrews R.M., Byrnes G.B. et al. Prevention of communityacquired pneumonia among a cohort of hospitalized elderly: benefit due to influenza and pneumococcal vaccination not demonstrated //Vaccine, 2007. v.25, p.4631-4640.

Резюме

Количественные и качественные показатели микроорганизмов в зависимости от степени тяжести бронхита и пневмонии

М.Х. Алиев, Ш.А.Ибаева

В результате исследования из 12 в 11 случаях наблюдался высокий уровень α-гемолитического стрептококка в острой фазе заболевания при бронхите, что составило 91,7% пациентов. В биологических образцах 10 больных в острой фазе бронхита были обнаружены виды Neisseria, что составляло 83,3% лиц с острым бронхитом. В ранний период выздоровления виды Neisseria в биологических образцах выявлялись в идентичном количестве случаев.

Summary

Quantitative and qualitative indicators of microorganisms depending on the severity of bronchitis and pneumonia

M.H. Aliyev, Sh.A.Ibayeva

As a result of the study, of 12 in 11 cases, a high level of α-hemolytic streptococcus was observed in the acute phase of the disease with bronchitis, which accounted for 91.7% of patients. In biological specimens of 10 patients in the acute phase of bronchitis, Neisseria species were detected, which accounted for 83.3% of persons with acute bronchitis. In the early recovery period, Neisseria species in biological samples were detected in an identical number of cases.

Daxil olub: 14.08 2018

GİNEKOLOJİ ENDOMETRİAL XƏRÇƏNGDƏ PARAAORTAL LİMFA DÜYÜN METASTAZININ QİYMƏTLƏNDİRİLMƏSİ

Ə.M.İbrahimov[1], Ə.T Əmiraslanov[1], Nejat Özgül[2]

[1]Azərbaycan Tibb Universiteti, Bakı; [2]Hacıtəpə Universiteti Tibb Fakultəsi, Ankara

Açar sözlər: endometrial xərçəng, paraaortal limfa, diaqnostika, metastaz
Ключевые слова: эндометриальный рак, парааортальная лифа, диагностика, метастаз
Keywords: endometrial cancer, para-aortic lymph, diagnosis, metastasis

Qadınlar arasında endometrial xərçəngin (uşaqlıq xərçəngi) diaqnostikası və müalicəsi müasir onkoginekologiyanın vacib problemlərindən biridir. Endometrium xərçəngi inkişaf etmiş ölkələrdə qadınlarda ən çox rast gəlinən ginekoloji xərçəngdir. Son zaman lar yeni texnologiyaların tətbiqi nəticəsində bu patologiyanın diaqnostikasında və müali cəsində müəyyən nəticələr əldə edilsə də, bu problemin bir sıra məsələlərinin həlli hələ də öz aktuallığını itirməmişdir. Endometrial xərçəng qadınlar arasında ən çox rast gəli nən ginekoloji xərçəng xəstəliklərindəndir. ÜSTməlumatında göstərilir ki, 2008-ci ildə təxminən

287,100 qadına endometrial xərçəngi diaqnozu qoyulmuşdur [1]. Hər bir qa dında həyatı boyu endometrium xərçənginin inkişaf riski 2,6%-dir. Bu xəstəlik yaş həddi yuxarı olan qadınlarda postmenopauza dövründə daha çox müşahidə edilir.Endo metrium xərçəngi diaqnozu qoyumuş 1101 xəstənin pelvik və paraaortal limfa düyün lərinin metastazı (LDM) vacıb proqnostik faktor hesab edilmişdir [4]. Bunlarla yanaşı erkən mərhələdə endometrial xərçəngli xəstələrində limfa düyünlərinin qiymətləndirmə sində seçilən yanaşma olduqca mübahisəli bir məsələ olaraq qalmaqdadır. LDM yayıl ma nisbəti, şişin mərhələsi və differensiasiya dərəcəsinə görə dəyişir. Yaxşı differensiasi ya edilmiş və səthi invaziyaya malik faktlarda xəstəlik riski 3-5 % olduğu halda, pis dif ferensiasiya edilmiş və dərin invaziyaya malik faktlarda isə bu risk yüksələrək 20 % təşkil edir [2]. Piylənmə risk faktorlarından olub,ölüm riskini artırır [18]. Bədən kütlə indeksinin (BKİ) hər 5 kq/ m^2 artması xəstəliyin inkişaf riskini təxminən 1,5 dəfə artırır və gənc yaşlarda (<45 yaş) yaranan bu xəstəliklə BKİ arasında əlaqə mövcuddur [8,9,10]. Endometrial xərçəngində istifadə olunan üsullardan biri də limfa vəzisi biop siyasıdır [3]. Bu xəstəliyi olan qadınlarda şübhəli limfa düyünü olub-olmamasından asılı olmayaraq, bəzi mütəxəssislər təkrarlanan limfa düyününün disseksiya edilməsini mütləq şəkildə tövsiyə edirlər [5,6]. Orta və yüksək dərəcəli risk əlaməti daşıyan xəstə qruplarında tətbiq olunan paraaortal limfadenektomiyanın sağqalma müddətininin artma sına kömək etdiyini göstərən məlumatlar var. Buna baxmayaraq ədəbiyyatda endo metrium xərçəngində təcrid edilmiş paraaortal LDM ilə əlaqədar ziddiyyətlər vardır. Təcrid edilmiş paraaortal LDM vermə tezliyi və risk faktorlarının müəyyənləşdirilməsi baxımından çox əhəmiyyətlidir. Endomet rialonkoloji törəmənin vaxtında aşkar olun ması və xarak terinin müəyyən edilməsi xəstəliyin müalicə taktikasının seçilməsində müstəsna rol oynayır [1]. Bunlar yeni diaqnostika üsullarının tədqiqinin vacib olduğu nu göstərir [5].

Tədqiqat işinin **məqsədi** endometrial karsinoma mərhələsi müəyyən edilmiş xəstələrdə LDM vermə tezliyi və təcrid edilmiş paraaortal LDM-ın təyin edilməsi və limfadenektomiyanın vacibliyinin öyrənilməsi olmuşdur.

Tədqiqatin material və metodları. Tədqiqat işinə Hacıtəpə Universiteti Tibb fakultəsi Qadın Xəstəlikləri və Gine kologiya şöbəsinin Ginekoloji-Onkoloji şöbəsində 2000-2015 illər ərzində cərrahi müa licə tətbiq olunan endometrium xərçəngi olan paraaortal limfadenektomiya edilən və endometrioid növ endometrial xərçəngə görə bütün mərhələləri (Total Abdominal Histerektomiya + İkitərəfli Salpinqooforektomiya+ İkitərəfli Çanaq- Paraaortal-Limfadenektomiya + Sitologiya) öyrənilən 417 xəstələr daxil edilmişdir.

Hacıtəpə Universitetinin Qeyri-invaziv Kliniki Tədqiqatlar Etik Komitəsinin elmi və etik rəyi alındıqdan sonra tədqiqata başlanılmışdır.Tədqiqata daxil olmaq üçün tələb edilən şərtlər.Endometrioid histoloji növ şiş,I-III histoloji dərəcələr,Pelvik və paraaortal limfa düyününün disseksiyası.Tədqiqata daxil olmayan xəstələr: Paraaortal limfa düyü nünün disseksiyası edilməyən xəstələr,qeyri-endometrioid histoloji növ xəstələr. Kliniki-Patoloji Məlumatlar-Xəstələrin kliniki-patoloji məlumatları Hacıtəpə Universite tinin kompüter bazasından əldə edilərək retrospektiv iş formatında reallaşdırıldı. Bütün prosedurlar ginekoloq-onkoloqlar tərəfindən aparılmış dır. Bütün xəstələrə ümumi abdominal histerektomiya, ikitərəfli salpinqooforektomiya, sitologiya, paraaortal limfa denektomiya tətbiq olunmuşdur.Paraaortal limfa düyünü disseksiyası aorta bifurka siyasından başlayaraq yanda parakaval və paraaortal limfatik toxumaların,yuxarıda isə sol renal damarlara qədər olan bütün limfatik toxumaların çıxarılmasını əhatə etmişdir. Endometrium xərçəngi olan xəstələrdə periton sitologiyası , kliniki-patoloji xüsusiyyət ləri, yaşı, histoloji alt tipi, FIGO təsnifatına əsasən mərhələsi, miometrial invaziyanın dərinliyi, şişin ölçüsü, LVAI, servikal tutulma,adneksal tutulma və LDM qiymət ləndirilmişdir.Statistik analiz Windows(IBM SPSS Inc., Chicago, IL) üçün SPSS (Statistical Package for Social Sciences) 20 proqramı vasitəsilə aparılmışdır. Statik analizdən $p<0,05$ dəyəri qəbul edilmişdir.

Cədvəl 1

2005-2009-cu illərdə endometrial xərçəngin yaşa görə tezliyinin dəyişməsi

Yaş (il)	Tezlik (%)
20 -34	1,5
35- 44	6,0
45 – 54	19,0
55-64	32,6
75-84	22,6
85 və 85-dən yuxarı	13,5


Alınmış nəticələr və onların müzakirəsi. Total abdominal histerektomiya, ikitərəfli salpinqo-ooforektomiya (TAH + BSO), sitologiyanın alınması və pelvik + paraaortal limfa denektomiya tətbiq olunan ümumi 417 xəstə tədqiqat işinə daxil edilmişdir. Həmin xəstələrin yaş həddi 26-86 ara sında dəyişmişdir.Orta yaş həddi isə 58,8±10,1 il olmuşdur. 2005-2009-cu illərdə aparı lan tədqiqata görə endometrial xərçəngin yaş bölgüsü 1-ci cədvəldə verilmişdir.

Cədvəl 2
Xəstələrin demoqrafik və patoloji məlumatları


Göstəricilər	**Xəstələrin sayı=417**
Yaş (il)	58,8±10,1
>60	178 (42,6)
≤60	239 (57,4%)
Menopauza vəziyyəti: Premenopauza	82 (19,7%)
Postmenopauza	335 (80,3%)
FIGO təsnifatı I mərhələ	246 (59,0%)
II mərhələ	117 (28,0%)
III mərhələ	46 (11,0%)
Otoliz	8 (2,0%)
Limfa vaskulyar invaziya: Vardır	96 (23,0%)
Yoxdur	321 (77,0%)
Primer şişin ölçüsü (sm): ≤2cm	127 (30,5%)
> 2cm	290 (69,5%)
Servikal vəzili tutulma: Yoxdur	312 (74,8%)
Vardır	105 (25,2%)
Servikal stromal tutulma: Yoxdur	353 (84,7%)
Vardır	64 (15,3%)
Miometrial invaziya: Yoxdur	50 (12,0%)
Mİ<1/2	186 (44,6%)
Mİ>1/2	181 (43,4%)
Limfa düyünü tutulması: Müsbət	48 (11,5%)
Mənfi	369 (88,5%)
Pelvik limfa düyünü tutulması: Müsbət	43 (10,3%)
Mənfi	374 (89,7%)
Paraaortal limfa düyünü tutulması: Müsbət	22 (5,3%)
Mənfi	395 (94,7%)
Peritoneal sitologiya: Müsbət	24 (5,8%)
Mənfi	393 (94,2%)
Omentumun tutulması: Müsbət	10 (2,4%)
Mənfi	407 (97,6%)

Xəstələrin demoqrafik və patoloji məlumatları cədvəl 2-də verilmişdir. Cədvəl 2-dən göründüyü kimi premenopauzal xəstə 19,7% (82 xəstə), postmeno pauzal xəstə isə 80,3%-dir (335 xəstə). I dərəcəli xəstə 59% (246 xəstə), II dərəcəli xəstə 28,1% (117 xəstə), III dərəcəli xəstə isə 11%-dir (46 xəstə). Xəstələrin 1,9%-ində (8 xəstə) otolizə görə dərəcəni müəyyənləşdirmək mümkün olmamışdır. 50 xəstədə şiş endometriumla məhdudlaşmışdır (12%). 186 xəstədə (44,6%) < 50% səthi invaziya, 181 xəstədə (43,4%) isə dərin invaziya müşahidə edilmişdir. Şişin ölçüsü üçün sərhəd dəyəri 2 sm qəbul edilmişdir. Xəstələrin 30,5%-ində (127 xəstə) şişin ölçüsü 2 sm və daha kiçik, 69,5%-də (290 xəstə) isə 2 sm-dən böyük olmuşdur. Xəstələrin 23%-də (96 xəstə) LVAI pozitiv, 77%-də (321 xəstə) isə mənfidir. Servikal vəzili tutulma olan xəstələr 25,2 % (105–dər), tutulma olmayan xəstələr isə 74,8% (312 xəstə) müəyyənləşdirildi (cəd.2). Servikal stromal tutulma olan xəstələr 15,3% (64 xəstə), olmayan xəstələr isə 84,7 % (353 xəstə). pelvik LDM müsbət olan xəstələr 10,3% (43 xəstə), mənfi olan xəstələr isə 89,7% (374 xəstə) aşkarlanır. Paraaortal LDM olan xəstələr 5,3% (22 xəstə), olmayan xəstələr isə 94,7% (395 xəstə) təşkil etmişdir. Paraaortal LDM olan 22 xəstənin 17-də pelvik və paraaortal limfa düyünlərinin tutulması müşahidə edildiyi halda, 5 xəstədə isə sadəcə təcrid edilmiş paraaortal LDM müəyyən edilmişdir. Buna görə də 417 xəstədə təcrid edilmiş paraaortal LDM yayılması 1,19% təşkil etmişdir. Xəstələrdən çıxarılan pelvik limfa düyünlərinin sayı orta

hesabla 24 (3-90 arasında), paraaortal limfa düyünlərinin sayı orta hesabla 5 (1-50 arasında), limfa düyünlərinin ümumi sayı isə 30 (5-108 arasında) olmuşdur. Ümumi limfa düyünlərinin sayı 10-dan az olan xəstələr 2,6% (11nəfər) olmuşdur. Xəstələrin 2,4%-ində (10 xəstə) omentumun tutulması pozitiv, qalanlarında isə neqativ (97,6%, 407 xəstə) olmuşdur. 24 xəstədə (5,8%) sitologiya pozitiv, 393 (94,2%) xəstədə isə neqativdir. LDM xəstələrin 11,5%-də (48 xəstə) müsbət, 88,5%-də (369 xəstə) isə mənfidir (Cədvəl2). 5 xəstədə (1,2%) təcrid edilmiş paraaortal, 17 xəstədə pelvik və paraaortal birlikdə, 26 xəstədə isə sadəcə pelvik LDM olmuş. Endometrium xərçənginin ən çox yayılan simptomu xəstələrin 75-90 %-də rast gəldiyimiz uşaqlıqda baş verən anormal qanaxmadır. Bu xəstəlikdən diaq nozu qoyulanların 70-80%-də xəstəlik I mərhələdə, xəstələrin20%-də qonşuor qan və limfa düyünlərinə invaziyası, 8%-də isə kənar orqanların metastazı müşahidə olunmuşdur. Bütün xəstələrdə pelvik+paraaortal limfa düyünü disseksiyası həyata keçirilmişdir.



Şək.1. Servikal tutulma növlərinə aid paraaortal LDM nisbətləri




Şək.2. Pelvik LDM varlığına əsaslanan paraaortal LDM nisbəti

Paraaortal LDM nisbəti III mərhələdə olan xəstələrdə (15,2%), I-II mərhələdə olan xəstələrə nisbətən daha yüksək olmuşdur (3,9%; p<0,005) (şək.1). Primer şişin ölçüsü 2 sm-dən böyük olan xəstələrdə paraaortal LDM nisbəti (6,9%) primer şişin ölçüsü 2 sm-ə bərabər və yaxud kiçik olan xəstələrə nisbətən (1,6%) daha yüksəkdir. Servikal vəzin tutulması olan xəstələrdə paraaortal LDM nisbəti servikal vəzin tutulması olmayan xəstələrdə daha yüksək idi (12,4% ilə müqayisədə 2,9%; p<0,001) (şək.1). Servikal stromal tutulması olan xəstələrdə paraaortal LDM nisbəti (14,1%) olmayanlarla müqayisədə daha yüksəkdir (3,7%) (şək.1). Dərin miometrial invaziyası olan xəstələrdə (9,4%) dərin miometrial invaziya olmayanlara nisbətən paraaortal LDM daha yüksək dir (2,1%). Peritoneal sitologiyası müsbət olan xəstələrdə paraaortal LDM nisbəti (16,7%) mənfi olanlara nisbətən daha yüksək idi (4,6%; p<0.001). Adneksal tutulma olan xəstələrdə paraaortal LDM nisbəti(19,4%) olmayanlarla müqayisədə daha yüksəkdir (4,1%; p<0.001). LVAİ olmayanlara nisbətən LVAİ olan xəstələrdə paraortal LDM nisbəti daha yüksək idi (15,6% ilə müqayisədə 2,2%; p<0,001).Pelvik LDM olan xəstələrdə (39,5%) pelvik LDM olmayan xəstələrə nisbətən paraaortal

LDM nisbəti daha yüksəkdir (1,3%; p<0.001) (şək.2). Paraaortal LDM olan xəstələrin (22 xəstə) 2-də təkrarlanma aşkar edilmişdir. Müşahidə müddətində hər iki xəstə sağ qalmışdır.

Paraaortal limfa düyünü tutulması olan xəstələrin 22,7%-də (5 xəstə) təcrid edilmiş paraortal LDM aşkar edilmişdir. III mərhələdə olan xəstələrdə I-II mərhələdə olan xəstələr ilə müqayisədə təcrid paraoartal LDM nisbətinin yüksək olduğuna dair statistik əhəmiyyət tapılmadı (4,3% ilə müqayisədə 0,8%; p=0,099). Primer şişin diametri 2 sm-dən çox olanxəstələrin 1,7%-də təcrid edilmiş paraoartal LDM aşkar edilmişdir. İzolyasiya edilmiş paraaortal LDM olan bütün xəstələrdə birincil şişin diametrinin 2 sm-dən çox olduğu aşkar edilmişdir. Servikal qrandulyar tutulma, servikal stromal tutulma və təcrid edilmiş paraaortal LDM arasında əlaqə tapılmadı. Dərin miometrial invaziya olan xəstələrdə dərin miometrial invaziya olmayan xəstələrə nisbətən təcrid edilmiş paraaortal LDM nisbəti daha yüksəkdir (2,2% ilə müqayisədə 0,4%; p=0,117). Pozitiv periton sitologiyası olan xəstələrdətəcrid edilmiş paraaortal LDM nisbəti neqativ xəstələ rə nisbətən etibarlılıq müəyyən edilmədi (4,2% ilə müqa yisədə 1,0%; p=0,25 8). Təcrid edilmiş paraaortal LDM olan xəstələrdə təkrarlanma aşkarlanmadı. 1 xəstə öldü. Retroperitoneal LDM ilə Əlaqəli Histoloji Faktorlar**.** III mərhələdə olan xəstə lərdə retroperitoneal LDM nisbəti I-II mərhələdə ola xəstələrə nis bətən daha yüksək idi (26,1% ilə müqayisədə 9,6%, p=0.003). Primer şişin ölçüsü (PTB) 2 sm-dən çox olan xəstələrdə retroperitoneal LDM nisbəti primer şişin ölçüsü 2 sm-ə bərabər və daha kiçik olan xəstələr ilə müqayisədə daha yüksək idi (14,5% ilə mü qayisədə 4,7%,p=0.004). Servikal vəzi tutulması olan xəstələrdə nisbəti qeyri-xəstələrdən yüksək (24,8% ilə müqayisədə 7,1%) idi; p<0,001). Retrope ritoneal LDM nisbəti servikal stromal tutulma olan xəstələrdə olmayanlarla müqayisədə daha yüksək idi (29,7% ilə müqayisədə 8,2%; p <0.001) .Retroperitoneal LDM nisbəti dərin miometrial invaziya olan xəstələrdə olmayanlara nisbətən yüksək idi (19,3% ilə müqayisədə 5,5%; p <0.001).



Şək. 3. Servikal tutulma növlərinin retroperitoneal LMN əmsalları

Retroperitoneal LDM nisbəti pozitiv periton sitologiyası olan xəstələrdə mənfi olanlarla müqayisə dəyüksək idi (29,2% ilə müqayisədə 10,4%; p<0.001). Adneksal tutulma olan xəstələrdə (45,2%) retroperitoneal LDM nisbəti olmayan xəstələrə nisbə tən daha yüksəkdir (8,8%; p<0,001). LVAI olan xəstələrdə (29,2%) olmayan xəstələrə nisbətən retroperitoneal LDM nisbəti yüksək idi (6,2%; p<0.001). Retroperitoneal LDM nisbəti aşağı riskli xəstələrlə müqayisədə (97,8%) aşağı riskli olmayan xəstələrdə (85,9%) daha azdır (şək.3).

Beləliklə, təcrid edilmiş paraaortal LDM yayılması və göstəriciləri müalicəvi yanaş ma baxımından əhəmiyyətli olmaqla yanaşı aşağı mərhələ kimi səhvən qiymətləndirmə nəticəsində pis proqnoz ilə nəticələnir. Araşdırmamızda çıxarılan pelvik limfa düyünlə rinin orta hesabla sayı 20, paraaortal limfa düyünlırinin orta hesabla sayı isə 5 olmuşdur. Müsbət peritoneal sitologiya LDM, dərin miometrial invaziya, yüksək dərəcəli şiş və ad neksal metastaz ilə əlaqəlidir [12,13]. Bu tədqiqat işində müsbət (bədxassəli) peritoneal sitologiyası olan xəstə qrupunda təkrarlanma nisbəti 25%, mənfi (xoşxassəli) peritoneal sitologiyası olan qrupda isə 5,3% müəyyən edilmişdir. 5 illik xəstəliksiz sağqalma nis bəti baxımından müsbət peritoneal sitologiyası olan xəstə qrupunda 74%, mənfi olan qrupda isə 94% sağqalma nisbəti müəyyən edilmiş və müsbət peritoneal sitologiyası olan xəstə qrupunun kliniki gedişatı daha pisdir. Limfa denektomiya edilən xəstələrdə pelvik limfa düyünü tutulması nisbəti 5-18% intervalında dəyişir. Pelvik limfa düyünü tutulmasından rekurrensiyanın müstəqil proqnozlaşdırıcısı kimi istifadə etməklə tədqi qat bu göstərici 10,3% nisbətində tapıldı. Endometrium xərçəngində xəstəliyin limfa düyünlərinə yayılma

ehtimalını göstərən risk faktorlarını preoperativ və ya intraoperativ dövrdə təyin edib, onları daşıyan xəstə qrupunda limfadenektomiya etmək uyğun cərra hi müalicə variantıdır.

Nəticə: 1.Endometrial xərçəngli xəstədə FIGO sisteminə görə cərrahi mərhələ təyin edilməlidir. **2.**Endometrium xərçəngində xəstəliyin limfa düyünlərinə yayılma ehtimalını göstərən risk faktorlarını preoperativ və ya intraoperativ dövrdə təyin edib, onları daşıyan xəstə qrupunda limfadenektomiya aparmaq uyğun cərrahi müalicə variantıdır. 3.Miometrial invaziya dərinliyinin ≥% 50 olması, servikal yayılma, LVAİ, müsbət peritoneal sitologiya və adneksal və omental tutulma risk faktorlarının sağqalma və rekurrensiya ilə qarçılıqlı əlaqəsinin olması xəstəliyin təqibi baxımından vacibdir. 4.LVAİ və servikal vəzili tutulma risk faktorlarının retroperitoneal LDM və paraaortal LDM üçün ortaq müstəqil markerlər olması ən əhəmiyyətli əlamətlərdən biridir.

ƏDƏBİYYAT

1.Jemal A. et al. Global cancer statistics // CA Cancer J. Clin, 2011, v.61, p.69-90

2.Kitchener H. et al. Efficacy of systematic pelvic lymphadenectomy in endometrial cancer (MRC ASTEC trial): a randomised study // Lancet,2009, v.373, p. 125-136.

3.Frumovitz M. and C.F. Levenback, Is lymphatic mapping in uterine cancer feasible? //Ann Surg Oncol, 2008, v.15, p.1815-1817

4.Kang S. et al., Sentinel lymph node biopsy in endometrial cancer: meta-analysis of 26 studies// Gynecol Oncol, 2011, v.123, p.522-527

5.Yaegashi N., K. Ito K., Niikura H. Lymphadenectomy for endometrial cancer: is para aortic lymphadenectomy necessary? // Int J Clin Oncol, 2007, v.12, p. 176-180.

6.Abu-Rustum N.R. et al. The incidence of isolated paraaortic nodal metastasis in surgically staged endometrial cancer patients with negative pelvic lymph nodes // Gynecol Oncol, 2009, v.115, p. 236-238.

7.Siegel R.L., Miller K.D., Jemal A. Cancer statistics // CA Cancer J Clin, 2016, v.66, p.7-30

8.Pellerin G.P., M.A. Finan M.A. Endometrial cancer in women 45 years of age or younger:a clinicopathological analysis // Am J Obstet Gynecol, 2005, v.193, p. 1640-1644.

9.Lindemann K. et al. Body mass, diabetes and smoking, and endometrial cancer risk: a follow-up study// Br J Cancer, 2008, v. 98, p.1582-1585

10.Everett E. et al. The effect of body mass index on clinical/pathologic features, surgical morbidity, and outcome in patients with endometrial cancer // Gynecol Oncol, 2003, v.90, p. 150-157

11.Fader A.N. et al., Endometrial cancer and obesity: epidemiology, biomarkers, prevention and survivorship // Gynecol Oncol, 2009, v. 114, p. 121-127.

12.Kim J.W. et al. Clinicopathologic and biological parameters predicting the prognosis in endometrial cancer // Yonsei Med J, 2002, v.43, p. 769-778.

13.Lurain J.R. The significance of positive peritoneal cytology in endometrial cancer // Gynecol Oncol, 1992,v.46, p. 143-144.

Резюме

Оценка метастаза узловой парааортальной лимфы при гинекологическом эндометриальном раке

А.М.Ибрагимов, А.Т.Амирасланов, Нежат Озгюль

Целью исследования явилось определение метастаза узловой парааортальной лимфы у больных на этапе эндометриальной карциномы и изучение необходимости лимфоденэктомии. В исследование вошли 417 больных с гинекологическим эндометриальным раком на различных этапах и оперированный парааорталным лимфаденэктомией, который находились 2000-2015 гг. Необходимо определить необходимость хирургического лечения по системе FIGO. Необходимо определить факторы риска рака в интраоперационном периоде.

Summary

Assessment of metastasis of nodular para-aortic lymph with gynecological endometrial cancer

A.M. Ibragimov, A.T. Amiraslanov, Nezhat Ozgyul

The aim of the study was to determine the metastasis of nodular para-aortic lymph in patients at the stage of endometrial carcinoma and study the need for lymphodenectomy. The study included 417 patients with gynecological endometrial cancer at various stages and operated on para-aortic lymphadenectomy, which was 2000-2015. It is necessary to determine the need for surgical treatment according to the FIGO system. It is necessary to determine the risk factors for cancer in the intraoperative period.

Daxil olub: 02.07 2018

XRONİK ÜRƏK ÇATIŞMAZLIĞI ZAMANI ÜRƏK RİTMİNİN VARİABELLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİNİN MÜASİR ÜSULLARI

K.R.Alıyeva

Akad. C.Abdullayev adı. Elmi-tədqiqat Kardiologiya İnstitutu, Bakı

Açar sözlər: xronik ürək çatışmazlığı, ürək ritmi, diaqnostika
Ключевые слова: хроническая сердечная недостаточность, сердечный ритм, диагностика
Key words: Chronic heart failure, heart rhythm, diagnosis

Son iki onillikdə ürəyin ritmik fəaliyyətinin vegetativ tənzimləməsi ilə ürək-damar xəstəlikləri arasındakı qarşılıqlı əlaqənin olması nəticəsindən baş verən ölüm hallarını təsdiq edən bir çox sübutlar əldə edilmişdir [5,12,27]. Məlumdur ki, rigid ritmlər, yəni az variabelliyi olan ritmlər ürəyin vegetativ tənzimlənməsinin pozulması və sinus düyününün avtomatik hüceyrələrinin zədələnməsi zamanı müşahidə edilir. Xəstələrin miokard infarktından (Mİ) sonrakı vəziyyətinin öyrənilməsinə həsr olunmuş Şimali Amerika Kardioloji Cəmiyyətinin populyasion tədqiqatında müəyyən edilmişdir ki, gün ərzində ürək ritminin variabelliyinin (ÜRV) aşağı göstəricisi qəfləti ölüm riski ilə sıx korrelyasiya edir, özü də sol mədəciyin atma fraksiyasından (SLAF), EKQ-nın Holter monitorinqindəki mədəcik aritmiyalarının sayından və fiziki yükləməyə qarşı olan tolerantlıqdan daha qabarıq dərəcədə [1,3,10]. Mİ-dan sonra xəstələrin ritminin rigidliyi barədə mövcud olan müşahidələr və onların qəfləti ölüm riski ilə əlaqəsi [8,9] ürək ritminin variabelliyinin müxtəlif ürək-damar patologiyası, o cümlədən də XÜÇ zamanı aktiv tədqiq edilməsinə səbəb olmuşdur [6,22,23].

Hal-hazırda EKQ-nın Holter monitorinqində öyrənilən ÜRV-nin aşağıdakı əsas tipləri mövcuddur: zaman çərçivəsində təhlil (time domain methods) və tezlik çərçivəsində təhlil (frequency domain methods) və ya spektral analiz [2,3,4]. ÜRV-nin zaman çərçivəsində təhlili müxtəlif əmsalların hesablanılması ilə aparılan sinus yığılmaları arasında RR (NN) ardıcıl intervallarının davametmə müddətinin dəyişməsinin statistik təhlilinə əsaslanır [5,11]. Spektral metodlar ürək yığılmalarının tezliyinin (ÜYT) dəyişməsi dinamikasına dövrü tərkib komponentlərinin payının qiymətləndirilməsi üçün tətbiq edilir. Bu məqsədlə hər aşkar olunmuş dövrə uyğun gələn "EKQ rəqslərinin gücü" adlandırılan göstərici qiymətləndirilir. Spektrin müxtəlif komponentlərinin güclərinin nisbəti əsasında ürək ritminin tənzimlənməsində vegetativ sinir sisteminin (VSS) simpatik və parasimpatik hissələrinin modulyasiyalarının müqayisəli payı haqqında nəticə çıxarılır [13].

XÜÇ zamanı ÜRV-nin təhlilinə həsr olunmuş bir sıra tədqiqatlar mövcuddur. Bu işlərdə XÜÇ-ün olması ilə ÜRV-nin dəyişiklikləri arasında əlaqə aşkar edilmişdir. Zaman və tezlik çərçivəsində variabelliyin təhlili göstərmişdir ki, sağlam şəxslərlə müqayisədə XÜÇ olan xəstələrdə ÜRV azalır. Çox sayda işlər XÜÇ-ün ağırlığının ÜRV-nin köməyi ilə qiymətləndirilməsinə həsr olunmuşdur. Belə ki, SM-nin sistolik disfunksiyası fonunda inkişaf etmiş simptomatik XÜÇ olan (II-IV FS) 135 xəstəni müayinə edən mülliflər

müəyyən etmişdilər ki, gün ərzində RR-in orta göstəricisi IV FS ilə müqayisədə statistik dürüst azalır. Bu göstərici XÜÇ-ün ağırlığının ən sadə göstəricilərindən biridir [14,21]. ÜRV-nin digər göstəriciləri ilə paralel olaraq ÜRV-nin aşağıtezlikli (LF) komponentinin gücü də azalırdı. Bu halda diqqəti o fakt çəkirdi ki, FS-nin yüksəlməsi ilə yanaşı gün ərzində orta ÜYT də dürüst artmışdır. Tədqiqatçıların fikrincə, VSS-nin məhz simpatik şöbəsinin parasimpatik şöbədən (hissədən) kəskin dərəcədə üstün olması, XÜÇ zamanı aşağı ÜRV-ni şərtləndirir. Bu tədqiqatda açıq və aydın şəkildə göstərilmişdir ki, xəstələrin klinik vəziyyətinin pisləşməsi ilə yanaşı orta günlük ÜYT də dürüst artmışdır, bu da dolayı yolla ürəyə simpatik təsirlərin güclənməsini sübut edir.

E.З. Голухова və həmmüəll.-nin [4] tədqiqatları göstərmişdir ki, müxtəlif ürək xəstəlikləri olan şəxslərdə ÜRV göstəricilərinin ən qabarıq azalması dilatasion kardiomiopatiyalı şəxslərdə qeyd edilir. Müşahidə ərzində XÜÇ proqressivləşdikcə, ürək ritmi, demək olar ki, rigid hala keçmişdir. Bu qrupda ÜRV göstəricilərinin azalması Nyu-York təsnifatı üzrə FS ilə korrelyasiya etmiş və SM AF ilə tərs xətti asılılığa malik olmuşdur.

J. Nolan və həmmüəll. [20] XÜÇ olan 433 xəstənin müayinəsi zamanı (orta yaş 62±10 il, NYHA üzrə FS – 2,4±0,5, SM AF 42±17%) ÜRV parametrlərinin qiymətləndirilməsi ilə keçirilən EKQ-nin Holter monitorinqini aparmış, exokardioqrafiyanın, döş qəfəsi orqanlarının rentgenoqrafiya göstəricilərini və qanın biokimyəvi parametrlərini öyrənmişdilər. Müəlliflər belə qənaətə gəlmişdilər ki, kardiotorakal nisbət, SM-in son diastolik ölçüsü, ritmin mədəcik pozulmaları və qanda kalium səviyyəsi – qəfləti ölüm göstəricisi ilə, natrium, kreatinin və SDNN-in səviyyəsi isə XÜÇ-ün proqressivləşməsinin nəticəsində baş verən ölüm göstəricisi ilə statistik dürüst korrelyasiya edir.

M.C.Iliou və həmmüəll. [16] XÜÇ olan 51 xəstədə (orta yaş – 63,3±12,6 il, sol mədəciyin atma fraksiyası 30%-dən aşağı) xüsusi məşq reabilitasiya proqramından (gimnastika və velotreninq) əvvəl və sonra EKQ-nin Holter monitorinqində ÜRV-nin zaman və spektral analizini aparmışdılar. Fiziki məşğələlər SDNN-i 4,5% və LF/HF-i 23,3% yaxşılaşdırmışdır ($p<0,01$). Alınmış nəticələr onu sübut edir ki, ÜRV-nin dəyişikliyi XÜÇ xəstələrinin reabilitasiya proqramlarının effektivlik dərəcəsini səciyyələndirir.

Neyrohumoral stimulyasiya vəziyyətinin əks etdirilməsi üçün ürək ritminin variabelliyinin (ÜRV) qiymətləndirilməsi XÜÇ-ün aparılan kompleks diuretik terapiyasının effektivlik meyarı qismində istifadə edilə bilər [5,8]. Hazırkı problemin aktuallığına baxmayaraq, əldə edilmiş ədəbiyyatda bu mövzuya həsr olunmuş çox az sayda çap işlərinə rast gəlinmişdir. 1999-cu ildə yapon tədqiqatçıları H. Tomiyama və həmmüəll. [24] mötədil ürək çatışmazlığı olan xəstələrdə qısatəsirli ilgək diuretiki furosemid və uzunmüddətli təsirə malik olan ilgək diuretiki azosemidin ÜRV-yə təsirlərini müqayisəli şəkildə öyrənən işlərin nəticələrini çap etmişdilər. Məlum olmuşdur ki, furosemid alan xəstələrdə natriumun eyni 24-saatlıq ekskresiyası qeyd olunmuş və preparatın qəbulundan sonrakı ilk 2 saatda plazmada reninin konsentrasiyası və hematokritin göstəricisi əhəmiyyətli dərəcədə yüksəlmişdir. ÜRV-nin zaman göstəriciləri olan SDNN və SDANN isə ilkin göstəricilərlə müqayisədə dürüst və əhəmiyyətli dərəcədə azalmışdılar. Azosemid müalicəsi fonunda ÜRV-nin azalması dürüst olmamışdır. Beləliklə, müəyyən edilmişdir ki, uzunmüddətli ilgək diuretiki azosemidlə müqayisədə furosemid ÜRV-yə daha böyük mənfi təsir edir [24].

Korkmaz M.E. və həmmüəll. [17] 2000-cı ildə XÜÇ-lə ağırlaşan işemik kardiomiopatiyası olan 126 xəstədə ÜRV-yə və sol mədəciyin sistolik funksiyasına spironolaktonun təsiri öyrənmişdilər. 12 ay ərzində xəstələr AÇF inhibitorları, diqoksin və furosemidlə yanaşı 50 mq spironolakton qəbul edirdilər. Tədqiqatda SDNN-in zaman göstəricilərinin statistik dürüst artması (50%) qeyd edilmişdir, bu da spironolaktonla müalicə fonunda simpatovagal balansın normallaşmasının xeyrinə dəlalət edir. 12 aylıq müşahidədən sonra müayinə olunanlarda sol mədəciyin atma fraksiyasının artması və NYHA üzrə ürək çatışmazlığının funksional sinfinin azalması aşkar edilmişdir.

Korkmaz və həmmüəll.-nin nəticələrini çin tədqiqatçıları Zhang Yu və həmmüəll. təsdiq edərək göstərmişdilər ki, XÜÇ xəstələrində spironolakton ÜRV-nin göstəricilərini yaxşılaşdırır [17].

K.Harada və həmmüəll.-nin (2009) tədqiqatında XÜÇ xəstələrində simpatik aktivliyə və ÜRV-yə azosemidlə müqayisədə torasemidin göstərdiyi təsir öyrənilmişdir. Müəlliflər qeyd etmişdilər ki, ilgək diuretikləri neyrohumoral mexanizmin aktivləşməsi səbəbindən uzunmüddətli müalicə zamanı proqnoza qeyri-qənaətbəxş təsir göstərə bildiyinə görə, onlar həmin qrupdan olan iki preparatı müqayisə ediblər.

Xəstələr 3 ay ərzində torasemid (8 mq/gün, n=15) və azosemidlə (60 mq/gün, n=15) peroral diuretik terapiya almışdılar. Torasemidlə terapiya sol mədəcikdə sistolik gərginliyin və plazmada noradrenalin səviyyəsinin əhəmiyyətli azalmasını (133±61 pq/ml-dən 95±50 pq/ml-ə qədər) yaratmışdır. Azosemidlə müalicədə isə əksinə, sistolik gərginliyin dəyişməsi baş verməmiş, noradrenalinin səviyyəsi isə əhəmiyyətli dərəcədə artmışdır. Bu tədqiqat göstərmişdir ki, XÜÇ xəstələrində torasemidlə terapiya simpatik sinir sisteminin aktivləşməsi olmadan sol mədəciyin vəziyyətini və ÜRV-ni yaxşılaşdırır. Preparatın göstərilən

qənaətbəxş təsirini müəlliflər torasemidin azosemiddə olmayan antialdosteron effekti ilə izah emişdilər [9,25,26].

2010-cu ildə Шугушева Х.Х. və Гаева А.А. [36] tərəfindən aparılmış tədqiqatda furosemidlə müalicə fonunda ümumi variabelliyi və vegetativ sinir sisteminin parasimpatik tənzimləmə şöbəsinin aktivliyini səciyyələndirən zaman göstəricilərin qiymətləri statistik dürüst azalmış, bunun nəticəsində də vegetativ balans ürək ritminə göstərilən simpatik təsirlərin güclənməsi istiqamətinə dəyişmişdir. Bunu simpatik təsirin güclənməsini səciyyələndirən LF/HF göstəricisinin dürüst artması sübut etmişdir. Torasemid qrupunda isə əksinə, zaman göstəricilərinin və parasimpatik aktivliyi səciyyələndirən parametrlərin dürüst artması aşkar olunmuşdur [9].

Reverentia S. və həmmüəll. (2015) I-III FS XÜÇ-ü olan xəstələrdə qısamüddətli diuretikin (furosemidin) ürək yığılmalarının tezliyinə və arterial təzyiqə təsirini qiymətləndirmişdilər. Müəlliflər ürək ritminin variabelliyinin qiymətləndirilməsi üçün ilk 24-saatlıq zaman çərçivəsində elektrokardioqrafik yazının təhlilini aparmışdılar. Məlumatlar parametrik və qeyri-parametrik testlərin köməyi ilə təhlil edilmişdir. Nəticədə ilk 24 saatda furosemidin təyin olunması ilə ürək yığılmalarının tezliyi arasında əhəmiyyətli təsir aşkar edilməmişdir (p=0,904). Lakin ilk 8-16 s ərzində furosemidin effekti ilə ürək ritminin yavaşıması arasında zəif korrelyasiya əlaqəsi aşkar edilmişdir (p=0,003). İlk 24 saatda furosemidin tətbiqi ilə arterial təzyiqin azalması arasında əhəmiyyətli korrelyasiya aşkar edilmişdir (p=0,000). Tədqiqatçılar belə qənaətə gəlmişdilər ki, furosemid ürək ritminin yavaşımasından və ÜRV-dən daha çox arterial təzyiqin aşağı düşməsinə təsir göstərir. Bu tədqiqatda seçmə kəmiyyəti böyük olmadığından, müəlliflər qəti nəticələrin əldə edilməsi üçün XÜÇ-də diuretiklərin ÜRV-yə təsiri məsələsi üzrə gələcək irimiqyaslı tədqiqatların aparılmasını tövsiyə etmişdilər [9].

Beləliklə, XÜÇ-ün müalicəsi üçün seçim preparatı qismində çox güclü sidikqovucu aktivliyə malik olan ilgək diuretikləri qalırlar. Hərçənd ki, bütün ilgək diuretikləri diurezin ekvivalent dozada və müqayisə olunan dərəcədə artmasını yaradırlar, buna baxmayaraq, onların effektivliyi preparatların farmakokinetika və farmakodinamika xüsusiyyətləri ilə bağlı azala bilər. Furosemidlə müqayisədə, torasemid yüksək bioəlverişliyə, daha uzun müddətli yarımparçalanma dövrünə malikdir və sabit diuretik təsir göstərir. Bu xassələr onun XÜÇ xəstələrində bir sıra nəzarət olunan klinik tədqiqatlarda nümayiş etdirilmiş daha yüksək effektivliyini müəyyən edir. Torasemidin böyük əhəmiyyət kəsb edən üstünlüyü ondan ibarətdir ki, bu preparatın tətbiqində diuretik terapiyanı çox zaman məhdudlaşdıran hipokaliemiyanın yaranma riskinin az olmasıdır. Torasemid aldosteron reseptorlarının blokadası hesabına endogen hormonal sistemin inhibitorlarının xassələrinə malikdir. Yuxarıda sadalananlarla bağlı, əsas ilgək diuretiklərinin (furosemid və torasemid) klinik effektivliyinin və tolerantlığının kompleks öyrənilməsi, həmçinin onların XÜÇ xəstələrində qanın elektrolit balansına və ÜRV-nin göstəricilərinə müqayisəli təsirinin tədqiqi aktualdır.

ƏDƏBİYYAT

1. Алиева А.М., Булаева Н.И., Громова О.И., Голухова Е.З. Вариабельность сердечного ритма в оценке клинико-функционального состояния и прогноза при хронической сердечной недостаточности // Креативная кардиология, 2015, №3, с.42-55.
2. Баевский Р.М., Иванов Г.Г. Анализ вариабельности сердечного ритма при использовании различных электрокардиографических систем: Методические рекомендации // Вестник аритмологии, 2001, № 24, с.65-86.
3. Беленков Ю.М., Мареев В.Ю., Агеев Ф.Т. Хроническая сердечная недостаточность. Избранные лекции по кардиологии. М.: ГЭОТАР-Медиа; 2006, 200 с.
4. Голухова Е.З., Алиева А.М., Полякова Э.С. Диагностические возможности предшественника натрийуретического пептида у больных с сердечной недостаточностью ишемической этиологии до и после операции реваскуляризации миокарда // Креативная кардиология, 2012, № 2, с.21-29
5. Загравская И.А. Нарушения ритма сердца и электролитный дисбаланс крови при сравнительном лечении хронической сердечной недостаточности петлевыми диуретиками // Российский медико-биологический вестник им. Академика И.П. Павлова, 2010, № 2, с.78-85.
6. Национальные рекомендации по диагностике и лечению хронической сердечной недостаточности (третий пересмотр). Утверждены конференцией ОССН 15 декабря 2009 года // Сердечная недостаточность, 2010, №1, с. 15-19.
7. Ускова О.В. Клиническое и прогностическое значение ремоделирования левого желудочка у больных с хронической сердечной недостаточностью. Дис. ... канд. мед. наук. М., 2008, 173 с.
8. Фомин И.В. Эпидемиология хронической сердечной недостаточности в Российской Федерации / Хроническая сердечная недостаточность. М.:ГОЭТАР-Медиа, 2010, с.7-77

9. Шугушев Х.Х., Гаева А.А. Влияние фуросемида и торасемида на вариабельность сердечного ритма и желудочковые аритмии у больных с хронической сердечной недостаточностью, осложнившей течение ишемической болезни сердца: сравнительное нерандомизированное исследование // Рациональная Фармакотерапия в Кардиологии, 2010, №6(4), с.513-517

10. Шупенина Е.Ю. Вариабельность сердечного ритма и качество жизни как показатели эффективности противовоспалительной и метаболической терапии хронической сердечной недостаточности: Автореф. дисс ... канд. меди. наук. М., 2007, 21с.

11. ACC/AHA 2005 Guideline Update for the diagnoisis and management of chronic heart failure in the adult // Circulation, 2005, v. 112, p. 154-235.

12. Albert N.M., Boehmer J.P., Collins S.P. et al. Executive Summary: HFSA 2010 Comprehensive Heart Failure Practice Guigeline // Journal of Cariac Failure, 2010, v.16, p.475-539.

13. Albert N.M., Boehmer J.P., Collins S.P. et al. Executive Summary: HFSA 2010rComprehensive Heart Failure Practice Guigeline // Journal of Cariac Failure, 2010, v.16, p.475-539.

14. Dickstein K., Cohen-Soial A., Filppatos G. et al. Task Force for Diagnosis and Treatment of Acute and Chronic Heart Failure 2008 of European Spciety of Cardiology; Vahanian A., Camm J., De Caterina R. et al. ESC Commetee for Practice Guidelines. Deveicped in collaboration with the Heart Failure Association of the ESC (HFA) and endorsed by the European Society of intensive Care Medicine (ESICM) // Eur. Heart J.. 2008, v.29 (19), p. 2388-2442.

15. Harada K., Grossman W., Friedman M. et al. Basic fibroblast growth factor improves myocardial function in chronically ischemic porcine hearts // J Clin Invest. 1994, v.94(2), p.623-3

16. Iliou M.J., Blanchard J,C., Lamar-Tanguy A. et al. Cardiac rehabilitation in patients with pacemakers and implantable cardioverter defibrillators // Monaldi Archives for Chest Disease Cardiac Series 2016, v.86, p.756

17. Korkmaz L., Adar A., Ata Korkmaz A. et al. Aortic knob calcification and coronary artery lesion complexity in non-ST-segment elevation acute coronary syndrome patients // Turk Kardiyol Dern Ars., 2012, v.40, p.606-611

18. Kukokawa J., Abriel H. Neurohormonal regulation of cardiac ion channels in chronic heart failure // Cardiovasc. Pharmacol., 2009, v.4, p.765-769.

19. Murad K., Brubaker P., Fitzgerald D. et al. Exercise Training Improves Heart Rate Variability in Older Patients With Heart Failure: A Randomized, Controlled, Single-Blinded Trial. Congest // Heart Fail. 2012, v.10, p.1751–7133.

20. Nolan RP, Payne AY, Ross H. et al. An internet-based counseling intervention with email reminders that promotes self-care in adults with chronic heart failure: randomized controlled trial protocol // JMIR Res Protoc., 2014 , v.3(1), p.5.

21. Nussinovitch U., Cohen O., Kaminer K. et al. Evaluating reliability of ultra-short ECG indices of heart rate variability in diabetes mellitus patients // J. Diabetes Complications. 2012 Jun 6

22. Pathak A., Fourecade J., Castel A. et al. Approach of treautonomic nervose system in chronic heart failure: is QT dynamicity better than heart rate variability? // Eur. Heart J., 2000, v.21 (suppl), p. 33.

23. Rydlewska A., Jankowska E., Ponikowska B. et al. Changes in autonomic balance in patients with decompensated chronic heart failure // Clin. Auton. Res., 2011, v.21. № 1, p.47-54.

24. Tomiyama H., Nakayama T., Watanabe G. et al. Effekt of short-acting loop diuretics on heart rate variability in patients with chronic compensated congestive heart failure // Am. Heart J.,1999, v. 137(3), p. 543-548.

25. Uchida T., Yamanaga K., Nishikawa M. et al. Anti-aldosterone effect of torasemide // Eur. J. Pharmacol., 1991, v. 205, p. 145-150.

26. Yamato M., Sasaki T., Honda K. et al. Effects of torasemide in left ventricular function and neurohumoral factors in patients with chronic heart failure // Circ. J. 2003, v.67(5), p.384-390.

27. Zhang C., Syed T., Renjing Liu,, Jun Yu·Role of Endoplasmic Reticulum Stress, Autophagy, and Inflammation in Cardiovascular Disease // Front Cardiovasc Med., 2017, v.4, p.29

Резюме

Современные способы оценки вариабельности сердечного ритма при хронической сердечной недостаточности

К.Р.Алыева

За последние два десятилетия было получено несколько подтверждений случаев смерти, наступивших в результате взаимной связи между вегетативным уравновешиванием ритмической

деятельности сердца и сердечно-сосудистыми заболеваниями. Известно, что ригидные ритмы, то есть ритмы с малой вариабельностью, в основном, наблюдаются при нарушении вегетативного уравновешивания сердца и повреждении автоматических клеток синусового узла. Для лечения ХСН препаратами выбора остаются петлевые диуретики, обладающие очень сильной мочегонной активностью. В то время как все петлевые диуретики способствуют повышению диуреза в эквивалентной дозе и в сравнительной степени, несмотря на это, их эффективность в связи с фармакокинетическими и фармакодинамическими особенностями препаратов может снижаться. Торасемид, по сравнению с фуросемидом, обладает высокой биовыгодностью, длительному периоду полуразделения и оказывает постоянное диуретическое действие. В связи с вышеуказанным, комплексное изучение клинической эффективности и толерантности основных петлевых диуретиков (фуросемид и торасемид), а также исследование их сравнительного влияния на электролитный баланс крови и показатели вариабельности ритма сердца больных с ХСН очень актуально.

Summary

Modern ways of assessing heart rate variability in chronic heart failure

K.R. Alyeva

Over the past two decades, several confirmations of deaths have been received, resulting from the interconnection between the vegetative balancing of the rhythmic activity of the heart and cardiovascular diseases. It is known that rigid rhythms, that is, rhythms with low variability, are mainly observed when the autonomic balance of the heart is disturbed and the automatic cells of the sinus node are damaged. For the treatment of CHF drugs of choice are loop diuretics with very strong diuretic activity. While all loop diuretics contribute to an increase in diuresis in an equivalent dose and in a comparative degree, despite this, their effectiveness in connection with the pharmacokinetic and pharmacodynamic features of drugs may decrease. Torasemide, compared with furosemide, has a high bioavailability, a long period of semi-division and has a constant diuretic effect. In connection with the above, a comprehensive study of the clinical efficacy and tolerance of the main loop diuretics (furosemide and torasemide), as well as the study of their comparative effect on blood electrolyte balance and heart rhythm variability in patients with CHF is very important.

Daxil olub: 03.07 2018

AZƏRBAYCAN FLORASINDAN OLAN MEDICAGO L. CİNSİNƏ AİD NÖVLƏRİN FİTOKİMYƏVİ TƏDQİQININ PERSPEKTİVLƏRİ

T.A. Süleymanov, A.S.Qəribli

Azərbaycan Tibb Universiteti, Bakı

Açar sözlər: Medicago L. cinsi, fitokimyəvi müayinələr, Azərbaycan florası

Ключевые слова: род Medicago L. фитохимические исследования, флора Азербайджана

Keywords: genus Medicago L. phytochemical studies, flora of Azerbaijan

Dərman bitkiləri və bitki tərkibli preparatlar müasir tibb təcrübəsində geniş istifadə olunur. Dünya tibbində təbii mənşəli dərman maddələrinə və fitopreparatlara tələbat ildən-ilə artır. Buna görə də müasir dövrdə dərman bitki xammallarının yeni növləri və mənbələrinin aşkar olunması, həmçinin də onların səmərəli istifadəsi əczaçılıq elminin qarşısında duran əsas məsələlərdəndir [1]. Azərbaycanın florası 4000-dən çox növ bitki ehtiyatı ilə zəngindir və bunun da 135 növü ofisinal dərman bitkiləridir. **Medicago L.- Qarayonca** cinsinə aid növlər bir və ya çoxillik ot bitkiləridir. 100-ə yaxın növü Avropada, şimali Afrikada, qərbi və mərkəzi Asiyada, 31 növü Qafqazda, 21 növü isə Azərbaycanda yayılmışdır. Azərbaycanda bir növü becərilir[5].

Medicago L. cinsinə daxil olan növlər dünyanın müxtəlif ölkəkərində xalq təbabətində bir sıra xəstəliklərin müalicəsində geniş tətbiq edilir.

Belə ki, *Medicago L.* növləri mədənin müxtəlif patologiyalarında, bağırsaq və qalxanabənzər vəzin xəstəliklərində istifadə olunur. Həmçinin qanda şəkərin və xolestrinin miqdarını aşağı salır, hemoqlobinin səviyyəsini normallaşdırır, maddələr mübadiləsini yaxşılaşdırır. Bundan başqa xalq təbabətində qarayoncanı

qidaya əlavə etməklə onkoloji xəstəliklərin, böyrək çatışmazlığının, qaraciyərin, şəkərli diabetin, ürək nahiyyəsində yaranan ağrıların müalicəsində istifadə edirlər. Çox zaman bu bitki yorğunluğun və fiziki gücsüzlüyün aradan qaldırılmasıa kömək edir. *Medicago L.*-in daha bir faydası isə hamiləlik zamanı qadınlarda sümük toxumasının möhkəmlənməsinə kömək etməsidir [6].

Dünyanın müxtəlif ölkələrində *Medicago L.* cinsinə aid bəzi növlərin fitokimyəvi tədqiqi istiqamətində elmi tədqiqatlar aparılır və xammalda flavanoidlər, saponinlər, kumarinlər, iridoidlər, eləcə də digər bioloji aktiv maddələr müəyyən edilmişdir [7,9].

Medicago L. növlərinin potensial olaraq bioloji fəal izoflavonların mənbəyi olduğu aşkar edilmişdir [7].

M. sativa L. xammalında əsas qrup bioloji fəal maddələrin fenol birləşmələri olduğu müəyyən edilmiş və xammalın ekstraktında bergenin, lüteolin, apigenin, genistein, kversetin-3-0-qlükoza-6-asetat olduğu müəyyən edilmişdir [8].

M. monantha L. növündə flavonoidlər və alkaloidlərin olduğu aşkar edilmişdir [9].

M. minima, M. tornata və *M. scutellata* növlərindən alınmış sulu-spirtli ekstraktının fenol birləşmələri ilə zəngin olduğu, eləcə də ekstraktın yüksək antioksidant və antimikrob fəallığa malik olduğu və kosmetik məhsulların hazırlanmasında perspektivli mənbə olduğu müəyyən edilmişdir [10].

Qeyd olunmalıdır ki, Azərbaycan florasında olan *Medicago L.* cinsinin növləri fitokimyəvi və farmakoloji cəhətdən tədqiq edilməmişdir. Yuxarıda göstərilənləri nəzərə alaraq, demək olar ki, Azərbaycan florasında qarayonca növlərinin fitokimyəvi öyrənilməsi aktual və perspektivlidir.

Tədqiqatın məqsədi Azərbaycan florasında yayılmış *Medicago L.* cinsinə aid olan növlərin fitokimyəvi tədqiqi perspektivlərinin müəyyən edilməsidir.

Tədqiqatın material və metodları. Tədqiqatlar məqsədilə istifadə olunan *M. rigidula L.* və *M. orbicularis L.* xammalları 2018-ci ilin aprel-iyun aylarında, müvafiq olaraq bitkinin çiçəkləmə və toxum əmələ gətirmə fazalarında, Azərbaycan Respublikasının Xızı və Yevlax rayonları ərazisindən tədarük edilmişdir. Xammaldan bioloji fəal maddələrin varlığı keyfiyyət reaksiyaları və müxtəlif xromatoqrafiya üsulları ilə müəyyən edilmişdir [2,4].

Rutinin standart nümunəsi (Lagerbed, seriya N130423), həlledicilər – etanol (Merck/Almaniya, seriya N 603-002-00-5), təmizlənmiş su, sirkə turşusu (Merck/Almaniya, seriya N 607-002-00-6), magnezium tozu, HCl turşusu, NaOH, qurğuşun asetat, sulfat turşusu və s. reaktivlər istifadə olunmuşdur. Tədqiqatlar Əczaçılıq kimyası kafedrasının nəzdində olan laboratoriyadakı Carry 60UV-Vis (Agilent technologies) adlı spektrofotometrdə aparılmışdır.

Eksperimental hissə. Ən geniş yayılmış bitki metaboloitlərindən biri flavonodilərdir. Bu birləşmələrə maraq günü gündən daha da artır, belə ki, flavonoidlərin qiymətli xassələri - antioksidant xassəsi, xərçəng əleyhinə, qan damarlarını möhkəmləndirici, qaraciyəri və mədə-bağırsaq traktını qoruyucu, beynin və ürəyin işini stimullaşdırıcı xassələri daha geniş maraq doğurur. Buna görə də, flavonoidlər geniş miqyasda müalicəvi və dietik qidaların tərkibinə əlavələr olaraq daxil edilir. Keyfiyyət reaksiyalarının və xromatoqrafik tədqiqatların köməyi ilə müəyyən edilmişdir ki, tədqiq edilən növlərin tərkibi flavonoid birləşmələri ilə zəngindir.

Ümumi olaraq *Siaidin* reaksiyası, *Brianta görə Sianidin* reaksiyası, dəmir (III)-xloridlə reaksiya, qələvi ilə reaksiya, qatı xlorid turşusundakı vanilinlə reaksiya aparılmışdır [1, 4].

Dərman bitki xammalında saponinləri aşkarlamaq üçün köpük əmələ gətirmə sınağı, çökdürücü reaksiyalardan qurğuşun asetatla, xolestrinin spirtdəki məhlulu ilə, rəngli reaksiyalardan *Lafon* reaksiyası, *Salkovskiy* reaksiyası, *Sanye* reaksiyası və saponinlərin kimyəvi təbiətinin təyin edilməsi reaksiyalarından istifadə edilmişdir.

Dərman bitki xammalından kumarinləri aşkarlamaq üçün *Lakton* sınağından və qələvi mühitdə diazoreaktivlə reaksiya aparılmışdır.

Dərman bitki xammalından iridoidləri aşkarlamaq üçün isə *Ştal* və *Trim-Xill* reaktivi ilə reaksiyalar aparılmışdır.


Medicago falcata L. xammalından fenol birləşmələrinin vahid sxem əsasında alınması həyata keçirilmişdir (Şəkil).

Təklif olunan sxem əsasında flavonoid aqlikonlarını, flavonoid qlikozidlərindən, eləcə də monozidləri biozidlərdən və triozidlərdən ayırmaq olur ki, bu da gələcəkdə maddələrin fərdi şəkildə ayrılmasını asanlaşdırır.

M. rigidula və *M. orbicularis* xammallraında flavonoidlərin spektrofotometriya üsulu ilə miqdari təyini üsulu işlənilib hazırlanmışdır. *M. rigidula* və *M. orbicularis* xammallarının (hər biri ayrı-ayrılıqda) – otlarının analitik nümunəsi o qədər xırdalanır ki, məsamələrinin diametri 1 mm olan ələkdən ələnsin. Xırdalanmış və ələnmiş xammaldan 1 qr (dəqiq çəki) götürülərək həcmi 150 ml olan cilalanmış kolbaya

keçirilir və üzərinə 30 ml 50 %-li etil spirti əlavə edilir. Kolba əks soyuducuya birləşdirilir, qaynar su hamamı üzərində 30 dəq müddətində qızdırılır. Kolbanın divarlarına yapışmış xammal hissəciklərini islatmaq üçün aradabir çalxalanır. İsti çıxarış pambıqdan həcmi 100 ml olan ölçülü kolbaya süzülür. Süzmək üçün istifadə olunmuş pambıq ekstarksiya gedən kolbaya yerləşdirilir, üzərinə 30 ml 50 %-li etil spirti əlavə edilir. Ekstraksiya yuxarıda göstərilən qaydada daha 2 dəfə təkrarlanır və çıxarışlar ölçülü kolbaya süzülür. Soyuduqdan sonra çıxarışın həcmi 50 %-li etil spirti ilə ölçüyə çatdırılır və qarışdırılır (A məhlulu).

Həcmi 25 ml olan ölçülü kolbaya A məhlulundan 1 ml tökülür, üzərinə 2 ml alüminium-xloridin 95 %-li etil spirtindəki məhlulu əlavə edilir və kolbanın həcmi 95 %-li etil spirti ilə ölçüyə çatdırılır. 40 dəq-dən sonra məhlulun optiki sıxlığı spektrofotometrdə 415 nm dalğa uzunluğunda, qatının qalınlığı 10 mm olan küvetdə ölçülür. Müqayisə məhlulu kimi 25 ml-lik ölçülü kolbaya tökülmüş 1 ml çıxarışdan, 1 damcı duru sirkə turşusundan və həcmi 95 %-li etil spirti ilə ölçüyə çatdırılmış qarışıqdan istifadə olunur[3].



Şəkil. Medicago falcata L. xammalından fenol birləşmələrinin alınma sxemi

Paralel olaraq yuxarıda göstərilən qaydada hazırlanmış rutinin standart nümunə məhlulunun optiki sıxlığı da eyni şəraitdə ölçülür.

Mütləq quru xammalda flavonoidlərin rutinə nisbətən faizlə miqdarı aşağıdakı düsturla hesablanır:

$$X = \frac{D \cdot m_0 \cdot 100 \cdot 100 \cdot 100}{D_0 \cdot m \cdot 100 \cdot (100 - W)}$$

Burada, D – tədqiq olunan məhlulun optiki sıxlığı;

D_0 – rutinin standart nümunə məhlulunun optiki sıxlığı;

m – xammalın çəkisi, qr-la;

m_0 – rutinin standart nümunəsinin çəkisi, qr-la;

W – xammalı qurutduqda çəkidə itki, %-lə.

Qeyd. Rutinin standart nümunə məhlulunun hazırlanması. 0,05 qr-a yaxın (dəqiq çəki) standart rutin nümunəsi qabaqcadan 130-135 ^{0}C temperaturda 3 saat müddətində qurudulur. Həcmi 100 ml olan ölçülü

kolbada 85 ml 95 %-li etil spirtində qızdırmaqla həll edilir. Soyudulur, miqdari cəhətdən 100 ml-lik ölçülü kolbaya keçirilir, kolbanın həcmi 95 %-li etil spirti ilə ölçüyə çatdırılır və qarışdırılır.

Spektrofotometrik üsulla tədqiq olunan xammallarda flavonoidlərin miqdarı təyini üzrə nəticələr aşağıdakı cədvəldə verilmişdir.

Cədvəl
Medicago növlərinin xammallarında flavonoidlərin miqdari təyini üzrə nəticələr

Sıra	Xammal növləri	Miqdarı %-lə	Nəticələrin statistik işlənməsi
1.	*M. rigidula L.*	2,21 2,18 2,17 2,27 2,22 2,25	X =2,22 S=0,04 Sx =0,02 εa=0,04 A=±1,86 a=0,36
2.	*M. orbicularis L.*	2,42 2,39 2,37 2,41 2,45 2,38	X=2,40 S=0,03 Sx =0,01 εa=0,03 A=±1,29 a=1,11

Analizlər nəticəsində *M. rigidula* və *M. orbicularis* xammallarında flavonoidlərin miqdarının müvafiq olaraq 2,21% və 2,42% olduğu müəyyən edilmişdir.

Nəticələr. Azərbaycan florasında *Medicago L.* cinsinə aid 21 növ yayılmışdır. *Medicago rigidula L.* və *Medicago orbicularis L.* növlərinin tərkibində flavonoidlərin, kumarinlərin, saponinlərin və s. olduğu müəyyən edilmişdir. *Medicago rigidula L.* və *Medicago orbicularis L.* növləri xammalından fenol birləşmələri məcmusu alınmışdır. Spektrofotometrik üsulla müəyyən olunmuşdur ki, xammalların tərkibində müvafiq olaraq 2.21% və 2.42% flavonoid məcmusu vardır. Kifayət qədər xammal ehtiyatı və zəngin kimyəvi tərkibi *Medicago L*. növlərinin fitokimyəvi tədqiqinin perspektivli və aktual olduğunu göstərir.

ƏDƏBİYYAT

1. Süleymanov T., Kərimov Y., İsayev C. Farmakoqnoziya praktikum. B., 2017, s. 26-30, 378-397.
2. Süleymanov T., Kırımer N., Şükürova A. Tikanlı odotu (Phlomis pungens Willd.) növünün bəzi fitokimyəvi tədqiqi // Azərbaycan Əczaçılıq və Farmakoterapiya jurnalı, 2013, N2, s. 22-25.
3. Государственная фармакопея СССР, XI издание. Выпуск 2, Медицина, 1989. с. 397
4. Корулькин Д.Ю., Абилов Ж.А., Музычкина Р.А., Толстиков Г.А. Природные флавоноиды, Новосибирск: Тео, 2007, 232 с.
5. Флора Азербайджана. Баку, Изд-во АН Аз ССР, в 5-х томах, 1952, с. 248-265.
6. Kundan S., Anupam S. Phytochemical and pharmacological potential of *Medicago sativa*: A review // Pharmaceutical Biology, 2011, v. 49, N:2, p.211-220
7. Barreira C., Visnevschi-Necrasov T., Nunes E. et al. *Medicago spp.* as potential sources of bioactive isoflavones: Characterization according to phylogenetic and phenolic factors // Phytochemistry, 2015, v.116, p 230-238.
8. Martinez R., Kapravelou G., Porres J. et al. *Medicago sativa L.*, a functional food to relieve hypertension and metabolic disorders in a spontaneously hypertensive rat model // Journal of Functional Foods, 2016, v.26, p. 470-484.
9. Muhammad K., Muhammad R., Hizb Kh. et al.Phytochemical and cytotoxic evaluation of *Medicago monantha*: In vivo protective potential in rats // Biomedicine & Pharmacotherapy, 2018, v.102, p. 1052-1063
10.Rodrigues F., Palmeira-de-Oliveira A., Neves J. et al. *Medicago spp.* extracts as promising ingredients for skin care products // Industrial Crops and Products, 2013, v. 49, p. 634-644

Резюме

Перспективы фитохимического исследование видов рода Medicago L. из флоры Азербайджана

Т.А. Сулейманов, А.С.Гарибли

Род *Medicago L.* из флоры Азербайджана представлен 21 видами. Установлено, что сырье видов *Medicago rigidula L.* и *Medicago orbicularis L.* богаты флавоноидами, кумаринами, сапонинами и другими биологически активными соединениями. Разработано схема получения суммы фенольных соединений из сырья *Medicago L.* Спектрофотометрическим методом установлено, что сырья *M. rigidula L.* и *M. orbicularis L.* содержит суммы флавоноидов соответственно 2,21% и 2,42% . Фитохимическое исследование видов роды *Medicago L.* из флоры Азербайджана является перспективным и актуальным.

Summary

Perspectives of phytochemical research of species of the genus Medicago L. from the flora of Azerbaijan

T.A. Suleymanov, A.S.Garibli

The genus *Medicago L.* from the flora of Azerbaijan is represented by 21 species. Determined that raw materials of Medicago rigidula L. and Medicago orbicularis L. rich in flavonoids, coumarins, saponins and other biologically active compounds. A scheme is developed for obtaining the summary of phenolic compounds from the raw material *Medicago L.* In a spectrophotometric method determined that, *M. rigidula L.* and *M. orbicularis L.* raw materials contain amounts of flavonoids of respectively 2.21% and 2.42%. Phytochemical research of the species of the genus *Medicago L.* from the flora of Azerbaijan is perspective and actual.

Daxil olub: 03.09.2018

KORONAR DAMARLARIN RESTENOZUNUN ANGİOQRAFİK RİSK AMİLLƏRİ

V.Ə.Əzizov[1], S.Z.Hacıyeva[1], F.N.İbrahimov[2]

[1]Azərbaycan Tibb Universiteti, Bakı; [2]Mərkəzi Klinik Xəstəxana, Bakı

Açar sözlər: koronar damarlar, stent, restenoz
Ключевые слова: коронарные сосуды, стент, рестеноз
Key words: coronary artery, stent, restenosis

Ürək-damar xəstəlikləri (ÜDX) yayılmasına, əhali arasında əmək qabiliyyətinin müvəqqəti və daimi itirilməsi göstəricilərinə və ölüm hadisələrinin səviyyəsinə görə dünyada və o cümlədən, Azərbaycan Respublikasında birinci yeri tutur. Hal-hazırda ürək-damar xəstəliklərindən ölümün əsas səbəbi ürəyin işemik xəstəliyi (ÜİX) sayılır. Ona görə də ÜİX-in, xüsusilə, stabil stenokardiyanın vaxtında diaqnostikası və adekvat müalicəsinin həyata keçirilməsi praktik təbabətin ən prioritet vəzifələrindən biri olaraq qalmaqdadır. Müasir təsdiqləyici təbabətin prinsipləri və farmako-iqtisadi dəyərlər nəzərə alınmaqla stabil stenokardiyanın optimal müalicə taktikasının seçimi bu gün də kardioloqların vacib vəzifələrdən biridir.

Endovaskulyar müdaxilə kardiologiyada yeni mərhələnin başlanğıcı oldu və ÜİX-in müalicə imkanlarını genişləndirdi [1-4]. İlk dövrlərdə koronar qan dövranının bərpası məqsədi ilə balon angioplastikasından geniş istifadə olunsa da, sonralar pasiyentlərin təqribən yarısında stentdaxili stenozun (restenozun) inkişaf etməsi səbəbindən balon angioplastikası müalicə üsulundan demək olar ki, imtina olundu [1, 5].

Praktik səhiyyəyə daxil olan koronar stentləşdirmə əməliyyatı intensiv inkişafına görə koronar angioplastikanın keçmiş texnologiyalarını iti sürətlə qabaqladı [1, 6-8]. Başlanğıc mərhələlərdə yüksək müvəffəqiyyət qazanmasına baxmayaraq, koronar stentləşdirmənin klinik praktikaya geniş tətbiqi ilk randomizəolunmuş tədqiqatıların nəticələrinə rəğmən uzaq optimist nəticələrə gətirib çıxarmadı [9-14]. Bu nəticələr kardioloqları koronar stentləşdirmə əməliyyatına öz mövqeyini dəyişməyə və endovaskulyar müalicəyə fərdi yanaşmağa məcbur etdi [15].

Dərman (sirolimus və analoqları) örtüklü stentlərin meydana çıxması restenozların rastgəlmə tezliyini xeyli azaltsa da, bu problemi tam həll edə bilmədi [15-19]. Baxmayaraq ki, standart metal stentlə

müqayisədə dərman örtüklü stentləşdirmədən sonra restenoz az hallarda inkişaf edir, amma digər mürəkkəb ağırlaşmalar müşahidə olunur [20-24]. Xüsusi qeyd edilməlidir ki, aparılan tədqiqatlar göstərir ki, dərman örtüklü stentləşdirmədən sonra yaranan restenozla əlaqədar təkrari revaskulyarizasiya standart metal stentləşmədən sonrakı revaskulyarizasiya ilə müqayisədə uzaq nəticələrə görə daha təhlükəlidir [25].

Restenozun inkişafının qarşısını almaq məqsədi ilə ilk növbədə onun risk amillərini müəyyənləşdirmək və müvafiq korreksiya aparmaq tələb olunur. İnvaziv kardiologiyanın hazırki durumu perkutant koronar müdaxiləyə məruz qalmış konkret pasiyentdə restenozun inkişaf edə biləcəyini öncədən müəyyənləşdirməyə imkan vermədiyindən hər hansı preventiv tədbirlərin planlaşdırılması mümkün deyildir. Bununla belə, bu günə kimi restenozun inkişafında rolu ehtimal olunan çoxsaylı risk amilləri barədə məlumatlar mövcuddur [10, 26-31]. Bu risk amillərindən biri də angioqrafik risk amilləri sayılır. Amma, bu istiqamətdə aparılan tədqiqatların nəticələri ziddiyyətlidir.

Tədqiqatın məqsədi. Koronar damarlarına stent qoyulmuş xəstələrdə restenozun inkişafında angiqrafik risk amillərinin rolunu müəyyən etməkdir.

Tədqiqatın material və metodları. Mərkəzi Klinik Xəstəxanada 2005-2015-ci illərdə stabil stenokardiya səbəbindən koronar damarlarına stent implantasiya olunmuş 1000 xəstənin (853 kişi və 147 qadın) xəstəlik tarixi tərəfimizdən retrospektiv olaraq araşdırılmışdır. Xəstələrin orta yaşı 59,2±7,6 il olmuşdur.

Xəstələrin kompleks müayinəsinə ümumi klinik metodlar (sorgu, orqan və sistemlər üzrə obyektiv müayinələr), qanın və sidiyin ümumi müayinəsi, biokimyəvi müayinələr (transaminazalar, qanın lipid spektri, kreatinin, cidik cövhəri, şəkər, C-reaktiv zülal, homosistein) aid edilmişdir.

Koronar restenozu təsdiq etmək üçün təkrari müayinə tələb edən əsas səbəb stenokardiya simptomlarının qayıtmasıdır. Ona görə də stent daxili restenozun diaqnostikası məqsədi ilə ilk növbədə Avropa kardioloqlar cəmiyyənin meyarları əsasında xəstələrdə stenokardiyanın tipik əlamətlərinin olub-olmaması müəyyən edilmişdir.

Perkutant koronar müdaxiləyə məruz qalan pasiyentlərin 48-58%-də restenozun asimptomatik gedişini nəzərə alaraq, müayinəyə cəlb olunan bütün xəstələrdə təkrari restenozun yaranma ehtimalını dəqiqləşdimək üçün tredmil yük sınağı aparılmışdır. Tredmil yük sınağı «General electronics» (ABŞ) aparatında Bruce protokolu əsasında həyata keçirilmişdir. Tipik stenokardiya əlamətlərinin meydana çıxması və / və ya EKQ-də 1 dəqiqədən çox davam edən işemik dəyişikliklərin olması (ST seqmentinin 1mm-dən çox yerdəyişməsi) sınağın müsbət olması kimi dəyərləndirilmişdir.

Həmçinin ağrısız işemiya epizodlarının olub-olmaması, onların sayı, davam müddəti, ST seqmentinin yerdəyişməsi (elevasiyası və ya depressiyası) və onun səviyyəsini müəyyənləşdirmək məqsədi ilə müayinəyə cəlb olunan xəstələrin hamısına EKQ-nin Holter monitoru müayinəsi aparılmışdır.

Xəstələrdə ilkin və təkrari koronaroqrafiya müayinəsi ”General electronic” (ABŞ) və ”Siemens” (Almaniya) aparatlarında Anjo konvensional angioqrafiya protokolu əsasında həyata keçirilmişdir. Təkrari angioqrafiyada stent implantasiya olunmuş damar seqmentində 50% və daha çox daralma təkrari stenoz (restenoz) kimi dəyərləndirilmişdir.

Tədqiqatın gedişində materialların statistik işlənməsində analiz olunan seçmənin orta, minimal və maksimal ölçüsü müəyyən edilmişdir. Standart sapmanın ölçüsü hesablanmışdır. Yuxarıda verilən göstəricilərdən başqa ortanın xətası, faiz və faiz xətası müəyyən edildi. Statistik analiz MS Microsoft Excel kompüter proqramı ilə həyata keçirilmişdir.

Alınan nəticələr və onların müzakirəsi. Bu xəstələr arasında təkrari stenoz (restenoz) olanlar (136 pasiyent) və restenoz olmayanlar (864 pasiyent) ayırd edilmişdir. Tədqiqatın məqsədinə müvafiq olaraq ilk növbədə restenoz olan və restenoz olmayan xəstələrin ilkin angioqrafik göstəricilərinin nəticələri tərəfimizdən araşdırılmışdır (cədvəl).

Cədvəldən göründüyü kimi, restenoz olan xəstələr qrupunda ilkin olaraq, əsasən sol enən arteriya, restenoz olmayanlarda isə dolanan arteriya və sağ koronar arteriya zədələnmişdir.

Ümumilikdə xəstələrin 433-nə (43,3%) holometallik stent, 567-nə (56,7%)- dərman örtüklü stent qoyulmuşdur. Restenoz olan xəstələrin təhlili göstərir ki, holometallik stent implantasiyası olanların 19,6%-ində (433 xəstədən 85-ində), dərman örtüklü stent qoyulmuş xəstələrin təqribən 9%-ində (567 xəstədən 51-ində) təkrari stenoz yaranmışdır.

Restenoz olan xəstələrin 85-nə (62,5%) standart metal (örtüksüz) stent və 51-nə (37,5%) sirolimus/analoqları örtüklü stent qoyulmuşdur (şəkil 1). Restenoz olmayan qrupda isə bu göstəricilər müvafiq olaraq - 348 (40,3%) və 516 (59,7%) təşkil etmişdir (hər iki halda, $p < 0,01$).


Göründüyü kimi, restenoz nisbətən çox hallarda holometallik stent implantasiyası aparılan xəstələrdə, nisbətən az hallarda isə dərman örtüklü stent qoyulmuş xəstələrdə müşahidə olunmuşdur.

Şəkil 2-də hər iki qrup xəstələrdə qoyulan stentlərin sayı müqayisəli şəkildə verilmişdir.

Cədvəl

Restenoz olan və restenoz olmayan xəstələrdə ilkin angioqrafik göstəricilərin təhlili

Göstəricilər	Restenoz olan xəstələr (n =136)	Restenoz olmayan xəstələr (n = 864)	P
Zədələnmiş koronar arteriyalar:			
Sol enən arteriya	47 (34,6%)	197 (22,8%)	< 0,01
Dolanan arteriya	45 (33,1%)	334 (38,7%)	< 0,05
Sağ koronar arteriya	44 (32.3%)	333 (38,5%)	< 0,05
Stentin tipi:			
Standart metal (örtüksüz) stent	85 (62,5%)	348 (40,3%)	< 0,01
Sirolimus/analoqları örtüklü stent	51 (37,5%)	516 (59,7%)	< 0,01
İmplant olunan stentlərin sayı:			
1	24 (17,6%)	484 (56,0%)	< 0,001
2	53 (39,0%)	221 (25,6%)	< 0,05
3	59 (43,4%)	159 (18,4%)	< 0,001
Stentin diametri, mm	2,82 ± 0,52	2,79 ± 0,51	> 0,05
Stentin uzunluğu, mm	18,3 ± 7,80	18,2 ± 7,74	> 0,05



Şək. 1. Restenoz olan və restenoz olmayan qruplarda standart metal və dərman örtüklü stent qoyulan xəstələrin sayı


Şəkildən aydın görünür ki. restenoz olan qrupda xəstələrə qoyulan stentlərin sayı restenoz olmayan qrupla müqayisədə əhəmiyyətli dərəcədə çoxdur. Belə ki, restenoz olmayan qrupda 2 və 3 stent qoyulan xəstələrin sayı müvafiq olaraq 25,6% və 18,4% olduğu halda, restenoz olan qrupda bu göstərici əhəmiyyətli dərəcədə çox olmuş və müvafiq olaraq- 39% və 43,4% təşkil etmişdir.

Tədqiqata cəlb olunmuş hər iki qrup xəstələrdə stentin diametri və uzunluğu demək olar ki, bir-birindən fərqlənməmişlər (hər iki halda, p>0,05). Bununla belə, restenozolan qrupda stent implantant olunan arteriyaların diametri 2,5-3,5 mm olmuşdur. Maraqlı cəhət ondan ibarətdir ki, restenozun rastgəlmə tezliyi ilə zədələnmiş koronar damarın diametri arasında əlaqənin olması müəyyən edilmişdir (şək.3)

Şəkil 3-dən göründüyü kimi, stent qoyulmuş damarın diametri kiçildikcə, restenozun rastgəlmə tezliyi artmışdır. Belə ki, restenoz olan xəstələrin cəmi 2%-də damarın diametri 3,5 mm-dən çox olmuşdur, 18% xəstədə bu ölcü -3,5-3,2 32% xəstədə - 3,2-3,5 mm, ən çox, yəni 48% xəstədə damarların diametri 2,8 mm-dən az olmuşdur.

Restenoz qrupunda stentin uzunluğu xəstələrin 7-də (5,1%) 10 mm-ə qədər, 74 nəfərində (54,4%)= 10-20 mm, qalan 55 (40,5%) xəstədə - 20 mm-dən uzun olmuşdur. Bu da ona dəlalət edir ki, restenozun yaranma ehtimalı stentin uzunluğu ilə paralellik təşkil edir.

Nəticə: Beləliklə, tədqiqatımızın nəticələri restenozun inkişafında angioqrafik risk amillərinin rolunu təsdiq edir. Standart holometallik, uzun və dar mənfəzli stent implantasiyasından sonra restenozun yaranma ehtimalı yüksəkdir.



Şək.2. Restenoz olan və restenoz olmayan xəstələrə qoyulan stentlərin sayı (%)



Şək.3. Restenozun rastgəlmə tezliyi ilə zədələnmiş koronar damarın diametri arasında əlaqə

ƏDƏBİYYAT

1. Беленков Ю.Н., Самко А.Н., Батыралиев Т.А. и др. Коронарная ангиопластика, взгляд через 30 лет // Кардиология. 2007, No 9, с. 4-14

2.Mehran R., Mintz G.S., Popma J.J. et al. Mechanisms and results of balloon angioplasty for the treatment of in-stent restenosis // Am J Cardiol 1996, v.78, 618-22

3.Nakatani M., Takeyama Y., Shibata M. et al. Mechanisms of restenosis after coronary intervention, difference between plain old balloon angioplasty and stenting // Cardiovasc. Pathol, 2003, v.12, p.40- 48

4.Schoebel F.C., Gradaus F., Ivens K. et al. Restenosis after elective coronary balloon angioplasty in patients with end-stage renal disease, a case control study using quantitative coronary angiography // Heart, 1997, v.78, p.337–342

5.Alfonso F., Sandoval J., Perez-Vizcayno M.J. et al. Mechanisms of balloon angioplasty and repeat stenting in patients with drug-eluting in-stent restenosis // Int J Cardiol. 2015, v.178, p.213-20

6.Козлов К.Л. Интервенционная кардиология. Нейроиммуно-эндокринные механизмы реваскуляризации миокарда. СПб.: Наука, 2012, 140 с.

7.Fokkema M.L., James S.K., Albertsson P. et al. Population trends in percutaneous coronary intervention, 20-year results from the SCAAR (Swedish Coronary Angiography and Angioplasty Registry) // J Am Coll Cardiol., 2013, v.61(12), p.1222-30

8.Muramatsu T., Onuma Y., Zhang Y.J. et al. Progress in treatment by percutaneous coronary intervention, the stent of the future // Rev. Esp. Cardiol. 2013, v. 66, p. 483-496

9.Березовская Г.А., Ганюков В.И., Карпенко М.А. Рестеноз и тромбоз внутри стента // Российский кардиологический журнал. 2012, №6, с.91-95

10.Самко А.Н., Меркулов Е.В., Власов В.М., Филатов Д.Н. Рестеноз, причины и механизмы развития при различных видах эндоваскулярного лечения // Атеросклероз и дислипидемии, 2014, №1, с.5-8

11.Федорченко А.Н. Рестеноз как основная проблема после чрескожных коронарных вмешательств: Автореф. дис. ...д-ра мед.наук. Новосибирск, 2009, 30 с.

12.Черкавская О.В. Отдаленные результаты эндоваскулярного лечения при использовании различных типов стентов у больных ишемической болезнью сердца: Автореф. дис. ... д-ра мед. наук. М., 2012, 40 с.

13.Fujii N., Asano R., Nagayama M. et al. Long-term outcome of first-generation metallic coronary stent implantation in patients with coronary artery disease, observational study over a decade // Circ. J., 2007. v.71, p.1360-5

14.Garcia S., Murray S.T., Moritz T.E. et al. Culprit coronary lesions requiring percutaneous coronary intervention after vascular surgery often arise from in-stent restenosis of bare metal stents // Ann. Vasc. Surg, 2010, v.24, p. 596-601

15.Ma X., Wu T., Robich M.P. et al. Drug-eluting stents // Int. J. Clin. Exp. Med., 2010, v.3, p.192-201

16.Миронов В.М., Меркулов Е.В., Самко А.Н. Чрескожные коронарные вмешательства с использованием биорастворимого стента, опыт клинического применения // Атеросклероз и дислипидемии, 2013, No 4, с.16-20

17.Dangas G.D., Claessen B.E., Caixeta A. et al. In-stent restenosis in the drugeluting stent era // J. Am. Coll. Cardiol, 2010, v. 56, p. 1897-1907

18.Moses J.W., Leon M.B., Popma J.J. et al. Sirolimus-eluting stents versus standard stents in patients with stenosis in a native coronary artery // N. Engl. J. Med, 2003, v. 349, p. 1315-1323

19.Stefanini GG, Holmes DR, Jr. Drug-eluting coronary-artery stents // N Engl J Med 2013, 368,254-65

20.Aminian A., Kabir T., Eeckhout E. Treatment of drug-eluting stent restenosis, an emerging challenge // Catheter. Cardiovasc. Interv, 2009, v. 74, p. 108-116

21.Moussa I., Leon M.B., Baim D.S. et al. Impact of sirolimus-eluting stents on outcome in diabetic patients, a SIRIUS (SIRolImUS-coated Bx Velocity balloon-expandable stent in the treatment of patients with de novo coronary artery lesions) substudy //Circulation, 2004, v.109, p.2273-8

22.Sabate M., Jiménez-Quevedo P., Angiolillo D. J. et al. Randomized comparison of sirolimus-eluting stent versus standard stent for percutaneouscoronary revascularization in diabetic patients, the diabetes and sirolimuseluting stent (DIABETES) trial // Circulation, 2005, v.11, p.2175–2183

23.Schampaert E., Cohen E.A., Schluter M. et al. The Canadian study of thesirolimus-eluting stent in the treatment of patients with long de novo lesions in small native coronary arteries (C-SIRIUS) // J Am Coll Cardiol., 2004, v.43, p.1110-5

24.Schofer J., Schluter M., Gershlick A.H. et al. Sirolimus-eluting stents for treatment of patients with long atherosclerotic lesions in small coronary arteries, double-blind, randomised controlled trial(E-SIRIUS) // Lancet. 2003, v.362, p.1093-9

25.Ishikawa K., Aoyama Y., Hirayama H. Management of drug-eluting stent restenosis // J. Invasive Cardiol, 2012, v. 24, p.178-182

26.Герасимов А.М., Черкавская О.В., Масленников М.А. и др. Клеточные механизмы, клинические и морфологические факторы риска развития рестеноза // Вестн. рентгенол. радиол., 2011, № 4, с. 58-65 27.Cassese S., Byrne RA., Tada T. et al. Incidence and predictors of restenosis after coronary stenting in 10 004 patients with surveillance angiography // Heart, 2014, v.100, p.153-9

28.Chatani K., Muramatsu T., Tsukahara R. et al. Predictive factors of re-restenosis after repeated sirolimus-eluting stent implantation for SES restenosis and clinical outcomes after percutaneous coronary intervention for SES restenosis // J. Interv. Cardiol, 2009, v.22, p. 354-361

29.Chen J., Chen Y., Tian F. et al. Predictors of in-stent restenosis in coronary heart disease patients complicating with diabetes mellitus within 2 years after drug-eluting stents implantation // Zhonghua Xin Xue Guan Bing Za Zhi, 2014, v.42, p. 14-18

30.Park C.B., Park H.K. Predictors of diffuse-type in-stent restenosis following drug-eluting stent implantation // Exp. Ther. Med, 2013, v. 5, p. 1486-1490

31.Zurakowski A., Wojakowski W., Dzielski T. et al. Plasma levels of C-reactive protein and interleukin-10 predict late coronary in-stent restenosis 6 months after elective stenting // Kardiol. Pol, 2009, v. 67, p. 623-630

Резюме

Ангиографические факторы риска рестеноза коронарных сосудов

V.Ə. Əzizov, S.Z.Hacıyeva, F.N.İbrahimov

В настоящем исследовании представлены данные наблюдения 1000 пациентов с ишемической болезнью сердца после чрескожных коронарных вмешательств. В результате проведенного исследования нами были выявлены ангиографические факторы риска развития рестенозов коронарных артерий в отдаленном периоде. Таким образом, малый диаметр коронарных артерий, имплантация коронарных артерий длинными, а также голометаллическими стентами сопровождается повышенной частотой развития рестенозов.

Summary

Angiographic predictors of coronary restenosis.

V.A.Azizov, S.Z.Hajieva, F.N.Ibrahimov

We retrospectively analyzed 1000 patients after percutaneous coronary intervention with stents.The results of this study showed the predictors of coronary restenosis in the long-term follow up periods. We revealed that the small coronary artery diameter, the long length stent and bare metal stent implantation are associated with increased risk of coronary restenosis.

Daxil olub: 22.08 2018

LEYŞMANIOZ. MUKOKUTANOZ FORMA

F.R. Mahmudov, V.S. Sultanov, V.M. Pənahian, G.N. Kərimbəyova

Azərbaycan Tibb Universiteti, Dermatovenerologiya kafedrası, Bakı; *Sologran Limited, Melburn, Avstraliya Azərbaycan Tibb Universiteti, Otorinolarinqologiya kafedrası, Bakı*

Açar sözlər: leyşmania, mukokutanoz leyşmania, küknar xlorofil-kerotin məcun

Ключевые слова: лейшманиоз, мукокутанозный лейшманиоз, хвойная хлорофиллокаротиновой паста

Key words: leishmaniasis, mucocutanosis leishmaniasis, coniferous chlorophyll-carotene paste

Dəri leyşmaniası parazitar dəri xəstəlikləri qrupuna aiddir. Xəstəliyi leyşmania cinsindən olan ibtidailər törədir. Əsasən 4 klinik forması ayırd edilir: dəri leyşmaniozu (Köhne və Yeni dünya), dəri-selikli qişa leyşmaniozu (mukokutanoz forma), diffuz dəri leyşmaniozu və visseral leyşmania. Dəri leyşmaniozunda ağcaqanadların sancdığı yerdə bir və ya bir neçə papula (düyüncük və ya qabarcıq) əmələ gəlir, xoralaşır və çapıq qoymaqla sağalır [4].

Ümumdunya Səhiyyə Təşkilatının verdiyi məlumata əsasən 80-ə yaxın ölkədə 350 milyon insan aktiv parazitə yoluxmanın mümkün ola biləcəyi ərazilərdə yaşayır. Təxminən 20 milyondan çox insan aktiv leyşmanioz xəstəsidir [6]. Və hər il 2 milyon insan da bu siyahiya yeni yoluxmuş kimi əlavə olunur [5].

Köhnə dünyanın dəri leyşmaniasında yaranmasında leishmania tropica major (zoonoz tip), leishmania tropica minor (antroponoz tip); Yeni dünyanın dəri leyishmanın yaranmasında leishmania - mexicana, amazonensis, venezuelensis, peruviana və s.; mukokutanoz leyishmanianın yaranmasında isə leishmania brasilensis (espundiya) və s. törədicilər mühüm rol oynayır [4]. Leyishmania törədiciləri sağlam insana flebotomus cinsindən olan ağcaqanadların 2 növü ilə -phlebotomus papatasi və phlebotomus sergenti vasitəsilə yoluxur [6].

Leyishmanianın müalicəyə çətin tabe olan formalarından biri dəri və selikli qişaların birgə zədələnməsi ilə müşahidə olunan mukokutanoz formasıdır [3]. Əsasən Amerika qitəsində rast gəlinən bu formanın törədicisi L.brasiliensis complexdir [5]. Leyishmaniyanın bu formasında burnun selikli qişasında iltihab, ödem, qanaxma, burun arakəsməsinin və burun qanadlarının qığırdaq hissəsinin dağılması, dodağın, dilin, damaq badamcıqlarının, damağın, hətta bəzi hallarda traxeya və qırtlağın da zədələnməsi baş verir. Proses illərlə davam edə bilər [4].

Dəri leyşmaniyasının differensial diaqnostikası impetiqo, furunkul, karbunkul, ektima, sibir xorası, dəri vərəmi, 3-cülü sifilis (qumma), frambeziya, sporotrixoz, kerion, miaz, drankunkulyoz, ziyillər, Buruli xorası, yad cisim qranuleması, keratoakantoma, bazalhüceyrəli və yastıhüceyrəli dəri xərçəngi kimi xəstəliklərlə aparılır [3].

Xəstəliyə diaqnoz mikroskopiya (zədəli yerlərdən hazırlanmış yaxmanın), kultivasiya (NNN mühitində biopsiya materiallarının və ya incə iynə aspiratının əkilməsi), PCR (biopsiya materialı və aspiratlarda) metodlarından istifadə etməklə qoyulur [1,3,6].

Dəri leyşmaniozunun müalicəsi yerli və sistem şəklində olmaqla 2 istiqamətdə aparılır. Yerli terapiyaya sürmə preparatlarının ocaqdaxili inyeksiyası, krioterapiya, ultrasəs terapiya, ocağın cərrahi ləğvi, elektrokoaqulyasiya kimi metodlar daxildir. Sistem terapiyada isə natrium-stiboqlukonat, meglumin, amfoterisin B, pentamidin, ketokonazol adlı dərman vasitələrindən istifadə olunur [1,3,4].

Kliniki müşahidələr göstərir ki, yerli terapiya zamanı estetik cəhətdən pasienti narahat edən dəri çapıqları və toxuma defektlərinin yaranması qaçılmazdır. Belə defektlərin olma ehtimalını aşağı endirmək üçün yerli terapiyada istifadə olunan dərman maddələrinin siyahısına təbii mənşəli XXKП (хвойная хлорофиллокаротиновой паста) adlı pastanın əlavə olunması məsləhətdir.

Bu preparat şam ağacının iynəyarpaqlarından xüsusi metodlarla əldə olunmuş ekstraktdan təşkil olunmuşdur. Tərkibinə xlorofil törəmələri, karotinoidlər (beta-karotin və digər karotinlər), bəzi yağ turşularının natrium duzu, mumabənzər maddələr, efir yağları, fitosterinlər, poliprenollar, labdanoidlər, antioksidantlar, əvəzolunmaz aminturşular, bioflavanoidlər, A,E,K,B,F vitaminlərinin provitaminləri, C vitamini və digər təbii komponentlər daxildir. Pastanın tərkibindəki maddələrin bakterisid, antiparazitar, immunstimulyator, dezodarasiyaedici, regenerasiyaedici, antioksidant, antiaterosklerotik, antikanserogen və s. kimi müsbət təsirlərə malik olması onun yanıqların, müxtəlif mənşəli yaraların, kolpitlərin, vulvovaginitin, uşaqlıq boynu eroziyasının müalicəsində istifadəsinə imkan verir [2].

Aşağıda sizlərə klinik təcrübəmizdən olan iki xəstə təqdim edilir :


Xəstə F.D. (25 yaş, qadın) 14.05.2018-ci il tarixində Respublika Dəri-Zöhrəvi Dispanserinə (bundan sonra RDZD) burnun sağ qanadında atrofiya (şəkil 1), burunda qanaxma, qaşınma, burun boşluğunun sağ hissesinin bayır divarının selikli qişasında xora şikayətləri ilə müraciət etmişdir. Toplanılan anamnezdən mələmdur ki, xəstə F. özünü 2017-ci ildən xəstə hesab edir. Proses burunda qaşınma ilə başlamışdır. Və həmin ildən burunda kiçik deformasiya yaranmağa başlayıb. Bununla əlaqədar ilk dəfə həkimə 2017-ci il mart ayında müraciət etmişdir və xəstəyə burnun sağ hissəsinin ekzeması diaqnozu qoyulmuş, bu istiqamətdə müalicə təyin olunmuşdur (solkoseril gel, triderm krem). Aparılmış müalicə effekt verməmişdir. Qeyd etdiymiz kimi 2018.05.14 tarixində xəstənin bizə müraciəti zamanı burnun selikli qişasından yaxma götürülmüş və mikroskopik müayinə edilmişdir. Mikroskopiya zamanı görmə sahəsində çoxlu miqdarda Borovski cisimcikləri aşkarlanmışdır (şək.2). Bununla yanaşı aparılan rinoskopiya zamanı xəstənin burun boşluğunda eroziyalar müşahidə olunub (şək.3). Aparılan müayinələrin nəticəsi olaraq xəstəyə leyşmanianın mukokutanoz forması diaqnozu qoyulmuşdur. Mövcud diaqnoza əsasən xəstəyə ənənəvi terapiya metodu (qlukantim inyeksiya, metronidazol) ilə yanaşı küknar xlorofil-kerotin məcun də təyin olunmuşdur. Müalicə müddətində burnun selikli qişasında olan eroziyaların epitelizasiyasının ənənəvi terapiya ilə müqayisədə daha sürətli getdiyi rinoskopik müayinələr zamanı müşahidə olunmuşdur (şək.4).

İkinci xəstə S.M.(49 yaş, qadın cinsi) 04.04.2018-ci il tarixində burun arakesmesinin qığırdaq hissəsinin atrofiyası, burun qanadlarının aşağı kənarı və burun zirvəsinin qismən atrofiyası (şək.5), burun boşluğu


selikli qişasının eroziyası (şək.8,9) şikayətləri ilə RDZD-ye müraciət etmişdir. Anamnezdən məlumdur ki, şəxs özünü 2008-ci ildən xəstə hesab edir. Xəstənin dediyinə görə, xəstəlik ilk dəfə sızanaqşəkilli səpgi ilə başlamışdır. Uzun müddət həkimə müraciət etməmişdir. Xəstəliyi ilə əlaqədar ilk dəfə 2014-cü ildə müalicə almışdır. Lakin müalicə qənaətbəxş olmamışdır.

RDZD-yə müraciət zamanı xəstənin burnunun zədəli nahiyəsindən götürülmüş bioptatın patohistoloji müayinəsinin (şək.6) nəticəsində orta dərəcəli displaziya, yastı epitelin hiperplaziyası, hiperkeratoz; burun zədəli nahiyəsinin dərisindən və selikli qişasından alınmış materialın mikroskopik müayinəsi zamanı isə Borovski cisimcikləri aşkarlanmışdır (şək.7). Əlavə müayinə kimi rinoskopiya (şək.8,9) da aparılmışdır. Xəstəyə leyşmania əlehinə ənənəvi dərman terapiyası (qlukantim, metronidazol, metrogel) ilə paralel XXKП pastası da təyin olunmuşdur. Müalicə müddətində aparılan müayinələr zamanı burnun selikli qişasında olan eroziyalarda epitelizasiyanın sürətləndiyi rinoskopik müayinələr zamanı müşahidə olunmuşdur (şək.10).


Pastanın müalicə məqsədilə təyini zamanı alınan nəticələr göstərir ki, bu istiqamətdə tədqiqatları davam etdirmək olar.




Şək.1. (oxla distrofiya göstərilmişdir)



Şək.2 .(oxla Borovski cisimcikləri göstərilmişdir)



Şək.3 (rinoskopiya, oxla eroziya ocağı göstərilmişdir, müalicədən əvvəl)




Şək.4 (rinoskopiya, oxla eroziya ocağının müalicədən sonrakı vəziyyəti göstərilmişdir)




Şək. 5.Oxla atrofiya sahələri göstərilmişdir




Şək.6. Bioptatın patohistoloji müayinəsi



Şək. 7. Oxla Borovski cisimcikləri göstərilmişdir



Şək.8.Rinoskopiya, oxla eroziya ocaqları göstərilmişdir



Şək. 9. Rinoskopiya, oxla eroziya ocaqları göstərilmişdir



Şək.10. Rrinoskopiya, oxla eroziya ocağının müalicədən sonrakı vəziyyəti göstərilmişdir

ƏDƏBİYYAT

1.Кацамбаса А.Д., Лотти Т.М., Европейское руководство по лечению дерматологических болезней / пер. с английского В.П. Адаскевич. 2-е издание, М.: МЕДпресс-информ, 2009, с.280-283.

2.Козлова Н.С., Султанов В.С., Васильев О.Д. и др. Оценка антимикробной активности хвойной хлорофилло-каротиновой пасты в сравнениис маслом чайного дерева / IX Съезд Всероссийского научно-практического общества эпидемиологов, микробиологов и паразитологов. Итоги и перспективы обеспечения эпидемиологического благополучия населения РФ. М., 2007

3.Скрипкин Ю.К., Бутова Ю.С., Клиническая дерматовенерология, руководство для врачей в 2 тома. М.: ГЭОТАР-Медиа, 2009. Том I, с.350-372.

4.Фицпатрик Т., Джонсон Р., Вулф К. и др. Дерматология. Атлас- справочник. Практика. Москва, 1999, с.870-877

5.Baykal Can, Dermatoloji atlası, 3.baskı. Nobel Tıp Kitapevi, 2012., Cilt 1, s. 108-111

6.Tüzün Yalçın, Serdaroğlu Server, Erdem Cengizhan ve b. Dermatolojide tedavi. İstanbul: Nobel Tıp Kitapevi, 2010, s. 466-474

Резюме

Лейшманиоз. Мукокутанозная форма

Ф.Р. Махмудов, В.С. Султанов, В.М. Панахиан, Г.Н.Керимбекова

Кожная лейшмания относится к группе паразитарных кожных заболеваний. Болезнь вызывают простейшие из семейства лейшмании. В основном, выделяют 4 клинические формы лейшмании: кожный лейшманиоз (Древний и Новый мир), лейшманиоз кожи и слизистой оболочки (мукокутанозная форма), диффузный кожный лейшманиоз и висцеральная лейшмания. При кожном лейшманиозе на месте укуса комара образуется одна или несколько папул (узелочки или выпячивания) с изъязвлением и заживает, но на этом месте остается рубец [4]. Из клинических наблюдений видно, что при местной терапии неизбежно образование кожных рубцов и дефектов тканей, с эстетической точки зрения очень беспокоящих пациентов. Для снижения допустимости таких дефектов в список лекарственных веществ, используемых при местной терапии, целесообразно включение и ХХКП (хвойной хлорофиллокаротиновой пасты) природного происхождения.

Summary

Leishmaniasis. Mucocutanus form

F.R. Mahmudov, V.S. Sultanov, V.M. Panahian, G.N.Kerimbekova

Cutaneous leishmania refers to the group of parasitic skin diseases. The disease is caused by the simplest of the Leishmania family. Basically, 4 clinical forms of Leishmania are distinguished: cutaneous leishmaniasis (Ancient and New World), leishmaniasis of the skin and mucous membrane (mukokutanozny form), diffuse cutaneous leishmaniasis and visceral leishmania. In cutaneous leishmaniasis, one or more papules (nodules or protrusions) with ulceration form and heal at the site of a mosquito bite and a scar is left in this place [4]. From clinical observations, it is clear that with local therapy, the formation of skin scars and tissue defects is inevitable, from an aesthetic point of view of very disturbing patients. To reduce the admissibility of such defects in the list of medicinal substances used in local therapy, it is advisable to include also HHCP (coniferous chlorophyll-carotene paste) of natural origin.

Daxil olub: 10.08 2018

DİŞ İMPLANTLARININ OSTEOİNTEQRASİYA PROSESİNDƏ SİTOKİNLƏRİN DİAQNOSTİK GÖSTƏRİCİLƏR KİMİ ROLU

T.G Mahmudov
Azərbaycan Tibb Universiteti, Bakı

Açar sözlər: dental implantasiya, diş-dişəti mayesi, mukozit, sitokinlər
Ключевые слова: дентальная имплантация, кровь, зубодесневая жидкость, мукозит, цитокины.
Key words: dental implantation, blood, dentogingival fluid, mucositis, cytokines.

Son 25 il ərzində tam və ya qismən adentiya olan xəstələrin reabilitasiyası üçün diş implantları ilə itkin dişləri dəyişilməsində qayğı standarta çevrilmişdir [1,7,12]. Bu əhəmiyyətli irəliləyiş osteointeqrasiya konsepsiyasına əsaslanır; yaşayan alveolar sümük və diş implantının bir yük daşıyıcısı kimi birbaşa struktur və funksional bir əlaqə olaraq təyin olunur [1,2,12].

Osteointeqrasiya prosesin mexanizmi sümüklərin birincili sağalma ilə oxşardır, burada mediatorun şəlaləsi ilə iltihabı proses hematoma, eləcə də cərrahi zədələnmədən sonra qan dövranın sirkulyasiyaya səbəb olur. Bunun nəticəsində, regenerasiya baş verir və beləliklə, yara sümük toxuması ilə əvəz olunur [3,5,8].

Induksiya olunan toxuma reaksiyasının növü implant materiallarının biouyğunluq dərəcəsi, yəni orqanizmə yerləşdirilən implantın toxumalara uyğun olaraq mövcud olması və fibroz kapsulun meydana gəlməsi və onun yoluxması kimi zərərli dəyişikliklər etməməsi ilə müəyyən edilir [5,7].

Əslində, normal şəraitdə sümük kütləsini, bir-birini balans edən osteoblast vasitəçiliyi olan sümük formasiyası ilə osteoklast vasitəçiliyi ilə sümük rezorbsiyasiyasının bağlanma yolu ilə, dəstəkləyir. Bu proses hormonlar və lokal sitokinlər tərəfindən tənzimlənir [7,10]. Məlumdur ki, implant materialları inert ola bilər və interleykin-1 (İL-1), interleykin-8 (İL-8) və şiş nekroz amil-alfa (ŞNA-alfa) kimi yüksək sitokin səviyyəsini təşkil edə bilər [4,6]. Bəzi tədqiqatlarda qeyd olunmuşdur ki, uğursuz diş implantları əhatə edən toxumalarda qeyri-normal immun cavabı periimplantat və periodontal toxumaları məhv edə bilən makrofaqlar, T-limfositlər, endotelial hüceyrələr, fibroblastlar, keratinositlər, osteoklastlar və osteoblastlar kimi müxtəlif tip hüceyrələrlə bağlıdır [6]. Bütün bu hüceyrələr, aktiv olduqları halda, iltihab və osteolitik proseslərə vasitəçilik edən sitokinləri və lipid mediatorları sintez edə və sərbəst buraxa bilər [7,14].

Sitokinlər çox funksional zülal və qlikoproteinlər olub, yerli və sistem səviyyəsində hüceyrələr arası tənzimləyici amillər kimi fəaliyyət göstərir. Onlar lokal iltihab toxuma infiltratlarında immunokompetent hüceyrələr tərəfindən istehsal olunur. Eyni zamanda, fibroblastlar, epiteliya və endotelial hüceyrələr kimi periodontal toxuma komponentləri də iltihabi reaksiyalar zamanı sitokinlərin formalaşmasında iştirak edirlər [11]. Beləliklə, periimplant xəstəliyinin (mukozit və periimplantit) markerləri kimi sitokinlərin (İL-1, İL-8 və ŞNA kimi) faydalılığı öyrənilmişdir [4,11]. Göstərilmişdir ki, plazmada sitokinlərin səviyyəsi dental əməliyyatdan sonra artır və periodontal sağlamlıq, ağız boşluğunda reaktiv və suppressor immun hüceyrələri, onların sitokinləri və mediatorlar arasında yerli balansından asılıdır [11].

Son 10 il ərzində sitokinlərin faydalı diaqnostik göstəriciləri kimi rolu araşdırılmışdır. Sitokinlər periimplant xəstəliyinin mövcudluğunu və ya olmamasını göstərə bilər və ya müalicənin nəticəsini göstərir. Bu da öz növbəsində eyni hallarda əlavə tibb proseduraların ehtiyacını istisna edir. Ədəbiyyat məlumatına görə iltihabönü sitokin və xemokinlərin artmış səviyyəsi iltihab səviyyəsi ilə əhəmiyyətli dərəcədə korrelyasiya edir [11].

Bütün yuxarıda sadalanan hazırki araşdırmanı aparmağa bizi vadar etdi.

Tədqiqatın məqsədi dental implantasiyadan əvvəl və sonra xəstələrdə qan və diş əti mayedə sitokin səviyyəsinin öyrənilməsi olmuşdur.

Tədqiqatın material və metodları. Dental sümükdaxili implantasiya 45-60 yaş arasında (orta yaş 54,6 ± 4,17) olan 164 nəfərdə həyata keçirilmişdir. Müayinə olmuş pasiyent arasında kişilərin sayı 78 (47,6%), qadınların isə 86 (52,4%) olmuşdur. 3 dişdən çox diş itkisinə məruz qalan xəstələr üstünlük təşkil etmişdir – 75,6% (124 xəstə). Diş itkisinin səbəbi ağırlaşmış karies, parodontit göstərilmişdir. 83 (50,6%) xəstədə madə-bağırsaq traktın xəstəlikləri, 59 (36,0%) xəstədə LOR-orqan və allergik xəstəliklər olmuşdur. 22 (13,4%) xəstədə yanaşı gedən xəstəliklər qeyd edilməmişdir. Kəskin mərhələ ilə ağır somatik xəstəliklərə məruz qalmış, mədə-bağırsaq sistemin xora-eroziv pozğunluqlarla, anamnezdə miokard infarktı olan, antikoaqulyant, kortikosteroid müalicəni qəbul etməyən xəstələr tədqiqata daxil olmamışdır.

Xəstələrin hamısına dental implantasiya bir və iki mərhəli LORGide membrana 25x25 mm (Almaniya) metodikası ilə aparılıb. Cəmi 641 implant qoyulmuşdur: 16 (9,7%) xəstəyə 2 implant, 24 (14,6%) xəstəyə 3 implant, 83 (50,6%) – 4 implant və 41 (25,0%) xəstəyə 5 implant qoyulmuşdur.

Nəzarət qrupu eyni yaşda olan 20 könüllülər təşkil etmişdir. Onlardan 9 (45,0%) kişi, 11 (55,0%) qadın

olmuşdur.

Tədqiqat Dünya Tibb Assosiasiyasının Helsinki Deklarasiyasına uyğun olaraq aparılmışdır. Xəstələr yazılı şəkildə öz razılığını bildirdilər.

Müayinə sorğu, anamnezin təhlili və baxışı, ağız boşluğun klinik vəziyyətini daxil edən ümumi qəbul edilmiş metodika əsasında aparılmışdır. Rentgenoloji müayinə xəstələrin hamısında sümükdaxili implantasiya əməliyyatdan əvvəl, əməliyyat günü, əməliyyatdan sonra və ikinci mərhələnin əvvəlində aparılmışdır. Əvvəlcə və müşahidələrin dinamikasında ağız boşluğunun gigiyenik vəziyyəti Green-Vermillion (1964), diş ərpi vizual, damağın qanaması Muhleman H.R. və Cowell I. (1975) görə qiymətləndirilmişdir.

Xəstənin implantasiyadan sonrakı dövrdə klinik vəziyyəti implant sahəsində ağrı olması, bədən hərarətinin artması, ağız boşluğun selikli qişasının şişməsi və lokal hiperemiya, yaradan ifrazat, reqional limfa düyünlərinin böyüməsinə görə müəyyənləşdirilirdi. İmplantasiyadan sonrakı dövrün gedişi xəstələrin hamısında 1-3 və 7 sutkada öyrənilmişdir.

Diş mayesi hər bir implantdan "F" steril filtr kağız zolaqlar vasitəsilə yığılırdı. Biomaterialın yığılması aşağıdakı kimi aparılnmışdır: ağızın aspirasiya ilə qurutması; diş əti şırımı sahəsini ağız sudan pambıq çubuqlarla təcrid edilməsi; sahənin yumşaq qurutması; steril kağız zolaqlarını implant və diş əti arasındakı şırıma yerləşdirərək bu mövqeyi 30 saniyə saxlamaq vasitəsilə maye nümunələrini almaq. Daha sonra hər bir hopdurulmuş nümünə 1 ml 0,155 M natrium xlorid məhlulu olan Ependorf sınaq şüşəsinə yerləşdirilib, 10 dəq. ərzində Kombispin FVL-2400N (BioSan, Latviya) sentrifuqa-vorteks köməyi ilə silkələnirdi. Nəticədə, diş əti mayenin nümunələri 1: 200 olan nisbəti ilə əldə edilmiş, -40°C-də dondurulmuş və analizə qədər saxlanılmışdır.

Sitokin profili implantasiya prosesindən əvvəl və 6-7 gün sonra müayinə olunmuşdur. İltihabönü: İL-1β, İL-6, ŞNA-α, interferon-qamma (İFN-γ) və iltihab əleyhinə İL-4, İL-10 sitokinləri qan serumunda və diş əti mayesində bərk fazalı immunferment analizi metodu ilə «Протеиновый контур», «Вектор-Бест» (Rusiya Federasiyası) istehsalı olan immunferment test-sistemin köməyi ilə müəyyən edilmişdir.


Alınan məlumatın statistik işlənməsi Statistica version 7.0 (ABŞ) proqramın standart paketlərin istifadəsi ilə aparılmışdır.

Nəticələr və onların müzakirəsi. Klinikaya müraciət edərkən xəstələr dişətindən qanama, onun inkişaf xarakterini qeyd edərək, dişarası aralıqlardan ifrazatlardan, dişlərin statikasının pozulmasından şikayətlənirdirlər. Xəstələrdə diş əti üstü və altı diş çöküntüləri ilə təzahür olunan ağız boşluğunun qeyri-kafi qiqiyena baxımı aşkar olundu. Xəstələrdə OHI-S indeksin göstəricisi orta hesabla 2,64±0,53 şərti vah. (nəzarət - 0,40±0,06 şərti vah., p<0,001), qanama indeksi - 2,44±0,27 şərti vah. (nəzarət - 0, p<0,001) təşkil etmişdir. Xəstələr professional gigiyenik tədbirlər keçirmişlər, ənənəvi mikrob aleyhinə müalicə və bundan sonra, bilavasitə diş implantasiyadan əvvəl OHI-S və Muhleman-Cowell indekslərinin orta səviyyəsi müvafiq olaraq 0,62±0,06 ş.v. və 0,43±0,04 ş.v. təşkil etmişdir.

İmplantasiyadan dərhal sonra (1-2 gün) bütün xəstələr ağrı, şişkinlik və hiperemiya qeyd etmişlər, lakin 119 (72,6%) xəstədə 3-cü gün bu simptomlar geriləmişdi, 45 (27,4%) xəstədə isə implant sahəsindəki ödem və yumşaq toxuma hiperemiyası ilə təzahür olunan kəskin mukozit diaqnozu qoyulmuşdur. Buna uyğun olaraq xəstələr 2 qrupa bölünmüşdür: I qrupa – fəsadı olmayan 119 xəstə, II qrupa kəskin mukozitli 45 xəstə daxil edilmişdir.


Şək.1-də qan serumunda və şək.2-də diş əti mayesində implantasiyadan əvvəl və sonra sitokinlərin səviyyələri göstərilmişdir.

Əsas iltihabönü sitokinlərdən biri, T-limfositlər, monositlər, limfositlər, granulositlər, təbii killer və makrofaglar tərəfindən ifraz olunan, ŞNA-α-dır. İmplantasiyadan əvvəl xəstələrdə qan serumunda və dişəti mayedə bu sitokinin qatılığı nəzarətdən yüksək olsa da fərq əhəmiyyətli olmamışdır. İmplantasiyadan sonra ŞNA-α sistem səviyyəsi I və II qrup xəstələrdə müvafiq olaraq nəzarət dəyərlərindən orta hesabla 2,2 dəfə (p<0,05) və 15,6 dəfə (p<0,001), lokal səviyyəsi isə 2,5 dəfə (p<0,01) və 8,6 dəfə (p<0,001) çox olmuşdur. İmplantasiyadan sonrakı dövrdə bu sitokinin qatılığı II qrup xəstələrdə I qrupla müqayisədə həm qanda (7,0 dəfə, p<0,001), həm də diş əti mayesində (3,4 dəfə, p<0,01) artmışdır.



Qeyd: a-göstəricilər transplantasiyadan əvvəl; b – transplantasiyadan sonra

Şək.1. Serumda dental implantasiyadan əvvəl və sonra sitokinlərin qatılığı (pq/ml)



Qeyd: a-göstəricilər transplantasiyadan əvvəl; b – transplantasiyadan sonra

Şək.2. Diş əti müyesində dental implantasiyadan əvvəl və sonra sitokinlərin qatılığı (pq/ml)

IL-1β və IL-6 miqdarını öyrənərkən oxşar şəkil qeyd edildi. Hər iki qrupun xəstələrdə qan serumunda IL-1β səviyyəsi orta hesabla bir az aşağı idi, lakin əməliyyatdan sonra onun dəyəri artdı və fəsadı olmayan xəstələrdə (qrup I) artım nəzarət dəyərindən əhəmiyyətli dərəcədə fərqlənmirdi, kəskin mukozit olan xəstələrdə (II qrup) isə qanda IL-1β qatılığı orta hesabla 4,8 dəfə ($p < 0,01$) yüksək idi. İmplantasiyadan 6-7 gün sonda diş əti mayesində IL-1β miqdarı I qrup xəstələrdə nəzarət qrupa nisbətən bir az aşağı olduqda, kəskin mukozitlə xəstələrdə nəzarət göstəricilərlə müqayisədə 3,8 dəfə ($p < 0,01$) artıq olmuşdur. Qruplar arası analizi aşkar etmişdir ki, bu sitokinin səviyyəsi I qrupla müqayisədə II qrup xəstələrdə implantasiyadan sonra qanda (4,3 dəfə, $p<0,01$) və diş əti mayesində (4,0 dəfə, $p < 0,01$) artmışdır.


Diş implantasiyadan sonrakı dövrdə İL-6 miqdarının dəyişilməsi ŞNA-α və İL-1β ilə çox oxşar olmuşdur. İmplantasiyadan əvvəl İL-6 qatılığı qan serumunda və diş əti mayedə hər iki qrupda nəzarət qrupla müqayisədə əhəmiyyətli dərəcədə fərqlənməmişdir. İmplantasiyadan 6-7 gün sonra qanda və diş əti mayedə İL-6 səviyyəsinin artması qeyd edilmişdir, lakin I qrup xəstələrdə nəzarət qrupla müqayisədə qanda sitokinin

fərqi əhəmiyyətli olmadıqda, II qrupda İL-6-nın sistem səviyyəsi nəzarət dəyərindən 12,8 dəfə (p<0.001) və I qrup göstəricidən 11,3 dəfə (p<0,001) çox olmuşdur. İmplantasiyadan sonrakı dövrdə fəsadsız gedişi olan xəstələrdə İL-6 lokal səviyyəsi nəzarət səviyyəsindən 1,6 dəfə (p<0,05), kəskin mukozit olan xəstələrdə isə İL-6-nın orta lokal səviyyəsi nəzarətlə müqayisədə 16,0 dəfə (p <0,001) və I qrupla müqayisədə 9,7 dəfə (p <0,001) yüksək olmuşdur.

Diş implantasiyadan əvvəl xəstələrdə IFN-γ-nın qatılığı nəzarət ilə müqayisədə praktiki olaraq dəyişməmişdir. İmplantasiyadan sonra bu sitokinin miqdarı lokal və sistem olaraq azalmışdır. Əməliyyatdan sonrakı fəsadsız gedişi ilə xəstələrdə nəzarət qrupla statistik əhəmiyyətli fərq yox idi. İmplantasiyadan 6-7 gün sonra IFN-γ-nın miqdarı kəskin mukozit zamanı nəzarətlə müqayisədə qanda 1,6 dəfə (p<0,05), diş əti mayedə isə 1,4 dəfə (p<0,05) az olmuşdur.

Implantasiyadan 6-7 gün sonra iltihab əleyhinə İL-4 və İL-10 sitokinlərin sistem və lokal dəyişikliklərin təhlili hər iki qrup xəstələrdə qanda İL-4 səviyyəsinin statistik əhəmiyyətli artmasını göstərmişdir. Qanda İL-4 səviyyəsi I və II qrup xəstələrdə nəzarətlə müqayisədə müvafiq olaraq 2,3 dəfə (p <0,05) və 2,9 dəfə (p <0,05) artmışdır. Diş əti mayedə nəzatərlə müqayisədə statistik əhəmiyyətli artması (1,6 dəfə, p<0,05) ağırlaşmış gedişatı olan xəstələrdə qeyd edilmişdir. Digər iltihab əleyhinə sitokinin səviyyəsi - İL-10, İL-4-ən fərqli olaraq implantasiyadan sonrakı ağırlaşmış dövrdə aşağı düşmüşdür. İmplantasiyadan əvvəl İL-10 qatılığı qanda və diş əti mayedə xəstərlərdə nəzarətlə müqayisədə praktiki fərqlənmirdi. İmplantasiyadan sonra nəzarət qrupla müqayisədə sitokinin azalması müşahidə olunurdu, lakin implantasiyadan sonrakı dövründə ağırlaşmış gedişi olan xəstələrdə statistik əhəmiyyətli fərq aşkar edilmişdir (1,4 dəfə, p<0,05).

IL-1β-nin və IL-10 nisbətinin, yəni iltihabönü və iltihab əleyhinə sitokinlərin nisbətinin əmsalının hesablanması kəskin mukozit zamanı iltihabönü sitokinlərin hiperistehsalının üstünlüyünü göstərmişdir (şək.3).



Şək.3. Dental implantasiyadan sonra İL-1β/İL-10 nisbətinin əmsalı

Diş implantasiyadan 6-7 gün sonra, fəsadı olmayan xəstələrdə, IL-1β / IL-10 nisbəti qanda və diş əti mayedə nəzarətkindən bir qədər yüksək idi, ağırlaşmış gedişli xəstələrdə bu dəyər 6,2 dəfə (p<0,001) və 5,3 dəfə (p<0,001) müvafiq olaraq qan və diş əti mayedə nəzarət qrupdan yüksək olmuşdur. Fəsadsəz və fəsadlı gedişi olan xəstələrin qrup arası müqayisəli təhlil II qrupda nisbətin qanda 5,5 dəfə (p<0.001) və diş əti mayedə 5,0 dəfə (p <0,001) artmasını göstərmişdir.

Diqqətimizi o fakt cəlb etdi ki, iltihabönü sitokinlərin maksimal yüksək və iltihab əleyhinə maksimal aşağı dəyərləri 5 implantlı 41 xəstədə müşahidə olundu.

Beləliklə, diş implantasiyadan sonradan, xüsusilə ağırlaşmış gedişi zamanı, iltihabönü və iltihab əleyhinə sitokinlərin disbalansı müşahidə edildi. Ən gözə çarpan dəyişikliklər ŞNA-α, İL-1β və İL-6 tərkibində qeyd edildi. Yerli iltihab reaksiyanın meydana gəldiyi zaman, müayinə altında olan xəstələrin qanında ŞNA-α, İL-1β və İL-6 səviyyəsi dəyişdi, yəni aktiv lokal iltihabla yanaşı sistematik iltihab prosesi də artdı.

İL-1β, lokal və ya yerli müdafiə reaksiyalarına vasitəçilik edir, İL-6 iltihab və immun cavabın inkişafında və toxumaların zədələməsində böyük rol oynayır, ŞNA-α fagositozu artırır və İFN-γ bakteriyaları neytrallaşdırır [12]. Müəyyən olunmuşdur ki, İL-6 kəski iltihab zamanı immuntənzimyəlici xüsusiyyətlərə malikdir, bu da ona iltihabı kəskin fazadan xroniki fazaya çevirməsinə imkan verir, nəticədə mononuklear

При цитологическом анализе выявлено, что из 123 обследованных женщин I тип мазка по Папаниколау отмечался у 86 (69,9%) и II тип - у 37 (30,1%) беременных (табл.2).

Как видно, при цитологическом исследовании у беременных I группы в 37,% случаев выявлялись признаки воспаления, доброкачественных и реактивных изменений, что в сравнении со II группой было в 2,2 раз ($p<0,05$) чаще.

Среди всех обследованных женщин, несмотря на наличие воспалительных изменений у ряда пациенток, как с нормальным состоянием шейки матки, так и с изменениями шейки матки,

атипические изменения не были выявлены ни в одном случае.

Таблица 2
Результаты цитологического обследования беременных I и II групп

Группы обследования	Цитологическое заключение по классификации Папаниколау	
	Цитограмма норма (I тип)	Цитограмма воспаления (II тип)
I группа общее число (n=81)	51 (63,0%)	30 (37,0)*
в том числе: с эктопией (n=58)	36 (62,1%)	22 (37,9%)
с полипами (n=23)	15 (65,2%)	8 (34,8%)
II группа (n=42)	35 (83,3%)	7 (16,7%)

Примечание: * - достоверность различий показателей между группами, p<0,05

Таким образом, согласно данным анамнеза, до наступления настоящей беременности у большинства женщин I группы были выявлены факторы риска последующего развития изменений шейки матки. Так, заболевания шейки матки чаще отмечались у повторнобеременных женщин, составивших в I группе 72 (88,9%), во II группе - 14 (33,3%), анамнез которых был значительно чаще отягощен репродуктивными потерями 34,6% и 23,8% и искусственными абортами 37,0% и 19,0% соответственно в I и II группах. Обращала на себя внимание частая встречаемость в анамнезе полипов цервикального канала (18,5%), доброкачественных заболеваний шейки матки и полипов эндометрия (21,0% и 9,9%), эндоцервицита и воспалительных заболеваний придатков матки (8,7% и 71,6%) у беременных с изменениями шейки матки по сравнению с группой без изменений шейки матки - 2,4% и 11,9 соответственно.

Средняя длина шейки матки в I триместре составив 34,8±3,5 мм в I группе и 35,2±4,5 мм во II группе, увеличивалась и достигла максимального значения к 16-28 нед. беременности, затем она уменьшалась по мере созревания и раскрытия шейки. В литературе нет единого мнения о динамике длины шейки матки в течение нормальной беременности при исследовании с помощью трансвагинального УЗИ. В большинстве случаев обнаружено удлинение в середине беременности и последующее укорочение [9], но некоторые авторы не сообщают о каком-либо существенном изменении длины [10,11,13]. По данным O. Kushnir et al. [9], длина шейки матки прогрессивно нарастала до 20-25 недели беременности, достигая максимума 48 мм. K. Adhikari et al. [5], также выявили достоверное увеличение длины шейки матки во время беременности. Однако V. Smith et al. [11] в исследовании с использованием трансвагинальной ультрасонографии отметили, что длина шейки матки была постоянной, составляя в среднем 37 мм до конца третьего триместра. Так же A. Zorzoli et al. [13] отмечали, что средняя длина шейки матки (43 мм) значительно не изменялась. Наши данные согласуются с наблюдениями ряда авторов [3,6,9] в том, что длина шейки уменьшается в конце III триместра. Мы также выявили, что на длину шейки матки не влияют предшествующие беременность или роды. Однако, A. Zorzoli et al. [13] отметили, что у многорожавших женщин была более длинная шейка, чем у женщин с первой беременностью или предшествующим кесаревым сечением, и высказали предположение, что скорее механические, чем гормональные факторы имеют больший эффект на длину шейки матки.

У беременных женщин I группы, т.е. с высоким риском, средняя длина шейки матки в сроки 32-36 нед. составляла в среднем 37,8±4,2 мм, что короче по сравнению с женщинами II группы на таком же сроке беременности (в среднем 39,8±3,6 мм). Большинство сообщений свидетельствует, что длина шейки менее 20 мм при ультрасонографии является патологической независимо от метода исследования [5,8,10].

Диаметр внутреннего зева - наиболее важный показатель для прогнозирования несостоятельности шейки матки [5,6,9]. Средняя толщина шейки на уровне внутреннего зева в I группе составляла 32,0±3,6 мм в ранние сроки беременности (9-11 недель) с нарастанием в течение беременности до 45,8±4,2 мм. Полученные результаты соответствует данным V. Smith и et al. [11], которые обнаружили увеличение толщины шейки на уровне внутреннего зева в ходе беременности. По данным ряда авторов [7,12], средняя ширина внутреннего зева существенно не изменяется с 10-й до 36-й недели беременности. Однако эти авторы, использовавшие трансабдоминальное УЗИ в своем исследовании, применяли методику полного мочевого пузыря. Растяжение мочевого пузыря, как известно, искажает форму шейки, что делает ее более длинной и узкой и, следовательно, маскирует несостоятельность шейки. Внутренний диаметр зева прогрессивно возрастает до родов, так как увеличенный диаметр шейки на поздних сроках беременности скорее связан с расширением

цервикального канала, чем с утолщением стенки, поскольку раскрытие шейки влечет за собой ее истончение.

Следует отметить, что не менее важную роль в высокой частоте заболеваний шейки матки способствовал и тот факт, что в прегравидарный период пациентки не получали адекватного лечения, на что указывали результаты проведенного кольпоскопического исследования. Нормальные кольпоскопические картины наблюдались лишь в 38,2% случаев. К ним относился оригинальный многослойный плоский эпителий - 32,5% и эктопия без признаков воспаления - 5,7%.

Цитологическое исследование мазков у 123 беременных выявило нормограмму в 69,9% случаев, а 2 класс цитограммы - в 30,1% случаев. В последних случаях цитологическая картина была представлена эпителиальными клетками с незначительными морфологическими изменениями: небольшим увеличением ядра и единичными клетками метаплазированного эпителия, что указывало на признаки воспаления.

Таким образом, УЗИ, кольпоскопическое обследование шейки матки и цитологическое исследование мазков у беременных является важным диагностическим критерием, позволяющим на ранних этапах выявлять воспалительные процессы, не видимые при визуальном обследовании и выработать тактику ранней терапии с целью предотвращения развития эктопии или полипов.

ЛИТЕРАТУРА

1. Доброкачественные заболевания матки: А. Н. Стрижаков, А. И. Давыдов, В. М. Пашков, В. А. Лебедев. СПб, ГЭОТАР-Медиа, 2011, 288 с.
2. Заболевания шейки матки: М.: ГЭОТАР-Медиа, 2014, 160 с.
3. Клиническая онкогинекология. В 3 томах. Том 3: СПб: Практическая Медицина, 2012,348 с.
4. Куликов И.А., Сидорова И.С., Макаров И.О. Патологические состояния шейки матки во время беременности // Вопросы гинекологии, акушерства и перииатологии, 2009, Т.8, №5, с. 75-80.
5. Adhikari K., Bagga R., Suri V. et al. Cervicovaginal HCG and cervical length for prediction of preterm delivery in asymptomatic women at high risk for preterm delivery // Arch Gynecol Obstet, 2009, v.280, p. 565-572.
6. Ayers J.W., DeGrood R.M., Compton A.A. et al. Sonographic evaluation of cervical length in pregnancy: diagnosis and management of preterm cervical effacement in patients at risk for premature delivery // Obstet Gynecol, 1988, vol.71, p.939-944.
7. Bergelin I., Valentin L. Patterns of normal change in cervical length and width during pregnancy in nulliparous women: a prospective, longitudinal ultrasound study // Ultrasound Obstet Gynecol, 2001, v.18, p.217–222.
8. Berghella V., Roman A., Daskalakis C. et al. Gestational age at cervical length measurement and incidence of preterm birth // Obstet Gynecol., 2007, v. 110, p.311-317.
9. Kushnir O., Vigil D.A., Izquierdo L. et.al. Vaginal ultrasonographic assessment of cervical length changes during normal pregnancy // Am J Obstet Gynecol, 1990, v162, p.991-993.
10. Maitra N., Sharma D., Agarwal S. Transvaginal measurement of cervical length in the prediction of successful induction of labour // J Obstet Gynaecol, 2009, v. 29, p.388-391.
11. Smith V, Devane D, Begley CM, Clarke M, Higgins S. A systematic review and quality assessment of systematic reviews of fetal fibronectin and transvaginal length for predicting preterm birth // Eur J Obstet Gynecol Reprod Biol, 2007, v.133, p.134-142.
12. Soon Ha Yang, Cheong Rae Roh, Jong Hwa Kim. Transvaginal Ultrasonography for Cervical Assessment Before Induction of Labor / J Ultrasound Med., 2004, v.23, p.375–382.
13. Zorzoli A., Soliani A., Perra M. et al. Cervical changes throughout pregnancy as assessed by transvaginal sonography // Obstet Gynecol, 1994, v.84, p.960-964.

Xülasə

Ektopiya və polip olan qadınlarda uşaqlıq boynunun exoqrafik, kolposkopik və sitoloji mənzərəsinin xüsusiyyətləri

X.R.Binnətzadə

123 hamilə qadında USM, kolposkopiya və sitoloji müayinələrin göstəricilərinə əsasən uşaqlıq boynu dəyişiklikləri öyrənilmişdir. Qadınların orta yaş həddi 27,5±6,7 olmuşdur. Hazırki hamiləlik baş verənə qədər I qrup qadınların əksəriyyətində uşaqlıq boynunda dəyişikliklər inkişaf etmişdir. I trimestrdə uşaqlıq boynun orta uzunluğu I qrupda 34,8±3,5 mm, II qrupda 35,2±4,5 mm olmuşdurş hamləliyin 16-28 həftələrində maksimal həddə çatmışdır. hamiləliyin sonuna yaxın və uşaqlıq boynun açılana qədər azalmışdır. Ümumilikdə 47 (38,2%) normal kolposkopik mənzərə olmuşdur, 76 (61,8%) uşaqlıq boynunda dəyişikliklr aşkar edilmişdir.

Summary

Features echographic, colposcopic and cytological picture of the cervix in pregnant women with ectopia and polyps

K.R.Binnetzade

The features of cervical changes in 123 pregnant women were studied by ultrasound, colposcopy and cytology. The average age was 27.5 ± 6.7 years. Before the onset of this pregnancy, according to anamnesis, the majority of women in group I had identified risk factors for the subsequent development of cervical changes. The average length of the cervix in the first trimester, reaching 34.8 ± 3.5 mm in group I and 35.2 ± 4.5 mm in group II, increased and reached its maximum value by 16-28 weeks. pregnancy, then it diminished as the neck ripens and opens. Normal colposcopic picture was generally observed in 47 (38.2%), changes in the cervix occurred in 76 (61.8%) pregnant women.

Daxil olub: 13.07 2018

SABİT GƏRGİNLİK STENOKARDİYASI OLAN XƏSTƏLƏRDƏ QANDA MAQNEZİUMUN SƏVİYYƏSİNİN İŞEMİK EPİZODLARIN AĞIRLIQ DƏRƏCƏSİNƏ VƏ MİOKARDIN FUNKSİONAL VƏZİYYƏTİNƏ OLAN TƏSİRİNİN ÖYRƏNİLMƏSİ

R.F.Abdullayev, A.D.Quliyeva, R.R. Abdullayeva[1], N.F.Səfərova

Akad. C.M. Abdullayev adına ET Kardiologiya İnstitutu

[1]Azərbaycan Tibb Universiteti, I daxili xəstəliklər kafedrası, Azərbaycan, Bakı

Açar sözlər: ST seqmenti, maqnezium, miokardın disfunksiyası

Ключевые слова: сегмент ST, магний, дисфункция миокарда

Keywords: ST seqment, magnesium, myocardial dysfunction

Son illərdə ürək–damar xəstəliklərinin artmasında və inkişaf etməsində elektrolit balansının pozulmasına, xüsusi ilə maqnezium defisitinə xüsusi diqqət yetirilir [1,2,3]. Müxtəlif mənbələrin məlumatına görə əhalinin 20-40%-də maqnezium defisiti təsadüf edilir [4,5].

Maqneziumun kardioprotektiv xüsusiyyətləri bu mineralın qan damar sisteminə kompleks təsiri ilə izah edilir:damarların tonusuna [6,7], ürək ritminə, miokardın energetik metabolizminə [8], lipid mübadiləsinə [9], aterosklerozun inkşafına [10] və s.ilə əaqələndirir.

Elmi ədəbiyyatın təhlili göstərir ki, ürəyin xronik işemik xəstəliyi zamanı, xüsusilə sabit gərginlik stenokardiyası olan xəstələrdə maqneziumun qanda olan konsentrasiyasının belə xəstələrdə işemik epizodların ağırlıq dərəcəsinə və sol mədəcik miokardın funksional vəziyyətinə olan təsiri tam öyrənilməmişdir.

Bunu nəzərə alaraq apardığımız tədqiqatın əsas məqsədi sabit gərginlik stenokardiyası olan xəstələrdə qanda maqneziumun səviyyəsinin tredmil - test sınağı zamanı ST seqmentinin depressiyasının ağırlıq dərəcəsinə və miokardın funksional vəziyyətinə olan təsirinin öyrənilməsi olmuşdur.

Tədqiqatın material və metodları. Tədqiqata 116 nəfər II–III funksional sinifli sabit gərginlik stenokardiyası olan xəstə daxil edilmişdir (orta yaş 53,5±1,2 il). Bu xəstələrdə 32 nəfərində işemik epizodların ağırlıq dərəcəsinin təyin edilməsi məqsədilə tredmil-test yükləmə sınağı aparılmışdır.116 xəstənin hamısında isə exokardoqrafik (ExoKQ) müayinə aparılmışdır.

Tredmil–test yükləmə sınağı kompyuterləşmiş "Carello Stress Test Cardioline RHC–500" aparatı vasitəsi ilə yerinə yetirilmiş və R.Brusenin modifikasiya olunmuş protokolu üzrə aparılmışdır. Exokardioqrafik (ExoKQ) müayinə VİVİD- 1 (ABŞ) aparatı vasitəsi ilə aparılmışdır. Sol mədəcik miokardının sistolik funksiyasını tədqiq etmək üçün son sistolik həcm (SSH), son diatolik həcm (SDH) və atım fraksiyası (AF) qiymətləndirilmişdir. Diastolik funksiyasının isə aşağıdakı parametrlər öyrənilmişdir: erkən diastolik dolmanın sürəti (E), son diastolik dolmanın sürəti (A), onların nisbəti (E/A) və erkən diastolik dolmanın ləngimə müddəti (DT). Alınan nəticələrin statistik təhlili STATİSTİKA 6.0 proqramı vasitəsi ilə aparılmışdır. Orta rəqəmlərin müqayisəli təhlili üçün Manna Uitni, Styudentin t və Pirsonın χ^2 kriteriyalarından istifadə edilmişdir. $p<0,05$ olduqda alınmış nəticə fərqi statistik dürüst sayılmışdır.

Nəticələr və müzakirə. Tredmil-test sınağı antianqinal və digər kardiotrop preparatların qəbulunun diyandırılmasından 48 saat sonra aparılmışdır (sublinqval nitroqliserin istisna olmaqla). Yükləmə sınağı

zamanı ST seqmentinin izoxətdən aşağı enməsi dərəcəsindən asılı olaraq xəstələr 3 qrupa bölünmüşdür: 1-ci qrupa ST seqmentinin depressiyasının 1 mm-ə olan 11 xəstə; 2-ci qrupa ST seqmentinin depressiyasının 2 mm-ə qədər olan 14 xəstə; 3-cü qrupa isə ST seqmentinin izoxətdən aşağı enməsinin 2 mm-dən çox olan 7 xəstə daxil olmuşdur. Aldığımız nəticələr 1-ci cədvəldə göstərilmişdir.

Cədvəl 1

Sabit gərginlik stenokardiyası olan xəstələrdə qanda maqneziumun səviyyəsinin tredmil - test sınağı zamanı ST seqmentinin izoxətdən aşağı enmə göstəriciləri və maqneziumun qan zərdabındakı səviyyəsi

Xəstələrin qrupları		Mg^{++} qanda səviyyəsi mmol/l	Fərqlərin dürüstlüyü	P_1 P_2 P_3
1	ST seqmentinin izoxətdən 1mm aşağı olması	0,90±0,02 (0,75-1,10)	P_1	P_1–P_2 <0,05
2	ST seqmentinin izoxətdən 2mm aşağı olması	0,85±0,02 (073-0,98)	P_2	P_2–P_3<0,01
3	ST seqmentinin izoxətdən 2mm – dən çox aşağı olması	0,77±0,03 (0,64-0,85)	P_3	P_1–P_3<0,01

Göründüyü kimi 1-ci qrupa daxil olan xəstələrdə (ST seqmentinin depressiyasının 1mm-ə qədər olması) maqneziumun qanda səviyyəsi 0,75-dən 1,10 mmol/l arasında olub, orta hesabla 0,90±0,02 mmol/l təşkil etmişdir. 2-ci qrup xəstələrdə (ST –nin izoxətdən 2 mm-ə qədər aşağı enməsi) maqneziumun səviyyəsi 0,73-dən 0,98 mmol/l arasında olub, orta hesabla 0,85±0,02 mmol/l təşkil etmişdir. Bunlar arasında fərq statistik dürüst olmuşdur (p<0,05). Lakin 3-qrup xəstələrdə isə, yəni yükləmə sınağı zamanı ST seqmentinin izoxətdən aşağı enməsinin göstəricisi 2 mm-dən çox olan xəstələrdə isə mqneziumun qanda konsentrasiyası orta hesabla ən az səviyyədə olmuşdur və orta hesabla 0,77±0,03 mmol/l (0,64-dən 0,85 mmol/l-ə qədər) təşkil etmişdir.

Beləliklə aldığımız nəticələr göstərir ki, II-III FS sabit gərginlik stenokardiyası olan xəstələrdə tredmil-test sınağı zamanı meydana çıxan ST seqmentinin depressiyasının ağırlıq dərəcəsi ilə qanda maqneziumun səviyyəsi arasında əks asılılıq mövcuddur. Başqa sözlə qan zərdabında maqneziumun səviyyəsinin azalması yükləmə sınağı zamanı ST seqmentinin depressiyasının artması ilə müşaiyət olunur.

Bununla yanaşı biz II-III FS sabit gərginlik stenokardiyası olan 116 xəstədə qanda maqneziumun səviyyəsi ilə exokardioqrafik müayinə zamanı təyin edilən sol mədəcik miokardının funksional vəziyyəti arasındakı qarşılıqlı əlaqə öyrənilmişdir. Xəstələr 4 qrupa bölünmüşdür: 1-ci qrupa yalnız sistolik disfunksiyası olan 20 xəstə (AF<5,5%), 2-ci qrupa yalnız diastolik disfunksiyası olan 36 xəstə (E/A<1,0), 3-cü qrupa həm sistolik, həm diastolik disfunksiyası olan 18 xəstə və nəhayət 4-cü qrupa isə sistolik və diastolik disfunksiyası olmayan 42 xəstə daxil edilmişdir.Alınmış nəticələr cədvəl 2-də öz əksini tapmışdır.

Göründüyü kimi 1-ci qrup xəstələrin (sistolik disfunksiya) qanında maqneziumun səviyyəsi orta hesabla 0,80±0,02 mmol/l olmuşdur. Lakin yalnız diastolik disfunksiyası olan 2 qrup xəstələrdə isə bu elektrolitin səviyyəsi 0,78±0,02 mmol/l olmuşdur. Onlar arasında fərq statistik dürüst olmamışdır (p>0,05). Bununla yanaşı həm sistolik,həm diastolik disfunksiyası olan xəstələrdə (3-cü qrup) maqneziumun səviyyəsi ən aşağı səviyyədə olub və orta hesabla 0,76±0,01 mmol/l olmuşdur. Digər qruplar ilə müqaisədə bu göstərici 1-ci qrupdakı göstəricidən statistik dürüst az (p<0,05), 2-ci qrupdakı göstəricilər isə statistik olaraq qeyri dürüst az olmuşdur (p>0,05).

Cədvəl 2

Sabit gərginlik stenokardiyası olan xəstələrdə qanda maqneziumun səviyyəsi və sol mədəcik miokardının funksional vəziyyətinin göstəriciləri

Ümumi qrup n=116	1-ci qrup sistolik disfunksiya n=20	2-ci qrup diastolik disfunksiya n=36	3-cü qrup sistolo-diastolik disfunksiya n=18	4-cü qrup disfunksiya olmayan xəstələr n=42
Qanda Mg^{++} mmol/l	0,80±0,02 P_1	0,78±0,02 P_2	0,76±0,01 P_3	0,85±0,03* P_4
P	P_1 P_2>0,05	P_2 P_3 >0,05	P_1 P_3 <0,05	

Qeyd: * -p<0,05 1-ci, 2-ci,3-cü qruplarla müqayisədə

Lakin maqneziumun qanda ən yüksək səviyyəsi sistolik və diastolik disfunksiyası olmayan 4-cü qrup xəstələrində (0,85±0,03 mmol/l) qeyd olunmuşdur və bu göstərici digər 3 qrup xəstələrin göstəricilərindən əhəmiyyətli dərəcədə yüksək olmuşdur ($p<0,05$).

Beləliklə aldığımız nəticələr onu söyləməyə əsas verir ki, sabit gərginlik stenokardiyası olan xəstələrdə maqnezium qanda ən aşağı səviyyəsi sol mədəcik miokardının həm sistolik və həm də diastolik disfunksiyası olan xəstələrdə daha çox təsadüf edilir.

Nəticələr

1. Sabit gərginlik stenokardiyası olan xəstələrdə tredmil-test sınağı zamanı ST seqmentinin izoxətdən aşağı enmə dərəcəsi ilə qanda maqneziumun səviyyəsi arasında sıx əlaqə mövcuddur. Belə ki, qanda maqneziumun konsentrasiyasının azalması yükləmə sınağı zamanı ST seqmentinin izoxətdən daha çox aşağı enməsi ilə müşaiyət olunur.
2. Sabit gərginlik stenokardiyası olan xəstələrdə sol mədəcik miokardının funksional vəziyyətinin pisləşməsi qanda maqneziumun səviyyəsinin azalması ilə parallel gedir. Bu elektrolitin ən aşağı səviyyəsi miokardın həm sistolik və həm də diastolik disfunksiyası olan xəstələrdə daha çox təsadüf edilir.

ƏDƏBİYYAT

1. Трисветова Е.Л. Дефицит магния и сердечно-сосудистые заболевания: время действовать // Рациональная Фармакотерапия в Кардиологии, 2014, №1, с. 99-105
2. Cruber U., Schmidt J., Kisters K. Magnesium in Prevention and Therapy // Nutrients 2015, v.7, p. 8199-8226
3. Kolte D., Vijayaraghavan K., Khera S. et al. Role of magnesium in cardiovascular diseases // Cardiol Rev 2014, v.22, p. 182-192
4. Bourre J.M. Effects of nutrients (in food) on the structure and function of the nervous system: update on dietary requirements for brain. Part 1: micronutrients // J. Nutr. Health Aging. 2006, v.10, p.377-385
5. Classen H.G. Magnesium orotate-experimental and clinical evidence // Rom.J. Intern. Med. 2004, v.42, p.491-501
6. Libby P., Ridker P. M., Maseri A. Inflammation in atherosclerosis // Circulation 2002, v. 105, p. 1135-1143
7. Rosanof A. Magnesium supplements may enhance the effect of antihypertensive medications in stage 1 hypertensive subjects // Magnes Res 2010, v. 23, No 1, pp. 27-40
8. Thomas F., Benetos A., Ducimetire D. et al. Determinants of left ventricular mass in a French male population // Blood pressure 1999, v. 8, pp.79-84
9. Hruby A., O'Donnell C.J., Jacques P.F. et al. Magnesium intake is inversely associated with coronary artery calcification: the Framingham Heart Study // JACC Cardiovasc Imaging 2014, v.7, p. 59-69
10. Ma J., Folsom A.R., Melnick S.L. et al. Associations of serum and dietary magnesium with cardiovascular disease, hypertension, diabetes, insulin, and carotid arterial wall thickness: the ARIC study. Atherosclerosis Risk in Communities Study // J Clin Epidemiol 1995, v.48, p. 927-940

Резюме

Изучение влияния уровня магния в крови на выраженность ишемических эпизодов и функциональное состояние миокарда у больных стабильной стенокардией напряжения

R.F.Abdullayev, A.D.Quliyeva, R.R. Abdullayeva, N.F.Səfərova

Целью исследования явилось изучение влияния уровня магния в крови на степень смещения сегмента ST ниже изолинии и функциональное состояние миокарда. Обследованы 116 больных стабильной стенокардией напряжения II-III ФК. Всем пациентом была проведена эхокардиографическое исследование, а у 32 из них выполнялся нагрузочные пробы на тредмил-тесте. Установлено, что чем меньше уровень магния в крови, тем больше степень смещения сегмента ниже изолинии на ЭКГ при тредмил-тесте. Наряду с этим самый низкий уровень магния наблюдался у больных с сочетанным нарушением систолической и диастолической функции миокарда левого желудочка.

Summary

Studying the effects of magnesium levels on the severity of ischemic episodes in the blood and the functional state of myocardial infarction in patients with stable angina

R.F.Abdullayev, A.D.Quliyeva, R.R. Abdullayeva, N.F.Safarova

The aim of the study was to study the effect of magnesium levels in the blood on the degree of displacement of the ST segment below the isoline and the functional state of the myocardium. 116 patients with stable angina of voltage II-III FC were examined. All patients underwent an echocardiographic study,

and 32 of them underwent stress tests on the treadmill test. It is established that the lower the level of magnesium in the blood, the greater the degree of displacement of the segment below the isoline on the ECG during the treadmill test. Along with this, the lowest magnesium level was observed in patients with a combined violation of the systolic and diastolic functions of the myocardium of the left ventricle.

Daxil olub: 06.07 2018

NADİR KLİNİK HAL: PARAFARİNGİAL NAHİYƏNİN EPİDERMOİD KİSTASI

[1,2] E.M. Sadıqov, [2]Y.T. Əfəndiyev, [2]İ.N. Rəhimova

1.Ə. Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu, Bakı

2.N. Tusi adına Memorial klinika, Bakı

Açar sözlər: parafaringial epidermoid kista, MRT, difuziya yüklüklü təsvir

Ключевые слова: парафарингиальная эпидермольная киста, МРТ, диффузионно-взвешенное изображение

Keywords: parapharyngeal Epidermoid Cyst, MRI, DWI

Baş və boyun nahiyədə lokalizasiya olunan bütün epidermoid kistaların rastgəlmə tezliyi 1,6 %-dən 7%-ə qədərdir [1]. Parotid, submandibulyar və parafaringial sahələrdə epidermoid kistalar çox nadir rastlanır və tüpürcək vəzi absesi, mukosele, kistik tumor, hiqroma və digər kistalarla fərqləndirilməsi çətin ola bilər [2,3].

24 yaşlı kişinin sol parafaringial sahəsində radioloji diaqnostik metodlarla aşkar etdiyimiz epidermoid kista digər kistoz proseslərlə müqayisədə nadir rast gəlinir. Parafaringial epidermoid kista diaqnozu yüksək rezolyusiyalı ultrasəs (HRUS), kompyuter tomoqrafiya (KT) ve maqnit rezonans tomoqrafiyada (MRT) alınmış təsvirlər və həmçinin postoperasion material əsasında təsdiqləndi.

Bəzən radioloji metodlara əsasən epidermoid kistanı digər kistalarla fərqləndirmək mümkün deyil [3, 4]. Epidermoid kistaların diferensial diaqnostikasında MR difüzyon yüklüklü təsvirin (DWI) və ölçülən diffuziya koefisentinin (ADC) rolu əvəzsizdir [4,5].


Tədqiqatın material və metodları. 24 yaşlı gənc oğlan sol ağız-udlaq nahiyədə ağrısız şişkinliyin olması və son 3 ay ərzində şişkinliyin tədricən artması şikayətləri ilə klinikamıza müraciət etmişdir. Xəstə həmçinin udma aktı və qida qəbulu zamanı sol ağız-udlaq nahiyədə maneənin olmasından şikayət edirdi. Daha öncə hər hansı travma, yüksək qızdırma və ya əməliyyat halları olmamışdır. Boyun nahiyənin palpasiyası zamanı limfadenopatiya və nevroloji defisit əlamətləri qeyd olunmadı. Xəstədə kliniki instrumental və laborator müayinələr zamanı digər orqan və sistemlərdə patoloji dəyişikliklər aşkarlanmamışdır, həyati göstəricilər norma daxilində olmuşdur. Fiziki muayinə zamanı intraoral soltərəfli ağız-udlaq nahiyədə hərəkətli, yumşaq və bir az dalğavarı kütlə əlləndi. İlkin kliniki diaqnoz sol ağız-udlağın şişi qoyulmuşdur.

Sol qulaqətrafı vəzin USM müayinəsi zamanı vəzin dərin payı proyeksiyasında arakəsmə ilə iki kameraya ayrılmış və kameralardan birinin daxilində hərəkətli çöküntü olan hamar və aydın konturlu kistoz ocaq aşkarlandı. İntraoral müayinədə kistanın daxilində hipoexogen kiçik partikullar olması, rəngli və energetik Doppler müayinəsində kistoz kapsulanın və arakəsmənin qanlanması izlənildi (şək.1). Kistanın ölçüləri 3.8 sm × 3.0 sm olmuşdur. USM diferensial diaqnostikada retension kista və ya I-li qəlsəmə yarığı kistası düşünülmüşdür.

KT müayinəsi zamanı sol parafaringial nahiyədə patoloji hipodens və arakəsməsi olan törəmə təyin edilir. Törəmənin konturları dəqiq, strukturu homogen izlənir. Törəmə alt çənənin sol şaxəsindən medialda yerləşir, arxa konturu sol bizəbənzər çıxıntıya intim yerləşir və ağız-udlağın sol tərəfini ön və mediala deformasiya edir (şəkil 2). Ətraf toxumalarda infiltrasiya və ya invaziya qeyd edilməmişdir. KT müayinədə retension kista və ya I-li qəlsəmə yarığı kista düşünüldü və diferensasiya üçün xəstə MR müayinəyə yönləndirildi.

MRT müayinədə sol parafaringial nahiyədə patoloji ikikameralı kistoz törəmə təyin edilir. Törəmə kapsulaya malikdir, konturları dəqiq qeyd olunur, medial (kiçik ölçülü) və lateral (böyük ölçülü) kameralardan ibarətdir. Patoloji törəmə T2 yüklüklü və FLAİR MR təsvirlərdə hiperintens, T1 yüklüklü MR təsvirlərdə izointens siqnal nümayiş etdirir. Hər iki kameranın daxilində T2 rejimlərdə hiperintens və T1 rejimində zəif hiperintens siqnala malik olan çöküntü aşkar edilir. MR DWI təsvirlərdə kistoz törəmə yüksək

siqnal intensivliyi nümayiş etdirdi (şəkil 3). Törəmənin medial konturu sol qulaqətrafı vəzin dərin payına intim yerləşir, vəzin kompressiyası qeyd olunur. Törəmə venadaxili kontrast maddəni kapsula və arakəsmə ilə toplayır.



Şək. 1. Sol qulaqətrafı vəzin dərin payı proyeksiyada B-rejim US təsvirlərdə daxilində arakəsmə və çöküntü olan, hipoexogen exolar içərən homogen, anexogen epidermoid kista. EDM-də arakəsmə və kapsulada qan görünür.




Şək.2. Sol parafaringial nahiyədə hipodens, homogen strukturlu, aydın və hamar konturlu epidermoid kista

Xəstə İİAB icra edilmədən birbaşa əməliyyat olunmaq üçün üz-çənə cərrahiyyəsi şöbəsinə göndərilib və əməliyyatdan sonra parafangial epidermoid kista diaqnozu qoyulub.

Nəticələrin müzakirəsi. anadangəlmə epidermoid kistalar intrauterin həyatın 3-cü və 4-cü həftələrində I və II qəlsəmə yarıqları arasında olan ektodermal elementlərdən inkişaf edir [5]. Ədəbiyyat məlumatlarına əsasən parotid və submandibulyar sahələrin epidermoid kistaları çox nadir görülən xoşxassəli kistik patologiya olub, adətən gənc və orta yaşlı insanlarda aşkarlanır [6]. Diaqnoz əsasən yüksək rezolyusiyalı US, KT və MRT əsasında aparılır, bu müayinələr kistanın kistoz xüsusiyyətlərini, ölçüsünü və anatomik əlaqələrini aydın göstərir [7-10]. Parotid və submandibulyar nahiyələrin epidermoid kistaları incə divarlı və aydın seçilən konturlara malik olur. Bəzən uzunmüddətli kistalarda ikincili infeksiya qoşulması səbəbindən abses formalaşa bilər. Bu hallarda kistanın kapsulası qalınlaşmış olur. KT və MRT kistanın dəqiq lokalizasiyasına, anatomik strukturlarla əlaqəsinə və özəlliklə cərrahın böyük və orta böyüklükdəki kistalar üçün ən uyğun cərrahi giriş seçməsinə imkan verir [8,11]. USM-də epidermoid kistaların arxa hissəsində akustik güclənmə olur, strukturları homogen və daxilində hipoexogen exolar olan anexogen kütlə şəklində görülür. Daxili struktur hiperexogen yağ, sümük və ya diş elementlərinin varlığına bağlı olaraq heterogen

görülə bilər. KT müayinədə bu kistalar hipodens olur, venadaxili kontrast vurulmasından sonra divarlarında kontrast güclənməsi göstərir. Epidermoid kistalar T1 yüklüklü görüntülərdə yağ və zülal komponentinə bağlı olaraq yüksək və ya əzələyə yaxın izointens T1 siqnal verə bilər.



Şək 3. T2 və FLAİR təsvirlərdə hiperintens, T1 təsvirlərdə izointens siqnal nümayiş etdirən ikikameralı parafaringial epidermoid kista. Kameraların daxilindəki çöküntü T2 təsvirlərdə hiperintens, T1 təsvirdə zəif hiperintens siqnala malikdir. MR DWI təsvirdə yüksək siqnal qeyd olunur. Postkontrast T1 təsvirdə kapsula və kameralar arası arakəsmədə güclənmə vardır.

Yağ siqnalı STİR sekanslarda supressiya oluna bilər. T2 yüklüklü təsvirlərdə bu kistalar adətən hiperintens olur. Bir çox hallarda kistanın daxili heterogen strukturu və aydın demarkasiyalı kənarları olur. MRT daha yaxşı yumşaq toxuma vizualizasiyası, xarakteristikası və multiplanar görüntüləmə üstünlüklərinə sahibdir [5,10,11]. Epidermoid kistalar MR DWI görüntülərdə həmişə yüksək siqnal intensivliyi nümayiş etdirir. Parotid, parafaringial nahiyələrin kistik patologiyalarının diferensial diaqnostikası çox vacibdir, çünki cərrahi texnika bütün hallarda eyni olmur. Parotid və parafaringeal nahiyələrin kistoz patologiyalarının diferensial diaqnostikasına kistik hiqroma, mukosele, qəlsəmə yarığı kistası, kistoz degeneraiyaya uğramış limfa düyünü və abses daxildir. Belə klinik hallarda USM, KT, MRT və İİAB müayinələrinin birgə istifadəsi vacibdir [1,12]. İİAB xüsusilə maliqnant kistik proseləri inkar etmək üçün uyğun diaqnostik vasitədir [12]. Cərrahi enukleasiya bu cür proseslər üçün yeganə effektiv müalicədir. Kistanı əhatə edən fibroz kapsula enukleasiyanı asanlaşdırır, bu da öz növbəsində kistanı tam xaric etməyə və gələcəkdə residivin olmamasına imkan verir [13].

Nəticə parotid və parafaringial sahələrin kistoz patologiyaları izləndiyi hallarda epidermoid kista da diferensial diaqnostik alqoritmə daxil edilməlidir. Əməliyyatönü radioloji diaqnostika və cərrahi giriş planı zamanı USM, KT, MRT və İİAB vacibdir. Patologiyanın kistoz təbiətli olmasının təsdiqində USM tez-tez ilkin diaqnostik metod kimi istifadə olunur. Kistanın lokalizasiyasının, anatomik sərhədlərinin və struktur tərkibinin dəyərləndirilməsində KT və MRT vacib informasiyaya malikdir və əməliyyatönü planlaşdırmada ən optimal sayılır. Alınmış hiperintens siqnal sayəsində, epidermoid kistanın digər kistalarla diferensial diaqnostikasında ən dəqiq radioloji diaqnostik üsul MR DWI olmuşdur. Boyun kistalarının müayinəsində bütün standart MR üsullar tövsiyə olunur, lakin növbəti addım olaraq kontrast T1 yox, MR DWI seçilməlidir.

ƏDƏBİYYAT

1. Seo S., Yoon Y. Dermoid cyst of the parotid gland // Otolaryngol Head Neck Surg. 2010, v.142, p.768-769.

2. Janarthanam J., Mahadevan S. Epidermoid cyst of submandibular region // Journal of Oral and Maxillofacial Pathology, 2012, v. 16, p. 435-437

3. Yasumoto M., Shibuya H., Gomi N., Kasuga T. Ultrasonographic appearance of dermoid and epidermoid cysts in the head and neck // J Clin Ultrasound. 1991, v.19(8), p.455-461.

4. Aynehchi B., Newman J.G. Brooks J.S. Dermoid cyst of the parotid gland // Ear Nose Throat J. 2010, v.89 , E4–E6

5. Manz D., Bankfalvi A., Lehnerdt G. Epidermal cyst of the parotid gland // HNO. 2011, v.59, p.64-67.
6. Gonzalez-Perez L.M., Crespo-Torres S. Dermoid cyst of the parotid gland // Oral Radiol., 2013, v.29, p.92-95.
7. Birsan C., Raza A., Cobb C. Parotid dermoid cyst: a case report // Int J Surg Pathol. 2013, v.21(2), p.197-201.
8. Kar R., Thorawade V., Jagade M. et al. An unusual case of epidermal cyst in submandibular space // International Journal of Otolaryngology and Head & Neck Surgery, 2014, v. 3, p. 213–21
9. Hegde P. N., Kishan Prasad H. L., Sunil Kumar Y. et al. A rare case of an epidermoid cyst in the parotid gland which was diagnosed by fine needle aspiration cytology // Journal of Clinical and Diagnostic Research, 2013, v. 7, p. 550–552
10. Chikui T., Shimizu M., Goto T.K. et al. Interpretation of the origin of a submandibular mass by CT and MRI imaging// Oral Surg Oral Med Oral Pathol Oral Radiol Endod. 2004, v.98(6), p.721-729
11. Sanglee C., Kaunkin H. Iatrogenic epidermoid cyst in the parotid gland: a case report // Journal of the Korean Association of Oral and Maxillofacial Surgeons, 2011, v.37, p. 237-240
12. Baschinsky D., Hameed A., Kehyani S. Fine needle aspiration cytological features of dermoid cyst of parotid gland. A report of two cases // Diagnostic Cytopathology, 1999, v. 20, p. 387-388
13. Rosai J. Major and minor salivary glands / in Ackermans Surgical Pathology, R. J. Mosby, Ed., Mosby, St Louis, Mo, USA, 8th edition, 1996, p. 815-856

Резюме

Редкий клинический случай: эпидермоидная киста парафарингеальной области

Э.М. Садыхов, Ю.Т. Эфендиев, И.Н. Рагимова

Частота встречаемости всех эпидермоидных кист, локализованных в области головы и шеи, составляет от 1,6% до 7%. Эпидермоидная киста в околоушной, подчелюстной или парафарингеальной областях очень редкое образование, и его можно легко принять за абсцесс слюнной железы, слизистую оболочку, кистозное новообразование, гигрому и другие кисты. Эпидермоидная киста, обнаруженная нами с помощью радиологических методов диагностики в левой парафарингеальной области 24-летнего мужчины, является редкой по сравнению с другими кистозными процессами. Диагностика эпидермоидной кисты глотки была основана на ультразвуковом исследовании высокого разрешения, компьютерной томографии и магнитно-резонансной томографии (МРТ) и послеоперационном материале. Иногда невозможно отличить эпидермоидные кисты от других кист согласно радиологическим методам. Роль магнитно-резонансного (MR) диффузионно-взвешенного изображения и кажущихся коэффициентов диффузии в диагностике эпидермоидных кист незаменимы.

Summary

Rare clinical condition: epidermoid cyst of parapharingeal region

E.M. Sadıgov, Y.T. Efendiyev, İ.N. Rahimova

The frequency of occurrence of all epidermoid cysts localized in the head and neck area is from 1.6% to 7%. The diagnosis of an epidermoid cyst in the parotid, submandibular or parapharyngeal regions very rare entity and it could be easily mistaken for a salivary gland abscess, mucocele, cystic neoplasm, hygroma and other cysts. The epidermoid cyst that we discovered by radiological diagnostic methods in the left parapharyngeal region of 24-year-old man is rare in comparison to other cystic processes. Parapharyngeal epidermoid cyst diagnosis was based on high resolution ultrasound (HRUS), CT scans and magnetic resonance imaging (MRI) and postoperative material. Sometimes it is not possible to differentiate epidermoid cysts from other cysts according to radiological methods. The role of magnetic resonance (MR) diffusion-weighted image (DWI) and apparent diffusion coefficients (ADC) in the diagnosis of epidermoid cysts are irreplaceable.

Daxil olub: 19.07 2018

UŞAQLARDA EKSTRASİSTOLİYALAR ZAMANI MİOKARDIN ELEKTRİK QEYRİ-HƏMCİNSLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİNDƏ QT İNTERVALININ VƏ ONUN DİSPERSİYASININ ƏHƏMİYYƏTİ

İ.İ.İsayev., Z.İ.Məmmədova

Azərbaycan Tibb Universiteti, Terapevtik və pediatrik propedevtika kafedrası

Açar sözlər: uşaqlar, ekstrasistoliya, miokard, interval QT
Ключевые слова: дети, экстрасистолия, миокард, интервал QT
Key words: children, extrasystoli, myocard, interval QT

Uşaqlarda aritmiyalar anadangəlmə ürək qüsurları ilə birlikdə ürək-damar patologiyalarının strukturunda rast gəlmə tezliyinə görə aparıcı yerlərdən birini tutur (60-70%). Aritmiyaların geniş yayılmasına baxmayaraq onların diaqnostika və müalicəsi hal-hazırda çox zaman bir sıra çətinliklər törədir [2]. Uşaqlar arasında ürək ritminin pozğunluqlarından daha çox təsadüf edilən forması taxikardiyalar və ekstrasistoliyalardır [8,13.

Ədəbiyyat araşdırmalarından məlum olur ki, uşaq yaşlarında mədəcik aritmiyalarının az təsadüf olunmasına baxmayaraq, onlar miokardın aritmogen disfunksiyasının, həyati təhlükəli ağırlaşmaların, eyni zamanda qəfləti ürək ölümünün meydana çıxması ilə səciyyələnir [13,14,15,16].

Əksər hallarda uşaq və yeniyetmələrdə mədəcik aritmiyaları ürəyin üzvi zədələnməsi olmadan, kardiomiopatiyaların, müxtəlif mənşəli miokarditlərin və digər patologiyaların ağırlaşması şəklində təzahür edir [19,20,21].

Uşaqlarda ekstrasistoliyaların inkişafına bir çox faktorlar səbəb ola bilər. Məktəbyaşlı uşaqlarda 60% hallarda vegetativ pozğunluqlarla əlaqəli ekstrasistoliyalara rast gəlinir [4].

Gənc yaşlarında mədəcik ekstrasistoliyaları ürək ritminin pozğunluqlarının daha çox rast gəlinən formasıdır. Ədəbiyyat məlumatlarına görə aritmiyaların strukturunda mədəcik ekstrasistoliyalarının rast gəlmə tezliyi 75%-dir. Tək-tək ekstrasistoliyalar sakit halda çəkilmiş EKQ-də yenidoğulmuşlarda 0,8%, yeniyetmələrdə-2,2%, EKQ-nin holter monitorlaşdırılması zamanı yenidoğulmuşlarda - 18%, yeniyetmələrdə - 50% hallarda ürəyin üzvi zədələnməsi olmadan rast gəlinir [1, 18]. Başqa bir tədqiqatın nəticələrinə görə EKQ –nin holter monitorlaşdırılması zamanı mədəcik ekstrasistoliyaları həyatın birinci ilində 6-20%, pubertat dövrdə 47-77% hallarda təsadüf edilir [12,23].

Böyüklərdən fərqli olaraq uşaq və gənc yaşlarda ekstrasistoliyalar əksər hallarda simptomsuz davam edir. Əsas klinik simptomlar vegetativ disfunksiya və ya ürəyin üzvi patologiyası ilə əlaqədar olur. Zamanında və adekvat terapiya aparılmadıqda, əksər aritmiyalar 4-6 il müddətində proqressivləşir və nəticədə miokardın funksiyasında cərrahi müdaxilə tələb edən davamlı və geridönməz pozğunluqlar formalaşır [10,17].

Tədqiqatların nəticələrindən məlum olmuşdur ki, həyati təhlükəli aritmiyaların inkişafında kardiomiositlərdə ion kanallarında fəaliyyətin həm irsi, həm də qazanılma pozğunluqları əsas yerlərdən birini tutur və bu pozğunluqlar da öz növbəsində fəliyyət potensialının pozulmasına səbəb olur [22].

Ədəbiyyatda müxtəlif anadangəlmə və qazanılma patologiyalar zamanı QT intervalının uzanması və ya qısalması haqqında məlumatlar qeyd olunsa da [22], ürək ritminin pozğunluqları zamanı QT intervalında baş verən dəyişikliklər az öyrənilmişdir. Ürək ritminin pozğunluqları zamanı QT intervalının uzanması və onun indekslərində baş verən dəyişikliklərin normadan nəzərə çarpacaq dərəcədə tərəddüd etməsi, miokardda repolyarizasiya prosesinin homogenliyinin pozulmasının əsas göstəricisi olmaqla yanaşı, aritmogen kardiomiopatiyanın, ürək çatmamazlığının inkişafının və gənc yaşlarda qəfləti ölüm riskinin əsas xəbərdarlıq edici markeri hesab edilir.

Mədəcik miokardının qeyri-həmcinsliyinin qiymətləndirilməsinin diaqnostik və proqnostik roluna dair həsr olunmuş tədqiqatlar bir sıra alimlər tərəfindən aparılmışdır [5,6,7,8]. Lakin uşaqlarda ürək ritminin pozğunluqları zamanı praktikada daha çox tətbiq edilən qısa çəkilişli EKQ-də mədəcik miokardının repolyarizasiyasının qeyri-homogenliyinin klinik-proqnostik rolunun qiymətlənditilməsinə dair məlumatlar çox azdır.

Tədqiqatın məqsədi Məktəbyaşlı uşaqlarda ekstrasistoliyaların növündən asılı olaraq miokardın bioelektrik həmcinsliyinin QT intervalının təhlilinin aparılması ilə təyin edilməsidir.

Tədqiqatın material və metodları. Bu məqsədlə müayinəyə 73 nəfər məktəb yaşlı ekstrasistoliyalı uşaq cəlb olunmuşdur. Bunlardan23 nəfərində supraventrikulyar,50 nəfərində mədəcik ekstrasistoliyası qeyd edilmişdir. Müayinə edilən ürək ritminin pozğunluğu olan xəstələr uşaq yaş dövrləri və yaş xüsusiyyətləri nəzərə alınaraq iki qrupa ayrılmışdır:kiçik məktəb yaşlı (6-10 yaş) və böyük məktəb yaşlı (11-17 yaş). Supraventrikulyar ekstrasistoliyalı xəstələrin 11 nəfəri (5 oğlan, 6 qız) 6-10 (orta 8,2±0,46) yaş, 12 nəfəri (6

oğlan, 6 qız) 11-17 (orta 14,4±0,56) yaş, mədəcik ekstrasistoliyalı xəstələrin 24 nəfəri (12 oğlan,12 qız)6-10 (orta 8,1±0,29) yaş, 26 nəfəri (12 oğlan,14 qız) isə 11-17 (orta 14,4±0,56) yaş qrupuna daxil edilmişdir. Nəzarət qrupuna, hər yaş qrupuna 25 nəfər olmaqla, 50 nəfər praktiki sağlam uşaq daxil edilmişdir. Bu qrupa ürək-damar və sinir-psixi xəstəlikləri olmayan, eyni zamanda EKQ müayinə zamanı normadan kənara çıxmalar müşahidə olunmayan uşaqlar cəlb edilmişdir. Müayinə planına anamnestik,ümumi klinik- laborator, 12 standart aparmada EKQ müayinə daxil edilmişdir. Ürək ritminin pozğunluqları zamanı miokardda repolyarizasiya prosesinin qeyri-həmcinsliyinin dəqiq diaqnostikası məqsədilə EKQ həm birqütblü (aVR, aVL,aVF, V1-V6), həm də I,II,III standart aparmalarda QTmax,QT min, QTorta və dQT, QT intervalının davam etmə müddətinin əvvəlki RR intervalının davam etmə müddətindən asılı olduğunu nəzərə alaraq QTc (QT intervalının korreksiya olunmuş göstəricisi), bu göstəricilərlə yanaşı QT intervalının dQTmax, QTcmin, QTcmax, dQTc, dQTcmax kimi indeksləri təyin edilmişdir. QT intervalının maximal və minimal qiymətləri, onun dispersiyası qiymətləndirilmişdir. Ekstrasistoliyaların qeyri-iltihabı mənşəli olmasını təsdiq etmək məqsədilə xəstələrə qanın biokimyəvi analizi (ASO, CRP) və EÇS təyin olunmuşdur.

Nəticələrin müzakirəsi. QT intervalı miokardınfəaliyyət potensialının davam etmə müddətini əks etdirərək, aritmiyalar zamanı trigger aktivliklə əlaqəli olan əsas göstəricilərdən biridir. Bəzi müəlliflərin fikrincəQT intervalının uzanması təhlükəli mədəcik aritmiyalarının əsas və dürüst markeri kimi qiymətləndirilir [9,11]

Bu məqsədlə apardığımız elmi-tədqiqat işinin nəticələrinin təhlili zamanı QT intervalının davam etmə müddətinin, dispersiyasının və onun törəmələrinin orta kəmiyyət göstəricilərinin sağlamlarla müqayisədə artması müşahidə olunmuşdur.

Tədqiqatın nəticələri cədvəl 1 və 2-də əks olunmuşdur.

Aparılan müşahidələrin nəticələrinə (cədvəl 1) əsasən 6-10 yaşlı xəstələrdə QT intervalının maksimal qiymətində nəzarət qrupu ilə I qrup arasında 3,29% (p<0,001), II qrup arasında isə 5,66% (p<0,001) artım müşahidə olunmuşdur.Göründüyü kimi II qrupda müşahidə olunan fərq daha əhəmiyyətli olmuşdur.

II qrupa daxil olunan, yəni mədəcik ekstrasistoliyalı xəstələrdə QT maksimumun qiyməti artaraq 14 nəfərdə müqayisə qrupundan 3,00-5,85% arası, 10 nəfərdə müqayisə qrupundan 6,05-7,48% arası fərqlənmişdir.

Cədvəl 1

Ürək ritminin pozğunluğu olan 6-10 yaşlı uşaqlrda QT intervalının indekslərinin dəyişməsi (praktik sağlamlarla müqayisdə %-lə M ± m)

Göstəricilər	I qrup	P	II qrup	P	P1
ÜVS	98,2 ± 1,57 92,0 - 106,0	<0,001	97,0 ± 1,09 92,0 - 106,0	<0,001	>0.05
QTmax	3,29 ± 0.21 (2,43 - 4,29)	<0.001	5,66 ± 0,27 (3,00 -7,48)	<0,001	<0,01
QT min	3,17 ± 0,25 (2,19 - 4.5)	<0,001	5,82 ± 0,28 (2,87-7,69)	<0,001	<0,01
dQT	3,94 ± 0,25 (2,40 - 5,11)	<0,001	4,82 ± 0,35 (1,70 -7,55)	<0,001	>0.05
dQTmax	2,00 ± 0,17 (1,68 - 2,59)	>0.05	3,11 ± 0,50 (1,54 - 4,65)	<0,05	>0.05
dQTc	9,19 ± 0,33 (6,84 - 10.67	<0,001	9,32 ± 0,17 (7,20 - 11,63	<0,001	>0.05
dQTcmax	7,35 ± 0,34 (6,28 - 8,42)	<0,001	7,58 ± 0,60 (6,21 - 9,15)	<0,001	>0.05

Qeyd: P – nəzarət qrupu ilə müqayisədə, P1- I qrupla müqayisədə dürüstlük

Cədvəldən göründüyü kimi QT intervalının minimal qiyməti supravenrikulyar ekstrasistoliyalı uşaqlarda 3,17% (p<0,001), mədəcik ektrasistoliyalı xəstələrdə isə 5,88% (p<0,001) artmışdır. 11-17 yaşlı uşaqlarda miokardın bioelektrik fəallığının təhlili zamanı (cədvəl 2) 6-10 yaşlılarla müqayisədə fərqli səpgidə dəyişikliklər müşahidə olunmuşdur. Belə ki, böyükməktəbyaşlı uşaqlarda QT intervalının maksimal qiyməti eyni yaşlı sağlamlarla müqayisədə I qrupda qrup üzrə orta hesabla 4,49 ±0,34%, II qrupda isə qrup üzrə orta hesabla 4,38 ± 0,34% , QTmin müvafiq olaraq 4,50 ± 0,37% və 4,20 ± 0,25% artaraq statistik dürüst səciyyələnmişdir (p<0,001). Ümumilikdə müayinəyə cəlb olunmuş ekstrasistoliyalı uşaqların hamısında QT max, QT min müqayisəli analizi zamanı bu göstəricilərin paralel variasiyası qeyd olunmuşdur və hər iki klinik qrupda nəzarət qrupunun göstəricilərindən dürüst olaraq səciyyələnmişdir. Tədqiqatın nəticələrinin

təhlili zamanı müəyyən olunmuşdur ki, QT intervalının maksimal və minimal qiymətlərinin geniş diapazonda dəyişməsi mədəcik əzələsinin repolyarizasiya prosesinin qeyri-həmcinsliyini əks etdirir. Miokardda repolyarizasiya prosesinin qeyri-həmcinsliyi, onun elektrik sabitliyinin pozulmasına səbəb olan əsas faktorlardan biridir. Elektrofizioloji mənada mədəcik miokardı fraqmentləşir, yəni onun ayrı-ayrı hissələri həm depolyarizasiya, həm də repolyarizasiyanın müxtəlif fazalarında iştirak edir. İnkişaf etmiş asinxron repolyarizasiya miokard hüceyrəsində polyarizasiya səviyyəsinin müxtəlifləşməsinə səbəb olur və əlavə oyanma ocaqlarının yaranmasına zəmin yaradaraq, aritmiyaların və qəfləti ölümün meydana çıxmasına səbəb olur .

Cədvəl 2

Ürək ritminin pozğunluğu olan 11-17 yaşlı uşaqlarda QT intervalının indekslərinin dəyişməsi(praktik sağlamlarla müqayisdə %-lə M±m)

Göstəricilər	I qrup	P	II qrup	P	P1
ÜVS	71,3 ± 1,26 (67,0 - 80,0)	P>0,05	78,8 ± 0,75 (75,0 - 90,0)	P<0,001	P<0,001
QTmax	4,49 ± 0,34 (2,23 - 5,69)	P<0,001	4,38 ± 0,25 (2,23 - 6,34)	P<0,001	P>0,05
QTmin	4,50 ± 0,37 (1,93 - 5,74)	P<0,001	4,20 ± 0,25 (1,99 - 6,20)	P<0,001	P>0,05
dQT	4,47 ± 0,37 (2,08 - 6,16)	P<0,001	5,53 ± 0,37 (3,04 - 8,56)	P<0,001	P>0,05
dQTmax	3,63 ± 0,51 (1,79 - 5,42)	P<0,001	5,58 ± 0,60 (3,29 - 7,27)	P<0,001	P>0,05
dQTc	3,88 ± 0,55 (1,92 - 7,29)	P<0,001	10,20 ± 0,31 (6,61 - 13,52)	P<0,001	P<0,001
dQTcmax	3,95 ± 0,81 (1,33 - 7,29)	P<0,001	10,33 ± 0,58 (9,03 - 13,39	P<0,001	P<0,001

Qeyd: P – nəzarət qrupu ilə müqayisədə, P1- I qrupla müqayisədə dürüstlük.

Elektrokardiosiqnalların işlənməsi üçün daha vacib və diqqəti cəlb edən parametrlərdən olan QT intervalının dispersiyası,son onillikdə elektrokardioloqların diqqətinə səbəb olmuşdur [3]. Hal-hazırda repolyarizasiya prosesinin qeyri – invaziv qiymətləndirilməsi üçün QT intervalının dispersiyasının qiymətləndirilməsindən geniş istifadə olunur. Tədqiqata cəlb etdiyimiz kiçik məktəbyaşlı xəstələrdə bu göstərici hər iki klinik qrupda eyni yaşlı sağlam uşaqlardan fərqlənmişdir.Belə ki, I qrupda 3,94% (<0,001), II qrupda isə 4,85% (<0,001) artaraq sağlamlarla müqayisədə statistik dürüst səciyyələnmişdir.QT intervalının dispersiyasının ekstrasistoliyalı uşaqlarda fərdi təhlili zamanı müəyyən edilmişdir ki, bu göstərici artaraq supraventrikulyar ekstrasistoliyalı uşaqların 6 nəfərində nəzarət qrupu ilə müqayisədə 4,13-5.11% arası, mədəcik ekstrasistoliyalı uşaqlarda isə nəzarət qrupu ilə müqayisədə 13 nəfərdə 5,15-7,55% arası fərq təşkil etmişdir.Elektromexaniki sistolanın əsas göstəricilərindən olan QT intervalının maksimal həddinin dispersiyasının artması müayinəyə cəlb olunmuş uşaqların hamısında həm I , həm də II qrupda qeyd olunmuşdur. dQTmax 6-10 yaşlı supraventrikulyar ekstrasistoliyalı uşaqlarda artması orta hesabla 2,00 ± 0,17% təşkil etsədə eyni yaş qrupuna daxil edilmiş sağlamlardan statistik dürüst fərqlənməmişdir (p>0,05). Mədəcik ekstarsistoliyalı uşaqlarda isə sağlamlarla müqayisədə qrup üzrə orta hesabla 3,11±0,50% statistik dürüst artım qeyd olunmuşdur(p<0,05). 6-10 yaşlılarla müqayisədə 11-17 yaşlılarda bu göstəricinin artması nisbətən çox olmuşdur. Belə ki, I qrupda orta hesabla 3,63±0,51 %, II qrupda 5,58±0,60 % satatistik dürüst artım izlənmişdir (p<0,001) və hər iki yaş qrupunda həm supraventrikulyar, həm də mədəcik ekstrasiostoliyasında dQTmax artması, dQT-nin artması hesabına olmuşdur. Tərəfimizdən mədəciklərin repolyarizasiyasını əks etdirən əsas parametrlər dQTc və dQTcmax-da başverən dəyişikliklər də öyrənilmişdir. Müayinəyə cəlb olunmuş ekstrasistoliyalı xəstələrin hamısında bu parametrlərdəki dəyişikliklər daha qabarıq olmuşdur. Belə ki, kiçik məktəb yaşlılarda I qrupda dQTc qrup üzrə orta hesabla 9,19±0,33%, II qrupda isə 9,32±0,27% artmış və nəzarət qrupu ilə müqayisədə hər iki klinik qrupda statistik dürüst səciyyələnmişdir(p<0,001).dQTcmax eyniyaşlılarda I qrupda 7,35 ± 0,34%(p<0,001), II qrupda 7,58±0,60% (p<0,001) sağlamlarla müqayisədə artaraq fərqlənmişdir. Nəticələrin təhlilnə əsasən, 6-10 yaşlılarda dQTc və dQTcmax – da müşahidə olunan artım pararlel variasiya etmişdir(p<0,001).

11-17 yaşlı supraventrikulyar ekstrasistoliyalı məktəblilərdə 6-10 yaşlılardan fərqli olaraq dQTc və dQTcmax sağlamlarla müqayisədə böyük fərq təşkil etməmişdir. dQTc orta hesabla 3,88±0,55%, dQTcmax isə 3,95±0,81% statistik dürüst artmışdır(p<0,001). Bu da kiçik məktəbyaşlı uşaqlarda ÜVS-nın, böyük

məktəbyaşlılarda müqayisədə çox olması və ürəyə simpatik təsirin üstünlüyü ilə izah olunur. 11-17 yaşlı mədəcik ekstrasistoliyalı uşaqlarda bu göstəricilər daha nəzərə çarpan dəyişmişdir. Qrup üzrə dQTc orta hesabla 10,20±0,31% (p<0,001), dQTcmax orta hesabla 10,33±0,58 (p<0,001) artmışdır. Mədəciklərin repolyarizasiyasını əks etdirən göstəricilər, dQTc və dQTcmax qeyd olunan səpgidə dəyişiklərin baş verməsi ekstrasistoliyalar zamanı miokardın bioelektrik fəallığında homogenliyin pozulmasının əks etdirmişdir.

To achieve the goal of the study, we divided 15 patients into 2 groups. The main group of 9 patients with acute suppurative cholangitis and chronic hepatitis. This group was divided into 2nd subgroups. I-subgroup of 4 patients before and postoperative period did not receive antiviral therapy (PVT). Subgroup II was performed in 5 HTT patients. And timely detection of endothelium dysfunction in suppurative cholangitis and the right choice of treatment before and after the operating period prevents their progression into the development of chronic liver pathology (liver cirrhosis).

Daxil olub: 14.08 2018

ERKƏN YAŞLI UŞAQLARDA RESPİRATOR XƏSTƏLİKLƏR ZAMANI ERİTROSİTLƏRİN MORFOMETRİK GÖSTƏRİCİLƏRİ

Z.Ş.Mürsəlova

K.Y.Fərəcova adina Elmi Tədqiqat Pediatriya Institutu, Bakı

Açar sözlər: respirator xəstəlik,eritrositometrik göstəricilər
Ключевые слова: респираторные заболевания, эритроцитометрические показатели
Keywords: respiratory diseases, eritrotsitometric indicators

Erkən yaşlı uşaqlarda rast gələn xəstəliklər arasında tənəffüs sisteminin bakterial və virus infeksiyaları üstünlük təşkil edir [1,2,3].

Hazırda pediatriya və pulmonologiyada əldə olunan nailiyyətlərə baxmayaraq, erkən yaşlı uşaqlarda, xüsusiylə, müxtəlif premorbid fonu olanlarda respirator patologiyalar fəsadlı gedişə malik olur, uzun sürür və xroniki patologiyaların formalaşmasına gətirib çıxarır [2,3].

Məlumdur ki, homeostazın tənzimlənməsində eritrositar sistem mühüm rol oynayır [4,5]. Müxtəlif mənşəli patoloji proseslər zamanı eritrositar sistem kompensator – uyğunlaşma və dezadaptasiya xarakterli molekulyar və biokimyəvi dəyişikliklərlə müşahidə olunur [5,6]. Eritrositlərin sitoarxitektonik dəyişilmələri zamanı O_2 –nin hematoalveolyar və histohematik baryerdən daşınması prosesi pozulur [6,7]. Respirator xəstəliklər zamanı ağciyərlərdə inkişaf edən iltihabi proseslərin patogenezində eritrositlər xüsusi yer tutur, onların polifunksional fəallığı struktur dəyişikliklərindən asılı olub kompensator-uyğunlaşma və dezadaptasiya reaksiyalarının formalaşmasını əks etdirir.

Bütün qeyd olunanlar tənəffüs sisteminin bakterial və virus infeksiyaları zamanı eritrositlərin morfoloji funksional göstəricilərinin öyrənilməsinin vacibliyini göstərir.

Tədqiqatın məqsədi erkən yaşlı uşaqlarda respirator xəstəliklər zamanı eritrositlərin struktur –funksional vəziyyətini öyrənməkdən ibarətdir.

Tədqiqatın material və metodları. Tədqiqata infeksiya ilə əlaqədar kəskin qızdırmalı vəziyyətdə olan erkən yaşlı (6 ay-2 il) 96 uşaq cəlb olunmuşdur. Bütün müayinə olunan uşaqlar 2 qrupa bölünmüşdür: 1-ci qrupa yüksək hərarətlə müşahidə olunan kəskin bakterial infeksiyalı 42 uşaq aid edilmişdir. Bu uşaqlarda kəskin bakterial infeksiya kəskin pnevmoniya, kəskin bronxit,irinli otit və tonzillit, onların ayrı-ayrılıqda və müştərək rast gəlməsi şəklində olmuşdur. 2-ci qrupa kəskin respirator virus infeksiyası (kəskin virus larinqotraxeobronxiti, kəskin obstruktiv bronxiti) olan 54 uşaq aid edilmişdir.Kontrol qrup kimi 20 sağlam uşaq götürülmüşdür.

Müayinə qruplarına atopiya əlamətləri, xronik somatik xəstəliyi olan, son 2-3 həftə ərzində antibakterial terapiya almış uşaqlar daxil edilməmişdir. Bütün xəstələr kompleks müayinə olunmuşlar: anamnestik məlumatlar toplanmış, onlar həmçinin ümumi klinik və otorinolorinqoloji baxışdan keçirilmişlər, xəstələrdə laborator və instrumental tədqiqatlar aparılmışdır. Bakterial infeksiyanın təsdiqi üçün bakterioloji analiz aparılmış və S-reaktiv zülal yoxlanılmışdır, virus infeksiyalarının təsdiqi üçün isə immunferment analizi və polimer zəncirvari reaksiya (p=12) aparılmışdır. Qeyd olunanlarla yanaşı bütün uşaqlarda eritrositlərin morfometrik parametrləri –eritrositlərin orta diametri (EOD, mkm), eritrositlərin orta həcmi (MCV,мм^3), eritrositometrik əyrilərin variasiya əmsalları (PDW, %), diskositlər (DİS,%), stomatositlər (ExS, %) təyin edilmişdir. Eritrositlərin morfometrik parametrlərinin tədqiqi hematoloji analizatorda aparılmışdır.

Toplanmış materialın statistik işlənməsi variasiya üsulu ilə aparılmış, parametrik göstəricilər styudentin t-testi, qeyri-parametrik göstəricilər isə Mann-Uitni üsulu ilə qiymətləndirilmişdir. Əlamətlər arasındakı korrelyasiya əlaqələri Spirman üsulu ilə öyrənilmişdir.

Tədqiqatın nəticələri. Aparılmış klinik müşahidələr patoloji prosesin xarakterindən (bakterial və virus infeksiyaları) asılı olaraq dəyərləndirilmiş, alınan nəticələr cədvəl 1-də verilmişdir.

Cədvəl 1-dən göründüyü kimi, bakterial infeksiyaların (1-ci qrup) kəskinləşmə dövründə eritrositometrik göstəricilərdə dəyişiklik eritrositlərin orta həcminin (MSV) normal hidudda saxlanması fonunda onların orta diametrinin (EOD) dürüst azalması ilə müşahidə olunur. Bu dəyişikliklər çox güman ki, eritrositlərin tənəffüs səthinin və qanın oksigen tutumunun artmasına yönələrək adekvat toxuma perfuziyasının bərpasını təmin edir.

Eritrositometrik göstəricilərin variasiya əmsallarının (RDW) təhlili zamanı onların artması müştərək premorbid fonu (anemiya+posthipoksik ensefalopatiya+ hipotrofiya) olan uşaqlarda dürüst ($p<0,05$) olmuşdur; sonuncu sirkulyasiyaedən eritrositlərin müxtəlifliyini, mikro- və anizositozun inkişafını göstərir.

Eritrositar sistemdə qeyd olunan dəyişikliklər: transformasiya və ultrastruktur dezorqanizasiya, çox güman ki, zədələyici faktorların (perinatal hipoksiya, iltihab törədən bakterial toksinlərin təsiri və s.) təsirlərinə qarşı yaranan orqanizmin ümumi patoloji xarakterli reaksiyasıdır.

Bakterial infeksiyanın kəskinləşməsi zamanı həmçinin eritrositlərin səthi arxitektonikasında müəyyən dəyişikliklər qeyd olunmuşdur; bu dəyişikliklər diskositlərin azalması fonunda (p>0,05) transformasiya olunmuş hüceyrələrin (Sts,DeE,ExS) miqdarının artması şəklində baş vermişdir (cədvəl 1). Lakin bu artım dürüst olmamışdır (p>0,05).

Cədvəl 1

Erkən yaşlı uşaqlarda bakterial və virus infeksiyaları zamanı eritrositlərin morfometrik göstəriciləri (M±m)

Göstəricilər	Qruplar		
	1-ci qrup (n=42)	2-ci qrup (n=54)	Kontrol qrup (n=20)
EOD mkm		6,65 ± 0,5	7,01 ± 0,01
MSV mm^3	81,4 ± 1,4	81,6 ± 1,5	82,2 ± 0,8
RDW %	x (14,8 ± 0,3)	x(14,9 ± 0,4)	12,2 ± 0,3
Dis %	78,4 ± 1,8	78,8 ± 1,6	82,0 ± 1,2
Sts %	5,4 ± 0,4	5,6 ± 0,5	4,6 ± 0,3
DeE %	3,2 ± 0,5	3,4 ± 0,4	2,4 ± 0,4
ExS %	2,8 ± 0,4	2,9 ± 0,4	2,1 ± 0,3

Qeyd: EOD-eritrositlərin orta diametri, MSV-eritrositlərin orta həcmi, RDW-eritrositometrik əyrilərin variasiya əmsalları, x-kontrol qrupla müqayisədə dürüstlük (p<0,05)

Cədvəl 2

Bakterial və virus infeksiyası olan erkən yaşlı uşaqlarda patoloji prosesin ağırlıq dərəcəsindən asılı olaraq eritrositlərin morfometrik göstəriciləri (M±m)

Göstəricilər	1-ci qrup n=42		2-ci qrup n=54		Kontrol qrup n=20
	orta ağır (n=18)	Ağır (n=24)	Orta ağır (n=16)	Ağır (n=38)	
EOD mkm	X(6,75±0,05)	X(6,20±0,04)	6,70±0,6	6,18±0,05	7,01±0,01
MSV mm^3	81,4±1,6	80,8±1,5	81,6±1,5	80,5±1,4	82,2±0,8
RDW %	14,2±0,4	x(15,4±0,5)	14,4±0,4	x(15,5±0,5)	12,2±0,3
Dis %	78,9±1,9	78,2±1,8	79,5±1,8	78,1±1,5	82,0±1,2
Sts %	5,0±0,5	5,8±0,4	5,2±0,6	x(6,0±0,5)	4,6±0,3
DeE %	2,8±0,5	x(3,6±0,6)	2,9±0,4	x(3,9±0,5)	2,4±0,4
ExS %	2,4±0,4	3,2±0,5	2,5±0,5	3,4±0,5	2,1±0,3

Qeyd: EOD-eritrositlərin orta diametri, MSV-eritrositlərin orta həcmi, RDW-eritrositometrik əyrilərin variasiya əmsalları, x-kontrol qrupla müqayisədə dürüstlük (p<0,05), xx-orta ağır və ağır formaların müqayisəsində dürüstlük (p<0,05)

Qırmızı qan hüceyrələrində qeyd olunan dismorfizm, çox güman ki, bakterial infeksiya zamanı baş verən morfofunksional zədələnmələr və eritrositlərin membran destabilizasiyasını əks etdirir; eritrositlərin formasında olan dəyişikliklər isə şübhəsiz ki, onun mikrosirkulyator qan cərəyanında funksional vəziyyətini və hüceyrəarası qarşılıqlı adekvat fəaliyyətini əks etdirir.

Virus infeksiyaları zamanı (2-ci qrup) tədqiq olunmuş parametrlərin istiqamətləri bakterial infeksiya ilə identik olmuşdur ki, bu da eritrositar sistemin zədələyici faktorlara qarşı formalaşan adaptiv və protektiv mexanizmlərinin səmərəsizliyi ilə əlaqədardır.

Patoloji prosesin yaxşılaşma dövründə diskositlərin azalması fonunda PDW-nin artması qeyd edilmişdir.

Tədqiqatın gedişində eritrositlərin morfometrik parametrləri və səthi arxitektonika göstəriciləri patoloji prosesin ağırlıq dərəcəsindən asılı olaraq öyrənilmiş, alınan nəticələr cədvəl 2-də verilmişdir.

Cədvəl 2-dən göründüyü kimi, orta ağır forma bakterial infeksiya zamanı eritrositlərin orta diametri kontrol qrupla müqayisədə bir qədər azalmışdır (p>0,05), sirkulyasiyaedən qan cərəyanında morfometriyası dəyişilmiş eritrositlər (Sts, DeE, ExS) bir qədər artmışdır (p>0,05). Lakin, patoloji prosesin ağırlaşmaları zamanı eritrositlərin morfometriyasında qeyd olunan dəyişikliklər daha da dərinləşmişdir; eritron sistemində daha qabarıq morfoloji dəyişikliklər ağır dərəcə həm bakterial, həm də virus infeksiyaları zamanı qeyd olunmuşdur (cədvəl 2).

Dinamikada - xəstəliyin klinik yaxşılaşması zamanı qırmızı qan hüceyrələrində sferositar transformasiya saxlanılmış, eritrositlərin orta diametri və həcmində normallaşma qeyd olunmuşdur.

Ağır dərəcə - istər bakterial, istərsə də virus infeksiyaları zamanı eritrositlərin sferulyasiyası şəklində müşahidə olunan struktur dəyişikliklər, çox güman ki, oksigen çatışmazlığına qarşı yönəlmiş protektiv adaptiv reaksiyadır.

Beləliklə, kəskin infeksiyalar zamanı eritrositlərin morfometrik və funksional göstəricilərində baş verən dəyişikliklər iltihabın məlum meyarları (SRZ, leykositoz,neytrofilyoz, monositoz və s.) kimi bakterial və virus infeksiyalarının diaqnostikasında klinik əhəmiyyət daşıyır; bu dəyişikliklər patoloji prosesin dövründən və ağırlıq dərəcəsindən asılı olaraq təzahür edir və mərhələli xarakter daşıyır.

Eritrositlərdə sferulyasiya şəklində baş verən kompensator reaksiyaları hipoergik və sirkulyator dəyişikliklər, həmçinin hüceyrəarası kooperativ qarşılıqlı əlaqələrin normallaşmasına yönəlmiş mexanizmlər kimi qiymətləndirmək lazımdır.

ƏDƏBİYYAT

1. Смирнова Г.И. Часто болеющие дети-профилактика и реабилитация. М., 2013, 126 с.
2. Пневмония при первичных иммунодефицитных состояниах с недостаточностью антителопродукции у детей. Основные принципы диагностики и лечения. Сердце Е.В. и соавт. Росс педиат. журн., 2011, №1,с.42-48.
3. Петрова Н.В. Клинико-диагностические значение иммунологических изменений при хронических неаллергических заболеваниях легких у детей: Автореф. дис. … к.м.н. Астархань, 2015, 21с.
4. Морозова В.Т. Эритрорциты: структура, функции, клинико-диагностическое значение. // Клинич.лаб.диагностика, 2007, №10, с.21-35.
5. Рязанова Н.В., Новинова В.В., Стеновая Е.А., Ткаценко С.Б. Ультраструктура эритроцитов в норме и при патологии: морфологические феномены, клинические аспекты // Морфология, 2004, №5, с.48-51.
6. Рязанова Н.В. Типовые нарушения молекулярной организации, мембраны эритроцита при соматической и психической патологии // Успехи физиол.наук., 2004, №1, с.53-65.
7. Determination of urinary 8-hydroxy-2-deoxyguonosina by two approcehescapillary electrophoresis and 6 c/MS: an assay for in vivo oxidative DNA damage in causer patients // J.Chromatogr. B.Analyt. Technol. Biomed life sci., 2005 , v.15, p.83-87

Резюме

Морфометрические показатели эритроцитов у детей раннего возраста

З.Ш.Мурсалова

Цель исследования - изучить структуру и функциональный статус эритроцитов при респираторных заболеваниях у детей раннего возраста. В исследовании участвовали 96 детей в возрасте от 6 месяцев до 2 лет с острой лихорадочной инфекцией. Проведенные клинические наблюдения оценивались в зависимости от характера (бактериальная и вирусная инфекция) патологического процесса. Изменения в морфометрических и функциональных показателях при острых инфекциях имеют клиническое значение при диагностике бактериальных и вирусных инфекций в качестве воспалительных критериев (СРБ, лейкоцитоз, нейтрофилоз, моноцитоз и т. д.). Эти изменения, проявлялись в зависимости от цикла и тяжести патологического процесса и носили поэтапный характер. Компенсационные реакции в эритроцитах в виде сфероцитоза можно рассматривать как гипоэргические и циркуляторные изменения, а также как механизмы, направленные на нормализацию межклеточной кооперации.

Summary

Morphometric indicators of erythrocytes in children of early age

Z.Sh.Mursalova

The purpose of the study is to examine the structure and functional status of erythrocytes in respiratory diseases in young children. The study included 96 children aged 6 months to 2 years of age with acute feverish infection. Clinical observation of evaluated depending on the nature of (bacterial and viral infection) of the pathological process. The changes in morphometric and functional indicators in acute infections have clinical significance in the diagnosis of bacterial and viral infections as inflammatory criteria (CRP, leucocytosis, nejtrofiloz, monocytosis, etc.). These changes were apparent depending on the cycle and the severity of the pathological process and were of a phased nature. Compensatory reactions in erythrocytes in the form of spherocytosis can be seen as hypoergic and circulatory changes, as well as mechanisms to normalize intracellular cooperation.

Daxil olub: 14.08 2018

PERİNATAL RİSK VƏ VAXTINDAN ƏVVƏL DOĞUŞLARIN SONLUQLARI

P.R.Xəlilova
Medical Center P.R.İnternational 1, Bakı

Açar sözlər: vaxtından əvvəl doğuşlar, infeksiya, qeysəriyyə kəsiyi, perintala risk faktorları
Ключевые слова: преждевременные роды, инфекция, кесарево сечение, перинатальные факторы риска.
Key words: preterm labor, infection, c-section, perinatal risk factors.

Hər il dünyada 15 mln uşaq vaxtından əvvəl doğulur, onlardan 1 milyona qədəri məhz tez doğulma səbəbindən 1 il ərzində ölür və əlil olur [1,2,3]. Bütün bunlar doğuş zamanı aparılan müxtəlif tədbirlər ilə bağlı olur [4]. Vaxtından əvvəl doğulma perinatal ölüm strukturunda birinici yeri tutur: 60-70% erkən perinatal ölüm və 70-75% uşaq ölümü. Vaxtından əvvəl doğuşlar zamanı vaxtında doğuşa nisbətən ölüdoğulma dərəcəsi 8-13 dəfə çox olur [5]. Vaxtından əvvəl doğuşların tezliyi ABŞ-da 12-13%, başqa ölkələrdə isə 5-9% təşkil edir. Lakin vaxtından əvvəl doğuşların sayı məhz xüsusi çoxdöllü hamiləliklərin hesabına artmışdır [6, 7]. ÜST və YUNİSEF-in göstəricilərinə əsasən 5 yaşa qədər uşaqlar arasında ölüm göstəricisi 1990-cu ildə 12 milyondan 2010-cu ilə 7,6 milyina qədər aşağı düşmüşdür. Onların orta çəkisi populyasiyada 5-12% olmuş, inkişaf etmiş ölkələrdə artım tendensiyası qeydə alınır [8,9]. Doğuşa qədər aparılan əsas müalicə tədbirləri aşağıdakılardan ibarət olur: kortikosteroidlər, tokolitik və antibakterial terapiya. Bunlar perinatal xəstəlik və ölüm dərəcəsini aşağı salmağa imkan versə də, vaxtından əvvəl doğuşların sayını artırmışdır [10].

Vaxtından əvvəl hamiləliklər zamanı doğuş üsulunun seçilməsi məsələsi hər zaman aktual olmuş, bu gün də öz əhəmiyyətini itirməmişdir [11]. Vaxtından əvvəl doğulmuş uşaqların perinatal ölmünün səbəblərindən biri doğuş travmatizmidir ki, bu vaxtından əvvəl doğuşların qeyri-adekvat aparılması ilə çox bağlıdır. Belə doğuşların aparılmasının perinatal riskin nəzərə alınması ilə optimal variantının seçilməsi yenidoğulmuşların və sağlamlıq göstəricilərinin yaxşılaşdırılmasının əsas rezervlərindən biri hesab edilir [12]. Buna baxmayaraq, vaxtından əvvəl doğuşlar zamanı təcili doğuş metodunun seçilməsi zamanı riskin azaldılmasının nəzərə alınması haqqında tövsiyələr verilməmişdir.

Tədqiqatın məqsədi doğuş üsulundan asılı olaraq, yüksək perinatal riskə malik qadınlarda doğuşların nəticəsini qiymətləndirməkdən ibarətdir.

Tədqiqatın material və metodları. 126 vaxtınadn əvvəl doğuş tarixçəsinin retrospektiv təhlili aparılmışdır. Hamiləliklər 26-36-cı həftələrdə olmuşdur. Hestasiya müddətinə görə xəstəlik tarixçələri 3 qrupa ayrılmışdır: I qrup-26-28 həftəlik; II qrup- 29-32 həftəlik, III qrup- 33-36 həftəlik hamiləlik. Hər bir qrup təbii və cərrahi müdaxilə (qeysəriyə kəsiyi) olmaqla iki hissəyə ayrılmışdır. Perinatal riskin dərəcəsi V.E.Radzinski tərəfindən modifikasiya olunan və O.Q,Frolova və Y.İ.Nikolayev tərəfindən tərtib edilmiş şkala üzrə ölçülmüşdür.

Tədqiqatln nəticəsi və müzakirəsi. Praktik olaraq 26-cı həftəlik doğuşların 100%-i doğuşun üsulundan asılı olmayaraq ölüdoğulma və ya erkən neonatal ölüm ilə sona yetmişdir. Lakin perinatal riskə malik olan bu qadınların payı dürüst təhlil üçün kifayət qədər olmamışdır. Bütün qadınlarda perinatal riskin yüksək riski qeydə alınmışdır, 3-cü qrupda perinatal riskin yüksək və orta dərəcəsi olmuşdur. Lakin doğuşlara intranatal inkişafdan qalma (intranatal risk faktorunun perinatal faktorların ballar cəminə olan nisbəti, % ilə) təsir göstərmişdir. Lakin intranatal faktorlar təcili doğuşlar zamanı dürüst çox olmamışdır, buna baxmayaraq onların təcili doğuşların nəticələrinə təsiri az olsa belə, nəzəçarpan dərəcədə olmuşdur. I qrupda doğuşlar adətən doğuşlar təbii yolla aparılmışdır. Doğuşdan sonra yenidoğulmuşlar 3-6 gün ərzində süni ağciyər ventilyasiyasında olmuşlar, daha sonra 12-14 gün ərzində CPAP aparılmışdır, bundan sonra 40% yenidoğulmuş diffuz oksigenə, daha sonra ixtisaslaşdırılmış müəssisələrə göndərilmişdir. Vəziyyətin ağırlıq dərəcəsi ağır distress- respirator sindrom, mərkəzi sinir sisteminin hipoksik-işemik zədələnməsi (100%), bətndaxil infeksiyalar (90%), mədəcikdaxili qansızmalarla (38%) bağlı olmuşdur. Bununla yanaşı olaraq mədəcikdaxili qansızmalar, retinopaiya, hipoksik-işemik zədələnmə cərrahi doğuşa nisbətən təbii yolla aparılan doğuşlar zamanı dürüst çox olmuşdur. Bətndaxili infeksiya və respirator-distess sindrom həm təbii, həm də cərrahi doğuş zamanı eyni dərəcədə olmuşdur. Həmçinin erkən yenidoğulmuşun çəkisi 1000 qram və daha çox olduğu neonatal dövrdə də yaxşı nəticələr əldə edilmişdir. Onlar əvvəlcə CPAP-a keçirilmiş, müsbət dinamikaya malik olmuşlar, ölüm üzrə göstəricilər az olsa da, xəstəliklər üzrə götəricilər az olmamışdır. Çəkisi 1000 q-an az olan yenidoğulmuşlarda letal sonluq göstəricisi yüksək olmuşdur. Doğuşlar 60% halda ağrısızlaşdırma aparılmadan yerinə yetirilmiş, 40% halda epidureal anesteziya aparılmıdşır. Epidural anesteziya aparılmayan doğuşlar təhlil edildikdə mədəcik qansızmaları, hipoksik-işemik

zədələnmələ olan yenidoğulmuşların sayı dürüs çox olmuşdur, adaptasiya dövrü pis keçmişdir. Epidural anesteziya aparılmayan doğuşlar zamanı spazmalitik preparatlar tətbiq edilmişdir. 20% halda RDS-in profilaktikası diprospan ilə, 60% halda deksametazon ilə aparılmışdır. 20% halda profilaktik tədbirlər aparılmamışdır. Qeyd etmək lazımdır ki, 68% halda vaxtından əvvəl doğuşlar nisbətən böyük yaşlı qadınlarda olmuşdur (30 və daha artıq yaş). Hamiləlik zamanı perinatal riskin əsas faktorları bunlar olmuşdur: zərərli vərdişlər (xüsusilə siqaret çəkmə)- 9%, hamilə qadının yaşının 30-dan çox olması-60%, cinsi həyatın erkən başlması- 32%, iltihabi xəstəliklər- 75% (hər bir qadıənın anamnezində tibbi abort və ya özbaşına düşüklər olmuşdur), inkişafdan qalan hamiləlik-35%, vaxtından əvvəl doğuşlar-42%, ağırlaşmış somatik anamnez-64%. Ciftin hisoltoji müayinəsi zamanı 98% halda irinili endometrit, 65% halda xorioamnionit (bununla yanaşı olaraq antibakterial terapiyadan yalnız dölyanı mayeni vaxtından əvvəl axan qadınlar almışdır. Bunlardan 90%-i ampisilin, 10%-i sefazolin) qeydə alınmışdır. II qrup müqayisə edildikdə qeydə alınmışdır ki, qeysəriyyə kəsiyi (döl qişsaı çıxarılmaqla) yüksək perinatal risk zamanı nəzərəçarpan dərəcədə dölün travmatizmi riskini aşağı salır, lakin yüksək perinatal riskə malik olan qadınlarda neonatal xəstələnmə və perinatal ölüm dərəcəsi aşağı olmamışdır. Cərrahi doğuşdan sonra yenidoğulmuşlar 24 saat ərzində süni ventilyasiyada olmuşlar, daha sonra 6 gün CPAP-a keçirilmişlər, bundan sonra ixtisaslaşmış müəssisəyə göndərilmişlər. Vəziyyətin ağırlıq dərəcəsi 100% halda ağır RDS, MSS-in hipoksik-işemik zədələnməsi ilə əlaqədar olmuşdur. Bununla yanaşı olaraq ağırlaşma göstəricilərinə əsasən 55% halda preeklampsiya, 25% halda bətndaxili infeksiya, 20% dğıün bətndaxili inkişafdan qalması qeydə alınmışdır. Təbii doğuş aparıldıqda isə bətndaxili infeksiya-35-40%, mədəcikdaxili qansızma 35%, retinopatiya-10% halda qeydə alınmışdır. Bununla yanaşı cərrahi doğuş aparılmış uşaqlar sürətlə çəki almış və müsbət dinamika ilə qulluğun 2-ci mərhələsinə keçirilmişlər. Təbii yolla doğulmuş uşaqlar nəinki pis çəki almış, həm də mənfi dinamikaya malik olmuşlar. II qrupda 30% halda ağrısızlaşdırma olmadan, 60% halda epidural anestezi ilə doğuş aparılmıdşır. Epidural anesteziya olmadan aparılan doğuşların nəticələri təhlil edildikdə MSS-in hipoksik-işemik zədələnməsi və mədəcikdaxili qansızmanın dərəcəsi yüksək olmuşdur, adaptasiya dövrü pis keçmişdir. Epidural anesteziya aparılan doğuşlarda spazmalitik preparatlar tətbiq edilmişdir. RDS-in profilasktikası üçün deksametazondan istifadə edilmişdir, 10% halda profilaktik tədbirlər aparılmamışdır. Qadınların 88%-i 30 yaşdan yuxarı olmuşalr. Hamiləlik zamanı əsas perinatal risk faktorları bunlar olmuşdur: hamilə qadının yaşı-35%, erkən nikahlar-55%, qadının yaşının 30-dan yuxarı olması-35%, iltihabi xəstəliklət- 68% (hər qadının anamnezində süni abort və ya öznaşına hamiləik düşüyü olmuşdur), vaxtından əvvəl doğuşlar-38%, inkişafdan qalan hamiləlik-32%, ağırlaşmış somatik anamnez-74%. Ciftin histoloji müayinəsi zamanı qeydə alınmışdır: 65% halda qan dövaranın pozulması, 44%- cift çatışmazlığı, 100% ciftin yetkin olmaması, 35% ciftin atrofiyası.

III qrupda qeydə alınmışdır ki, yüksək perinatal risk olduğu halda təbii doğuşlar ilə cərrahi doğuşlar eyni dərəcədə aparılmışdır, cərrahi doğuş zamanı perinatal xəstələnmənin dərəcəsi təbii doğuşa nisbətən dürüst aşağı olmuşdur. Xüsusilə, qeysəsiyə kəsiyi zamanı döl qişa ilə birlikdə çıxarıldıqda perinatal riskin səviyyəsi aşağı olmuşdur. Qeysəriyyə kəsiyinə əsasə göstərişlər bunlar olmuşdur: normal yerləşmiş ciftin ayrılması-23%, preeklampsiyanın yüksək dərəcəsi-18%, uşaqlıqda çapıq- 30%, dölün kəskin hipoksiyası-18%. Cərrahi doğuşdan sonra yenidoğulmuşlar 24-48 saat ərzində süni ventilyasiyada olmuşdur. Bununla yanaşı olaraq 45% halda intranatal böyümə yenidoğulmuşun vəziyyətinə təsir göstərmişdir. Daha sonra 1-2- gün CPAP-da qalmışıar, 75% halda evə buraxılmış, 25% halda ixtisaslaşmış müəssisəyə göndərilmişlər. Vəziyyətin ağırlıq dərəcəsi RDS, MSS-in hipoksik-işemik zədələnməsi ilə bağlı olmuşdur. Təbii yolla doğuşlar zamanı yenidoğulmuşun vəziyyəti 50-55% halda, bətndaxili infeksiya, mədəcikdaxili 30-35% halda ağırlaşmışdır. Doğuş tam nəzarət altında aparılmış, KTQ monitorinq, termometriya, klnik-laborator müayinələr aparılmışdır. Cərrahi doğuşdan sonra dinamik nəzarət altında olduqda bunlar qeydə alınmışdır: 3-4 sutkadan südlə əmizdirmə (təbii yolla doğulmuş uşaqlarda 6-7-ci günlərdə), çəkinin müsbət dinamika ilə artması və adaptasiyanın yaxşı keçməsi. 20% halda doğuşlar ağrısızlaşdırma aparılmadan yerinə yetirilmiş, 80% halda epidural anesteziya aparılmışdır. Epidural anesteziya təhlil edildikdə mədöəcikdaxili qansızmalar, MSS-in hipoksik-işemik zədələnməsi olan uşaqların sayı anesteziya olmayan uşaqlar arasında çox olmuşdur. Onlarda adaptasiya dövrü çətin olmuşdur. Epidural anesteziya aparılan doğuşlarda spazmalitiklər istifadə edilmişdir. Hamiləlik zamanı perinatal riskin əsas faktorları bunlar olmuşdur: qadının yaşının 30-dan çox olması-45%, erkən nikahlar-38%, iltihabi xəstəliklər-74%, vaxtından əvvəl doğuşlar- 38%, inkişafdan qalan hamiləlik-28%, ağırlaşmış somatik anamnez-70%. Ciftin histolji müayinəsi zamanı bunlar qeydə alınmışdır: 55% halda qan dövranı pozuntusu, 44%- cift çatışmazlığı, 15% ciftin hipotrofiyası, 25%- palsentar angiopatiya, 15%-desiduit, 20%- irinli endometrit.

Bütün qruplarda servikal kanaldan yaxmanın bakterioloji əkməsi aparılmışdır: 16% Staphylococcus epidermidis, 25% Enterococcus faecalis, 17% Esherichia coli, Candida sp. 14%, b-hemolitik stretokok 28%.

Yekun. I qrupda perinatal risk faktorları 25-34 ball təşkil etmişdir (25 bal və yuxarı daha yüksək perinatal risk göstəricisi), intranatal artım- 36% halda qeydə alınmışdır. II qrupda 30-38 ball olmuşdur. İntranatal artım 30% təşkil etmişdir. Proqnozlaşdırmanın modifikasiya olunmuş cədvəlinin istifadə edilməsi perinatal xəstəliyin təyin edilməsinin dəqiqliyini, adekvat üsulun seçilməsini müəyyən etməyə imkan verir. Bununla da perinatal sonluqları yaxşılaşdırmaq mümkün olmuşdur.

ƏDƏBİYYAT

1. Hüseynova L.Ə. Azərbaycan Respublikasının bəzi rayonlarında ginekoloji xəstəliklərin və reproduktiv sisteminin pozğunluqlarının yayılması //Sağlamlıq, 2007, № 2, s.130-133
2. Muradova Z.S., Əliyeva E.M. Hamiləliyin 29-33 həftəsində vaxtından qabaq doğuş təhlükəsi olan qadınlarda hamiləliyin gedişatı və perinatal xüsusiyyətləri //Sağlamlıq, 2012, N 2, s.83-89. 105
3. Краснопольский В.И., Логутова Л.С. Современная концепция родоразрешения и перинатальная смертность // Медицинский совет, 2014, №4, с.54-58.
4. Костин И.Н. Стратегия перинатального риска- арифметика, спасающая жизнь // Медицинские аспекты здоровья женщины, 2012, №4(56), с.5-16.
5. Манухин И.Б., Иванова О.Г., Кузнецов М.И., Кузнецова Е.М. Рациональный подход к родоразрешению первородящих старше 30 лет // Проблемы репродукции, 2013, №3, с.67-72.
6. Стрижаков А.Н., Белоусова В.С., Тимохина Е.В. и др. Перинатальные исходы при преждевременных родах // Вопросы гинекологии, акушерства и перинатологии, 2016, №4, с.7-12
7. Iams J.D., Romero R., Jennifer F. et al. Primary, secondary, and tertiary interventions to reduce the morbidity and mortality of preterm birth // The Lancet. Preterm Birth., 2008, v. 5
8. Podtetenev K.S., Orazmuradov A.A., Shishkin E.A., Lukaev A.A. The comparative characteristic of beta and dexamethasone for the prevention of respiratory distress // Bulletin of Peoples' Friendship University of Russia. Series "Medicine. Obstetrics and Gynecology", 2011, № 6,p. 57-64.
9. Robert L Goldenberg, Jennifer F Culhane, Jay D Iams, Roberto Romero. Epidemiology and causes of preterm birth. The Lancet. Preterm Birth. January 5, 2008.
10. Орлов В.И., Крымшокалова З.С., Маклюк А.М. и др. Ранние маркеры гестоза и задержки роста плода // Вестник Российского университета дружбы народов, 2009, №7, с.21-25
11. Радзинский В.Е., Оразмурадова А.А. Ранние сроки беременности //Status Praesens, 2009, 479с.
12. WHO. Born Too Soon: The Global Action Report on Preterm Birth. 2012. 126 p.

Резюме

Перинатальный риск и исходы преждевременных родов

П.Р.Халилова

Вопросы о способе родоразрешения при недоношенной беременности всегда оставались и будут оставаться актуальным. Одной из основных причин перинатальной смертности недоношенных детей является родовой травматизм, который во многом обусловлен неадекватным ведением преждевременных родов. Выбор оптимальной тактики их ведения с учетом факторов перинатального риска- важнейший резерв улучшения показателей здоровья новорожденных. Цель исследования - оценить исходы преждевременных родов у женщин с высоким перинатальным риском в зависимости от способа родоразрешения. Проведено ретроспективное исследование 126 истории преждевременных родов.

Summary

Perinatal outcomes and preterm birth risk

P.R.Khalilova

Questions about the method of delivery in incomplete pregnancy always remained and would remain relevant. One of the main causes of perinatal mortality in preterm infants is a generic injuries, largely due to inadequate maintenance of preterm birth. Selection of the optimum tactics of perinatal risk factors - the most important reserve for improving the health status of newborns. The aim of the study was to evaluate the outcomes of preterm labor in women with high perinatal risk, depending on the mode of delivery. A retrospective study 126 of the history of preterm labor was conducted.

Daxil olub: 16.08 2018

SİDİK İNKONTİNANS VƏ CİNSİ ORQANLARIN PROLAPSI PROBLEMİNİN ARAŞDIRILMASI

K.D.Quliyeva

Elmi-tədqiqat mamalıq və ginekologiya İnstitutu, Bakı

Açar sözlər: prolaps, sidik inkontinansı, diaqnostika, sidik saxlanmazlığı
Ключевые слова: пролапс, мочевая инконтиненция, диагностика, недержание мочи
Keywords: prolapse, urinary incontinence, diagnosis, urinary incontinence

Qadın çanağının xüsusiyyətləri yanaşı orqanların anatomiya və fiziologiyası ilə sıx qarşılıqlı əlaqədə olduğundan istənilən dəyişikliklər bütun sistemin funksiyasının pozğunluqlarına gətirib cıxarır. Ilk növbədə bu, uşaqlıq yolu və uşaqlığın sallanması və düşməsinə, sidik ixracı pozulmalarına aiddir. Xəstəlik daha cox reproduktiv yaşda başlayır, proqressiv xarakter daşıyır, proses davam etdikcə anatomik və funksional pozğunluqlar dərinləşir, əmək qabiliyyətinin hissəvi və ya tam pozulması baş verir. Cinsi orqanların prolapsı ginekoloji xəstəliklərin strukturunda 28-38,9%, ginekoloji əməliyyatların 15%-ni təşkil edir [1,2,3]. Avropa və ABŞ-ın statistik məlumatlarına görə 40-60 yaşlı qadınların 45%-də bu və ya digər dərəcədə sidiyin qeyri iradi ixracı baş verir [4,5]. Uşaqlıq yolu və uşaqlığın sallanması və düşmələri ilə sidik ixracının pozulması 50-84% halda olur [6]. Kiçik çanaq orqanlarının anatomofunksional dəyişiklikləri tibbi problem olmaqla yanaşı qadının həyat keyfiyyətinin pozulmasına səbəb ola bilir. Çanaq dibi xəstəlikləri ilə uroloji xəstəliklərin birlikdə rastlaşmasının yüksək faizi (85,5%), patoloji prosesin cavanlaşması problemin çoxəhatəli olmasını və tibbi sferadan kənara çıxmasını sübut edir [7,8].

Çanaq dibi xəstəliklərinin patogenezindəki evalyusiyanın dəyişiklikləri ilə yanaşı xəstəliklərin aparılması taktikası da dəyişmişdir. Hal hazirda uşaqlıq yolu divarlarının sallanmasına pubovesikal və rektovaginal arakəsmələrin defekti və onların çanaq divarlarından qopması kimi baxılır [9,10]. Birləşdirici toxumanın displaziyası reproduktiv dövrdə xəstəliyin inkişafının səbəblərindən biri kimi götürülür. Birləşdirici toxumanın anadangəlmə anomaliyası kollagenin quruluş pozulmaları və ya onun möhkəmliyinin azalması ilə əlaqədardır. Kollagen defektləri ətraf mühit faktorlarının təsiri və irsiyyət ilə əlaqəli ola bilər. Çanaqdaxili fassiya daimi mexaniki təsirlərə, maddələr mübadiləsi, hormonal və nevroloji aktivliklərə reaksiya verir. Cinsi orqanların sallanması və düşməsi sidik saxlamazlıq ilə birgə proseslərin etiologiyasında kollagenin rolunun müəyyənləşdirilməsi aktual problemdir [2,4].

Çanaq dibi xəstəliklərinin əsas etioloji faktorlarına aiddir: çanaq dibi əzələlərinin zədələnməsi, aralığın dərin cırıqları, doğuşda cərrahi müdaxilə (maşaların qoyulması, dölün şanaq ucundan ixracı), sidik-cinsiyyət diafraqmasının innervasiya pozulmaları (yayılmış skleroz, çanaq nahiyəsinin anadangəlmə qüsurları, birləşdirici toxuma xəstəlikləri).

Çoxsaylı tədqiqatlara əsasən risk faktorlarına aşağıdakılar aid edilir: anamnezdə çoxsaylı doğuşlar, ahıl yaş, qarındaxili təzyiqin artması və s. [6,11].

Cinsi orqanların prolapsı sidik saxlamamazlıq ilə birlikdə təbabətin aktual problemi olmaqla yanaşı qadının əmək qabiliyyətinin və həyat keyfiyyətinin pozulmasına gətirib çıxararaq və sosioloji əhəmiyyət kəsb edərək müalicə prinsiplərinin yaxşılaşdırılmasını tələb edir.

Tədqiqatın material və metodları. Bu məqsədlə 20 qadın tədqiq olunmuşdur. İlkin tədqiqat anamnezin əhatəli toplanmasından və ginekoloji baxışdan ibarət olmuşdur. Şikayətlərin qiymətləndirilməsində aşagıdakılara diqqət yetirilmişdir: xəstəliyin başlanma müddəti, həyat keyfiyyətinə təsiri, ailə anamnezi, dərman maddələrinin qəbulu, doğuşun sayı, yanaşı ginekoloji xəstəliklər, nefroloji xəstəliklər, keçirilmiş əməliyyatlar, öskürək, asqırmada sidik saxlamamazlıq, sidik ixracına tez-tez çağırış, sutka ərzində sidik ixracının ritmi və tezliyi, qarnın aşağı hissəsində ağrılar və ağırlıq hissi, aralıqda yad cisim hissiyatının olması.

Ginekoloji kresloda baxış funksional sınaqlarla birgə aparılmışdır ki, bu da ilkin diaqnoz qoymağa və sonrakı taktikanı müəyyənləşdirməyə imkan vermişdir. Baxış xarici cinsiyyət üzvlərindən və vestibulyar nahiyədən başlayır. xəstədə atrofik dəyisikliklər müəyyən edilmişdir ki, bu da estrogen hormonun çatışmazlığını göstərməklə yanaşı, uretranın tonusunun azalmasına və qapayıcı aparatın pozulmasının göstıricisidir.

Sonrakı baxışda aşağıdakılar qiymətləndirilmişdir: uşaqlıq yolunun ölçüsü- 1)böyüməyib- 4 xəstə (20%), 2) böyümüşdür-8 (40%) xəstə, 3) cox böyümüşdür-8 (40%) xəstə, selikli qişanın vəziyyəti: hiperemik-7 (35%) xəstə, hipertrofik-13(65%) xəstə, çapıq dəyişiklik –5 (25%) xəstə, sistosele-2 (10%) xəstə, uretrosele-6(30%) xəstə, ureta və sidik kisəsi boynunun vəziyyəti:1) dəyişib-14 (70%) xəstə,

dəyişməyib- 6 (30%) xəstə, uşaqlıq boynunun düşməsi-6 (30%) xəstə, uşaqlığın düşməsi-2(10%) xəstə, usaqlıq yolunun sallanması – 12 (60%)xəstə.

Bütün xəstələrdə bimanual müayinə aparılaraq paravezikal sahə qiymətləndirilmişdir. Uşaqlıq və sidikliyin hərəkətliliyi: var- 10 (50%) xəstə, yoxdur-10 (50%) xəstə. Bonni testi aparılmışdır: müsbət –18 (90%) xəstə, mənfi- 2 (10%) xəstə. Konus test: 10-20q-2 (10%) xəstə, 30-40q- 6 (30%) xəstə, 50-60q- 8 (40%) xəstə, 70-80q –4 (20%) xəstə. Valsalva sınağı: müsbət-2 (10%) xəstə, mənfi-18(90%) xəstə.

Cinsi orqanların prolapsı və sidik inkontenansı olan qadınlarda müalicə metodlarının seçilməsi indiyə qədər problem olaraq qalır. Bir sıra faktorlarla əlaqəlidir: cinsi orqanların sallanma dərəcəsi, uşaqdoğma və menstrual funksiyanın saxlama imkanları, sidikliyin, uretranın, düz bağırsağın funksiya pozulmalarının xüsusuyyətləri, yanaşı ekstragenital xəstəliklər, cərrahi müdaxilənin risk dərəcəsi.

Birgə patologiyanın cərrahi müalicəsi nəticələrində olan müvəffəqiyyətlərə baxmayaraq, 9-30% halda sidik saxlamamazlıq aradan götürülmür, 33-61,5% halda isə prolapsın residivləşməsi baş verir [12]. Bu da yeni müalicə metodlarının tətbiq olunmasını tələb edir.

20 qadın müvafiq əməliyyatönü hazırlıq keçdikdən sonra əməliyyat olunmuşdur. 18 (90%) xəstədə puborektal plastika TOT əməliyyatı ilə, 2 (10%) xəstədə puborektal plastika pubovesikal arakəsmənin bərpası ilə icra olunmuşdur.

Beləliklə, sidik saxlamamazlıq və cinsi orqanların prolapsının birlikdə rast gəldiyi proseslərin patogenetik aspektlərin öyrənilməsi aktualdır, tədqiqatların aparılmasını, müalicəsində yeni, effektiv metodların işlənib hazırlanmasını tələb edir.

ƏDƏBİYYAT

1. Аполихина И.А., Ибинаева И.С., Саидова А.С., Железнякова А.И. Особенности тактики ведения женщин с недержанием мочи в амбулаторно-поликлинических условиях // Материалы IV съезда акушеров-гинекологов России. М., 2008, с.305-306.
2. Coll-Planas L., Denkinger M.D., Nikolaus T. Relationship of urinary incontinence and late-life disability:Implications for clinical work and research in geriatrics // Gerontol Geriat., 2008, v.41, p.283-290.
3. Tegerstedt G., Miedel A., Mahle-Schmidt M., et al. Obstetric risk factors for symptomatic prolapse: Apopulation-based approach // Obstetr. And Gynec., 2006, v.194, p.75-81.
4. Нечипоренко Н.А., Егорова Т.Ю., Юцевич Т.Ю. Синтетические протезы в хирургическом лечении женщин с выпадением половых органов // Акуш. и гин., 2009, №2, с.64-67.
5. Sentilhes L., Berthier A., Loisel C. et al. Female sexual function following surgery for stress urinary incontinence:tension-free vaginal versus transobturator tape procedure // Urogynecol., 2009, v.20, p.393-399.
6. Patel. D. A., Xu X., Thomason A.D. et al. Childbirth and pelvic floor dysfunction: An epidemiologic approach to the assessment of prevention opportunities at delivery // Obstetr. And Gynec., 2006, v.195, p.23-28.
7. Denman M.F., Gregory T., Boyles S.H. et al. Reoperation 10 years after surgically managed pelvic organ prolapse and urinary incontinence // Obstetr. And Gynec, 2008, v.198, p. 555-556.
8. Fialkow M., Symons R.G., Flum D. et al. Reoperation for urinary incontinence //Obstetr. And Gynec., 2008, v.199, p.546-547.
9. Абдуризаев А.А., Мин А.В. Эффективность TVT-O при стрессовом недержании мочи у женщин / I съезд белорусской ассоциации урологов,. Минск, 2008, с.72-73.
10. Mallett V.T., Brubaker L., Stoddard A.M., et al. The expectations of patients who undergo surgery for stress incontinence // Obstetr. And Gynec., 2008, v.198, p.308-310.
11. Горбенко О.Ю. Новые подходы к оперативному лечению опущения и выпадения внутренних половых органов: Автореф. дис. ... канд. мед. наук. М., 2007, с.14.
12. Мицкевич Е.А., Мастыков А.Н. Этиопатогенетические аспекты выпадения внутренних половых органов и стрессового недержания мочи у женщин / Актуальные вопросы современной медицины и фармации. Материалы 61 итоговой научно-практической конференции студентов и молодых ученых. Витебск: ВГМУ, 2009, с. 415-416.

Резюме

Исследование проблемы пролапса органов малого таза и мочевой инконтиненции

К.Д.Кулиева

Опущение и выпадение половых органов в структуре общих гинекологических заболеваний составляет 28-38,9%. У женщин с пролапсом половых органов нарушения мочеиспускания отмечаются в 50-84%. Общность патофизиологических предпосылок опущения и выпадения внутренних половых органов и стрессового недержания мочи позволяет рассматривать данные состояния как цельную медицинскую проблему, требующую интегративных подходов в диагностике

и выборе метода лечения. Оперативное лечение при дисфункции тазового дна является основным. В последние годы при сочетанных заболеваниях внутренних половых органов и нарушениях мочеиспускания хирурги все чаще отдают предпочтение плановым си-мультанным операциям с использованием синтетических имплантатов. Однако ближайшие и отдаленные результаты использования синтетических имплантатов неоднозначны и требуют дальнейшего изучения. Несмотря на значительные успехи оперативного лечения сочетанной патологии, от 9 до 30% оперативных вмешательств не приводят к устранению недержания мочи. По данным ряда авторов, частота рецидивов пролапса гениталий составляет от 33 до 61,3%.

Summary

Investigation of the problem of prolapse pelvic organs and urinary incontinence

K.D. Guliyeva

Pelvic organ prolapse in structure of the general gynecologic diseases makes 28-38,9 %. At women with pelvic organ prolapse urinary incontinence are marked in 50-84%.The generality path physiological preconditions of pelvic organ prolapse and stress urinary incontinence allows to consider the given conditions as the integral medical problem demanding integrative approaches in diagnostics and a choice of a method of treatment. Operative treatment at pelvic fl oor dysfunction is the core. Last years at a combination of diseases surgeons prefer scheduled simultaneous operations with use synthetic implants. However the nearest and remote results of use synthetic implants are ambiguous and demand the further studying. Despite of signifi cant successes of operative treatment pathologies, from 9 up to 30 % of operative interventions do not lead to elimination urinary incontinence. According to of some authors, frequency of relapses pelvic organ prolapse makes from 33 up to 61,3 %.

Daxil olub: 13.08 2018

KARİYESİN YARANMASINDA ENDOGEN FAKTORLARIN ROLU

Q.X. Əliyev, B.M.Həmzəyev

Azərbaycan Tibb Universiteti, Bakı

Açar sözlər: karies, faktorlar, diaqnostika

Ключевые слова: кариес, факторы, диагностика

Key words: caries, factors, diagnosis

Kariyesin etiologiya və patogenezinə həsr edilən ən müasir nəzəriyyələr, o cümlədən asidogen konsepsiy da, kifayət qədər populyar olsa da, kariyesin patoloji bir proses kimi yaranma və inkişaf mexanizmini olduğu kimi əks edə bilmir. Bu mürəkkəb patologiyaya birtərəfli baxılır, pulpa və diş mayesinin (endogen faktorlar) rolu nəzərə alınmır.

Məhz bu səbəbdən kariesologiyada əsrlərlə hegomonluq edən asidogen nəzəriyyə əslində heç nəyə nail olmayıb və əksinə, kariyes dinamik sürətdə artmağa meylli olan bir sivilizasiya xəstəliyinə çevrilib.

Biz kariyesin yaranmasında turşu faktorunun həlledici olmadığını sübut etmək üçün aşağıda göstərdiyimiz və təkzibolunmaz faktorlara istinad edirik;

1.Ağız suyunda fəaliyyət göstərən bikarbonat və fosfat bufer sistemləri asidogen nəzəriyyədə iddia olunduğu kimi – pH-ın 4,5-5,0 səviyyəsinə düşməsinə imkan vermir. Sübut olunmuş faktlar onu deməyə əsas verir ki, karbohidratlarla zəngin qida qəbulundan sonra qısa müddət ərzində ağız boşluğunda pH-ın neytrallaşması baş verir (Stefan əyrisi).

2.G.J.Freydin və həmmüəllifləri (1984) ağız suyunda izoelektrik nöqtələrinə görə müxtəlif spektrə malik zülallar aşkar etmişlər. Həmin zülallar 10-18 həddində fraksiyalara ayrılmaqla pH-ın 4,5-9,5 diapazonunda fəaliyyət göstərirlər. Ağız suyunda turşuluq artdıqda onlar qələvi, qələvilik artdıqda isə turşu rolu oynayaraq pH-ın stabilləşməsini təmin edirlər.

3.Yumşaq və bərk diş ərpindəki bəzi mikroorqanizmlər ureaza fermentinin təsiri ilə qida qalıqlarından ammonyak və hidrogen-sulfid hasil edirlər. Ammonyak əsasən ağız suyunun tərkibindəki karbamiddən əmələ gəlir və ərpdəki üzvü turşuların neytrallaşmasını təmin edərək, onların demineralləşdırıcı təsirini aradan qaldırır.

4.Qlükoliz prosesində əmələ gəlmiş hər bir üzvi turşunun spesifik pH göstəricisi vardır. Aparılmış tədqiqatlar nəticəsində məlum olmuşdur ki, həmin turşular birləşərək daha aqressiv hesab olunan süd turşusunu neytrallaşdırır və beləliklə də effektiv bufer sistemi yaratmış olurlar (Minah 1981).

5.Ağız boşluğundakı mikroorqanizmlərin asidotolerantlığını öyrənmək məqsədiylə aparılmış tədqiqatlar sübut etmişdir ki, ağız boşluğunda pH-ın 5,6 səviyyəsində str.mutans çoxalmasını dayandırır, pH-ın 4,2 səviyyəsində isə onlar 24 saat ərzində məhv olurlar. Asidogen nəzəriyyə tərəfdarları iddia edirlər ki mikroorqanizmlərsiz kariyes mümkün deyil. Elmi araşdırmalar isə sübut edir ki, həmin mikroorqanizmlər turşuların kritik həddinə qarşı davamsızdır.

6.Kariyesin ləkə mərhələsində demineralləşmanın bilavasitə minanın səthi qatında deyil, səthaltı qatda əmələ gəlməsi faktı da, kariyesin turşular tərəfindən yaranmadığını təsdiq edir. Opponentlərin qənaətinə görə, minanın səthi qatında demineralləşmanın olmaması həmin qatda Ca və P-un çoxluğu, habelə remineralləşmanın daha intensiv olması ilə əlaqədardır.

Minanın alt qatlarında, mina-dentin sərhəddində, eləcə də dentində mineral maddələrin miqdarı minanın səthi qatı ilə müqayisədə kifayət qədər azdır. Belə olduqda maraqlı, həm də məntiqi bir sual ortaya çıxır; hansı mexanizm əsasında H^+ ionları daha dərin qatlara – mina–dentin – pulpa istiqamətində hərəkət eyməyərək, yalnız minanın səthaltı qatında kumulyasiya olunur və həmin nahiyədə demineralləşma törədir?

7.Depulpasiya olunmuş dişlərdə klassik formada kariyes əmələ gəlmir. Nəzərə almaq lazımdır ki, bu cür dişlərdə kariyesin inkişafı üçün daha münbit şərait mövcuddur; sərt toxumalarda mineral maddələrin miqdarı azdır, mina və dentinin tamlığı pozulmuşdur, mikroorqanizmlərin fəaliyyəti üçün əlverişli şərait vardır və s. Bütün bunlara baxmayaraq, pulpası çıxarılmış dişlərdə mərhələli (klassik) kariyesə praktikada rast gəlinmir.

8.Diş mayesi sərt toxumaların mineralləşmasında iştirak etdiyi kimi, eyni zamanda kariyesə qarşı rezistentliyin yaranmasında da mühüm rol oynayır. Məlumdur ki, pulpada əmələ gələn, dentin kanalcıqlarına daxil olan və minadan keçərək dişin səthinə çıxan diş mayesi qlükoliz prosesi nəticəsində yaranan üzvi turşuların təsirini qismən neytrallaşdıra bilir. Deməli, ağız suyunun intensiv ifrazı, bufer sisteməlrinin normal fəaliyyəti, eyni zamanda diş mayesinin təsiri sayəsində ağız boşluğunda pH-ın stabil qalması mümkün olur.

9.Bu vaxta qədər araşdırdığımız istənilən elmi ədəbiyyatda aparılmış tədqiqatlar nəticəsində diş ərpinin altında, lokal formada pH-ın dəqiq ölçülməsi və alınmış nəticələrin təsdiqi ilə bağlı inandırıcı bir məlumata rast gəlməmişik. Göstərilən arfimetrik rəqəmlər hirotetik və ehtimal xarakterli məlumatlardır.

10.İddia edilir ki, kariyes yalnız diş ərpinin təmizlənə bilmədiyi nahiyələrdə əmələ gəlir. Bu baxımdan, son dövrlərdə VI sinif karioz boşluğu kimi təsnif olunan, əslində atipik boşluq kimi tanıdığımız – kəsici kənar və qabarlarda rast gəlinən kariyesin yaranma mexanizmini necə izah etmək olar? Dişlərin çeynəmə səthlərindəki qabarlar və kəsici kənar daima sürtülməyə məruz qaldığına görə həmin hissələrdə heç vaxt ərp olmur.

Məlumdur ki, kariyes ilkin formada minanın səthaltı qatında demineralləşma deyilən kimyəvi proseslə başlayır. Qeyd etmək lazımdır ki, ümumiyyətlə kimyəvi proses olan demineralləşma həm turşular, həm də qələvilər tərəfindən törədilə bilir. Kariyesin yaranmasında göstərdiyimiz turşu faktorunun həlledici olmaması müddəalarına istinad edərək belə qənaətə gəlirik ki, kariyesin başlanğıc – səthaltı ləkə mərhələsi diş mayesində əmələ gəlmiş qələvi mühitin hesabına yaranır.

Burada kariyesin başlanğıc mərhələsi üçün demineralləşma törədə biləcək qələvi mühitin yaranmasında odontoblastların uzun çıxıntıları (Toms lifləri) üzərindəki xolinomimetik mediator olan asetilxolin həlledici rol oynayır. Sinir sistemi mediatoru olaraq, asetilxolin yalnız qələvi pH-a malik mühitdə fəaliyyət göstərir. Məlumdur ki, sinir impulslarının ötürülməsi zamanı sinapsda parçalanan və yenidən sintez olunan asetilxolinin fəaliyyəti dövründə qələvi mühitdə pH-ın bir qədər də artması baş verir, pH 7,4-dən 7,8-dək yüksəlir.

Turşu faktoruna görə pH-ın kritik həddinin minada 5,2–5,7-yə, dentin və sementdə isə 6,2–6,7-yə bərabər olması müddəasını nəzərə alaraq, həmin göstəriciləri qələvi mühit üçün anoloji göstəricilərlə müqayisə etsək, onda məlum pH şkalasına görə, müvafiq göstəricilərin uyğun olaraq 7,3–7,8 və 8,3–8,8 bərabər olduğunu söylmək olar. Bu faktların doğruluğuna şübhə etməyərək, lokanik bir qərara gəlmək olar; asetilxolinin fəaliyyət göstərdiyi diş mayesindəki qələvi mühit (pH 7,4–7,8) mina-dentin sərhəddində, eləcə də minanın səthaltı qatında demineralləşma törədə bilmək iqtidarındadır. Deməli, dişdə mövcud olan asetilxolin nə qədər çox parçalanıb və yenidən sintez olunarsa, kariyesin yaranma ehtimalı bir o qədər çox olar. Bu prosesi

stimullaşdıran faktorlar isə kifayət qədərdir; qəbul edilən qidanın çeşidi, xarakteri, konsistensiyası, kimyəvi, fiziki, termiki göstəciləri, dadı, iyisi və i.a.


Kariyesin bu yolla əmələ gəlməsi ideyası asidogen nəzəriyyədən fərqli olaraq, bir çox gizli məqamları, o cümlədən kariyesin sivilizasiya xəstəliyi olaraq nəyə görə çox yayılması, patoloji anatomik baxımdan demineralaşmanın səthi qatda deyil, səthaltı qatda yaranması, depulpasiya olunmuş dişlərdə kariyesin yaranmaması, atipik kariyesin əmələ gəlmə mexanizmini və s. izah etmək iqtidarındadır.

Tədiqatın material və metodları. Dişin sərt toxumalarında, o cümlədən minanın səthaltı qatında, mina dentin sərhəddində qələvi təsirindən demineralaşma yaranmasını sübut etmək məqsədi ilə ortopedik göstərişə görə çəkilmiş intakt dişlərin minası səthi yonulmuş və cilalanmışdır. Sonra yonulmuş hissələr yuyucu vasitələrlə yuyulmuş və qurudulmuşdur. Müayinə olunacaq mina sahələri pH-ı 7,8–8,0-ə bərabər bufer tutumlu kalsium hidroksid məhlulu ilə 5 dəqiqə ərzində isladılmışdır. Daha sonra həmin dişlər axar su altında yuyulmuş və qurudularaq mikroskop altında müayinə edilmişdir.


Qeyd etmək lazımdır ki, qələvi ilə demineralaşma törədilərək müayinə olunan dişlər əsas qrup kimi götürülmüş və demineralaşma aparılmayan (nəzarət qrupu) dişlərlə müqayisə aparılmışdır.(Şəkillər aşağıda verilmişdir).



Şək. 1.Turşu ilə demineralaşma



Şək.2.Qələvi ilə demineralaşma



Şək.3.Demineralaşma törədilməyən dişlər

Əldə etdiyimiz nəticələr onu deməyə əsas verir ki, pH-ı 7,8-8,0-a bərabər bufer tutumlu kalsium hidroksid məhlulu cilalanmış dişlərin mina-dentin sərhədində, eləcə də dentində demineralaşma törədə bilir.

ƏDƏBİYYAT

1.Б.М.Гамзаев, Л.К.Ибрагимова. Ещё раз о кариеса // Проблемы стоматологии. 2012, №1, с.34-36.

2.Гамзаев Б.М., Л.К.Ибрагимова. Неизученные аспекты патогенеза кариеса зубов // Новое в стоматологии, 2007, №1, с.18
3.Биология полости рта. М.: Медицина. 1991, с.240-270
4.Гамзаев Б.М. О роли ликвора в кариозном процессе. //Новое в стоматологии, 2003, №6, с.54
5.Б.Р.Орушко. Физиология эмали и проблема кариеса зубов. Кишинев, «Штинца», 1989

Резюме

Роль эндогенных факторов в возникновении кариеса

Г.Х.Алиева, В.М.Гамзаев

В этой работе, по научно-теоретическим пунктам отрицается кислотный фактор возникновения кариеса и подтверждается то, что ацидогенная теория не является решающей в деминерализации эмали. Считается, что деминерализация эмали в стадии пятна(начальный кариес) возникает в связи с увеличением щелочей в зубном ликворе, и даже деятельности ацетилхолина в волокнах Томса. При помощи раствора с буферным объемом и pH (7,8-8,0) демонстрируется получение деминерализации полированной эмали и эмалево-дентинной границы.

Summury

The role endogen factors in the development of caries

G.K.Aliyeva, B.M.Hamzayev

In this work, according to scientific and theoretical points, the acid factor of the occurrence of caries is denied and it is confirmed that the acidogenic theory is not decisive in the demineralization of enamel. It is believed that the enamel demineralization on the spot stage (initial caries) occurs due to an alkalis increase in the dental fluid, and even the activity of acetylcholine in Toms fibers. With the help of the solution with a buffer volume and pH (equal to 7.8–8.0), the demineralization of polished enamel and the enamel-dentin border is demonstrated.

Daxil olub: 27.06.2018

NİTİ ALƏTLƏRINƏ MALİK MOTORLU SİSTEM FAYLLARI İLƏ KANALLARIN İŞLƏNMƏ ÜSULLARINA DAİR

R.İ.Səlimov, K.S.Alkişiyev

Azərbaycan Tibb Universiteti, Bakı

Açar sözlər: diş kanalı, müalicə, NiTi sistemi, alətlər, ProFile
Ключевые слова: канал зуба, лечение, система NiTi, инструменты, ProFile
Key words: tooth canal, treatment, NiTi system, instruments, ProFile

İlk NiTi sistemlərindən biri ProFile alətləri olub, gündəlik istifadədə özlərini doğrultmuşdurlar. Alət dəstində kanal girəcəyini formalaşdırıcıları (19 mm uzunluğa və 5-8% konusluğa malik fayllar), 15-40 ölçülərdə və konusluğu 6% olan ProFile 06 ilə 15-90 ölçülərdə konusluğu 4% olduğu ProFile 04 olur. Kanal girəcəyi genişləndiriciləri kök kanalının koronal 1/3-nin instrumentasiyası üçün istifadə edilir. 21-25 mm uzunluqdakı ProFile 06 aləti isə kök kanalının orta 1/3 hissəsini instrumentasiyası üçün istifadə edilir. Apikal hissənin instrumentasiyası isə 21, 25 və 31 mm uzunluqlardakı ProFile 04 faylları ilə həyata keçirilir [1].

Alətlərin kəsikləri Y-şəkilli olub, "radiallar sahələr"-ə malikdir. Bu struktur alətin kanalın mərkəzində qalmasını və kanal divarlarının rahatlıqla işlənməsini təmin edir, dentinə ilişmələrinə mane olur. Hamar və iti olamayan uc isə faylı kanalın içərisində, kanal səthini korlamadan və deşmədən düzgün istiqamətlənməni təmin edir.

ProFile, Flexofile və KaVo-Endo sistemlərinin müqayisəsinin aparıldığı bir tədqiqatda 60 ədədinin kanalı düz və digər 60 ədədində isə ən azı tək bir kökü əyilmiş vəziyyətdə olan ümumilikdə 120 ədəd çəkilmiş diş instrumentasiya edilmişdir. ProFile sistemi alətlərinin kanalların heç birinin formasında və gedişində hər hansı dəyişiklik törətmədiyi müşahidə edilmişdir. Buna baxmayaraq, ProFile sisteminin təmizləmə qabiliyyətinin əl alətləri ilə icra edilən instrumentasiya ilə müqayisədə nisbətən az effektiv olduğu qeyd edilməlidir [1].

EDTA isə icra edilən yumadan sonra, ProFile fayl ardıcıllığı, kök kanalını ən yaxşı təmizləyən alətləri kimi fəaliyyət göstərsələr də; natrium hipoxloridlə icra edilən yuyulmadan sonra ProFile sistemi nəticələrinin daha pis olduğu müşahidə edilmişdir [1].

Crown-down instrumentasiya texnikasında iki fərqli ölçüdə (rəngdə), iki ayrı alət istifadə edilir:

• Geniş kök kanalları üçün koronal genişləndirməyə mavi rəngli kanal girəcəyinin genişləndiricisi ilə başlanılır,

• Bundan sonra qırmızı rəngli kanal girəcəyi genişləndirici ilə kanalın koronal hissəsindən daha dərinə enilir,

• Sonra mavi rəngli ProFile 06 və ondan sonra da qırmızı rəngli ProFile 06 istifadə edilərək kanalın apikal 1/3-nə çatılır,

• Bu nöqtədə işləmə uzunluğu rentgenoloji olaraq müəyyənləşdirilir,

• Sarı rəngli ProFile 04 ilə kök kanalı bütün işləmə uzunluğu boyunca genişləndirilir və instrumentasiya edilir. Bundan sonra kanalda qırmızı və daha sonra da mavi rəngli ProFile 04 işlədilir [2].

Orta uzunluğa malik kanallarda instrumentasiyaya qırmızı rəngli kanal girəcəyi formalaşdırıcısı (orifice shaper) ilə başlanılır, daha sonra, sarı rəngli alətlə daha dərinə enilir. Bundan sonra, qırmızı və sarı rəngli ProFile 06 alətləri işlədilir. İşləmə uzunluğunun müəyyənləşdirilməsindən sonra apikal hissədəki son instrumentasiya əvvəlcə sarı rəngli ProFile 04-ün kanal boyunca istifadəsi, daha sonra qırmızı və sonra mavi rəngli alətin istifadəsilə icra edilir [3].

ProFile alətləri daim yumşaldıcılarla istifadə edilməli və hər ölçü alətə keçməmiş kanal 5%-li NaOCl məhlulu ilə yaxşıca yuyulmalıdır.

ProFile alətləri vertikal istiqamətdə 2 mm-i keçməyən cüzi irəli və geri hərəkətlə təzyiq tətbiq edilmədən istifadə edilir.

ProFile alətləri burulma məhdudlaşdırıcısı (məslən; ATR Technica) olan, aşağı dövrlü (250-350 rpm) matorla istifadə edilir. Bu alətin həddən artıq burulması və son olaraq, qırılmasının qarşısını alır. Heç bir ProFile aləti 10 dəfədən çox istifadə olunmamalıdır [2, 3].

Orijinal Greater-Taper və ya GT Rotary alət dəsti, xüsusi olaraq, ABŞ bazarı üçün Tulsa Dental tərəfindən istehsal edilən Buchana təşkil edilmiş sistemdir. Bu sistem 6 ədəd alətdən ibarətdir (GT Rotary faylları 06#20, 08#20, 10#20 və bunlardan əlavə GT Accesory faylları 12#35, 12#50 və 12#70). Avropada bu alətlər İsveçrə firması olan "Maillefer" tərəfindən istehsal edilib ProFile sistemindəki 04#20, 04#25, 04#30 və 04#35 kimi 4 əlavə alətlə sayları artırılmışdır [4].

GT faylları, ölçüləri eyni ancaq konusluğu fərqli olan alətlərdir.

Son zamanlarda bu sistem (NiTi-GT new) iki ardıcıl fayl əlavə edilməklə genişləndirilmişdir: Kiçik kök kanalları üçün 30 ölçülü fayllar və geniş kanallar üçün də 40 ölçüyə qədər olan fayllar mövcuddur. Əlavə fayllarla birlikdə konusluq 4%, 6%, 8% və 10%, hətta 12%-ə qədər artır [5].

GT-rotary dəstinin bir xüsusiyyəti də kanal instrumentasiyası zamanı geniş koronal istiqamətdən kanalın açıqlığı və konusvari kanal formasının yaradılmasını təmin etmək üçün təşkil edilmiş yüksək konusluqdur.

Bütün GT-Rotary fayllarında kəsmə bucağı neytraldır. Alətlərin ucu hamardır və kəsici deyil. ProFile alətlərində və "accesory" fayllarında, kəsici kənar və alətin uzununa oxu arasında əmələ gələn bucaq, alətin ucundan funksiya göstərən hissənin sonuna qədər getdikcə artır. GT fayllarında isə bu bucaq kəsici funksiya icra edən hissənin bütün hissələrlə eyni olub təxminən 30 dərəcədir [6].

Daha böyük diametri və konusluğu 12% olan, başqa sözlə 500 dövr/dəq sürətə tab gətirənlər istisna olmaqla, bütün fayllar 250-300 dövr/dəq sürətdə istifadə edilmək üçün nəzərdə tutulmuşdur. İnstrumentasiya crown-down texnikasından istifadə etməklə həyata keçirilir.

Kanal girəcəklərinin başlanğıcda kanalın böyüklüyünə uyğun olan #35 və ya #50 "accesory" faylları ilə genişləndirilməsini; konusluğu 6%-dən 10%-ə qədər olan fayllarla aparılan həqiqi kök kanalı instrumentasiyası davam etdirir. Apikal instrumentasiya isə yalnızca 4% konusluğa malik fayllarla icra edilir. Koronal hissə bütövlükdə #10 faylla instrumentasiya edilir; #8 kanalda bir neçə mm daha dərinə enir və #6 faylla kanalın apeksinə çatılır.

İkinci ardıcıllıqda #8 fayl təkrarən istifadə edilir, ancaq bu dəfə daha əvvəl #6 faylın çatdığı yerə qədər enilir. Bundan sonra, #6 alətlə apikal daralmaya qədər irəlilənir.

İşləmə uzunluğunun rentgenoloji olaraq həssas şəkildə hesablanmasından sonra 0,04 fayl (konusluğu 4% olan alət) işləmə uzunluğu boyunca istifadə edilir. Crown-down texnikasının əksinə 4% konusluğa malik fayllar, kiçikdən böyüyə doğru istifadə edilir, yəni işləmə uzunıuğunda əvvəlcə 20 ölçülü fayl istifadə edilir, daha sonra eyni dərinliyə 25-lik və 30-luq fayllar tətbiq edilir [7].

Faylların seçimi kök kanalının əyilmə dərəcəsi və ölçülərindən asılıdır (yalnızca kiçik və böyük ayırd edilir). Kök nə qədər kiçikdirsə istifadə edilən alətlərin boyları da oq dərə səviyyədə kiçik olmalıdır. Əyilmə nə qədər çoxdursa apikal hissədə istifadə ediləcək alətlərin konusluğu o qədər kiçik olmalıdır [8].

FlexMaster sisteminin kəsici səthləri qabarıq kənarlı üçbucaq şəklində oan en kəsiyinə malikdir. Digər NiTi sistemlərinin əksinə, FlexMaster-in massiv maddəsi, ən azından düz kanallarda burulmalara qarşı müqaviməti artırılmış olduğu üçün qırılma riskini azaldır. Effektiv instrumentasiya üçün qabarıq kəsici səthlərlə K-fayl tipli kəsici ağızcıqlar kombinə olunmuşdur. FlexMaster daha əvvəl bəhs etdiyimiz mərkəzdə sabit qalan NiTi sistemlərində olan radial sahələrə malik deyil. Bu fırlanan fayllar 150 və 300 dövr/dəq intevalında istifadə edilir [8].

Alət ardıcıllığı müvafiq qutuda satılır; fayllar anlaşıla bilən ardıcıllıqda düzüldüyü üçün kliniki istifadəsi olduqca sadədir. Alət dəsti qısa, ifraz dərəcədə konusluğa malik və koronal instrumentasiyada istifadə edilən İnteroFile ilə 20, 25 və 30 ölçülərdə və 4-6% konusluqdakı 3 ayrı fayl ilə ölçüləri 20-35 arasında və konusluğu 2% olan fayllardan ibarətdir. Bundan əlavə, fərqli ölçülər də təşkil edilə bilər [9].

İnstrumentasiya crown-down texnikasıyla icra edilir. FlexMaster-lə işləyərkən:

• Böyük və düz giriş boşluğunun açılması
• Koronal hissənin instrumentasiyasından sonra işləmə uzunluğunun müəyyənləşdirilməsi
• Sabit dövr/dəq göstəricisinin saxlanılması
• Apikala doğru həddən artıq təzyiq etmədən, alətin yüngülcə yuxarı və aşağı istiqamətdə hərəkət etdirilməsi lazım gəlir.

Hər bir alət ən çoxu 10 saniyə müddətində istifadə edilməlidir. Alətlər yumşaldıcı ilə isladıldıqdan sonra kanala yeridilməlidir. İstifadə olunma sayları qeyd edilməli və say 8 dəfədən çox olmamalıdır. Kliniki praktikada tətbiq zamanı davamlı olaraq böyüdücü ilə optiki nəzarət altında alətlərin qırılmaya səbəb olabiləcək deformasiyalar müəyyən edilməli və defromasiyaya məruz qalmış alətər istifadədən kənarlaşdırılmalıdır [8, 9].

İnstrumentasiya crown-down ardıcıllığı və apikal ardıcıllıq olmaqla 2 yerə ayrılır. Kök kanalının koronal hissəsində icra ediləcək instrumentasiyada 4-6% konusluğu olan fayllar istifadə edilir; apikal preparasiyada isə 2% konusluğa malik fayllarla işlənilir. İstifadə ardıcıllığını geniş, orta və dar kök kanalları üçün mavi, qırmızı və sarı fayllar təşkil etməlidir. Hər bir crown-down mərhələsindən əvvəl İnterofile istifadə edilərək kanal girəcəkləri 10-12 mm dərinliyə qədər, bəzi hallarda isə kanalın əyilməsinə qədər genişləndirilir. Mavi ardıcıllıq mavi rəngli 0,06/30 (konusluğu 6%, ölüçüsü 30) faylla başlayır; qırmızı rəngli 0,06/25 fayl kanalda bir qədər daha dərinə penetrasiya olunur; bunun ardınca isə 0,06/20 sarı rəngli fayl istifadə edilir. Bu ardıcıllıqda istifadə edilən ən son fayl 0,04/30 mavi rəngdədir; bu fayl kanalın əyriliklərindən də dərinə penetrasiya edilir və kanalın apikal hissəsinə çatır. Əgər apikal daralmaya 2-3 mm qalana qədər çatılmışdırsa, crown-down texnikası əvvəldən axıra kimi təkrarlanır. Bu nöqtəyə ikinci və üçüncü faylla çatılması koronal hissədəki instrumentasiyanın bitdiyini göstərir və işləmə uzunluğu rentgenoloji olaraq yoxlanılır [7, 8].

Kanalın apikal hissəsinin instrumentasiyası zamanı əyilmiş kanallarda olduqca yüksək olan elastiklikləri və bu səbəbdən qırılmaya daha az meylli olmaları səbəbindən yalnızca və xüsusilə 2% konusluğa malik fayllar istifadə edilir.

İnstrumentasiyaya 20 ölçülü faylla başlanmalı, bu mərhələ kök kanalının böyüklüyündən asılı olaraq 30 və ya daha yuxarı ölçülü fayllarla davam etdirilməlidir.

K3 (Kerr 3) endodontik alətlər ISO-ya görə ölçüləri 16-60 arasında dəyişilən və konuluqları 4%, 6%, 8% və 10% olan fayllardır. Konusluqları 8% və 10% olan fayllar kanal girəcəklərinin ilkin genişləndiriciləri kimi istifadə edilir [8].

Alətlərin ən özlərinəməxsus ayırdedici xüsusiyyətləri en kəsiklərinin asimmetrik olmasıdır. Alətlərin kəsici səthləri müsbət kəsmə bucağına malikdir.

Kəsmə bucağı alətin kəsici səthləri ilə rotasiya hərəkətinin xəyali oxu arasındakı bucaq olub, kök kanalının instrumentasiyası zamanı kənarlaşdırılan toxuma yaxud materialların nə şəkildə kənarlaşdırıldığını müəyyən edir. Kəsmə bucaqları neytral, müsbət (pozitiv) və mənfi (neqativ) olmaqla biri-birindən fərqlənir:

• Pozitiv kəsmə bucağında kəsmə prosesi aktiv olub, proses zamanı tətbiq edilən qüvvə ilə eyni istiqamətdədir.
• Kəsmə bucağı neytral olduqda kəsmə prosesi kanal divarlarına perpendikulyar olaraq həyata keçir.
• Kəsmə bucağı neqativ olduqda aktiv olmayan kəsici təsir meydana gəlir.

Ümumilikdə, K3 fayllarının kəsici effekti GT-Rotary sistemininkindən yüksəkdir. Kəsmə effektivliyinin səviyyəsi adətən kəsici kənarların forma və quruluşuna görə müəyyən edilir.

2003-cü ildə Stelzner tərəfindən aparılan tədqiqatda pozitiv kəsmə bucağının K3 alətlərinə qazandırdığı fayda ilə əlaqədar olaraq istehsalçı firmanın iddiaları öz təsdiqini tapmışdır. K3 fayllarının GT-Rotary faylları ilə müqayisədə daha dərin kəsmə qabilliyyəti olduğu qeyd olunsa da aralarındakı fərq statistiki baxımdan dürüst olmamışdır. Bu tədqiqatda, GT-Rotary və K3 qruplarına aid olan faylların digərləri ilə müqayisədə ən aşağı kəsmə effektivliyinə malik olduqları müşahidə edilmişdir [8].

ProTaper fayllarından başqa FlexMaster fayllarının ən yüksək səviyyədə kəsmə effektivliyinə malik olduğu qeyd edilmişdir. Bu alətlərin kəsmə effektivliyi alətin boyu artdıqca artır. FlexMaster və ProTaper fayllarının, K3 və GT-Rotary faylları ilə müqayisədə daha yüksək kəsmə effektivliyinə malik olmaları hər ikisinin en kəsiklərinin biri-birinə oxşar olmasına əsaslanan ortaq xüsusiyyətidir. Bu sistemlərin hər ikisində en kəsikləri üçbucaqşəkillidir, kəcisi kənarları itidir və kəsici səthləri qabarıqdır [8, 9, 10].

Dentinin kök kanalının divarından kənarlaşdırılması K3 fayllarının kənarlarının dentini effektiv şəkildə kəsə bilməməsi səbəbindən daha çətindir. Bu vəziyyətdə "kəsmə effekti" daha çox abraziv təsiri şəklində olur. GT-Rotary fayllarında olduğu kimi kəsici səthlərin profilinə qabarıqlığın əlavə edilməsi rotasiya zamanı meydana gələn kəsmə bucağını kiçildərək kəsmə effektivliyini azaldır. "Radial sahələri" olan faylların kanal divarının səthilə təması olduqca geniş olduğundan sürtünmə müqaviməti artır və bu da alətin qırılma təhlükəsini artırır [11].

İnstrumentasiya 250-300 dövr/dəq sürət intervalında aparılmalıdır

Diaqnostik rentgenoqrafiyanın əldə edilməsindən sonra kanal girəcəyi genişləndiricisi olan fayllar (10 #25 və ya 08 #25) kanalın əyriliyinə qədər icra edilən instrumentasiyada istifadə edilir. Sonra rentgenoloji ölçüləri nəzərə alaraq 6% konusluğa malik ancaq getdikcə kiçilən boylardakı 35, 30, 25 və 20 ölçülü alətlərlə işləmə uzunluğuna çatılır. Dar və əyilmiş kök kanalları üçün 4% konusluğa malik olan faylların kanalın əyilmiş hissəsində istifadə edilməsi tövsiyə edilir [11].

ProTaper alətləri çox müxtəlif şəkillərə malikdir; tək bir faylda müxtəlif (getdikcə artan) konusluqlar vardır. Koronal genişləndirmə üçün 3 ədəd formalaşdırıcı fayl və apikal nahiyyənin formalaşdırılması üçün də 3 ədəd yekunlaşdırıcı fayl mövcuddur.

Formalaşdırıcı faylların işçi hissələrinin uc diametrləri 0,17/0,19 mm ilə 0,20 mm arasında dəyişdiyi halda, yekunlaşdırıcı fayllar üçün bu göstəricilər 0,20/0,25/0,30 mm təşkil edir. Digər tipli alətlərin əksinə ProTaper fayllarında konusluğun tək bir fayllda 2% ilə 19% arasında dəyişilir. Formalaşdırıcı fayllarda əyilmə alətin ucuna doğru getdikcə aşağı düşdüyü halda, yekunlaşdırıcı fayllarda alətin ucuna doğru getdikcə yüksəlir [12].

3 nömrəli yekunlaşdırıcı fayla qədər bütün alətlərin en kəsiyi qabarıq kəsici kənarlara malik üçbucaq şəklindədir. F3 faylının çöküк səthləri olan modifikasiya olunmuş üçbucaqşəkilli en kəsiyi istisna olmaqla digərlərindən başqa fərqi yoxdur. Bütün alətlərin yuvarlaqlaşdırılmış, kəsici olmayan ucu vardır; işçi hissənin kəsici kənarları demək olar ki, ucu qədər uzanır. Dəyişən konusluqlarla əlaqədar olaraq, tangens bucaqları 20°-30° arasında dəyişilir. Buna baxmayaraq, bütün alətlərdə bucaq alətin ucundan işçi hissənin ən koronal nöqtəsinə doğru artır.

Kanalın instrumentasiyasına #1 formalaşdırıcı faylla başlanılır və bu faylla koronal hissə daha çox genişləndirilməsinə baxmayaraq, eyni zamanda, işləmə uzunluğuna da çatılmış olur. Bundan sonra, #2 formalaşdırıcı faylla (kanalın uzunluğunun elektron yolla ölçülməsinin nəzarəti altında) apeksə qədər instrumentasiya aparılır və işləmə uzunluğu rentgenoloji olaraq həssas şəkildə müəyyənləşdirilir. Beləliklə, 20 nömrəli yekunlaşdırıcı faylla kök kanalı boyunca instrumentasiyaya davam edilərək, kanal başdan-ayağa genişləndirilir və apikal istiqamətə doğru 25 və 30 nömrəli fayllar istifadə edilir [13].

Digər iki nitinol əsaslı alət tiplərinin əksinə, ProTaper alətlərin koronal hissədəki instrumentasiyanın ilk mərhələrində belə, 4-5 nömrəli (#110-130) Gates-Glidden frezlərinkinə bərabər genişləndirmə icra etmək kimi əhəmiyyətli üstünlükləri vardır. Beləliklə, icra ediləcək apikal instrumentasiya və kök kanalının quttaperça ilə kondensasiya üsulu ilə doldurulması da rahatlaşır [14].

Fayllar kök kanalının daxilinə apmlitudu 1 mm olan, cüzi, irəli-geri hərəkətlərlə daxil edilir; ilkin instrumentasiyası zamanı böyük miqdarda dentin toxuması kənarlaşdırıldığından fayllar tez-tez təmizlənməlidir. Kənarlaşdırılan dentin kütləsi alətin kəsici kənarlarının arasında toplanaraq faylın kanalın daxilində ilişib qalmasına səbəb ola bilər. Alətlər steril tənziflə təmizlənməli və kök kanalı da tez-tez NaOCl ilə yuyulmalıdır.

Ciddi şəkildə əyilmiş kanallarda F2 və F3 alətləri konusluğu daha az olanlarla müqayisədə nəzərəçarpacaq dərəcədə daha rahat qırıldığı üçün bu hallarda koronal instrumentasiyaya formalaşdırıcı faylları; apikal instrumentasiyaya ProFile 04 və ya FlexMaster 04-ü, hətta həddən artıq əyilmiş kanallarda isə Flexmaster 02-ni əlavə etmək lazım gəlir [15].

Kök kanalının səthinin Y-şəkilli kəsiyi və radial sahələri (ProFile, GT-Rotary) olan alətlərlə təmizlənməsi, üçbucaqşəkillli kəsikləri olan FlexMaster və ProTaper sistemləri ilə müqayisə edildikdə daha yaxşı nəticələr vermişdir. U-şəkilli kəsik, dentin yonqarlarını daha effektiv şəkildə uzaqlaşdırır və bundan başqa, alətləri daha yaxşı şəkildə kanalın mərkəzində tutaraq, əhəmiyyətli nahiyyə olan apikal hissədə kisəşəkilli genişlənmələr əmələ gətirmədən effektiv təmizliyi təmin edir [12, 15].

ƏDƏBİYYAT

1. Al-Sudani D., Al-Shahrani S. A comparison of the canal centering ability of ProFile, K3, and RaCe Nickel-titanium rotary systems // J Endod., 2006, v.32, p.1198
2. Alapati S.B., Brantley W.A., Nusstein J.M. et al. Vickers hardness investigation of work-hardening in used NiTi rotary instruments // J Endod., 2006, v. 32, p.1191
3. Albrecht L., Baumgartner J., Marshall J. Evaluation of apical debris removal using various sizes and tapers of ProFile GT files // J Endod., 2004, v.30, p.425
4. Basson N.J., Tait C.M. Effectiveness of three root canal medicaments to eliminate Actinomyces israelii from infected dentinal tubules in vitro // SADJ, 2012, v.56, p.499
5. Chugal N.M., Clive J.M., Spångberg L.S. A prognostic model for assessment of the outcome of endodontic treatment: effect of biologic and diagnostic variables // Oral Surg Oral Med Oral Pathol Oral Radiol Endod.. 2012, v.91, p.342
6. Cunningham W.T., Martin H. A scanning electron microscope evaluation of root canal debridement with the endosonic ultrasonic synergistic system // Oral Surg Oral Med Oral Pathol., 2012, v.53, p.527
7. Dahlén G., Samuelsson W., Molander A., Reit C. Identification and antimicrobial susceptibility of enterococci isolated the root canal // Oral Microbiol Immunol., 2001, v.15, p.309
8. Dalton B.C., Orstavik D., Phillips C. et al. Bacterial reduction with nickel-titanium rotary instrumentation // J Endod., 2013, v.24, p.763
9. Daugherty D.W., Gound T.G., Comer T.L. Comparison of fracture rate, deformation rate, and efficiency between rotary endodontic instruments driven at 150 rpm and 350 rpm // J Endod.,2010, v.27, p.93
10. DeFiore P.M., Genov K.A., Komaroff E. et al. Nickeltitanium rotary instrument fracture: a clinical practice assessment // Int Endod J., 2006, v.39, p.700
11. Dental root-canal instruments—Part 1: Files, reamers, barbed broaches, rasps, paste carriers, explorers and cotton broaches, International Organization for Standardization. Geneva, 2012
12. Dietz D.B., Di Fiore P.M., Bahcall J.K., Lautenschlager E.P. Effect of rotational speed on the breakage of nickel-titanium rotary files //J Endod., 2000, v.26, p.68
13. Javaheri H.H., Javaheri G.H. A comparison of three Ni-Ti rotary instruments in apical transportation // J Endod., 2007, v.33, p.284
14. Jensen S.A., Walker T.L., Hutter J.W., Nicoll B.K. Comparison of the cleaning efficacy of passive sonic activation and passive ultrasonic activation after hand instrumentation in molar root canals // J Endod., 2009, v.25, p.735
15. Johnson E., Lloyd A., Kuttler S., Namerow K. Comparison between a novel nickel-titanium alloy and 508 Nitinol on the cyclic fatigue life of ProFile 25/.04 rotary instruments// J Endod., 2008, v.34, p.1406

Резюме

О способах работы каналов с помощью моторных системных файлов, обладающих инструментами NiTi

Р.И.Салимов, К.С.Алкишиев

Инструмент ProFile, будучи одним из NITI систем, оправдали себя в ежедневном использовании. Набор инструментов состоит из инструментов, которые формируют столб канала (файлы имеют длину 19 мм и конусность - 5-8%), ProFile 06 размером 15-40 и конусностью 6% и ProFile 04 размером 15-90 и конусностью 4%. Расширители столба канала используются для инструментации 1/3 коронального корневого канала. А инструмент ProFile 06 длиной 21-25 мм применяется для инструментации средней 1/3 части корневого канала. Инструментация апикальной части претворяется в жизнь файлами ProFile 04 длиной 21, 25 и 31 мм. При очищении поверхности корневого канала инструментами, обладающими Y-образным разрезом и радиальными областями (ProFile, GT-Rotary), по сравнению с системами FlexMaster и ProTaper с треугольными разрезами, были получены наиболее лучшие результаты. U-образный разрез наиболее эффективно отдаляет покрытия дентина и, помимо этого, обеспечивает эффективное очищение. При этом, инструменты

более рационально располагаются в центре канала, не образуя мешковидных расширений в такой важной области, как апикальная часть.

Summary

About how channels work using motor system files that have NiTi tools

R.I. Salimov, K.S. Alkishiyev

The ProFile tool, being one of the NITI systems, has proven itself in daily use. The toolbox consists of tools that form a channel pillar (files are 19 mm in length and taper 5–8%), ProFile 06 with a size of 15-40 and a taper of 6% and ProFile 04 with a size of 15–90 and a taper of 4%. Canal pillar extenders are used for instrumentation of 1/3 of the coronal root canal. A tool ProFile 06 length 21-25 mm is used for the instrumentation of the middle 1/3 of the root canal. The instrumentation of the apical part is implemented by ProFile 04 files of 21, 25 and 31 mm length. When cleaning the surface of the root canal with instruments that have a Y-shaped incision and radial areas (ProFile, GT-Rotary), compared with the systems FlexMaster and ProTaper with triangular cuts, the best results were obtained. The U-shaped incision removes the dentin coating most effectively and, in addition, provides effective cleansing. At the same time, instruments are more rationally located in the center of the canal, without forming bag-like extensions in such an important area as the apical part.

Daxil olub: 30.07.2018

PAPİLLOMA VİRUS İNFEKSİYASININ KLİNİK GEDİŞİNİN MÜXTƏLİF VARİANTLARI ZAMANI İNSANIN PAPİLLOMA VİRUSUNUN GENOTİPLƏRİNİN AŞKAR EDİLMƏSİ TEZLİYİ

R.İ.Səfərova

Azərbaycan Tibb Universiteti, Onkoloji klinika, Bakı

Açar sözlər: insan papillomavirusu, uşaqlıq boynu xərçəngi, sosial faktorlar
Ключевые слова: вирус папилломы человека, рак шейки матки, социальные факторы
Keywords: human papilloma virus, cervical cancer, social factors

Papilloma virus infeksiyası (PVİ) cinsi yolla ötürülən ən geniş yayılmış infeksiya hesab edilir, onunla bütün dünyada reproduktiv yaşlı 233,9 milyona yaxın qadın infeksiyalaşmışdır. Həyatı boyunca bu virusla seksual fəal əhalinin 75%-ə qədəri yoluxur [1,2,3]. Yoluxma ilk cinsi aktdan sonra artıq 2-3 aydan sonra baş verə bilər. PVİ inkişaf etməkdə olan ölkələrdə daha geniş (42,4%) yayılmışdır, halbuki inkişaf etmiş ölkələrin payına 22,6% hadisə düşür [4,5,6]. İnsanın papilloma virusunun (İPV) rastgəlmə tezliyi və genotiplərin yayılması coğrafi regionlardan asılı olaraq fərqlənir.

Tədqiqatın məqsədi papilloma virus infeksiyasinin klinik gedişinin müxtəlif variantlari zamani insanin papilloma virusunun genotiplərinin aşkar edilməsi tezliyinin öyrənilməsi olmuşdur.

Tədqiqatın material və metodları. Tədqiqat işində qarşıya qoyulan məqsədə nail olmaq üçün işlənib hazırlanmış klinik-laborator meyarların əsasında 2014-cü ildən 2018-ci ilə qədər müddətdə Azərbaycanın müxtəlif rayon və şəhərlərindən olan, uşaqlıq boynunun patoloji prosesləri və 2014-2018-ci illərdə respublikanın onkoloji müəssisələrində müayinə və müalicə olunan 18 yaşdan 44 yaşa qədər (orta yaş 32,4±1,4 il) 232 qadın müayinə edilmişdir. Bu qadınlar müayinə edilənlərin əsas qrupunu təşkil etmişdir. Nəzarət qrupunu respublikanın onkoloji müəssisələrinə yönəldilmiş və onlarda onkoloji və virus patologiyası aşkar edilməyən praktik sağlam 80 qadın təşkil etmişdir. İPV-ə görə müayinə bütün qadınlarda aparılmışdır. Bu zaman «AmpliSens VPÇ VKR genotip-EPh» test sistemlərindən istifadə edilmişdir. «AmpliSens VPÇ VKR genotip-EPh» reagentlər dəsti klinik materialda zəncirvari polmeraza reaksiyasının (ZPR) vasitəsilə yüksək kanserogen riskli (YKR) 16, 31, 33, 35; 18, 39, 45, 59 və 52, 56, 58, 66 tipli insanın papilloma virusunun (İPV) DNT-nin aşkar edilməsi və diferensiasiyası zamanı amplifikasiya məhsullarının aqarozlu geldə elektroforetik deteksiyası ilə birgə tətbiq edilir. Əldə olunan nəticələrin statistik işlənməsi Microsoft Excel 2007 kompüter proqramının köməyi ilə həyata keçirilmişdir.

Tədqiqatın nəticələri və müzakirəsi. Müayinənin gedişində əsas qrupda olan 232 pasiyent 2 qrupa bölünmüşlər: 1-ci qrup- 48 qadın (20,7±2,6%) PVİ-nin manifest formaları (anogenital (zöhrəvi) ziyillər) olan; 2-ci qrup- 184 qadın (79,3±2,6%) PVİ-nin subklinik və latent formaları olan. 2-ci qrupdakı 76 (41,3±3,2%) pasiyentlər arasında subklinik və 108 (58,7±3,2%) pasiyentdə PVİ-nin latent forması qeyd olunmuşdur.

Yüksək onkogen riskə malik İPV ilə infeksiyalaşmış 232 pasiyentdən əldə olunmuş bioloji materialın laborator müayinə materiallarına əsasən müəyyən edilmişdir ki, İPV-nin ümumi strukturunda insanın papilloma virusunun 16-cı genotipi digər genotiplərlə müqayisədə dürüst çox 121 (52,2±3,3%) qadında, o cümlədən 1-ci qrupda 15 (31,3±5,7%) pasiyentdə və 2-ci qrupda 106 (57,6±3,6%) pasiyentdə aşkar edilmişdir. PVİ-nin manifest formaları olan 31 (64,6±6,9%) qadında da həmçinin dürüst tez-tez İPV-nin 31-ci kenotipi aşkar edilmişdir. 33-cü genotip – 19 (39,6±7,1%) pasiyentdə, 45-ci genotip – 23 (47,9±7,2%) pasiyentdə qeydə alınmışdır. PVİ-nin subklinik və latent formalarında İPV-nin 16-cı genotipi üstünlük təşkil etmişdir (13,6±2,6%; 5,9%, 2,7%) (p<0,001) (cədvəl 1).

Cədvəl 1

Müayinə edilən pasiyentlərdə yüksək onkogen riskə malik İPV-nin müxtəlif genotiplərinin aşkar edilməsi tezliyi

İPV-nin genotipi	Cəmi (n=232)		1-ci qrup (n=48)		2-ci qrup (n=184)	
	müt	%	müt.	%	müt.	%
16	121	52,2±3,3*	15	31,3±5,7*	106	57,6±3,6*
18	32	13,8±2,3	10	20,8±5,9	22	11,9±2,4
31	56	24,1±2,8	31	64,6±6,9*	25	13,6±2,6
33	30	12,9±2,3	19	39,6±7,1	11	5,9
35	18	7,8	6	12,5±4,8*	12	6,5
39	27	11,6±2,1	18	37,5±7,0	9	4,8
45	28	12,1±2,1	23	47,9±7,2	5	2,7
51	31	13,4±2,3	25	52,1±7,1*	7	3,8
52	39	16,8±2,5	28	58,3±7,1	11	5,9
56	34	14,7±2,3	26	54,1±7,2	8	4,3
58	19	8,2	9	18,7±6,7	10	5,4
59	15	6,5	8	16,7±5,4	7	3,8

Qeyd : - p*<0,05.

1-ci qrupda olan pasiyentlərdə 2-ci qrupdakı pasiyentlərə nisbətən PVİ-nin subklinik və latent formaları olan qadınlarla müqayisədə (3,8%; 5,9%, 4,3%) 51-ci genotiplə infeksiyalaşma- 25 (52,1±7,1%) pasiyentdə 52-ci genotiplə-28 (58,3±7,1%) pasiyentdə, 56-cı genotiplə infeksiyalaşma- 26 (54,1±7,2%) pasiyentdə dürüst çox aşkar edilmişdir (p<0,001). 1-ci qrupdakı pasiyentlərdə 2-ci qrupdakı pasiyentlərə nisbətən yüksək onkogen riskə malik İPV-nin 2 və daha çox genotipləri ilə infeksiyalaşma müvafiq olaraq 34 (70,8±6,5%) və 52 (28,3±3,2%) pasiyentdə aşkar edilmişdir. 2-ci qrupdakı pasiyentlərdə əksinə, yüksək onkogen riskə malik İPV-nin 1-ci genotipi ilə infeksiyalaşma dürüst çox qeydə alınmışdır (132; 74,7±3,2%) (p<0,001) (cədvəl 2).


Cədvəl 2

1-ci və 2-ci qrupda PVİ olan pasiyentlərdə yüksək onkogen riskə malik mono- və mikst-infeksiya

Yüksək onkogen riskə malik İPV	1-ci qrup (n=48)		2-ci qrup (n=184)		p
	müt.	%	müt	%	
İPV-nin 1-ci genotipi (n=146)	14	29,2±6,5	132	74,7±3,2*	<0,001
İPV-nin 2 və daha çox genotipləri (n=86)	34	70,8±6,5*	52	28,3±3,2	<0,001
r		<0,001*		0,005*	


Qeyd: -*p - < 0,05.

1-ci genotip ilə infeksiyalaşma zamanı 2-ci qrupda olan pasiyentlərdə İPV-nin 16-cı genotipi 1,7 dəfə çox rast gəlmişdir, nəinki 1-ci qrupda olan pasiyentlərdə (müvafiq olaraq 9 (18,8±5,7%) və 52 (31,5±5,7%)) və demək olar ki, eyni dərəcədə tez-tez 2 və daha çox genotiplər ilə infeksiyalaşmışlar (müvafiq olaraq 5 (10,4±3,1%) və 45 (24,5±3,1%) (şək. 1.).



Şək. 1 1-ci və 2-ci qruplarda olan pasiyentlərdə yüksək onkogen riskə malik İPV-nin aşkar edilməsi

PVİ-nin monoinfeksiyası zamanı İPV 16-cı genotipi PVİ-nin subklinik forması olan pasiyentlərlə 21 (27,6±5,1%) müqayisədə -nin latent forması olan pasiyentlərdə (38; 35,2±4,6%) tez-tez aşkar edilmiş, manifestləşmə zamanı isə eyni tezliklə (müvafiq olaraq 55; 72,4±4,4% və 70; 64,8±4,5%) rast gəlmişdir (şək.2).



Şək. 2. 2-ci qrupdakı pasiyentlərdə yüksək onkogen riskə malik İPV-nin aşkar edilməsi

Cədvəl 2
1-ci və 2-ci qrupda olan pasiyentlərdə yüksək onkogen riskə malik İPV-nin 2 və daha çox genotiplərinin aşkar edilməsi tezliyi

Yüksək onkogen riskə malik İPV	1-ci qrup (n=48)		2-ci qrup (n=184)	
	müt.	%	müt.	%
2 genotip	16	33,3 ±8,1*	19	10,3 ±4,3*
3 genotip	11	22,9 ±7,2	12	6,5
4 genotip	4	8,3	10	5,4
5 genotip	2	4,2	9	4,9
6 genotip	1	2,1	2	1,1

Qeyd: - *p - < 0,05.

1-ci qrupda İPV-nin mikst infeksiyası 34 pasiyentdə, 2-ci qrupda 52 pasiyentdə aşkar edilmişdir. Hər iki qrupda İPV-nin mikst infeksiyası zamanı yüksək onkogen riskə malik İPV ilə infeksiyalaşma üstünlük təşkil etmişdir: 1-ci qrupda 16 (33,3 ±8,1%) pasiyentdə və 2-ci qrupda 19 (10,3±4,3%) pasiyentdə. Nadir hallarda

İPV-nin 3 genotipi identifikasiya olunmuşdur. 1-ci qrupda 11 (22,9%) pasiyentdə və 2-ci qrupda 2 (6,5%) pasiyentdə 4 genotip – müvafiq olaraq 9 (8,3%) və 10 (5,4%) pasiyentdə, 5 genotip – müvafiq olaraq 2 (4,2%) və 9 (4,9%) pasiyentdə, 6 genotip – müvafiq olaraq 1 (2,1%) və 2 (1,1%) pasiyentdə aşkar edilmişdir (cədvəl 2).

Sitoloji müayinənin müxtəlif məlumatları zamanı yüksək onkogen riskə malik İPV-nin aşkar edilməsi tezliyinin öyrənilməsi müəyyən maraq kəsb edir. Belə ki, İPV-nin 16-cı genotipi normal sitoloji məlumatlar zamanı dürüst fərqlərə malik olmamış- 14 (25,1±3,9%) və L-SIL- 89 (64,0±4,4%) onkoloji patologiya zamanı artmışdır (H-SIL zamanı 18-dən (47,3±4,5%) Cancer zamanı 32-ə qədər (68,1±4,2%)). L-SIL zamanı təkcə İPV-nin 16-cı genotipi deyil, həmçinin İPV-nin 31 (44 (31,7±6,2%)) və 52-ci (27 (19,4±6,4%)) genotipləri dürüst tez-tez aşkar edilmişdir. H-SIL zamanı İPV-nin 39; 56 və 52-ci genotipləri eyni sayda qalmışdır – 2 (5,2%) və İPV-nin 33-cü genotipinin sayı artmışdır. Dinamikada uşaqlıq boynunun xərçəngi aşkar edilmiş pasiyentlər üzərində müşahidə zamanı (n=47), İPV-nin 16-cı genotipi 32 (68,1±4,2%) xəstədə, İPV-nin 31 və 33-cü genotipləri isə 7 (14,9±4,8%) və 8 (17,0±6,8%) xəstədə aşkar edilmişdir. Xəstəliyin klinik gedişinin xüsusiyyətlərinin öyrənilməsi zamanı müəyyən edilmişdir ki, PVİ olan pasiyentlərdə persistensiya edən infeksiya (170; 73,3±2,9%) tranzitor infeksiya (62; 26,7±2,9%) ilə müqayisədə (p=0,003) üstünlük təşkil etmişdir ki, bu da 1-ci qrupda olan pasiyentlərdə müvafiq olaraq (26; 54,2±7,2%) və (22; 45,8±7,2%), p<0,001), 2-ci qrupda olan pasiyentlərdə - 144 (78,3 ±3,1%) və 40 (21,7±3,1%) təşkil etmişdir (p<0,001). Yüksək onkogen riskə malik İPV-nin 1 genotipi ilə infeksiyalaşma tranzitor PVİ zamanı persistensiya edən infeksiyaya nisbətən tez-tez aşkar edilmişdir (müvafiq olaraq 36 (58,1±4,9%) və 63 (37,0±4,9%)) (p=0,004) və çox vaxt yüksək onkogen riskə malik İPV-nin 2 və daha çox genotipləri tərəfindən baş vermişdir (26; 41,9±4,3%) (p=0,012). Yüksək onkogen riskə malik İPV-nin 2 və daha çox genotipləri tranzitor PVİ (26; 41,9±4,3%) ilə müqayisədə persistensiya edən infeksiya zamanı, əksinə, tez-tez (107; 63,0±4,3%) aşkar edilmiş (p=0,001) və İPV-nin 1 genotipi ilə infeksiyalaşmadan daha çox (63; 37,0±4,9%) qeydə alınmışdır (p<0,001).

Tranzitor yüksək onkogen riskə malik PVİ zamanı İPV-nin 1 genotipi ilə infeksiyalaşma persistensiya edən infeksiyaya nisbətən daha çox aşkar edilmişdir: 1-ci qrupda 14 (30,2±6,7%) və 2-ci qrupda 31 (16,8±2,8%) pasiyentdə (p=0,910). Persisensiya edən infeksiya zamanı, əksinə, yüksək onkogen riskə malik İPV-nin 2 və daha çox genotipləri 1-ci qrupda 21 pasiyentdə (42,7±7,1%), 2-ci qrupda (33,7±3,4%) 62 pasiyentdə (p=0,027) aşkar edilmişdir.

Yüksək onkogen riskə malik İPV-nin eliminasiyası 6 aydan sonra 19 (30,6±5,9%) pasientdə, 6 aydan 12 aya qədər -13 (22,9±5,3%), 12 aydan yuxarı- 30 (46,5±6,3%) pasiyentdə aşkar edilmişdir. Monoinfeksiya zamanı yüksək onkogen riskə malik İPV-nin eliminasiyası 6 aydan sonra- 16 (35,5±6,1%) pasiyentdə, 6 aydan 12 aya qədər- 8 (17,8±4,9%), 12 aydan yuxarı- 21 (46,7±6,3%) pasiyentdə aşkar edilmişdir. Mikstinfeksiya zamanı yüksək onkogen riskə malik İPV-nin eliminasiyası 6 aydan sonra- 3 (17,7±4,9%) pasiyentdə, 6 aydan 12 aya qədər- 5 (29,4±5,8%), 12 aydan yuxarı- 9 (52,9±6,3%) pasiyentdə aşkar edilmişdir. 1-ci qrupda olan pasiyentlərdə yüksək onkogen riskə malik İPV-nin eliminasiyası 6 aydan sonra- 22 (35,6±6,1%) pasiyentdə, 6 aydan 12 aya qədər- 6 (27,3±5,7%), 12 aydan yuxarı- 13 (59,1±6,3%) pasiyentdə aşkar edilmişdir. 2-ci qrupda olan pasiyentlərdə yüksək onkogen riskə malik İPV-nin eliminasiyası 6 aydan sonra - 13 (32,5±6,1%) pasiyentdə, 12 aydan yuxarı- 17 (67,5±5,7%) pasiyentdə aşkar edilmişdir. Latent formada 2-ci qrupda olan pasiyentlərdə yüksək onkogen riskə malik İPV-nin eliminasiyası 6 aydan sonra - 16 (50,0±6,1%) pasiyentdə, 12 aydan yuxarı- 16 (50,0±6,3%) pasiyentdə aşkar edilmişdir. Subklinik formada 6 aydan sonra- 5 (62,5±6,1%) pasiyentdə, 12 aydan yuxarı - 3 (37,5±6,3%) pasiyentdə aşkar edilmişdir. 1-ci qrupda olan pasiyentlərdə yüksək onkogen riskə malik İPV-nin 1 genotipi ilə eliminasiyası 6 aydan sonra- 2 (14,3±4,5%) pasiyentdə, 6 aydan 12 aya qədər- 5 (35,7±6,1%), 12 aydan yuxarı- 7 (50,0±6,3%) pasiyentdə aşkar edilmişdir. 2-ci qrupda olan pasiyentlərdə yüksək onkogen riskə malik İPV-nin eliminasiyası 6 aydan sonra- 17 (54,8±6,3%) pasiyentdə, 12 aydan yuxarı 14 (45,2±6,3%) pasiyentdə aşkar edilmişdir.

Beləliklə, yüksək onkogen riskə malik İPV-nin strukturunda 16-cı genotipi (52,2±3,3%) üstünlük təşkil etmişdir, o infeksiyanın persistensiya edən gedişi zamanı da 1,7 dəfə çox aşkar edilmişdir- 170 (73,3±2,9%) tranzitor gedişi ilə müqayisədə- 62 (26,7±2,9%) və onkoloji patologiya zamanı üstünlük təşkil etmişdir (68,1±4,2%; p<0,001). Manifest əlamətlərlə (anogenital ziyillərlə) təzahür edən PVİ-nin klinik formaları İPV-nin 2 və daha çox genotipləri ilə dürüst çox (70,8±6,5%) assosiasiya etmişdir. Bu pasiyentlərdə PVİ-nin subklinik və latent formaları ilə müqayisədə çox vaxt İPV-nin 31-ci genotipi- 31 (64,6±6,9%) pasiyentdə, 33-cü genotipi- 19 (39,6±7,1%) pasiyentdə, 45 genotipi- 23 (47,9±7,2%) pasiyentdə aşkar edilmişdir. Monoinfeksiyalaşma zamanı İPV-nin 16-cı genotipi PVİ-nin subklinik formaları (21; 27,6±5,1%) ilə müqayisədə PVİ-nin latent forması olan pasiyentlərdə tez-tez (38; 35,2±4,6%) aşkar edilmiş və bu, çox

vaxt mikstinfeksiyaşma zamanı (müvafiq olaraq 70; 64,8±4,5% və 55; 72,4±4,4%) qeydə alınmışdır. Bu zaman yüksək onkogen riskə malik İPV-nin 1 genotipi (58,1±4,9%), PVİ-nin tranzitor gedişi və PVİ-nin persistensiya edən formasında (63,0±4,3%) İPV-nin 2 və daha çox genotipləri ilə infeksiyalaşmanın üstünlük təşkil etməsi aşkar edilmişdir.

ƏDƏBİYYAT

1. Алиев Д.А., Марданлы Ф.А. и др. Эпидемиологические аспекты злокачественных новообразований в Азербайджанской Республике за 2008-2013 г.// Azərbaycan Onkologiya J. 2014, №2 с.32-38.
2. Аксель Е.М. Статистика злокачественных новообразований в России и странах СНГ в 2012 г. // Под ред. М.И. Давыдова, Е.М. Аксель. М.: РОНЦ, 2014. –226 с.
3. Волков В.Г., Захарова Т.В. Роль вируса папилломы человека в возникновение рака шейки матки // Вестник новых медицинских технологий, 2009, №2, с.85-88
4. Ault K.A. Epidemiology and natural history of human papillomavirus infections in the female genital tract // Infect. Dis. Obstet. Gynecol. 2006. Vol. 2006 (Suppl). P. 404-470
5. Chelimo C., Wouldes T. A., Cameron L. D., Elwood M. J. Risk factors for and prevention of human papillomaviruses (HPV), genital warts and cervical cancer // J. Infect., 2013, 66(3), p. 207-217
6. Datta S.D., Koutsky L. A., Ratelle S. Human papillomavirus infection and cervical cytology in women screened for cervical cancer in the United States, 2003-2005 // Ann. Intern. Med., 2008, Vol. 148, p.493–500.

Резюме

Частота выявления генотипов вируса папилломы человека при различных вариантах клинического течения папиллома вирусной инфекции

Р.И.Сафарова

Установлено, что преобладающим в структуре вируса папилломы человека (ВПЧ) высокого онкогенного риска являлся ВПЧ 16 генотипа (52,2±3,3%), который в 1,7 раза чаще выявлялся при персистирующем течении инфекции- 170 (73,3±2,9%) по сравнению с транзиторным течением- 62 (26,7±2,9%) и доминировал при онкологической патологии (68,1±4,2%; p<0,001). Клинические формы папилломавирусной инфекции с манифестными проявлениями (аногенитальные бородавки) достоверно чаще ассоциировались с инфицированием двумя и более генотипами ВПЧ (70,8±6,5%). У пациенток с латентной формой ПВИ ВПЧ 16 генотипа при моноинфицировании выявляли чаще (38; 35,2±4,6%), чем у пациенток с субклинической формой ПВИ 21 (27,6±5,1%) и часто при микстинфицировании (55; 72,4±4,4% и 70; 64,8±4,5% соответственно). При этом выявлено преобладание инфицирования одним генотипом ВПЧ высокого онкогенного риска (58,1±4,9%) при транзиторном течении ПВИ и двух и более генотипов ВПЧ – при персистирующей ПВИ (63,0±4,3%).

Summary

Frequency of detection of genotypes of the human papilloma virus with different variants of the clinical course of vapric infection papilloma

R.I.Safarova

It was established that the predominant in the structure of the human papillomavirus (HPV) of high oncogenic risk was HPV 16 of the genotype (52.2 ± 3.3%), which was 1.7 times more frequently detected during the persistent course of infection - 170 (73.3 ± 2,9%) compared with the transitory course - 62 (26.7 ± 2.9%) and dominated in cancer pathology (68.1±4.2%; p <0.001). Clinical forms of human papillomavirus infection with manifest manifestations (anogenital warts) were significantly more often associated with infection with two or more HPV genotypes (70.8±6.5%). In patients with a latent form of PVI HPV 16, the genotype with monoinfection was detected more often (38; 35.2±4.6%) than in patients with subclinical form of PVI 21 (27.6±5.1%) and often with mixed infection (55; 72.4±4.4% and 70; 64.8±4.5%, respectively). At the same time, the prevalence of infection with one HPV genotype of high oncogenic risk (58.1 ± 4.9%) was found in the transient course of PVI and two or more genotypes of HPV- in case of persistent PVI (63.0 ± 4.3%).

Daxil olub: 14.08 2018

ENSİZYARPAQ İYDƏNİN (*ELAEAQNUS ANGUSTIFOLIA L.*) ÇİÇƏK VƏ YARPAQLARININ EKSTRAKTI ƏSASINDA İLTİHAB ƏLEYHİNƏ GELİN TƏRKİBİNİN, ALINMA TEXNOLOGİYASININ VƏ KEYFİYYƏT NORMALARININ İŞLƏNİB HAZIRLANMASI

S.C. Mehralıyeva, Z.K. Kərimova, T.Ə.Əmirəliyeva, A.R. Azadova, A.F.Quliyeva
Azərbaycan Tibb Universiteti, Bakı

Açar sözlər: ensizyarpaq iydə çiçəkləri və yarpağı, propilenqlikollu ekstrakt, sulu-spirtli ekstrakt, metilsellüloza, iltihabəleyhinə gel, keyfiyyət normaları
Ключевые слова: цветы и листья лоха, экстракт пропиленгликоля, водно-спиртовый экстракт, метилцеллюлоза, противовоспалительный гель, норм качества
Key words: flowers and leaves of oleaster, extract of propylene glycol, water-alcohol extract, methylcellulose, anti-inflammatory gel, quality standards

Əczaçılıq texnologiyasının mühüm məsələlərindən biri də effektiv təsirli geləmələgətiricilər əsasında iltihab əleyhinə və təmizləyici xüsusiyyətə malik müxtəlif kosmetik və dərman preparatlarının hazırlanmasıdır.

Sellülozanın efirləri (metilsellüloza, etilsellüloza, karboksimetilsellüloza), hialuron turşusu, xitozan, aqar-aqar, natrium alginat və digərləri geləmələgətirici kimi geniş istifadə olunur. Bunlardan metilsellüloza bir çox xüsusiyyətlərinə (işığa, kimyəvi reagentlərə və temperatura qarşı yüksək davamlılığa malik olması) görə digər geləmələgətiricilərdən fərqlənir. Üstün xüsusiyyətlərinə görə metilsellülozanın əsasında müxtəlif dərman və kosmetik vasitələrin hazırlanması həyata keçirilmişdir.

Müalicəvi kosmetologiyada dərinin bəzi problemlərinin həllində bir çox dərman vasitələri ilə yanaşı gellərdən də istifadə olunur ki, bunlar da sintetik və təbii məhsulların (geləbənzər komponentlər, su, yağlar, bitki ekstraktları, vitaminlər, rəngləyicilər, aromatlaşdırıcılar və digər əlavələr) geləbənzər konsistensiyasının qarışığından ibarətdir.

Kosmetik gellərin standartda göstərilən tələblərə müvafiq reseptura, texniki tələblər, texnoloji reqlament üzrə hazırlanması həyata keçirilir. İstehsalatda sanitar norma və qaydalara əməl edilməsi kosmetoloji vasitənin keyfiyyətli istehsalı üçün olduqca zəruridir [4].

Araşdırılan tədqiqat işinin məqsədi iltihabi proseslərin aradan qaldırılmasında yeni tərkibli müalicəvi-kosmetoloji gelin alınma texnolologiyasını işləyib hazırlamaqdan ibarətdir.

Tədqiqatın material və metodları. Tədqiqat obyekti kimi ensizyarpaq iydənin *(Elaeagnus angustifolia L., fəsiləsi- iydə-Elaeagnaceae)* təzə dərilmiş çiçək və yarpaqları, metilsellüloza, propilenqlikol, salisil turşusu, çay ağacının efirli yağı, qliserin, nipagin, etil spirti, təmizlənmiş su istifadə edilmişdir. İltihab əleyhinə və təmizləyici xüsusiyyətə malik gelin tərkibinin seçilməsinin elmi əsaslandırılması.

Ensizyarpaq iydə çiçəyinin tərkibində efir yağları vardır ki, bunun da əsasını etil-sinnamat (60,0%), heksahidrofarnezil aseton (9,99%), palmitin turşusu (5,20%), fitol (3,29%) təşkil edir. Bəzi ədəbiyyat məlumatlarına görə 0,3%-ə yaxın efir yağının əsas hissəsini nerol yağı təşkil edir. Çiçəklərdə həmçinin flavonoid tərkibinin öyrənilməsi zamanı eleaqnozid və kemferol olduğu müəyyən edilmişdir. Bitkinin çiçəkləri Cu, Zn, Cr ilə zəngindir [3, 9].

İydənin yarpaqlarının efir yağının əsasını etil-sinnamat (37,27%), fitol (12,08%), Z-3-heksenil-benzoat (7,65%), həmçinin flavonol qlikozidi eleaqnozid A-G, rutin, kversetin, izoramnetin, kempferol, qəhvə, xlorogen, kumar, askorbin turşusu, katexinlər, karotinoidlər, polisaxaridlər və s. təşkil edir. Bitkinin bütün hissələri antioksidant xüsusiyyətə malikdir. Çiçəklərinin cövhəri 1:10 nisbətində kardiostimulyasiyaedici vasitə kimi 10-20 damcı olmaqla qəbul edilir. İydənin çiçəkləri əsasında hazırlanmış krem yarasağaldıcı, iltihabəleyhinə xüsusiyyətlərə malikdir. İydənin 19% ekstraktından ibarət gel stomatitlərin müalicəsində uğurla istifadə olunur. Toxumlarından alınan yağ əsasında iltihabəleyhinə xüsusiyyətə malik yumşaq dərman formaları hazırlanmışdır. Bitkinin yarpaqlarından alınan ekstrakt revmatizm və podaqrada, həmçinin dəri səthindən irinin təmizlənməsində, yaranın sağalmasında istifadə olunur [6,7,8].

Tərkibinin bioloji fəal maddələrlə zənginliyi hesabına iydənin çiçək və yarpaqları büzüşdürücü, bürüyücü, sidikqovucu, antibakterial, öskürəkkəsici, sakitləşdirici, antihelmint təsirlərə malikdir. Xalq təbabətində əsasən qrip, bronxit, hipertoniya, sinqa, ürək xəstəlikləri mədə-bağırsaq traktı xəstəlikləri, revmatizm, podaqra, rdikulit, yuxusuzluq, yaddaşın zəifləməsi, ağız boşluğunun iltihabında, irinli yaralarda tətbiq edilir [6, 10]

Metilsellüloza və ya E461 (sellülozanın metil efiri)-modifikasiya olunmuş sellüloza qida əlavəsi, qatılaşdırıcı, stabilizator, gel əmələgətirici, örtük əmələgətirici, tamamlayıcı, daşıyıcı kimi istifadə olunur. Kimyəvi strukturuna görə sintetik polimer olub, təbii sellüloza ilə metanolun sadə efiridir. Sənayedə

metilləşmə yüksək təzyiq altında qələvinin iştirakı ilə alfa- sellülozanın diazometan və ya xlormetandakı məhlulu ilə ardıcıllıqla təmizləmək və qurutmaqla həyata keçirilir. MS [C6H7O2(OH)x(OCH3)y]n - ağ rəngli və ya bozumtul ləkəli xırda qranullar və ya lifli poroşok şəklindədir, iysizdir, hətta soyuq suda həll olur (50°C-yə qədər). Elə bu xüsusiyyətinə görə də istehsalatın müxtəlif sahələrində istifadə olunur. E461 qida məhsullarının qatılaşdırıcılar kateqoriyasına aid edilir (ГОСТ 33310-2015). Həmçinin metilsellüloza turşularda, qliserində, efirdə yaxşı həll olur; mineral yağlarda həll olmur. Dadı neytral, sıxlığı 1,290-1,310 qr/sm³. Qaynar suda gel əmələ gətirir. 220-270°C temperaturda parçalanmaqla əriyir; sulu məhlulu pH2-12 stabildir; işığa, temperatura və kimyəvi reagentlərə qarşı dayanıqlıdır. MS- qida məhsullarının hazırlanmasında (ketçup, sous, südlü desertlər (uşaq qidaları istisnadır), aşağı kalorili dondurmalar (teksturanı yaxşılaşdırır), ət və kolbasa məmulatlarında) stabilizator kimi istifadə edilir, sulu-yağlı emulsiyaları şəffaflaşdırır, məhsulların çıxımını artırır. Sellülozanın metil efiri əczaçılıq sənayesində geniş istifadə olunur. Qatılaşdırıcı E461 əsas kimi yağ-su tipli emulsiyanın yağsızlaşdırılmış tərkibini qoruyur, yanıqların müalicəsində və yaraların işlənilməsində təyin edilir. Sellülozanın metil efiri göz damcılarında vacib komponentlərdən hesab edilir (o cümlədən qlaukomanın müalicəsi üçün). E 461 əlavəsi köməkçi vasitə kimi xəstə orqanizmdə dərmanın uzunmüddətli təsirini təmin edir, allergik reaksiyaların, qıcıqlanmaların, digər əlavə effektlərin qarşısını alır, dərmanın buynuz təbəqəsindən keçmək qabiliyyətini sürətləndirir. Digər bir tərəfdən isə metilsellüloza əsasında hazırlanan preparatlar bağırsaq perestaltikasını yaxşılaşdırır, 5qr-dan artıq qəbul edilməsi işlədici effekt göstərir. Rusiyada qəbzliyin müalicəsində onu digər preparatlarla birlikdə, ABŞ və Böyük Britaniyada isə sərbəst dərman kimi qəbul edilməsinə icazə verilmişdir. Nəhayət kosmetologiya sənayesində isə sellülozanın metil efiri dəriyə qulluq üçün istifadə olunan yağsız kremlərə, diş pastalarına, maskalara, saç üçün muslara qatılaşdırıcı, emulqator kimi daxil edilir. Metilsellüloza geli 4-6% konsentrasiyada istifadə olunmaqla dəri səthində örtük əmələ gətirir. Qoruyucu məlhəmlərin hazırlanmasında, o cümlədən sink oksid, ixtiol, salisil turşusu və s. kimi məlhəmlərin texnologiyasında istifadə olunur [1,2,4].

Propilenqlikol (propandiol-1,2)- para-hidroksibenzoy turşusunun metil efiri qeyri-ionogen oksigensaxlayan yüksəkmolekullu birləşmədir. Krem, losyon, diş pastalarının resepturasında dəriyə olan adgezivliyi yüksəldir, dəriyə hamarlılıq xüsusiyyəti verir.

Salisil turşusu- (lat. *salix* "söyüd" deməkdir. İlk dəfə söyüdün qabığından ayrılıb) 2-hidroksibenzoy və ya fenol turşusu $C_6H_4(OH)COOH$; rəngsiz kristallar olub, etanolda, dietil efirində və digər polyar üzvi həlledicilərdə yaxşı, suda pis həll olur, gellərin tərkibinə zəif antiseptik, qıcıqlandırıcı və keratolitik (yüksək konsentrasiyada) xüsusiyyətə malik olduğu üçün daxil edilir. Xaricə dəri xəstəliklərinin müalicəsində pastaların, prisipkaların, məhlulların hazırlanmasında tətbiq olunur

Çay ağacının efirli yağı- təbii antiseptikdir, göbələk əleyhinə və sağaldıcı təsir i vardır.Yağ güclü dezodorasiyaedicidir, bakterisid və dezinfeksiyaedici xüsusiyyətlərə və virusəleyhinə aktivliyə malikdir.

Qliserin(propaltriol-1,2,3)-vasitənin komponenti kimi antiseptik, konservləşdirici xüsusiyyətə malik olub, epidermisin üst qatında maddələr mübadiləsini sürətləndirir, bu isə dəri məsamələrindən çirkin, yağın və toksinlərin azad edilməsini təmin edir.

Nipagin (metilparaben, metil-4-hidroksibenzoat*)*- ağ rəngli, fenol iyli suda asan həll olan ortokristallik poroşok olub, hidroksibenzoy turşusunun metil efiridir. Əsasən antiseptik və konservant vasitə kimi işlədilir. Qram- müsbət bakteriyaların (stafilokokk, streptokokk, aktinomiset) həyat fəaliyyətini dayandırır. Maksimal dozası 0,2-0,5% təşkil edir. Sulu fazaya daxil edilir [1,2,4].

Tədqiqatın nəticələri və müzakirəsi. Yüksək farmakoloji xüsusiyyətlərə malik olan iydə çiçəkləri və yarpaqlarından alınan ekstrakt əsasında laboratoriya şəraitində müalicəvi- kosmetoloji vasitəni işləyib hazırlamaq üçün geləmələgətirici kimi metilsellülozadan istifadə olunmuşdur. İltihabəleyhinə və təmizləyici xüsusiyyətə malik gelin tərkibinə daxil olan komponentlərin miqdarı cədvəl 1-də verilmişdir.

Cədvəl 1

Müalicəvi-kosmetoloji gelin reseptur tərkibi

Komponentlər	*Miqdar, qr*
İydə çiçəklərinin propilenqlikollu ekstraktı	4,0-5,0
İydə çiçəklərinin və yarpaqlarının sulu-spirtli ekstraktı	3,0-4,0
Metilsellüloza	4,0-6,0
Salisil turşusu	0,3-0,5
Çay ağacının efirli yağı	0,05-0,2
Qliserin	20,0-30,0
Nipagin	0,1-0,2
Təmizlənmiş su	Qalanı

İydə çiçəklərinin propilenqlikollu ekstraktının hazırlanması. Təzə dərilmiş çiçəklər xırdalandı, 10qr çəkilib kolbaya yerləşdirilib üzərinə 30 ml propilenqlikol əlavə edildi (1:3). Ağzı kib bağlanıldı, mütəmadi qarışdırmaqla 24 saat müddətində maserasiya olundu, alınan çıxarış propilenqlikolla isladılmış tənzifdən təmiz kolbaya süzüldü. Bu əməliyyat daha bir dəfə də təkrar olundu. Çıxarışlar birləşdirildi, üzərinə ağ gil (0,5qr) əlavə edilib qarışdırıldı. Su hamamı üzərində qızdırıldı, sonra çıxarış 8℃ temperaturda 3 gün saxlanıldı. Bu müddət başa çatandan sonra kağız filtrdən təmiz kolbaya süzülür. Şəffaf filtrat sarı rəngli olub, spesifik iydə çiçəyi iylidir.



Şək. 1. İydə çiçəyi və yarpaqlarının sulu-spirtli ekstraktının hazırlanması

İydə çiçəyi və yarpaqları ayrı-ayrılıqda xırdalandı, hər birindən 5 qr olmaqla çəkildi və təmiz kolbaya yerləşdirildi. Üzərinə 70%-li sulu-spirtli məhluldan 70 ml əlavə edilib kolbanın ağzı kip bağlandı. Mütəmadi qarışdırmaqla maserasiya olundu. Ekstraksiya müddəti (24 saat) başa çatandan sonra maserasiya olunmuş xammal, sulu-spirtli məhlulla isladılmış tənzifdən təmiz kolbaya süzüldü. Tənzif bitki qalığı ilə birlikdə sıxıldı. İşlənilmiş bitki qalığı 20ml su-spirt qarışığı ilə isladıldı, 4saat keçdikdən sonra əməliyyatlar yuxarıdakı qayda üzrə təkrar olundu. Alınan çıxarış əvvəlki çıxarışla birləşdirildi, 3gün ərzində 8°C temperaturda saxlanıldıqdan sonra ballast maddələrdən azad olmaq üçün kağız filtrdən təmiz kolbaya süzüldü. Şəffaf filtrat qəhvəyi rəngli olub, spesifik ot iylidir.



Şək.2. Metilsellüloza gelinin hazırlanması

6,0 qr metilsellüloza elektron tərəzidə çəkilib üzərinə 33,5 ml ml qaynar su (80-90°C) əlavə edilib qarışdırılır, otaq temperaturuna qədər soyudulur. Sonra suyun qalan hissəsi (33,5ml) əlavə edilib, 10-12 saat soyuducuda saxlanılır və şüşə filtrdən (№ 2) süzülür.



Alınan metilsellüloza geli üzərinə 20ml qliserin əlavə edilib qarışdırılır. Bundan sonra gel əsasına əvvəlcə iydə çiçəklərinin propilenqlikollu ekstraktından -4ml, sonra isə iydə çiçəyi və yarpaqlarının sulu-spirtli ekstraktından-3ml olmaqla əlavə edilib eynicinsli gel kütləsi alınana kimi homogenləşdirildi. Növbəti

mərhələdə gel kütləsinə ardıcıllıqla digər inqrediyentlər əlavə edilib qarışdırıldı: salisil turşusu- 0,5 qr , nipagin- 0,1qr, çay ağacının efirli yağı- 0,2qr.

Müalicəvi-kosmetoloji gelin hazırlanmasının texnoloji prosesinin mərhələləri:

TP-1. Avadanlıqların hazırlanması

TP-2. Xammalların hazırlanması:xammalların çəkilməsi, məhlulların ölçülməsi

TP-2.1. İydə çiçəyinin propilenqlikollu ekstraktının hazırlanması

TP-2.2.İydə çiçəyi və yarpaqlarının sulu-spirtli-propilenqlikollu ekstraktının hazırlanması

TP-3. Gel əsasının hazırlanması

TP-3.1. Metilsellülozanın üzərinə ½ hissə qaynar suyun (80-90°C) əlavə edilməsi və otaq temperaturuna qədər soyudulması

TP-3.2. Suyun qalan hissəsinin əlavə edilməsi, 10-12saat soyuducuda saxlanılması və № 2 şüşə filtrdən süzülməsi

TP-3.3. Qliserinin metilsellüloza məhlulu ilə homogenləşdirilməsi

TP-4. Gelin hazırlanması

TP-4.1.Gel əsasının üzərinə iydə çiçəyinin propilenqlikollu ekstraktının əlavə edilib qarışdırılması

TP-4.2. Kütləyə iydə çiçəyinin və yarpaqlarının sulu-spirtli ekstraktının əlavə edilib qarışdırılması

TP-4.3. Gel kütləsinə salisil turşusunun əlavə edilib homogenləşdirilməsi

TP-4.4.Homogen kütləyə nipagin və çay ağacının efirli yağının əlavə edilib qarışdırılması

TP-4.5. Hazır məhsulun keyfiyyətinin yoxlanılması

QMT-1.Gelin qablaşdırılması, markalanması, tərtibata salınması

Müalicəvi-kosmetoloji gelin bəzi keyfiyyət göstəricilərinin təyini

pH-ın təyini. Geldən 10qr çəkilib kimyəvi stəkana yerləşdirildi, üzərinə 50ml su əlavə edilib qarışdırmaqla tam dağılma gedənə qədər qızdırılır (80 ±2) ºC. İsti kütlə 20 ±2 ºC temperatura qədər soyudulur, kağız filtrdən süzülüb universal indikator kağızı vasitəsilə sulu mühitin pH-ı təyin edilir.

Eynilik təyini. Geldən 5qr çəkilib kimyəvi stəkana yerləşdirilib üzərinə 95%-li etil spirti 50ml əlavə edilir. Qarışdırmaqla həll edilir, kazğız filtrdən təmiz kolbaya süzülür. Aşağıdakı eynilik reaksiyaları aparılır:

1. Spirtli məhluldan 1ml götürülür sınaq şüşəsinə yerləşdirilib üzərinə 1ml 10%-li ammonyak məhlulu əlavə edildikdə sarı rənglənmə müşahidə olundu (flavonoidlər).

2. Spirtli məhluldan 1ml götürülüb sınaq şüşəsinə yerləşdirilir, üzərinə FeCl3 məhlulu əlavə edilir, çirkab-yaşıl rənglənmə müşahidə olundu (fenol birləşmələri).

3. Sianidin sınağı (Şinod sınağı). Filtratdan 1ml götürüldü, saat şüşəsi üzərinə yerləşdirildi, üzərinə 20-30 mq Zn qranulu və 5-6 damcı qatı HCl əlavə edildi, su hamamı üzərində qırmızı rəng alınana qədər qızdırıldı (flavon, flavonol, flavonona aid reaksiya).

Gelin yayılma qabiliyyətinin yoxlanılması. Kosmetik gelin yayılma qabiliyyəti orqanoleptik olaraq yoxlanılır. Əvvəlcə gel spirt və ya asetonla yağsızlaşdırılır. Sonra quru əşya şüşəsi üzərinə fırça vasitəsilə 1sm –dən az olmayan enində və 2sm-dən az olmayan uzunluğunda yayılır.

Cədvəl 2

Müalicəvi-kosmetoloji gelin orqanoleptik və fiziki-kimyəvi xüsusiyyətləri

Göstəricilərin adı	*Norma və xüsusiyyətlər*
Xarici görünüşü	Kənar qarışıqlarsız eynicinsli gələbənzər kütlədir
Rəngi	Açıq- sarımtıl
İyi	Spesifik iyli
Yayılma xüsusiyyəti	Örtülmə eynicinslidir və asan yayıldı
Hidrogen göstəricisi	5,0
Termostabilliyi	Stabildir
Saxlanma şəraiti	+25 °C-dən yuxarı olmayan temperaturda

Dəri səthində yoxlanılması. Kosmetik gellərin yayılması dəri səthinə və ya ağ kağıza əhatə genişliyi 2sm-dən çox olmayan bir səthə bərabər miqdarda gel tətbiq etməklə qiymətləndirilir. Gelin üz və ya bədən səthində tətbiqi zamanı bərabər rənglənmə və asan yaxılma müşahidə olunmalıdır.

Termostabilliyin təyini. Diametri 14mm hündürlüyü 100mm olan sınaq şüşəsinin 2/3 hissəsinə qədər tədqiq olunan geldən yerləşdirildi (hava qabarcıqlarının olması yolverilməzdir), ağzı tıxacla kip bağlanılıb 40-42°C istiliyi olan termostata yerləşdirildi. 1 saat müddətində sınaq şüşəsində olan gelin termostatlaşdırılmasından sonra hava qabarcıqlarını uzaqlaşdırmaq üçün şüşə cubuqla ehtiyatla qarışdırıldı. Tədqiq

olunan gel 24 saat müddətində termostatda saxlanıldı. Göstərilən müddət keçəndən sonra sınaq şüşəsində sulu faza müşahidə olunmadı. Bu da gelin stabil qaldığını göstərir.

Saxlanma şəraiti. Hazırlanmış gel 12 ay ərzində +25 °C-dən yuxarı olmayan temperaturda saxlanıldı. Gelin strukturunda dəyişiklik baş vermədi.

Müalicəvi-kosmetoloji gelin təyin olunan orqanoleptik və fiziki-kimyəvi xüsusiyyətləri cədvəl 2-də verilmişdir.

Nəticə: Aparılan araşdırmalar zamanı müəyyən edildi ki, ensizyarpaq iydə bitkisinin çiçəklərinin propilenqlikollu ekstraktı, eyni zamanda yarpaq və çiçəklərinin sulu-spirtli ekstratı əsasında sadə texnologiya əsasında gelin hazırlanması iltihab əleyhinə istifadə olunan müalicəvi-kosmetoloji vasitələrin assortimentinin genişləndirilməsində olduqca zəruridir.

ƏDƏBİYYAT

1. Əczaçılıq texnologiyası: Dərmanların sənaye texnologiyası. Vəliyeva M.N., Mehralıyeva S.C. Dərslik, I hissə, B., 2012, s.146-149
2. Vəliyeva M.N. Müalicəvi-kosmetoloji dərman vasitələri. Kosmetolo-giya. Dərslik. B., "Təbib", 2017, 392 s.
3. Абизов Е.А., Бардаков А.И., Бабаскин В.С. Мягкие лекарственные формы на основе масла семян лоха // Фармация, 2012, №1, с.34-38
4. ГОСТ 31695-2012 Гели косметические. Общие технические условия Межгосударственный стандарт гели косметические. Общие технические условия Cosmetic gels. General specifications
5. Государственная фармакопея СССР одиннадцатое издание. Выпуск 2. М.: Медицина», 1990, с. 145
6. Садырова М.А. Медицинское значение растения лох узколистный // Электронный научный журнал «Биология и интегративная медицина» 2017, №5 (май), с.154-162
7. Beigom Taheri J., Anbari F., Maleki Z. et al. Efficacy of Elaeagnus angustifoliaTopical Gel in the Treatment of Symptomatic Oral Lichen Planus // J. Dent. Res. Dent. Clin. Dent. Pros., 2010, v.4(1), p.29-32
8. Bucur L., Tarălungă G., Alexandrescu R. et al. Evaluation of biological activity of a dermatological preparation with elaeagnus angustifolia flowers soft extract // Rev. Med. Chir. Soc. Med. Nat. Iasi. 2008, v.112(4), p.1098-1103
9. http://medical-diss.com/medicina/biologicheskoe-i-himiko-tehnologicheskoe-obosnovanie-lekarstvennoy- tsennosti-vidov-roda-elaeagnus-l-loh-introdutsirovanny
10. http://www.dissercat.com/content/farmakognosticheskoe-izuchenie-rastenii-semeistva-lokhovykh

Резюме

Разработка композиции, технологии и стандартов качества противовоспалительного геля на основе экстракта из цветов и листьев олестера

С.Дж. Мехралыева, З.К. Керимова А.Р. Азадова, А.Ф. Кулиева, Т.А.Амиралиева

Количество ингредиентов для получения новой композиции, содержащей противовоспалительные и очищающие свойства, представлено следующим образом: экстракт пропиленгликоля из цветных листьев- 4-5гр, водно-спиртовой экстракт муки и листьев- 3-4кр, метилцеллюлоза- 4-6кр, салициловая кислота - 0, 3-0,5 кг чая, эфирное масло чайного дерева - 0,05-0,2 г, глицерин - 20-30 г, нипагин- 0,1-0,2 г, очищенная вода, Некоторые из показателей качества были изучены в подготовленном геле (органолептические свойства, pH, термостабильность и т. Д.).

Summary

Development of composition, technology and quality standards of anti-inflammatory gel based on extract from flowers and leaves of olester

S.J. Mehralıyeva, Z.K. Karimova, A.R. Azadova, A.F. Quliyeva, T.A.Amiraliyeva

The amount of ingredients for the preparation of a new composition containing anti-inflammatory and purifying properties is as follows: the propylene glycolol extract of oleaster flowers-4-5gr, the aqueous-alcoholic extract of flour and leaves - 3-4qr, methylcellulose -4-6qr, salicylic acid-0, 3-0,5 kg of tea, essential oil of tea tree - 0,05-0,2g, glycerin-20-30g, nipagin-0,1-0,2g, purified water. Some of the quality indicators have been studied in the prepared gel (organoleptic properties, pH, thermostability, etc.).

Daxil olub: 24.08 2018

ŞƏKƏRLİ DİABET FONUNDA SİDİK YOLLARI İNFEKSİYALARINDA BƏZİ MİKROORQANİZMLƏRİN MÜXTƏLİF ANTİBİOTİKLƏRƏ QARŞI HƏSSASLIQLARI

E.Ə.Museyibov

Azərbaycan Tibb Universiteti; "Odlar Yurdu" Universiteti, Bakı

Açar sözlər: şəkərli diabet, sidik yolları infeksiyaları, antibiotiklər
Ключевые слова: сахарный диабет, инфекции мочевыводящих путей, антибиотики
Keywords: diabetes, urinary tract infections, antibiotics

Sidik yollarının infeksiyaları (SYİ) əsasən qram-mənfi bakteriyalar tərəfindən törədilsə də, qram-müsbət patogenlər də rol oynaya bilər. Ağırlaşmamış sidik yolları infeksiyaları hallarından 95%-indən çoxunda proses monobakterialdır. Ağırlaşmamış SYİ-nın səbəbkarı olan ən çox rast gəlinən patogen E.coli mikroorqanizmidir (75%-95%) [1,2]. Bu mikroorqanizmdən sonra Klebsiella pneumoniae, Staphylococcus saprophyticus, Enterococcus faecalis, B qrup streptokoklar və Proteus mirabilis mikroorqanizmləri aiddir. Uropatogenlərin rast gəlinməsi infeksiyanın tipi və xəstə populyasiyasına görə dəyişilir. E.coli həm ağırlaşmış, həm dəağırlaşmamış SYİ səəbəb ola bilər. P.mirabilis, Pseudomonas aeruginosa və Enterococcus növləri əsasən ağırlaşmış infeksiyalara səbəb olur və əsasən xəstəxanadaxili vəziyyətlər və uzunmüddətli müalicələr alan xəstələrdən götürülmüş bioloji materiallarda izolə olunur [3]. Corynebacterium urealyticum daimi kateterlərin tətbiqilə əlaqədar olan mühüm nozokomial uropatogendir. Birləşmiş Ştatlarda S.saprophyticus mikroorqanizminin aparılan tədqiqatlarda kəskin sistitli seksual aktiv gənc qadınların 5-15%-ində infeksiya törətməyə meylli olduğu öz əksini tapmışdır [4]. Koaqulaza-pozitiv stafilokoklar böyrəyə hematogen yolla daxil olaraq renal abseslərə gətirib çıxara bilər. Göbələklər, xüsusilə Candida cinsli göbələklər daimi kateter qoyulmuş və antibiotik müalicəsi alan xəstələrdə SYİ-a səbəb ola bilər. E.coli mikroorqanizminin antibiotikə qarşı rezistentliyi daima artmaqdadır. Buna görə də, kliniki müalicələr zamanı E.coli mikroorqanizminə qarşı selektiv yolla optimal antibiotiklərin seçilməsindən sonra onların xəstələrə tətbiqi daha məqsədəuyğundur [5,6,7]. 2012-ci ildə Birləşmiş Ştatlarda aparılmış digər bir tədqiqatda SYİ müalicə edilmiş və evə braxılmış xəstələrdə nitrofurantoin, tsiplofloksasin və sulfametoksazol kimi preparatlara qarşı E.coli mikroorqanizminin rezistentliyi müvafiq olaraq, 0,9%, 11,8%, və 22,2% olmuşdur. 2013-2014-cü illərdə aparılmış digər tədqiqatda SYİ-lı xəstələrdən izolə edilmiş E.coli mikrooqanizminin sefalosporinlərə qarşı rezistentliyi nisbətən aşağı olduğu halda 65 yaşdan yuxarı pasiyentlərdə siprofloksasin preparatına qarşı rezistentliyi 29% təşkil etmişdir [8]. Kanada və ABŞ xəstəxanalarından əldə edilmiş E.coli mikrooqanizminin izolə edilmiş 3498 nümunə üzərində aparılmış tədqiqatda antibiotikə qarşı həssaslığı müəyyənləşdirən geniş spektrli β-laktamaza (ESBL) fermentinin 2010-2014-cü illər ərzində 7,8%-dən 18,3%-ə yüksəldiyi qeyd edilmişdir. 2014-cü ildə ABŞ-da aparılan digər bir tədqiqatda E.coli mikrooqanizminin seftriakson, sefepim, siprofloksasin, levofloksasin, piperasillin və amikasin kimi mikroorqanizmlərə qarşı həssaslıqlarının müvafiq olaraq, 80,5%, 83,4%, 64,7%, 65,3%, 96,2%, və 99,4% olduğu öz əksini tapmışdır [6,7,8]. Son illərdə dünya üzrə ESBL sintez edən CTX-M-15 kimi E.coli ştammlarının xəstəxanadanxaric SYİ-nın yaranmasında əsas rola malik olduğu qəbul edilmişdir. β-laktamaza yaxud karbapenemaza sintez edən Enterobakteriyalar və Akinobakteriya növləri kimi antibiotiklərə qarşı rezistent uropatogenlərin səhiyyə ocaqları daxilində ağırlaşmış SYİ hallarında rola malik olduğu qeyd edilmişdir [9,10,11,12]. Karbapenemə qarşı rezistent Enterobakteriyalar (CRE) qlobal problemlərdəndir. Beynəlxaq xəstəliklərə nəzarət və profilaktika mərkəzinin məlumatlarına görə Karbapenemə qarşı rezistent Enterobakteriyalar imipenem, meropenem, doripenem yaxud ertapenem preparatlarına qarşı həssaslığı genotip testləri ilə müəyyən edilir [13,14,15,16].

Tədqiqatın məqsədi Sidik yolları infeksiyalarından əziyyət çəkən şəkərli diabet xəstələrində sidiyin tərkibindən əldə edilmiş bəzi mikroorqanizmlərin müxtəlif antibiotiklərə qarşı həssaslıqlarının öyrənilməsindən ibarətdir.

Tədqiqatın material və metodları. Bu məqsədlə tərəfimizdən müalicə alan 50 nəfər həm şəkərli diabet, həm də sidik yollarının iltihabından əziyyət çəkən xəstələrdən sidik nümunələri götürülmüş və onlar həmin səhiyyə ocağının nəzdində fəaliyyət göstərən mikrobioloji laboratoriyaya göndərilmişdir. Laboratoriyada sidik nümunələrindən izolə olunmuş Stafilokokların, Streptokokların, E.coli növü, P.aeruginosa növü, Klebsiellalar və Proteylərin Ampioks, Ampisillin, Oksasillin, Linkomisin, Gentamisin, Streptomisin, Azitromisin, Tetromisin, Eritromisin, Kanamisin, Xloramfenikol, Biseptol, Siprofloksasin, Polimiksin, Abaktal, Amikasin, Neomisin, Sefalotin, Sefalleksin və Klaforan kimi antibiotiklərə həssaslıqları eyniadlı disklərin izolə edilmiş koloniyalara tətbiq etməklə tədqiq edilmişdir. Həssaslıq "antibiotikə qarşı yüksək həssaslıq-+++", "antibiotikə qarşı orta həssaslıq -++", "antibiotikə qarşı zəif həssaslıq-+", "antibiotikə qarşı

rezistentlik- "-" kimi qeyd edilmişdir. Alınmış nəticələr parametrik və qeyri –parametrik üsullardan istifadə etməklə statistiki işlənmişdir. Statistiki üsullar variasion üsullarla tədqiq olunmuşdur (orta riyazi kəmiyyət – M, onların standart xətası- m, Styudentin dürstlük əmsalı- t müəyyən edilməklə). Kliniki tədqiqatın nəticələrinin statistiki işlənməsi standart proqram paketinin köməyilə icra edilmişdir (Windows üçün Microsoft Excel və Statistica 7,0).

Tədqiqatın nəticələri və müzakirəsi. Tədqiqat nəticəsində qeyd edilən xəstələrdən götürülmüş bioloji nümunələrdə Ampioks preparatına qarşı Stafilokoklar, E.coli növü, P.aeruginosa, Klebsiellalar və Proteylərin resiztentliyə malik olmuşlar. Buna baxmayaraq, Ampioks preparatına qarşı Streptokoklar zəif rezistentlik nümayiş etdirmişlər (cədvəl 1).

Ampisillin preparatına qarşı mikroorqanizmlərin reaksiyası Ampioks preparatında olduğu kimi qeydə alınmışdır. Preparata qarşı yalnızca Streptokoklar zəif həssaslıq nümayiş etdirmişlər.

Oksasillin preparatına qarşı E.coli növü, P.aeruginosa, Kleibsellalar və Proteylər rezistentlik nümayiş etdirmişlər. Preparata qarşı stafilokokların həssaslıqları yüksək olmuşdur. Streptokoklar isə orta həssaslıq nümayiş etdirmişlər.

Linkomisin preparatına qarşı sidik nümunələrindən izolə edilmiş müxtəlif mikroorqanizmlərin həssaslıqlarının müəyyənləşdirilməsi istiqamətində aparılan tədqiqatlar zamanı isə müvafiq preparata qarşı stafilokokların həssaslıqları yüksək olmuşdur. Eyni vəziyyət Streptokoklarla da müşahidə edilmişdir. E.coli növü, P.aeruginosa, Kleibsellalar və Proteylər isə linkomisinə qarşı rezistentlik nümayiş etdirmişlər.

Gentamisin isə bu istiqamətdə aparılan tədqiqatın mikroorqanizmlərin həssaslığı baxımından ən uğurlu preparat olmuşdur. Belə ki, bu preparata Stafilokoklar, Streptokoklar, E.coli, P.aeruginosa və Proteylərin həssaslıqları yüksək olmuşdur. Yalnızca Klebsiellalar bu peraparata orta həssaslıq nümayiş etdirmişlər.

Cədvəl 1

Sidik yolları infeksiyalarından əziyyət çəkən şəkərli diabet xəstələrində sidiyin tərkibindən əldə edilmiş bəzi mikroorqanizmlərin müxtəlif antibiotiklərə qarşı həssaslıqları

Antibiotik preparatları	Mikroorqanizmlər					
	Staphylococcus	Streptococcus	E.coli	P.aeruginosa	Klebsiella	Proteus
Ampioks	-	+	-	-	-	-
Ampisillin	-	+	-	-	-	-
Oksasillin	+++	++	-	-	-	-
Linkomisin	+++	+++	-	-	-	-
Gentamisin	+++	+++	+++	+++	++	+++
Streptomisin	+++	+++	-	-	-	-
Azitromisin	-	-	+	-	-	++
Tetromisin	-	-	+	-	-	++
Eritromisin	+++	++	-	-	+	-
Kanamisin	+	+	++	-	-	-
Xloramfenikol	++	+	+++	-	++	++
Biseptol	++	+++	++	-	-	++
Siprofloksasin	++	++	++	+	++	+
Polimiksin	+	+	+++	-	++	+
Abaktal	+++	+++	-	-	-	-
Amikasin	-	-	-	+++	-	-
Neomisin	-	-	-	-	-	+
Sefalotin	-	-	-	-	++	++
Sefalleksin	++	+++	+++	+	++	+++
Klaforan	++	++	+++	+	++	+++

Qeyd: "+++"-antibiotikə qarşı yüksək həssaslıq, "++"- antibiotikə qarşı orta həssaslıq, "+"- antibiotikə qarşı zəif həssaslıq, "-"-antibiotikə qarşı rezistentlik.

Streptomisin preparatına qidalı mühitdə izolə olunmuş stafilokokların və streptokokların həssaslıqları yüksək olduğu halda, E.coli, P.aeruginosa və Proteylərin bu preparata rezistentlik nümayiş etdirmişlər.

Azitromisin preparatına qarşı Stafilokoklar, Streptokoklar, P.aeruginosa və Klebsiellalar rezistentlik nümayiş etdirsələr də, E.coli növe zəif həssaslıq və Proteylər isə orta dərəcəli həssaslıq nümayiş etdirmişlər. Tetromisin preparatında da vəziyyət eynilə Azitromisində olduğu kimi qeydə alınmışdır.

Eritromisin preparatına qarşı Stafilokokların həssaslığı yüksək, Streptokokların həssaslığı orta, Klebsiellaların həssaslığı isə aşağı olmuşdur. Buna baxmayaraq, E.coli, P.aeruginosa və Proteylərin bu preparata qarşı həssaslıqları olmayıb, əksinə ona qarşı rezistentlik nümayiş etdirmişlər.

Kanamisin preparatına qarşı stafilokoklar və streptokoklar zəif həssaslıq nümayiş etdirsələr də, E.coli növü orta həssaslıq göstərmişdir. P.aeruginosa, Klebseilla və Proteylər isə qeyd edilən preparata qarşı rezistentlik amillərinə malik olmuşlar.

Xloramfenikol preparatına qarşı stafilokoklar, klebseillalar və proteylər orta dərəcəli həssaslıq nümayiş etdirsələr də, streptokoklar zəif, E.coli isə yüksək həssaslıq nümayiş etdirmişlər. P.aeruginosa növü bu preparata qarşı rezistentlik nümayiş etdirmişdir.

Biseptol preparatına qarşı stafilokoklar, E.coli və Proteylər orta dərəcəli həssaslıq nümayiş etdirsələr də, streptokoklar yüksək həssaslıq göstərmişlər. P.aeruginosa və Klebseillalar Biseptola qarşı rezistent olmuşlar.

Siprofloksasin preparatına qarşı Stafiolokoklar, Streptokoklar, E.coli növü və Klebseillalar orta dərəcəli həssaslıq nümayiş etdirsələr də, P.aeruginosa və Proteylər zəif həssaslıq sərgiləmişlər.

Polimiksin tərkibli antibiotikə qarşı Stafiolokoklar, Streptokoklar və Proteylər zəif həssaslıq nümayiş etdirdikləri halda, E.coli yüksək, Klebsiellalar orta həssaslıq göstərmişlər. Polimiksinə qarşı P.aeruginosa növünün rezistentliyi müşahidə edilmişdir.

Abaktal preparatına qarşı stafilokoklar və streptokoklar yüksək həssaslıq nümayiş etdirsələr də, E.coli, P.aeruginosa, Klebseillalar və Proteylər ona qarşı rezistentlik əldə etmişlər.

Amikasin preparatına qarşı yalnızca P.aeruginosa yüksək həssaslıq nümayiş etdirmişdir. Streptokoklar, E.coli, Stafilokoklar, Klebseillalar və Proteylər isə bu mikroorqanizmə qarşı rezistentlik nümayiş etdirmişlər.

Neomisin preparatına qarşı yalnızca proteylər zəif həssaslıq nümayiş etdirmişlər. Stafilokoklar, Streptokoklar, E.coli, P.aeruginosa və Klebseillalar bu preparata qarşı rezistentlik nümayiş etdirmişlər.

Sefalotin antibiotikinə qarşı yalnızca Klebseilla və Proteylər orta dərəcədə həssaslıq nümayiş etdirsələr də, Stafilokoklar, Streptokoklar, E.coli və P.aeruginosa kimi mikroorqanizm cins və növləri rezistentlik göstərmişlər.

Sefalleksin preparatına qarşı Streptokoklar, E.coli və Proteylər yüksək həssaslıq göstərdiklərinə baxmayaraq, Stafilokoklar və Klebsiellalar orta dərəcədə, P.aerruginosa növü isə aşağı dərəcədə həssaslıq nümayiş etdirmişdir.

Klaforan peraparatına qarşı E.coli və Proteylər yüksək həssaslıq sərgilədikləri halda Stafilokoklar, Streptokoklar və Klebseillalar orta, P.aerruginosa növü isə aşağı dərəcədə həssaslıq sərgiləmişdir.

Tədqiqat nəticəsində əldə olunmuş nəticələr Ampioks, Ampisillin, Oksasillin, Linkomisin, Gentamisin, Streptomisin, Azitromisin, Tetromisin, Eritromisin, Kanamisin, Xloramfenikol, Biseptol, Siprofloksasin, Polimiksin, Abaktal, Amikasin, Neomisin, Sefalotin, Sefalleksin və Klaforan kimi antibiotiklərə qarşı ən çox rezistentlik göstərən mikroorqanizmin P.aerruginosa növü olduğunu ortaya qoymuşdur. Qeyd edilən mikroorqanizmlərin hamısına bu və ya digər dərəcədə təsir göstərə bilən ən geniş spektrli antibiotiklər isə Gentamisin, Sefalleksin və Klaforan preparatları olmuşdur.

ƏDƏBİYYAT

1. Naber K.G. et al. EAU guidelines for the management of urinary and male genital tract infections.Urinary Tract Infection (UTI) Working Group of the Health Care Office (HCO) of the European Association of Urology (EAU) // Eur Urol, 2015, v.40(5), p.576-88.

2. Foxman B. Epidemiology of urinary tract infections: incidence, morbidity, and economic costs // Am J Med, 2017, 113 Suppl 1A, p.5s-13s.

3. UVI - nedre urinvägsinfektioner hos kvinnor. UTI - lower urinary tract infections in females // The Medical Products Agency, Sweden, 2017, v.18 (2).

4. Ruden H. et al. Nosocomial and community-acquired infections in Germany. Summary of the results of the First National Prevalence Study (NIDEP) // Infection, 2016, v.25(4), p.199-202.

5. Maki D.G. et al. Engineering out the risk for infection with urinary catheters // Emerg Infect Dis., 2014, v.7(2), p.342-7.

6. Bjerklund Johansen T.E. et al. Prevalence of hospital-acquired urinary tract infections in urology departments // Eur Urol, 2017, v.51(4), p.1100-11

7. Oteo J. et al. Extended-spectrum [beta]-lactamase producing Escherichia coli: changing epidemiology and clinical impact // Curr Opin Infect Dis, 2013, v.23(4), p.320-6.

8. Cassier P. et al. Cephalosporin and fluoroquinolone combinations are highly associated with CTX-M beta-lactamase-producing Escherichia coli: a case-control study in a French teaching hospital // Clin Microbiol Infect, 2011, v.17(11), p.1746-51

9. Hooton T.M. et al. Voided midstream urine culture and acute cystitis in premenopausal women // N Engl J Med, 2016, v.369(20), p.1883-91.

10. National Committee for Clinical Laboratory Standards (NCCLS). Methods for dilution antimicrobial susceptibility tests for bacteria that grow aerobically. Approved Standard 4th Edition M7-A5 (2012) and M100-S12, 2014. Wayne, PA.

11. Bjerklund Johansen TE, et al. Critical review of current definitions of urinary tract infections and proposal of an EAU/ESIU classification system. Int J Antimicrob Agents, 2014. 38 Suppl: p. 64-70.

12. Hansson S. et al. Untreated asymptomatic bacteriuria in girls: II--Effect of phenoxymethylpenicillin and erythromycin given for intercurrent infections //BMJ, 2009, v.298(6677), p.856-9.

13. Kass E.H. Asymptomatic infections of the urinary tract // Trans Assoc Am Physicians, 2016, v.69, p.56-64.

14. Gleckman R. et al. Reliability of a single urine culture in establishing diagnosis of asymptomatic bacteriuria in adult males // J Clin Microbiol, 2017, v.9(5), p.596-7.

15. Smaill F. et al. Antibiotics for asymptomatic bacteriuria in pregnancy // Cochrane Database Syst Rev, 2015, v.2

16. Turan H.et al. Frequency, risk factors, and responsible pathogenic microorganisms of asymptomatic bacteriuria in patients with type 2 diabetes mellitus // Jpn J Infect Dis, 2018, v.61(3), p.236-8

Резюме

Резистентность некоторых микроорганизмов к антибиотикам при инфекции мочевыводящих путей на фоне сахарного диабета

Э.А.Мусеибов

У 50 пациентов, страдающих сахарным диабетом и инфекциями мочевыводящих путей и получавших лечение в больнице, брали образцы мочи и отправляли в микробиологическую лабораторию. В лаборатории выявляли чувствительность Staphylococci, Streptococcus, E.coli, P.aeruginosa, Klebsiellas и Proteyine, выделенных из образцов мочи, к некоторым антибиотикам, которые используются в лечении. Результаты исследования показали, что среди микроорганизмов, наиболее устойчивых к антибиотикам, был выделен P.aerruginosa.

Summary

Resistance of some microorganisms to antibiotics at urinary tract infection on the background of diabetes mellitus

E.A.Museibov

In 50 patients suffering from diabetes and urinary tract infections and treated in the hospital, urine samples were taken and sent to the microbiological laboratory. In the laboratory, the sensitivity of Staphylococci, Streptococcus, E. coli, P. aeruginosa, Klebsiellas and Proteyine isolated from urine samples to certain antibiotics used in treatment was detected. The results of the study showed that among the microorganisms most resistant to antibiotics P.aerruginosa was isolated.

Daxil olub: 27.08 2018

STASİONAR MÜALİCƏSI ZAMANI XƏSTƏLƏRDƏ HELICOBACTER PYLORI İNFEKSİYASININ AŞKAR EDİLMƏSİ

U.A.Xəlilova
Azərbaycan Tibb Universiteti, Bakı

Açar sözlər: sero-müsbət, helikobakter infeksiya, hospitakkaşdırılmış xəstələr
Ключевые слова: серопозитивность, хеликобактерийная инфекция, госпитализированные больные
Key words: seropositivity, helicobacter infection, hospitalized patients

Xora xəstəliyinin yayılması və risk amilləri haqqında çoxsaylı və inkişaf etmiş ölkələrdə aparılan dərin elmi araşdırmalar var, amma hələlik xəstəliyin yayılmasını hərtərəfli və dəqiq qiymətləndirməyə imkan verən bütün dünyada birmənalı qəbul olunan və tətbiq edilən model mövcud deyil. Populyasiya səviyyəsində xəstəliyin yayılmasını modelləşdirən səbəb nəticə əlaqələri o qədər mürəkkəb və çoxcəhətlidir ki, hər konkret bölgə və populyasiya üçün xüsusi tədqiqatlar aparmağı tələb edir.

Xroniki qastritin yayılmasına bilavasitə həsr olunmuş elmi tədqiqatlar azdır. Belə hesab edilir ki, xəstəliyin dəqiq diaqnozunu qoymaq üçün endoskopiya və biopsiya aparmaq çətinləşir. Bu xəstəliyin yayılması haqqında müasir təsəvvürlər əsasən Helicobacter pylorinin epidemiologiyası ilə bağlıdır [1-15].

Helicobacter pylori ilk dəfə avstraliya alimləri tərəfindən xora xəstəliyi və xroniki olan şəxslərin mədəsinin selikli qişasında aşkar edilmişdir [1]. Bu qram-mənfi bakteriya olub insanlarda və bir sıra məməlilərdə, həmçinin quşlarda rast gəlinir, onun əsas rezervuarı insan və pişiklərdir [2]. İnsanın Helicobacter pyloriyə yoluxmasının üç yolu bəllidir: qastro-qastral (sterilləşdirilməmiş zondun bir neçə xəstə üçün istifadəsi zamanı), fekal-oral (isti su və kanalizasiya olmayan yerdə riskin artması, kal tərəvəzlərlə yoluxma), oral-oral (anaların yeməyi çeynəyib uşaqları yedizdirməsi). Bu yollar praktik müşahidələrdə təsdiq olunmuşlar [3-15]. Yoluxma yollarına müvafiq risk amilləri ayırd edilir. İlk növbədə ailədə uşaqların sayı, mənzildə insan çoxluğu, mərkəzi su təchizatının olmaması. Diş ərpində bakteriyanın aşkar edilməsi onun ailə daxili yoluxma mexanizmini izah etməyə imkan verir. Bununla əlaqədar ilk növbədə insan uşaq yaşlarında yoluxur. Bu variant yoluxma adətən inkişaf etməkdə olan ölkələrdə, yəni ailənin yaşlı üzvlərinin əksəriyyətində Helicobacter pylori olduğuna görə oral-oral yolla baş verir. Belə ölkələrdə 10-14 yaşlı uşaqların demək olar ki, yarısı, yeniyetmələrin 70%-ə qədəri infeksiyaya yoluxmuş olur. Azərbaycan və Rusiyada yoluxma səviyyəsi çox yüksəkdir [4-10].

Həzm orqanları xəstəliklərinin diaqnostikasında mövcud olan çətinliklərə baxmayaraq onların yayılması aktual bir problem kimi dünyanın demək olar ki, bütün ölkələrində sistematik öyrənilir, yeni-yeni məlumatlar əldə edilərək həmin patologiyaların etiopatogenezi və profilaktikası üçün elmi əsaslar formalaşdırılır. Bu baxımdan Azərbaycan istisna deyil, çünki, ölkə alimləri həmin problemin həllində müəyyən qədər iştirak etmişlər. Amma ölkəmizdə həzm orqanları xəstəliklərinin yayılması problemini həm tədqiqatların metodologiyası, həm də tədqiqat obyektlərinə görə müasir konsepsiyalara tam uyğun həll edən elmi işlər çox deyil və bu sahədə həll olunmamış məsələlər mövcuddur.

Tədqiqatın məqsədi. Stasionar müalicəsində olan xəstələrdə helicobacter pylori infeksiyasına seropozitivliyin səviyyəsini müəyyənləşdirmək.

Tədqiqatın materialları və metodları.Müşahidə Azərbaycan Tibb Universitetinin terapevtik klinikasında aparılmışdır. Müşahidə vahidi klinikada müalicə olunan xəstə götürülmüşdür (350 xəstə). Hər bir müşahidə vahidi ilə ilkin sorğu aparılmışdır. Sorğu anketi Rusiya Federasiyasının mərkəzi elmi tədqiqat qastroentrologiya institutunun tövsiyələri əsasında tərtib edilmiş və müvafiq müayinə kartasının tərkib hissəsinə daxil edilmişdir. Müayinə kartasında respondentin adı, atasının adı və soyadı, yaşı, cinsi və məskunlaşdığı ünvan qeyd olunmuşdur. Qidalanmanın xarakteri (mütəmadi, qeyri-mütəmadi), qida qəbulunun sutkada sayı (2 dəfə, 3 dəfə, 3 dəfədən çox), qidaların tərkibində quru qida məhsullarının yeri (olur, hərdən bir, tez-tez, hər gün), əsas qidalanma vaxtı (gündüz, axşamçağı), qida qəbulu tərzi (tələsik, tələsmədən), qidaların tərkibində turş, yağlı,qızardılmış və duzlu məhsulların yeri (nadir hallarda, həftədə 3 dəfədən çox, hər gün), çeynəmə aparatının vəzuyyəti (kafi, qeyri-kafi), ailə üzvləri arasında həzm sistemi xəstəlikləri olanlar barədə anketdə olan suallara sorğu yolu ilə cavab alınmışdır.

Sorğu apardığımız şəxslərin qan zərdabında Helicobacter pylorinin İgG sinfindən olan əks cisimləri müəyyənləşdirilmişdir. Bu metodun həssaslığı 100%, spesifikliyi isə 95%-dir.

Bütün statistik hesablamalar standart "Statistika" kompyuter proqramı ilə icra edilmişdir [16].

Alınmış nəticələr və onların müzakirəsi. Alınmış nəticələr cədvəldə əks olunmuşdur.

Göründüyü kimi kişi xəstələrin 60,6±3,7%-də (95% etibarlılıq intervalı 53,2-68,0%), qadın xəstələrin 58,3±3,7%-də (95% etibarlılıq intervalı 50,8-65,8%) helicobacter pylori infeksiyasına seropozitivlik qeydə alınmışdır. Göstəricinin səviyyəsinə görə gender fərqi statistik dürüst deyildir (p>0,05).

Cədvəl

Stasionarda müalicə olunanlar arasında Helicobacter pylori infeksiyasına seropozitivliyin səviyyəsi

Stasionar müalicəsinin əsas səbəbi	Cins	Xəstələrin sayı	Seropozitiv	%	95% etibarlılıq intervalı
Arterial hipertenziya	Kişi	25	13	52,0±10,0	32-72
	Qadın	25	12	48,0±10,0	28-68
Gərginlik stenokardiyası	Kişi	25	13	52,0±10,0	32-72
	Qadın	25	13	52,0±10,0	32-72
Qeyri-stabil stenokardiya	Kişi	25	12	48,0±10,0	28-68
	Qadın	25	13	52,0±10,0	32-72
Revmatizm	Kişi	25	13	52,0±10,0	32-72
	Qadın	25	12	48,0±10,0	28-68
Mədə və oniki barmaq bağırsağın xora xəstəliyi	Kişi	25	18	72±9,0	54-93
	Qadın	25	16	64±9,0	44,8-83,2
Xroniki qastrit	Kişi	25	19	76±8,5	59-93
	Qadın	25	18	72±9,0	54-90
Xroniki xolesistit və pankreatit	Kişi	25	18	72±9,0	54-90
	Qadın	25	18	72±9,0	54-90
Cəmi	Kişi	175	106	60,6±3,7	53,2-68
	Qadın	175	102	58,3±3,7	50,8-65,8

Arterial hipertenziya diaqnozu ilə müalicə olunan kişilərdə helicobacter pyloriyə qarşı seropozitivliyin səviyyəsi (52,0±10%; 95% etibarlılıq intervalı 32-72%) qadınların müvafiq səviyyəsinə (48±10,0; 95% etibarlılıq intervalı 28-68%) xeyli yaxındır. Bu göstəricilərin də müqayisəsində statistik dürüst fərq aşkar edilmir (p>0,05).

Gərginlik stenokardiyası diaqnozu ilə müalicə olunan xəstə kişi və qadınlarda helicobacter pylori infeksiyasına seropozitivlik eyni səviyyədə olmuş, hər 100 xəstəyə görə göstəricinin səviyyəsi 52±10% (95% etibarlılıq intervalı 32-72%) təşkil etmişdir.

Qeyri-stabil stenokardiya diaqnozu ilə müalicə olunan kişilərdə helicobacter pylori infeksiyasına seropozitivlik 48±10 % olmuşdur (95% etibarlılıq intervalı 28-68%). Bu diaqnozla müalicə olunan qadın xəstələrdə helicobacter pylori infeksiyasına seropozitivliyin səviyyəsi bir qədər yüksəkdir (52±10%; 95% etibarlılıq intervalı 37-72%), amma kişi xəstələrin müvafiq səviyyəsindən statistik dürüst fərqlənmir (p>0,05).

Revmatizm diaqnozu ilə müalicə olunan kişi pasiyentlərdə 52±10% hallarda (95% etibarlılıq intervalı 32-72%), qadın pasiyentlərdə 48±10% (95% etibarlılıq intervalı 28-68%) hallarda helicobacter pylori infeksiyasına seropozitivlik qeydə alınmış, gender fərqi statistik dürüst deyildir (p>0,05).

Beləliklə, qan dövranı sistemi xəstəlikləri ilə müalicə olunan pasiyentlərdə helicobacter pylori infeksiyasına seropozitivlik bir-birinə yaxın səviyyədə qeydə alınır, ən kiçik göstərici 48±10%, ən böyük göstərici 52±10% səviyyəsindədir.

Mədə və onikibarmaq bağırsağın xora xəstəliyi diaqnozu ilə müalicə olunan pasiyentlərdə helicobacter pylori infeksiyasına seropozitivliyin səviyyəsi nisbətən yüksəkdir, kişilər arasında 72±9% (95% etibarlılıq intervalı 54-90%), qadınlar arasında 64±9,6% (95% etibarlılıq intervalı 44,8-83,2%) təşkil etmişdir. Bu patologiya fonunda helicobacter pylori infeksiyasına seropozitivliyin səviyyəsinə görə gender fərqi statistik dürüst olmamışdır.

Mədə xorası diaqnozu ilə müalicə olunan xəstələrdə seropozitivliyin səviyyəsi qan dövranı sistemi xəstəlikləri ilə müalicə olunan xəstələrlə müqayisədə statistik dürüst yüksəkdir (atributiv riskin səviyyəsi kişilərdə 20%, qadınlarda 16%).

Xroniki qastrit diaqnozu ilə müalicə olunan kişilərin 76±8,5%-də (95% eti-barlılıq intervalı 59-93%), qadınların 72±9,0%-də (95% etibarlılıq intervalı 54-90%) helicobacter pylori infeksiyasına seropozitivlik qeydə alınmışdır, kişi və qadın pasiyentlərin göstəriciləri bir-birindən statistik dürüst fərqlənməmişdir.

Xroniki qastrit diaqnozu fonunda seropozitivlik mədə və onikibarmaq bağırsaq xorası fonunda seropozitivlik səviyyəsindən statistik dürüst fərqlənmir, amma arterial hipertenziya, gərginlik stenokardiyası və qeyri-stabil stenokardiya diaqnozu ilə müalicə olunan xəstələrin qruplarından statistik dürüst çox olmuşdur. Xroniki qastrit fonunda helicobacter pylori infeksiyasına seropozitivliyin atributiv riski kişi pasiyentlərdə 24%, qadın pasiyentlərdə 20% təşkil etmişdir.

Xroniki xolesistit və pankreatit diaqnozu ilə müalicə olunan xəstə kişilərin və qadınların müvafiq olaraq 72,0±9,0%-də (95% etibarlılıq intervalı 54-90%)helicobacter pylori infeksiyasına seropozitivlik aşkar edilmişdir. Bu qrup pasiyentlərdə də xroniki qastrit, mədə və onikibarmaq bağırsaq xorası diaqnozu ilə müalicə olunanlarda helicobacter pylori infeksiyasına seropozitivlik riskibir-birindən statistik dürüst fərqlənməmişdir (p>0,05).

Xroniki xolesistit və pankreratit diaqnozu ilə xəstələrdə helicobacter pylori infeksiyasına seropozitivliyin atributiv riski kişilərdə 20 və qadınlarda 24% təşkil etmişdir.

Ədəbiyyatda stasionarda müalicə olunan xəstələrdə helicobacter pylori infeksiyasına seropozitivlik barədə məlumat yoxdur, amma xroniki qastrit, mədə xorası fonunda səxtələrdə seropozitivlik barədə məlumat çoxdur. Bu məlumatlarla müqayisədə bizim aldığımız nəticələr bir qədər yüksəkdir. Bu onunla əlaqəli ola bilər ki, stasionarda adətən ağır gedişatli patologiyalar müalicə olunurlar. Ehtimal etmək olar ki, helicobacter pylori infeksiyası ilə assosiasiya olunan xəstəliklər stasionar müalicəsi riskini artırır.

Nəticələr

1. Stasionarda arterial hipertenziya, gərginlik stenokardiyası və qeyri stabil stenokardiya diaqnozu ilə müalicə olunan kişi və qadınların müvafiq olaraq 48-52%-də helicobacter pylori infeksiyasına seropozitivlik qeydə alınır.
2. Stasionarda mədə və 12 barmaq bağırsağın xora xəstəliyi, xroniki qastrit, xolesistit və pankreatit diaqnozu ilə müalicə olunan kişilərin və qadınların müvafiq olaraq 64-76%-də helicobacter pylori infeksiyasına seropozitivlik aşkar edilir.
3. Stasionarda həzm orqanları xəstəlikləri ilə müalicə olunan xəstələrdə qan dövranı sistemi xəstəlikləri ilə müalicə olunanlarla müqayisədə helicobacter pylori infeksiyasına seropozitivlik riski statistik dürüst yüksəkdir (atributiv risk >20%).

ƏDƏBİYYAT

1. Практическое руководство Всемирной организации гастроэнтерологов (ВОГ/OMGE). Helicobacter Pylori в развивающихся странах. www.academia.edu. 31 с.
2. Всеобщие Рекомендации Всемирной Гастроэнтерологической Организации Helicobacter pylori в развивающихся странах, 2010, 17 с.
3. Герман С.В., Зыкова И.Е., Модестова А.В., Ермаков Н.В. Распространенность инфекции H. Pylori среди населения Москвы // РЖГГК Оригинальные исследования, 2010,№2, с.25-30
4. Nəsirov M. Y., Muradova N. R., Əhmədov Q. X. Helicobacter pylori ilə assosiasiya olunan qastroduodenal xoraların inkişafında sitokinlərin rolu // Sağlamlıq, 2014, № 2, s. 7-11.
5. Hidayətova V.Ə., Səlimov T.H., Sadıqov B.İ. və b. Helicobacter pylori –müasir qastroenterologiyanın problemi // Sağlamlıq, 2013, № 1, s. 66-170.
6. Xəlilova U. A., Orucova R. İ., Məcidova S. A. Helicobacter pylori infeksiyasına ailədaxili yoluxma riskinin əsaslandırılması // Sağlamlıq, 2010, №2, s. 98-101.
7. Успенский Ю. П., Барышникова Н. В. Пробиотики в эрадикации инфекции Helicobacter pylori // Consilium Medicum, 2014, т. 16, № 8, с. 28-32.
8. Рахманин Ю.А., Герман С.В. Распространенность и пути трансмиссии пилорической хеликобактерной инфекции: трансмиссия от человека к человеку //Гигиена и санитария, 2014, № 4, с. 10-13.
9. Лоранская И.Д., Ракитская Л.Г., Мамедова Л.Д. Проблемы лечения хеликобактерной инфекции // РМЖ, 2013, № 31, с. 1638-1641.
10. Лазебник Л.Б., Васильев Ю.В. Helicobacter pylori: распространенность, диагностика, лечение // Экспериментальная и клиническая гастроэнтерология, 2010, № 2, с. 3–7.
11. Кладь А.Н., Лыков И.Н., Шестакова Г.А. Хеликобактерная инфекция - проблемы и решения // Вестник Калужского университета, 2011, №2 (19), с. 5-8.
12. Корсунский А.А., Выхристюк О. Ф. Хеликобактериоз как инфекционное заболевание: поиски решения проблемы // Детские инфекции, 2004, № 3, с. 56-60.
13. Бугаева И.О., Гречушников В.Б. Helicobacter pylori: современная диагностика и терапия // Саратов, 2008, 105 с.

14.Бордин Д.С., Колбасников С.В., Кононова А.И, Войнован И.Н. Роль пробиотиков в лечении заболеваний, ассоциированных с Helicobacter pylori // Врач, 2015, № 3, с. 23-27.

15.Бордин Д.С., Войнован И.Н., Колбасников С.В. Доказательная база эффективности Lactobacillus reuteri при лечении заболеваний, ассоциированных с Helicobacter pylori // Экспериментальная и клиническая гастроэнтерология, 2016, № 8 (132), с. 82-87.

16.Стентон Г. Медико-биологическая статистика. М.: Изд. Практика, 1999. 459 с.

Резюме

Выявляемость хеликобактерийной инфекции среди госпитализированных пациентов

У.А.Халилова

Целью исследования явилось оценика уровень выявляемости хеликобактерийной инфекции среди госпитализированных больных. Исследование проведено проспективно среди госпитализированных в клинике АМУ. Серопозитивность на хеликобактерийной инфекции оценивалась анализом антител Helicobacter pylori в сыворотке крови. Серопозитивность среди госпитализированных колебалась в интервале 48,0±10 – 76,0±8,5%, была максимальная у больных с хроническим гастритом и минимальным у больных с ревматизмом. Гендерные особенности не выявлены. В зависимости от профиля стационарного отделения изменятся уровень серопозитивности на Helicobacter pylori.

Summary

Detection of Helicobacter pylori infection among hospitalized patients

U.A.Khalilova

The purpose of the study: to assess the detection rate o helicobacter pylori infection among hospitalized patients. The study was held prospectively among hospitalized patients of clinic of AMU. Seropositivity on helicobacter infection was assessed by analysis of Helicobacter pylori antibodies in blood serum. Seropositivity among hospitalized patients changed within the interval 48,0±10-76,0±8,5%, and was maximum at patients with chronic gastritis and minimal at patients with rheumatoid. Gender features not identified.Depending on profile of stationary department the seropositivity rate for He licobacter pylori changes.

Daxil olub: 30.08 2018

MƏDƏ VƏ ONİKİBARMAQ BAĞIRSAĞIN XORA MƏNŞƏLI QANAXMALARININ ENDOSKOPİK DİAQNOSTİKASI VƏ MÜALİCƏSİ

B.İ. Sadıqov, E.A. Almənmədov, G.Ə. Abbasova, F.T.Məmmədzadə, X.Q.Hüseynova

M.A. Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi; 5 saylı şəhər klinik xəstəxanası, Bakı

Açar sözlər: mədə qanaxması, onikibarmaq bağırsaq qanaxması


Ключевые слова: кровотечения из желудка, кровотечения из двенадцатиперстной кишки

Keywords: bleeding from the stomach, bleeding from the duodenum

Mədə və onikibarmaq bağırsağın xora mənşəli qanaxması olan xəstələrin sayı axırıncı 10 illikdə artmışdır [1]. Hətta operativ müdaxilədən sonra yüksək ölüm faizi müşahidə edilir [2]. Qanaxmaya səbəb olmuş xoraların helkobakter pilori ilə əlaqəsinin olması həm də antihelikobakter müalicəsinin vacibliyini göstərir (9). Belə xəstəllərin diaqnostikasında əsas məqsəd qanaxmanın olması, onun intensivliyini, lokalizasiyasını və etiologiyasının dəqiqləşdirilməsidir [3,4].

Qanaxmaların diaqnostikası və müalicəsi zamanı təşkilatı məsələlər aktuallıq kəsb edir. Belə ki, bu qrup xəstələrin müalicəsinin təşkilində endoskopiyanın və hemostatik terapiyanın kompleks şəklində aparılması yaxşı nəticələr verir [5]. Əksər hallarda ezofaqoqastroduadenoskopiyanın (EQDS) aparılması həm də qanaxmanın müvəqqəti və ya tam dayandırılmasını təmin edir [1,6]. Dayanmış qanaxma əlamətləri, bəzən F2A və F2B olduqda, təkrari qanamanın ehtimalı nəzərə alınaraq xoraətrafı nahiyədə endoskopik hemostatik tədbirləri aparılır. Təkrari endoskopik hemostaz bəzi hallarda cərrahi müdaxiləyə altenativ ola bilər [7,8].

Tədqiqatın material və metodları. Görülən işlər 5 saylı kliik xəstəxanaya xora mənşəli kəskin qanaxma diaqnozu ilə daxil olmuş 327 xəstədə aparılmış EQDS nəticəllərinə əsaslanır. Bu pasiyentlər 2013-2017-ci illər ərzində xəstəxanamızda stasionar müalicədə olmuşdular. Yaş həddi 15-90 arası olmuşdur. Orta yaş 56,5 olmuşdur. Xəstələrin yaşa görə bölünməsi cədvəl 1-də göstərilmişdir.



Şək.1. Xəstələrin yaşa görə bölünməsi

Bu xəstələrdən 257 (78,6%) nəfərini kişilər, 70 (21,4%) nəffərini isə qadınlar təşkil etmişdir. Kliniki olaraq 194 (59,3%) xəstədə melena, 79 (24,1%) pasiyentdə qəhvə xıltlı xarakteri qusma, 54 (16,5%) xəstədə qanlı qusma şikayətləri olmuşdur. Əksər xəstələrdə ümumi zəiflik, halsızlıq, başgicəllənmə kimi şikayətlər yer almışdır. Xəstə kinikaya müraciət etdikdə ilk növbədə arterial təzyiqi və qanda hemoqlobinin səviyyəsi yoxlanılır, anamnez toplanır. Xəstəxananın özəlliyi EQDS müayinəsini xəstəyə ilk iki saatda aparılmasına imkan verir. Bu müayinə növbətçi həkim-endoskopist tərəfindən aparılır. Pasiyentlərin EQDS müayinəsinə hazırlanmasına xüsusi diqqət verilir. Belə ki, mədəyə zond salınaraq "təmiz su" gələnə kimi yuyulmağa çalışılır. Əgər 30-40 dəqiqəlik yuyulma effekt verməzsə, yuma dayandırılır və EQDS müayinəsi icra edilir. Bu cür yuyulma böyük əksəriyyət xəstələrdə endoskopik olaraq diaqnozun qoyulmasına kömək edir. Lakin profuz qanamalarda daha çox həkimlərin professionallığı əhəmiyyət kəsb edir.

Qeyd edilən bütün xəstələrə EQDS müayinəsinin aparılması mümkün olmuşdur. Endoskopiya qanaxmanın aktivliyinin dərəcəsini, lokalizasiyasını və etiologiyasını təyin etməyə imkan vermişdir. 238 xəstədə (72,8%) qanaxma 12 barmaq bağırsağın xora xəstəliyi ilə əlaqədar olmuşdur. Digər hallarda – 89 xəstədə (27,2%) qanaxma mənbəyi mədədə lokalizasiya olunmuşdur. Beləliklə əksər xəstələrdə (325-99,4%) qanaxmanın mənbəyi və etiologiyası dəqiq tapılmışdır. Yalnız 2 (0,6%) xəstədə profuz qanama səbəbindən qanaxmanın mənbəyi sonraki müayinələrdə dəqiqləşdirilmişdir. Hal-hazırda istifadə olunan qanaxmaların Forrestə görə təsnifatı aşağıdaki kimidir [4]:

1. Aktiv qanama: F1a - güclü pulsasiyalı qanama; F1b – zəif parenximatoz qanama.
2. Dayanmış qanama əlamətləri: F2a- görünən tromblaşmış damar; F2b- fiksə olunmuş qan laxtası; F2c- xora dibinin hemorragiya əlaməti.
3. Olmuş qanama əlaməti: F3 təmiz dibli xora, vizual olaraq qanama əlaməti görünmür.

Təcili FQDS nəticələri cədvəl 1-də göstərilmişdir.

Cədvəl 1

Xəstələrin Forrest təsnifatına əsasən bölünməsi

Təsnifat	Xəstələrin sayı	%
F1a	10	3,1%
F1b	27	8,3%
F2a	30	9,2%
F2b	156	47,7%
F2c	96	29,4%
F3	8	2,4%
Yekun:	327	100%

Cədvəldən göründüyü kimi, EQDS zamanı aktiv qanama (F1a, F1b) 37 xəstədə (11,3%) olmuşdur. Bunlardan 2 xəstədə güclü qanaxma olmuşdur. Dayanmış qanama əlamətləri isə 186 (56,9%) xəstədə olmuşdur. Olmuş qanama əlaməti 8 (2,4%) xəstədə aşkarlanmışdır. Qanaxmalar zamanı 327 xəstədə istifadə

olunmuş müalicə üsulları cədvəl 2-də əks etdirilmişdir. Bu xəstələrdən bəzisinə birdən artıq müalicə tədbirləri aparılmışdır.

Cədvəl 2

İstifadə olunmuş müalicə üsulları

Cərrahi əməliyyat n=12 (3,7%)	EQDS zamanı müdaxilə n=36(11%)
Mədə rezeksiyası 5 (41,7%)	Məhlul şırağı 25 (69,4%)
Qanayan xoranın tikilməsi 7 (58,3%)	Məhlul inyeksiyası 11 (30,6%)

Perilimfa fistula, membranoz labirintin ətrafındakı perilimfatik boşluqda yerləşən mayenin otik kapsul xaricinə qaçışıdır [1,3,5]. Müxtəlif klinik mənzərədə ortaya çıxan bu xəstəlik qulaq burun boğaz həkimlərinin diaqnoz və müalicədə çətinliklərlə qarşılaşdığı bir mənzərədir. PLF yaranmasına səbəb olan bir çox amil vardır. Bunlara stapedektomi, barotravma, fiziki efor, baş boyun travmaları və kongenital və idiopatik səbəbləri göstərmək olar [1,2,4]. Hazırda istifadə edilən bir çox testlər qəti diaqnoz qoymağa imkan vermir, qəti medikamendoz və cərrahi müalicə qaydası yoxdur. Eşitmə itkisi çox vaxt ilk əlamətdir, adətən ani başlanğıçlıdır, baş fırlanması də müşayiət edə bilər. Xəstələrin bir qismində isə tinnitus eşitmə itkisi olmadan meydana gəlir. Tək və ya ikitərəfli sensorinoral itki və vertigonun birlikdə olması labirintə aid bir çox xəstəlik kimi perilimfatik fistul üçün də tez-tez rast gəlinən faktlardandır. Diaqnoz üçün ilk mərhələdə istifadə edilən testlər audioloji tədqiqatlardır [6,7].

Tədqiqatın məqsədi: Bu işdə yaratdığımız perilimfa fistul modelində eşitmə beyin sapı cavabı testini keçirərək inkişaf edən eşitmə itkisinin müddəti ilə bağlı əlamətlərin araşdırılması nəzərdə tutulmuşdur.

Tədqiqatın material və metodları: Tədqiqat işi Qazi Universiteti Tibb Fakültəsi Qulaq Burun Boğaz Əsas Elmlər Sahəsi (Anabilim Dalı) İxtisas Dissertasiyası olaraq görülmüşdür. İşin gedişatında Helsinki Yekun Aktının eksperimental heyvan işləri ilə bağlı bütün maddələrə riayət edilmişdir.

Eksperimental tədqiqat üçün Hıfzısıhha laboratoriyasında əldə edilən, ağırlıqları 350-400 qr arasında dəyişən, gənc- yetişkin albinos tip, sağlam, erkək kobaylardan istifadə edildi. Tədqiqat 8 kobay üzərində aparılmışdır. Sol qulaq nəzarət qrupu, sağ qulaq işçi qrupu olaraq nişanladıq və həmin gün preoperative nəzarət və işçi qrupu üçün ABR testi keçirildi və heyvanların eşitməsinin normal olduğu müəyyən edilmişdir.

İşçi və nəzarət qrupuna əməliyyatdan əvvəl, prosesdən 1 saat sonra və əməliyyatdan 48 saat sonra və 2 ay sonra ABR testi tətbiq olundu. Nəzarət tərəfə yalnız əməliyyatdan əvvəl ABR testi keçirildi. İş qrupundakı 4 kobay əməliyyatdan sonra 2-ci ayında test əsnasında ex olub və əməliyyata davam edilərək 4 kobay ilə iş başa çatdırılmışdır.

Nəzarət qrupu sol tərəf üçün (K qrupu) K1,2,3,4,5,6,7,8; İşçi qrupu sağ tərəf (perilimfatik fistul) üçün P1,2,3,4,5,6,7,8 olaraq kodlaşdırdı.

Kobayların hər iki qulağına tragus qarşısından keçirilən, dəri-dərialtı 2 sm-lik preaurikulyar kəsik edildi. Daha sonra timpanik bulla tapılıb açıldı, koxlear sümük tanındı. İşçi qrupu tərəfi (heyvanların sağ qulaqları) koxlear sümük 1mm qalınlığında çevrilmə ilə çalışaraq perilenfatik fistul yaradıldı. Bu zaman orta qulaqdakı quruluşlara və sümüklərə ziyan verilməməyə çalışıldı. Proses bitdikdən sonra dəri tikildi və əməliyyatdan 1 saat sonra, 48 saat sonra və 2 ay sonra EBC testi keçirildi.

Tədqiqatımızda elektrofizioloji test olaraq eşitmə testi ABR istifadə edilmişdir. Bütün kobayların işdən əvvəl iki tərəfli audio beyin sapı cavablarına baxılmışdır. Xəbərdarlıq səviyyesi 55 db HL (Hearing Level)-dən başlayıb 20 db-lik pillələrlə aşağı salındı, hədd itdiyi zaman 10 db yuxarı çıxıldı və normal ABR dalğaları müəyyənləşdirdiyi qiymət normal eşitmə kimi qiymətləndirildi. İBC dalğaları müşahidə edilmədiyi zaman 95 db HL-dən başlandı. Görülən işlərdə beyin sapı fəallığı ilə uyğun olan III dalğanın təqdim etdiyi ən kiçik xəbərdarlıq səviyyəsi eşitmə həddi kimi qəbul edildi. Tətbiq olunacaq cərrahi əməliyyatdan əvvəl ABR ilə eşitmə hədləri və dalğa latansları müəyyənləşdirdi. Daha sonra postoperative 1.saatda, 48 saatda və 2-ci ayda ABR ilə kobayların eşitməsi qiymətləndirildi və dalğa latansları qeyd edildi. Qeydiyyat zamanı ən çox görülən I, II və III dalğalar əsas götürülərək hesablamalar aparıldı.

Tədqiqatın nəticəsi və müzakirəsi. İşi təşkil edən 8 kobayın ABR də alınan nəticələri aşağıda təqdim olunmuşdur.

Araşdırmaya cəlb edilən 8 kobayın əməliyyatdan əvvəl nəzarət qrupun (sol tərəf) əməliyyatdan sonra 1-ci saat və 48-ci saat eşitmə hədd qiyməti müqayisə edilməsində əhəmiyyətli fərq müəyyən olunmamışdır ($p>0,05$). Hər iki nəzarət və işçi qrupun əməliyyatdan əvvəl eşitmə hədd qiymətinin müqayisə edilməsində əhəmiyyətli fərq müəyyən olunmadı. Bundan başqa, əməliyyatdan sonra perilimfatik fistül işçi qrupunun əməliyyatdan 1-ci saat və 48-ci saat sonra eşitmə hədd qiymətləri

müqayisə edilməsi zamanı əhəmiyyətli fərq müəyyən olunmadı (p>0,05). İşə daxil edilən perilimfatik fistül qrupu əməliyyatdan əvvəl və əməliyyatdan sonra 1-ci saat və 48-ci saat eşitmə hədd qiymətlərinin müqayisə edilməsi zamanı əhəmiyyətli fərq müəyyən olunmamışdır (p<0,05). İşə daxil edilən 8 kobayın əməliyyatdan əvvəl nəzarət qrupunun, işçi qrupunun əməliyyatdan sonra 1-ci saat və 48-ci saat eşitmə hədd qiymətlərinin müqayisə edilməsində əhəmiyyətli fərq müəyyən olunuşdur p=0.011 və p=0.016 (p<0.05)

Cədvəl 1

Əməliyyatdan əvvəl və sonra nəzarət və işçi qruplarına aid minimum və maksimum ABC hədd qiymətləri və orta göstəricilər

N	Dövrlər		Nəzarət qrupu	İşçi qrupu
			Min, max Orta	*Min, max Ortan*
			(dB)	(dB)
1	Əməliyyatdan əvvəl	Sağ	-	(-10) –(20)
				10
		Sol	(-10) – (20)	-
			10	
	Əməliyyatdan sonra 1-ci saat	Sağ	-	(20) – (50)
				35
		Sol	(0) – (20)	-
			10	
2	Əməliyyatdan sonra 48-ci saat	Sağ	-	(40) – (60)
				50
		Sol	(0) – (20)	-
			10	
	Əməliyyatdan sonra 2-ci ay	Sağ	-	(-) –(-)
				-
		Sol	(0) – (20)	
			10	-

Cədvəl 1

Əməliyyatdan əvvəl və sonra EBC hədd qiymətlərinin qruplar arası müqayisə edilməsi

Qruplar	Əməliyyatdan əvvəl (dB)	Əməliyyatdan sonra 1-ci saat (dB)	Əməliyyatdan sonra 48-ci saat(Db)	Əməliyyatdan sonra 2-ci ay (dB)
	Orta (min; max)	*Orta (min; max)*	*Orta (min; max)*	*Orta (min; max)*
Nəzarət qrupu sol	10(-10)-(20)	10(0)-(20)	10(0)-(20)	10(0)-(20)
İşçi qrupu sağ	10(-10)-(20)	35(20)-(50)	50(40)-(60)	Statistik dürüst olmamışdır.
p	p=0.737	p=0.011	p=0.016	-

Buna istinadən əməliyyatdan əvvəl nəzarət qrupunun əməliyyatdan sonra 1-ci saat və 48-ci saatla eşitmə hədlərinin üçlü qarşılaşdırılması nəticəsində əhəmiyyətli fərq müəyyən olunmuşdur p=0.04 (p<0.05).

2-ci ayda aparılan ABR nəticələrində kobaylarda dalğa izlənmədi və hədd tapılmadığı üçün total itki kimi qiymətləndirildi və müqayisə etməyə daxiln edilməmişdir. 2-ci aydan başqa heç bir ölçmədə dalğa morfologiyasında pozuntu müəyyən olunmadı.

Nəticə: Xəstələrdə PLF diaqnoz üçün eşitmə itkisi, baş gicəllənməsi qeyri-tarazlıq şikayətləri olmalıdır. Eşitmə itkisinin olmaması PLF olmaması mənasını gəlmir. Bizim işimizdə PLF yaratdığımız xəstələrdə eşitmə itkisinin inkişaf etdiyi müşahidə edildi və 1-ci saat və 48 saat arasında eşitmə itkisi baxımından əhəmiyyətli irəliləyiş müşahidə edilmədi. Sadəcə 2 aydan sonra 4 kobayda ABR test nəticəsində dalğa izlənmədi və hədd dəyərləndirilmədi, total eşitmə itkisi inkişaf etdiyi müşahidə edildi. PLF diaqnozu qoyulduqdan sonra 48 saat ərzində sürətli ilərləyən bir eşitmə itkisi olmadığı müəyyən edildi və bu da əvvəlcə cərrahi müalicə istəməyib tibbi müalicə sınamaq baxımından və cərrahiyyə üçün vaxt qazanılması baxımından mühüm üstünlük yaradır.

ƏDƏBİYYAT

1. Moore K.L., Persaud T.V.N. Klinik Yönleriyle İnsan Embriyolojisi. İstanbul: Nobel Tıp Yayınevleri, 2009, v.2, s.431- 432.

2. Stjernholm C., Muren C. Dimensions of the cochlear nerve canal: a radioanatomic investigation // Acta Otolaryngol, 2002, v.122, p.43-48

3. Erixon E., Högstorp H., Wadin K., Rask- Anderson H. Variotional anatomy of the human cocchlea: İnplications for cochlear implantation // Otol Neurotol., 2009, v.30, p.14-22.

4. Cumming J.W., Flint P.W., Harker L.A. et al. 4th ed. Vol 4. Section 149. Cochlear Anatomy and Central Auditory Pathways St. Louise: Mosby Year Book, 2005

5. Wysocki J. Topographical anatomy of the guinea pig temporal bone // Hearing Research, 2005, v.199, p.103-110

6. Albuquerque A.A.S., Rossato M., Oliveira J.A.A., Hyppolito M.A. Understanding the anatomy of ears from guinea pigs and rats and its use in basic otologic research // Braz J Otorhinolaryngol., 2009, v.75, p.43-49

7. Muren C. Dimensions of the cochlear nerve canal: a radioanatomic investigation // Acta Otolaryngol., 2002, v.122, p.43-48

Резюме

Экспериментальные результаты на потерю слуха времени при перилимфатическом фистуле

А.Р.Велиева, Н.Б.Гексу

Целью данного исследования явилось создание модель перилимфатической фистулы и изучение признаков потери слуха. При этом мы выполнили слуховые тесты *слухового* ответа *ствола мозга*, и оценивали результаты развития к моменту потери слуха. В исследовании были использованы 8 морский свинок.

Summary

Perilymph fistula time due to hearing loss signs of experımental presentation results

A.R.Veliyeva, N.B.Goksu

The purpose of this study was to create a model of a perilymphatic fistula and to study the signs of hearing loss. At the same time, we performed auditory tests of the auditory response of the brainstem, and evaluated the results of development by the time of hearing loss. The study used 8 guinea pigs.

Daxil olub: 23.08 2018

QADINLARDA GENİTAL İNFEKSİYALARIN RESİDİVLƏŞMƏ VƏ DİGƏR SOMATİK XƏSTƏLİKLƏRİN RASTGƏLMƏ XÜSUSİYYƏTLƏRİ

M.B.Əliyeva

Azərbaycan Tibb Universiteti, Bakı

Açar sözlər: genital infeksiyalar, residivlər, somatik xəstəliklər
Ключевые слова: генитальные инфекции, рецидивы, соматические болезни
Keywords: genital infections, relapses, somatic diseases

Çin Xalq Respublikasının Şandonq əyalətində aparılmış epidemioloji tədqiqat nəticəsində həmin bölgədə bakterial vaginozun yayılmasının 6,6%, İran İslam Respublikasının Həmədan şəhərində aparılan tədqiqat zamanı isə anoloji tədqiqatın nəticəsinin 28,5% olduğu aşkar edilmişdir [1]. Laosun paytaxtı Vyentyan şəhərində isə vaginozun yayılması 24,5%-dir. Digər bir tədqiqatda isə Braziliyanın şimar şərq əhatələrində bakterialvaginozun yayılmasının 20% olduğu əks olunmuşdur. Respublikamızda isə xəstəliyin epidemiologiyasına dair məlumatlar isə cüzidir. Hindistanın Karnataka əyalətində evli qadınlara arasında Nugent kriteriyalarından istifadə edilməklə müəyyənləşdirilən bakterial vaginoz hallarının 20,5% olduğu öz əksini tapmışdır [2]. Digər bir tədqiqatda isə Hindistanda Dehli şəhərində qadınların sosial-iqtisadi vəziyyəti ilə bakterial vaginozun yayılması arasında əlaqə öyrənilmiş və nəticədə səfil həyatı keçirən və iqtisadi cəhətdən zəif olan qadınlarda bu göstərici 28,8% olduğu halda, şəhərli əhalidə müvafiq göstərici 25,4% təşkil etmişdir [3]. Hindistanın Misore şəhərində aparılan tədqiqatda isə bu göstərici 19% olmuşdur. Ən yüksək göstərici isə Hindistanın Hariana şəhərində qeydə alınmışdır, 48,5% [4,11].

Bakterial vaginozlu qadınların təxminən 50-75%-i asimptomatikdir. Simptomatik qadınlarda xəstəliyin təzahürləri vaginadan bozumtul-ağ mayedən tutmuş, cinsi əlaqədən və menstrusiya zamanı pis qoxunun gəlməsinə kimi dəyişilə bilər. Xəstəliyin digər simptomlarına isə qaşınma, qarnın aşağı hissəsində və cinsi əlaqə zamanı ağrı aiddir. Bakterial vaginoz üçün risk amillərinə çoxsaylı cinsi tərəfdaşlar, siqaretçəkmə, aşağı sosial-iqtisadi stress və əvvəllər keçirilmiş cinsi xəstəlikləri aid etmək olar [5,9].

Hamiləlik zamanı bakterial vaginozun ağırlaşmalarına membranın vaxtından qabaq yırtılması, keysəriyyə kəsiyindən sonra endometrit, amnion mayesinin infeksiyası, uşaqlıq boynunun iltihabı və post abortal infeksiya aiddir. Döldə baş verən ağırlaşmalara isə vaxtından qabaq doğulma və bətndaxili inkişafın ləngiməsi aiddir. Bakterial vaginoz İİV yoluxması üçün risk amili daşıyır. Bakterial vaginoz İİV infeksiyasının yoluxma ehtimalını 2-4 dəfə artırır və Malavidə aparılan tədqiqatda onun antenatal İİV infesiyası ehtimalını 23% yüksəltdiyi öz əksini tapmışdır. Bundan başqa, bakterial vaginoz həmçinin HSV-2, qonoreyya və xlamidiya infeksiyalarının baş qaldırması üçün də risk amili rolunu oynayır [6,8]. Bakterial vaginoz daha çox çanağın iltihabi xəstəliyi olan xəstəliyi olan qadınlarda daha çox müşahidə olunsa da, bu xəstəliklər arasında əlaqənin xarakteri aydın deyil. Bakterial vaginoz üçün xarakterik olan mikroflora çanağın iltihabi xəstəliyi olan xəstələrin endometriumu və uşaqlıq borularından da əldə edilmişdir. Bundan başqa, bakterial vaginit biopsiya, histerektomiya, histerosalpinqoqrafiya, uşaqlıqdaxili aparatların yerləşdirilməsi, keysəriyyə əməliyyatı və uşaqlığın küretajı kimi invaziv müdaxilələrdən sonra meydana gələn endometrit və uşaqlıq boynunun selluliti kimi xəstəliklərlə də əlaqədar meydana gələ bilir. Bir sıra tədqiqatlar bakterial vaginozdan əziyyət çəkən qadınların sidik yolları infeksiyalarına yoluxma riskləri yüksəkdir [7,10].

Tədqiqatın məqsədi Qadınlarda genital kandidoz və bakterial vaginoz zamanı xəstəliyin residivləşmə, aybaşı xarakteristikası və digər somatik xəstəliklərin rast gəlinmə xüsusiyyətlərinin öyrənilməsindən ibarətdir.

Tədqiqatın material və metodları. Bu məqsədlə Gəncə Şəhər Qadın Məsləhətxanasına müraciət etmiş 20 nəfər xroniki residivləşən genital kandidoz, 29 nəfər residivləşən bakterial vaginoz, 39 nəfər isə həm xroniki residivləşən genital kandidoz, həm də bakterial vaginoz diaqnozu qoyulmuş xəstələr və 22 nəfər həmin qadın məsləhətxanasına cari müayinələr üçün müraciət etmiş sağlam qadınlar tədqiqata cəlb edilmişdir. Tədqiqatın ilk mərhələsində qeyd edilən xəstələrdə 2017-ci il ərzində xəstələrin müvafiq xəstəliklərin il ərzində residiv sayı (ildə "10-12 dəfə", "6-9 dəfə" və "6 dəfədən az") hər qrup xəstələr üzrə sayla və %-lə hesablanmışdır. Tədqiqatın 2-ci mərhələsində isə hər xəstələr qrupu (20 nəfərlik xroniki residivləşən genital kandidozlu, 29 nəfərlik residivləşən bakterial vaginozlu, 39 nəfərlik həm xroniki residivləşən genital kandidozlu, həm də residivləşən bakterial vaginozlu xəstələr qrupu) və sağlam şəxslər (22 nəfər) qrupunda normomenoreya, oliqomenoreya, hipomenoreya, hipermenoreya, alqodismenoreya, premenstrual sindrom hallarının rast gəlinməsi sayla və %-lə rast gəlinməsi öyrənilmişdir. Qeyd edək ki, normomenoreya aybaşı tsiklinin normal şərtlər daxilində olması, oliqomenoreya aybaşının nadir hallarda baş verməsi, hipomenoreya aybaşının hədsiz dərəcədə yüngül və qısa sürməsi, hipermenoreya aybaşının hədsiz ağır və uzun sürməsi, dismenoreya aybşaının hədsiz ağrılı keçməsi, premenstrual sindrom isə qadınlarda tsikldən əvvəl baş verən fiziki və ruhi əlamətlərdir. Bu sindrom aybaşı qanaxmalarından 10 gün əvvəl başlayaraq qanaxmalara bir neçə gün qalmışa qədər davam edə bilər. Sindromun əlamətlərinə depressiya, yorğunluq hissi, yuxululuğa meyllilik, ətrafa münasibətin zəifləməsi, ruhi sferada pozğunluqlar, əsəbilik, gərginlik, həssaslıq, ağlamağa meyllilik və s. aiddir. ABŞ-da aparılan tədqiqat zamanı qadınların bu vəziyyətdə daha çox cinayət hadisələri törətdiyi məlum olmuşdur.

Tədqiqatın 3-cü mərhələsində isə qeyd edilən xəstə qrupları və sağlam qadınlarda qalxanabənzər vəzidə xəstəliklərin mövcudluğu, qastrit, xolesistit, bağırsağın disbakteriozu və sistit kimi ümumi orqanizm səviyyəsində olan xəstəliklərin rast gəlinməsinin say və faizlə göstəricisi hesablanmışdır. Qadınların ümumi xəstəlikləri onların xəstəlik tarixlərindəki məlumatlara əsasən öyrənilmişdir. Xəstələrdən onların göstəricilərindən tədqiqat zamanı istifadə olunması üçün razılıq əldə edilmişdir. Alınmış ədədi verilənlər müasir tələbləri nəzərə almaqla statistik metodlarla işlənmişdir. Qrup göstəriciləri üçün orta qiymətlər (M), onların standart xətası (m), sıraların minimal (min) və maksimal (max) qiymətləri, həmçinin qruplarda keyfiyyət göstəricilərinin rastgəlmə tezliyi müəyyən edilmişdir. Qeyd edək ki, tədqiqat işi zamanı alınan nəticələrin statistik işlənməsi Statistica 7.0 tətbiqi kompüter proqramı ilə aparılmışdır.

Tədqiqatın nəticələri və müzakirəsi: Tədqiqat nəticəsində Gəncə Şəhər Qadın Məsləhətxanasına müraciət etmiş 20 nəfər xroniki residivləşən genital kandidozlu qadınlar qrupunda xəstəliyin 2017-ci il ərzindəki residivlərinin sayının 10-12 dəfə olması halları 9 nəfər xəstədə qeydə alınmışdır ki, bu da müvafiq qrupun 45,0±11,12%-ni əhatə etmişdir. Buna baxmayaraq, residivləşən bakterial vaginozlu 29 nəfərdən 17-sində yəni həmin qrupun 58,6±9,15%-ində, həm xroniki residivləşən genital kandidozlu, həm də bakterial

vaginozlu 39 nəfərdən 14-ündə yəni müvafiq qrupun 35,9±7,68%-ində xəstəliyin nəzərdə tutulan il ərzində 10-12 dəfə residivləşməsi vaş vermişdir. İl ərzində xəstəliyin residivlərinin sayının 6-9 dəfə başverməsi halları isə xroniki residivləşən genital kandidoz diaqnozu qoyulmuş xəstələr qrupunda 7 nəfərdə müşahidə olunmuşdur ki, bu da müvafiq xəstələr qrupunun 35,0±10,67%-ni təşkil etmişdir (cədvəl 1). Residiv sayının bu intervalda baş verməsi residivləşən bakterial vaginozlu xəstələr qrupunda 7 nəfər qeydə alınmışdır və bu vaginozlu xəstələrin 24,1±7,95% -ni, həm xroniki residivləşən genital kandidoz, həm də bakterial vaginoz diaqnozu qoyulmuş xəstələrdən isə 21 nəfərində yəni müvafiq qrupun 35,9±7,68%-ni əhatə etmişdir.

Cədvəl 1

Qadınlarda genital kandidoz və bakterial vaginoz zamanı xəstəliyin residivləşmə xarakteristikası

İl ərzində residivlərin sayı	Xroniki residivləşən genital kandidoz, n=20		Residivləşən bakterial vaginoz, n=29		Xroniki residivləşən genital kandidoz+bakterial vaginoz, n=39	
	say	%	say	%	say	%
10–12 dəfə	9	45,0±11,12	17	58,6±9,15	14	35,9±7,68
6–9 dəfə	7	35,0±10,67	7	24,1±7,95	21	53,8±7,98
6 dəfədən az	4	20,0±8,94	5	17,2±7,01	4	10,3±4,86

İl ərzində residivlərin sayının 6 dəfədən az olması hallarına isə 20 nəfərdən ibarət xroniki residivləşən genital kandidozlu xəstələr qrupunda 4 nəfərdə, 29 nəfərdən ibarət residivləşən bakterial vaginozlu qadınlar qrupunda 5 nəfərdə, 39 nəfərdən təşkil edilmiş həm xroniki residivləşən genital kandidoz, həm də residivləşən vaginozdan əziyyət çəkən qadınlar qrupundan isə 4 nəfərdə qeydə alınmışdır ki, bu da uyğun qruplar üzrə müvafiq olaraq, 20,0±8,94%, 17,2±7,01% və 10,3±4,86% təşkil etmişdir. Rəqəmsal göstəriciləri analiz etdikdə xəstəliyin residiv sayında ən arzuolunmaz vəziyyətin residivləşən bakterial vaginozlu qadınlarda olduğunu müşahidə edirik (58,6±9,15% hallarda illik 10-12 dəfə residiv hadisəsi).

Qadınlarda genital kandidoz və bakterial vaginoz zamanı aybaşı pozulmalarının qeyd edilməsi üzrə tədqiqat zamanı müqayisə məqsədilə müşahidələrə cəlb etdiyimiz 22 nəfər sağlam qadınlardan 15 nəfərində yəni onların 68,2%-ində normomenoreya, 5 nəfərində, yəni sağlam qadınların 22,7%-ində oliqomenoreya, 1 nəfərində yəni sağlam (kontrol) qrupun 4,5%-ində hipomenoreya, 3 nəfərində yəni qrup üzrə 13,6%-ində hipermenoreya, digər 3 nəfərində yəni qrup üzrə 13,6%-ində dismenoreya və 6 nəfərində yəni qrupun 27,3%-ində premenstrual sindrom qeydə alınmışdır. Sağlam qadınların müvafiq göstəriciləri tədqiqatımızda norma kimi qəbul edilmiş digər göstəricilər onlarla müqayisə edilmişdir.

Xoniki residivləşən genital kandidozlu 20 nəfər qadınlardan 11 nəfərində yaxud qrupun 55%-ində normomenoreya, 7 nəfərdə yəni qrupun 35%-ində oliqomenoreya, 1 nəfərində yəni qrupun 5%-ində hipomenoreya, 3 nəfərində yəni qrupun 15%-ində hipermenoreya, 4 nəfərində yaxud qrupun 20%-ində dismenoreya və 5 nəfərdə yaxud qrupun 25%-ində premenstrual sindrom qeydə alınmışdır (cədvəl 2).

29 nəfərdən ibarət residivləşən bakterial vaginozlu qadınlardan təşil etdiyimiz qrupda 19 nəfərdə yaxud qrupun 65,5%-ində normomenoreya, 4 nəfərində yəni müvafiq qrupun 13,8%-ində hipermenoreya, 8 nəfərində yaxud qrupun 27,6%-ində dismenoreya və 10 nəfərində yaxud 34,5%-ində premenstrual sindrom qeydə alınsa da, bur qrupda oliqomenoreya yaxud hipomenoreya hallarına rast gəlinməmişdir.

Cədvəl 2

Qadınlarda genital kandidoz və bakterial vaginoz zamanı menstrual funksiyanın xarakteristikası

Menstrual funksiyanın xarakteri	Xroniki residivləşən genital kandidoz, n=20		Residivləşən bakterial vaginoz, n=29		Xroniki residivləşən genital kandidoz+bakterial vaginoz, n=39		Nəzarət qrupu, n=22	
	Say	%	Say	%	Say	%	Say	%
Normomenoreya	11	55,0	19	65,5	22	56,4	15	68,2
Oliqomenoreya	7	35,0	0	0,0	9	23,1	5	22,7
Hipomenoreya	1	5,0	0	0,0	0	0,0	1	4,5
Hipermenoreya	3	15,0	4	13,8	4	10,3	3	13,6
Dismenoreya	4	20,0	8	27,6	8	20,5	3	13,6
Premenstrual sindrom	5	25,0	10	34,5	11	28,2	6	27,3

39 nəfər həm xroniki residivləşən genital kandidoz, həm də bakterial vaginozlu qadınlardan təşkil etdiyimiz qrupda 22 nəfərdə yəni qrupun 56,4%-ində normomenoreya, 9 nəfərdə yəni müvafiq qrupun 23,1%-ində oliqomenoreya, 4 nəfərində yaxud qrupun 10,3%-də hipermenoreya, 8 nəfərində yaxud 20,5%-

ində və 11 nəfərində yaxud 28,2%-ində premenstrual sindrom qeydə alınmasına baxmayaraq, bu qrupda hipomenoreya halı müşahidə edilməmişdir.

Cari profilkatika məqsədilə qadın məsləhətxanasına müraciət etmiş və göstəricilərindən tədqiqat üçün istifadə edilməsinə icazə vermiş 22 nəfər qadından isə 3 nəfərində yəni bu qrupun 13,6%-ində qalxanabənzər vəzinin problemlərinə, 4 nəfərində yəni qrupun 18,2%-ində xolesistit, 3 nəfərində yəni qrupun 13,6%-ində qastrit və digər 3 nəfərində yəni 13,6%-ində qastrit qeydə alınmışdır. Bu qrupdakı qadınlarda bağırsağın disbakteriozuna rast gəlinməmişdir.

20 nəfərdən ibarət xroniki residivləşən genital kandidozdan əziyyət çəkən qadınlar qrupunda 3 nəfərdə yəni qrupun 15%-ində qalxanabənzər vəzinin problemlərinə, 4 nəfərində yəni qrupun 20%-ində qastrit, 5 nəfərdə yaxud qrupun 25%-ində xolesistit, 6 nəfərdə yaxud qrupun 30%-ində bağırsaqların disbakteriozuvə 5 nəfərdə yaxud qrupun 25%-ində isə sistit halları qeydə alınmışdır (cədvəl 3).

29 nəfərdən ibarət residivləşən bakterial vaginozdan əziyyət çəkən qadınlar qrupunda 6 nəfərdə yəni qrupun 20,7%-ində qalxanabənzər vəzilərində patologiya, 5 nəfərində yəni qrupun 17,2%-ində qastrit, 9 nəfərində yəni qrupun 31%-ində xolesistit, 7 nəfərində yəni qrupun 24,1%-ində bağırsaqların disbakteriozu, 8 nəfərində yəni qrupun 27,6%-ində sistit qeydə alınmışdır.

Cədvəl 3

Qadınlarda genital kandidoz və bakterial vaginoz zamanı müxtəlif somatik patologiyaların rast gəlinməsi

Nozoloji vahid	Xroniki residivləşən genital kandidoz, n=20		Residivləşən bakterial vaginoz, n=29		Xroniki residivləşən genital kandidoz+bakterial vaginoz, n=39		Nəzarət, n=22	
	Say	%	Say	%	Say	%	Say	%
Qalxanabənzər vəzinin patologiyaları	3	15,0	6	20,7	9	23,1	3	13,6
Qastrit	4	20,0	5	17,2	7	17,9	3	13,6
Xolesistit	5	25,0	9	31,0	8	20,5	4	18,2
Bağırsağın disbakteriozu	6	30,0*	7	24,1*	8	20,5*	0	0,0
Sistit	5	25,0	8	27,6	16	41,0*	3	13,6

Qeyd: Nəzarət qrupuna görə statistiki dürüstlük $p<0,05$.

39 nəfərdən ibarət həm xroniki residivləşən genital kandidoz, həm də bakterial vaginozdan əziyyət çəkən pasiyentlər qrupunda 9 nəfərdə yəni qrupun 23,1%-ində qalxanabənzər vəzinin xəstəliyi, 7 nəfərində yəni qrupun 17,9%-ində qastrit müşahidə edilmişdir. Bu qrupda 8 nəfərdə xolesistit, digər 8 nəfərdə bağırsağın disbakteriozu və 16 nəfərdə isə sistit müşahidə edilmişdir ki, bu müvafiq qrupun uyğun olaraq, 20,5%, 20,5% və 41%-ini təşkil etmişdir. Tədqiqat nəticəsində uşaqlıq yollarında problemlər olan xəstələrdə müxtəlif somatik patologiyaların, aybaşı tsiklindəki pozğunluqların baş verməsi göstəriciləri sağlam qadınlarla müqayisədə nisbətən yüksək olmuşdur.

ƏDƏBİYYAT

1. Allsworth J.E., Peipert J.F. Prevalence of bacterial vaginosis: 2001-2004 National Health and Nutrition Examination Survey data // Obstetrics and Gynecology, Hagerstown, 2007, v.109, p. 114-120
2. Austin M.N. et al. Microbiologic response to treatment of bacterial vaginosis with topical clindamycin or metronidazole // Journal of Clinical Microbiology, 2005, v. 43, p. 4492-4497
3. Brasil. Ministério da Saúde. Secretaria de Vigilância em Saúde. Programa Nacional de DST-Aids. Manual de Controle das Doenças Sexualmente Transmissíveis - DST. Brasília, DF, 2006.
4. Catlin B.W. Gardnerella vaginalis: characteristics, clinical considerations, and controversies // Clinical Microbiology Reviews, 2012, v.5, p. 213-23
5. Eriksson K. et al. Validation of the use of Pap-stained vaginal smears for diagnosis of bacterial vaginosis. APMIS: Acta Pathologica Microbiologica et Immunologica Scandinavica, Copenhagen, 2007, v.115, p. 809-813
6. Fethers K.A. et al. Sexual risk factors and bacterial vaginosis: a systematic review and meta-analysis // Clinical Infectious Diseases, 2008, v. 47, p. 1426-1435
7. Haggerty C.L. et al. Bacterial vaginosis and anaerobic bacteria are associated with endometritis // Clinical Infectious Diseases, 2004, v. 39, p. 990-995
8. Hasenack B.S. et al. Comparative study for the diagnosis of bacterial vaginosis by Papanicolaou and Gram staining techniques // Revista Brasileira de Análises Clínicas, 2008, v. 40, p. 159-162
9. Klebanoff M.A. Time course of the regression of asymptomatic bacterial vaginosis in pregnancy with and without treatment // American Journal of Obstetrics and Gynecology, 2004, v.190, p. 363-370,

10.Schwebke J.R. Desmond, R. A randomized trial of the duration of therapy with metronidazole plus or minus azithromycin for treatment of symptomatic bacterial vaginosis // Clinical Infectious Diseases, 2007, v.44, p. 213-219

11.Screening for bacterial vaginosis in pregnancy to prevent preterm delivery: U.S. Preventive Services Task Force recommendation statement // Annals of Internal Medicine, 2008, v.148, p. 214-219

Резюме

Особенности частоты встречаемости рецидивов генитальных инфекций и других соматических заболеваний

М.Б.Алиева

Приблизительно 50-75% женщин с бактериальным вагинозом являются бессимптомными. У симптоматических женщин проявления заболевания могут варьироваться от влагалища до сыпи и белого гриппа, инфекций, передающихся половым путем, и недоедания во время менструации. Было проведено исследование для изучения характеристик кандидоза половых органов и бактериального вагиноза у женщин при изучении характеристик рецидива, менструальной характеристики и других соматических заболеваний. Результаты различных соматических патологий и нарушений менструального цикла у пациентов с проблемами детства были относительно высокими по сравнению с здоровыми женщинами.

Summary

Particularities in the recurrence genetic infections and other somatic diseases in the womens

M.B.Aliyeva

Approximately 50-75% of women with bacterial vaginosis are asymptomatic. In symptomatic women, manifestations of the disease may vary from vagina to rash and white flu, sexually transmitted infections, and malnutrition during menstruation. A study was conducted to investigate the characteristics of genital candidiasis and bacterial vaginosis in women in the study of the characteristics of recurrence, menstrual characterization and other somatic diseases. The findings of various somatic pathologies and menstrual cycle disorders in patients with childhood problems have been relatively high in comparison to healthy women.

Daxil olub: 17.08 2018

AĞCİYƏRLƏRİN XRONİK OBSTRUKTİV XƏSTƏLİYİ İLƏ YANAŞI ÜRƏYİN IŞEMİK XƏSTƏİYİ ZAMANI METABOLİK DƏYİŞİKLİKLƏR

V.A.Abdullayev, R.S.Hacıyeva, A.D.Hüseynova

Elmi-tədqiqat Ağciyər xəstəlikləri İnstitutu, Bakı

Açar sözlər: ağciyərlərin xronik obstruktiv xəstəliyi, ürəyin işemik xəstəiyi, metabolik dəyişikliklər, lipidlər

Ключевые слова: хроническая обструктивная болезнь легких, Ишемическая болезнь сердца, метаболические изменения, липиды

Keywords: chronic obstructive pulmonary disease, Coronary heart disease, metabolic changes, lipids

Ağ ciyərlərin xronik obstruktiv xəstəliyi (ACXOX) Müxtəlif patogen agentlərə, qazlara ağ ciyər toxumasının iltihabi reaksiyası, xarici tənəffüs funksiyasının proqressivləşməsi ilə xarakterizə olunan xəstəlikdir. Onun aşkarlanmasında əsas aksent bronx-ağ ciyər əlamətləridir [1,2,3].

Iri həcmli epidemioloji tədqiqatlar göstərir ki, ACXOX-lu xəstəliklərdə ölümün əsas səbəbi tənəffüs çatışmamazlığı deyil, ürək- damar patologiyası- ürəyin işemik xəstəliyi və ürək çatışmamazlığıdır. Çoxsaylı tədqiqatlarar göstərilir ki, Fev_1 – göstəricilərinin aşağı düşməsi ÜİX- nin yaranma riskini artırır. Siqaret çəkmə statusundan asılı olmayaraq Fev_1<73-75% olması ÜİX- nin yaranma riski ilə assosiasiya edir (kişilərdə 26%, qadınlarda 24%). ACXOX- da iştirak edən xronik persitəedən sistem iltihabı ACXOX- lu xəstələrdə ürək- damar xəstəliklər, aterosklerozun patogenezində roluna dair çoxlu məlumatlar toplanmışdır [4,5,6].

Tədqiqatın material və metodları. Tədqiqat işi 352 xəstənin klinik-instrumental müayinəsi əsasında aparılmışdır. Bütün müayinə olunanlar 3 qrupa bölünmüşlər:

I qrup- ACXOX olan 121 xəstə,

II qrup- ACXOX ilə yanaşı ÜİX olan 113 xəstə,

III qrup- ÜİX- in xronik formaları olan 118 xəstə.

Bütün xəstərə ACXOX və ÜİX diaqnozunun verifikasiyası keçirilmişdir. Xəstəliyin diaqnozu GOLD-2011 və ACHA təsnifatlarına əsasən təyin edilmişdir. Bütün xəstələrə klinik baxış, qanın biokimyəvi müayinəsi (ümumi xolesterin, qlükoza), Holter üsulu ilə sutkalıq EKQ, exokardioqrafiya (Exo-KQ), dö. Qəfəsinin rentgen müayinəsi, xarici tənəffüs funksiyasının (XTF) müayinəsi daxil olmaqla tibbi müayinələr aparılmışdır. Bu mərhələdə tədqiqat işinin məsələlərinə uyğun olaraq kiçik qan dövranı hemodinamikasına və əksgöstərişlərin olub-olmamasına təsir edən yanaşı xəstəliklər aşkar edilmişdir.

Laborator müayinələr aparıldıqda qan zərdabında lipid spektirinin vəziyyətini xarakterizə edən biokimyəvi göstəricilərə xüsusi diqqət yetirilmişdir, bu zaman ÜİX-in inkişafına və şiddətlənməsində dislipoproteinmeyinanın rolu, eləcə də ədəbiyyatda ACXOX olan xəstələrdə aterogenezin tükənməsi imkanlarının olması haqqında fikirlər nəzərə alınmalıdır. Qanın lipid səviyyəsinin müayinəsinin nəticələri təcrid olunmuş ÜİX və ACXOX ilə yanaşı ÜİX olan xəstələrdə cədvəl 1-də təqdim olunmuşdur.

Cədvəl 1

I və II qruplarda qan plazmasında lipidlər və aterogenlik əmsallarının orta göstəriciləri

Göstəricilər	I qrup (ACXOX)	II qrup (AXOX+ÜİX)
Ümumi XS, mmol/l	5,69±0,19	5,64±0,2
XS YSLP, mmol/l	0,988±0,04	0,978±0,06
TQ, mmol/l	2,192±0,14	2,03±0,09
XS ASLP, mmol/l	3,71±0,17	3,75±0,21
Aterogenlik əmsalı	4,76±0,34	4,77±0,4

Cədvəldən göründüyü kimi hər iki qrupda metabolik dəyişikliklərdən aşkar müşahdə olunur ki, onlar hiperxolesterinemiyaya tendensiya, XS-in periferik toxmalardan qaraciyərə nəqlini təmin edən XS YSLP konsentrasiysının azalması, aterogen XS ASLP-in sərhəd həddə qədər artması və qan zərdabında aterogenlik əmsalı inteqral göstəricilərinin artması tendensiyası ilə müşhaidə olunur. Bütün göstəricilər hazırda klinik praktikada tövsiyə olunan "lipid mübadiləsi pozuntularının, aterosklerozun inkişafı və şiddətlənməsi riskinin qiymətləndirilməsinin laborator meyarları" üzrə müəyyən edilmişdir, Buna uyğun olaraq hər parametr üçün qan plazmasında "normal", "ideal", "arzuolunan", "sərhəd" və "anomal" zonaları ayrılmışdır ki, bunun nəticəsində aterogenezi daha dəqiq təyin etmək mümkündür.

Hər iki qrupda XS göstəriciləri "ideal" həddən yüksək olmuşdur (4 mmol/l-ə qədər), orta hədlər isə sərhəd həddə olmuş, ACXOX ilə yanaşı olduqda qeyri- dürüst aşağı olmuşdur. Həmçinin heç bir xəstədə XS YSLP göstəriciləri "arzuolunan" həddə olmamışdır (kişilərdə 1,3 mmol/l-dən, qadınlarda 1,55 mmol/l-dən çox). Hər iki qrupda "anomal" aşağı səviyyəli xəstələr üstünlük təşkil etmişdi (kişilərdə 0,9 mmol/l, qadınlarda 1,0 mmol/l-dən az). Belə xəstələr I qrupda 20 (16,5±3,4), II qrupda 61(54,0±4,7) olmuşdur. Qruplarda bu göstəricilərin fərqləri dürüst olmuşdur ($p>0,05$), onlar daha çox II qrup üçün xarakterik olmuşdur. Həmçinin orta hədlər qeyri- dürüst pis olmuşdur. CS YSLP- in aşağı göstəriciləri siqaret çəkənlərin sayının çox olması ilə bağlıdır, xüsusilə ACXOX olan xəstələr bu baxımdan üstünlük təşkil edir. Bir sıra müəlliflər tərəfindən siqaret çəkmənin xolesterinin əks nəqlinə mənfi tədir göstərdiyi qeyd olunmuşdur. TQ-in səviyyəsi "arzuolunan" həddən yüksək olmamış (2,0- 2,5 mmol/l), I qrupda 29 (24,0±3,9), II qrupda 78 (69,0±4,4) nəfərdə qeydə alınmışdır ki, bu da qruplar üzrə həmin göstəricinin orta həddinin cüzi artması ilə izah olunur. I və II qrupdan olan əksər xəstələrdə, uyğun olaraq 27 (22,3±3,8) və 64 (56,6 ± 4.7) nəfərdə XS ASLP "sərhəd" zaonada olmuşdur ki (3,4- 4,1 mmol/l), bu da onların orta həddi üçün obnyektiv göstərici hesab olunur. yuxarıda qeyd edilən göstəricilər öyrənildikdə məlum olmuşdur ki, onlar arasındakı fərqlər dürüst olmuşdur, müayinə edilən göstəricilər I qrupa nisbətən daha çox II qrup üçün xarakterik olmuşdur.

Beləliklə, I və II qrup xəstələrdə qanın lipoprotein spektrində dəyişiklilər biristiqamətli olmuşdur: ACXOX ilə yanaşı ÜİX olan xəstələrdə XSS və TQ-in səviyyəsi bir qədər çox olmuşdur, lakin daha çox XS YSLP- in açağı düşməsi qeydə alınmışdır. Nəticədə lipidlər mübadiləsində aterogenlik əmsalı ümumilikdə həm təcrid olunmuş ÜİX, həm də ACXOX ilə yanaşı ÜİX zamanı təqribən eyni dərəcədə yüksək olmuşdur. Bütün bunlar aterogenlik əmasılnın mülayim kəskin olduğunu, hər iki müşahidə qrupunda aterosklerozun inkişafı və şiddətlənməsi riskinin olduğunu göstərir.

ƏDƏBİYYAT

1. Izquierdo J.L. Lack of association of ischemic heart disease with COPD when taking into account classical cardiovascular risk factors // International Journal of Chronic Obstructive Pulmonary Disease, 2010, v.5, p.387-394.

2. Прибылов С.А., Прусакова О.Ю., Алиуллин Р.А. и др. Влияние кораксана на показатели легочной, сердечной гемодинамики и эндотелиальной дисфункции у больных ХОБЛ и БА в сочетании с ИБС в поликлинических условиях // Курский научно-практический вестник «Человек и его здоровье», 2011, № 3, с. 126-132

3. Soriano J.B., Rigo F., Guerrero D. et al. High prevalence of undiagnosed airflow limitation in patients with cardiovascular disease // Chest. 2010, v.137, p.333-340

4. Fox K., Ford I., Steg P.G. et al. Ivabradine for patients with stable coronary artery disease and left-ventricular systolic dysfunction (BEAUTIFUL): a randomised, double-blind, placebo controlled trial // Lancet, 2008, v.372, p.807-16

5. Savelieva I., Camm A.J. If-inhibition with ivabradine: electrophysiological effects and safety //Drug Saf., 2008, v.31, p.95-107

6. Некрасов А.А., Кузнецов А.Н., Мельниченко О.В., Круглова И.С. Ремоделирование сердца у больных хронической обструктивной болезнью легких // Медицинский альманах, 2011, №3 (16), с.112-115.

7. Провоторов В.М., Коточигова Т.В. Фармакотерапия хронической обструктивной болезни легких и хронической сердечной недостаточности // Молодой ученый, 2011, №6. Т.2. с. 187-189.

Резюме

Метаболические нарушения при обструктивной хронической болезнью легких в сочетании ишемической болезнью сердца

В.ААбдуллаев, Р.С.Гаджиева, А.Д.Гусейнова

Исследование проводилось на основании клинико-инструментального обследования 352 пациентов. Все обследованные делятся на 3 группы: I группа121 пациент с ХОБЛ, II группа- с ХИБЛ и ИБС, III группа 118 пациентов с ИБС Изменения в спектре липопротеинов крови у пациентов I и II были однозначными: в дополнение к ХОБЛ уровни ХСС и ТГ были значительно выше у пациентов с ИБС, но больше было зарегистрировано в падении ОХС. В результате, атерогенный коэффициент метаболизма липидов, как правило, был значительно выше в TPR вместе с изолированным ИБС и ХОБЛ. Все это показывает, что атерогенность атерогенной стадии является умеренно острой, а риск развития атеросклероза в обеих группах наблюдения является серьезным.

Summary

Metabolic disorders in obstructive chronic lung disease in combination with coronary heart disease

V.AAbdullaev, R.S. GaJiyeva, A.D. Guseynova

The study was conducted on the basis of clinical and instrumental examination of 352 patients. All examined are divided into 3 groups: I group 121 patients with COPD, I I group – COPD and IHD, III Group 113 patients IHD. The study was conducted on the basis of clinical and instrumental examination of 352 patients. All the patients were divided into 3 groups: Group I, patients with COPD, Group II, patients with CIBL and IHD, Group III, 118 patients with IHD Changes in blood lipoproteins in patients I and II were unambiguous: higher in patients with coronary artery disease, but more was recorded in the fall of TCI. As a result, the atherogenic lipid metabolism ratio was generally significantly higher in TPR, together with isolated CHD and COPD. All this shows that the atherogenic atherogenic stage is moderately acute, and the risk of atherosclerosis in both observation groups is serious.

Daxil olub: 16.08 2018

РОЛЬ И СОСТОЯНИЕ ИММУННОЙ СИСТЕМЫ ПРИ ЗАБОЛЕВАНИЯХ ЩИТОВИДНОЙ ЖЕЛЕЗЫ

Р.М. Агаев, Ф.Х. Саидова, Ф.Г.Садыхов
Научный центр хирургии им.М.А. Топчибашева

Açar sözlər: qalxanvari vəzi xəstəlikləri, immun sistem, autoimmun tireodit, autoimmun tireotoksikoz
Ключевые слова: заболевания щитовидной железы, иммунная система, аутоиммунный тиреоидит, аутоиммунный тиреотоксикоз
Keywords: thyroid diseases, immune system, autoimmune thyroiditis, autoimmune thyrotoxicosis

По современным представлениям, в этиопатогенезе заболеваний щитовидной железы ведущая роль принадлежит нарушениям иммунной системы. По данным [3], в настоящее время в соответствии с иммунными нарушениями к аутоиммунным заболеваниям щитовидной железы относятся: 1) аутоиммунный тиреотоксикоз (болезнь Грэвса, Базедова, Парри); 2) аутоиммунный тиреоидит (тиреоидит Хашимото); 3) хронический фиброзный тиреоидит (тиреоидит Риделя); 4) лимфоцитарный тиреоидит детского и юношеского возраста; 5) послеродовый тиреоидит; 6) бессимптомный тиреоидит; 7) атрофический тиреоидит (идиопатическая микседема). К заболеваниям щитовидной железы со вторичным иммунным ответом относятся: 1) подострый тиреоидит; 2) нетоксический зоб.

Аутоиммунное поражение щитовидной железы включает ДТЗ и аутоиммунный тиреоидит со всеми его вариантами. Другие заболевания щитовидной железы аутоиммунными не являются, однако развитие их может сопровождаться иммунологическими нарушениями [1,2,3].

Избыточная выработка гормонов при ДТЗ обусловлена стимуляцией рецепторов для тиреотропина, расположенного на поверхности тиреоцигов, антителами, известными под названием тиреостимулирующих. Клиническая картина при аутоиммунном тиреоидите зависит от действия цитотоксических или блокирующих антител. Имеется ряд общих моментов между этими формами поражения щитовидной железы. Оба заболевания нередко встречаются в одних и тех же семьях. Имеются сообщения о наличии близнецов, один из которых страдал болезнью Грэвса, другой тиреоидитом Хашимото [4]. Более того, в одном и том же препарате щитовидной железы могут быть обнаружены изменения, характерные для обоих заболеваний, и клиническая картина при этом зависит от преобладания одного из них [1,5,6].

По мнению большинства исследователей, имеется генетическая предрасположенность к возникновению аутоиммунного тиреоидита. Исследования близнецов свидетельствуют о наличии между ними конкордантности по тиреоидиту Хашимото [7,8]. Тиреоидит значительно чаще встречается в отдельных семьях, а антитела к компонентам ткани щитовидной железы обнаруживаются более чем у половины родственников пациентов без клинических проявлений заболевания [9,10]. Ряд исследователей считают. что основным нарушением, ведущим к развитию аутоиммунного поражения железы, является генетически обусловленное нарушение функции Т-клеток-супрессоров [3,7,9].

Другие авторы предложили гипотезу о патогенезе аутоиммунного тиреоидита, в соответствии с которой основным фактором, необходимым для возникновения ДТЗ, следует считать генетически обусловленные, связанные с системой HLA, органоспецифические нарушения функции Т-лимфоцитов-супрессоров. Разрешающими факторами являются условия внешней среды (стресс, инфекционные заболевания, лекарственные препараты, травма и др.), которые ведут к дальнейшему ухудшению функции Т-супрессоров. В результате ослабевает супрессорное влияние их на Т-хелперы. В присутствии моноцитов и специфического антигена эти Т-хелперы продуцируют уинтерферон, а также стимулируют В-лимфоциты к выработке тиреостимулирующих антител. Тиреостимулирующие антитела подобно тиреотропному гормону (ТТГ) стимулируют рецепторы для ТТГ, приводя к увеличению выработки тиреоидных гормонов и повышению экспрессии антигенов щитовидной железы, у-интерферон вызывает экспрессию HLA на поверхности клеток щитовидной железы, что также приводит к возможности для тиреоцита напрямую представлять антиген Т-хелперам, вызывая дальнейшую их активацию. Круг замыкается. Т-клетки-супрессоры, патологии которых отводится ведущая роль в патогенезе аутоиммунных поражений, изучались многими исследователями [10,11,12]. Основная функция Т-супрессоров заключается в контроле за величиной клона антителопродуцирующих клеток, за длительностью синтеза ими иммуноглобулинов и обеспечении толерантности [4,13,14]. Данные, полученные авторами, противоречивы. В то время как большинство

исследователей отмечают снижение количества Т-супрессоров и изменение соотношения между супрессорными и хелперными лимфоцитами в пользу последних, некоторые исследователи не выявили каких-либо существенных отклонений количества Т-супрессоров [16,17,18]. Причины этих расхождений могут быть различными. Во-первых, сложные, зачастую недостаточно точные методы определения супрессорных клеток; лишь в последние годы использование моноклональных антител в качестве стандартного метода позволили сделать методику их определения более точной и результаты, получаемые в различных лабораториях, сопоставимыми. Во-вторых, по мнению авторов /19, 20/, количество супрессорных клеток может изменяться в зависимости от стадии заболевания.

Данные литературы об изменении иммунного статуса больных ДТЗ неоднозначны. Одни авторы указывают на снижение содержания Т-клеток, их функциональной активности и одновременное повышение уровня В-лимфоцитов [2,19,20], снижение фагоцитоза, нарушение соотношения содержания Т-хелперов и Т-супрессоров. Отмечается, что длительность течения болезни при ДТЗ не влияет на степень нарушений иммунологической реактивности организма [7,11,12]. Результаты исследований авторов показали, что относительное содержание Е-РОК в крови больных ДТЗ меньше, чем у здоровых лиц. А.В. Епишин [14,15] наблюдал снижение числа Е-РОК при усилении степени тяжести заболевания. Однако другими авторами не выявлено Т-лимфоцитопении у больных тиреотоксикозом и связи содержания Е-РОК с выраженностью болезни [16,17]. Не обнаружено также различий Е-РОК у больных с положительным и отрицательным результатами поглощения I^{131} щитовидной железой. По данным ряда авторов [17,18,19], подсчет 0-лимфоцитов показал значительное увеличение их количества у больных с ДТЗ, что свидетельствует об угнетении функции Т-супрессоров.

Оценки разных авторов гуморального иммунитета у больных ДТЗ противоречивы. Так, В.А. Привалов [16] отмечает, что содержание иммуноглобулинов у больных ДТЗ было нормальным и не менялось в ранние сроки после начала лечения, а у больных с выраженным тиреотоксикозом снижена концентрация IgG, IgA и IgM. По данным других авторов [10,11,12], содержание В-лимфоцитов, IgG и IgM у больных тиреотоксикозом повышено. С учетом факта, что основные классы иммуноглобулинов являются одними из носителей аутоантител, повышенный уровень IgG и IgM можно рассматривать как достоверный показатель активности аутоиммунных процессов [12]. Данные А.В. Епишина [13] также свидетельствуют о повышении в крови больных ДТЗ содержания IgG и IgM, выявлена прямая связь их содержания со степенью тяжести тиреотоксикоза. В.А. Мишагин [4] обнаружил повышение у больных ДТЗ содержания IgA и IgM. Однако концентрация иммуноглобулинов не коррелировала с тяжестью тиреотоксикоза ни по клиническим данным, ни по концентрации Тч и T_4.

Антитела, которые входят в состав циркулирующих иммунных комплексов (ЦИК), принадлежат в основном к классам IgG и IgM. По данным ряда исследователей [14,16,17,18], у больных с ДТЗ средней тяжести содержание ЦИК было повышено в 2 раза, с тяжелой формой - более чем в 3 раза. Соответственно повышен уровень IgG и IgM. Степень повышения содержания ЦИК в сыворотке крови зависела также от степени увеличения щитовидной железы [19,20]. Очень высокое содержания ЦИК выявлено у больных ДТЗ с увеличением железы до 3-4 степени.

Изучение у больных зобом Хашимото Т-системы иммунитета выявило снижение в крови Т-лимфоцитов [3,10,11,12]. При тиреоидите Хашимото гораздо реже, чем в гипертиреоидной стадии ДТЗ, обнаруживали снижение числа Т-лимфоцитов, Т-супрессоров. Гипертиреоидное состояние при аутоиммунном тиреоидите, подобно ДТЗ, характеризуется снижением содержания общих Т-лимфоцитов [1,8,12], хотя ряд авторов не только не обнаружили снижение [5,6], а наоборот, даже указывают на повышение уровня Т-клеток при аутоиммунном тиреоидите [7].

Нет однородности и оценок состояния В-клеток при аутоиммунном тиреоидите. Одни исследователи наблюдали повышение содержания В-лимфоцитов в сыворотке крови у больных зобом Хашимото [3,4,8,15], другие - снижение [2], а третьи не отмечали вообще каких-либо сдвигов в их содержании [4].

При изучении основных классов иммуноглобулинов сыворотки крови у больных аутоиммунным тиреоидитом Хашимото большинство исследователей [4,8,11,12,15,] обнаружили увеличение содержания IgM и IgG и незначительное снижение IgA [1,2,3,4].

Имеющиеся в литературе сообщения о состоянии иммунной системы у больных узловым и многоузловым эутиреоидным зобом единичны и носят противоречивый характер [5,6,7]. У таких больных выявлено увеличение абсолютного количества В-лимфоцитов, снижение количества Т-лимфоцитов, имеется тенденция к увеличению уровня сывороточного IgM.

